sayılabilecek kadar bir süre sonra birçok fatihin yapmak isteyip yapamadığı şeyi yapması; Ortaçağın en uzun ömürlü ve en büyük imparatorluğu olan Bizans'ı ortadan kaldırıp, başkentini kendine başkent yapabilmesi ve onun bütün topraklarında egemen olması çok daha öne çıkan bir gerekçe olmalı. Nihayet iki asır içerisinde bütün siyasi rakiplerini bertaraf edip, bulunduğu coğrafyanın uzun asırlar boyunca tek hakimi olması, üstelik bu hakimiyet kavramı içerisinde çok dinli ve çok uluslu bir yapıyı barındırması ise en önemli gerekçe olmalıdır.

Bütün bu ilgi ve gerekçeler Osmanlı tarihi ile ilgili, öncelikle Batı'da olmak üzere, muhtelif çalışmaların yapılması sonucunu doğurmuştur. Fakat kuruluş devirlerine ait yeterli, yaşananları ve yapılanları açıklayıcı kaynakların bulunmaması bütün bu çalışmalar için bir tartışma ve yorum alanını da beraberinde getirmiştir. Her devrin tarihçisi kendi zamanının anlayışı, ilgileri ve beklentileri doğrultusunda tarihini yazarken, tartışmaları bir şekilde sonraki devre nakletmiştir.

Her ne kadar günümüz tarihçileri geçmiş tarihçilerden farklı olarak, tarih biliminin gerektirdiği modern metotları kullanarak, tarihe ait bir takım sis perdelerini ortadan kaldırıp, bilinmeyen ve merak duygumuzun merkezini oluşturan hadiseleri açığa çıkarmaya çalışsalar da (ki bu alanda çok mesafe kat edildiğini kabul etmeliyiz) Osmanlının kuruluş devirlerinin efsanelerden arındırılıp, aydınlığa kavuşturulduğunu söylemek henüz mümkün görünmemektedir. Öyle anlaşılıyor ki kuruluş devrinin uzun asırlar kutsallaştırılmış, sonra tartışılır düzeye indirgenmiş efsaneleri, menkıbeleri sonraki nesil tarihçilerinin de ilgi alanı olma özelliğini sürdürecektir.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# FOLKLOR DÜNYASININ CIĞATAY (ÖZBƏK) FƏSLINDƏ DASTAN JANRI VƏ AZƏRBAYCAN FOLKLORŞÜNASLIĞINDA TƏDQIQI

***ALMAZ ÜLVİ (BINNƏTOVA)***

Böyük filosofların sözüdür ki, şifahi xalq ədəbiyyatında əksər məqamlarda milliyyət və coğrafi məkan sərhədsiz olur. Məhz bu cür bəşəri mahiyyət daşıdığından folklor nümunələri əsrlər boyu cilalanır, yaşayır. Dünya xalqlarının folklorunda olduğu kimi, cığatay (özbək) folkloru da epos janrında olan əsərlərlə-dastanlar, epik poemalar, əfsanələr, nəğmə və bayatılar, atalar sözləri vasitəsilə inkişaf etmiş və yazılı ədəbiyyatın yaranışına qədər böyük tarix yaşamışdır. Xalq ruhunun, milli adət-ənənənin, xalq həyatının, təfəkkürünün daşıyıcısı olan bu əsərlər tarixi ədəbi faktlardır. Sadə xalq həyatını ağırlaşdıran və təqiblərə məruz qoyan zülmkar bəylər, xanlar Nəsrəddin Əfəndinin satirik novellaları, lətifələri ilə acı gülüş hədəfinə çevrilmişdir. Folklorun bir gözəlliyi və tarixiliyi də ondadır ki, burada qəhrəmanlıq həmişə düşmənə qalib gəlir. Bu mənada qədim cığatay (özbək) folkloru nümunələrindən «Goroğlu» və «Alpamış» dastanlarını da qeyd edə bilərik. Cığatay (özbək) qəhrəmanlıq dastanlarının ən mükəmməl nümunəsi «Alpamış» dastanıdır. Alpamış adlı xalq qəhrəmanının xarici işğalçılara qarşı mübarizəsi əsərdə iki hissə daxilində təsvir edilmişdir. Birinci hissədə qəhrəmanın gənclik sevdası-nişanlısının dalınca getməsi, rəqibləri ilə yarışması və evlənməsi kimi mənəvi-estetik yaşantılar nəğmələnib, ikinci hissədə isə qəhrəmanın zülmkar Tayçaxana qarşı yürüşü zamanı hiyləyə düşərək əsir alınması və müxtəlif sərgüzəştlərdən sonra qələbə ilə Vətənə qayıtması dastanın süjet xəttini təşkil edir. «Alpamış»ın ən mükəmməl variantı 1939-cu ildə cığatay (özbək) folklorçusu Fazil Yoldaşoğlunun söyləməsində qələmə alınmışdır. İstər «Goroğlu», istərsə «Alpamış», istərsə də digər dastanlar xalq yaradıcıları tərəfindən əsrlər boyu təkmilləşdirilmişdir. Bu əsərlərdə ali təfəkkürdən doğan aforizmlər, aydın metaforalar, gözəl təbiət təsvirləri və ən başlıcası, cığatay (özbək) dilinin zənginliyi diqqətdə dayanan başlıca cəhətlərdir. «Yusif və Əhməd» feodal cəngavərlik dastanı, «Şeybani Xan» tarixi dastan, «Zəvar xan», «Gündoğmuş», «Şirin və Şəkər», «Arzugül», «Rüstəm xan» kimi aşiqanə və əfsanəvi-qəhrəmanlıq dastanlarının adlarını bu sırada çəkə bilərik.

Müasir dövr ədəbiyyatşünaslığında müxtəlif xalqların (təbii ki, türkdilli xalqlar nəzərdə tutulur) ədəbi–bədii əlaqələri ilə yanaşı folklor əlaqələri də elmi mövzu olaraq işlənmişdir. İndi «Qutadqu bilik»də, «Divani lüğəti-it-türk»də və s. qədim tarixi–yazılı ədəbi abidələr də Azərbaycan dilinə, eləcə də digər türk dilləri qrupuna aid xalqların ədəbi dilinə uyğunlaşdırılmışdır. Azərbaycan-cığatay (özbək) folklor əlaqələrindən danışmaq ayrı bir mövzudur. Bu mənada Azərbaycan folklorunun Özbəkistanda, cığatay (özbək) folklorunun Azərbaycanda, eləcə də qarşılıqlı folklor əlaqələrinin müasir dövrümüzdə öyrənilməsi məsələsinə bəzi nümunələr müstəvisində qısaca da olsa diqqət yetirək.

Folklorçu alim Azad Nəbiyevin "Azərbaycan-özbək folklor əlaqələri" (1) monoqrafiyasının adını xüsusi ilə diqqətə çəkmək lazımdır. İki qardaş xalqın folklor əlaqələrinin geniş şəkildə öyrənilməsində, şübhəsiz ki, elm üçün əhəmiyyətli olan bir sıra məsələlərin araşdırılmasında, bu xalqların daha qədim dövrlərlə bağlı ədəbi və mədəni əlaqələrinin tədqiqində Azad Nəbiyevin monoqrafiyası aktual addımdır. Azərbaycan-cığatay (özbək) folklor əlaqələri geniş bir dövrdən bəhs etdiyi kimi, çox zəngin folklor materiallarını da əhatə edir, bu kitabda isə həmin materialların müəyyən qismindən danışılır. Kitabın məzmunu üç hissədə oxucuya təqdim olunmuşdur – "Azərbaycan-özbək folklor əlaqələri tarixindən", "Azərbaycan-özbək folklorunda janrlar sistemi" və "Azərbaycan- özbək folklorunun bədii xüsusiyyətlərinə dair". Qeyd etdiyimiz bu fəsilləri müəllif üç inkişaf mərhələsinə ayıraraq şərh etmişdir: 1. İbtidai folklor yaradıcılığı. 2. Əsatir dövrü və orta əsr folklor yaradıcılığı. 3. Yeni dövr folklor yaradıcılığı. Monoqrafiya haqqında professor Qulu Xəlilovun "Əlaqələrin tədqiqi"(2) və tədqiqatçı alim İmadəddin Zəkiyevin "Dostluq əlaqələrindən" (3) adlı məqalələri müxtəlif mətbuat səhifələrində dərc edilmişdir. Əsərdə Azərbaycan- cı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ədəbiyyatının müxtəlif janrları zəngin faktik materiallar əsasında elmi yaradıcılıq süzgəcindən keçirilmişdir. Azərbaycan- cığatay (özbək) folklor əlaqələrinin əsas amillərindən sayılan iki xalqın folklor süjetlərində tarixi birliklə bağlı ümumilik məsələsi təhlil olunmuşdur. Qulu Xəlilov yazır ki, "müəllif qarşısına çətin, lakin maraqlı bir vəzifə qoymuşdur: “Azərbaycan-cığatay (özbək) xalqlarının ədəbi-tarixi əlaqələrində bu qədər yaxınlıq, oxşarlıq, bir-birinin mədəniyyətinə, mənəviyyatına güclü təsiri olduğu halda, hər iki xalqın şifahi ədəbiyyatında, folklorunda vəziyyət necədir və həmin yaxınlığı araşdırmaq üçün hansı cəhətləri əsas götürmək gərəkdir?" (2). Monoqrafiya müəllifi qarşısına qoyduğu məsələləri tarixi ardıcıllıqla elmi şəkildə araşdırmış, tədqiq etmişdir. Azərbaycan və rus dillərində nəşr olunmuş bu monoqrafiyanı istər Azərbaycanda, istərsə də Özbəkistanda mütəxəssislər yüksək qiymətləndiriblər.

«Azad Nəbiyev hər iki xalqın əlaqələrindəki yaxınlığın tarixini lap qədimlərdə axtarır və göstərir ki, doğrudan da xalq yaradıcılığı xalqın tarixi qədər qədimdir və onun ilk ünsürlərini xalqların həyati ehtiyacında, varlığında axtarmaq təbiidir. Xüsusi ilə müəllifin türkdilli xalqların müxtəlif ictimai-siyasi səbəblər üzündən parçalanmasına və tarixi prosesin gedişində dil, adət, ənənə, həyata baxış və s. kimi milli və oxşar xüsusiyyətlər kəsb etməsinə dair gətirdiyi faktlar aktualdır. Şifahi xalq yaradıcılığının yaranmasına səbəb olan amillərdən bəhs edərkən tədqiqatçı haqlı olaraq əməklə bərabər peşə məşğuliyyətini, sənəti də vacib sayır. Hər iki xalqın folklorunda sevgi, həsrət, iztirab hissləri də mühüm amillər kimi qələmə alınır və bu motivlər qarşılıqlı əlaqədə bir sıra faktlarla əsaslandırılır. Buna görə də müəllifin xalq yaradıcılığında simvollaşdırmaya, magikləşdirməyə, fetişizm və totemizmə aid gətirdiyi nəzəri mülahizələrin, maraqlı olsa da, bəzən faktlarla ətə-qana dolmasına ehtiyac duyulur» (2). Qulu Xəlilovun «Azərbaycan - özbək folklor əlaqələri» kitabı haqqında olan bu qeydlərinə toxunarkən, milli folklorların tədqiqində janrlar sisteminin öyrənilməsi kimi vacib problemlərdən də söz açmaq olar. Azad Nəbiyev bu məqamı tədqiq edərkən, Azərbaycan və cığatay (özbək) folklorundakı janrların iki əlamətdar xüsusiyyətindən söz açmışdır: «Əvvəla, müəyyən tarixi, ictimai-siyasi idarə üsulu zamanı yaranan qədim janrlar eyni etnik qrupa daxil xalqların sonrakı inkişafı bu yaradıcılıq prosesini bir növ fərdiləşdirdi. Milli yaradıcılığa uyğun olaraq janrlarda fərqlər özünü göstərdi. İkinci isə, janrların qarşılıqlı əlaqə və təsiri ilə yanaşı, yaxın ərazilərdə yaşayan xalqların folklor janrları qarşılıqlı əlaqə və təsirə məruz qaldı». (1, s.62-63)

Tapmacalar, oyunlar, sanamalar, yanıltmaclar, mövsüm-mərasim nəğmələri, nağıllar, inamlar, dastanlar, yuxuyozmaları kimi folklor nümunələrində Azərbaycan-cığatay (özbək) folklorunun qarşılıqlı əlaqə və təsiri məsələsi diqqətiçəkən faktlardır. Məsələyə bu baxımdan yanaşanda bəzi misallarla fikrə aydınlıq gətirə bilərik və qeyd edək ki, qarşılıqlı əlaqə və təsirlər, oxşarlıqlar milli həyat elementləri ilə seçilsə də, mahiyyət etibari ilə eynidir. Qeyd olunan məsələləri şifahi xalq ədəbiyyatına daxil olan «inamlar»da izləyək. İnamlar həyatımızın mühüm hissəsini təşkil edir. İnsanın sabaha, arzulara inamı olmasa, yaşaması mümkün deyil. Bu mənada xalq həyatından götürülmüş, əsrlərdən əsrlərə sınaqdan çıxmış inamlar folklor nümunəsi kimi həyatımıza, məişətimizə, ədəbiyyatımıza daxil olmuşdur. Bəzən görəcəyimiz işləri, baş vermiş hadisələri, xeyir-şər dolu problemlərimizi həftənin günləri ilə sınaqdan çıxarırıq. Belə inamların kökü qədimdən başlandığından bütün türk boylarında, o cümlədən Azərbaycan və cığatay (özbək) folklorunda da xalq inamları oxşar, bəzən də eynidir. Məsələn, bu kontekstdə Azərbaycan xalq həyatındakı inamlara bələd olduğumuzdan həftənin günləri ilə bağlı qədim cığatay (özbək) xalq inamlarına nəzər yetirək:

“Bazar ertəsi – evdən evə göçmək mübarəkdir, varlanar. Paltar biçmək pisdir. Göz səyriməsi, qulaq cingildəməsi xeyirdir. Səfərə çıxan namaz vaxtında çıxsın, ancaq gündoğan tərəfə getməsin, təhlükə ilə qarşılaşar. Qonaq getmək, qonaq çağırmaq pis deyil.

Çərşənbə axşamı – evdən evə köçən qəmdən qurtarar. Biçdiyi paltar odda yanar, özü xəstələnər. Göz səyrisə özünü qorumalıdır, qulağı cingildəyən sədəqə verməsə bəlaya tuş gələr. Səfərə çıxsa, ancaq günorta çıxsın, özü də quzeyə getməsin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çərşənbə günü - təzə evə daşınan bəlaya düçar olar. Paltar biçmək yaxşıdır, o paltarı geydikcə dövlət qazanar. Təzə paltar geymək uğur gətirər. Qulağı cingildəsə müjdə gələr, gözü səyrisə səfərə çıxar, ancaq səhər vaxtı çıxsın, özü də gündoğan tərəfə getməsin.

Cümə axşamı günü - təzə evə köçsə, qonağı gələr, təzə paltar biçsə, var-dövlət tapar. Təzə paltar geymək də çox yaxşıdır. Qulağı cingildəsə qonağı gələr, gözü səyrisə qonaq gedər, böyük adamlarla söhbət edər.

Adına (cümə) günü də - evdən evə köçmək yaxşı əlamətdir. Həmin adam üçün iki bəxt açılar: qəmsiz, kədərsiz olar. Paltar biçmək mübarəkbadlıqdır, ancaq həmin paltar oğurlanar. Təzə paltar geyinmək bəddir. Qulaq cingildəməsi xoş xəbərə, göz səyriməsi şadlığa əlamətdir. Səfərə ancaq ikindi vaxtı çıxmaq olar, gündoğana tərəf getmək məsləhət deyil.

Şənbə günü - təzə evə köçmək nəhsdir. Paltar biçmək mübarəkbadlıqdır. Təzə libas geyən izzətli və hörmətli olar.

Bazar günü – evdən evə getmək uğursuzluqdur: o evə oğru gələr. Paltar biçmək, geymək mübarəkbadlıqdır, ancaq tez köhnələr. Qulaq cingildəsə, göz səyrisə xeyirədir, qonaq gələr. Səfərə axşamüstü çıxmaq olar"(4,s.195-196).

Bu kimi xalq inamları, el deyimləri əsrlərdən bəri müdriklərimiz tərəfindən sınanmış, haqq qazanmış folklor nümunələridir. Ulu olduğu kimi, türk boylarında eyni ilə işlənməsi, sınanması da ulu ümid və hisslərə bağlıdır.

Özbək tədqiqatçısı Məqsudə Əbdülvahabova «Özbəkcə-Azərbaycanca folklor terminləri lüğəti» yazısında qeyd edir: «Yaxın və qardaş türk dillərin müxtəlif yöndəki lüğətlərinin hazırlanması diqqətəlayiq işdir. Bu mənada cığatay (özbək) və Azərbaycan folklor terminləri lüğətinin yaradılması ümumən elmi terminologiyanın inkişafına və zənginləşməsinə kömək edə bilər. Folklor terminləri lüğətini izahlı lüğət prinsipləri əsasında düzmək və yaratmaq daha münasibdir. Ümumi luğət prinsiplərinə müvafiq şəkildə 50-yə yaxın sözü oxuculara təqdim edirik: məsələn, əfsun-əfsun; əfsanə-əfsanə; bəxşi-1. bəxşi, aşıq, ozan: 2. xalq təbabətində türkaçarə yolu ilə müalicə edən həkim; dərviş-dərviş; dev-div; ertək-nağıl; dastan-dastan, göyəndə-ağıçı, ağı deyən, dömbirə-qopuz, saz, dömbirə; kəl-keçəl; keçəl-keçəl; laf-yalan; məkal-atalar sözü; mətəl-zərbi məsəl; məsəl-təmsil; karğış-qarğış; rivayət-rəvayət; semirq-simurq; termə-qoşma» və s (5, s.139-140).

Bu və bu kimi araşdırmalar əsas verir deyək ki, Azərbaycan - cığatay (özbək) ədəbi əlaqələri daim aktual elmi mövzu olaraq ədəbiyyatşünaslığın, folklorşünaslığın nəzərində, diqqətindədəir. Hər yeni tədqiq bəlkə də bu iki xalqın folklorunu yenidən bir məcrada birləşdirəcəkdir. Göründüyü kimi, sözlər arasında o qədər ayrılıq, bənzərsizlik yoxdur. Sadəcə, rus imperiyası cığatay (özbək) əlifbasının başına açdığı oyunlar ilə müəyyən anlaşılmazlıqlar yaradıb. Hərflərin oxunuş qaydalarına bələd olduqdan sonra bu dillərin nə qədər yaxın və oxşar olduğuna şübhə qalmır. Bir sözlə, «Alpamış», «Goroğlu», «Şeybani Xan» kimi qəhrəmanlıq dastanları, «Leyla və Məcnun», «Tahir və Zöhrə», «Fərhad və Şirin» kimi eşq əfsanələri, atalar sözləri, türkülər, ağılar, sayaçı sözlər, tapmacalar və s. bu kimi xalq ədəbiyyatı nümunələri baxımından cığatay (özbək) xalq ədəbiyyatı ilə digər türk boyları arasında böyük bənzərlik vardır. Mətnşünas, nəvaişünas alim Cənnət Nağıyeva qeyd edir ki, XY əsr nümunələrini-dahi Nəvainin və dahi Füzulinin əsərlərini orijinal nüsxədən oxuyanda heç bir söz və məna ayrılığı görünmür (6,s.114). Böyük türk dünyasının eyni ədəbi dilində yazan bu dahilərin türk dünyasına məxsus şəxsiyyət olduğunu görürük.

Şifahi xalq yaradıcılığının bədii təcəssümü olan nağıllarda xalq həyatının adət- ənənələri, kəşməkəşli həyatı, sadə xarakteri, ağalar və bəylər dünyasına qarşı kəskin etirazı, bütün milli xüsusiyyətlərini qoruyub saxlayan zəngin məişət həyatı dolğun bədii lövhələrlə, yaddaqalan epizodlarla maraqlı süjetlərdə öz əksini tapır. Cığatay (özbək) xalq nağılları da məhz belə bir məzmunda yaranmış , formalaşmış və bu günümüzəcən yaşamışdır. Azərbaycan – cığatay (özbək) folklor əlaqələri səhifəsindən danışarkən Azərbaycan dilində nəşr olunmuş «Üç qardaş», «Özbək nağılları», «Özbək xalq nağılları» kitablarını da qeyd etmək istərdim. «Üç qardaş» da bir nağıl (tərcümə Q. Musayevindir), «Özbək nağılları»nda- «Tərs dovşə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

«Hiyləgər tülkü», «Lovğa dovşan», «Tülkü və hacıleylək», «Əhməd və şah», «Canavar və tülkü», «Sehirli daş ahənrüba», «Ac canavar», «Ağıllı eşşək», «Çox bilənə zaval yoxdur», «Quyruqsuz tülkülər, «Doğru və əyri», «Cızz nə deməkdir», «Xoş avazlı bülbül», «Qazı və muzdur», «Axmaq padşah», «Vur, çomağım, vur! », «Hüsnabad», «Üç bilici qardaşın nağılı», «Qəşəng sözlər seli» adlı-21 nağıl Ağababa Rzayevin tərcüməsində nəşr olunmuşdur. Eyni tərcümədə nəşr olunan «Özbək xalq nağılları» adlı digər irihəcmli kitaba Azad Nəbiyev «Qardaş xalqın nağıl dünyası» adlı geniş elmi məzmunda ön söz yazmışdır. Əvvəla qeyd edək ki, əvvəlki kitabdakı nağıllarla yanaşı burada «Müsafir bəy», «Min hörük», «Atın-oy», «Ziyad Batır», «Mərd dost Qeyrət», «Fərhad və Şirin» adda-bütövlükdə 50 nağıl verilmişdir. Professor Azad Nəbiyev “Ön söz”ündə cığatay (özbək) xalq nağılları haqqında-tarixiliyini, milli element zənginliyini, mövzu və məzmununu, siyasi - mənəvi və iqtisadi, ictimai, fəlsəfi dəyərlərini tədqiqatçı nəzərləri ilə kifayət qədər əhatəli şərh etmiş və elmi dəyər vermişdir. «Dünya xalqlarının nağıl yaradıcılığında olduğu kimi, özbək nağıllarında da xeyirlə şərin mübarizəsi başlıca leytmotivdir. Lakin bu mübarizəni peşəkar özbək nağılçıları məhz özlərinə məxsus milli bədii ornamentlərlə elə məharətlə işləmişlər ki, bu təbii ornamentlər yalnız özbəklərə məxsusdur, peşəkar özbək baxışı və nağılçısının bədii təfəkkürünün məhsuludur. Bu bədiiliyin arxasında əsrlərlə böyük məhrumiyyətlər içərisində yaşamış, harın xaqanlara, quduz padşahlara qanlı qurbanlar vermiş, susuz səhralara həyat gətirmiş, öz əməyi, alın təri ilə bu gün, yeni dünya qurmuş, azadlıq səsi və nəğməsi ilə aləmdə şöhrətlənmiş özbək xalqı dayanmışdır» (7,5). Azad Nəbiyev tədqiqatlarında yeri gəldikcə, cığatay (özbək) folklorşünaslarının da fikirlərinə toxunmuş və onları öz elmi qənaətləri ilə ümumiləşdirmişdir. Məqalə müəllifi cığatay (özbək) nağıllarını–ilk folklor nümunələrini toplayıb nəşr etdirənlər sırasında ehtiramla xatırlanan görkəmli özbək folklorşünası Hadi Zərifovun adını xüsusilə qeyd etmişdir. "Hadı Zərifov məşhur professor, folklorçu idi. O, Azərbaycanla, Bakı ilə yaxından bağlı idi. Tez-tez respublikamıza gələr, mədəni tədbirlərimizdə iştirak edərdi. Bunlar təsadüfi deyildi. Çünki Hadi Zərifovu 1923-cü ildə Türküstan SSR Xalq Maarif Komissarlığı Bakıya göndərmişdi. O, Bakıda 1926-cı ildə Darülmüəllim seminariyasını bitirmişdir. Bununla da Hadi Zərifov ömrü boyu Azərbaycan alimləri ilə əlaqə saxlamışdır. Hadi Zərifov Azərbaycan folklorundan xeyli materiallar toplamış, dilimizi öyrənmişdir. Görkəmli folklorçu, dilçi, lüğətçi alim olan Hadı Zərifov bütün həyatı boyu yazdığı əsərlərdə Azərbaycan mənbələrindən, onun tarixindən, folklorundan faydalandığını göstərmiş, akademiklər H. Araslı, M. Şirəliyev və başqaları ilə dostluğundan bəhs etmişdir"(7,6). Daşkənddəki Özbəkistan EA Dil və Ədəbiyyat İnstitutunda folklor şöbəsinin müdiri, folklorşünas alim Tura Mirzəyevin 1967-ci ildə nəşr olunmuş "Hadi Zərifov" (8) adlı kitabında folklorçu alimin həyat və yaradıcılığı haqqında müfəssəl yazılmışdır. Tura Mirzəyev ikinci-"Alpamış" dastanının özbək variantları" monoqrafiyasında da türkdilli xalqlardan, o cümlədən, Azərbaycan dastan yaradıcılığından, ilk növbədə, "Koroğlu" haqqında bəhs etmişdir. Kitabın redaktoru Hadı Zərifovdur. Özbəkistanın "Fan" nəşriyyatında çapdan buraxılmış "Xalq baxışlarının epik repertuarı" adlı üçüncü monoqrafiyasında da Tura Mirzəyev Azərbaycan xalq dastanlarından geniş bəhs etmişdir.

Əldə olunmuş tədqiqat yazılarından məlum olur ki, institutun folklor bölümündə çalışan alimlərin çap etdirdikləri kitablarda yeri gəldikcə, Azərbaycan folklorundan, Azərbaycan alimlərindən, onların tədqiqatlarından misallar çəkilir, dilimizin, ədəbiyyatımızın cığatay (özbək) dili və ədəbiyyatı ilə müqayisəsi verilir. Azərbaycan dilini, ədəbiyyatını, folklorunu gözəl bilən folklorçu alim S. Bahadurun "Özbək ədəbiyyatında vəzn", yenə də məşhur özbək folklorçusu A. Sabirovun folklora dair maraqlı tədqiqat kitabları, - "K. Yaşen və folklor", "Yazıçıların yaradıcılığında folklor", "Özbək realist nəsri və folklor"və s. - tədqiqatçılara yaxşı tanışdır. Adı çəkilən kitablarda müəlliflər Azərbaycanla, onun yazılı və şifahi ədəbiyyatı ilə bağlı materiallardan kifayət qədər istifadə etmişlər. Folklorçu A. Sabirovun qeydinə görə, "Fərhad və Şirin", "Bəhram Gur" və başqa dastanlar Nəvai vasitəsi ilə Nizami dühasının Özbəkistanda daha geniş faydalandığını təsdiq edən faktlardır. Belə faktlar, fikrimizcə, kifayət qədər çoxdur və heç şübhə etmirik ki, bu qədər məhəbbət varsa, demək Azərbaycan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

oxucularına tanışdır. Qeyd olunan bu məsələlər barədə 1985 – ci ildə Daşkənddə Özbəkistan EA Dil və Ədəbiyyat İnstitutunda «Klassik Azərbaycan şeiri (XİX-XX əsrin əvvəlləri) və şifahi xalq ədəbiyyatı» mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş professor Əli Saləddin geniş yazmışdır (9). Daşkənd Əlyazmalar İnstitutunun muzeyinin folklor salonunda cığatay (özbək) folkloru ilə yanaşı Azərbaycan folkloru nümunələri də-"Koroğlu", "Nağıllar", "Dastanlar" və s. vardır.

Tənqidçi Məhəmmədəli Kuşmakov yazır: "Neçə illərdir cığatay (özbək) xalq folkloru ilə əlaqədar dissertasiya üzərində işləyirəm. Burada Azərbaycan xalq folkloru nümunələrinə də çox müraciət etmişəm. Azərbaycanlı həmkarlarım Pənah Xəlilov, Vaqif Vəliyev, Qulamhüseyn Əliyev, Azad Nəbiyev bu işdə mənə çox kömək göstəriblər. … Mirzə Şəfi Vazeh şeirlərini özbək oxucularına tərcümə etmişəm. Mirzə Şəfi Vazeh mənimlə Azərbaycan ədəbiyyatı arasında məhəbbət körpüsü olub, məni Azərbaycan folkloru ilə yaxından tanış olmağa sövq edib. Məhz bunun nəticəsidir ki, Azərbaycanın şifahi xalq poeziyasını orijinaldan tərcümə etmək istəyirəm" (10). Bu mövzuda danışarkən, "Ədəbiyyat və incəsənət"də dərc olunmuş "Alim və tərcüməçi" adlı məqalədə (11) bəhs olunan məsələyə diqqət yetirək. Müəllifin qeydinə görə, "Azərbaycanda Sovet hakimiyyətinin qələbəsinin ilk illərində ədəbiyyatşünaslığın və dilçiliyin inkişafı yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdən biri də Xalid Səid Xocayev olmuşdur. Milliyyətcə özbək Xalid Səid Xocayev 1888-ci ildə Çirçik şəhərində doğulmuşdur. Daşkənd mədrəsəsində təhsil alan Xalid Səid Xocayev sonra İstanbulda – əvvəl tibbdə, sonra isə filologiya fakültəsində təhsil almışdır. 1918-ci ildə Türküstana – vətəninə qayıdarkən yolüstü Bakıda dayanan Xalid Səid Xocayev taleyin qisməti ilə ömürlük bu şəhərdə qalmalı, yaşamalı olur. O, Talışınskilərin qızı ilə (Sara xanımla) evlənir və burada pedaqoji fəaliyyətə başlayır. Eyni zamanda dilçiliyə dair elmi tədqiqat əsərləri ilə mətbuatda çıxış edir. O, dilçi şərqşünas kimi də tanınırdı" (11). Professor Bəkir Çobanzadə isə 1935-ci ildə onun haqqında yazmışdır: "X. S. Xocayev ixtisaslı linqvist şərqşünaslardan biridir. O, təkcə türk dillərini deyil, ərəb, fars, cığatay (özbək) dilləri ilə yanaşı rus dilini də gözəl bilir. Onun on dörd elmi əsəri vardır. Xalid Səid Xocayev Mahmud Kaşğarlının məşhur "Divani lüğət-it-türk"ünü tərcümə etmişdir» (11). (Qeyd edək ki, həmin tərcümənin əlyazma nüsxəsi AMEA Dilçilik İnstitutunun elmi arxivindədir). Tanınmış cığatay (özbək) alimi Hadi Zərifin vaxtilə Bakıda təhsil almasına səbəbkar olan Xalid Səid Xocayev onlarla özbək gəncini Bakı ali məktəblərinə dəvət edibdir.

Türkdilli xalqlar ədəbiyyatının qərb dünyasında (Azərbaycan, Türkiyə və s.) qəhrəmanlıq dastanı kimi məşhur olan «Koroğlu»su (kor kişinin oğlu) Şərq dünyasında (türkmən, cığatay (özbək), qazax və s. ) «Goroğlu» (qəbirdə doğulan oğlan) adıyla təqdim olunur. «Goroğlu» adı isə belə yaranmışdır: hamilə qadın ölür və o, dəfn olunur. Ölmüş ananın bətnindəki uşaq qəbrdə doğulur. Doğulan körpəyə madyan (bəzi türksoylu mənbələrdə keçi) süd verir. Ölü anadan doğulan oğlanın qəhrəmanlığı nağıl-dastanların dili ilə söylənilir. Bu əsər 40-dan çox romantik-qəhrəmanlıq nağıllarından, romantik macəralardan ibarətdir. Bunlardan 30 dastan qələmə alınmış və nəşr olunmuşdur. Özbək şifahi xalq ədəbiyyatı bilicilərindən Erqaş Cümənbülbüloğlu, Pulkan Şair, Fazil Yoldaşoğlu və İslam Şairin adlarını xüsusilə qeyd etməliyik.

<u>Cığatay (özbək) dastan biliciləri:</u> Erqaş Cümənbülbüloğlu (1870-1937) istedadlı cığatay (özbək) xalq şairlərindən biridir. O, 1868-ci ildə hazırda Nurata adlanan yerin Kurkan qışlağında anadan olmuşdur. Erqaşın atası Cümən və onun əmiləri Cassaq və Yarləqəb məşhur şairlərdən olub, xalq arasında böyük hörmət qazanmışdılar. Erqaş çox ağır həyat keçirmişdir. O vaxtki ictimai quruluşun təsiri altında şair tamamilə yoxsul vəziyyətə düşmüş, buna görə də yaşadığı qışlağı tərk etmək məcburiyyətində qalmışdır. Xalq ədəbiyyatının mahir bilicisi Erqaş Cümənbülbüloğlunun yazıya köçürdüyü «Gündoğmuş» dastanı lirik-fəlsəfi məzmunu ilə daim diqqət mərkəzində olmuşdur. Bundan başqa «Əlibəy və Balibəy», «Rövşənxan», «Gündüzlə ulduz», «Qızcıbəy» dastanları da onun qələmində yazıya köçürülmüşdür. Erqaş Cümənbülbüloğlu repressiya qurbanlarındandır, o, 1937-ci ildə həbs olunmuş və güllələnmişdir.

Fazil Yoldaşoğlu 1872-ci ildə Bulunğur rayonunun Layçə qışlağında yoxsul ailədə doğulmuşdur. Beş yaşından atasını itirən Fazil 19 yaşına qədər bəyl

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

yerli şairlərdən Yoldaş, Köldaş və Suyarla dostlaşıb onlardan şairlik sənətini öyrənmişdir. Fazil Yoldaşoğlu görüb-keçirdiyi hadisələri öz yaradıcılığında əks etdirmişdir. O, «Cizzəx tətili», «Mətkərim pəhləvan» poemalarının müəllifi kimi şöhrət qazanmışdır. Onun cığatay (özbək) ədəbiyyatı qarşısındakı xidmətlərindən biri folklor nümunələrini-dastanları, nağıl və rəvayətləri yazıya almasıdır. Onun söyləməsi ilə 30-a qədər əsər-şifahi xalq ədəbiyyatı nümunəsi yazıya alınmışdır. Fazil Yoldaşoğlu 1955-ci ildə vəfat etmişdir.

İslam Şair Nəzər oğlu 1874-cü ildə indiki Səmərqənd vilayətinin Narpəy rayonunun Ağdaş qışlağında çoban ailəsində doğulmuşdur. O, heyvandarlıqla məşğul olan atasına kömək etməklə yanaşı, səkkiz yaşından çalıb-oxumağa başlamış və məşhur Ernəzər Şairə şagird olmuşdur. Ernəzər Şair ustadlığını əsirgəmədən qəhrəmanlıq dastanlarını öz şagirdinə öyrətmişdir. Məsələn, İslam Şair «Xalbekə», «Gündoğmuş», «Alpamış», «Arzugül», «Rüstəm», «Şirin və şəkər», «Gündüzlə Ulduz» və başqa dastan və qoşmaları öz ustadından öyrənmişdir. Ernəzər Şair öz şagirdini Cümənbülbül və bir sıra xalq şairləri ilə tanış etmişdir. O, 1953-cü ildə vəfat etmişdir.

Beləliklə, tədqiqata cəlb olunan materiallar və ortaya qoyulan məsələlər ətrafında aşağıdakı xülasələrə gəlmək mümkündür:

- Azərbaycan və cığatay (özbək) folklor (dastan) nümunələri arasındakı oxşar süjetlər və bənzər motivlər ədəbi əlaqə və ədəbi təsir amilindən daha çox onların ikisinin də eyni kökə, eyni ənənələrə, eyni ruh və dil birliyinə, bir sözlə, ümumtürk mənşəyinə bağlı olduğundan qaynaqlanır.

- Cığatay (özbək) folklorunun (dastanlarının) Azərbaycanda, eləcə də, Azərbaycan folklorunun Özbəkistanda öyrənilməsi, qarşılıqlı-müqayisəli təhlillər və araşdırmalar ədəbi ələqələrin zənginləşməsi ilə bir sırada, hər iki ölkədə folklorşünaslıq elminin inkişafına, onun üfüqlərinin genişlənməsinə təsir göstərməkdədir.

**Резюме**

В статье говорится об изучении узбекского фольклора в Азербайджане. Уделяется внимание вопросам перевода и публикации образцов узбекского фольклора в Азербайджане. А также исследование узбекского дастана в Азербайджане. В исследовании рассматриваются действительные факты об узбекских сказателях. В ней также анализируются фольклорные материалы, связанные с литературными общетюркскими дастанами и с их авторами.

**Ключевые слова:** фольклорные связи, эпос «Алпамыш», «Гороглу», Узбекистан, Азербайджан.

**Summary**

It's sroken about the study of Uzbek folklore in Azerbaijan in the article. An attention is raid to the questions of translation and publication of Uzbek folklore samples in Azerbaijan. The researsh of Uzbekistan folklore in Azerbaijan has also been considered. Connoisseurs and sculptures of Uzbek folklore. Minute literaru facts about connoisseurs of Uzbek folklore narrators stand as a main point of this research. Besides, the literary sculptures of all-Turkish world, detailed remarks about their authors also noted here.

**Key words:** folklore relations, "Allpamish", "Goroqlu", Uzbekistan, Azerbaijan.

**ƏDƏBIYYAT:**

1. Nəbiyev A. Azərbaycan-özbək folklor əlaqələri. Bakı: Yazıçı, 1978, 133 s.
2. Xəlilov Q. Əlaqələrin tədqiqi. "Ədəbiyyat və incəsənət", Bakı, 1979, 27 yanvar
3. Zəkiyev İ. Dostluq əlaqələrindən: A. Nəbiyev. "Azərbaycan–özbək folklor əlaqələri" monoqrafiyası haqqında // Ulduz, 1979, №11, s. 52-54.
4. Vəliyev K. Elin yaddaşı, dilin yaddaşı. Bakı: Gənclik, 1988. 280 s.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**5.** Əbdülvahabova M. Özbəkcə-azərbaycanca folklor terminləri lüğəti // "Dədə Qorqud", 2002. II. s. 139-140.
**6.** Ülvi A. Ədəbi duyğularım (portretlər, düşüncələr, qeydlər, söhbətlər). II kitab. Bakı:, 2008, 426 s.
**7.** Özbək xalq nağılları: tərcümə ed. A. Rzayev. Bakı: Azərnəşr, 1987, 236s.
**8.** Mirzəyev T. Hadi Zərifov. Daşkənd: Fan, 1967. 167 s.
**9.** Saləddin Ə. Özbəkistandan töhfə."Ədəbiyyat və incəsənət", Bakı, 1986, 18 mart
**10.** Kuşmakov M. Ədəbi münasibətlərimiz. "Bakı", 1979, 4 iyun
**11.** Səfərova N. Alim və tərcüməçi. "Ədəbiyyat və incəsənət" , Bakı, 1987, 31 iyul
**12.** Ülvi A. Azərbaycan – özbək ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər) // Bakı, Qartal, 2008, 326 s.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# İREN MELİKOFFUN TÜRK DASTANLARI İLƏ BAĞLI ARAŞDIRMALARI

***ALMAZ HÜSEYNOVA***

Türk dastanları haqqında qeyi-adi yanaşma tərzi ilə diqqət çəkən araşdırmaların müəlliflərindən biri uzun illər Strasburq Universitetində şərq dillərindən dərs deyən İren xanım Melikoffdur (1917-2009). Ömrünün cox hissəsini Fransada yaşamaq zorunda qalan əslən azərbaycanlı İren xanım 1957-ci ildə "Məlik Danişmənd" dastanı, "Danişməndnamə"nin tənqidi incələməsi" adlı doktorluq işi müdafiə etmişdir ki, əsərin "Abidədə folklor mətnləri və dastan motivləri" fəsli alimin xalq ədəbiyyatının bu janrı ilə bağlı mülahizələrinə həsr olunmuşdur

İren xanım folklorla bağlı araşdıhmalara davam edərək, 1962-ci ildə "Türk-İran dastan gələnəyində Xorasan təbərdarı Əbu Müslüm" adlı əsərini tamamlamışdır ki, burada "yoxsulların, müsəlman olmayanlarin da qəhrəmanı" (2, s.12) və onunla bağlı yaranan dastan təhlil edilmişdir.

1995-ci ildə fransızca nəşr olunan, uzun sənələrdən sonra – 2008-ci ildə Turan Alptekin tərəfindən türk dilinə tərcüməsi yayınlanan "Dastandan masala – türkoloji yolçuluqlarım" ("De L 'epopee Au Mythe: İtineraire turcologique") adlı tədqiqat əsəri (6) isə Iren xanımın zəngin folklor araşdırmalarının yekunu hesab edilə bilər. Kitabın içərisində verilən "Türk Qafqazyalılıq: Babək Xürrəmi və Seyid Battal" ("Notes turco-cauasiens: Babek Hurrami et Seyyid Battal"), "Gürcülər, türkmənlər və Trabzon: "Kitabi-Dədə Qorqud" üzərinə" ("Georgiens, Turcomans et Trebizonde: Notes sur le Livre de Dede Korkut"), "Türk dastan ədəbiyyatında Kərbəla olayı" ("Le drame de Kerbela dans la litterature epique turque"), "Halva qutsallığı və halva dağıtma ənənəsi: ortaçağ Türkiyəsində məslək loncalarında bir uyğulama üzərinə araşdırma" ( "Le rituel du Helva: recherche sur une cotume des corporations de Metier dans la Turquie medievale") , "Anadolu türklərinin dinsəl-qəhrəmanlıq mətnlərində simvollaşan saylar" ("Nombres sumbokiques dans la litterature epico-religieuse. De Turcs d "Anatolie") və s. fəsillərdə adlarından da göründüyü kimi, həm dastanlar, həm də folklorun digər janrları ilə bağlı incələmələrə yer verilmişdir.

Ümumiyyətlə, alimin türk ədəbiyyatında dastan janrının yeri və təsiri ilə baglı araşdırmaları özünəməxsusluğu ilə diqqəti cəlb edir. Belə ki, Iren xanımın "Türk Qafqazyalılıq: Babək Xürrəmi və Seyid Battal" məqaləsi otuz il ərəb istilası əleyhinə mübarizə aparan xürrəmilərin başçısı Babəkin əfsanəvi şəxsiyyətinə və bu azadlıq mücadiləsini günümüzə daşıyan folklor örnəklərinin təhlilinə həsr edilmişdir. Onun şöhrətinin istər İran torpaqlarından, istərsə də doğulduğu məmləkətdən çox-cox uzaqlara ağızdan-ağıza yayıldığını və bu uzun sürən davanın, həmçinin Babəkin qeyri-adi həyatının bəzi məqamlarının "Seyid Battal" abidəsində saxlandığını müəyyənləşdirən müəllif yazır: "Çağdaşlarının qeyri-adi güc sahibi kimi gördükləri mübarizə başçısı ağızdan-ağıza yayılan söyləncələrlə yenidən yaşam buldu; şeytanla yapdığı anlaşmaya uyduğu düşünülən bir kimliyə büründü. Türk dastanlarının ən ünlülərindən biri olan Seyid Battal Qazi abidasində umulmadıq biçimdə ortaya çıxması bu kimliyə görədir" (6, s.13-14).

Bu dastanla bağlı türk mənbələrində verilən məlumatların əksəriyyətində daha cox onun məzmununa görə nağıl təsiri bağışladığı qeyd olunmaqdadır. Türk folklorşünası M.Yardımçı "Seyid Battal Qazi" dastanınından bəhs edərkən burada sehrli qüvvələrin yer almasına diqqət yetirmiş, əsərdəki ənənəvi süjetlərdən fərqlənən xüsusiyyətləri İran təsiri kimi şərh etmişdir: "Seyid Battal Qazi"nin üslub və texnikasının … "Dədə Qorqud" kitabında tipik örnəyi bulunan yarı mənzum, yarı mənsur türk dastanlarına heç bənzəməməsi, ərəb nəşrlərini xatırlatması, əsərdə Hindistan, Məğrib səfərləri ilə cin, sehrbaz, cadu, Qaf dağı, div və qəhrəmanın atı Aşkarın qarışdığı sirli macəralar İran təsirini sezdirməkdədir" (15, s.83).

İren xanım bu abidəyə fərqli müstəvidən yanaşmış, dastanda həm türk inanclarının, həm də İran nağıllarının əlamətləri ilə yanaşı müəyyən qədər tarixi həqiqətlərin də əks olunduğunu qeyd etmişdir: "Türk xalq inanclarına uzantılar, İran pəri masallarından mətnlər, tarixsəl olaylardan cizgilər; insan yeyən cinlər və qeyri-adi varlıqlarla süslən

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

uğradıqları hadisələrlə qarmaqarışıq və kimi zaman tutarsız bir hekayə oluşduracaq biçimdə, hamısı birlikdə olmuş hadisələrə qarışmışlar" (6, s.14).

İren xanım bu qarışıqlığa baxmayaraq, əsərin tarixi hadisələrlə səsləşən parçaları içərisində Babək Xürrəminin ələ keçirilməsi və edamı ilə bağlı məlumatların "Mənakibi Qəzavati Seyyid Battal Qazi" abidəsinin (Qazan basqısı) V-VI bölmələrində əks olunduğunu, bu məqamda Seyid Battal obrazının həmin gərgin mübarizənin yatırırlması ilə məşhurlaşan, əsl adı Heydər bin Kavus olsa da, Afşin kimi tanınan tarixi şəxsiyyətin yerini aldığını müəyyənləşdirmişdir. Müəllifin qənaətlərinə görə, görünüşdə islamı qəbul edərək xəlifənin etibarını qazanan Afşin Babəki Səhl ibn Sunbatın yardımı ilə yaxaladıqdan sonra böyük bir şöhrət qazanmış, bağışlanan ənamlarla yanaşı, onun şərəfinə çoxlu şeirlər yazılmışdır: "Xəlifə onu ehsanlara boğdu və şairlər Babəkə qarşı başarısını öyən, qürurlandırıcı şeirlər yazdılar. Fəqət sonra tale birdən ondan üz çevirdi. Onu göylərə çıxaranlar bu dəfə cəsədini qurbanı Babəki … asdığı yerə asmaq üçün qapadıldığı zindanda aclıqdan ölməyə buraxdılar. Afşinin islam görünüşü altında öz inanclarını saxladığı, ərəb hegemonluğuna qarşı mübarizələrə dəstək olduğu anlaşılmışdı. Adı və adını ucaldan şeirlər bundan sonra birdən yox oldu" (6, s.15).

Qeyd edək ki, mühacir alim Əhməd Cəfəroğlu "Tarixdə türklük və onun üçün çalışanlar" məqaləsində xilafət dövründə dövlətin də, xəlifənin də türk orduları tərəfindən qorunmasından və onların içərisindəki bəzi insanların müstəqil bir türk dövləti qurmaq arzusunda olmalarından bəhs etmişdir. Məhz bu müqəddəs yolda özünü qurban verənlər olduğunu xatirladan alim yazır: "Bu qurban türklük qəhrəmanı Afşindir. Xilafət ordusunun ən mümtaz və irəli gələn qəhrəman komandanlarından olan bu türk çocuğu əldə etdiyi bir çox xidmətlər nəticəsində vardığı yüksək məqamını və bütün nemətləri çeynəyərək, islamiyyət bayrağı altındakı türk camiasına məxsus Şimali İranda müstəqil bir türk dövləti qurmağa atıldı… türklüyünə doyamayan bu türk övladı xilafət məhkəməsinə verildi və öldürüldü" (4, s.8).

Ərəb qaynaqlarında verilən məlumatlara istinad edən Ə.Cəfəroğlu da Afşinin xilafət ordusu komandanı olmasına baxmayaraq, "…əsil öz ana-baba dini tələqqilərindən ayrılmadığını" və "öz ruhunu ana dilində yazılmış ədəbiyyatla təskin etdiyini" müəyyənləşdirmiş, hətta onun məhkəməsindən bəzi fraqmentləri də əsərinə daxil etmişdir.

Beləliklə, xalqın tarixinin ən gizli anlarının məhz folklorda yaşadığını, bu xüsusiyyətinə görə də onun öyrənilməsinin mühüm əhəmiyyət daşıdığını İren xanım kimi Ə.Cəfəroğlunun gətirdiyi faktlar bir daha sübut etmiş olur. Bundan başqa, İ.Melikoff həmin məqaləsində Babəkin tərcümeyi-halından danışarkən maraqlı bir məqama toxunur: "Babək Azərbaycanda bir kənddə doğulmuşdu… kiçik yaşlarda yetim qaldı və on yaşında ikən kəndin qoyunlarını güdərək çalışmağa başladı. Bir çoban ona saz öyrətdi və bunda qısa zamanda ustalaşdı" (6, s.18).

Bu faktın verilməsi göstərir ki, saz uzun əsrlər öncə xalq içərisində, o cümlədən, musiqiyə, rəqsə, şadlığa, sevincə xüsusi əhəmiyyət verən, adını da elə buradan götürən (xürrəm-şad) xürrəmilər arasında geniş yayılmış bir musiqi aləti olmuşdur. Xatırladaq ki, Azərbaycanda Babəklə bağlı məlumatlar əsasən tarix kitablarında verilmiş, təəssüf ki, bu fakt xatırlanmamışdır. Halbuki uzun illər arxasındakı xalqın gücü ilə köləliyə qarşı mübarizə aparan, "qırx il əsarətdənsə, bir günlük azadlığı" üstün tutan Babək kimi bir qəhrəmanın şərəfinə nəğmələr qoşulmaması, dastan yaradılmaması mümkün deyil, Belə əsərlər, yəqin ki, mövcud olmuşdur, xürrəmilərin saza bağlı olması faktı da bunu sübut etməkdədir. Lakin, çox güman ki, ərəblərin uzun sürən hökmranlığı onların yasaqlanması və tarixin yaddaşından silinməsinə gətirib çıxarmışdır.

İren xanım daha aydın olması məqsədilə: " …aşağıdakı bölüm başdan-başa xəyal ürünüdür və olaylara divlərin, pərilərin qarışdığı türk-İran dastan və masallarının təsiri görülməkdədir", – yazaraq, "Seyid Battal" əsərində yer alan Babəklə bağlı olan bölümü tədqiqatına əlavə etmişdir: "Kəskin bir yenilgi alan Babək, Qandabad məliki Səhl ibn Sunbatın qonaq olaraq güvənliyinə sığınmaq üçün Gürcüstana doğru qaçar. Fəqət Battal gecə gizlicə qaldığı qalaya girər və onu ələ keçirər. Səhl ibn Sunbat da müsəlman olur, Battalin dustağına Bağdadadək yoldaşlıq yapar. Bununla birlikdə uğradığı son Babəki öz inancına bağlılığını azaltmaz. Ağır dəmir zəncirlər altında da peyğəmbərliyini yaymağını sürdürür. Battal onun dilini v

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

oydurur. Bağdada yaxınlaşdıqları zaman xəlifə Battalı qarşılamağa gəlir, ona iltifat edir. Babək şəhərin yaxinliğında yandırılır və külləri sovrulur" (6, s.23-24).

Əsərdən verilən bu örnəyə əsaslanaraq, tədqiqatçı "Seyid Battal Qazi" dastanında qəhrəmanın, yəni Seyid Battalın, yuxarıda qeyd olunduğu kimi, bəzən tarixi şəxsiyyətlərdən Afşini əvəz etdiyini müəyyənləşdirmişdir: "Babəki öldürən adam Battaldır və xəlifənin buyuruğuna görə, Samarrada yapılacaq işgəncələri daha yolda ikən başladan da odur" (6, s.24).

Bu tədqiqatında İren xanımın V.Minorski, Təbəri, Z.V.Toğan və başqa mötəbər mənbələrə istinadən öz mülahizələrini sübut etməyə müvəffəq olmuşdur, lakin məqalədə xalqımızın tarixi və bu günü ilə bağlı önəmli bir məqam da diqqəti çəkməkdədir. Belə ki, müəllif məhz M.Kalankatlıya istinadən Babəkə olan xəyanət haqqında yazır: "…Səhl Afşinin Babəki təslim edənə yüz min dirhəm altun sözü verən və Ermənistan dağlarındakı dehqanların hamısına göndərilmiş olan məktubuna münasibətini çoxdan bildirmişdi. Səhl qonağa münasibət ənənəsini çeynədi və evindəki qonağını təslim etdi" (7, s.20). Buradaca İren xanım xəyanət səbəbinin yalnız qızıl ilə bitmədiyini, qonşu torpaqlara göz dikmə olduğunu xüsusi olaraq qeyd edir: "Moises Kalankatlıya görə, (II kitab, 20-ci bölüm) ödül olaraq Ermənistan, Gürcüstan və Albaniyanın (Azərbaycanın Quzeyi) hegemonluğu da veriləcəkdi" (6, s.20).

Beləliklə, fransız dilində, hələ 1995-ci ildə yayınlanmiş olan araşdırmada bu gün də bizim üçün dəyərli olan aydın bir mənzərə görünməkdədir; erməni əsilli bir insanın yalnız adi bir dostuna deyil, həmin evə pənah gətirmiş qonağına xain münasibəti, eyni zamanda qonşu torpaqlarına göz dikmə ənənəsi əsrlər öncədən davam etməkdədir. Əgər İren xanımın bu araşdırmaları " … qırx ilə yaxınlaşan düşüncə yolçuluğum" adlandırdığını nəzərə alsaq, "Türk Qafqazyalılıq: Babək Xürrəmi və Seyid Battal" məqaləsinin nəşrindən çox-cox öncədən qələmə alındığını göstərməkdə, tarix isə xanım-alimin mılahizələrinin doğruluğunu sübut etməkdədir.

İren xanımın 1960-cı ildə Parisdə nəşr edilən "Qazi Məlik Danişmənd" dastanı ilə bağlı araşdırmaları kamilliyi ilə diqqəti cəlb edir. Məlumdur ki, bu abidədə Battal Qazi soyundan olan Məlik Danişmənd Əhməd Qazinin şəxsiyyəti ətrafında Anadoludakı türk-Bizans savaşları dilə gətirilməkdədir (15, s.77). Lakin bu türk qəhrəmanının soy-kökü ilə bağlı müxtəlif mübahisələr uzun illərdir ki davam edir, xüsusilə İren xanımın yazdığı kimi: "Son dövr bəzi erməni yazarlarından öyrənilən bir ənənə, Danişməndi bir erməni köklə bağlayaraq, hətta pers (Artsax) soyundan bir krallığa dayanaraq onu soylu bir bəy yapırlar" (6, s. 48).

İren xanımın "Məlik Danişmənd və Sivasın fəthi" məqaləsi hər zaman türklərin mənəvi sərvətlərinə sahib çıxmağa cəhd göstərənlərə, o cümlədən adına dastan bağlanmış bu qəhrəmanın "erməni əsilli" olduğunu iddia edənlərə tutarlı bir cavabdır.

Qeyd edək ki, "Dastandan masala, türkoloji yolçuluqlarım" kitabına daxil edilən "Türk dastan ədəbiyyatında Kərbəla olayı", "Halva qutsallüğı və halva dağıtma ənənəsi: ortaçağ Türkiyəsində məslək loncalarında bir uyğulama üzərinə araşdırma", "Anadolu türklərinin dinsəl-qəhrəmanlıq mətnlərində simvollaşan saylar" Azərbaycan folklorşünaslığı üçün yeni olan bir problemə – dini mövzulara həsr edilmişdir. Uzun illər ərzində ateizmi təbliğ edən sovet ideologiyası bu mövzulara ciddi yasaq qoymuşdu, buna görə də yalnız son illərdə folklorşünasların araşdırmalarında (A.Nəbiyevin "Azərbaycan xalq ədəbiyyatı" dərsliyində (10) xalqın dinlə bağlı yaratdığı bədii nümunələr tədqiqata cəlb edilməyə başlamışdır. Lakin mühacirətdə bu mövzu ilə bağlı tədqiqatlar keçən əsrin 30-cu illərindən aparılmışdır. Belə ki, "Azərbaycan yurd bilgisi" dərgisində 1932-ci ildə M.S.Sənanın "Azərbaycan saz şairləri" (11), 1934-cü ildə isə Mirzadə Mustafa Fəxrəddinin "Azəri aşıqlarından Sarı Aşıq" (9) məqalələri nəşr edilmişdir ki, onlarda dini məqamlar da nəzərdən keçirilmişdir.

İren xanımın "Türk dastan ədəbiyyatında Kərbəla olayı" məqaləsi 1966-cı ildə Parisdə Şərqşünaslar Cəmiyyətində (Sosiete Asiatique) təqdim olunmuş və 1967-ci ildə "Revue des Etudes İslamique"də (s.133-148) nəşr edilmişdi, lakin onun axtarışları, özünün qeyd etdiyi kimi, hələ 1957-ci ildə yazdığı "Əbu Müslim, əxilərin piri" ("Abu Muslim, patron des Akhis") məqaləsindən başlamış və burada müəllif Əbu Müslimi Kərbəla hadisələrinin, özəlliklə İmam Hüseynin qisasını alan həqiqi bir qəhrəman kimi səciyyələ

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dastan ədəbiyyatında Kərbəla olayı” məqaləsini həmin araşdırmanın davamı hesab etmək olar və İren xanım bu tarixi faciənin, həmçinin onun əsasında yaranan dastanın haqqında yazır: “… Əbu Müslim Rəsulun Əhli-Beytinin öcünü alan, “gücsüzləri qoruyan” və “əzilən xalqın qəhrəmanı” kişiliyi ilə, hər şeydən öncə, igidlik və cəngavərlik ülküsünün örnək bir canlanışı idi… Ebu Müslimin yer aldığı olaylar, Hüseynin şəhid edilişi və “Kərbəlanın öcü” üzərinə xalqın asanlıqla anlayacağı ifadələrlə Türkiyədə günümüzədək varlığını sürdürən, xalqa aid bir ədəbiyyatı yaratdı. Ebu Müslimin dastanlaşan əhvalatı həqiqətdə Kərbəla faciəsinin ikinci bölümü və onun tamamlanışıdır” (6, s. 59).

İren xanım bu məqaləsində mənbələrə əsaslanaraq, öncə həmin dövrdəki tarixi hadisələr haqqında məlumat vermiş, bu on məclisdən ibarət əsərin hər bir məclisini ətraflı təhlilə cəlb etmiş, onun daha cox Məhərrəm ayının ilk on günündə camaat arasında oxunduğunu müəyyənləşdirmişdir.

İren xanım Melikoffun “Gürcülər, türkmənlər və Trabzon: “Dədə Qorqud kitabı” üzərinə düşüncələr” məqaləsində “Kitabi-Dədə Qorqud”la bağlı maraqlı məlumatlara təsadüf olunmaqdadır**.** Məqalənin giriş hissəsində Qafqaz xalqlarının XI-XV əsrlər tarixi ilə bağlı məlumat verən müəllif Trabzon imperatorluğunun yaranması, Gürcüstanda, Ermənistanda hakimiyyət uğrunda baş verən savaşlar, həmçinin aparılan siyasətlə yanaşı səlcuqlar, onların yürüşləri, monqollar, Qaraqoyunlu, Ağqoyunlu dövlətləri ilə bağlı həqiqətləri də üzə çıxarmağa çalışmışdır.

İren xanım bu geniş tarixi hadisələri qələmə alması səbəblərini isə belə izah edir: “Bütün bu qarışıq olayların, iç-içə girmiş xalqların bəlirdiyi çevrə, türk oğuz dastan ənənəsində, div bir əsərdə öz əksini tapır: “Dədə Qorqud kitabi”. Tarixi baxiş acısından olaylar bir-birinə qarışdırılmış, dəyişikliyə uğradılmış və ... dastan çox vaxt yetərsiz və mücərrəd tarix qaynaqları yanında tamamlayıcı dərinliyi və canlılığını saxlayan bir çevrəyə sunma üstünlüyünü qoruyur” (6, s.34).

Beləliklə, müəllif, hər şeydən əvvəl, “Kitabi-Dədə Qorqud”u oğuz türklərinin “div bir əsər”i kimi cox yüksək dəyərləndirir, digər tərəfdən, Qafqaz xalqlarının həmin əsrlərdəki tarixinin çox qarışıq hadisələrlə zəngin olduğunu xatırlatmaqla yanaşı, qaranlıq qalan məqamları aydınlaşdırmaq üçün mücərrəd, yarımçıq mənbələrdənsə, məhz bu dastana müraciət edilməsini daha məqsədəuyğun olduğunu, eposun yalnız ədəbi deyil, həm də tarixi əhəmiyyət daşıdığını müəyyənləşdirmişdir.

“Kitabi-Dədə Qorqud”un, əslində, tarixən daha qadimlərə aid olduğunu, bir neçə yüz il əvvəllərdən yaranaraq, ağızdan-ağıza şifahi şəkildə yayılmasına diqqəti yönəldən müəllif eposun XV əsrdə Təbrizdə yazıya köçürüldüyünü qeyd etmişdir: “Yüz illər boyunca sözlü anladılan Oğuz dastanları nəzmlə qarışıq nəsrdən yaranan on iki boyluq bir əsər kimi XV yüzildə biçimləndi. Bu anladılanlar şamançı türklərin islamdan sonrakı dönəmdə baba, ya da dədə, camaatdışı(heterodoxe) dərviş, xalq şairi ozan kimlikləri altında yaşamını sürdürən sehrçi, din adamı, əski qam-şaman ənənəsindən gələn bir ozanla – Dədə Qorqudla əlaqələndirilməkdədir. Din adamı, sehrkar, çalğıçı və ozan, qam-ozan; eyni zamanda söyləncələri və əski türk igidlik əhvalatlarını hafizəsində saxlayan, qoruyan bir kişi idi. Şübhəsiz, Qafqaza və Kiçik Asiyada yerləşməzdən öncə Orta Asiyada doğmuş savaş və igidlik öykülərinə dayanan “Dədə Qorqud kitabi” Ağqoyunlular dönəmində biçimlənmişdi. Mətn 1468-ci ildən 1501-ci ilədək Uzun Həsənin və yerinə keçənlərin başkəndləri olan və azəri özəllikli bir dildə danışılan Təbrizdə oluşmuşdu və Kaşğarlı Mahmuda görə, türk oğuz boylarının dördüncü boyu olan – Bayundurların dastanıdır” (6, s.34-35).

Əsərin meydana çıxmasında əvəzsiz xidmət göstərən və dastanın özündə adı hər zaman sayqı ilə xatırlanan əsas qəhrəmanlardan biri, oğuzların müdrik ağsaqqalı, ozanı Dədə Qorqudun bu abidənin yaranmasındakı əvəzsiz xidmətindən bəhs edən məqalə müəllifi əsas hadisələrin mərkəzində duran şəxsin Bayındur xan olduğu söyləməklə qalmamış, onun yaşadığı tarixi dövrü, siyasi hadisələri də müəyyənləşdirməyə çalışmışdır: “Dədə Qorqud kitabi”nda olaylar türkmənlərin yeni yurdları Quzey-doğu Anadoluda və Qafqazda (Azərbaycanda və Ermənistanda) keçməkdədir. Tarixi hadisə gürcülər və onların yanında yer alan Trabzon rumları ilə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lanlar...türkmənlərin Trabzona qarşı savaşlarına dayanan və boya adını verən qəhrəmanın anılması ilə o birilərindən ayrılan beşinci və altıncı hekayədən başqa – Bayındur xana və onun savaşlarına dayanmaqla birlikdə, yəqin ki, XIII yüzilə, Qaraqoyunluların Anadoluya girərək Diyarbəkirə və yuxarı Fərat bölgəsinə yerləşdikləri sırada Xorasandan Qafqaza gələn Ağqoyunluların yerləşmə dönəmlərinə, Pəhləvan bəy, oğlu Tur Əli və onun oğlu Qutlu bəy zamanına çıxmaqdadır" (6, s.35).

Gətirilən sitatda İren xanım dastanın beşici("Duxa Qoca oğlu Dəli Domrul boyyunu bəyan eylər") və altıncı ("Qanlı Qoca oğlu Qanturalı boyunu bəyan eylər") istisna olmaqla qalan boylardakı hadisələri XIII əsrə aid olduğunu qeyd edir, nədənsə alim səkkizinci boyla ("Basatın Təpəgözü öldürdüyü boyu bəyan eylər") bağlı heç bir qənaət irəli sürmür bu da bir qədər təəccüb doğurur. Lakin bir qədər sonra müəllif hadisələrin baş verdiyi ərazilərdən bəhs edərkən yalnız altı boyun bir-biri ilə daha sıx bağlı olduğunu bildirir: "Köçəri türkmənlər ata yurdluların əskidən bəri yaşadıqları kəndlər və qəsəbələr arasında qonub gecələyərkən buralara axınlar yaparlar. Gürcülər, ya da o biri qafqazlılar da fürsət bulduqca köçərilərin obalarına saldırmaqdan geri qalmazlar. Ana olayların eyni yerlərdə keçdiyi və eyni kişilərin ortaya çıxdığı bu öykülərin, "boy"ların altısının mövzusu (II.III, IV, VII, IX və XI) aşağı-yuxarı budur" (6, s.36).

İren xanım həmin altı boyun hər biri və olayların baş verdiyi yerlər haqqında ayrı-ayrı məlumat vermişdir. Müəllifin türk salnamələrində kafir hökmdarlara aid olaraq istifadə edilən "tekfur" sözünün izahı ilə baglı fikirləri də maraq doğurur. Bunun ermənicə "takavor" sözündən olduğunu, krallara verilən ad kimi işləndiyini müəyyənləşdirən İren xanımın məqaləsindəki bir məqam da düşündürücü və mübahisəlidir: "Diqqət çəkicidir ki, o biri Anadolu türk dastanlarının, özəlliklə təməl olayı Kapadokyada keçən "Məlik Danişmənd" abidəsinin tərsinə Qafqaz Ermənistanı XI yüzildən bəri Bizansa buraxılmış olduğundan Ermənistan və ermənilərlə ilgili bir anma söz konusu deyil. Türkmənlər Qafqazda ermənilərlə savaşmışlarsa da, –ki bundan şübhə edilə bilməz, – onları gürcü "kafir"lər sanmışdırlar" (6, s. 36).

İren xanım eposun bəzi boylarının mövzu baxımından daha əski çağlara aid olduğunu, məsələn, altınci boydakı əhvalatın "türk dastan ənənəsində sıx rastladığımız və şübhəsiz, matriarxat dönəmlərinə çıxa biləcək savaşçı qadın (amazon) motivi kimi" dəyərləndirmiş, dastanın mətninin bizə "azəri ləhcəsi olaraq müəyyənləşən bir dillə" çatdığını da ayrıca xatırlatmışdır

"Anadolu türklərinin dinsəl-qəhrəmanlıq mətnlərində simvollaşan saylar" məqaləsini İren xanım dastanlardakı sayların işlənmə məqamları və onların ifadə etdikləri sətiraltı mənaların izahına həsr etmişdir. "Dastan ədəbiyyatı, cəngavərlik əməlini, dastan qəhrəmanını bu əməlin bir bədənləşməsi olaraq görən, oxumamış xalq sinifləri arasında bir yayılma vasitəsinə çevrilirdi. Mənbələrdə …1, 3, 5, 7, 40 və 300 saylarına sıx-sıx rastlanırdı" (6, s. 121), – yazan müəllif, eyni zamanda 17 və 72-nin də cox işləndiyini, bu rəqəmlərin əslində 9 ilə 8-in toplanması ilə vurulmasından yarandığını müəyyənləşdirmişdir. Danişmənd, Sarı Saltuk, Əbu Müslim, Seyid Battal və başqa dastan qəhrəmanlarının adlarını ərəb hərflərinin say qarşılığı əsasında incələməklə İren xanım bu iki rəqəmin qutsallığını üzə çıxarmaqla yanaşı, onların əski dönəmlərdən həm fars folklorunda, həm də türk dastan ənənəsində yaşadığını müxtəlif mənbələr əsasında sübuta yetirmişdir.

Qeyd etmək lazımdır ki, İren xanım xalq ədəbiyyatında simvollaşan saylarla bağlı araşdırmalarını davam etdirərək, "Bəktaşi-ələviliyin simvollaşdığı üzərinə: on iki heyvanlı təqvimdən on iki imama" məqaləsində problemlə bağlı yazır: "On iki sayının qutsallaşdırılmasına dinlərin və mədəniyyətlərin bir çoxunda rastlaşırıq. Qədim çağda yunanlatın panteonunun başlıca tanrılarının sayı da on iki idi: on iki qeysər. Xristian dönəmdə on iki havari bu dinin dastan ədəbiyyatında Dəyirmi Masada on iki cəngavər bulunurdu. İslamda on iki sayı On İki İmamın yüksəldilişi ilə şiələrdə müəyyənləşdi" (2, s.78).

Həmin məqaləsində müəllif qısa olaraq yeddi sayı ilə bağlı düşüncələrinə yer ayırmış, bu rəqəmin islamın qəbulundam öncə də türklərdə müqəddəsliyini göstərən bəzi detallara rastladığını nəzərə çatdırmaqla yanaşı: "Bu dərinləşməyə dəyər bir mövzudur", – yazaraq, onun aydınlığa qovuşmasını gələcək araşdırmalara saxlamışdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İren Melikoffun mifologiya ilə bağlı tədqiqatları da çoxdur. Belə ki, alimin "Halva qutsallüğı və halva dağıtma ənənəsi: ortaçağ Türkiyəsində məslək loncalarında bir uyğulama üzərinə araşdırma" ("Le rituel du Helva: recherche sur une cotume des corporations de Metier dans la Turquie medievale"), "Anadolu türklərinin dinsəl-qəhrəmanlıq mətnlərində simvollaşan saylar" ("Nombres sumbokiques dans la litterature epico-religieuse. De Turcs d'Anatolie"), "Qazan" sözcüyü üzərinə" və b. tədqiqatlarında türk mifoloji düşüncəsi təhlil obyektinə çevrilmişdir.

İren Melikoffun Çikaqo Universiyeyini müəllimi Robert Dankoffa açıq məktubu şəklində yazılan, Amerikada "Journal of American Oriental Studies" 2000-ci ildə (s.273-274) dərc edilmiş "Qazan" sözcüyü üzərinə" adlı məqaləsi öz mövzusu ilə folklorşünaslığımız üçün cox mühüm əhəmiyyətə malikdir. Müəllif "qazan" sözünün xalq ədəbiyyatında geniş yer alma səbəbini belə izah edir: "Mifologiyaların çoxunda "qazan" bir sehr-nağıl özəlliyinə bürünmüş görünür. Qazan sosial yaşamla sımsıx bağlıdır; obanın aşını hazırlama vasitəsidir və fərdin üst yaşamla bağlantısını saxlamaqdadır" (2, s.88).

Müəllifin qənaətlərinə görə, müxtəlif etnoslarda qazan gizli-sehirli bir əşya kimi təzahür edir – bəzən əbədi gənclik, yeniləşmə, dirilmə simvoluna, bəzən isə cinlərin, pərilərin müxtəlif cadularının, sehirlərinin hazırlandığı vasitəyə çevrilir, o, şamanizm dönəmi üçün tüstü yaradan əsas alətdir.

Bu sözün "Kitabi-Dədə Qorqud"da əsas qəhrəmanın (Salur Qazan), Altun Orda Dövlətinin, sonralar Volqaboyu Tatar Cümhuriyyətinin paytaxtının adı kimi işləndiyini xatırladan İren xanım yazır: "Türk dastan ədəbiyyatında "qazan" sözü cəzb edən, ya da çeşidli div (cin)lərə qarşı savaşlar anladılarkən rastlanır. Qazan şamanlaşma törənlərində tüstüləmə uyğulanmalarından anıların çağırışıdır" (2, s.89).

Beləliklə, İren xanım bir çox hallarda folkorla bağlı müxtəlif problemləri həll etməklə yanaşı, "Qazan" sözünün "ləyən" kimi izahına etiraz olaraq yazdığı bu məqalədə olduğu kimi dünya folklorşünaslarının qaldırdığı məsələlərə diqqət yetirmiş, öz mülahizələri ilə aydınlıq gətirmişdir ki, bu da təqdirəlayiqdir.

Qeyd etmək lazımdır ki, Türkiyədə İren xanımın əsərləri (5 ; 6 ; 7) və fəaliyyətilə bağlı tədqiqatlar (2) həm sağlığında, həm də ölümündən sonra dəfələrlə nəşr edilmişdir. 2009-cu ildə Esat Qorxmazın redaktorluğu ilə, təxminən qırxa yaxın müəllifin məqaləsinin toplandığı "Uyur idik uyardı İren Melikoff" (14) adlı kitab nəşr edilmişdir ki, burada görkəmli Azərbaycan aliminin elmi və ictimai fəaliyyəti işıqlandırılmışdır

Fransada yaşayan mühacirlərdən Ceyhun Hacıbəylinin yaradıcılığı ilə bağlı Azərbaycanda tədqiqatlar aparılmış (12 ; 13 ; 1), İren xanım Melikoff haqqında müəyyən qədər məlumatlar verilmişdir (12 ; 8), lakin onun çox zəngin folklorşünaslıq fəaliyyəti indiyə qədər təhlilə cəlb edilməmişdir. Doxsan ildən cox ömür sürən və təxminən altmış ildən artıq yaradıcılıqla məşğul olan bu görkəmli alimin öz vətənində tanıtdırılmasına, dünyanın müxtəlif ölkələrində işıq üzü görmüş əsərlərinin tərcümə olunaraq nəşr edilməsinə ehtiyac vardır.

## Qaynaqlar

1. Allahverdiyeva Nüşabə. "Journal Asiatique"də Azərbaycan ədəbiyyatı məsələləri. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, B., 2004
2. Alptekin Turan. Prof. İrene Melikoffun ardından (inceleme-son yazılar-mektuplar), İstanbul, Demos yayınları, 2009
3. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, I c., Bakı, Bakı, Elm, 2004
4. Caferoğlu Ahmet. Tarihte türklük ve onun için çalışanlar, C.H.P, Konferanslar serisi, Kitap 16, 1940, s.1- 18
5. Melikoff İrene. Kırkların cemiinde, Çeviren: Turan Alptekin, Demos yayınları, İstanbul, 2007

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

6. Melikoff İrene. Destandan masala: Türkoloji Yolculuklarım, Çeviren: Turan Alptekin, Demos yayınları, İstanbul, 2008
7. Melikoff İrene. Uyur idik uyardılar, Çeviren: Turan Alptekin, Demos yayınları, İstanbul, 2009
8. Məşhur azərbaycanşünas (Ramiz Əsgərin İren Məlikoffla müsahibəsi), ”Odlar yurdu”, 1988 noyabr, № 21 (418)
9. Mirzade Mustafa Fahreddin. Azeri aşıklarından Sarı Aşık, Azerbaycan yurt bilgisi, 1934, yıl 3, sayı 29, s.176-178
10. Nəbiyev Azad. Azərbaycan xalq ədəbiyyatı, I cild, Bakı, Turan, 2002; II cild, 2006, Bakı. Elm
11. Sanan Sadık M. Azerbaycan Saz Şairleri, Azerbaycan Yurt Bilgisi (İstanbul), 1932, yıl 1, sayı 2, s.55-59
12. Sultanlı Vaqif. Azərbaycan mühacirət ədəbiyyatı, Bakı, Şirvannəşr, 1998
13. Tahirov Abid. Ceyhun Hacıbəylinin həyat və yaradıcılığı. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı, Bakı,
14. Uyur idik uyardı İrene Melikoff, Editör Esat Korkmaz. İstanbul, Demos yayınları, 2009
15. Yardımçı Mehmet. Destanlar, İzmir, Kayılmaz, 1999

## The folklore study heritage of Iren Melikoff

The article “The folklore study heritage of Iren Melikoff ” analyzes the works of Madame Iren – Azerbaijani researcher living in France since 1948. Professor Melikoff have very valuable researches on Turkish eposes which have been published in different countries of the world. This article has examined the research on the eposes of “Seyid Battal Gazi”, “Malik Danishmand”, “Kitabi – Dada Gorgud”, as well as has touched upon the open letter of her to professor Robert Dankof from Chicago University.

The article explores the opinions of Iren Melikoff of the characters like Babak, Afshin, Salur Gazan and etc. and their prototypes, as well as historial realities of the eposes, the places where they took place and the numbers which were used as symbols.

**Key words:** epos, Turkish, folklore, Caucasus, nation

## Фольклористическое наследие Ирен Меликофф

В статье “Фольклористическое наследие Ирен Меликофф” анализировано творчество азербайджанского ученого Ирен ханум, с 1948 года проживавщая во Франции. Профессор Меликофф имеет очень много произведений посвяшенными тюркских дастан напечатанных в разных странах мира. В этой статье исследовано ее произведения связанными дастанов “Сейид Баттал Гази”, “Мелик Данишменд”, “Книга моего деда Коркуда” и др., кроме того, рассказывается об открытом письме к профессору университета Чикаго Роберта Данкоф.

Анализировано мнения Ирена Меликоффа о Бабек, Афшин, Салур Казан и других образах, об их прототипах, более того, исторические истины освященными в дастанах, их действующие места, о символах образованными числами.

**Ключевые слова –** дастан, тюркский, фольклор, Кавказ, народ

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# ВОССОЕДИНЕНИЕ УКРАИНСКОЙ ДУМЫ И ТЮРКСКОГО ДЕСТАНА В XXI ВЕКЕ: КИНЕМАТОГРАФИЯ ОЛЕСЯ САНИНА

***АНАТОЛИЙ МОМРИК***

История исследования эпической традиции Восточной Европы имеет уже несколько столетий. Так, первое упоминание о существовании украинских дум мы встречаем в «Анналах» польского историка Сарницкого. Под 1506 годом он упоминает о думе, созданной в память о гибели в походе на Валахию (Эфляк в турецкой традиции) двух братьев. После первой публикации дум в начале XIX века они оказались в центре внимания всех выдающихся исследователей украинского фольклора, языка и литературы. Среди них были Д. Цертелев, М. Максимович, М. Костомаров, В. Антонович, П. Житецкий, М. Лисенко, К. Грушевская. Ими были выделены главные черты дум, такие как: исполнение речитативом в музыкальном сопровождении на бандуре, кобзе или лире; отсутствие определенной строфической структуры; строка неровной длины; преимущественно глагольная рифма (1).

Все эти черты сближают украинскую думу с тюркской эпической традицией. Несмотря на то, что ее устная форма восходит к X-XI векам, и следы ее обнаруживаются в тексте «Огуз-наме» и словаре Махмуда Кашгари, все же первый завершенный текст "Kitab-i Dede Qorqut", так же, как и украинские думы, относится к XVI в. Серьезное собирание устного тюркского эпоса тоже относится к XIX в. и связано с именами А. Вамбери, Ч.Валиханова, А. Диваева, Г. Потанина, В. Радлова. Работа над их изданием продолжается до сих пор (2).

Изучение крымскотатарской эпической традиции и фольклора вообще также относится к этому периоду (3).

Влияние тюркского мелоса на формирование украинской думы тоже имело своих исследователей, например К. Квитка признавал, что увеличение интервала в миноре, хроматизм украинской мелодии имеет явно южное, турецкое и крымскотатарское происхождение (4).

Но в данной нашей работе мы рассмотрим не развитие украинской и тюркской эпической традиции в прошлом, а ее современное функционирование в кинематографическом медиа-пространстве на примере фильма современного украинского режиссера Олеся Санина «Мамай», который стал открытием в отечественной кинематографии.

Олесь Санин родился в 1972 году в Камень-Каширском районе Волынской области, что в Западной Украине. Он закончил актерское (курс Валентины Зимней) и режиссерское отделения (курс Леонида Осыки) Киевского института театрального искусства имени И. Карпенко-Карого. Фильм «Мамай» был создан в 2003 и был его успешным студенческим дебютом. Его необычный сюжет сразу привлек внимание зрителя и вызвал интерес у думающей публики. Он стал фактически первым украинским фильмом постсоветского периода, который был номинирован на американский «Оскар» как лучший неанглоязычный фильм (5).

В этом фильме традиция украинского поэтического кино 1960-х годов с его интересом к глубинным пластам народной культуры, поиском этнического кода, ориентацией на фольклор, которая подарила миру «Тени забытых предков» С. Параджанова, «Вавилон XX» И. Мыколайчука, получила законное продолжение. И это неудивительно, ведь учителем Санина был один из основателей поэтического кинематографа - Л.Осыка.

Но в то же время творчество Санина привнесло новый взгляд на мир прошлого. Если раньше для украинской культурной элиты ключевым был поиск ответа: что же такое «Украина», где ее внутренняя суть, то для Санина поиск украин

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

с природной раздвоенностью украинской земли, ее внутренним дуализмом. Украина всегда делилась на практически две равные половины - Северо-запад и Юго-восток. Первая часть – лес и лесостепь, где жили славяне-земледельцы. Вторая часть – степь, где жили тюрки-кочевники. Их отчуждение еще более возросло с принятием первыми христианства, а вторыми ислама. Сейчас их потомками являются украинцы и крымские татары.

Фильмом «Мамай» режиссер соединил эти два противоположных, часто враждебных мира украинского прошлого в одно целое. И это неудивительно, ведь нас объединяет одна земля, политая нашей кровью, и наша общая история, где есть место не только ненависти, но и солидарности. Каждый украинец знает, что главными союзниками гетмана Богдана Хмельницкого в борьбе с Польшей были татары крымского хана Ислам-Гирея, а запорожских казаков гетмана Ивана Мазепы после поражения от русских войск Петра I приютили в Крыму. Да и в концлагерях Советского Союза в одних камерах сидели и украинский диссидент Вячеслав Черновил, и крымскотатарский диссидент Мустафа Джемилев.

Так и в фильме самая трагическая и популярная украинская дума конца XVI в. «Побег трех братьев из Азова с турецкой неволи» естественным образом переплелась с современными ей крымскотатарскими фольклорными текстами, такими как «Алтын бешик» и «Песня дервиша о доблестных мамлюках».

Началом фильма становится конец сказания о золотой колыбели. Ребенок, который своим рождением пытался соединить в одно целое две враждебные части крымского мира: дикую языческую кочевую степь и цивилизованный мусульманский земледельческий южный берег Крыма, исчезает вместе с колыбелью.

«Алтын бешик» сейчас является символом современного крымскотатарского народа. Ведь он передает саму суть души этого народа: раздвоенность его прошлого, без которого нет настоящего. В тексте «Алтын бешик» говорится: «Аллаховы джины, живя на побережье Крыма, сажали сады, разводили виноград, сеяли хлеб и просо и пряли лен. Иблисовы же джины, живя в диких горных лесах, пасли стада на редких лугах, охотились на козлов и оленей… Но не было согласия между джинами Аллаха и джинами Иблиса…

Но чаще побеждали иблисовы джины, так как они были более смелы, подвижны, жестоки, неустрашимы, выносливы, закаляясь на охоте и пастьбе скота, а джины-земледельцы были робки, боялись уходить от своих хижин и пастбищ, плохо владели оружием, не привыкли к военным хитростям и жестокостям» (6).

Южнобережные татары (таты, как их называли совсем недавно) прекрасно понимают, что их предки были коренными жителями этих гор и долин: таврами, греками, скифами, готами, - и отождествляют себя с джинами Аллаха. В тоже время жители степного Крыма помнят запах степей Монголии, Казахстана и Северного Кавказа, откуда пришли их предки, верившие в бога Тенгри, и понимают, что именно они являются теми смелыми иблисовыми джинами, еще не знавшими в те далекие времена ислам. Со временем они стали одним народом, и «Алтын бешик» с его ребенком, рожденным от любви южнобережной принцессы и принца - сына степей, понятен каждому. Но колыбель с ребенком исчезает в пещере во время кровавой междоусобной войны, как и исчезло татарское счастье с оккупацией Крыма Екатериной II в XVIII веке и депортацией всего народа Сталиным в веке XX.

Конец тюркского дестана о поиске пещеры с утерянным счастьем в фильме превращается в начало украинской думы: казаки - невольники работают в каменоломнях в поисках золотой колыбели, изнемогая от жажды и непосильного труда.

«Побег трех братьев из Азова с турецкой неволи» является самой большой и самой древней думой в украинской эпической литературе. Она имеет 29 вариантов и входит в тройку наиболее популярных украинских дум. Она создана в конце XVI века, и ее самая

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

старая запись относится к 1808 году (7). Ее до сих пор исполняют украинские кобзари и лирники, аккомпанируя себе на музыкальных инструментах.

Тут следует заметить, что украинская эпическая традиция пережила кровавый XX век. Автор фильма в свое время был учеником настоящего кобзаря, сам умеет делать лиры и кобзы - и даже некоторое время был поводырем у слепого лирника. Кстати, его новый кинематографический проект и посвящен доле мальчика поводыря, который был свидетелем проведенного в Харькове в 1934 году съезда кобзарей Украины. Когда они, несмотря на давление коммунистической власти, отказались создавать новые думы о Ленине и Сталине, этих старых беспомощных слепых людей просто вывезли в голую заснеженную степь и выбросили в глубокий овраг, где они и замерзли.

Классический сюжет думы о бегстве трех братьев из неволи и трагической гибели в степи брошенного старшими братьями младшего в творчестве Санина неожиданно получает новое дыхание. Во всех версиях думы главный акцент делается на предательстве братьев, не пожелавших взять на своего коня брата и сознательно оставивших его умирать на Савур-могиле (курган в современной Донецкой области), а его прощание с жизнью является центральным сюжетом думы. Различие версий заключается лишь в дальнейшем наказании бесчестного поступка братьев. В части вариантов родители выгоняют обоих братьев, либо старшего из дому:

«То став отець і мати
Старшого сина во вік проклинати,
Не став він собі ні щастя ні долі мати,
Став він по чужих хатах спотикати,
Чужого хліба-солі заробляти».

В других вариантах они погибают от рук настигнувшей их татарской погони:

«И не сизі орли заклекотали,
Як їх Турки-яниченьки із-за могили напали, -
Постріляли, порубали,
Коні з здобиччю назад у город, у Туреччину позавертали» (8).

Для нас, очевидно, что их смерть является божьей карой за предательство, и татары, вернувшие себе украденную братьями золотую колыбель, поступили по праву. Но главным событием фильма стает новое прочтение режиссером гибели младшего брата. Младший брат - казак не гибнет от жажды, а находит спасение в доме молодой крымскотатарской женщины Амай. И тогда мир, расколотый противостоянием, на мгновение воссоединился, любовь оказалась сильнее зла и отчуждения. Ведь «Алтын бешик» заканчивается именно словами, что колыбель «может открыться только тому, в ком горит такая же могучая беззаветная любовь…, любовь, не знающая ни границ, ни преград, перед которой как огни перед солнцем меркнут и родина, и вера, и отчий дом» (9).

Мы слышим из уст молодой татарки и ее дочери рассказы о матери-волчице, песни на крымскотатарском языке, который переплетаются с украинским мелосом в устах казака. Это прикосновение к истокам тюркского фольклора завораживает украинского зрителя, ведь мы, как и герой фильма, не понимаем их слов, но чувствуем их искренность и тепло. У нас на глазах происходит превращение его в один из главных образов украинского эпоса - Казака Мамая, играющего на кобзе – музыкальном инструменте, сроднившем украинский и тюркский мир. Следует отметить, что созвучие имен Амай – Мамай – прямо отсылает нас к имени легендарной тюркской праматери – богини Умай, покровительницы очага и плодородия. И героиня фильма Амай – врачевательница умирающего казака и знаток полевых трав - обладает переданным ей из поколения в поколение божественным даром.

Народные картины с изображением казака Мамая, сидящего в шароварах по-турецки на земле с оселедцем на выбритой на татарский лад голове и кобзой в руках, в XVIII-XIX вв. были самыми популярными в Украине. Они висе

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

корчме, их рисовали на сундуках с девичьим приданным. В них казак предстает не в образе воина, а в образе лирического героя. В настоящее время большая коллекция этих картин представлена в Национальном художественном музее Украины (10). Имя казака Мамая неоднократно брали себе казаки - гайдамаки XVIII века, боровшиеся против богачей и угнетателей, памятник ему стоит на главной площади Киева – Майдане Незалежности.

Эта линия добра в фильме все время прерывается напряженной погоней трех татарских батыров за его братьями казаками. Украинский текст думы перемежается крымскотатарским текстом «Песни дервиша о доблестных мамлюках» (агыта – плача о погибающем батыре). Украинский зритель не понимает его слов, но чувствует нарастающее напряжение, которое заканчивается закономерной гибелью казаков и обретением золотой колыбели батырами.

Трагизм этих событий существует параллельно с радостным и удивительно притягивающим смешением украинского и тюркского мелоса в сюжете «свадьбы» украинца и татарки с их различным танцевальным ритмом, что завершается единой для обеих культур традицией посыпания молодых сладостями на счастье. Искренность и естественность этих событий легко воспринимается нами благодаря талантливой операторской работе Сергея Михальчука и ориентальной музыке Аллы Загайкевич.

Но такое счастье не вечно. Возвращаются крымскотатарские братья – батыры, и казак Мамай вынужден покинуть свою Амай. Для нас остается загадкой, погибли ли батыры и ее любимый в новой непримиримой схватке, как герои «Алтын бешик» и «Побега трех братьев из Азова с турецкой неволи», или нет. Это неважно. Главное - влюбленным не суждено быть рядом.

Несмотря на этот трагизм, фильм завершается оптимистическим продолжением трагического конца «Алтын бешик». Нашлась золотая колыбель, а в лоне матери Амай бьется плод Казака Мамая, который вновь попытается соединить несоединимое, два мира, две традиции, два языка, две религии, два народа, для которых земля современной Украины остается их единым домом: домом крымских татар и украинцев.

**ЛИТЕРАТУРА**


1. Енциклопедія українознавства. – Львів: Молоде життя, 1993. – Т.2. – С.604
2. Райхл. К. Тюркский эпос. Традиции, формы, поэтическая структура. – М: Восточная литература РАН, 2008. – С.31-54;
3. Марков Е. Очерки Крыма. – К., 2006; Легенды Крыма текст Н.Маркса Выпуск 1, - М.,1914 -43 с.; Легенды Крыма текст Н.Маркса Выпуск 2, - М., 1914 – 63 с.; Крымские легенды. – Симферополь, 1957. – 147 с.; Сказки и легенды татар Крыма. – запись текста К.У. Усеинова . – Симферополь, 1936.- 375 с.; Усеинов А.Б. Крымскотатарские сказки. Происхождение и развитие. - Симферополь, 2006. – 185 с.
4. Квітка Климент До питання про тюркський вплив на українську народну мелодику.//Збірник Історико-філологічного відділу ВУАН. – 76-6, 1928. – С.374-384;
5. Олесь Санін: «Сценарій – це дуже утилітарний твір…»// www.ktm.ukma.kiev.ua; Олесь Санін: «Досі почуваюся в Україні емігрантом» // www.wz.lviv.ua ;*Олександр Виноградов* Порятунок тих, хто тоне(Олесь Санін відроджує українське поетичне кіно) // www.kinokolo.ua/articles/76; Санін і його “Кобзарі” // www.gazeta.lviv.ua/articles/2006/03/17/13827;
6. Сказки и легенды татар Крыма. Запись текста К.У. Усеинова. – Симферополь: Госиздат Крым. АССР, 1936. – С.340-341;
7. ДУМИ ПРО СТЕП. Утеча трьох братів з Азова. //Українські народні думи. Т.1 корпусу тексти №№1-13 і вступ Катерини Грушевської.


Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Т.2 – С.88-137 (т.1) перевидання оригіналу в Грушевська, Катерина Українські народні думи: [У 2 т.]. – К.,2004; Втеча трьох братів із города Азова, з турецької неволі (Три брати азовські).// Українські народні думи та історичні пісні. – К.: вид. Академії наук, 1955. – С.61-67; смотрите также русский перевод в Героический эпос народов СССР.- М:Художественная литература, 1975. – Т.2. – С.7-13;

8. Українські народні думи. Т.1 корпусу тексти №№1-13 і вступ Катерини Грушевської. – К.: ДВУ,1927 Т.1; 1931 Т.2 – С.106-1077 (т.1) перевидання оригіналу в Грушевська, Катерина Українські народні думи: [У 2 т.]. – К.,2004
9. Сказки и легенды татар Крыма. Запись текста К.У. Усеинова. – Симферополь: Госиздат Крым. АССР, 1936. – С.355;
10. Національний художній музей України. Альбом. – Київ: Артанія Нова, 2003.- С.42-43; 173-177.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# "DƏDƏ QORQUD KITABI"NIN GIRIŞINDƏ IŞLƏNMIŞ BƏZI ARXAIZMLƏRIN AÇIMI

*ASIF HACIYEV*

"Dədə Qorqud" eposu oğuz-türk etnosunun qəhrəmanlıq tarixinin ən ibrə-tamiz səhifələrini bədii boyalarla əks etdirməklə yanaşı, onun yüzilliklərin sınağın-da işləkliyini itirmiş zəngin, coxçalarlı söz dünyasını yaşatmaqdadır. Mətnin əslinə uyğun açıqlanmasında mühüm rol oynayan bu arxaik lüğət qatının araşdırılması həmişə qorqudşünaslığın maraq dairəsində olmuş və indi də aktuallığını saxlamaq-dadır. Mübahisəli oxunuş və yozumlarla müşahidə edilən belə arxaizmlərdən bir çoxu abidənin "Giriş" hissəsində işlədilmişdir ki, bunlardan bəzisinə münasibət bildir-mək istərdik.

1.



(D, 7, 11-13).

"Gəldiň, ol kim solduran soydur, sapadanca yerindən uru turar, əlin-yüzin yumadan toquz bazlammac ilən bir küvlək yoğurd gəvzələr, toyunca tıqa-basa yer"

"Nəsil korlayan tərəf" kimi səciyyələndirilən qadın tipi ilə bağlı bu soylama-da "gəvzələr" variantında transkripsiya etdiyimiz arxaizmin də oxunuş və yozu-munda fikir müxtəlifliyi nəzərə çarpır. O.Ş.Gökyay həmin sözü "közler" şəklində oxuyaraq (8, 3) "korda pişirmek, yalın ateşte pişirmek" kimi (8, 253) açıqlamışdır. Düzü, bu yozum oğuz-elat məişəti ilə heç cürə səsləşmir. Yoğurd (qatıq) bişirilməz və ya qızdırılaraq çörəklə yeyilməz. M.Ergin həmin arxaizmi "gözler" şəklində oxuyub (5, I c., 76) "gözlemek, gözetlemek, beklemek" anlamlarında (5, II c., 178) şərh etmişdir ki, bu yozum da səbirsizliyi, dözümsüzlüyü ilə fərqlənən bu tipli qadınlara xas xüsusiyyət sayıla bilməz.

Akademik V.V. Bortaldın "высматривает" çevirməsindən (13, 13) belə ay-dın olur ki, görkəmli şərqşünas da bu sözü "gözlər" kimi oxumuş və "göz qoymaq, gözətləmək" anlamında qavramışdır.

S.Tezcan-H.Boeschoten nəşrində bu söz cəm şəkilçisi qəbul edib "toyunca" feli bağlamasına tabe olan "göz" kimi düşünülmüşdür (20, 33). S.Tezcan bunu daha doğru çözüm olaraq "Bir çanak yoğurdu gözleri doyuncaya kadar basa yer" anlamında şərh etmişdir (21, 56-57). Mövcud variantlardan tamamilə fərqlənən bu oxunuş tanınmış alim O.F.Sertkayanın son dövrlərdə hazırladığı nəşrdə mübahisə-siz qəbul olunmuşdur (16, 41). Etiraf edək ki, əgər soylamanın daxili ahəngini, sintaqmlar arasındakı fasiləni nəzərə almasaq, bu fikir daha orijinal və məntiqi səs-lənərdi. Lakin ritm, sadalanma intonasiyası tələb edir ki, məhz həmin məqamda fikir bitkinliyi yaratmaq üçün fel işlədilməlidir.

Görünür, bunu nəzərə alan Azərbaycan naşirləri həmin sözü fel kimi oxumağı daha məqsədəuyğun bilmişlər. Belə ki, H.Araslı onu "güvəzlər" şəklində (10, 17) oxumuş, lakin hansı mənada anladığını izah etməmişdir. Ş.Cəmşidov oxu-nuunda isə göstərilən parça bütövlükdə belə getmişdir: "Gəldin ol kim, solduran soydur, sabadanca yerindən uru durar. Əlin-yüzin yumadan doqquz bazlamac əppəknən bir güvələk yoğurd gözələr, doyunca tıqa-basa yer" (3, 282).

Mətnşünas alim nədənsə digər naşirlərdən fərqli oxuduğu bu parçaya, o cümlədən "gözələr" sözünə şərh verməmiş və mənalandırmanı oxucuların öhdəsinə buraxmışdır. Güman edirik ki, araşdırıcı "gözələ(mək)" felinin qeyri-qəti gələcək zaman forması kimi düşündüyü "gözələr" sözünü "gözünü tutmaq", yəni "gözü doyunca yemək" anlamında qavramışdır. Hətta zənnimiz doğru çıxsa belə, bu mənalandırma nə abidənin formalaşdığı və ya yazıya alındığı dövrlərin dil faktları ilə, nə də müasir baxımdan təsdiqlənmir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

F.Zeynalov-S.Əlizadə birgə nəşrində isə bu arxaizm “gəvəzlər” variantında oxunaraq (11, 33) müasir dilimizə “gəvələyər” kimi çevrilmişdir (11, 131). S.Əli-zadə bu mövqelərini “gəvəzlə-” felinin “gəvşə-//gövşə-” feli və dialektlərimizdə iş-lənən “gəvəz//gəvəzə” sifətləri ilə eyni kökdən olması ilə əsaslandırmışdır (11, 227). Özünün hazırladığı ayrıca nəşrdə isə görkəmli qorqudşünas “gəvəzlər” felini “gəvələyə-gəvələyə (acgözlüklə) yemək” (12, 201) kimi açıqlamışdır. Bizcə, mənalandırma baxımından dəqiq ifadə olunmuş bu arxaizmin yazılışı müəyyən suallar ortaya qoyur. Bu, ilk növbədə, müəllifin eyni köklə əlaqələndirdiyi “gəvşə-//gövşə-“ feli ilə “gəvəz//gəvəzə” sifətlərinin semantik uyğunsuzluqlarından irəli gəlir. Araşdırma göstərir ki, “çeynəmək” mənalı arxaik “gəv-” felindən (9, IIc., 44) yaranmış eyni mənalı gəvşə-//gövşə- felləri ilə Türkiyə türkcəsində (14, II c., 2 h., 1579) və Azərbaycan dialektlərində (1, 280) “çoxdanışan, boşboğaz” anlamında işlənən “gəvəz//gəvəzə” sözləri arasında məna əlaqəsi tapmaq çətindir. Odur ki, sözün “gəvəzlər” şəklində deyil, “gəvzələr” (-r qeyri-qəti gələcək zaman şəkilçi-sidir) şəklində oxunuşu mövcud ziddiyyətə bir aydınlıq gətirir. Əksər türk dillərin-də “çeynəmək” anlamını verən “gevşə” feli “köyşə-”, “köysə-”, “küysə-”, “küyze-” və s. fonetik variantlarında qeydə alınmışdır (17, 5). Bu isə “gəvzələ-” felini gəvşə-//gəvsə-//gəvzə- fonetik keçidində -lə(<ələ) sürəklilik yaradan şəkilçi ilə düzəlmiş söz kimi düşünməyə əsas verir. Bundan əlavə, Türkiyə türkcəsində (14, II c., 2 h., 1578) və Azərbaycan dilində (2, 148) “çeynəmək” mənasında indi də işlənməkdə olan “gəvələ-” (gəv+ələ) feli bu etimoloji açımın doğruluğuna zamanət verir. Gəti-rilən mətn parçasında hamıdan tez yuxudan durub qarnını ac-gözlüklə doyuran qadın tipini xarakterizə etmək üçün “gəvzələ(mək)” feli yerində işlənmiş, fikri dəqiq ifadə edən sözdür. Sonrakı “doyunca tıqa-basa yer” ifadəsi həmin sözün daşıdığı mənanı daha da qüvvətləndirməyə xidmət edir.

Bu məqamda S.Tezcanın gətirilən parçada işlənmiş “küvlək” sözünün mənşəyi ilə bağlı bir fikrinə münasibət bildirmək istərdik. Müəllifə görə, “bu sözsüz ermeniceden alıntıdır” (21, 57). S.Əlizadənin “küp<küb<küv” etimoloji kökü ilə bağladığı bu sözün (11, 222) Ə.Həyyan lüğətində “süd qabı” mənasında işləndiyini görürük (7, 51; təəssüf ki, naşirlər “güvlək” əvəzinə “güvələk” kimi transkripsiya ediblər). Eyni zamanda “Kitab”ın mətninə düşməyib, lakin Dədə Qorquda aid edilən soylama parçalarının birində bu sözə rast gəlirik:

Dere, tepe kalmaya, tarla ola
Tana dolabı kalmaya, küvlək ola (8, CXXXI).

“Güv” sözü tarixən “qoruyub saxlamaq” mənalı arxaik “kü-” felindən yaran-mışdırsa, “güvlək” özü -lək şəkliçisi ilə bu sözdən düzəlmişdir. Həm söz kökü, həm də leksik şəkilçilər sırf türk mənşəlidirsə, necə ola bilərki, söz ermənicədən alınma olsun? Bundan başqa, yenə də Türkiyə türkcəsində (14, II c., 2 h., 1652) və Azərbaycan dilində “gildən düzəldilən qab” anlamında işlədilən “güvəc” (güv+əc) sözü bu fikrin əsassız olduğunu göstərir. Vaxtilə Azərbaycan dilçi alimləri bir-mənalı şəkildə belə bir qənaətə gəlmişlər ki, Dədə Qorqud boylarında erməni izi və ümumiyyətlə, bir dənə də olsun erməni sözü nəzərə çarpmır (ətraflı bax: 22). Dərin araşdırmaya söykənən bu nəticə ilə yanaşı, göründüyü kimi, “güvlək” sözünün etimoloji açımı da S.Tezcanın R.Dankoffa əsaslanaraq söylədiyi mülahizələrin yanlış olduğunu sübuta yetirir.

2. 
نوليدي بو اوليدي برينه دخي
واريدم اومارمدن يخشي اويار اوليدي

(D-8, 3-4).

“Nolaydı, bu öləydi, birinə dəxi varaydım, umarımdan yaxşı, uyar olaydı,” – dedi**.**

Abidənin müqəddiməsində “solduran soy” tipli naşükür qadınların dili ilə yaşadığı evə, ərə qarşı sayğısızlığı ifadə edən bu cümlədəki “uyar” arxaizminin oxunuşu və açımı xeyli maraq doğurur. Görkəmli qorqudşünas O.Ş.Gökyay bu sözü “uyar” şəklində oxuyub “uyar olmaq” tərkibində “uyğun düşmek, denk gelmek” mənasında açıqlamışdır (8, 3, 297). Eposun digər tanınmış türk naşiri və tədqiqatçısı M.Ergin bu sözü “uymaq” felinin qrammatik forması kimi düşünmüş (5, II c., 304) və müasir türkcəyə çevirdiyi mətndə “uyğun”

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

S.Tezcan – H.Boeschoten birgə nəşrində və eləcə də O.F.Sertkaya transkrip-siyasında Dezden nüsxəsindəki yazılış şəkli nəzərə alınmayaraq Vatikan nüsxəsinə istinadən "umar" variantı əsas götürülmüşdür (16, 43, 142; 20, 33). O.F.Sert-kayanın fikrincə, burada Drezden nüsxə katibi yanlışlığa yol verərək "umar" sözündəki "mim" hərfinin altına iki nöqtə qoymaqla onu "uyar" kimi yazmışdır. Tədqiqatçı alim sözün etimologiyasına da toxunaraq onun um- felindən -ar şəkilçisi ilə düzəlməsi və "Derleme sözlüyü"ndəki "umarsız" (carəsiz) kəlməsinə istinadən işləndiyi cümlənin "umduğumdan (umuncumdan) (daha) güzel çare (inanc) olaydı" anlamını ifadə etməsi qənaətinə gəlir (16, 142).

Akademik V.V.Bartoldun verilmiş cümlənin "umarımdan yaxşı, uyar olay-dı" hissəsinin "выйдет лучше, чем я надеюсь" şəklində tərcüməsindən (13, 13) belə aydın olur ki, böyük şərqşünas "yaxşı", "uyar" sözlərini eyni mənada qav-ramışdır. "Kitab"ın Azərbaycan naşirlərindən H.Araslı bu arxaizmə nisbətən sər-bəst yanaşaraq əski yazılışla təsdiqlənməyən "o barı" formasında, yəni, "o" şəxs əvəzliyi və "barı" arzu ədatının birləşməsi kimi oxumuşdur (10, 17). Qorqudşünas alim Ş.Cəmşidov da təxminən eyni yolla gedərək tərtib etdiyi mətndə "o barı" (3, 282), araşdırmalara əsasən yazdığı təshihdə isə "o yar" ("o" işarə əvəzliyi və "yar" ismindən ibarət birləşmə) variantında vermişdir (3, 104).

F.Zeynalov – S.Əlizadə birgə nəşrində "uyar" sözü özündən əvvəlki "yaxşı" sözü ilə defislə yazılaraq yaxın mənalı sözlərin qoşalaşması kimi düşünülmüş (11, 33) və "yaxşı-uyğun" anlamında çevrilmişdir (11, 131). Görkəmli qorqudşünas S. Əlizadə ayrıca hazırladığı nəşrdə də bu mövqedə qalmış və tərtib etdiyi sözlükdə "uyar" arxaizmini "uyğun, münasib, yaraşan" məna çalarlarında şərh etmişdir (12, 225). Göründüyü kimi, məlum arxaizmin aıqlanmasına münaibət fərqlidir. Bizcə, ilk dəfə Vatikan nüsxə katibi artıq həmin dövr üçün işləklikdən düşmüş "uyar" arxaizmini anlaya bilmədiyi üçün öncə gələn "umarımdan" sözünün təsiri ilə daha əski nüsxədəki yazılış variantına düzəliş etməklə onu "umar" şəklində vermişdir.

Araşdırmalar göstərir ki, boyların əsasən V-VIII əsrlər arasında formalaşması və təxminən eyni yüzilliklərdə ilk dəfə yazıya köçürülməsi bu möhtəşəm abidənin dilində əski türk leksikasının geniş işlənməsinə imkan yaratmışdır. Məhz buna görə də "Kitab"ın dilində artıq XI əsrdə, yəni ulu dilçi M.Kaşğarinin "Divani lüğat-it-türk" əsərinin qələmə alındığı dövrdə tamamilə arxaikləşən nadir sözlərə də rast gəlmək mümkün olur ki, "uyar" arxaizmi də belələrindəndir. Məlumdur ki, qədim türk yazılı abidələrinin sırasında Yenisey çayı hövzəsində tapılmış abidələr xüsusi yer tutur. Bəzi dilçilər dil bəsitliyinə və yazılış formasına görə hətta Yenisey abidələrini Orxon abidəlrindən daha qədim dövrün məhsulu hesab edirlər (15, 207). Haqqında danışılan "uyar" arxaizminə ilk dəfə bu abidələrin mətnində rast gəlinir ki, bir neçə fakta müraciət edək.

Elegeş abidəsində:

"2. Yüz ər kadaşım uyarın üçün yüz ərən ə(lig) öküzün təgdük üçün adırıltım" (15, 232).

Beşinci Çaxöl abidəsində:

"2. Uyar kadınım üçün ükdim yıta içim yurçımka y...

3. Uyar bəgimcə adırıltım, uyar kadaşımka adırıltım" (15, 246).

Birinci Altın göl abidəsinin sağ tərəfində:

"4. Ər ərdəm üçün, eçim uyarın üçün bengümin tikə berti" (15, 266).

Minusinsk muzeyində saxlanılan bir abidənin ikinci tərəfində:

"4. ... üçün ağı uyar eşim sizimə adırıltım a bökmədim na elim ş z y" (15, 296).

Bundan əlavə "uyar" söz forması Göytürk əlifbası ilə kağız üzərində yazıya alınmış ilk mətnlərdən sayılan "Irk bitik" abidəsinin XXVIII ırkında – falında (42-ci sətirdə) işlədilmişdir:

"Kan olurup ordu yarmış, il-
i turmuş, tört buluntakı edgüsi uyarı
tirilipən məniləyür, bədizləyür, – tir. Ança bilinlər : edgü ol!" (15, 192).

Mətnlərin müasir dilə çevirməsində müvafiq olaraq "güclü, məşhur, nüfuzlu, ağıllı" sifətlərindən istifadə edilsə də, Ə.Rəcəbov və Y.Məmmədovun hazırladığı sözlükdə "qüdrət, nüfuz, hörmət" (15, 381), Ə.Şükürlünün tərtib etdiyi sözlükdə isə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

324) anlamlarında şərh olunmuşdur. T.Tekinin ha-zırladığı sözlükdə isə bu arxaizm "uyur" fonetik variantında əks olunaraq "mukte-dir" mənasında (20, 287) izah edilmişdir. "Qədim türk sözlüyü"ndə isə "uyar" ar-xaizmi "bacarıqlı, qüdrətli" ("способный, могущественный") mənalarında (4, 607) əlamət bildirən bir sifət kimi daha dəqiq ifadə olunmuşdur. Təhlil göstərir ki, "uyar" sifəti "u-" və "uy-" arxaik fellərindən *–ar*[2] şəkilçisi vasitəsilə düzəlmişdir. Etimoloji baxımdan "u-" və "uy-" felləri eyni sözün fonetik variantları sayılır və qədim abidələrin dilində "bacarmaq" mənasında ayrıca qeydə alınmışdır.

Kül Tigin abidəsinin şərq tərəfində:

"10. Yağı bolıp itinü, yaratunu umaduk yana içikmiş" (15, 72)

Çevirməsi:

"10. Yağı olub (eli) təşkil etməyi, yaratmağı bacarmadığından yenə tabe olmuş" (15, 79).

"U-" arxaik felinə feli bağlama formasında "qüdrəti olmaq, gücü yetmək" mənalarında (9, IV c., 595) M.Kaşğari lüğətində də rast gəlinir:

"Öç, kək kamuğ kişininq
Yalnquk üzə alım bil,
Edhgülüküg uğança
Əliginq bilə təlim kıl".

Bil ki, qisas başqasında alınacaq bir borc kimidir,
Gücün yetən qədər qonağa, qəribə yaxşılıq elə" (9, I c., 117).

Bundan əlavə, qədim türk dilinin bu ensiklopedik lüğətində həmin kökdən düzəlmiş "hər şeyə gücü çatan, qadir, qüdrətli" mənalı "uğan" sözü də (9, I c., 144) verilmişdir ki, bu da "uyar" arxaizminin məhz kifayət qədər işlək olan "u-//uy-" felindən yaranmasını təsdiqləyir.

"Dədə Qorqud kitabı"ndan verdiyimiz cümlənin tərkibində də "uyar" sözü-nün "bacarıqlı, qüdrətli" anlamlarında işlədilməsi açıq-aydın duyulur. Ərinin ölməsini arzulayan qadın yenisinin umduğundan da yaxşı, bacarıqlı, qüdrətli olma-sını istəyir ki, digər yozumlarla müqayisədə bu daha məntiqi səslənir.

Bu kimi faktlar onu göstərir ki, ilk baxışda hətta çox aydın anlaşılan bəzi arxaizmlərin daha dərindən araşdırılmasına dəyər.

## ƏDƏBIYYAT

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: 1964.
2. Azərbaycan dilinin izahlı lüğəti. III c., Bakı: Elm, 1983.
3. Cəmşidov Ş. "Kitabi-Dədə Qorqud" (Tarixi, coğrafi, tekstoloji tədqiq və Drezden əlyazması dürüstləşdirilmiş elmi mətni). Bakı: Elm, 1999.
4. Древнетюркский словарь. Ленинград: Наука, 1969.
5. Ergin M. Dede Korkut kitabı. Giriş – Metin – Faksemele. Ic., Ankara: 1958; IIc., 1963.
6. Ergin M. Dede Korkut Kitabı. İstanbul: 2008
7. Əsirəddin Əbu Həyyan əl-əndəlusi. Kitab-əl-idrak-li-lisan əl-ətrak (Türk dillərini dərk etmə kitabı", Bakı: Azərnəşr, 1992.
8. Gökyay O.Ş. Dedem Korkutun Kitabı. İstanbul: 2000.
9. Kaşğari M. "Divanü lüğat-it-türk" (tərcümə edən və nəşrə hazırlayan: R.Əsgər). Dörd cildli, Bakı: Ozan, 2006.
10. Kitabi-Dədə Qorqud (tərtib edəni: Araslı H.). Bakı: Gənclik, 1977.
11. Kitabi-Dədə Qorqud (tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəd-dimə F.Zeynalov və S.Əlizadənindir). Bakı: Yazıçı, 1988.
12. Kitabi-Dədə Qorqud (tərtib edəni, çapa hazırlayanı, ön sözün və lüğətin müəllifi S.Əlizadə). Bakı: Yeni Nəşrlər Evi, 1999.
13. Книга моего Деда Коркута. Перевод В.В.Бартольда, издатели: В.М. Жирмунский, А.Н. Кононов, М.-Л.: 1962
14. Радлов В.В. Опыть словаря тюркских наречий, т. I-IV, С.-Пб.: 1899-1911.
15. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı: Ya

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

16. Sertkaya O.F. Dede Korkut kitabının Drezdenden nüshasının "Giriş bölümü, İstanbul: Ötüken, 2006.
17. Севортян Э.В. Этимологический словарь тюркских языков (общетюркские и межтюркские основы на гласные). М.: Наука, 1974.
18. Şükürlü Ə. Qədim türk yazılı abidələrinin dili. Bakı: Maarif, 1993
19. Tekin T. Orhon Türkçesi Grameri. İstanbul: 2003.
20. Tezcan S., Boeschoten H. Dede Korkut Oğuznameleri. İstanbul: 2001.
21. Tezcan S. Dede Korkut Oğuznameleri üzerine notlar. İstanbul: 2001.
22. Vəliyev K.N., Cəlilov F.A. "Kitabi-Dədə Qorqud"un dilində erməni sözləri varmı?//ADU-nun "Elmi əsərləri", Dil və ədəbiyyat seriyası. 1975, №5, s.34-43.

## ABOUT SOME KNOWIN ARCHAISMS IN THE EPOS "DADA GORGUD"

The book "Dada Gorgud" is a work of fiction. It reflects the language puculiarities of periods of forming, writing and copying the work. That's why in interpretation of different words and phrases we find different variants. The article reveals meaning of such words as "uyar" , "gəvzələ(mək)".

## О НЕКОТОРЫХ АРХАИЗМАХ В ВВЕДЕНИЕ ЭПОСЕ "ДЕДЕ-КОРКУТ"

Книга "Деде-Коркут" является произведением художественной литера-туры, отражающей в себе языковые особенности периодов формирования, написания и копирования произведения. Поэтому в толковании разных слов и выражений встречаются разные варианты. В статье выявлены значения таких слов, как "uyar" и "gəvzələ(mək)"

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## AĞBABA-ÇILDIRDA DASTAN YARADICILIĞINA DAIR (AŞIQ ŞENLIYIN "LƏTIF ŞAH" DASTANI ƏSASINDA)

***AVTANDIL AĞBABA***

Azərbaycan aşıq yaradıcılığının digər mühitlərində oluğu kimi, Ağbaba-Çıldır aşıq mühitində də ağır informatik yük daşıyan dastan janrı qədim türklərin mifik düşüncə tərzini, etik-estetik görüşlərini, etno-milli psixologiyasını, etnogenezisini geniş bir arealda özündə əks etdirən folklor mətnidir və özünəməxsus xüsusiyyətlərə malikdir. Məlumdur ki, əski türk-oğuz mədəniyyətinin çoxşaxəli ənənəsindən gələn obrazlı təhkiyəçilik, musiqi-improvizasiya və ifa-davranış prinsipləri ayrılmaz bir vəhdət təşkil edərək özünü ən çox dastanlarda göstərir. Məhz bu baxımdan epik təfəkkür, folklor informasiyasının genişliyi və əhatəliliyi dastanların poetik məzmununa və strukturuna hoparaq bu janrı sabit informasiya daşıyıcısına çevirir. O da bəllidir ki, Azərbaycan aşıq yaradıcılığının ayrı-ayrı aşıq mühitlərində yayılan müxtəlif dastanlar etnosun ümummilli ədəbi-mədəni təfəkkürünü özündə ehtiva etməklə yanaşı, həm də regional xüsusiyyətlərə malikdir. Bu cəhəti nəzərdə tutan tanınmış folklorşünas H.İsmayılov yazır ki, «hər bir aşığın repertuarı olduğu kimi, hər bir regiona məxsus müəyyən yaradıcılıq ənənələri, aşıq repertuarı da olmuşdur, bu da ona digər mühitlərdən seçilməyə əsas verir» (1. 102). Alimin bu fikrindən qaynaqlanaraq qeyd edə bilərik ki, Ağbaba-Çıldır aşıq mühitində dastan yaradıcılığı bu bölgənin coğrafi relyefi, təbii şəraiti, bölgə əhalisinin milli məişəti, estetik təfəkkürü, etno-milli yaddaşın ən qədim layları ilə bağlıdır. Təkcə onu qeyd etmək yerinə düşər ki, «Kitabi-Dədə Qorqud» dastanında xatırlanan bir sıra onomastik vahidlərin – toponim, hidronim, oronim, etnonim, antroponimlərin və s. birbaşa bu bölgə ilə bağlılığı vardır. Başqa sözlə, bu bölgədə mövcud olan onlarla yer-yurd adları ana kitabımızda öz əksini tapmışdır ki, bu da Ağbaba-Çıldırda dastan yaradıcılığının qədim və əski köklərə əsaslandığını göstərən ən mühüm keyfiyyət kimi diqqəti cəlb edir, eyni zamanda regional cizgiləri də özündə cəmləşdirir.

Ağbaba-Çıldır aşıq mühitidə ənənəvi dastanlarla («Əsli və Kərəm», «Koroğlu» və onun müxtəlif qolları, «Tahir və Zöhrə», «Şah İsmayıl», «Abbas və Gülgəz», «Aşıq Qərib» və s.) yanaşı, bir sıra dastanların bölgə variantları da yaranmış və aşıqların repertuarında özünə önəmli yer tutmuşdur. Onu da qeyd edək ki, aşıq yaradıcılığı prosesində dastanların müxtəlif variantları yaranıb formalaşdığı kimi, ayrı-ayrı saz-söz sənətkarlarının fərdi yaradıcılıq məhsulu olan dastan və dastan-rəvayətlər də xalq arasında geniş yayılmışdır. «Lətif şah», «Salman bəy və Durnatel xanım» (Aşıq Şenlik), «Yaralı top» (Aşıq Müdami), «Sarac İbrahim», «Cünun və dərdli Sultan» (Aşıq Murad Çobanoğlu), «Qaçaq Usuf» (Aşıq Nəsib) və s. dediklərimizə nümunə ola bilər. Bu dastan və dastan-rəvayətlərin yayılma arealı regional hüdudlarla məhdudlaşmır, daha geniş folklor ərazilərini əhatə edir. Aşıq Şenliyin «Lətif şah» dastanı yalnız Türkiyədə deyil, Türkiyədən uzaqlarda da geniş yayılmışdır. A.Kafkasyalı dastanın Cənubi Azərbaycanın Urmiya, Sulduz // Qarapapaq aşıqlarının repertuarında möhkəm yer tutduğunu göstərir (2. 116; 163).

Araşdırıcıların fikrincə, "bu günə qədər "Lətif şah" dastanının səkkiz variantı təsbit edilmişdir." (3.4)

Azərbaycan, o cümlədən Ağbaba-Çıldır aşıqlarının repertuarında bu dastanın «Lətif şah», «Lətif şah və Telli Mehriban, «Lətif şah və Mehriban Soltan» variantları geniş yer tutur. Biz bu yazımızda görkəmli tədqiqatçı A.Caferoğlunun axıskalı informatorların dilindən qələmə aldığı «Lətif şah və Telli Mehriban» adlı variant üzərində dayanacağıq.

Türkiyəli tədqiqatçı Bayram Durbilməz dastan yaradıcılığı və Qars aşıqlarına aid araşdırmasında göstərir ki, «hekayə (dastan) təsnif edən (yaradan) aşıq dastanın sonunda məhləsini (ünvanını), adını, təsnif etdiyi tarixi, dastanın mənzum qismində neçə bənd türkü bulunduğunu və s. bildirir. Sözgəlimi, Aşıq Şenliyin təsnif etdiyi «Lətif şah», «Sevdəgar şah», «Salman bəy» adlarını daşıyan üç dastanın son türkülərində (möhürbəndində – A.A) dastanın kimin tərəfindən və nə zaman yaradıldığı bildirilir» (4. 356). Öz fikrini əsaslandırmaq üçün B.Durbilməz prof. E.Aslana istinad edərək aşağıdakı bəndi nümunə g

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən lələyəm, dərdim çoxdu sinədə,
Söz bənd olub yüz qırx yeddi xanədə.
Tarix min iki yüz doxsan sənədə,
Çıldırlı Şenliyin yadigarıdı. (4. 357)

Həmin bənd «Azərbaycan dastanları»nın birinci cildinin qeydlər bölməsində bu cür verilmişdir:

Səfil Şenlik, dərdin çoxdu sinəndə,
Söz bənd oldu yüz yetmiş dörd xanədə.
Min iki yüz altmış iki sənədə,
Sərgərdan Lətifin yadigarıdı. (5. 385)

Mərhum folklorşünas Q.Vəliyev isə «Lətif şah» dastanının möhürbəndinə əsaslanaraq əsərin hicri tarixi ilə 1292-ci ildə (1874) yarandığını göstərir (6. 19). Fikrimizcə, qeyd olunan üç müxtəlif tarixdən 1873-cü il (hicri 1290) daha dəqiqdir. Çünki 1262-ci il hicri tarixini miladiyə çevirsək, 1845-ci il alınar. 1845-ci ildə Şenlik hələ dünyaya gəlməmişdi. Q.Vəliyev isə dastanın yaranmasını hicri 1292-ci, miladi 1874-cü il olduğunu qeyd edir. Bu tarix B.Durbilməzin göstərdiyi tarixə daha yaxındır. Həm də 1873-cü ildə Aşıq Şenliyin iyirmi üç yaşı var idi. Bu yaş dastanın yaranması üçün müəyyən əsas verir.

Qeyd edək ki, Çıldırlı Aşıq Şenliyin yaratdığı «Lətif şah» dastanı mükəmməl süjeti, mifoloji hadisə və əhvalatların, obrazların zənginliyi ilə seçilir. Dastanda padşahın övladının olmaması, nəzir-niyazdan sonra onun oğlunun dünyaya gəlməsi, dərvişin ona alma verməsi, əsərin qəhrəmanının buta alması və s. ənənəvi süjetlərlə gerçək hadisələrin, sakral dünya ilə real dünyanın bir-birinə inteqrasiyası əsərin süjetinin çoxşaxəliliyini, surətlərin tamlığını, kompozisiyanın mürəkkəbliyini təmin edir. Məlumdur ki, dastanda Lətif şahın bütün elmləri öyrənib başa vurmasından sonra onun karvan soymasından, Hindistan padşahının qızı Telli Mehribanın ona buta verilməsindən və bu yolda Lətif şahın başına gələn müxtəlif əhvalatlardan bəhs olunur. Qeyd edək ki, Lətif şah həm aşıq, həm də qəhrəmanlıq statusu daşıyır. Buta verilənədək qəhrəmanlıq funksiyasını, buta verildikdən sonra isə həm aşiqlik, həm də qəhrəmanlıq funksiyasını yerinə yetirən Lətif şahın adı da qədim türk eposçuluq ənənələri və mifik düşüncə ilə bağlıdır. Bir sıra Azərbaycan nağıl və dastanlarının başlanğıc hissəsində əsasən, belə stabil epizodlar mühüm yer tutur: dərvişin verdiyi almadan, qoxulatdığı güldən və s. sonra övlad həsrəti çəkən adamın qarşısında iki şərt qoyulur: doğulan uşaqlardan biri müəyyən yaş həddi çatdıqda dərvişə verilməlidir, ya da uşağa mütləq dərvişin özü ad qoymalıdır.

«Lətif şah və Telli Mehriban» dastanında Lətif şaha ad qoyma mərasimi qeyd etdiyimiz ikinci motivlə bağlıdır. Yalnız bu əsərdə deyil, bir sıra nağıl və dastanlarımızda uşağa dərvişlərin ad qoyması, şübhəsiz ki, xalqımızın dini-mifoloji qörüşlərini özündə əks etdirir. Adqoyma mərasimi ilə bağlı dastan və mif kontekstində «Kitabi-Dədə Qorqud» qəhrəmanlarının adlarının semantikasını açıqlayan tədqiqatçı M.Cəfərli yazır: «...Adalma türklərdə bir sabit element olmaqla müxtəlif yaş hədləri ilə bağlı olmuşdur. «Kitabi-Dədə Qorqud»da bunun yaş həddi var – on beş yaş» (7. 59).

Lətif şahın adının magik səciyyəsi, mifoloji semantikası kimi, ona buta verilməsi prosesi də qeyri-adi keyfiyyətlərlə, əski inamlarla bağlıdır. Buta verilməsi ilə əlaqədar A.Kabaklı yazır ki, pirlər (müqəddəslər) «aşığa üç dolu eşq badəsi verər. Bunlardan biri Allah üçün... biri pirlər üçün... üçüncüsü də dünyada və axirətdə sevdasını çəkəcəyi gözəl bir qız üçündür. Pir ona sevəcəyi dilbərin camalını da göstərir» (8. 17). Dastanda həm Lətif şaha, həm də Telli Mehribana eyni vaxtda buta verilməsi epizodu bu cür təsvir olunur: «Telli Mehriban bir gecə öz otağında yatdığı yerdə yatağın içində yuxuda bir adam gəldi əlindən tutdu, yerində oturtdu. Əlində bir kuzə, bir dənə də stəkan. Kuzədən su tökdü stəkana. Telli Mehribana uzatdı dedi ki, bunu içəcəksən. Bizi yoxdan var eləyən allahın eşqinə. Aldı bu qız bu badəni içdi allahın eşqinə. Bir daha doldurdu. Dedi ki, bunu da içəcəksən qırxların, pirlərin, axır zaman peyğəmbərinin eşqinə. Aldı qız onu da içdi. Bir daha doldurdu. Dedi ki, bu badəni içəcəksən Yəmən padşahının oğlu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lətif şahın eşqinə. Elə eynilə Lətif şaha içirdi. Demə, bu adam Xızır əleyhissalammış. İki barmağını ayna elədi. Qızın camalını oğlana, oğlanın camalını da qıza göstərdi» (9. 28).

Buta aldıqdan sonra «üç yüz altmış damarı od tutub yanmağa başlayan» Telli Mehriban Lətif şahın, Lətif buna görə də buta almış qəhrəmanlar öz qeyri-adilikləri ilə seçilməyə başlayırlar» (1. 86).

84- Hüseyn Pəhləvan Behyar əyyarı özü ilə götürüb, şah dan vidalaşıb sol tərəfə getdi. Yolda Behyar əyyara dedi: "sən bir az yegin gəl, mən bu qirqitay atı bir az çapırdım, görüm necə gedir", Hüseyn ayaqlarını atın belinə sıxanda at ildırım kimi aradan çıxdı. Hüseyn bu fikirdə idi ki olmuya Behyar dalıda qala, baxdı gördü Behyar bundan bir ağac qabaqda gedir.

85- O gün axşama qədər yol getdilər, bir bulaq başında gecəni səhər edib, səhər yola düşdülər, bir azca gedəndən sonra, bir adaya yetişdilər və baxıb gördülər qabaqda bir qoşun da vardır.

86- Hüseyn diqqətlə baxdı gördü, bunun qılıncı, atı, xurcunu burdadır.

87- Hüseyn Behyara dedi: yəqin ki Behzadın yeri buradır.

88- Behyar soruşdu: indi nə iş görursən?

89- Hüseyn dedi: bu Behzadı tutmaqdan sevay ayrı çaramız yoxdur.

90- Bir az getdilər, bir çadirda bir özbək oturmuşdu.

91- Hüseyn soruşdu bura kimindir?

92- Özbək dedi: bu qoşun və çadirlar Behzadın dır.

93- Hüseyn dedi: bu şeylər mənimdirlər.

94- Özbək dedi: nə bilirsən sənindirlər?

95- Hüseyn dedi: bu qılıncın ağırlığı yuz batmandir, bu geyimin (zerehin) ağırlığı onsəkgiz batmandır, o şeylər ki, aparmişdılar hamısını dedi və atı da nişan verdi.

96- Özbək dedi: əgər istəyirsən sağ qalasan, Behzad gəlincə buradan get

97- Hüseyn dedi: şeylərimin hamısını verməsəz burdan gedən deyiləm və ya da gərək hamınızı öldürəm.

98- Bu halda qırx özbək sərdarları əl şəmşirə və qılınca atanda, Hüseyn Pəhləvan da əl qılınca, bir nərə çəkib qırx özbəki qarışqa kimi dağıtdı, Hüseyn özbəkləri bir-bir öldürəndə, Behyar iki-iki öldürürdü, bir ğovğa və bəlva bu qoşunun içində düşdü ki, gəl görəsən.

99- Bu zaman Behzad şikardan gəldi, gördu əcəb ğovğa dir, Behzad yaxına gəldi səsləndi və özbəklərə dedi: əl saxlayın görüm nə xəbərdir.

100- Behzad Hüseyn Pəhləvana dedi: yaxşı od salıbsan, sən kimsən və nə istəyirsən?

101- Hüseyn Pəhləvan dedi: ey həramzadə, qoşun gətirib mənim ölkəmə- vətənimə- yurduma təcavüz edib, gələn- gedəni talayyrsan, danişani da öldürürsən, mənim şeylərimi də oğrulayyıb-san, onlari ver, bu ölkədən də itil get, daha bir şey istəmirəm.

102- İş yarışa çəkdi, Hüseyn ilə Behzad tutuşdular, Hüseyn Pəhləvan Behzadı göyə qovzayıb götürdü başına, istəyirdi yerə vursun, Behzad hilə ilə dedi: Ey pəhləvan, indi ki sən mənə güc gəldin, indi mən müsəlman oluram. Hüseyn dər hal onu bağışladı. Behyar dedi: bu zalımı öldür, onun şərrindən qurtaraq, amma Hüseyn onu öldürmədi.

103- Behzad dedi: Sənin şeylərin hamısı hazirdir, gəliz oturaq bir az şərab içək, gedəndə o şeyləridə verərəm aparasınız.

104- Hüseyn sadəlikdən Behzadın sözünü inandı, oturdular, şərab içəndə Behzad Hüseynin piyalasına dava tökdürdü. Hüseyn şərabi içən kimi ürəyinin başından ayağınacaq yandı qurudu, Hüseyn istədi qılınc vura, yerə yıxıldı, filfovr və bir anda Behzad Hüseyni zəncir ilə bağlayıb və bənövşə yağı burnuna tutdu. Hüseyn huşa gəldi, gördü qol qıçı zəncirlənibdir, Behzad dedi: and olsun Allaha, istəyirdim səni indi öldürəm, amma dedim əgər Movla Əli haqq dırsa, səni sabaha kimi nəcat versin, yoxsa sabah səni öldürərəm. Hüseyni möhkəm bağlayıb bir sandığa qoyub üstündə oturdu.

105**- amma** neçə kəlmə də Behyar əyyardan eşidin: elə ki Behyar əyyar işi belə gördü, üz qoydu evə tərəf, yer ilə göy arasında qaçmağa. Mənzilə çatdı, başdan ayağa qadın paltarı geydi, üz gözünü bəzədi və özünü bir gözəl qadın şəklinə salıb, gəldi Behzadın çadırının (obasının) dalısında ağlamağa başladı. Behzadın adamları gördülər gecə vaqtı bir gözəl qadın oturub ağlayır. Onu gətirdilər içəri və Behzada dedilər: bu qadın çadırın dalı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

106- Behzad soruşdu: "sən kimsən? Hardan gəlib-hara gedirsən?"

107- Behyar dedi: "bu dağın dalısında bir kənd var, onun da dalısında bir ayrı kənd var, mən oralıyam, bu gün gəlin aparanda, at çapırdıq, at məni yerə yıxdı qaçdı, indi mən yorulmuşam burda qalmışam". Bu sözləri deyə-deyə, baxdı gördü burada üç çadir var, hər birində yuz nəfər özbək oturublar.

108- Özbəklər dedilər: "istəyirsən öz kəndizə aparaq, istəyirsəndə bu gecə bizim yanımızda qal".

109- Behyar dedi: "mən burda qalaram, amma kimsənin mən ilə işi olmasın".

110- Sonra danışdılar ki, bu qadın bu gecə onlara saqı olsun və şərab paylasın.

111- Behyar da bir az naz eylədi, ancaq saqigərliyi qabul etdi. Bir az şərab verəndən sonra, dolana-dolana getdi şərab küplərinin başına, küplərin hamısının içinə dava tökdü və şərabları payladı, Behzad ilə qoşunun hamısı şərab içdilər və huşdan getdilər.

112- Behyar forən və bir anda durub Behzadın cibindən kilidi çıxarıb sandığı açdı, Hüseyni sandıqdan çıxartdı, Hüseyn Behzadın əl-qolunu zəncirlədi və öz əşyalarını yığdılar, sonra başladılar o qoşunun başlarını kəsdilər, yalnız Behzad ilə qırx nəfər özbəki zəncirləyib saxladılar.

113- Hüseyn Behyara dedi: "sən get qırqıtay atı gətir".

114- Behyar yel kimi getdi səhərə yaxın atı gətirdi.

115- Amma Sizə nəğl edək o qırx nəfər özbəkdən: elə ki səhər yeli onların burunlarına dəydi, hüşə gəldilər, özlərini zəncirdə gördülər.

116- Behzad baxdı gördü, Hüseyn əşyaları yığır və qoşunu da tamamilə başları kəsilibdir. Bir də baxdı gördü o adam ki, qırqıtay atı gətirir, haman dünən gecə bizə şərab verən qadındır. Düşündü ki, bu iş bunun işidir.

117- Hüseyn Pəhləvan gəldi Behzadın üstünə, dedi: ey həramzada necəsən indi səni öldürüm?

118- Hiləbaz Behzad dedi: məni belə əli bağlı öldürsən bir iş görməyibsən, mənim əllərimi aç sonra yarış edək, onda məni öldürsən öldür.

119- Hüseyn dərhal Behzadın əllərini açdı, Behzad qılıncını götürüb Hüseyn Pəhləvan ilə mübarizəyə başladı, bir az çaxa-çaxdan sonra Hüseyn Pəhləvan bir qılınc Behzadın başından elə vurdu ki, qılınc Behzadın başından yarıb qıçlarından çıxdı.

120- Hüseyn üz döndərdi o qırx nəfər özbəkə dedi: siz nə deyirsiniz? Sizidə bucur öldürüm yoxsa müsəlman olursunuz? Onlar dedilər indi ki, Allah səni o sandıqdan nəcat verdi biz də dönüb müsəlman oluruq.

121- Hüseyn Pəhləvan və o qırx müsəlman olmuş özbəklər, bir də Behyar əyyar ilə tamam çadirları, hərbi vəsayil hər nə varidi, qatırlara çatdılar, Heydərabada Abdullah Qutb Şahın bargahına yola düşdülər. Heydərabada yaxınlaşanda Şaha xəbər verdilər, Şah sərdarları ilə ata minib peşvazına gəldilər, Şah əhvalatı soruşdu

122- Hüsüeyn də işlərin necə olduğunu söylədi. Bargaha yetişdilər, oturdular, Hüseyn əsas və əşyanı Şaha təhvil verdi, Şah baxdı gördü Hüseynin əynində Şah verən paltar və qılınc yoxdur! Soruşdu: bəs paltarlar və qılınc nə oldu? Hüseyn dedi: bunlar öz qılıncım və paltarımdır, Behzaddan almışam və siz verənlər xurcindədirlər.

123- Abdullah Qutb Şah əlin saldı Hüseynin boynuna qucaqladı, dedi: Hüseyn sən mənim atamında qısasını aldın.

124- Hüseyn dedi: hələ harasıdır! Gedib Əkbər Şahın özündən də intiqam alacağam.

125- **Indi eşidin** o qulağı kəsilmiş özbəkdən ki, özünü yetirib Cahanabadda Əkbər Şahın bargahına və Əkbər Şaha ərz elədi: mən Filgöz Talib ilə Heydərabada getmişdim.

126- Əkbər Şah soruşdu: iş necə oldu?

127- Qulağı kəsik dedi: Filgöz Talib neçə gün rəcəz başladı və meydan oxudu kimsə ona hərif yoxidi, bir gün bir aşpaz kişi meydana girib, Qutb Şahın oğlu İbrahımın qılıncını alıb, Qutb Şahın hüzurunda Filgözü iki böldü. Otuz doqquz nəfər də bizlərdən öldürdü, mənim də qulağımı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kəsdi və dedi: sənə xəbər verim ki, sonra gələcək səndən yeddi illik vergi və xərac alıb, Şah Abbasa aparacaq.

128- Əkbər Şah bu sözü eşidən kimi qəş edib huşdan getdi. Ərqəş Pəhləvan onun burnuna bənovşə yağı tutdu, elə ki hüşa gəldi qılıncı çəkib o qulağı kəsik beçaranı öldürdü və dedi: indiki otuz doqquzu qırılıb, buda qalmasın ki, qoşunun hamısı bu sözü eşidərlər.

129- Sonra üz döndərdi Filzor Malikə soruşdu: Malik sən Heydərabada gedə bilərsənmi?

130- Filzor Malik dedi: əgər qırx nəfər pəhləvan mənə verəsən, mən gedərəm Hüseyn aşpazın və Abdullah Qutb Şahın anaların ağlar qoyaram. Nəhayət razılıqlar oldu, Filzor Malik qırx nəfər ilə Cahanabaddan çıxıb Heydərabada yola düşdülər. Malik elə qəzəblənmişdi ki, iki günlük yolu bir gündə gəlirdi. Heydərabada yaxınlaşanda bir qasıd göndərdi Abdullah Qutb Şahın bargahına ki, sabah Filzor Malik gəlir, siz gəliz onun peşvazına.

131- Abdullah Qutb Şah dedi: o kimdir ki, biz onun peşvazına gedək? gəlirsə gəlsin varid olsun.

132- Və amma Hüseyn Pəhləvan Qutb Şaha dedi: biz istəyirdik sabah Cahanabada gedək, indi ki belə oldu daha gedə bilmərik. Gərək qalam bu nakəsin və təcavüzkarin da cavabın verəm.

133- Sabah olcaq gördülər Filzor Malik bargaha varid oldu, nərə çəkib dedi: Ey Abdullah bizim qabiliyyətimiz yoxdur ki bizi qarşılamayırsan?

134- Abdullah Qutb Şah dedi: bizim sən ilə işimiz yoxdur, sən kimsən ki səni qarşılayaq.

135- Filzor Malik bu sözü eşidəndə nə`rə çəkib soruşdu: O Hüseyn aşpaz hanı? O hardadır onun anasını ağlar qoyam!

136- Hüseyn Pəhləvan səsləndi sən axtaran Hüseyn aşpaz mənəm, əgər sözün varsa "besmellah".

137- Malik səsləndi: kişisən dur ayağa, görüm sənin zorun nədir?

138- Hüseyn Pəhləvan ildırım kimi yerdən qalxdı, Behyara əmr etdi: mənim savaş vəsayilimi gətir. Bir göz yumunca Behyar onları hazırladı, Hüseyn geyimini geyib, qılıncını çəkib meydana yeridi. əvvəl qədəmdə Məhəmməd Peyğəmbərə sələvat söylədi və yarışa hazır oldu.

139- Malik dedi: Mən Hüseyn aşpazı istəyirəm sən kimsən?

140- Hüseyn Pəhləvan dedi: Mən Təbrizli dügməçi məsihin dəstpərvərdəsi, Şəbestərli qurd Hüseynəm. Hüseyn aşpaz da mənəm, biraz xani- əxtərxani - Filgözü və Behzadi da mən öldürmüşəm, gəlmişəm Əkbər Şahdan yeddi illik vergi və xərac alam, biz Ölkəmizdə yaşayirdiq,siz gəlib mənim baci- qardaşimi Öldürüb və Ölkəmi taltyirsiz, ancaq nə qədər mənim canimda can varsa, əcnəbini Ölkəmə qoymuyacağam, indi ki eşitdin və tanıdın hər nə sözün varsa buyur.

141 Savaş-döyüş başlandı, çaxa-çax səsindən qulaq tutulurdu, nəhayət Hüseyn Pəhləvan Ya Əli deyib bir qılınc Malikin başından elə vurdu ki Malik iki bölündü, Abdullah Qutb Şah yenədə üç dönə Allaha səcdə edib, Əhsən Əhsən səsi göylərə qovzandı.

142 Malikin qırx özbəki Hüseynin dövrəsin tutdular, Hüseyn şir kimi onların canına düşüb, otuz doqquzunu öldürdü, birinin də qulağını kəsib yola salib, dedi: Cahanabadın Şahı Əkbər Şaha və onun növçəsi Ərqəşə deynə, Hüseyn aşpaz deyir: sənin də başın qırxmağa gəlirəm.

143 Bu savaşdan sonra Hüseyn Pəhləvan, Filzor Malikin hərnəyi varidi aldı- yığdı, Abdullah Qutb şaha verdi, ikiləri qolboyun olub vidalaşdılar.

144-Abdullah Hüseynə dedi: indi ki gedirsən neçə nəfər mübariz sərdar istəyirsən apar.

145- Hüseyn dedi: yalnız Behyar Əyyarı mənə versəniz bəsdir. Beləliklə Şəbestərli Hüseyn (Hüseyn Pəhləvan) Heydərabaddan Cahanabada hərəkət edib. Yeddi illik vergi və xərac almağa hazırlaşdı...

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# «KOROĞLU» DASTANI ILƏ BAĞLI XALQ ƏFSANƏLƏRINDƏ MIFOLOJI QAT

***ELÇIN QALIBOĞLU (İMAMƏLIYEV)***

Azərbaycan folklorunda «Koroğlu» dastanı ilə bağlı çoxsaylı xalq əfsanələri var. Bu əfsanələr birbaşa dastandakı xarakterlərlə bağlıdır. Ancaq maraqlıdır ki, bu əfsanələrin süjeti çox hallarda dastanın süjeti ilə üst-üstə düşmür.

Əfsanələr bizə «Koroğlu» dastanından bəlli olmayan çoxlu hadisələri nəql edir. Bu halda dastanla əfsanələrin hansı bağlarla birləşməsi məsələsi araşdırma mövzusu olaraq ortaya çıxır.

Həm dastan, həm də əfsanə folklorun müstəqil ədəbi növləridir. Bunlar bir-birləri ilə eposda birləşirlər. Folklorşünaslıqda «epos» deyilərkən çox vaxt dastan göz önünə gəlir. Ancaq «epos» dastandan çox geniş, böyük anlayış olub, təkcə dastan növünü yox, eləcə də əfsanə, məsəl, rəvayət, atalar sözü, zərbül-məsəl və s. kimi bütün epik növləri, anlayışları öz içinə alır. Yəni epos bir düşüncə tərzidir. O deməkdir ki, epos sisteminə daxil olan bütün növlər biri-biri ilə bağlıdır. Çox zaman onların əlaqəsi sinxron, yəni eynizamanlı ola bilmir.

Eynilə «Koroğlu» dastanı ilə Azərbaycan xalq əfsanələrinin bağlılığı, əlaqəsi dediklərimizə sübutdur. Bunlar eyni epos sisteminə daxil olsalar da, süjet olayları biri-biri ilə birbaşa səsləşmir. Bu, ondan irəli gəlir ki, həmin əfsanələrlə dastanın bağlılığı diaxron əlaqədədir: yəni bunlar tarixi baxımdan biri-birilə əlaqəli şəkildədirlər.

Azərbaycanda «Koroğlu» dastanı ilə bağlı olan əfsanələrin çoxu ayrı-ayrı Koroğlu qalalarının, Koroğlu ilə bağlı yer adlarının, qəhrəmanın atları ilə bağlı çay, su, bulaq, meşə adlarının və s. necə yaranmasını açıqlayır. Əfsanənin izahedici funksiyası onun etioloji bir mətn olmasını göz önünə gətirir. Bu da həmin əfsanələrin etioloji miflərin zamanla transformasiyaya uğramış biçimi olmasından xəbər verir.

Koroğlu ilə bağlı xalq əfsanələri zaman-zaman tədqiqatçıların diqqətini cəlb etmiş, onlar haqda qiymətli fikirlər deyilmişdir (bax: 3, 4, 5, 10, 11 və s.).

Yuxarıda vurğulanan qənaətlərə yönəlik fikirlərə prof. Sədnik Paşa Pirsultanlının xüsusən son illərdə sözügedən sahədə nəticə olaraq meydana çıxan sistemli araşdırmalarında rast gəlirik. O, hesab edir ki, əsatir, əfsanə və rəvayətlərdə iri qayaları oynadan, Misri qılıncla daşlar, qayalar çapan, öz əzəmət və qüdrətli, ağlasığmaz gücüylə heyrət doğuran Koroğlu eposda öz əsatiri kökündən tamamilə qopmasa da, nisbətən sonrakı mərhələlərdə tarixli şəxsiyyət fonunda xeyli reallaşmışdır: «Bu, hər şeydən öncə onunla əlaqədardır ki, epos qəhrəmanı kimi şöhrətlənən Koroğlu aşıq yaradıcılığında yeni keyfiyyətlər əxz etməyə başlamışdır. Bəlli həqiqətdir ki, ozan-aşıq öz təbiəti etibarilə real həyatla bağlıdır. Ozan öz oğuznaməsini, aşıq öz dastanını xalqa, geniş kütləyə danışır, onu inandırır, ona təsir göstərir. Bu səbəbdən də ozan-aşıq yaradıcılığında əsatiri obrazlar, məbudlar reallaşdırılıb dinləyicilərə tarixi şəxsiyyət kimi təqdim olunur. Bu da var ki, ozan-aşıq yaradıcılığı ilə qovuşan əsatir, əfsanə və rəvayətlər tədricən təkmilləşib xalq dastanlarına çevrilməyə başlayırlar. Burada əsatir və əfsanələrdən gələn bəzi anlaşılmaz ifadə və təsəvvürlər aşığın ifasında dəyişdirilir. …Bu cəhət «Koroğlu» da da özünü qabarıq şəkildə göstərir» (1, s.178).

Mifoloq-alim Seyfəddin Rzasoyun da sözügedən mövzu ilə birbaşa səsləşən fikirləri ciddi maraq doğurur: «Azərbaycan folklorşünaslığında uzun illər ərzində dastan və nağıllar, əfsanə və rəvayətlər və s. epik janrlar sisteminə aid edilsə də, bu janrlara epos sisteminin struktur səviyyələri kimi baxılmamışdır. İndi də əksər tədqiqatlarda «epos» adı altında yalnız «dastan» nəzərdə tutulur. Halbuki bu anlayışlar arasında mürəkkəb poetik münasibətlər vardır. Epos etnosun düşüncə sisteminin epik əsasıdır: milli düşüncə sisteminin bütün poetik sxemləri onda cəmləşir. Düşüncə sistemi olan epos mətn səviyyəsində dastan, nağıl, əfsanə, rəvayət və s. epik janrlardan təşkil olunur» (7, s. 9).

Əfsanələrin əsatirə nisbətən tarixi hekayətlərə daha yaxın olduğunu vurğulayan S.P.Pirsultanlı qeyd edir ki, bunların da qəhrəmanları fövqəladə xü

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

milli folklorumuzda Fərhad obrazının diqqəti daha çox cəlb etdiyini, «Fərhadın səsi», «Nəğməkar Fərhad» əfsanələrinin olduqca qədim bir eposun izlərini mühafizə etdiyini, «Fərhadın səsi» əfsanəsinin (3, s.58-60.) «Koroğlu» eposu ilə səsləşən nöqtələri olduğu qənaətinə gəlir: «Fərhadın səsi öz elçisi olduğu kimi, Koroğlunun da igidliyi, dəli nərəsi görməzə-bilməzə Nigarın qəlbinə məhəbbət toxumları səpmişdi. Koroğluya gücü, səsi, dəli nərəni bəxş edən doğma yurddakı Qoşabulağın suyudur. Fərhadın ecazkar səsi isə elin dilbər sonasının - İlham Pərisinin nəfəsinə bağlıdır. Aldədə öz torpağında quş kimi uçur, küləkdən qanad alır, yad torpaqda isə ilan kimi sürünür. Fərhad da belədir. Uzaq, yad ölkədə olduqda külək Pərinin nəfəsini çatdıra bilmir və bu səbəbdən onun səsi boğulur, kəsilir. Öz torpağında isə Pərinin nəfəsi ona tez çatır və səsinin zəngulosi könülləri vəcdə gətirir. Burada eyni zamanda məhəbbətin gücünə, qadirliyinə böyük inam vardır». (2, s. 38).

S.P.Pirsultanlı «Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli tədqiqi» (Bakı, «Nurlan», 2007) kitabında xüsusi vurğulayır ki, əfsanə və rəvayətlər epos və dastanlarımızdakı məsələlərin aydınlaşdırılmasında çox böyük əhəmiyyət daşıyır. Daha doğrusu, qaranlıq nöqtələrin üzərindən pərdəni götürür. Xüsusilə dastanlarda rast gəlinən qədim inam, etiqad, düşüncə tərzlərinin öyrənilməsində əfsanə və rəvayətlər əvəzsiz qaynaq rolunu oynayır (1, s.83).

Azərbaycan folklorunda epos və dastanlarla səsləşən əfsanə və rəvayətlərin çox olduğunu bildirən tədqiqatçı qədimdən üzü bəri yol gələn rəvayət və əfsanələrimizdə sözügedən mövzunu araşdırır, maraqlı nəticələrə gəlir. Bu baxımdan o, «Əsli-Kərəm» dastanında «Ay-Gün» əfsanəsinin izlərinin, əlamətlərinin sonradan necə yaşamasına diqqəti çəkir, Azərbaycan eposunun «Kitabi-Dədə Qorqud»dan «Koroğlu» dastanına qədər uzun bir təkamül və tarixi inkişaf yolu keçdiyini, bu yolda bir sıra ədəbi-bədii hadisələrlə görüşdüyünü, qədim əsatir, əfsanə, rəvayətlərdən … səmərəli şəkildə faydalandığını» (1, s.83) qeyd edir. S.P.Pirsultanlı «Koroğlu» eposunun əsatir, əfsanə və rəvayətlərdən geniş şəkildə bəhrələndiyini qeyd edərək bu qənaətə gəlir ki, məlum olur «Kitabi-Dədə Qorqud» və «Koroğlu» kimi eposlar, «Əsli-Kərəm», «Tahir-Zöhrə» kimi məhəbbət dastanları özlərinin kökləri, rişələri ilə hansı qaynaqlara bağlıdır və Azərbaycan folklorunun səciyyəvi xüsusiyyətlərini necə qoruyub saxlamışlar: «Burada ən önəmli cəhətlərdən biri də odur ki, eposda Vətən, Vətən torpağı, xalq və onun taleyi öz bədii inikasını tapır. Eposla bağlı Vətəni təmsil edən daşlar, qayalar, qalalar, abidələr xüsusi əzəmət kəsb edir. Bunlar qəhrəmanlıq eposlarındakı vətənpərvərlik ruhunu daha da qüvvətləndirir. Koroğlunun tarixi qəhrəmanlığı saralmış vərəqlərdən çox-çox öncə yurdun daşlaşmış abidələrinə yazılmışdır. El qəhrəmanının məskən saldığı, sığındığı dağ, daş olduğu kimi, bütün məşqləri də, min bir oyunu da dağla, daşla bağlıdır. Rəvayətə görə, Koroğlu səhər-səhər iri qayalarla beşdaş oynadığı kimi, döyüşdən əvvəl Kür və Araz çayları boyunca at çapır, çiyninə ağır daş götürüb çayları gah o üzə, gah da bu üzə keçərmiş. Xalqın təsəvvürünə görə, o daşların çoxu Araz və Kür çaylarının sahillərinə yaxın ərazilərdə bu gün də qalmaqdadır. Xalq bu daşlar haqqında elə gözəl əfsanə və rəvayətlər yaratmış, qəhrəmanın adını bitili qaya, daş abidələrdə həkk etmişdir. Koroğlunun yarasından axan qana boyanmış qayalar, Qıratın ayağı yaralananda Koroğlunun üstünə göz yaşı axıtdığı daşlar bu gün «Qanlı daş», «Yaralı daş» adları ilə möhürlənmişdir» (1, s.123).

Buradakı əfsanəvilik xüsusiyyəti xülyaçılıq işartısı deyil, xalqın öz qəhrəmanına olan sevgisinin xəyallı (yəni əslində inamlı) ifadəsidir. Burada fərdi inam (söyləyici inamı) xəlqi inam, xəlqi duyum, xəlqi mənəviyyat, xəlqi iradə səviyyəsindədir. Qəhrəmana münasibət tamdır: o, gerçək təsəvvürlərdən üstündür, heç bir kəsə oxşamır. Elə bu səbəbdən də xalqımızın yaratdığı «Koroğlu» xalqımızın özününküdür, çoxsaylı «Koroğlu» dastanlarından fərqlənir. S.P.Pirsultanlı bu cəhətə diqqət edərək yazır ki, bütün bunları bizə təkcə ozanlar, aşıqlar, el ağsaqqalları, sinəsi sözlü nənələr deyil, həm də yurdumuzun qayaları, daşları danışır: «Biz hər bir daşda Qıratın ayağının, nalının izini görür, Koroğlu ilə bağlı xatirələrin yaşadığını öyrənirik. Özgə sözlə, epos və dastanlarımız haqqında yurdumuzun qayalarında, hətta ən kiçik daşlarında müəyyən bir nişanənin həkk edilməsinin şahidi oluruq. Epos qəhrəmanlarını yüksəldən, onları yenilməz əfsanəvi cəngavərə çevirən də elə bu amillərlə qırılmaz b

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

kəsin atına bənzəmir. Bu el qəhrəmanının məskən saldığı Çənlibel də heç bir dağa bənzəmir. Bu bənzərsizlik, bu ucalıq Koroğluya qüvvət verən əsas atributlardandır» (1, s.125).

Heç də təsadüfi deyil, tədqiqatçı təbii olaraq aşağıdakı ümumiləşdirici qənaətə gəlir ki, «Koroğlu» dastanı formalaşana, dastan-qol səviyyəsinə qədər yüksələnə kimi böyük təkamül, təkmilləşmə yolu keçmiş, bu yolda, bu keçid mərhələlərində «Kitabi-Dədə Qorqud» boyları ilə yanaşı neçə-neçə əsatir, əfsanə, rəvayət və dastanlarla birləşmiş, onlarla qovuşmuşdur (1, s.126).

Bəhruz Həqqi isə yazır ki, «Koroğlu» eposlaşana kimi onun əsatir, əfsanələrdən bəhrələnmə prosesi, bu yaradıcılıq təbəddülatı uzun əsrlər davam etmişdir. Eyni zamanda, «Koroğlu» eposunun qəhrəmanları tarixin keşməkeşlərindən keçərkən bir sıra əfsanəvi qəhrəmanlarla çarpazlaşmış, qovuşmuş, onlara məxsus xarakter keyfiyyətləri əxz etmişlər» ( 8, s.94).

Qeyd edək ki, S.P.Pirsultanlının neçə onillik zəhmətin bəhrəsi olaraq toplayıb tərtib etdiyi «Azərbaycan Türklərinin xalq əfsanələri» adlı kitabda «Koroğlu əfsanələri» adlı bölümdə «Həzrət Əli və Koroğlunun görüşü», «Koroğlunun daş qalası», «Koroğlu daşı», «Nal daşı», «Koroğlunun qılınclı daşı», «Çənlibel», «Eyvaz qalası», «Dolaşaların söhbəti», «Papaq altında oğul var», «Qaragöl əfsanəsi», «Halaypozanın Çənlibelə gətirilməsi», Koroğlu və Kəlpeysər» kimi əfsanələr təqdim olunur.

«Həzrət Əli ilə Koroğlunun görüşü»ndə Koroğlu Tilsimli dağın başında oxuyan quşu ox ilə vurur. Quşun qanı daşa dağılır, nərilti, gurultu qopur. Daş başından iki bölünüb əjdaha ağzı kimi açılır. Dağın dumanı, çəni çəkilib daşın qəlbinə dolur. Əfsanədə bütün çətinlikləri yenən Koroğlunun bu məqamdan da qalib çıxdığı, Bürcü Sultana əvəzsiz köməyi təsvir olunur (2, s.322).

«Koroğlu daşı» adlı əfsanədə Koroğlunun hara gedir-getsin, Çənlibeldən özü ilə bir daş aparması təsvir olunur. Yatanda da başının altına qoyarmış. Bu daş Koroğlunun həyanı, vətən daşı, yoldaşı olarmış. Bir dəfə Koroğlu öz dəliləri ilə Zəngəzur dağına ova çıxarkən dəliləri bir yerə yığmaq üçün Çənlibel daşını Zəngəzur dağının arasından keçən yola qoyur. Bunu görən dəlilər bir yerə toplaşırlar.

O vaxtdan «Koroğlu daşı» deyilən bu daşın Koroğlunun təsəvvürəgəlməz, misilsiz gücü sayəsində bura nişangah kimi qoyulması əfsanənin motivini təşkil edir (2, s.325).

«Nal daşı» əfsanəsində isə deyilir ki, Laçın rayonunda Cağazur kəndi yaxınlığında dərin bir dərə var. Nal daşı dərənin o tayındadır. Deyilənə görə, Koroğlu düşmənlə təkbətək vuruşur. Sonra da nərə çəkib Qıratı çapır, at quş kimi uçub dərənin o tayına düşür. Bu zaman Qıratın ayağının biri sal daşın üstə bərk dəyir və daşa nalının dərin izi düşür. Həmin daşa o vaxtdan «Nal daşı», «Koroğlunun nal daşı» deyirlər (2, s .325).

Bu əfsanədə Qıratın möcüzəvi gücü rəmzləşib, əfsanəvi mahiyyət (Qıratın ayağının birinin sal daşın üstə bərk dəyməsi və daşa nalının dərin izinin düşməsi) kəsb edib. S.P.Pirsultanlının fikrincə, Hallavar-Pəmbək dağlarındakı «Eyvaz qayası», «Qıratın nal daşı» da belə nişanələdəndir.

Göyçənin Qoşabulaq kəndi yaxınlığında, Şəmkir rayonunun Zəyəm və İramaşlı zonalarında, Şamaxıda «Koroğlu meydanı», «Koroğlunun qırx dəyirmanları»Ləngəbiz dağlarının cənub ətəklərində, Pirsaat vadisini tamamlayan Ağuçuqunda, İncəbel dağlarında Koroğlu atlarının axurları vardır və bütün bu sadalananlarla bağlı el içində biri-birindən maraqlı söyləmələr-əfsanələr, rəvayətlər yaşamaqdadır: «Məsələn, Zəyəmdəki «Koroğlunun yaralı daşı»na aid rəvayətdən bəlli olur ki, döyüşdən yaralı qayıdan Koroğlunun qanı bu daş üstə tökülmüş və daş o vaxtdan da qırmızı rəngdə boyanmışdır» (1, s.171). «Koroğlunun qılınclı daşı» əfsanəsində Kəpəzin ətəyində, Dod dağının başında böyük bir daşın Koroğlunun məsləhət yoldaşı, sirdaşı olmasından danışılır. Artıq qocalmış Koroğlu təşviş içində fikirləşir ki, birdən Misri qılınc başqa bir qüvvətli ələ keçə bilər. Birdən o əl sahibi xalqın qanına yerikləyən olar, xanların, bəylərin, padşahların xidmətində dayanar. Xalq üçün vuruşan Misri qılınc birdən xalqa qarşı çevrilər.Çox götür-qoydan sonra Koroğlu Misri qılıncı götürüb həmin daşa çaxır. Misri qılıncın taleyindən rahatlaşan, arxayınlaşan Koroğlu oradaca ölür. Buna görə də xalq həmin daşa indi «Koroğlu daşı» deyir. Həqiqətən həmin daş durur. Daşın ortasında paslı yarıq var. Deyilənə görə, həmin paslı yarıq Misri qılıncın yeridir» (2, s. 326).

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu əfsanədə artıq qocalmış Koroğlunun son gücünü toplayaraq təbiətin möcüzəvi hadisəsindən (ildırım parçasından) yaranmış Misri qılıncın gücünü təbiətə qaytarmasından, bununla da xalqı xilas eləməsindən danışılır. Bu əfsanədə daşa mifik inamı diqqəti cəlb edir.

«Çənlibel» əfsanəsində qayaları yerindən qoparıb qədimliyin səsini torpağa qulağını dayamaqla almaq istəyən Dəli Həsənin nərəsinin səbəbi məlum olur: «İgidin hünəri, qoçaqlığı təkcə gözlərdə, könüllərdə yaşamır, daşlarda, qayalarda da saxlanır. Mən gündə bir dəfə gəlib o səsləri oyadıram, o günləri danışdırıram, qulaq asıram, ömrümü bunlar uzadır»( 2, s. 327).

«Eyvaz qalası» əfsanəsində Koroğlu dəlisi Eyvazı sevən Niluferin yuxuda Eyvazın iki qayanın arasında quyuda olmasını, quyunun ağzına iri bir qaya qoyulmasını görməsi, bütün bunların gerçəkliyi və nəticədə Eyvazın xilas olunması təsvir olunur. Əfsanəyə görə, həmin qayanın adı o vaxtdan «Eyvaz qayası» qalıb (2, s.328).

«Halaypozanın Çənlibelə gətirilməsi» adlı əfsanədə Koroğlunun mərdliyi ön plana çəkilir. İlk görüşdən tanımadığı «Mən Koroğlunun nə özündən, nə dəlilərindən, nə də Misri qılıncından qorxuram»- deyən Halaypozan etiraf edir ki, ancaq onun dəli nərəsindən qorxur (2, s. 334).

Əfsanənin mayasında duran motiv də elə Koroğlunun dəli nərəsidir. Koroğlunun nərəsini eşidən Halaypozan fikirləşir: «Koroğlu gör necə igiddi ki, basdığını kəsmir. Məni öldürə də bilərdi, ancaq qıymayıb. Belə igidin dəlisi olmaq olar».

Tədqiqatçı Y.İsmayılova yazır: «…dastanın daşıdlığı, təqdim etdiyi epik əxlaq ideallarına görə, namərd bu dünyada yaşamamalıdır. Dünya mərdlərin dünyasıdır. Mərdlər daim namərdlərin kökünü kəsməlidir. Koroğlu bu prinsiplə yaşayır» (9, s.153).

«Koroğlu əfsanə və rəvayətlərimizdə torpağımıza, daşımıza, dağımıza, gölümüzə, çayımıza bağlı bir igid, el hünərvəri kimi təsvir və tərənnüm olunur». (1, s.158).

S.P.Pirsultanlı sözügedən kitabda toplamış olduğu aşağıdakı əfsanəni də təqdim edir: «Kür çayı nəğməli, qaraqışqırıqlı bir çay imiş. Koroğlunun bacısı Nənəqız Kür çayının sahilində ocaq çatıb sacda yuxa bişirirmiş. Bir də xəbər çatır ki, evin yıxılsın Nənəqız, Koroğlunun köçü Kürü keçdi. Nənəqız ayağa qalxıb səhralara səs salan Kürə qarğış edir: «Səni lal ol, ay Kür. Səsin qoymadı ki, Koroğlunun köçündən xəbər tutam». O gündən Kür lal olur» (1, s.158).

S.P.Pirsultanlıya görə, bu rəvayət (əslində əfsanə- E.Q.) eyni zamanda «Koroğlu»nun «Kitabi-Dədə Qorqud» ənənələri ilə səsləşməsini öyrənməyə də kömək edir: «Nənəqız öz qarğışıyla «alqışı alqış, qarğışı qarğış olan Oğuz tayfalarını yada salır. Bu, həm də qədim əsatir, əski inam, ibtidai dünyagörüşlə bağlı bir məsələdir» (1, s.158).

«Koroğlunun daş qalası» adlı əfsanədə isə deyilir: «Koroğlu böyük bir çayın vadisində yurd salır. Gecə yuxuda ona deyirlər:

- Çay sahili sel yoludur. Ey Koroğlu, igidin arxası dağlardır. Oyan yuxudan. Qulaq as, Qırat hansı dağda kişnəsə, həmin dağda daşdan qala tik.»

Yetmiş yeddi günə daşdan böyük qala tikilir, qalaya «Koroğlunun daş qalası» deyilir. (2, s.324).

Bu əfsanədə qədim türk düşüncəsindən gələn bir əsas xüsusiyyət diqqəti cəlb edir: insan təbiətlə birdir. Türk təbiətin vurğunudur, təbiətsiz bir an da ayrı yaşaya bilməz. Dağlar onu qoruyur. Əfsanədə bu fitri duyumu gerçəkləşdirən isə Qırat olur. Təsadüfi deyil ki, türk miforloji düşüncəsində at murada yetmək rəmzi kimi anlaşılıb, dərk olunub. «…yuxuda Koroğluya dağlara çəkilmək də tövsiyə edilir. Heç şübhə yoxdur ki, bu, bilavasitə dağ kultu ilə bağlıdır» ( 1, s.160).

«Papaq altında oğul var» adlı əfsanədə (2, s.332) ilk baxışda üz-gözündən qəhrəmanlığı sezilməyən oğlan kəmənd atıb ceyranı tutur və qılıncla başını kəsir. Sən demə, bu, Koroğlunun məşhur dəlisi Eyvazı imiş. Əfsanədəki bu motiv dastandakı ayrı-ayrı çoxsaylı qəhrəmanlıq məqamlarına uyğun gəlir. «Koroğlu» dastanının müxtəlif boylarında düşmənin içinə libasını dəyişərək girən Koroğlunun, ya da dəlilərinin heç kəsin ağlına gəlməyən məqamda igidliklər göstərərək hamını heyrətə salması dediklərimizə gözəl sübutdur.

«Dolaşaların söhbəti» əfsanəsində də sözügedən məqam diqqəti çəkir. «Koroğlunun qocalığı» qolunda Nigarla tək qalan Koroğlu yenidən dəlilərini yığıb Çənibelə qayıdır. Əfsanədə bu məqamın xalqın ağlında, ruhunda canlanması, par

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

danılmazdır. Xalq qəhrəmanını həmişə canlı və döyüşkən görmək istəyir, görür də. Quş dilini bilən Ovçu Pirim ana dolaşanın şahidi olduğu hadisəni danışır: ova çıxan üç nəfər dağ başında yumaq tək oturmuş qocanın misilsiz hünərini görəndən sonra heyrətlərindən donurlar. Onların atına minən qocanın altında hətta at ildırıma dönür. Aradan xeyli ötəndən sonra o, qucağında bir cüyür geri dönür. Cüyürü göyə atır, qılıncını çəkir, havadaca iki bölür. Heyrətdə qalanlara: «Mən Koroğlu dəlisi Eyvazam, - deyir. – Gördüyünüz bu dağ da Çənlibeldir – Koroğlu dağıdır» (2, s.330).

Deməli, əfsanədə təsvir olunan yer möcuzəvi yerdir. Sifətdən hədsiz yaşlı görünən qocaya, habelə təsadüfən mindiyi ata da misilsiz güc, ruh verən bu yurdun, təbiətin, bir sözlə, Vətənin ruhudur.

*"Qaragöl əfsanəsi»ndə isə deyilir ki, Laçının Minkənd kəndi yaxınlığnda bir dağ gölü var. Adına Qaragöl deyirlər. Bu gölün qəribə sehri var. Günəş batandan, Ay doğandan sonra Qaragöldən qoşa qanadlı bir ağ at çıxıb gölün ətrafında otlayır. Deyilənə görə, bu, elə Qıratın özüdür. Koroğlu qeybə çəkiləndən sonra o da Çənlibeli tərk edib bu gölü əbədi olaraq özünə məskən seçib.*

Bu əfsanədə «Koroğlu» dastanında təsvir edilən hadisənin (səbri çatmadığından 39-cu gün tövlənin üstündən deşik açıb atlara baxdığından Qıratın qanadlarının əriyib yoxa çıxması) əksini görürük. Məlumdur ki, əfsanə janrında hadisələrin sehirli təsviri daha çoxdur. Əfsanədən aydın olur ki, bu atı görənlər də olub: «At bəni-adəm görən kimi bərkdən kişnəyir, fini-fini ötür, ya da qaçıb tez gölə girir, hətta uçub bir dağa qonur, görünməz olur» (2, s.334).

Sözügedən mövzu ilə bağlı sadalanan misallar əsasında nəticə olaraq onu demək olar ki, möhtəşəm «Koroğlu» dastanının mifologi qaynaqlarının öyrənilməsində əfsanələrimiz əvəzsiz mənbə rolunu oynayır. «Koroğlu» dastanının epik dünya modelini, dünyanı anlama təcrübəsini bir sistem halında öyrənmək üçün dastanı mifoloji məqamları yaşadan xalq əfsanələri ilə birgə araşdırmaq gərəkdir.

**BIBLIOQRAFIYA**

1. Pirlsultanlı S.P. Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli tədqiqi. Bakı: Nurlan, 2007, 308 s.
2. Pirsultanlı S.P. Azərbaycan Türklərinin xalq əfsanələri, Bakı: Azərnəşr, 2009, 427 s.
3. Paşayev S. Nizami və xalq əfsanələri. Bakı: Gənclik, 1983.
4. Yaşayan əfsanələr. Bakı: Gənclik, 1973.
5. Yurdumuzun əfsanələri. Bakı: 1976.
6. Azərbaycan xalq əfsanələri (toplayanı və tərtib edəni S.Paşayev). Bakı:Yazıçı, 1985.
7. Rzasoy S. Azərbaycan əfsanəşünaslığı və Sədnik Paşa Pirsultanlı (ön söz) / S.P.Pirsultanlı. Azərbaycan türklərinin xalq əfsanələri. Bakı: 2009, s. 3-16.
8. Həqqi B. «Koroğlu»: tarixi-mifoloji gerçəklik». Bakı: Nurlan, 2003.
9. İsmayılova Y. «Koroğlu» dastanında obrazlar sistemi. Bakı: Nurlan, 2003, 176 s.
10. Cəfərli M. Dastan və mif. Bakı: Elm, 2001, 188 s.
11. Koroğlu (Vəli Xuluflu nəşri) / Qeyd, şərh, ön sözün müəllifi, mətni nəşrə hazırlayanı və redaktoru A.Nəbiyev, nəşri açıqlayan və tərtib edən Y.İsmayılova. Bakı: Elm, 1999, 200 s.

**Мифологические слои в народных легендах связанные с дастаном «Кер-Оглы»**

В Азербайджанском фольклоре народные легенды переклиняются с дастаном «Кер-оглы» взаимосвязанностью характеров. Во многих случаях прослеживаемых несовпадение ответвлений сложейных линий. И дастан, и легенда соединяются в самом епосе. Пояснительная функция легенды определяет ею причастность к этиологическому тексту. Что свидетельствуют о том, что с течением времени легенд

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

подвергаются трансформации. Легенды являются основой для изучения мифологических источников дастана «Кер-оглы».

**Ключевые слова**: дастан «Кер-оглы», Азербайджанские легенды, мифологический источник, эпос.

## The mythological layer in the folk legends connecting with the legend “KOROGLU”

Numerous folk legends is deal with characters regaurding with the legend “Koroglu” in the Azerbaijan folklore. Sometimes the plot of of the myths don’t concide with the plot of the legend. Either legend or myth join each other in the epos.The esplantry fuction of the legend showthat it is a etiological text. This inform that these legends is connected with etiological myths which subjecting transformation. The legend “Koroglu” is a main savece for learning mythological sources of the legend.

**Key words**: The legend of the “Koroglu” the legends of Azerbaijan, mythological source, epos.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# СЮЖЕТНО-КОМПОЗИЦИОННЫЕ ОСОБЕННОСТИ ДАСТАНА КАК СРЕДСТВА ВЫРАЖЕНИЯ АВТОРСКОГО МИРОВОЗЗРЕНИЯ

*ЭЛЬДАР ГАДЖИЕВ*

Проблема содержания и формы – одна из ключевых в теории литературы. Можно определить три наиболее распространенные точки зрения на нее. Одна исходит из представления о первичности содержания и вторичности формы. Другая интерпретирует соотношение этих категорий противоположным образом. Третий подход исключает необходимость употребления этих категорий. Предпосылкой для такого теоретического воззрения является мысль о единстве содержания и формы. Поскольку констатируется такое единство, постольку как бы исключается возможность дифференциации понятий и, следовательно, отдельного рассмотрения содержания и формы.

Содержание и форма как нельзя лучше проявляются в сюжетно-композиционных особенностях произведения. Сюжет и композиция дастана во многом совпадают, то есть хронологически они развиваются параллельно почти на всем протяжении повествования. Однако внутри самого сюжета можно встретить такие авторские приемы как анахронизм и авторское отступление, которые сами по себе являются композиционно завершенными, заимствованными в готовом виде из других летописных, религиозных и литературных источников. Очевидно, что каждое из этих отклонений от основного сюжета имеет свое художественное ядро, часто резко отличающееся от основной сюжетной канвы.

Рассмотрим некоторые авторские отступления, органично вписывающиеся в сюжет, но композиционно самостоятельные, разделив их на тематические группы.

К первой тематической мы бы отнесли мифологические отступления и их интерпретацию в тексте. Ко второй - историко-религиозные отступления, опирающиеся на известные исторические и религиозные (языческие и монотеистические) источники, третья группа - это собственно авторские отступления как выражение авторской позиции. Все они связаны между собой довольно тесно и составляют основную канву сюжета. Каждая из этих тематических групп имеет внутреннюю сюжетную завершенность.

Уже часть первая дастана включает в себя все три выделенные нами группы. И хотя она называется «Деяния алпов и джинов», в ней содержится много другой информации, то есть не только мифологической. Из двенадцати глав первой части - две - восьмая и одиннадцатая - не принадлежат мифологическому сюжету. Они выступают как религиозное (исламское) (8 глава) и историческое (авторская интерпретация появления народа хонов). Десять глав, за исключением двух выше упомянутых составляют основную сюжетную линию, то есть ту которая вынесена в название первой части, однако в каждой из них есть мифологические отступления, выступающие как своеобразная «биография» наиболее значимых персонажей: Алпа Хурсы: **«Его (оружие) сделал для них (для алпов, которые стали враждовать из-за тесноты)// Сын Солнца (старший алп, первый, которого создал Тангра) Алп Хурса // Был отменным кузнецом,//Исходил всю Землю //В поисках руды //Для своей кузни.** Авторское отступление сделано, для того, чтобы объяснить появление оружия; Куропатки – основательницы рода человеческого, Алпа Бояна, от поомков которого пошла земля булгарская; все, что связано в дастане с образом Бояна можно соотнести с лирическим отступлением автора, который не жалеет эпитетов, описывая рождение и жизнь алпа. И это не случайно, потому что элбиры - главные герои дастана - его прямые потомки, да и само понятие эльбир - это не просто синоним слову богат

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

греческой мифологии они назывались героями, то есть теми, кто родился от браков богов с людьми; «биография» Бой-Терека, который **«Вступился за людей Бой-Терек.// Предупреждал он многих // Об опасности. // Помогал в беде, //Был пастырем добра».** Бой-Терек - божество, почитаемое в тюркской культуре по сей день. Автор, подробно останавливаясь на образах алпов имеет определенную цель. Все эти мифические персонажи будут активно действовать и тогда, когда в сюжет будут введены главные герои - эльбиры, совершающие подвиги во имя своей страны. Альпы будут активно действовать - кто на стороне эльбиров, кто - против. Это активное взаимодействие - уникальный художественный прием, использованный Микаилем Башту для усиления динамики сюжета.

Как видим, Микаиль Башту постепенно приводит читателя к мысли, что единственная истина и единственная ипостась любви – это любовь к Аллаху. Сверхзадачу своего дастана - обращению язычника в мусульманскую веру – поэт решает с помомщью ряда художественных приемов, среди которых важное место отведено приему сна. Уставший Ат заснул и увидел сон, который ему явил Гали - «Лев Аллаха»:

Во сне тот,
Кто с благословения Творца
Приходит на помощь гибнущим -
Лев Аллаха Гали -
Явил Аудану
Чудесное видение.
И Ат увидел
Ту самую деву.
Она была необычайно красива - ( гиперболический эпитет).
Нет слов, с помощью которых - гипербола
Можно было бы верно
Описать ее черты.
Ее тело
Дышало чистотой, - (метафора)
Глаза ее излучали - (метафора)
Сладостное томленье. -(метафорический эпитет)
Губы ее источали - (метафора)
Медовый аромат, - (метафорический эпитет)
Волосы ее блестели,
Словно кристаллы льда. - (сравнение).
Теперь он знал,
Что дева есть.
Теперь радость
Разрывала его сердце. - гипербола
Тяжелая кручина, - метафора
Иссушавшая душу, - метафора
Уступила место любви,
Пробудившей огненные силы. - метафора
Тулпару прибавилось работы -
Ат вновь,
Как молодой волк - сравнение
За своей добычей
Кинулся на поиски
Дороги к той,
Которую жаждала

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Его пылающая душа. - метафора

Данный текст с точки зрения авторского стиля предполагает различение «материальной» поверхности и «внематериальной» глубины, достигаемой автором путем интерпретации мифологического материала. Один из них состоит в подчеркивании тесной взаимосвязи двух аспектов-обработанного, упорядоченного автором материала и выраженного в организации материала авторского мировосприятия. Но при таком понимании стиля, пренебрегающем различиями аспектов произведения в пользу его формально-содержательного единства, это единство не может быть осмыслено как результат преодоления внутренних противоречий произведения. Противоречия отыскиваются поэтому вне произведения - во взаимоотношениях между личностью творца и противостоящим творцу объектом. Стиль Микаиля Башту, таким образом, это синтез простого подражания зримому (в данном случае, преданиям и мифам), при котором улавливается сам принцип порождения вещей (известные герои мифов и их деяния). А.Ф. Лосев так определяет его: «Собственно словесный стиль (отношение автора к языку) есть только отражение на данной природе материала его художественного стиля (отношения к жизни и миру жизни и обусловленного этим отношением способа обработки человека и его мира)» [Лосев А.Ф., М., 1960: 114].

Эпизод, связанный с Боз-би также воспроизводится путем использования приема сна. И на этот раз увидел Ат Боз-би во сне. Но этот сон - особенный, потому что на пути к возлюбленной Ат встретил уже двух мусульман и второй из них Хасан почти обратил Ата в ислам. Однако, сославшись на то, что у него нет времени, Аудан отказался сказать «нет бога, кроме Аллаха» и отправился в путь, но зерно истины Хасан все-таки заронил в душу молодого эльбира. И вот когда после кораблекрушения Аудан, оставшийся один в живых, заснул на берегу, а перед этим вспомнил Хасана и Аллаха, то ему и приснился сон о Боз-би. Здесь уже откровенный намек автора на то, что без веры в Аллаха Аудану не найти возлюбленную. Но и она тоже язычница. И поэтому сон Ата кошмарный:

Заснул от усталости.
Перед тем, как заснуть,
Невольно вспомнил о Тарвиле и Хасане,
Подумал об Аллахе -
И увидел во сне Боз-бию.
Она мылась в бане в клубах пара
И была совершенно нагой.
Сквозь тонкую кожу ее
Видны были трепещущие сердце и жилы.
Она мазала белое тело
Соком сладких ягод и медом,
Издавала благоухание,
Пьянящее голову.
Не выдержал Ат -
Нежно позвал ее во сне.
Как будто услышала она -
Закрыла свою наготу.
Закрыла золотыми волосами -
Они были ей по колена,
Распространяли вокруг
Волшебное сияние...

...Побрела Боз-би,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Рыдая от горя,
Куда глаза глядят -
Прочь от родного дома.
В пути схватила ее
Безобразная див-Мышь
И уволокла в подземелье
Рвущуюся и кричащую деву.
Страшно вскричал Ат
И тут же проснулся [123].

Итак, к началу третьей части «Путь к дому Шана» автор дастана уже не скрывает своего намерения, своей сверхзадачи, поставленной в произведении, а именно - в обращении язычников, в данном случае тенгрианцев, в ислам. И действительно, не мог найти и спасти Боз-бию Аудан, пока не принял ислам благодаря Хасану и его жене Фатиме. А когда нашел возлюбленную, то и она приняла ислам:

Сразу после освобождения
Приняла прекрасная дева
Ислам из рук Хасана -
Стала истовой мусульманкой.
Полюбила она Хасана и Фатиму,
Как своих родителей [240].

Семантическое поле этого эпизода - ключевой момент всей поэмы, потому что именно здесь читатель понимает, что любовь всех персонажей очень тесно связана с вероисповеданием. Теперь становится понятно, почему первые люди были уродливы, почему Боян-Имэн и Бойгала были несчастны, а Аудан Дуло и Боз - би - счастливы. Только ислам и любовь к Аллаху может сделать счастливой человеческую любовь. Это авторская позиция, это его мировоззрение, сверхзадача дастана. Так художественный стиль дастана, традиционный в своей основе, приобретает новый идеологический налет. Отношение индивидуального стиля к традиции выражается у автора дастана в особых формах реакции на чужой стиль путем его воспроизведения в формах: подражания, стилизации и вариации.

Еще один мифоисторический образ привлекает внимание в дастане – образ Фатимы. Согласно исламскому преданию - дочь пророка Мухаммеда. Ее роль в поэме о Шан-кызы очень важна, потому что благодаря ей, язычники-эльбиры и сама Боз-би принимают ислам.

Женские образы, присутствующие в тюркской мифологии имеют важное культурологическое значение в формировании общественной модели народных представлений о жизни. Сила добра, зла, любви, продолжения рода, выраженные концептом «женщина» указывают на древнейшие культурные пласты быта тюрков, а трансформация этих образов в божественные силы исламского толка помогают проследить как тюркские народы переходили из одной религиозной ипостаси в другую.

С утверждением мусульманской идеологии среди тюркских народов изменился характер содержания и трактовки легенд: прежнее мифологическое объяснение происхождения явлений природы вытесняется мусульманско-религиозной интерпретацией, а затем и вовсе переходит в разряд литературной трактовки текстов. Поэтому, женские образы мифологии превращаются из культовых в художественные, что дает нам основание их характеризовать концептуально в рамках литературоведческого аспекта анализа.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ЛИТЕРАТУРА**

1. Абдуллатипов А.К-Ю. Древнебулгарский памятник «Сказание о дочери Шана» Микаиля Башту как свидетельство древнейших связей народов Евразии и их словесной культуры. // Вестник ДГУ. М-ла 2004.
2. Аджиев А.М. Устное народное творчество кумыков -Махачкала, 2005.
3. Акавов З.Н. «Сказание о дочери Шана». Поэма. Раннесредневековый художественно-литературный памятник и исторический памятник народов Древней (Киевской) Руси и Северного Кавказа. Предисловие к изданию. - Махачкала, 2003, 260 с.
4. Алиев Г.Ю. Темы и сюжеты Низами в литературах народов Востока. М., 1985.
5. Алиев К.М. Таргу-наме. Лексикон. Махачкала, 2001.
6. Бахши Иман. Джагфар тарихы. Т.1. Свод булгарских летописей. 1680 - Оренбург, 1993 г.
7. Баранов И. Легенда о дочери Шана: новый источник по истории народов Восточной и Центральной Европы YII - IX веков. - (Интернет издание).
8. Боровский Я.Е. Мифологический мир древних киевлян. Киев: Наукова думка, - 1982 .
9. Ветры Великих Булгар (легенды, предания, баиты и исторические материалы) - Казань, 1993 .
10. Гумилев Л. Древняя Русь и великая степь. СПб 2001.
11. Давлетшин Г.М. Волжская Булгария: духовная культура домонгольского периода Х в. - нач. ХШ в. - Казань, 1990 .
12. Кадыраджиев К.С. Древнекумыкский теоним Хорс. Вести КНКО. - М-ла 2003.
13. Кул Гали. Хон Китабы. 1242. -. Оренбург, 1997.:
14. Олейник Ю. К поэме Шамси Башту. - Киев, 2000.
15. Халипаева И.А. Мифологическая проза кумыков. Исследования и тексты.- Махачкала, 1994.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# AZƏRBAYCAN DASTANLARINDA MÖCÜZƏLI ALMA OBRAZI VƏ ALMA VERƏN DƏRVIŞ OBRAZI HAQQINDA MÜLAHIZƏLƏR

***ELNARƏ QARAGÖZOVA***

Dünya ədəbiyyatında möcüzəli keyfiyyətə malik bir çox meyvələrdən söhbət açılır. Bu ağac kultu ilə bağlı elementdir. Ümumən mifologiyada dünya ağacı əbədi həyatın rəmzi hesab edilir. *"Dünyanın çoxsəpgili semantik qarşıqoymalar şəklində əsatiri təfsiri də ağacla bağlıdır. Dünya ağacı yuxarı-aşağı, sağ-sol, yer-səma, keçmiş-gələcək, qaranlıq-işıq, həyat-ölüm, erkək-dişi, güney-qüzey, mərkəz-qıraq, xeyir-şər kimi əksliklələri ehtiva edərək, bir-birinə münasibətdə mənalandırır. Həyati başlanğıc, dirilik, məhsuldarlıq, artım anlayışları da Dünya ağacı ilə ifadə olunur."*[142] Bu özünü dünya mifologiyasında geniş yayılmış ağac kultunda da göstərir. Türk xalqları ağacı tanrı və ya tanrıdan ayrılmış bir parça hesab edirdilər. Müqəddəs sayılan ağaclar əsasən aşağıdakılardır: çinar, saqqız, qayınağacı, şam, xurma, zeytun, dəfnə, ağcaqovaq, qara şam, qarağac, dağdağan və s. *"Müqəddəs ağaclar, onların şəfa verən yarpaqları və meyvələri əski dünyanın bir çox xalqlarının mifologiyasinda tipoloji yolla yaranmiş dünya ağaci ilə əlaqədardırlar. Bunlar həmin ağacın müxtəlif şəkilli təzahürləridir. Bu baxımdan "Məlik Məmməd" nağılında onun meyvəsi, ümumiyyətlə bir çox nağıllardakı dərvişlərin verdikləri meyvələr (adətən alma olur), "Tapdıq"nağılındakı "dirilik ağacı", dirilik gülü" səciyyəvidir."*[143] Çox zaman ağaclar ocaq, pir hesab olunur. Həmin ağaclara niyyət edir, nəzir gətirir, xəstələr şəfa üçün burada yatırlar. Məsələn, bir Azərbaycan inancına görə: *"Aparıb diş ağacının dibinə nəzir qoyurmuşlar, ağacın budaqlarına qırmızı yaylıq bağlayırmışlar. Qaramux, çinar, saqqız ağaclarını kəsmək günahdır. Bir saqqız ağacı var, pirdir. Bu ağacin altında başını qoyursan daşın üstünə yatırsan. Əgər yuxuda bir nurani dərviş bir əlində ağac, bir əlində də təsbeh gəlib dursa başının üstündə, desə ki, filankəs sənin payını verdim, onda muradına çatacaqsan. Yox, əgər dərviş yuxuna girməsə, onda muradın hasil olmayacaq. "*[144]

Azərbaycan ədəbiyyatında möcüzəli meyvələrdən ən başlıcası almadır. Bütün nağıllarda alma insana həyat verən, onu ölümdən, xəstəlikdən qurtaran, ömrü uzadan, adamı cavanlaşdıran meyvə kimi məşhurdur. Deməli, nağıllarımızda almanın iki funksiyası var :

I. Ömrü uzatmaq və cavanlaşdırmaq.
II .Övlad vermək.

Birinci halda bu alma ya şahın bağında olur, ya da uzaq bir yerdən çətinliklə əldə olunur. *"İsland əsatirində alma ağacının meyvəsi tanrı və insanları cavanlaşdırır. Tanrılar qocalmağa başladıqlarını hiss edən kimi ilahə İdunnun mücrüdə saxladığı almalardan yeyir və cavanlaşırlar."*[145] Nağıllarımızda almanın insana həyat verməsi atəşpərəstliklə bağlı bir motivdir. Bu barədə Y. V. Çəmənzəminli yazır: *Nağılda bəhs olunan alma ağacına bənzər " Avesta " da bir Naara var.... Kür ilə Araz çayları arasında yaşayan qədim irqin etiqadınca Naara ağacı Kürqəsb dənizində bitib, bütün nəbatata ruh verərmiş. Bəziləri Naaranı əbədi həyat bəxş edən ağaca bənzədirlər. "Məlik Məmməd" dəki alma ağacı Naaraya çox bənzəyir: almanı yeyən cavanlaşır və əbədi həyata vasil olur."*[146] Nağıllarımızda bəhs olunan digər sehrli meyvələr armud və nardır. "Sehirli üzük" nağılında armudu yeyən keçəl kəllə - mayallaq olur, almanı yedikdən sonra düzəlir. Bəzi nağıllarda qəhrəman narın içindən çıxan gözəl "Nar qız" la evlənir, lakin mənfi səciyyəli qüvvələr onları ayırırlar. "Nar qız" öz sehirləri sayəsində şərə qalib gəlir.

---

[142] Hacılı A. Mifopoetik təfəkkür fəlsəfəsi. – Bakı: Mütərcim, 2002. - 164 s. Səh 6.
[143] Seyidov. M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. B ; Yazıçı, 1983, 324 s. səh. 14.
[144] Əsatirlər, əfsanə və rəvayətlər. B ; Şərq – Qərb. 2005, 340 s. səh. 226.
[145] Hacılı A. Mifopoetik təfəkkür fəlsəfəsi. – Bakı: Mütərcim, 2002. - 164 s. Səh. 8
[146] Çəmənzəminli. Y. V. Əsərləri. 3 cilddə, B; Avrasiya–Press, 2005.səh.278.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Bilqamıs" dastanında qeyd olunan həyat çiçəyi də türk mifoloji təfəkküründə mövcud olan ağac kultu ilə sıx əlaqədardır. Bilqamıs dastanında Utnapişti gənclik çiçəyini belə təsvir edir:

"Bu çiçək dəniz dibində
Göyəmtək bitib boy atır,
Qızılgül tək tikanlıdır,
tikanları ələ batır.
Çiçək sənə qismət olsa,
əgər gedib ona varsan.
Bax, o gənclik çiçəyidir,
gəncliyinə qayıdarsan."[147]

"Bilqamıs,, dastanında **Həyatın** məhz **bitki –çiçək** şəklində təqdimi ***ilk başlanğıca qayıdış-cavanlaşma*** və **tanrılaşmaq- ölməzləşmək** anlamlarının simvoludur.

İkinci halda isə həmin almanı övladı olmayan şəxsə qapıya gəlmiş dərvişlər verirlər. Dastanlarımızda övladı olmayan insanlara "mən pay alan yox, pay verən dərvişlərdənəm" deyən dərviş alma verərək həyat yoldaşı ilə bölüb yeməyi təklif edir. Həmin almanı yarı bölüb arvadı ilə yeyən şəxslərin övladı olur (məsələn, "İbrahim", "Şah İsmayıl", Şahzadə Əbülfəz", "Tahir və Zöhrə", "Nəcəf və Pərzad" və b. dastanlarda[148]). Bir çox hallarda bu almanın bir üzü ağ, digər üzü qırmızı olur. Bunu iki dost öz aralarında bölüb həyat yoldaşları ilə birgə yeyirlər, almanın ağ tərəfini yeyənin oğlu, qırmızı tərəfini yeyənin qızı olur. Onlar əhd edirlər ki, böyüyəndə övladlarını bir-biri ilə evləndirsinlər (məs. "Tahir və Zöhrə" dastanında). Maraqlıdır ki, div və alma nağıllarda əks qütblərdə yerləşir. Ona görə də div almanı oğurlayır. «Məlikməmməd» nağılında padşahın bağından almanı oğurlayan da divdir və Məlikməmməd məhz almanı yediyi üçün divi öldürür. [149]

Qırğızların "Manas" eposunda da qəhrəman dərvişin verdiyi alma sayəsində dünyaya gəlir. *"Bu mərhələdə Manasın atası Cakıb və anası Çıyırdının Manas dünyaya gəlməmişdən övlad həsrətilə necə yanıb-yaxıldıqlarından söz açılır. Çakıb və Çıyırdı yuxu görürlər. Yuxuda nurani qoca Çıyırdıya alma verir. Çakıb isə Çıyırdıdan oğlu olduğunu görür".*[150]

Almanı sonsuz insanlara bir çox hallarda dərvişlər, bəzi dastanlarda isə Xızır İlyas və ya Həzrət Əli verir. İndi isə bunun köklərini aydınlaşdırmağa çalışaq.

Dastanlarımızda həm övlad, həm buta verən və qəhrəmana sevgilisinə çatmaqda yardım göstərən maraqlı obrazlardan biri də Xızırdır. Dirilik suyunun sahibi hesab edilən Xızır ( Xıdır ) obrazı ümumtürk mifoloji təfəkküründə mühüm yer tutan obrazlardandır. Xızır müqəddəs şəxsiyyət, peyğəmbər hesab olunur. O, folklorda yolunu azanlara, dara düşənlərə kömək edir. Xilas olunan adam ilk görüşdə onu tanımır, geri dönüb bir də baxdıqda Xızır qeyb olur. Xızırın diyarbədiyar gəzməsinin səbəbi "Gündüztac" dastanında onun qardaşı Xızır Nəbini axtarması ilə izah olunur: *"Xızır İlyas nə qədər çalışdısa qardaşının könlünü ala bilmədi. Ulusdan baş götürüb gedən qardaşını axtarmaq üçün onun arxasınca yola düşdü. ... Xızır İlyas hələ də qardaşının arxasınca bütün dünyanı gəzir, dolaşır, çətinliyə düşənlərə əl tutur, köməksizlərə kömək edir."*[151]Foklor materiallarının əksəriyyətində Xızır İlyasın daim diri olması qeyd olunur. Lakin **"Xıdır-zinda" əfsanəsində** onun Xızır Nəbi ilə birlikdə yaralı qardaşı Xıdır-zindaya su gətirə bilmədiklərindən onun qarğışı ilə Xəzərdə daş dönmələrindən bəhs edilir.[152] Y.E.Bertels bu obrazın qədim şumer mifologiyasındakı Xasisatra (Zisudra) ilə bağlı olduğunu qeyd edib. Xızır(ə) barədə Quranda Kəhf surəsində 60- 82-ci ayələrdə xəbər verilir. Bu ayələrdə Xıdır (ə)-ın adı keçmir, fəqət təfsirlərdə Buxarinin Rasulullah (s)-dən rəvayət olunmuş hədislərində oradakı

---

[147] Bilqamıs dastanı. "Azərbaycan ensiklopediyası" NPB, Bakı, 1999, 92 s. səh. 79.
[148] Azərbaycan dastanları. Beş cilddə.I cild. Bakı, "Lider nəşriyyat", 2005.
[149] Azərbaycan Arxeologiyası 2005 Vol.: 7 Num.: 1-4
[150] Adil Cəmil. "Manas" eposu və türk dastançılıq ənənəsi. Bakı, "Elm", 2002. 204 s. səh. 80.
[151] Azərbaycan dastanları. Bakı, Gənclik, 1977, səh. 163.
[152] Azərbaycan folkoru antologiyası, XI kitab (Şirvan folkloru), Bakı, "Səda" nəşri

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Allahın qulunun Xıdır (ə) olduğu bildirilir. Yenə Xıdır (ə)-ın mələkmi, insanmı, peyğəmbərmi, saleh qulmu, övliyamı olduğu ixtilaflıdır. İbni Qəyyumun açıqlamasına görə Allah Təala Xızır (ə) lədunni elmi vermişdir. Bu elm idrak-i-əyan (duyğularla idrak edilən bilgi) vasitəsi ilə əldə edilir. Qeyblə bu elm arasında pərdə yoxdur. İbn Həcər əl-Əsbahani Kəhfin 82-ci ayəsinə əsaslanaraq Xızır(ə)ı peyğəmbər qəbul etmişlər. Xızır(ə) ın sağmı, ölümü olmağı da ixtilaflıdır. Xızır peyğəmbərin ölümsüzlüyünün səbəbi və daim qeybdə olması "Xızır peyğəmbər və İlyas", "Xızır peyğəmbər və İsgəndər" əfsanələrində[153] daha aydın açılır.

Babayeva X. Ə. www.yazlit.boom.ru saytında "Əfsanələrdə Xızırın təsviri" adlı məqaləsində yazır: *"Xızırın geyimi, görünüşü barədə də müxtəlif fikirlər var. Bəzən onu yaşıl donlu, nurani kişi, ixtiyar kimi təsvir edirlər. Görünür, bu onun yaşıllıq məbudu olması ilə əlaqədardır. Daha çox nümunələrdə isə Xızır ağ paltarda, ağ və ya boz at üstündə təsvir edilir. Onun ağ at üzərində təsviri türk xalqlarında ağ rəngin müqəddəsliyinə, uduqluğuna (Ülgen Tanrının rəngidir) olan inamı ilə səsləşir.Azərbaycan folklor örnəklərində Xızır daha çox boz at üzərində təsvir olunur.XIII əsr müəllifi Rəşidəddinin dediyinə görə, şaman baxşı boz ata minib göyə çıxır. Yakutlar da boz at dərisini müqəddəs sayırlar."* [154]

"Kitabi Dədə Qorqud"" dastanının "Dirsə xanın oğlu Buğacın boyunu bəyan edər" boyunda da **"boz atlı (yaşıl donlu) Xızır (İlyas)"** obrazı ilə qarşılaşırıq: *"Qarğa quzğun qan görüb oğlanın üstünə qonmaq istərdi. Oğlanın iki köpəkciyi vardı. Qarğayı, quzğunu qovardı, qondurmaz(lar)dı. Oğlan ovda yıkıldıqda, boz atlı (yaşıl donlu) Xızır (İlyas) oğlana hazır oldu. Üç qatla yarasın əliylə sığadı. Bu yaradan qorxma oğlan (sənə) ölüm yoxdur,- dedi. Dağ çiçəyi anan südü ilə sənə məlhəmdir-dedi, qayıb oldu..."* [155] **"Məlik Cümşüdün nağılı"**nda da Xızır Məlik Cümşüdü həyata qaytarır. Məlik Cümşüdün basdırıldığı Qara daşın üstündə namaz qılarkən daşın dibindən bir inilti eşidir. Oranı qazır, gözəl bir oğlanın doğranıb basdırıldığını görür. Onun hər əzasını öz yerinə qoyur, ağzının suyundan yaralarına vurub yaralarını sağaldır. Həmişə yanında saxladığı dirilik suyundan üç damcı onun boğazına damızdırdırır. Məlik Cümşüd ayağa qalxanda. Xızır da qeyb olur.[156] **"İsgəndər və Xızır" "əfsanəsində** İsgəndər Zülqərneyin Xızırla bir yerdə dirilik suyu içmək üçün zülmət dünyasına gedir. O, yolda Xızırı itirir və dirilik suyunu tapa bilmir. Xızıra isə dirilik suyu içmək nəsib olur. Eyni süjetə **"İsgəndərin qaranlıq dünyaya getməsi" adlı nağılda** da rast gəlirik. Burada da sonluq eyni olsa da müəyyən elementlərlə fərqlənir. Belə ki, Xızırın qeyri-adi keyfiyyətlərindən (qeyb olması, külək qoparması, insanları, hətta bütöv bir qoşunu göz qırpımında mənzilə yetirməsi) geniş bəhs edilir.[157] Klassik ədəbiyyatımızın ana dilli nümunələrindən biri olan **"Mehri və Vəfa" poemasında** da Xızır aşiqlərə kömək edir, qardaşının duası öldürülmüş Vəfanı diriltdir. "*Əsərdəki Xızır peyğəmbər folklorda rastlaşdığımız xeyirxah,köməkçi, xilaskar, mədədçi obrazı, Cadu isə bədxah, şər xislətli mənfi surətdir."*[158]

Beləliklə, Xızırın aşağıdakı funksiyaları var:

1. Darda qalanlara kömək edir;
2. Kəramət sahibidir;
3. Yazı təmsil edir;
4. Sonsuzlara övlad verir.

Azərbaycan dastanlarında Xızır obrazı yuxarıda göstərilən keyfiyyətlərə malik olmaqla yanaşı həm də gənclərə buta verib onları bir – birinə aşiq edir. Bu badəni içənlər həm aşiq, həm də aşıq olurlar. M. Seyidov "Azərbaycan mifik təfəkkürünün qaynaqları" monoqrafiyasında bunu Xızırın Günəşin simvolu olması ilə izah edir.Elə buradan da Xızırın yaşıllıq, evlənmə

---

[153] Əfsanələr.- B.: Gənclik, 1986. səh. 34.
[154] www.yazlit.boom.ru Babayeva X. Ə. "Əfsanələrdə Xızırın təsviri"
[155] Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı, "Öndər nəşriyyat", 2004. səh. 21.
[156] Məlik Cümşüdün nağılı. Azərbaycan nağılları. Bakı; Azərnəşr. 1982. səh. 78-79.
[157] İsgəndərin qaranlıq dünyaya getməsi. Azərbaycan nağılları. Bakı; Azərnəşr. 1982. səh. 207.
[158] Yaqub Babayev. Ana dilli Azərbaycan ədəbiyyatının təşəkkülü və epik şeirin in[illegible]
Monoqrafiya. Bakı, ADPU, 2008. səh 86.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ilahəsi Ölənglə sıx surətdə bağlı olduğu aydınlaşır. Müəllif bildirir ki, “ Xızır “ sözü türk mənşəlidir, “ xız “ – “ istilik “ , “ hərarət “ , “ atəş “ və “ ır “ – “ ər “, “ kişi “ sözlərinin birləşməsindən meydana gəlib, “ istilik gətirən şəxs, ilah “ mənasını ifadə edir. Uzun zaman Xızır obrazını ərəbmənşəli hesab etmişlər, lakin M. Seyidov sübut etmişdir ki, bu obraz türk mənşəlidir, sadəcə olaraq ərəblərdə də onun funksiyasını yerinə yetirən Xıdır adlandırılan obrazla qaynayıb – qarışmışdır. Xızırın adı çox zaman su tanrısı İlyasla bərabər çəkilir. Bununla da o yazı simvolizə edən bir surətə çevrilir. M.H. Təhmasibin fikrincə, Xızırı islam dövründə formalaşan mətnlərdə Həzrət Əli əvəz edib.

Qeyd etdiklərimizdən aydın olur ki, Azərbaycan dastanlarında rast gəlinən doğum motivlərinin daha geniş, hərtərəfli tədqiqinə ehtiyac var və bu sahədə aparılacaq tədqiqatlar ədəbiyyatımızda hələ də qaranlıq qalan bir sıra vacib məsələlərin işığa çıxarılması baxımından olduqca böyük əhəmiyyət kəsb edir.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# АЗЕРБАЙДЖАНСКИЕ ДАСТАНЫ В ГРУЗИНСКОЙ КУЛЬТУРНОЙ СРЕДЕ XVIII-XX В.В.

***ЭЛЬНУР АЛИЕВ***

В глубокую древность уходят своими корнями грузино-азербайджанские культурные связи. В последнюю тысячу и более лет между этими народами не было четкой этнической границы: азербайджанцы жили и живут на территории Грузии, а грузины – на территории Азербайджана.

Актуальность изучения грузино-азербайджанских культурных контактов заключается, в том, что она тесно связана с проблемой диалога культур и закономерностями их взаимного обогащения.

Основная цель проведенных нами исследований состоит в выявлении причин распространения и популярности азербайджанского фольклорного жанра дастан в Грузии как на азербайджанском, так и на грузинском языках, определить место азербайджанского языка в культурной жизни этой страны XVIII-XX в.в.

Как известно, по тематическому размаху, философскому содержанию и эмоциональному воздействию дастаны - один из наиболее масштабных по размерам и сложных по составу жанров азербайджанского устного народного творчества. Исследования Н.Марра, Э.Такаишвили, Г.Велиева, Л.Члаидзе, М.Чачава, В.Гаджиева, А.Зейналова и др. показали, что переписанные грузинским алфавитом, поэтические образцы ашыгских песен и дастанов, отражающие общечеловеческие ценности и отвечающие чаяниям широких народных масс, выучивались наизусть, использовались в грузинских фольклорных мотивах и песнях, и тем самым становились общенациональным достоянием.

Возвышенные общечеловеческие чувства, жизнелюбие, характерные для азербайджанских дастанов – одна из причин их широкого распространения. Высокие идеалы, верность, преданность, терпимость, вера в лучшее будущее, пронизывающие дастанов, были созвучны чувствам и переживаниям грузинского народа. Немалую роль сыграли и такие качества дастанов, как мелодичность языка и интересные, а порою острые лирические сюжеты.

В некоторых азербайджанских народных дастанах герои соединяются со своими возлюбленными в Тифлисе, тоскуют на чужбине по этому прекрасному городу, радуются, возвращаясь, воспевают его красоту. В величественном памятнике ашыгской литературы – эпосе «Кёроглу» проявлением любви и уважения к соседнему грузинскому народу явилось создание образа Гюрджиоглу Мамеда. Воспевание интернационалистических идей в этом дастане способствовало его еще большей популярности среди грузинского народа, появлению различных грузинских его вариантов. В дастанах «Ашыг Гериб», «Ашыг Мухаммед и грузинка», «Гатыр Мамед», «Танрыверди», «Вагиф», «Грузинка» и др. красной нитью проходят отношения дружбы и добрососедства между двумя народами.

Одним из важных факторов, оказавших воздействие на распространение ашыгской поэзии в Грузии, является большая популярность среди местного населения азербайджанской музыки вообще, и азербайджанских народных песен в особенности. Переложение, перевод и издание на грузинском языке азербайджанских героических и любовных дастанов, на наш взгляд, тоже явилось одной из важных причин, вызвавших в Грузии интерес к ашыгскому творчеству.

Одним из немаловажных причин широкого распространения азербайджанских дастанов были зародившееся в Юго-Западной Грузии ашыгское искусство. Здесь жили и творили десятки азербайджанских ашыгов (Хаста Гасан, Ашыг Нуру, Ашыг Балакиши, Ашыг Балабек, Ашыг Мефтун, Ашыг Аслан, Ашыг Насиб и др).

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Многочисленные материалы и документы, хранящиеся в архивах и музеях Грузии, а также труды профессора В.Гаджиева, позволяют заключить, что в XVIII-XX веках десятки грузинских ашыгов, в том числе Ашыг Рухани (Иосеб Беридзе), Ашыг Шивга (Лука Беридзе), Ашыг Шейдайи (Ариф Тутадзе), Ашыг Зейни (Топо Беридзе), Ашыг Сандро Зедгинидзе, Ашыг Михеил Зазадзе, Ашыг Пектайи (Агоб Зазадзе), Ашыг Габриела, Ашыг Нико Давлашеридзе, Сефиль Ладо (Владимир Беруашвили), Ашыг Сандро Гаврелишвили, Ашыг Это (Эквтиме Давлашеридзе) и др. творили на азербайджанском языке.

Следует отметить, что это искусство развивалось в условиях особого уважительного отношения различных народностей, живших на этой территории, к азербайджанскому языку. Представители этого искусства – для преподнесения своих мыслей, желаний и чаяний широкому кругу населения должны были петь ашыгские песни, играть на сазе, рассказать дастаны, писать-создавать на языке, понятном и доступном всем. Этим языком являлся – азербайджанский язык.

Владение азербайджанским языком было необходимо ашугам и для глубокого постижения сложных секретов мастерства рассказчика дастанов. В противном случае они не знали бы богатого и разнообразного классического ашыгского творчества, не могли бы воспользоваться им. Каждый талантливый исполнитель для глубокого постижения ашыгского искусства, независимо от национальности, в первую очередь должен был хорошо изучить азербайджанский язык и фольклор.

Совершенное знание азербайджанского разговорного языка, умение петь на этом языке считались важным в целях привлечения большей аудитории, увеличения числа слушателей и зрителей. Вот почему, живущие на этой территории ашуги и любители поэзии, независимо от их национальной принадлежности, вполне естественно, слагали и пели стихи из дастанов, проводили празднества и меджлисы именно на азербайджанском языке. Но для запоминания слов дастанов и любимых песен они пользовались грузинским алфавитом, так как в то время изучение сложного азербайджанского алфавита было нелёгким делом.

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# AZƏRBAYCAN DASTANLARINDA BAYATILAR

*ELXAN YURDOĞLU (MƏMMƏDOV)*

Zəngin mənəvi irsə, söz yaddaşına malik olan xalqımızın şifahi ədəbiyyatı tükənməz və işləndikcə artan xəzinədir. Folklorumuzun həcmcə ən kiçik janrından tutmuş ən böyük janrı olan dastanlaradək hər bir nümunədə digər bir janrın gizləndiyini üzə çıxarmaq olar. Bunun özü də bir daha şifahi xalq ədəbiyyatımızın sehirli xəzinəsinin tükənməzliyini qürurla ifadə etməyimiz üçün kifayətdir.

Bu sahədə tədqiqat apararkən xüsusilə dastanların daxilində bir çox digər folklor janlarının işləndiyini müşahidə etdik. Bu da təsadüfi deyil. Dastan irihəcmli olduğu üçün onun tərkibində lətifə, məsəl, atalar sözü, tapmaca, nəğmə və sair janrlarla yanaşı aşıq yaradıcılığının bədii nümunələri—bayatı, qoşma, gəraylı, təcnis və digər nümunələrin işlənməsi üçün münbit sujet xətti və təhkiyə imkanları var.

Filologiya elmləri doktoru, professor, folklorşünas alim Məhərrəm Cəfərlinin təbirincə desək “dastan bütün janların fövqündə dayanmaqla onları da öz içərisinə ala bilir. Dastan mətninin poetik strukturuna diqqət etdikdə görürük ki, folklorun özgə janrları onun quruluşunda əsas yer tutur, uyğun şəkildə sıralanır. Mətndə qoşma, gəraylı, rəvayət, atalar sözü və məsəllər kimi janrlar... ahəngdar şəkildə özünü nümayiş etdirir”(9, s.3).

Biz bu tədqiqatımızda Azərbaycan dastanlarında işlənən bayatı nümunələrini araştırmaya cəlb etdik. Bunun üçün türk dünyasının ortaq ədəbi məhsulları olan ən qədim və ən böyük dastanlarımızla yanaşı, ölkəmizin ayrı-ayrı bölgələrindən toplanmış, hətta son dövrlərdə tanınmış aşıqlarımız tərəfindən yaradılmış dastanları ayrı-ayrılıqda tədqiq etdik. Nəticə olaraq dastanlarımızın demək olar ki, əksəriyyətində bayatılardan istifadə olunduğunu müşahidə etdik. Həmin bayatıların bəzisi dastan yaradıcısı və söyləyicisinin birbaşa nitqindən verilir, bəzisi isə dastandakı obrazların fikirlərinin ifadəsi zamanı sujetə daxil olur.

Araştırmalarımıza əsasən deyə bilərik ki, Azərbaycan dastanlarında bayatılar geniş şəkildə istifadə olunmuşdur və hətta bir dastanımızda—“Yaxşı və Aşıq” dastanında üç qoşmadan başqa bütün şeir nümunələri bayatılardan ibarətdir. Bu da “Azərbaycan dastanlarında bayatılar” mövzusunda tədqiqat aparmağa imkan verir.

Türk dünyasının ortaq bədii təfəkkürünün məhsulu olan “Koroğlu” dastanının Azərbaycanın görkəmli folklorşünas alimləri İsrafil Abbaslı və Bəhlul Abdulla tərəfindən tərtib olunmuş nəşrində “ümumtürk düşüncə tərzinin poetik variantı” (8, s.134) olan bayatılara əksər qollarda rast gəlirik. Belə ki, dastanın “Pərizad xanımın Çənlibelə gəlməyi” (10, s.255-277), “Mahru xanımın Çənlibelə gəlməyi” (10, s.278-302), “Zərnişan xanımın Çənlibelə gəlməyi” (10, s.328-351) və “Mərcan xanımın Çənlibelə gəlməyi” (10, s.364-445) qollarında ümumilikdə 27 bayatı işlənmişdir. Adıçəkilən qolların birincisində ikisi cinas olmaqla 3 kəsik bayatı, ikinci qolda 5, üçüncü qolda ikisi cinas olmaqla 5 bayatı, dördüncü qolda isə onu cinas olmaqla 14 bayatıdan istifadə olunmuşdur. Dastanda bir şeir parçası isə qaibdən eşidilir. Dastanın “Mərcan xanımın Çənlibelə gəlməyi” qolunda Mahmud paşa ilə güləşən zaman Eyvazın qulağına belə bir bayatı söylənilir:

Əzizinəm, qarğalar,
Dağda qara qar qalar.
Laçın sayğısız olsa,
Yeriş çəkər qarğalar (10, s.374).

Eposda şairlik, aşıqlıq, ozanlıq haqq vergisi, ilahi töhfə olduğundan söylənən şeirlər də, xüsusilə döyüş səhnələrində qəhrəmanlara ilahi güc verirdi. Dastanda həmin bayatıdan sonra oxuyuruq: “Elə bil, bu səs Eyvazı yuxudan oyatdı, qoluna qüvvət, dizinə taqət, özünə qüdrət verdi. Paşanın kəmərindən yapışıb bir dəli nərə çəkdi, hop qaldırdı başının üstünə”(10, s.374).

Ümumiyyətlə, dastanın baş qəhrəmanı Koroğlu dastan boyu 8 bayatı söyləyir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

5 cildlik "Azərbaycan dastanları"ı seriyasında təqdim olunmuş "Koroğlu" dastanında isə cəmi bir qolda—"Koroğlunun Bəyazid səfəri"ndə(4, s.202-222) 2-si cinas olmaqla 6 bayatı işlənmişdir. Bayatıların hamısı Koroğluyla dərdləşmə zamanı Aşıq Cünun tərəfindən söylənilmişdir. Həmin bayatılarda dastanın ümumi epik strukturuna uyğun olaraq qəhrəmanın igidliyi, qorxmazlığı tərənnüm olunur:

Mən aşığam, bu daşa,
Bu qayaya, bu daşa.
Elə vur ki, yağını,
Kəlləsindən bud aşa (4, s.255).

Göründüyü kimi burada Aşıq Cünun Koroğlunun gücünün nəyə qadir olduğunu da öz arzusuyla və məsləhətiylə qeyd edir.

"Azərbaycan dastanları"ı seriyasının III cildindəki Əmrah" dastanında(3, s.63-82) 3 bayatıdan istifadə olunmuşdur ki, buna da dastanın cığalı təcnis üstündə söylənən ustadnaməsində rast gəlirik. Verilən 3 bayatının ikisi cinas qafiyəlidir. Və qeyd edək ki, dastanın birinci ustadnaməsi olan və

"Səhər tezdən əzmi-gülşən elədim,
Qəm məni çulğadı, ay hayıf-hayıf!" (3, s.133-134).

beytiylə başlayan həmin cığalı təcnisin müəllifi Xəstə Qasımdır.

Xəstə Qasımın həmin cığalı təcnisi ilə "Vaqifin dastanı"nda(7, s.171-194) da qarşılaşırıq. Belə ki, adıçəkilən dastanın cığalı təcnis üstündə söylənən birinci ustadnaməsində də həmin şeir nümunəsi verilib ki, burada da 3 bayatıdan istifadə olunub. Bundan əlavə dastan daxilində də bir bayatı işlənib ki, beləliklə "Vaqifin dastanı"nda 4 bayatı yer alıb.

"Nəcəf və Pərzad" dastanında (3, s.183-204) da "Əmrah" və "Vaqifin dastanı"nda olduğu kimi cığalı təcnis üstündə söylənən ustadnamədə ikisi cinas olmaqla 3 bayatı işlənmişdir. Bu dastanda bayatılara birinci ustadnamədə Aşıq Əlsəgərin

"Mərifət bəhrinə qəvvasam deyən,
Gir dərin dəryada çalxan, yüz ha yüz" (3, s.269)

beytiylə başlayan cığalı təcnisində rast gəlirik.

"Qurbani"(Diri versiyası) (1, s.107-122) dastanında biri cinas qafiyəli olmaqla 2 bayatı ilə qarşılaşırıq. Dastanın sonunda suyun kənarında Qurbaninin öldüyünü görən Pəri xanım ağlaya-ağlaya belə deyir:

"Mən aşiqəm, sal yana,
Dara zülfün, sal yana!
Necəsən bir ah çəkəm,
Kür quruya, sal yana.

Mən aşiq Gəncəm haray!..
Tiflisdən gencəm haray!..
Qurbani öldü, getdi,
Mənə bir əncam, haray!.."(1, s.122)

"Məmmədxan və Səlbi xanım"(7, s.85-110) dastanında biri cinas olan 3 bayatı, Şirvan bölgəsindən toplanan "Adıgözəl və Aslan şah"(6, s.209-241) dastanında 2, Qazax rayonunun Ağköynək kəndindən toplanan "Abdullah və Cahan"(2, s.209-234) dastanında və Şəmkir rayonunun Morul kəndindən toplanan "Qaçaq Süleyman" (12, s.133-166) dastanlarında isə cəmi bir bayatıya rast gəlirik.

Tarix etibarilə bizə daha yaxın dövrün hadisələrindən bəhs olunan "Qatır Məmməd"(11, s.18-229) dastanında ümumilikdə 9 bayatı işlənib. Lakin burda işlənən 2 bayatının işlənmə formasına xüsusi diqqət yetirilməlidir.

Qatır Məmmədin ölüm xəbəri gələndə kənddəki arvadlar şaxsey-vaxsey vura-vura bayatı söyləyirlər:

Karvan gəlir yoldadır,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vaxsey-şaxsey.
Kəhər atın yoldadır.
Vaxsey-şaxsey.
Yoldaşların ağlayır
Vaxsey-şaxsey.
Sənəmin gözü yoldadır (11, s.215-216).
Ardınca yenə bu cür dilə gəlirlər:
Səhər nə gec oyandı,
Vaxsey-şaxsey.
Bir içim su olaydı.
Vaxsey-şaxsey.
Ürək yandı, dil yandı,
Vaxsey-şaxsey.
Anaya xəbər verin
Vaxsey-şaxsey.
Oğlu qana boyandı
Vaxsey-şaxsey(11, s.216).

Hər iki nümunədə misralar arasına "vaxsey-şaxsey" fəryadları əlavə olunur. İkinci nümunədə isə bayatılar arasında nadir hallarda təsadüf ettiyimiz istisna halla üzləşirik. Həmin nümunə 5 misradan ibarətdir. Lakin bayatının 5 misra olması, eləcə də hər iki bayatılardakı misralar arasına "vaxsey-şaxsey" ifadəsinin daxil edilməsi bayatıların mənasına və ümumi poetikasına xələl gətirmir.

Naxçıvandan toplanmış "Arzu Qəmbər"(5, s.348-353) dastanında 4 bayatı işlənmişdir. Lakin bu dastandakı iki bayatı bir-birini sevən aşiqlər arasında deyişmə formasında qarşımıza çıxır. Hadisə dastanda bu cür nəql olunur:

"Mollanın bir adəti var idi. Gərək gündə uşaqlardan biri mollanın səhəngini aparıb doldurub gətirəydi ki, molla da dəstəmaz alaydı. Uşaqlar belə də edirdilər. Gündə növbəylə səhəngi doldurub tökürdülər mollanın əlinə, o da dəstəmaz alırdı. Belə-belə növbə bir gün gəlib Arzuya çatdı. O da öyrəndi ki, sabahkı növbə Qəmbərininkidi. Arzu səhəngi doldurub gətirdi. Molla dəstəmaz alıb gedəndən sonra Arzu üzüyü çıxarıb səhəngin içinə atdı. Ertəsi gün növbə Qəmbərə çatdı. Qəmbər səhəngi əlinə alıb bulağa endi. Səhəngi yaxalayanda içində üzük düşdü. Götürüb baxdı. Gördü ki, Arzuya verdiyi üzükdü. Onsuz da günü ah-vayla keçən Qənbərin halı daha da pis oldu. Çox məyus halda səhəngi doldurub geri qayıtdı. Mollaxanaya çatmamış məscidin tinində gizlənən Arzunu gördü. Qəmbərin dili tutuldu, nə deyəcəyini bilmədi. Hannan-hana özünə gəlib səhəngi yerə qoydu, belə dedi:
Su gələr burux-burux,
Çəkəllər tulux-tulux.
Üzüyün tapan oğlana,
Nə verərsən muştuluq?
Arzu cavab verdi:
Su gələr burux-burux,
Çəkəllər tulux-tulux.
Üzük tapan oğlana,
Məndən öpüş muştuluq"(5, s.350-351).

Biz bilirik ki, dastanların bəzisi hər hansı bir el qəhrəmanına qoşulmuş şeirlər əsasında müxtəlif ozan-aşıqlar tərəfindən yaradılır. Bəzi dastanlarımız da var ki, həmin dastanlarda bu və ya digər aşığın özü tərəfindən yazılmış şeirlərindən istifadə etməklə ondan sonrakı dövrdə yaşayan həmkarları tərəfindən yaradılır və el arasında ağızdanağıza keçərək yayılır, dastan statusu alır. Belə dastanlardan biri də "Yaxşı və Aşıq"(7, s.135-168) dastanıdır. Bu dastan Sarı Aşığın qoşduğu bayatılar və haqqında el arasında dolaşan rəvayətlər əsasında yaradılıb.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

“Yaxşı və Aşıq” dastanı bir xüsusiyyətinə görə digər dastanlardan tamamilə fərqlənir. Belə ki, bu dastanda sadəcə üç qoşma var. Bu üç qoşmadan başqa işlənən nəzm nümunələrinin hamısı bayatılardır. Sarı Aşığın özü tərfindən yaradılan bayatılar sujet xəttinə uyğun olaraq obrazların dili ilə dastan təhkiyəsinə daxil edilir. Zəngin söz xəzinəsinə və müdrik təfəkkürə və təxəyyülə malik olan xalq bu dastanda şeir nümunəsi olaraq bayatılardan istifadə etməklə həm də Sarı Aşığın yaradıcılığında bayatı janrının üstünlük təşkil etməsini də diqqətə çatdırır.

“Yaxşı vı Aşıq” dastanında 79 bayatıdan istifadə edilmişdir. Aşağıdakı bayatı isə mətnin daxilində iki dəfə işlənir:

Aşıq günlər uzunu,
Tel sünbüllər uzunu.
Çəkərəm yar həsrətin,
Aylar, illər uzunu(7, s.136; s.143).

Dastanın əvvəlində söylənən hər üç ustadnamə də bayatılardan ibarətdir. Belə ki, birinci ustadnamədə dörd bayatı verilib ki, onların da ikisi cinas qafiyəlidir. İkinci ustadnamədəki üç bayatının hər üçü cinas, üçüncü ustadnamədəki üç bayatının isə sadəcə biri cinas qafiyəlidir. Ümumiyyətlə dastanda işlənən 79 bayatının 32-si cinasdır. Bir bayatı isə istisna hal təşkil edir. Həmin bayatı 6 misradan ibarətdir və aşağıdakı kimidir:

Mən aşıq, dərmə-dərmə,
Dərməni dərmə-dərmə.
Əkilməmiş bostandan,
Tikilməmiş çardaxdan,
Doğulmamış bir oğlan
Çağırır, dərmə, dərmə(7, s.144).

Bu cür nümunələrə bayatılar içərisində çox az-az rast gəlinir. Misraların artıq olması bayatının sadəcə bəlli qanunlarını pozur. Lakin bayatının ümumi struktur poetikasına heç bir zərər və xələl gətirmir.

“Yaxşı və Aşıq” dastanında söylənən 80 bayatının 76-sı əsərin qəhrəmanı Aşıq tərəfindən, 2-si Yaxşı tərfindən, 2-si isə aşiqlə məşuğun ölümündən sonra onların qəbri üstündə Zeynəb tərəfindən söylənilir.

M.Cəfərlinin“eposun şeirlərindəki bənzətmə qrupları Azərbaycan dastançılığının bütün poetik qüdrətini özündə əks etdirir. Döyüş səhnələri, qəhrəmanların portret təsviri bədii təsvir və ifadə vasitələri ilə o qədər yüksək səviyyədə tərənnüm etdirilir ki, dastanın şeirləri onun nəzm hissəsi ilə bərabər epik səviyyədə çıxış edir. Başqa sözlə, eposdakı şeirlər, sadəcə olaraq, lirik haşiyələr kimi çıxış etmir, epik ideyanın reallaşmasının zəruri struktur səviyyəsi rolunu oynayır”(9, s.100)—fikri məqaləmizin sonunda dastanlarda işlənən bayatıların hansı mövqeyə malik olması haqqında gəldiyimiz qənaəti tamamilə təsdiqləyir.

## ƏDƏBİYYAT

1. Azərbaycan dastanları. (tərtip edənlər: Məhəmmədhüseyn Təhmasib, Əhliman Axundov). Beş cilddə. I cild.Bakı: Lider, 2005, 392 s.
2. Azərbaycan dastanları. (tərtip edənlər: Məhəmmədhüseyn Təhmasib, Əhliman Axundov). Beş cilddə. II cild.Bakı: Lider, 2005, 448 s.
3. Azərbaycan dastanları. (tərtip edənlər: Məhəmmədhüseyn Təhmasib, Əhliman Axundov). Beş cilddə. III cild.Bakı: Lider, 2005, 328 s.
4. Azərbaycan dastanları. (tərtip edənlər: Məhəmmədhüseyn Təhmasib, Əhliman Axundov). Beş cilddə. IV cild.Bakı: Lider, 2005, 544 s.
5.Azərbaycan folklor antologiyası. I cild. Naxçıvan folkloru. Tərtib edənlər Təhmasib Fərzəliev, Məhərrəm Qasımlı. Bakı: Sabah, 1994, 388 s.
6. Azərbaycan folklor antologiyası. XI cild. Şirvan folkloru. Tərtib edənlər Hüseyn İsmayılov, Seyfəddin Qəniyev. Bakı: Səda, 2005, 444 s.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

7.Azərbaycan xalq dastanları. (toplayanı və tərtib edəni: Əhliman Axundov). Bakı: Yazıçı, 1980, 251 s.
8. Babayev Rafiq. Naxçıvan folkloru: bəşərilik, türklür, regionallıq. Bakı: elm, 2008, 144 s.
9. Cəfərli Məhərrəm. Dastan yaradıcılığı (metodik vəsait). Bakı: Elm, 2007, 108 s.
10. Koroğlu. (tərtip edənlər: Bəhlul Abdulla, İsrafil Abbaslı). Bakı: Lider, 2005, 552 s.
11. Qatır Məmməd. (toplayan və tərtib edən və nəşrə hazırlayan: Azad Nəbiyev). Bakı: Azərnəşr, 1985, 232 s.
12. Rüstəmzadə Rüstəm. Koroğlu nəvələri. Bakı: Yurd, 2007, 256 s.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# TRABZON'DA "ŞAH İSMAİL DESTANI"

***ƏNVƏR UZUN***

Trabzon ve Tebriz arasındaki binlerce kilometrelik mesafede hayat bulan halk kültürünün temel noktası söz konusu coğrafyanın tarihi yönüyle ilgilidir. Trabzon Avrupa'dan Hindistan'a kadar uzanan tarihi ipek yolunun merkez kesişme noktasındadır. Tebriz'e giden en uygun yol Trabzon'dan geçiyordu. Baharat Trabzon'a Tebriz vasıtasıyla Hindistan'dan getirilirdi. Bununla beraber Trabzon Kırım ve Rusya ile de aktif bir ilişki sürdürüyordu. XIII. yüzyılın sonu-XIV. yüzyılın öncesinde Fars tacirleri Trabzon ile doğrudan ticaret ilişkisi içindeydi.

Bu güzergahta hakimiyeti ele alabilmek adına İran ve Osmanlı Türkleri tarihler boyu bir birleriyle savaşmışlardır. Bilindiği üzere Akkoyunlular ile Osmanlılar arasındaki mücadele Karadeniz sahillerine, özellikle de Trabzon'a kadar uzanmıştı. Safeviler ile Trabzon Komnenos Devleti arasındaki yakın akrabalık bağları bu ilişkileri daha da anlamlı kılmaktaydı. Ayrıca Tamar'ın Trabzon İmparatorluğu Şirvan'a kadar uzanıyordu (1089-1125).[1]

Sefeviler Devleti'nin kurucusu Şah İsmail(892/1487)'in annesi Halime Beyim, Trabzon despinesi Theodora ve Uzun Hasan'ın kızıydı. Bu nedenle Trabzon, Safevilerin daima ilişkide bulunduğu bir coğrafya idi. Ayrıca onun babası Şeyh Cüneyd 1456'da yerli askerlerin başında Trabzon sınırına doğru saldırıya geçer. Şeyhin askerleri Khaldiya'dan Trabzon'a girerler. Trabzonlular Cüneyd'in ordusuna karşı ciddi bir direnç gösteremezler. Bu nedenle Cüneyd, Pansevasta Aleksandr Kavasit'in grubuna ağır bir darbe vurur.

Cüneyd'in saldırılarıyla iyice zayıflayan imparatorluk Osmanlıların saldırılarına maruz kalır. Osmanlılar Trabzon'un bu zayıf durumundan yararlanarak söz konusu imparatorluğu kendilerine tabi kılmak istiyorlardı. Osmanlı komutanı Hızır Bey, Cüneyd'in Doğu karadenizdeki faaliyetini haber alır almaz Trabzon'a daha ağır bir darbe vurmaya karar verir. Osmanlıların yaklaştığı haberini alan Cüneyd Türklerle savaşmaktan çekinerek geri çekilir ve Trabzon 1461 yılında Osmanlıların eline geçer.

Trabzon İmparatorluğu'nun yıkılmasından sonra da şehirde imparatorluğun taraftarları kalmıştı ve Uzun Hasan da onları müdafa ediyordu. Zira o kendini Trabzon'un bir varisi gibi görmekteydi. 1459 yılının yazında David, Tercan yakınlarında, Sarukiya'da bulunan Uzun Hasan'ın karargâhına gelir. Bu konuda iki tarihçi; Bizanslı Halkakondil ve Fars Ebubekri Tahrânî bilgi vermektedirler.[2]

Gerek Safeviler ve gerekse Akkoyunlular dönemindeki bu sıkı ilişkilerin tarihi dayanak noktaları kadar sosyo kültürel boyutu da çok önemlidir. Bu kültürel derinliğin bir sonucu olarak Tebriz ve Trabzon arasında ticari bir bağ olduğu kadar kültürel bir köprü de söz konusudur. Dedekorkut destanındaki Akkoyunlu beylerinin ataları Bayundur Han'dır. Dedekorkut Destanı'nındaki Kanturalı ve Salur Kazan Boyları tamamen Trabzon ile ilgilidir. Trabzon İmparatoru III. Aleksios'un kızkardeşi Despina Maria 1352 yılında Akkoyunlu emiri Turali'nin oğlu Kutlu ile evlenmişti.[3] Her iki örnekten de anlaşıldığı gibi savaş, ticaret ya da aile ilişkileri kültürel bir ilişkiyi de kaçınılmaz kılmaktadır. Nasıl ki Dedekorkut destanında gerek Bayundur Han ve gerekse Kanturalı boyları bir aile ilişkisinin yarattığı kültürel olgu Şahismail Hatayi ile ilgili olaylardan da kenarda kalamazdı ve kalmadı da. Her ne kadar bu ilişkilerin kültürel boyutu herhangi bir şekilde irdelenmemiş olsa da bu mevcut ilişkilerin kültürel bir dayanağının olmadığı anlamına gelmez. Toplumların belleğine yerleşen sosyal olaylar zamanla mitoslaşır. Sözlü söylencede mevcut rivayet ve söylemler esasında geçmişin kültürel birikimlerinin harmanlanması sonucunda destanlar oluşur.

"Halk anlatı geleneğinin en büyük kuralı dikkati baş kahramanın üzerinde toplamaktır. Anlatımda tarihsel olaylar anlatılıyorsa dikkat kahramanın üzerinde toplanır. Bir çok anlatı ögeleri, kişiler arasındaki ilişkileri en iyi şekilde aydınlatmak için bir araya gelir."[4]
Bu bir "*akın söylencesi*" olarak da algılanabilir. Bilindiği üzere akınlar, kahramanlık destanından ziyade aşk konulu destanları anlatan sanatkârlardır. 560 yıllık bir ta

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ve Trabzon İmparatorluğu ilişkilerinden kaynaklanan “*Şah İsmail Destanı*” Trabzon kültür ve edebiyatının saklı kalmış şifahi ürünlerinden birisidir. Bu destan her ne kadar duygusal bir kurguda olsa da şüphesiz temelinde Azerbaycan ve Trabzon ilişkileri yatmaktadır.

Zamanın değişkenliğinde toplumsal yargının kişisel olayları ve gerçek şahsiyetlerin kimliklerini korumakta zorlanır ve bunun sonucunda tarihi unutkanlık ortaya çıkar. Böylece yoğun bir kurmaca sonucunda reel olaylar ya da şahsiyetler ya mitosa dönüşür ya da masalların duygusal büyüsünde yeniden şekillenerek hayat bulur.

“Şah İsmail’in Gülüzara aşık olması Semerkant Masalı (*Azerbaycan*) ve Banu Ayyulduz (*Özbekistan*) nağılları; o cümleden Trabzon’daki “*Şah İsmail Destanı*” buna örnek teşkil ederler.

Şah İsmail Destanı’nın Dedekorkut ve Köroğlu destanlarının harmanlaması şeklinde Trabzon anlatısında ortaya çıkmaktadır. Dedekorkut’ta ad verme, Ali Kişi epizotundaki Köroğlu’nun kıratın atının karanlık bir odada yetiştirilmesi epizotlarına okşar bir sujette ortaya konmuş olması dikkat çekicidir.

Hiç şüphe yok ki Trabzon-Safevi ilişkilerinin bir sonucu olarak ortaya çıkmış olan “Şah İsmail Destanı” ortak Türk kültür ve ananesinin zenginliğinden kaynaklanan bir epizottur. Bu bağlamda 560 yıllık şifahi söylenceden günümüze ulaşan “*Şah İsmail Destanı*”nın Trabzon varyantı şöyledir:

[“Şah İsmail’in bubasi Padşaḫ idi. Sarayinin ḳarşisinda bir ḳulübe var idi. Bir gün o bu ḳulübeye baḳıp of of etti. Buni gören veziri Padşaḫa niye of çeḳiysín diye sordi.

Padşaḫ:

- Ha’u ḳarşıki ḳulübenin on iki senedur dumani tütiy. İnanıyrím ~ki orada bir adam ile oğli yaşayi.

O boyle deyup, çeḳup gitti. Yolda gideriken bir adamla ḳarşilaşti. Bu adam çebinden bir elma çıḳarup ikiye böldi. Almayı bana vererek “almanın yarisini bana verup dedi ki buni atına yedur. Diğer yarisini da beni ziyarete gelurken yarisini Arap sultanina ver, diğerini hanumuna yedir. Bunun sonunda doğaçaḳ olan uşağa ad vermayın” deduḳten sonra bir anda gözden ḳayboldi.

Bir aḳşam Padşaḫın ḳarisi uşağa ḳaldi. Zamani gelince bir oğli dünyaya geldi. Onlar o ḳerametli adami beḳlediler~ki gelsinda uşağa ad versín. Uzun zaman boyle beḳlediler ama adami bi türli bulamadiler. Sonunda Padşaḫ tellal çağırdı ki millet toplansın Padşaḫın uşağına ad taḳılaçaḳ.

Millet toplandi. Biri bu ad olsun, diğeri yoḳ bu ad olsun deyip tartışa dursinler ortaya bir adam çiḳti. Dedi ki, bende bir ad diyeyim. Dediler~ki olsun. Adam dedi ki:

-“Adina diyesun ḳaynar ḳuvveti, uşağa diyesun Şah İsmail!.”

Bundan sonra millet dağıldi. O Padşaḫa dedi ki zamani gelince bu uşaḳ yeryüzünde yıḳılmaz. Onun için yerun altinda bir saray yapaçaḳ, hoca tutup oni orada oḳutacaḳsın.

Uşaḳ büyiyince ona yerin altında bir saray yaptiler. İşiḳ vurmasi için yeryüzine bir delik açtiler. Hocasi bir gün camiye gitti. Uşaḳ elindeki lambayi pencereye doğri fırlatti. Cam altina dökilti.Uşaḳ da yeryüzine çiḳti. Padşaḫ ne ettiyse ona yer edemedi. Atina binup sürdi gitti ḳaf Dağı’na. Gördiki orada çadirlar ḳurilmiş ḳoca ḳazanlar ḳaynayi. Padşaḫ dedi ki bu çadirlar buradan ḳaldirilaçaḳ. Ben bir kağıt yazacuğum ve hağu ocağın taşinin altina ḳoyacuğum. Beni arayan olursa buylece beni arayan bu kağıdi oḳur ve arayıp bulur. Ondan sonra da Padşaḫ atina atladi gitti.

Bir süre gittikten sonra baḳti~ki Hindistan’a gelmişim. Orada bir eve rast geldi. Bu evin penceresi ve ḳapisi belli değil, içerisinde ise bir ḳız ağlayi. Padşaḫ nasil ettiysa içeri girmeyi becerdi. ḳıza sordi ~ḳi niye ağlayisin? O dedi ki;

-Biz yedi ḳardaş iduḳ. İḳi ḳardaşum şimdi benim için savaşiyi, diğer ikisi bu gece şehit düşti onun için ağlayirim.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu cevaba içi yanan Padşaḫ ona yardim etti. Sora hep birlikte ḳızın evine geldiler. ḳızın ḳardaşlari, Padşaḫa dediler ḳi bir savaştayduḳ, ḳardaşumuzun uşağu yoḳ. Senun da paraya ve mala ihtiyacun yoḳ. Onun için habu ḳız ḳardaşumuzi sana verecuğuḳ.

Padşaḫ bu teḳlifi ḳabul etti. ḳızi alıp yola düşti. Oylece epey yol gittiler. Birde gördiler ḳi bir yerde tavşan ḳanı ile pilav pişiriliyi. ḳız pilâv yemeḳ için oturdi ḳazanın yanina. Dediler sen ne yapaysin. ḳimseye sormadan pilâv yiysin, hiç olmazsa bari birimizla güleş. ḳız arabi güleşte yendi, daha sonra Şah İsmayil ile güleştiler. Şah ismayil oni ḳaldurup yere çaldi. Göḳ ḳubbe ḳızun başina yiḳıldi. Ayağa ḳalḳaraḳ dedi ḳi; -Sen yenulduğun için seni alaçuğum, şimdi bir davam için gidiyrum döneyiḳen seni alurum.

Sonra da atina atladi, yel gibi uzaḳlaşti gitti. Bir süre oylesine at ḳoştirdi ve gördi ki bir ḳöyde düğün vardır. O tarafa doğri atini sürdi. Bir çeşmenin yanına geldi. Baḳti ki orada bir ḳocaḳari oturiyi. Ona düğünün kimin olduğuni sordi. O da:

-Padşaḫın uşağunin ancaḳ gelin kimseyi yanina yanaştirmayi ve eve ḳomayi.

Ona dedi:

-Bir şey desem ona sóyler misun?

ḳocaḳari

-Niye demiyim? Elbette derum.

(*oğlana ḳız ónceden bir taraḳ vermişti nişan için*)

- Al bu tarağu ḳapinin araluğundan ona göster. O seni içeri alur.

ḳocaḳari gitti (*ḳızın adı Gülizar idi*).

- ḳızım Gülzar, aç ḳapiyi bişey diycuğum sağa, ḳapiyi arala.

Gülizar ḳapiyi araladi. ḳocaḳari ona tarağu gösterdi. Ona seni istiyirum dedi. Sonra dedi ḳi, dişari çıḳup gezecuğuni sóyle. ḳapida beş yaşindan büyik uşaḳ olmıyacaḳ.

óyle yaptiler. ḳız dişari çiḳti. Şah İsmail oni alup ḳaçti. Onlar köye gelurken peşleri sira asker gönderdiler. Şah İsmail onlar ila uğraşti uğraşti, onları ḳovdi. kökden iki ḳız gelup bizi yayliya getır, bize orada ḳelif yap biz orada oturalum, bizi sora gelıp alurlar dediler. óyle da yaptiler. Sonra Şah İsmail'in nenesi geldi baḳti ki ḳelifte yaḳışiḳli iki uşaḳ. Düşündi ki bunların birisi ḳaynananın, diğeriysa Şah İsmayıl'ın olur. Padşahun ḳarisi dediḳi bu uşağu da sen alaçaḳsun. O, yoḳ yoḳ diye cevap verdi. Ne yaptilersa ḳabul etmedi. Soninda dedi ḳi yüz tane ḳariyi bir çuvala ḳoyup hamalla yollasunlar.

Yüz ḳariyi bir çuvala doldurup yolladiler. O ḳarilari ḳesup bir başḳa çuvala doldurdi. Dedi ḳi, buni alun sarayın ḳapisina biraḳın. Sonra şah ismayil'in bubasi haber yolladi ḳi Şah İsmayil gelsunda onunla görüşelum. Bunun üzerine Şah İsmayıl saraya gitmeye ḳarar verdi. O saraya giderḳen Gülizar ona dedi ḳi:

- Şah İsmayil gidiysun, sana yemeḳ verecekler, habu yüzuğu al, yemeḳlerun üstünde gezdurdiḳten sonra ye. Sora teḳ başina gitma. Habu ḳöpeḳ senunla gelsun. Sen onun izlerine basa basa git.

İsmayil, Gülizar'un deduğu gibi yapti. Ayaḳlarinin ucina basa basa saraya gitti. Köpeğu sarayin ḳapisinda biraḳti, ḳendisi içeri girdi. Ona dedilerḳi burada sen güleş yapaçaḳsun. Şah İsmayil ḳabul etti. Raḳiplerini birer birer yere vurdi. Baḳtilerḳi oni yenmeḳ mümḳun değil, ona dediler ḳi:

- Şah İsmayil seni ne durdurur?

O dedi ḳi;

- Eğer habu paşparmağumi sacımın teli ile arḳaya bağlarsanuz beni durdurursunuz.

Onun paşparmağuni saçının teliyle arḳaya bağladiler. Ancaḳ bi tuhaf olan Şah İsmayil ellerini çözebilmeḳ için çoḳ uğraşti ama saçinin telini bi türlü ḳesemedi. Baḳti çaresi yoḳ başladi beyit oḳumaya:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ala dağa selam eyle,
Gözlerunden döḳma yaşi.
Düşer oldum ben bu derde
Derdumun yoḳtur ilaçi.
***
Güneş suya vurar vaḳti,
Bülbül öter seher vaḳti,
Onun boş ḳalmasın tahti,
Yıḳılır taçi, mihraci.
***
Şah İsmayilun göz yaşi,
Boş mi ḳalaçaḳ taçi?
Düşman bağlamiş ḳolini
Eğuḳ mi duraçaḳ başi?
***
Adalet varmi diyelum,
Nere varacaḳ bilelum,
Allah'a duğa edelum
Belkim bulunur ilaçi.

Sora Şah İsmayil'ın gözlerini çıḳarup bir yere attiler. Şah ismayil dedi ḳi sağ gözumi sağ cebume, sol gözumi sol cebume ḳoyun. Onlar Şah İsmayil'ın sol gözünü sol cebine, sağ gözüni da sağ cebine ḳoydiler.

Şah İsmayil ḳuşdili bilirdi. Üç güvercin gelup onun başinun yanina ḳondiler. Onlar Şah İsmayila bir tas su verup dediler ḳi şu duayı oḳuduḳtan sora gözleruni bu suyla yiḳaduḳtan sora gözleruni yerlerine ḳorsan sağulurlar.

Bu sirada Şah İsmayil'ın bubasiyle Arap Zengi savaşiydiler. Şah İsmayila adini veren adam Şah İsmayil'ın bubasina dedi ḳi ben yaşli bir adamum, sana yardım edemem. Habu uşağu (*Şah İsmayil'i*) sana yardima yollayım.

Arap zenginin adamlari ona dediler ḳi Şah İsmayil ḳarşimiza çıḳarsa na yapaçuğuḳ? Biz ona bir şey yapamazuḳ. O zaman biz senunla savaşiy gibi yapalum seni yenuḳ gösterup padşaḫın yanina geturelum. Ona diyelum ki padşağum habu sağa çoḳ çeḳturdi. Al buni ne yapaysin yap. Senda buylece Padşaḫın yanina gider oni öldirirsın.

Bir süre sora Arap Zengi yere yığildi. Oni oradan alup Padşaḫun yanina geldiler ve dediler ḳi, Padşaḫum bu sağa çoḳ çoḳ çeḳturdi. Bunun cezasini sen ver. Arap Zengi Padşaḫın yanina gelur gelmez ḳılıçini çeḳup bir ḳılıçla Padşaḫı öldürdi. Padşaḫın ölümünden sonra Şah İsmayil oraya geldi. Oradaḳilerden hiç ḳimse oni tanimaydi. O dedi ḳi;

- Şah İsmayil'in ḳılıçini ve atini bana verun.

Oradaḳiler dediler ḳi,

- Hağu uşaḳ mi bizumla savaşaçaḳ?

Aralarinda epiy ağuz dalaşi oldi. Soninda Şah İsmayil ḳılıçini çekerek onlarla savaşmaya başladi. Çoḳ zorlansa da soninda Şah İsmayil onlari yenmeyi başardi ve bubasinin yerine Padşaḫ oldi. ` Şah İsmayil Padşaḫ olinca ona çoḳli sihir ettiler. Ama o bunlarida atlatmayi başardi. ḳızlardan iḳisini alaraḳ burada ḳaldi. Buylece Şah İsmayil'in namini herḳes duydi.]

***Kaynakça*:**

1- Allen, WED. (1932), *A History of the Georgian People*, Londra, s. 87-88.
2- Tahrânî, Ebubekri Abu Bekr (1962/1969), *Kitab-i Diyarbakriya,* C. 2, Ankara, s. 382.
3- Mélikoff, İrène (2008), *Destan'dan Masal'a*, (çev.Turan Alptekin), "Demos Yayınları", İstanbul, s.39.
4- Orlik, Axel (1994), *Halk Anlatılarının Epik Kuralları II*, Milli Fol

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MÜASİR AZƏRBAYCAN POEZİYASINDA DASTAN POETİK SİSTEMİ

***ƏPOŞ VƏLIYEV***

Müasir ədəbiyyat öz inkişafı boyu xalqın bədii yaddaşına, folklora söykənir, onun bədii təcrübəsindən bəhrələnir. Xalqın folklor təfəkkürü mənəvi tərəqqinin əsasıdır. Bütün dünya ədəbiyyatının şəhdi-şirəsi, gözəlliyi məhz onun şifahi ədəbi irsindən qaynaqlanır. Təsadüfi deyil ki, böyük söz sənətkarları şifahi xalq ədəbiyyatı ilə həmişə mütəqabil surətdə bağlı olmuşlar. Onlar öz yaradıcılığında folklordan istifadə etdiyi kimi, özləri də həmin ədəbiyyat xəzinəsinə, şifahi xalq yaradıcılığına təsir göstərmişlər. Dünyanın folklora qayıdışı ilkinliyə, təmizliyə, paklığa dönüş kimi qiymətləndirilir. Bu qanunauyğun ənənənin XX əsr Azərbaycan ədəbiyyatındakı təsiri qabarıq surətdə özünü büruzə vermişdir. Azərbaycan yazıçıları da folklordan yaradıcı şəkildə istifadə etməklə qiymətli ədəbi nümunələr yaratmışlar. Dastanlarımızda xalq öz igidlərini sevə-sevə tərənnüm edir, onların vətən, torpaq təəsübkeşliyini qəhrəmanlıq boyaları ilə təsvir edir, düşmənə qələbə çalmaq yollarını öyrədirdi. Klassiklərimizdən tutmuş müasir sənətkarlarımızın yaradıcılığına nəzər salsaq şahidi olarıq ki, dastanlardan istifadə onların əsərlərinin dolğun və kaloritli olmasına zəmin yaratmışdır. Qəhrəmanlıq dastanlarında xalqın həyatı ilə bağlı tarixi hadisələrdən, onun haqq-ədalət və azadlıq uğrunda apardığı mübarizədən bəhs olunur. Belə dastanların qəhrəmanları xalq içərisindən çıxmış mərd və igid insanlar olur. Ən məşhur qəhrəmanlıq dastanları “Kitabi Dədə Qorqud”, “Koroğlu” və “Qaçaq Nəbi” dir. Bu dastanlardan bəhrələnərək öz yaradıcılığında ondan geniş şəkildə istifadə edən şairlərdən biri də Hüseyn Kürdoğludur. Onun öz yaradıcılığında “Kitabi Dədə Qorqud”, “Koroğlu”, “Qaçaq Nəbi”, “Əsli və Kərəm” dastanlarından istifadə etməsi yeni nəsli ən qədim tariximizə, əsl-kökümüzə, həm də müstəqil bir dövlət kimi gələcəyə aparmaqda əvəzsiz bələdçidir.

Xalq dastanlarının poetik sistemi H. Kürdoğlunun poeziyasında müxtəlif biçimdə təcəssüm edir. O, dastan motivlərini, dastan qəhrəmanlarının əxlaqi-mənəvi keyfiyyətlərini qabartmaqla yanaşı, dastan poetikasının təcrübəsindən məharətlə bəhrələnir.

H. Kürdoğlu bayatılarında məhəbbət dastanlarından istifadə motivi də özünəməxsus yer tutur. Burda adətən əsas mövzunu sevən gənclərin saf və təmiz məhəbbəti, düz ilqarı, vəfa və sədaqəti təşkil edir. Qəhrəmanların başına gələn hadisələri o, xalq ruhuna doğma olan formada-bayatı ilə ifadə edir. İşlətdiyi ifadələr, xalq deyimləri, folklor ünsürləri isə bayatıların dilinin axıcılığını və təbiiliyini artırır.

“Əsli və Kərəm” dastanı xalqımızın həyatında milli-mənəvi dəyərlərin, təmiz sevginin, nakam məhəbbətin insan qəlbinə təsirinin ən bariz nümunələrindən biridir. Şair bu dastandan da bəhrələnərək, öz şeirlərində bu barədəki təəssüratlarını ifadə etmişdir:

Karvan tutub, qəm keçib,
Əsli gözü nəm keçib,
Daşda yanıq izi var
Bu dağdan Kərəm keçib.(5, səh.112)

Gecənin taxtı qara,
Kərəmin baxtı qara.
Ərzurum gədiyində
Göz yaşı axdı qara.(5, səh.123)

Şair “Əsli və Kərəm” dastanındakı Kərəmin ağzından çıxan alovun atəşinə yanıb kül olma” motivindən aldığı təəssüratı isə belə ifadə etmişdir:

Əslinin donu qara,
Yol gedər yönü qara.
Kərimin naləsindən
Gecənin günü qara.(5, səh.123)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Rəşidbəy Əfəndizadə el qəhrəmanları haqqında söz açarkən qeyd edirdi ki, xalq öz düşmənindən intiqam almaq üçün öz qəhrəmanı Koroğlunu ön plana çəkir. Qaçaq nəbilər, qaçaq kərəmlər, leyli-məcnunlar, əsli-kərəmlər, molla nəsrəddinlər el arasında həmişə yaşayır və onların vücudu ilə el hər murada yetişə bilir. Bu qəhrəmanların vasitəsi ilə xalq öz düşmənindən intiqam alır. Dastan qəhrəmanları öz məşuqələri ilə qovuşmaq üçün qərib vilayətlərə gedirlər. Bu yolda onlar min bir əzaba düçar olur, hicran atəşi ilə yanıb-yaxılırlar. Nəhayətdə, ya muradlarina çatır, yaxud nakam, binəsib ölürlər. (10, səh. 104)

Mövzusu qəhrəmanlıq tarixindən bəhs edən "Koroğlu", "Qaçaq Nəbi" dastanlarından götürülmüş şeirlərində H. Kürdoğlu milli yaddaşın epik nümunələrindən istifadə etməklə xalqın igid, qoçaq, cəsarətli oğullarını sosial ədalət və mübarizəyə çağırır:

Artıb qarnı xaşalar,
Yeni xanlar, paşalar
Koroğlu, sən gəlməsən
Bunlar hara baş alar.(5, səh. 150)

Dağların bəlgəsi var,
Bərəsi, bəlgəsi var.
Bu dağların üstündə
Koroğlu kölgəsi var.(5, səh. 146)

Koroğlu ilə yanaşı onun igid xanımı olan Nigar da H. Kürdoğlu bayatılarında təmiz, saf və igid Azərbaycan qızı kimi tərənnüm olunur:

Nigar bulaq başında,
Koroğlu dağ başında.
Bir qara qartalmıdır
Zirvənin ağ başında?!(5, səh.150)

Öz sözünü " aynalı " nın dili ilə deyən Qaçaq Nəbi də H. Kürdoğlu bayatılarında igidliyin, qəhrəmanlığın rəmzi kimi təsvir olunur:

Əyilərmi ər Nəbi,
Alovlar geyər Nəbi.
Aynalının diliylə
Sözünü deyər Nəbi. (5, səh. 154)

Düşməni teylər Nəbi,
Qana qan eylər Nəbi,
Aynalısız, Bozatsız,
Həcərsiz neylər Nəbi?! (5, səh. 153)

Çıxdınmı qaşa Nəbi,
Söykənib daşa Nəbi,
Keşik çəkir elinə
Həcərlə qoşa Nəbi. (5, səh. 153)

Şair o vaxt öz qəlbi ilə oxucuları arasında qırılmaz körpü sala bilir ki, şəxsiyyəti ilə yaratdıqları bir-birini tamamlayır. Şair o vaxt hamı tərəfindən sevilir ki, özü ilə sözü tən gəlir, başqa sözlə, poetik fikirlərini əməlləri ilə təsdiqləyir. H. Kürdoğlu Azərbaycan qadınlarına xas olan ən nəcib keyfiyyətləri öz şeirlərində tərbiyə etmişdir. "Qaçaq Nəbi" dastanından götürülmüş motivlər əsasında Nəbinin özü qədər igid, qoçaq, vəfalı Azərbaycan qızlarının timsalı olan Həcərin şücaətləri də tərənnüm olunur:

Zirvələr qarı Həcər,
Günəşdən arı Həcər.
Min qoçağın bacısı
Nəbinin yarı Həcər. (5, səh. 156)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən Həcərəm, Həcərəm,
Ayaz göylər pəncərəm.
Düşmən qanı tökməyə
Ovxarlı bir xəncərəm. (5, səh.154)

Hüseyn Kürdoğlunun Koroğlunu, Nəbini, Həcəri tez-tez xatırlaması oxucunun qulağında tarixi marş sədası canlandırır. Şairin "Şəhid olan dağlar qızı" şeirinin qəhrəmanı Həcərin nəvəsidir, öz Nəbisinin qisasını almaq üçün əlinə silah götürür. "Yarın da vətən qurbanı, qoymamısan batsın qanı.Yurdumun dişi qaplanı, Könüllər mənzilin sənin" deyə şair bu qoçaq Azərbaycan qadınını vəsf edir. Şairin bir sıra bayatılarında Kirs, Dəlidağ, Savalan, Qaf dağlarının adları çəkilir və bu dağların Nəbinin oylağı, səngəri olduğu göstərilir.

Yağıya yağı Nəbi,
Qeyrət qaçağı Nəbi.
Səngər eylər gah Kirsi,
Gah Dəlidağı Nəbi. (5, səh.157)

Dastan qəhrəmanları H. Kürdoğlunun bütün janrlarda yazılmış şerlərində təsadüf edilir. Qorqud, Koroğlu, Babək, Nəbi, Həcər kimi dastan qəhrəmanları bu poeziyada tarixlə müasirliyin vəhdətilə, tarixin müasir poetik şərhinə çevrilir. Onun "Sarı Aşıq" poeması isə el içində dastana, rəvayətə çevrilmiş, böyük el sənətkarına həsr edilmişdir. Bu poema janr etibarı ilə tamamilə orijinal bir hadisədir. Dastan, rəvayət təhkiyəsi, deyişmə, yazışma forması poemanın quruluşuna orijinallıq verməklə yanaşı tarixi kolorit yaratmaq baxımından da əvəzsiz rol oynayır. Müasir Azərbaycan poeziyasında mövzusu dastanlardan götürülmüş qəhrəmanlıq və məhəbbət motivlərindən istifadə zaman-zaman yeni nəsillərin tərbiyəsi işinə fəallıqla mudaxilə edir. Müasir ədəbiyyatımızda dastan motivlərindən istifadə ilə yazılmış bədii əsərlərin xüsusi yeri və çəkisi var. Bu motivlərdən müasir poeziyada istifadə olunması yeni nəsillərin milli ruhda yetişməsində böyük rol oynayacaqdır.

**ƏDƏBİYYAT**

1. Azərbaycan dastanları 5 cilddə, Bakı, " Çıraq" nəşriyyatı-2005
2. Bir şer bulağıydım... Sabah, Bakı-2005, 364 s.
3. Hüseyn Kürdoğlu "Min bir bayatı" Bakı,Gənclik-1992
4. Hüseyn Kürdoğlu. Qaya çiçəkləri. Gənclik, Bakı-1970, 66 s.
5. Hüseyn Kürdoğlu. Min bir bayatı. Gənclik, Bakı-1992, 224 s.
6. Hüseyn Kürdoğlu. Yaralı torpağım, yaralı sevgim. Sabah, Bakı-1997, 248 s.
7. Hüseyn Kürdoğlu. Yurduma qurbandır sözüm. Sabah, Bakı-516 s.
8. Hüseyn Kürdoğlu. Yurdumu gəzə-gəzə. Gənclik, Bakı-1968, 48 s
9. İ.Babayev. P.Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Maarif, Bakı-1970. 263 s.
10. Ulduz Mürşidova. Rəşid bəy Əfəndizadə və folklor. Kooperasiya, Bakı-2004, 104 s
11. Vaqif Vəliyev. Azərbaycan folkloru. Maarif, Bakı-1985, 414 s.

**Epos poetical system**
**in the modern azerbaijan poetry**

Being from notable respensentatives of Azerbaijan poetry Huseyn Kurdoglu has formed the creative work in the ground of traditions of classic and folklore. System of genre and description has of this poetry to (the) arsenal of rich folk-lore and original poetical praise.

Poetical system of the poetry of tuning peg takes important place of the epic monuments of " Kitaby Dada Gorgud", "Koroghlu", "Asly va Karam", "Gachag Nabi" of the Huseyn Kurdoghlu poetry subject (theme)s of heroism and love in the images system.

**Key words:** epos poetics, structure of the modern poetry, genre evolution, heroism traditions

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## Эпическая поэтика и современная Азербайджанская поэзия

Творчество одного из видных представителей азербайджанской поэзии Гусейна Кюрдоглы формировалось на почве классической и фольклорной традиций. Жанровая и изобразительная система этой поэзии совмещает богатый арсенал фольклора и оригинального поэтического восприятия.

Поэтическая система ашугской поэзии, героическая и любовная тематика эпических памятников «Китаби Деде Горкут», «Короглу», «Асли и Керем», «Гачаг Неби» имеют значительное место в образной системе поэзии Гусейна Кюрдоглы.

**Ключевые слова:** эпическая поэтика, структура современной поэзии, жанровая эволюция, героические традиции.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# İRAN TÜRK FOLKLOR ARAŞTIRMA TARIHI VE ÖNCÜLERINE KISA BIR BAKIŞ

***ALI BERAZENDE TÜRK***

**Giriş:**

İran nüfusu içerisinde Farsların yanı sıra başta Azerbaycan Türkleri olmak birçok Türk toplulukları yer almaktadır. Bu gün yaklaşık 25 milyona (1)yakın Günümüzde İran Türkleri başta Tebriz olmak üzere Erdebil, Zencan, Hoy, Marağa, maku, Sulduz(Neğede), Koşaçay (Miyandab), Gazvin, Miyana, Urmiye, Merend, Eher Hemedan, Soğukbulak, Astra, Çulfa, Halhal, Gurve, Tikentepe, Bicar olmak üzere değişik yerlerde meskûnlaşmış olup, İran nüfusunun yakınına yakın bir oranını oluşturmaktadır.

Söz konusu Türkler geçmiş tarihi zenginliğine yakışır şekilde rengârenk ve oldukça zengin bir kültür yapısına sahiptir ki, bu göz alan zenginliği İran coğrafyasının her alanında görmek olasıdır. Azerbaycan halkının halk bilimi zengin olduğundan bu halkın tarihi ile bağlı dır. Dede kurkut destanı edebi ve folklorik bir tarihi yapıt olarak Azerbaycan halkının en gözde gelen folklor göstergelerinden biri sayılır. Bütün bunları göz onüne alarak malesef İran ve Güney Azerbaycan şifahi halk edebiyatı zenginliği ve çok renkliliği rağmen mazlum ve tanınmamş kalıp.

**Sunuş:**

Dede kurkut destanı Azerbaycan folkloru için başlangıç noktası sayılarak sözlü edebiyat bundan sonra genişlemeye yüz tütürak masal ve hikâyelerin yazılı olarak yüze çıkmaların görmekteyiz. 13cu asırda günümüze kalan masallardan Kise Yüsef (1230) adlı koşma şeklinde, Ahmet Yesevi'den etkilenlenerek var.

15ci asra kader âşıklar Azerbaycan da ozanların yerin tutarak Azerbaycan folklor alanında büyük izler burakmışlar. "Oğuzname: Emsali-Mehemmd ali" (2), adil atalar sözü kitap folklor toplama ürünlerinden en birinic kitap demek olar bu döneme ayıttır. 80ci yıllarında Leningrad arşivinde bulunan şu kitap Semet Alizade tarafından bulunup. Kitabın dili ve işlenilmiş deyimler ve atalar sözlerine bak dikta demek olur kitap Tebriz ve güney Azerbaycan deyişine yakındır. Kitapta yaklaşık 2500 atasözü bulunur.

16-17 asır Azerbaycan folklornun en parlak dönemi adlandırmak olur. Neye ki bu yıllarda aşıklık geleneği genişleyip ve yükselmeye yüz tutmuş . Aşık kurbanı, Şah İsmail (Hatayı) folklor yaradıcılarının sayılırlar ki bu gün bile folklorik destanları dilere destandır. Folklor alanında birinci sayılan folklorik derleme kitabı yazılara göre yene şu yıllarda toplanmış. Mehemmed HebleRudi, dediklerine göre şu dönemde Şah İsmayilin emri ile toplanmış Türk dilinde toplanmış Atalar sözü kitabın gördükten sonra farsça dili için birinci kere olarak yazmağa yüz koymuş. HebleRudi çoklu Tahsin ve Türklerin atalar sözünü toplamlarına önem verdiklerin hatırlatarak iş koyulmuş. Göründüğü gibi birinci kere yıllardan beri Türk dilinde toplanmış bu günkü deyişle folklor kitaplarının olduğun gör uruk (3).

Donemin sözlü edebiyatı o kader etkili oldu ki klasik şiir bile etkiledi. Bu dönemde Azerbaycan'ın en adlım destanları örnek olarak, Köroğlu, Aslı ile Kerem, Âşık karıp, Şah İsmail ve binlerce koşma, mani(bayatı), ağı(Mersiye) yadikar kaldı. Dönemin en adlım Âşık, Âşık Tufarkanlı, Sarı Âşık ve ad vermek mümkündür.

18ci asırda da sözlü edebiyat keçmiş yıllar gibi sürekli olarak genişleyip ve ilerlemeye devam etmiş. Bu donem o kader güçlü folklor alanına sahip olup ki başka halklar ve milletler bile ondan faydalanıp kendi folklorlarına yeni yüz kazandırdılar. Bu halklardan Ermeni ve Gürcü halklarından ad vermek mümkün. Yaklaşık 35 Ermani Âşık Azerbaycan âşık şiirinden etkilenerek ün kazndılar.

Halk destanları ve masalları şu dönemde de yeni ver siyalar kazanarak zenginliğine artırmış olup Aslı ile Kerem, Sayat ve Sayd, Nevruz, Köroğlu, Abdullah ve Cihan, Şah Abbas, Pinedüz gibi halk destanları yarandı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bunlardan başka demek olur ki tüm şairlerin divanlarında halk bilgisi etkisin görmek olur. Bu dönemin folklor kitaplarından birisi sayılan Emsal-el-Türkan dir ki Abbaskulu Merağeyı tarafından Kacar padişahı Ağamehemmed şah kacarın atası, Mazednderan hâkimi Hüseynkulu hana (hâkimiyet yılları 1770-1779) tavsiye olunarak yazılıp. Kitapta yaklaşık 1149 atasözü bulunmaktadır.

19cu asrın birinci yarılarında tarihi uğursuzluklara ve hadiseler sonucunda vahit Azerbaycan ölke iki yere bölünerek dili, dini ve tarihi ve kültürü ve folklor aynı olan bir halk olan bölünüp iki politik ve sosyal rejimde yaşamak mecburiyetinde kaldılar. Araz nehri hükümetlerin sınırı olarak farklı talihlere uğramış oldular.

Kuzey Azerbaycan da tam politik –tarihi ve bilimsel kültürel yaklaşımlar sergilendiği bir halde güneyde tam tersine bir durgunluk ve geri kalmaya sebep ortaya konuldu.

İran'ın 1925 yılından itibaren Kaçar Sülalesinin hâkimiyetinden çıkmasının ardından pehlevi rejiminin uzun süren hâkimiyeti neticesinde İran'da yürütülen istibdat baskısı nedeniyle İran Türklerinin kültürel mirasının, o cümleden folklorunun toplanıp, araştırılması olası olmamıştır denilebilir. Zira söz konusu dönemlerde sadece Tebriz, Erdebil, Urmiye ve Zencan yörelerinde Türk folklorunun toplanması işlemi gerçekleştirilebilmiş olsa da bu daha çok toplamaktan ziyade yaşatmaya çalışmaya dayanmakta idi. Bu daha çok şifahi şekilde gerçekleştirilmekte idi (4).

Tüm sahalarda özelikle folklor sahasında araştırmalar engellenerek durgun bir hal aldı. Amma yene de 19cu asrın son yıllarında Molla Hasan Edib Eheri(Tuti), Molla Mustafa ve Mehemmed Bakir Halhali, Salebiye adlı eserinde birçok halk edebiyatının örneklerinden toplamışlardır. Molla Mustafa âli oğlu yazdığı Türkçe Farsça Nessab da 400 fazla atalar sözü kayd etmiştir. Mehemmed Bakir Halhalinin de Selebiye ya Tilki kitabında bir çok atalar sözüne rastlamak mümkün.

Kaçar döneminden elde olan folklor kitaplarından tekçe Mirza Cafer Sultan-el-kura dan kalan bir farsça-Türkçe atalar sözü çünk başka bir şey yok denilen kader folklor yazı var.

Kaçar döneminin İngiltere baskıları ve Rıza han iş üste gelmesi ile birlikte (1922) Iranda tam Farslaştırma ve fars olmayan halkları dillerinden ve görenek ve geleneklerinden aradan kaldırmak siyasetleri başlandı.

Bununla bile kısa devrilerde özelikle Iran hâkimiyetinin karışık vaziyetlerde olan durumlarda ara sıra bir para Türkçe yazılar ve folklor kitapları yayılmış. Folklorik kitaplardan biri Mir Mehdi Etemad yazdığı Gelinler Bezeğidir ki Azerbaycan da olan gelenekler ve görenekleri bir araya getirmiş. Kitap defalarca basılıp ve manzum bir eserdir. Hatırlatmak gerekir ki 1906ci yıllında Tecrid-el-lüğat adli Ahmet Mirza Ali hacı Mustafa oğlu bakuy adlı farsça dilinde tahranda taş basma olarak bir para atalar sözü toplamış (5).

1924cu yıllarına ayıt bir atalar sözü kitabı Melkum han Ermeni Esfehai (Nazim el dövle lakap ile tanınır) Zurub Emsal Türkan adı ile kendi icat ettiği alfa betle basılmış şekilde 2775 Milet meclisi kütüphanesinde kalır (6).

1941ci yıllarda Pehlevi rejimi zaafa uğradığı dönemi olduğundan dolayı Azerbaycan neşriyatında Azerbaycan, Azatlık yolu, Şafak ve s dergilerde bir çok folklorik ürünleri görmek mümkün olur. Hemen yıllarda Azerbaycan halk Mahnıları adlı kitap Ezari adlı kişi tarafından yarılır. Mir Mehdi Etemadın derlediği Gelinler Bezeyi birçok artırmalarla yeniden basıldı (7).

Şu yıllarda birçok yazar folklora yüz getirip, folklor alanında derlemeler yaptılar ki onlardan Habib Sahir, M.A.Ferzane(1924-2006) , Hüseyin Umit, Sabir Zaman, hanım Daneşiyan, gibi yazarlardan ad çekmek olur. Adları çekilen kişilerden tekçe M.A. Ferzane topladığı yaklaşık 1400 bayatılar (Maniler) adlı kitabın 1956cu yılda yaya bildi ki sonralar şu kitap için mahkemeye çekildi. 1953cı yılında da Ali asker Müctehedi derlediği 2500 atalar sözü adlı kitabı Farsçaya çevirerek yaydı. Hemen yıllarda Ali Tebrizli, Asli ile Kerem destanı ve Kazim Serderudi ile Âşık Karıp ve Şah senem destanların yayınladılar (8).

1944cu yılında Dastane Dustan adlı kitapta bir sıra atalar sözü Ebulkasim Ferahani(1891-1951) tarafından derlenmiştir ki 2000 yılında tez olarak ışık yüzü

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mirza Aliguli Tufargani Vaiz(?-1947) tarafından Vatan Dili adlı kitapta Türkçe, Farsça atalar sözü bir para açıklamalarla derlemiş. Şu kitap 1954cu yılında taş basma şeklinde Tebriz de basılmış. Ali asker Müctehedi kitabında şu kitaptan bolu şekilde faydalanmış (9). "Nüsretullah Makuyi" de 1956cı yılında "Camül Temsil" adlı kitap yene Türk atalar sözü derlemesi olarak ışık yüzü gördü.

Milli demokratik hükümeti devrildikten sonra Iranda olan Türklere baskı ve sıkıntılar daha artıp hiç bir şekilde Türkçe yazı ve kitaba izin verilmede. Şu dönemden sonra İran ve Güney Azerbaycan Folkloru tekçe çeviri olarak farsça dergilerinde bir para vatansever ve canların şu yolda feda eden kişiler tarafından folklor korumaya çalışıldı. Bu kişilerden "Samed Behrengi" (1938-1968), "Behriz Dehkan" (1914-1972), "Ali rıza Nabdel" (1945-1972), ve s birçok folklor ürünü derleyip yaymağa çalışsılarda Farsça olarak yaya bildiler. Behrengi'nin hikâyeleri dışında üçü Azerbaycan folkloru, özelikle Koşmalar ve Bulmacalar adlı kitap ve üçü eğitimle ilgili altı eseri bulunmaktadır. Başka Azerbaycan folkloru alanında çalışanlardan birde "Gulamrıza Saedi"(1936-1985) den ad çekmek gerekir. Saedinin yazıları Farsça olduğu halde tüm yazıları Azerbaycan folklorunun yansımaları sayılar. Bundan başka "Hasan Mecitzade (Savalan) "1963 ve 1965ci yıllarında Türkçe Mahnılar ve Bayatılar adlı kitap da yayılıp. "Kemal Bahşipur" 800 ve "Yahya Mirza Ariyanpur" 700 ve "Borzuyi" ve "Ergati" adlı kişiler de Bayatı toplamışlar amma yayınlamamışlar (10). Şu dönemden sonra ağır baskı ve yasaklar olduğundan ne tekçe folklor alanında belki başka alanlarla da nadiren bir çalışma göze değir, "Hüseyin Sedik (Düzgün)"(1946) tekçe 1969cu yılında "Sayalar" ve 1975 de Âşıklar adlı kitapları yaymış.

Pehlevi rejiminin 1978ci yılın sonuna kader şu politika sonucunda hiçbir eser yayınlanmadı. Şu yıldan sonra dergiler ve kitaplar yayını serbest oldu. Folklor alanında da birkaç değerli çalışma o cümleden

1978ci yıldan beri folklor sahasında yayılan kitapları sıralamak uzun olduğundan tekçe folklor alanında çalışanların adını bir sırasın getirmek isterdik, Azerbaycan da bu çalışanlar içerisinde Cevat Heyet, Hüseyin Feyzullah Vahit (Ulduz), Zühre Vefayi, Ali Rıza Serafi, Behruz İmani, Mir Hidayet Hesari, Hüseyin Güneyli, Ali Zari Yekani, Behzad Behzadi, Menzuri Hameni, Ali Zaferhah, Behram Asadi, Tovhit Melikzade, Kazem Abbasi, Yakup Kuds, Ali Asker Hurem, Ali Rıza Zihak, Ali Kemali, Mehemmed Ali Nikabı, M. Kajramanpur, ad vermek olur.

Kaşkay Türkleri içerisinde folklor alanında çalışanlardan Rahim Merdani, Meniçehr Kiani, Menuçehr Hünerperver kimi kişilerden ad vermek olur. Hurasan Türk folkloru üzerinde çalışanlarında da Seyed Ali Mirniya dan ada vermek olur. başka Iranda yaşayan Türkler üzerinde çalışma hal hazırda olmayıp, özelikle Kalç, Kazkalar, Kirman, Sokur, Hamadan, Kazvin ve s.

İslami inkılâp dan sonra Iranda yayınlanan Türkçe dergilerde bir çok folklor materyali görmek mümkündür, demek olur tüm dergiler ve gazeteler Türk folklorundan tüm sayılarında birkaç sayfa yer veriler amma tam folklor için özel olarak dergi tekçe El Dili ve Edebiyatı adlı dergiydi ki Behzat Behzdai başkanlık ile 7 sayı olarak ve sonralar Azeri adı ile yayınlandı. Azeri dergisi 2008 Yıla kader 18 sayıya dek yayınlanmış. 2006. yılın ocak aylarında Dilmaç dergisi ve APAK Derneği tarafından Iranda ilk folklor Sempozyumu Ferzane adile iki gün müddetinde geçirildi. Sempozyum da önemli kararlar alındı ki onlardan biride Azerbaycan ve İran Türk folklor fondu kurulmasıydı. Sonralar dilmaç dergisi adı keçen Sempozyumun makalelerin ve bir özel sayı folklor olarak yayıldı (11).

2007 den sonra Uzun çabalar ve bir kaç toplantıdan sonra Azerbaycan folklor fondu ad ile bir dernek işe başladı. Derneğin kurucu heyeti Ali Rıza Serafi, Ali Halitabadı, Kazım Abbasi, Ali Berazende Türk, Nevit Mehemmedi ad vermek olur. Dernek iki buçuk yıl idari bürokrasi den sonra 2009 yılında resmi olarak tüzel bir şahsiyet kazanarak "Azerbaycan El Bilimi" adi ile İran Türk folklor alanında işe başlayıp ve işlemeye devem etmektedir. Bu güne dek bir para folklor materyali ve kitapları bir araya getirerek kurum olarak İran Türk folklor sahasında çalışanların en uğrak yeri olmuştur. Bu arada dernek aylık olarak "El Bilimi" adlı bir iç dergide yayır. Bu dernek çalışır akademik olarak folklor alanında çalışanları bir araya getirip bu güne dek yapılan çalışmaları akademik olarak çeki düzen versin.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İran folkloru üzerinde başka ülkelerde özelikle Türkiye'de de bir para çalışmalar yapılmış ki onların içerisinde Enver Uzun'un "İran Türk Folkloru" (12), Ali Kafkasyalı'nın, "İran Türkleri Aşık Muhitleri" (13) ve "İran Türk Âşıkları ve Millî Kimlik" (14), Sultan Tulu'nun "Horasan dan Masallar ve Halk Hikâyeleri" (15), ve "Bocnūrd dan Folklor Derlemeleri" (16), Yaşar Kalafat'ın "Türk folklor halk inançları kitapları" ve Ahmet Caferoğlu'nun "Türk Dili Tarihi" (2 cilt, 1958, 1964) ve "Doğu İlleri Ağızlarından Toplamalar-1" (1943) ve NabiKobodarian'nin "Tebriz Aşık Geleneği ve Aşık Edebiyatı" (17) Hamza Kolukısa'nin "15. yüzyıldan günümüze güney Azerbaycan aşık şiirinde vatan, millet (halk) ve azadlık (bağımsızlık) konula" (18) çalışmalarını ad vermek olur.

## EDEBIYYAT

[1] CAFEROĞLU Ahmet, "İran Türkleri, Türk Kültürü", Türk Kültürü Araştırma Enst. Yıl. 5,, S.50, Ankara 1966, s. 55.
[2] ALİZADE Samed, Oğuzname (Emsal-i Mehmedalî) XVI. Yüzyılda Yazılmış Türk Atasözleri Kitabı, İstanbul1992, Türk Dünyası Araştırmaları Vakfı Yayınları
[3] FEYZÜLLAHİ, Hüseyn, (1990), "Atalar sözü, aklın gözü", Tebriz, Telaş neşriyatı
[4] UZUN, Enver, 2007, İran türk Folkloru, Turbazan, Eser Ofset Matbbacılık
[5] HESARI, Mir hidayet,----- "Tecrid-el-lüğat", "Yol dergisi", S5, s 35-37
[6] http://aghabozorg.ir/Search.aspx 22.08.2009
[7] SERRAFI. Alireza, 2006, "Folklor özel sayı", "Dilmac dergisi", S 21.22.23.24,s 18
[8] HEYET Cevat,-----, Azerbaycan Halk Edebiyati, s 32
[9] BERAZENDE Ali, 2008 "Dehhuvarkanlı Aliguli Tufargani Vaizin Vatan dili kitabı", "Türk Azer dergisi", Kanada,S.7
[10] CAVIT. Sallamullah, 1979, Azerbaycan Folklor Numuneleri,1 Cilt, Tahran
[11] "Folklor özel sayı", "Dilmac dergisi" 2007, S 25-26
[12] UZUN.A, İran Türk Folkloru, Trabzon,2007
[13] KAFKASYALI, A., İran Türkleri Âşık Muhitleri, Erzurum. 2006
[14] KAFKASYALI, Ali, İran Türk Âşıkları ve Millî Kimlik, Erzurum. 2007
[15] *Horasan dan Masallar ve Halk Hikâyeleri*, Ürün Yayınevi, Ankara 2005.
[16] Bocnūrd dan Folklor Derlemeleri, Ürün Yayınevi, Ankara 2005.
[17] Kobodarian. N, Tebriz Aşık Geleneği ve Aşık Edebiyatı,Dr Lis. Tezi, Adana 2008.
[18] Kolu kısa. H,15. yüzyıldan günümüze güney Azerbaycan âşık şiirinde vatan, millet (halk) ve az Devamı... ,2001, Ali Kafkasyalı, Yüksek Lisans, Türkçe

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# "ALTIN-ARIĞ" BAHADIRLIQ EPOSUNUN SÖYLƏYİCİ-XAYÇILARI

***ƏLİ KƏRİMBƏYLİ***

## 1.Ümumi baxış

**Açar sözlər; altın arığ,xay,xayçı,höllü, mənəvi güc, semyon, kurbijekov,xaylar.**

Altay-Alatau-Sayan dağlarının füsunkar ətəklərində və Yenisey-ana çayın (bu çayın qədim adı Uluq-Həm idi) sağ-sol sahilində tarixi vətənlərində yerləşən-yaşayan Xakas xalqının zəngin şifahi ədəbiyyatı qəhrəmanlıq və məhəbbət motivləri ilə doludur. Dastan söyləyicilərinin zəhməti, istedadı, bacarıq və qabliyəti, milli fədakarlığı sayəsində xakasların onlarla bahadırlıq və məhəbbət eposu, nağılı-bir sözlə folkloru butun janrlarda əhatə olunmuş, bu günkü xakas xalqının şifahi ədəbiyyat–mənəviyyat xəzinəsi formalaşmışdır. Xakaslar qəhrəmanlıq dastanlarını xüsusi həvəs-hörmət və ehtiramla, emosional vəcdlə, bir az da, bu gün belə XXI əsr olmasına baxmayaraq əsatiri inanc və duyğularla qarşılayır, dinləyirlər. Əlbəttə, xakas türklərinin həvəslə dinlədiyi dastanların sırasında "Altın-Arığ " və digər qəhrəmanlıq eposlarının xüsusi yeri vardır.Xay sənəti iki mühüm cəhəti tələb edir; burada həm ifa texnikası- çatxanda və ya komısda çalmaq istedadı yüksək olmalı, həm də söyləyicilik qabliyyəti-səsin qırtlaqda cismani güc tətbiq etməklə improvizə üsulu- fərqli istedadı olmalıdır. Bir növü iki sənət tipi bir ifaçı şəxsdə yüksək məharətlə birləşməlidir. İfaçı sənətkar hər iki sənət növünü daxili ritm, ahəng və intonasiyalarla bölməli, nizamlamalı daha çox bas-bariton səs üzərində oxumalı, söyləməlidir.Başqa səs epik ənənəyə uyğun gəlmir.Folklorşünaslar söyləyici-ifaçıların folklor mədəniyyətinin təbliğində xüsusi şəxslər olduğunu hər zaman qeyd edir, onları həmmüəlliflik hüquqnda canlı folklor xəzinəsi kimi dəyərləndirirlər.Məsələn, rus folklorşünaslarından V.N.P -utilova görə, söyləyici-dar mənada bilin oxuyan, geniş mənada isə, ümumiyyətlə epik ifaçıdır (Ataş Əhmədli,Söyləyici və janr problemi; tarixi-ənənəvi aspekt və hazırkı durum.Dədə Qorqud, 2009, say-3.səh.78). AMEA Folklor İnstitutunun elmi əməkdaşı A.Əhmədli dastan janrının nəzəri problemləri fonunda söyləyiciliyi və ifaçılığı bütöv bir sistem halında alır və türksoy xalqların ozan kökənli sənəti üçün ümumi səciyyə daşıdığını qeyd edir.Xakaslardakı xayçılıq sənəti də o mənada həmən sistemin tərkib hissəsidir Türksoylu xalqlarda dastan söyləyən şəxslərə verilən adları müəllif öz məqaləsində belə sıralamışdır; söyləyiciyə yakutlarda-olonxosutu, buryatlarda-uliqerçi, qırğızlarda- manasçı, kalmıklarda-canqarçı, qazaxlarda- akın və ya jırsı, özbəklərdə-baxşı, Azərbaycanda- aşıq, Ukraynada-kobzar, Cənubi Slavyanlarda- quslar, bu sıraya əlavə olaraq tıvalarda və altaylarda- kayçı deyirlər. Folklorşünas alim "A.B.Lord "söyləyici-elə ənənənin özüdür"-yazır,lakin nəzərə alsaq ki, söyləyici həm də müəllifdir, o zaman söyləyicinin ənənyə yaradıcı munasibətini də diqqətdən qaçırmamalıyıq". (A.Əhmədli a.g.m.səh.83.).

Qəhrəmanlıq dastanlarını söyləyən şəxs xüsusi istedad sahibi olmalıdır; onlar fenomenal yaddaşa, dramatik obrazlaşdırma qabliyətinə malik olmaqla, komısda və ya çatxanda-bu kiçik simli musiqi alətində çalmaqla özünü müşayət etməyi bacarmalıdır. Dastan söyləyicilərinə xakaslar xay (hay- söyləmək) söylədiklərinə görə-xayçı(söyləyən) deyirlər. Qəhrəmanlıq dastanlarını söyləyənə isə xakaslar xayçı-nımaxçı (qəhrəmanlıq nəğməsi söyləyən) deyirlər. Xayçı-nımaxçılar dastan söyləyərkən səsin normal improvizasiyasından deyil, udlaqda- qırtlaq yuvasında formalaşan xırıltılı, qəsdən sıxılmış bas və ya bariton səslə, boğazlarına qəsdən, məqsədli şəkildə təsir etməklə oxuyur, ifa edirlər. Xayçı-nımaxçılar 1) dastanı söyləməli, 2) komısda və ya çatxanda çalmaqla özünü müşayət etməli, bəlirli, 3)bir heyətdən ibarət dinləyici dəstə olduğu təqdirdə qəhrəmanlıq dastanı söyləyir. Xay söyləmək üçün bu ünsürlərin olması vacibdir(1."Altın Arığ". Hazırlayan Fatma Özkan.bilig, Ankara-1997-ci il, səh11.) Yüksək sənətkarlıqla xay söyləyənlərdən başqa bir növdə-türdə xay söylənir- bu tip xayçılar ritmik musiqi sədası olmadan xay söyləyirlər, onlara çazaq- (piyada) növ-tür xay deyirlər. Başqa sözlə, sadə xayçı-nımaxçı. Bu şəkildə ifa üsulu göstərən xayçı-nımaxçılar əsasən qadınlar olur."Xayçı bahadır səsilə oxumalıdır"- məşhur xakas xayçı-nımaxçısı Semyon

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

deyərmiş. V.Y.Maynoqaşeva,L.Lebedinskinin "İskusstvo uzlyau u başkir, Sovetyskaya muzıka, M. 1948, sayı-4, səh. 51" ("Başkıdrlarda hay sənəti " məqaləsində bir fikirə istinad edərək yazır:"qırtlaqdan çıxan səslə oxumaq qədim ayinlərdən gələn kult inancı ilə əlaqəlidir; bu səs vasitəsilə ruhlara müraciət etmək olur."(2." Altın-Arıq. B.E.Maynoqaşeva.Xakas çonnınq Alıptığ nımağı,Vostoçnaya Literatura,M. 1988, str.578."Altın-Arığ. B.E.Maynoqaşeva.Xakas xalqının qəhrəmanlıq dastanı"). Qeyd etdiyimiz kimi bas səsdən başqa xayçı bariton səslə də qəhrəmanlıq nəğmələri ifa edir, oxuyur. Bas səslə oxuyan xayçılar üçün səs sırasının üst laynda-böyük mi oktavadan- kiçik oktavaya qədərki səslə oxumaq səciyyəvidir, bariton səslə oxuyan xayçılar üçün səsin üst layındakı böyük oktava və aşağı oktavadakı səs sırasının başlanğıcı səciyyəvidir; qaydaya görə böyük oktavadan-lya, kiçik oktavadan re hüdudunda səslə oxunur. Adətən gözəl səslə, gözəl diksiya ilə oxuyan, sözləri daha anlaşıqlı söyləyən xayçı-nımaxçılar xalq arasında daha məşhur və hörmətli olur.Beləları haqqında deyirlər:" Çaxsı çooxtapça, üni mağat, çaxsı istilce"( yaxşı söyləyir, səsi xoşdur, yaxşı eşidilir (anlaşılır))," ol xaylaza, uzıbassın" (o haylasa, yuxulamazsan) (3.a.g.k.səh.579.).

**2.Xay və xayçı**

Xalq arasında xay sənətini sənətkarlıq dərəcəsinə görə 3 (üç) yerə ayırırlar; uluğ-xay (böyük xay), kiçiq-xay (kiçik xay), xuruğ-xay (quru xay). Xalq söyləyici-xayçını dinləyərkən səsin süjetin inkişafından asılı olaraq azalması və artması, tembri zamanı estetik zövq və tələblərə cavab verməyəndə gileylənir və xayçı-nımaxçını irişxəndlə belə dəyərləndirir;"İnek çili irep tur," (İnək kimi mələyir), "Çabağa çılı kistep tur,"(İki yaşlı dayça kimi kişnəyir), "Aday çılı irepça,"(Köpək kimi mırıldayır) və s.(a.g.k. səh.579).

Xalq sənətinin yüksək zövqü və tələbləri ruhunda tərbiyə alan dinləyicini, yaxşı xayçı tanıyıb, bilir. Ona görə də xayçı xalq sənətinin incəliklərini, ifaçılıq mədəniyyətini, estetik-psixoloji təsir vasitələrini, improvizə xüsusiyyətlərini dərindən bilməli, həm gözəl oxumalı , həm gözəl çatxan və ya komısda (qopız) çalmağı bacarmalı, özünəməxsus artistlik ovqatı yaratmalıdır.Xalqın çox əsrlik ifaçılıq ənənələrini, sənət sirrlərini bilən xayçı dastanın epik məziyyətlərini, poetik-emosional təsirini öz ifa tərzilə sevdirməyi bacarmalıdır.Eynən bizim aşıq sənətində olduğu kimi. Adətən xayçıda ifaçılıq istedadı və mədəniyyəti nə qədər yüksək olursa, o dinləyiciləri bir o qədər dərindən cəlb edir, dinlyici toplumu süjetin inkişafının iştirakçısına çevirir. Məsələn, həyacanlı dinləyici özünü Altın-Arığın tərəfində cinlərə qarşı vuruşda hiss edir. Altın-Arığı böyük məhəbbətlə sevir və Altın-Arığın, Pis-Tumzux-Plö-Xarının, Qız Xanın, Çibeteyin, Xulatayın, Taptaan-Molat və s.obrazların şəxsində yurdu, vətəni, doğma millətini, xalqını sevir, onların cin ruhlu düşmənlərinə Altın-Arığın özü qədər nifrət edir.

Ankara Qazi Universitetinin professoru,dr. Fatma Özkan məşhur xayçı Stepan Yeqoroviç Burnakova xayçılıq istedadının verilməsinin xalq arasında yuxu vasitəsi ilə əlaqəli olması haqqında rəvayəti Anadoluda aşıqlara verilən röya-yuxu motivi ilə müqayisə edir. Fatma Özkanın röya motivini dəyərləndirməsi, folklor qənaəti elmi-məntiqi cəhətdən doğrudur. Fatma xanımın bu fikrinə Azərbaycan folklorunda geniş yayılmış röyada verilən buta motivini də əlavə etməklə-xayçılıq istedadının xakaslarda, aşıqlıq istedadının Anadoluda,baxşılıq istedadının Türkmənlərində o cümlədən Güney Anadolu türkmən elində eşq və istedadın yuxuda buta vasitəsilə verilməsi motivinin Azərbaycan folklorunda mahiyyətcə eynilik təşkil etməsi, bu motivlərin birinin digərinə adekvat olması, bu ortaq irfani sənətin qardaş türk xalqlarında tarixən eyni kökdən doğduğunu sübut edir. Necə deyərlər, eyni şamanist nüvədən üzvlənib ayrılan bu sintetik sənət növü sonralar "yerli xüsusiyyətlər" əxz etməklə,ilkinl "səmərəli toxumunu" saxlamaq şərti ilə forma və məzmunca inkişaf etmiş, özünəməxsus tələblər və təkliflərlə milli-vətəndaşlıq haqqı qazanmışdır.

**3.Xay-əsatir inancından Höllüyə**

Burnakovun söylədiyi yuxu hadisəsinə inansaq, görürük ki, onun inancına görə xayçılıq istedadını Xay Eezi-nin ruhu vermişdir, Burnakovda bu inanc güclüdür.Burnakovla ilgili başqa bir hadisə də ciddi maraq doğurur.Burnakov təsadüfən eşidir ki, yaxın kənddə İrzeley adlı bir xayçı alıptıx-nımax söyləyəcək. Burnakov eşitdiyi o evə gedir. Otaq

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

arxasında bir elə də diqqəti çəkməyən biri var imiş. O, alıptıx-nımağı oxumağa başlayarkən pəncərədən birisi İrzeley buradamı?-deyə soruşur. İrzeley oxumağını saxlayır, evdən bayıra çıxır, lakin o bayırda kimsəni görmür.İçəriyə girib oxumağını davam edir. Dərhal onun səsindəki fövqəladə gözəlik hər kəsin diqqətini çəkir. Burnakov Irzeleyin səsində baş verən bu dəyişikliyi, bu gözəlliyi onu bayıra çağıranın Səsin Ruhu olması ilə əlaqələndirir(4.Fatma Özkan. a.g.k.səh.12).

Dastanı söyləyən zaman xayçılar çalışır ki, səs qirtlaqda formalaşıb gəlsin. Türkmən baxşıları, Qırğız manasçıları, Altay kayçıları, Qazax akınları, və s. kimi mövzudan, hiss və həyacandan asılı olaraq, xakaslar da səsi qırtlaqda qısaraq, musiqinin müşayəti ilə oxuyurlar. Bu tərzdə səslə oxumağa Güney Anadoluda yaşayan Türkmənlərdə də rast gəlinir.Toros dağlarındakı müxtəlif yaylalara çıxanda türkmənlər Höllü adı verilən nəğmələrini Xakas xayçıları, eləcə də Tıva və Altay xayçıları, Qazax akınları (Ə.K.) və s. kimi qırtlaqdan gələn səslə oxuyurlar. (5.F.Özkan,a.g.k.səh.12-13.) Maraqlıdır ki, türkmənlərin oxuduğu höllülər də vətən məhəbbəti, qəhrəmanlıq, igidlik temalarını, mifik ünsürləri əks etdirir. Türkmənlər oxuyarkən barmaqlarını boğazlarına basırlar. Görünür burada onlar səsi özünəməxsus improvizə edir, səsi bas-bariton lada keçirirlər.. Demək səsi barmaq təsiri ilə xırıltılı etmək, Kadışevin dediyi kimi zəhmli bahadır səsinə bənzətmək, daha əski adətin uzantısı olmaqla, çox qədim zamanlarda şaman ayinləri icra edilərkən Şər Ruhları qorxuzmaq-qovmaq fəndinin izlərini özündə hələdə saxlayır. Bəlkədə barmaqla udlağa toxunmağın məqsədini və ya səbəbini bu gün ifaçı türkmən çoxdan unutmuşdur, onu yalnız texniki ünsür kimi icra edir. Əslində əzəmətli, xırıltı qarışıq zəhmli bahadır səsi çıxartmaqla sabah tezdən döyüşə yola düşəcək əsgərlərin yoluna çıxa biləcək Şər Ruhları şamanlar qovmaq üçün istifadə etmişlər. Dolayısıyla, məsələyə bu günün mənəvi ölçüləri ilə baxdıqda, döyüşəcək əsgərlərin qələbəsi öncədən ideoloji baxımdan şamanlar tərəfindən təmin edilmiş olurmuş. Təbii ki, xoş avazla, şirin, dadlı səslə cini hürküzmək, qovmaq, qorxuzmaq ola bilməzdi. II Dünya müharibəsi zamanı döyşdən qayıdan əsgərlər danışırlarmış ki, Stalinqrad və digər cəbhə bölgələrində alman-faşizminə qarşı başlanacaq şıddətli döyüşlərdən öncə əsgərlərə 200-250 qr.araq, spirt içirdirlərmiş. Bu harmonların yaratdığı əzmkarlıq və inadkarlıq hisslərini o zaman şaman araqsız əsgərlərə təlqin edirmiş.Demək, xay sənətinin məzmununda-eləcədə,aşıq-baxşı-jırçı-manasçı-akın-varsaqçı-xayçı-kayçı, və s. bu tip sənətlərin məzmununda, semantik arxetipində şamanaizmin mifopoetik sirrləri,üsulları və formaları qalın zaman pərdəsi altında yaşamaqdadır.

**4.Alıptıx-nımax mənəvi gücdür**

Xayçılıq sənətinin zirvəsini alıptıx-nımaxı məharətlə söyləmək təşkil edir. Xakas türklərinin bahadırlıq, qəhrəmanlıq dastanlarını alıptıx-nımaxı söyləyib-haylamaq bizim təsəvvürümüzcə bir aşığın məhəbbət mövzusunda oxuduğu qoşma kimi anlaşılmamalıdır. Məhəbbət mövzusunda oxunan bir qoşma onu dinləyənə yalnız könül xoşluğu gətirir,hissləri kövrək planda titrədir və zövqümüzü oxşayır. Xakasların mifik-dini inancına görə alıptıx-nımax isə mənəvi güc mənbəyidir. Toyda-düyündə, yas yerində, ov ayinləri və mərasimlərində, xüsusi məclislərdə xayçıları "Altın-Arığ"dastanından parçalar söyləməyi xahiş edirlər.Məsələn, yas yerində xakas türklərinin inancına görə ölən adamın "kut"-u (ruhu) qırx gün kənd-kəsəyindəki insanların-qohum-əqrəbasının yanında gəzişir. Bu səbəblə ölən adamın evini-ailəsini şər ruhların pis təsirindən və irili-xırdalı fəlakətlərdən qorumaq üçün xayçı sabaha qədər yas düşən evdə alıptıx-nımax oxumalıdır. Belə olduqda cin və şeytanlar, iblis ruhlu şər qüvvələr nə cənazəyə, nə evə, nə ailəyə yaxınlaşmaz, nə də bir pislik edə bilməzlər. Çünki şər ruhlar dastanın bitib-bitməyəcəyini, davam edib-etməyəcəyini bilmirlər. O səbədən yaxınlaşa bilməzlər. Cinlər, şeytanlar, iblislər, şər ruhlar dastan qəhrəmanlarının güclü ruhu qarşısında aciz qalır, cəsarət etmirlər. Qədimdən bu adətin ölən adamın yas yerində icrası bir zərurət, ehtiyc idisə, bu günlərdə bu adətə az-az təsadüf edilir. Alıptıx-nımax oxunarkən xayçı ölünün yanında tək qalmalıdır. Digər insanlar da öz növbəsində ya mənzilin başqa otağında, ya da evin həyətində xayçını mütləq dinləməlidir. Yəni xayçı otağda zahirən təkdir.Əslində o, daxilən dastan qəhrəmanları ilə birlikdə olur. Xayçı sənətkar axşam düşəndən alıptıx-nımax söyləməyə başlayır, bütün

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

oxuyur. Dinləyicilər bu zaman yata bilməzlər Yatmaq yasaqdır. Yatsalar,yuxuya getsələr yatan kimsənəin ömrünün qısalacağına inanılmaqdadır. Bu adət bu gün Kaçin tirəsinə mənsub əhali arasında hələ də yaşamaqdadır. Xayçılar alıptıx-nımaxı boş yerə və əyləncə kimi oxumazlardı, onunla yanaşı cənazə törənində, ovda oxunarkən yatmazlardı. Belə nəql edirlər ki, bir gənc qız bu ənənəvi qaydaları pozduğuna görə sağlam olmasına rəğmən qəflətən ölmüşdür (6.F.Özkan. a.g.k. səh.13.).

**5.Qocaman,məşhur xayçı Semyon...**

"Altın-Arığ"dastanının iki variantı mövcuddur. Bir variantı məşhur xakas xayçısı Semyon Prokopyeviç Kadışevdən yazıya alınmışdır. S.P.Kadışev 1885-ci ildə xakasiyanın şimalında yerləşən Şira rayonunun Çooxçıl kəndində doğulmuşdur.Uzun illər Troşkin qəsəbəsində yaşamış, daha sonralar Ağban (Abakan) şəhərinə köçmüşdür. Əsil-nəsili Qızıl boyundandır.S.P.Kadışevin xayçı kimi yetişməsində Ağ Hüs bölgəsinin Tarçı kəndində yaşayan və məşhur xayçı olan əmisi Slo Kadışevin və arvadı Barışevin zəhməti böyük olmuşdur. Semyonun atası Prona də səviyyəli xayçı olmuşdur. Onun əmisi Slo Kadışev məşhur xayçı alıptıx-nımax söyləyicisi Pyotr Vasilyeviç Kurbijekovun (1910-1966) da ustadı-müəllimi olmuşdur.S.P.Kadışev o zamanların çox məşhur xayçı sənətçisi "Altın-Arığ" və digər alıptıx-nımaxları gözəl bilən Qara Matpıydan da çox şey öyrənmişdir. Onlardan başqa Kadışev Yeqor Kondeev və Çakım Abdorindən də onların şagirdi olmasa da faydalanmışdır. Haylama sənətinin gözəl bilicisi xayçı-nımaxçı S.P.Kadışev deyilənə görə 30-a yaxın dastanı əzbərdən bilirmiş, o, 1977-ci ildə vəfat etmişdir**."Altın-Arığ"**eposundan başqa S.P.Kadışevin söyləyişində **" Xan Kiçiqey", "Gün Tenqiz", "Ay Xuuçın"və "Ağ Çibek-Arığ "o**nun ifasında yazıya alınmışdır. Professor T.Q.Taçeeva "Altın-Arığ" dastanını 1955-ci ildə Çooxçıl kəndində S.P.Kadışevdən yazıya almışdır. Dastanın butun mətni nəzmlədir. S.P.Kadışev "Altın-Arığ" dastanını ilk dəfə 1912-ci ildə, ikinci dəfə 1935-ci ildə əmisi Slodan eşitmişdi. Onun adı və xay sənəti, repertuarı və yaradıcılığı xakasiyadan uzaqlarda artıq məşhurlaşmışdı.Xakasiyanın ən yaxşı xayçı-nımaxçısı olduğuna görə S.P.Kadışevi 1958-ci ildə Özbəkstanın paytaxtı Daşkənd şəhərində keçirilən Asya və Afrika yazıçılarının beynəlxalq konfransına dəvət etmişdilər.Təşkilat Komitəsinin dəvəti ilə o Xakas yazıçıları nümayəndə heyətinin tərkibində Daşkəndə gəlmiş beynəlxalq konfransda iştirak etmiş, konfrans iştirakçıları qarşısında qəhrəmanlıq dastanlarından o cümlədən "Altın-Arığ" dan alıptıx-nımax xaylamışdı.1960-cı ildə S.P.Kadışev Moskvada keçirilən Şərqşünasların Beynəxalq konqresində "Altın-Arığ"dan və başqa dastanlardan alıptıx-nımax söyləmişdir. Onu konqresə Beynəlxalq təşkilat komitəsi dəvət etmişdi.Xayçı-improvizatora bu istedad ata xətti ilə uzaq qohumu, ondan təxminən 200 il əvvəl yaşamış zamanının çox istedadlı və məşhur xayçısı Xadısdan keçmişdir. T.Q.Taçeeva ondan yazıya aldığı "Altın-Arığ" eposunu və başqa dastanları 1958-ci ildə Ağbanda "Altın-Arığ" adı altında bir kitabda nəşr etdirmişdir. Bir neçə il sonra 5181 misralıq həmən variantı **"Altın Çüs" ("Ağ-Oy Atlı Alıp Xan")** adlı yeni yazıya aldığı dastanla birlikdə, arxaik xakas sözlərinin lüğətini tərtib edib əlavə edərək 1987-ci ildə təkrar Ağbanda nəşr etmişdir (7.F.Özkan,a.g.k.səh.14.).

**6. ...və Pyotr Vasilyeviç Kurbijekov**

Bir qayda olaraq, Xakasiyada söyləyici-xayçılıq sənətinə gənc oğlanlar 10-15 yaşlarında gəlir və 19-20 yaşdan artığ xayçı kimi alıptıx-nımaxı (qəhrəmanlıq nəğmələri) çatxanın və ya komısın müşayəti ilə- ifaçılıq məharətini göstərməklə söyləməyə başlayırlar. Hamı kimi Petr Vasilyeviç Kurbijekov da yeniyetməlik çağından alıptıx-nımax söyləməyə başlamış və tezliklə məşhur xayçı olmuşdur. "Altın-Arığ"ın ikinci variantını professor B.E.Maynoqaşeva məhz P.V.Kurbijekovdan 1964-cü ildə, xakasiyanın Ustınkino (xakasca keçmiş adı Naa aal) kəndində yazıya almışdır.Mətn bütünlüklə nəzmlədir. Mətn 10341 misradan ibarətdir. (8."Altın-Arığ". V.Y.Maynoqaşeva,a.g.k. səh.558).

Pyotr Vasilyeviç Kurbijekov (1910-1966) Xakasiyanın Şirin bölgəsinin İtemenev (kəndin adı xakasca- Puğalar aalı adlanır.) kəndində anadan olmuşdur.O, Qızıl tayfasının Arqan nəsilindən çıxmışdır.Hələ kiçik yaşlarından atası ilə birlikdə yerli bay-ağaların qapısında batrak işləmiş və ağır zəhmətin nə olduğunu öyrənmişdi. O, dörd yaşında

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

təpik vurmuş,dodağları partlamış-cırılmış və ömrü boyu dodağında cırılmış yerin izi qaldığına görə xalq arasında onu Çrik Pyodr-deyə, çağırmışlar.Yeniyetmə yaşlarında özü müstəqil oxumaq-yazmaq öyrənmiş, sonra 1931-ci ildə Minusində texniki-peşə məktəbində oxumuş,təhsili bitirib İtemen kəndində mağazada satıcı işləmişdir. Daha sonra uzun müddət Saralı kömür mədənində kömürçü-fəhlə işləmişdir.1941-ci ildə onu əsgərliyə çağırırlar.P.V.Kurbijekov Xasan gölü ətrafında hərbi xidmətdə olur.Əsgərlikdən sonra demək olar ki, ömrü boyu doğma kəndi Ustınkinoda öz ailəsi ilə birlikdə yaşadı. O, uzun müddət dövlətə məxsus olan fermer təsərrüfatında-sovxozda işlədi, ömrünün son illərini əlilliyə görə təqaüdə çıxandan sonra "Lenin çolı"(Lenin yolu) vilayət qəzetində ştatdankənar müxbir işləmişdir.Kurbijekovun həm ana , həm ata xətti ilə nəslində çoxlu nağıl-dastan söyləyən şəxslər olmuşdur.Doğma əmisi Sorolax Kurbijekov çoxlu qəhrəmanlıq dastanlarını,nağıllar, rəvayətlər, şifahi ədəbiyyat nümunələrini, taxpaxlar, tapmacalar bilir və onları yüksək ustalıqla söyləməyi bacarırmış.(9.a.g.k. səh.558).Dementiy Kulbisteev-Pyotr Vasilyeviç Kurbijekovun xalq arasında Ede kimi tanınan ana babası da qəhrəmanlıq dastanlarını və digər folklor janrlarında əsərlərin həm gözəl bilicisi, həm də gözəl ifaçısı imiş.Yeniyetməlik və gənclik illərində demək olar ki, onun bəxti gətirmiş, böyük xay ustaları Semyon Abdorini, İlya İtemenovu, Slo Kadışevi, P. Sulekovu, Nastü nənəni,Petruka Taydonovanı, Tıxteevi, Şişxanovu (iki sonuncunun adını xayçılar unutmuşlar) görüb dinləmiş, onlardan heç şübhəsiz faydalanmışdı. Onun xay-alıptıx-nımax repertuarında XX əsrin əvvəllərində xalq arasında Qara Matpıy kimi tanınmış Matpıy Balaxçinin oxuduğu folklor əsərləri də yer tuturdu.

A.K.Stoyanov "Исскуство хакасских хайджи" (Xakaslarda xayçılıq sənəti) məqaləsində yazır :" Xakaslarda xayçılıq sənətinin bir neçə ifa tərzi mövcuddur. Onlardan ənənəvi olaraq daha çox xalq tərəfindən seviləni çatxanın müşayəti ilə ifa edələn tərzdir. Bu ifa tərzi formanı anladan ad almışdır; "**xaylap ızarğa nımax**-"hərfi tərcümədə,qırtlaq səsilə söylənən nağıl. Çatxan və ya komıs musiqi aləti ilə müşayət edilməyən ifa tərzi-deklamasiya formasına az hallarda müraciət olunur. Belə hallarda bu ifa tərzinə deyirlər: **"çazağ nımax çooxtiğa"**, hərfi tərcümədə, piyada(musiqi müşayəti olmadan) söylənən nağıl.Çox nadir hallarda uzlaşma üsulu ilə oxuyan xayçıya da rast gəlinir. Bu ifa tərzində xayçı dastanı adi səslə deklamasiya edir, ancaq dastanın ayrı-ayrı təsirli parçalarını sadə səslə oxusada musiqi ilə müşayət edir. Bu üsulla söylənən ifa tərzinə xalq **"ırlap ızarğa nımax"** hərfi tərcümədə, mahni kimi söylənən nağıl deyir.Dastanı bu üsulla söyləyən xayçılar əsasən qadınlar olur. A.K.Stoyanova Pyotrun qadını A.Y.Kurbijekova Pyotrun xayçılıq sənətinə gəlişi haqqında belə deyibmiş;"biz Pyotrla bir ulusda böyümüşük. Axşamları çox vaxt bir yerdə olurduq.O bəzən axşam yığıncaqlarında adi səslədə çox gözəl oxuyurdu. O lap kiçik yaşlarından balalaykada, çatxanda, komısda çalıb-oxumağı öyrənmişdi. Böyüklər olan məclislərdə xayla oxumağa utanırdı. Özü deyirdi ki, on səkkiz yaşı olanda bir dəfə Saralu kəndinə dayısıgilə qonaq gedibmiş. Orada bir komada ixtyar qarılar və qocalar toplanıbmış. O, tay-tuşları ilə axşam əylancəsinə getmək üçün yığışanda dayisi əlinə bir paya alıb durub qapıda. Ona deyib ki, sən heç yerə getməyəcəksən, mən eşitmişəm ki, sən qırtlaq səslə xay nağıllayırsan, başla oxu, sənə qulaq asacağıq, bizim nəsillikcə təbiətimiz belədir- xayçı oluruq. "Mən onda tərlədim,özümü itirdim,-deyə, Pyotr xatırlamışdı. "Onda mən ilk alıptıx-nımaxımı " Uluğ Xan - Mirqen"-i söylədim,onlar uzun-uzadı təşəkkür edib, çox sağ ol-dedilərDayım isə dedi:"İnnən belə sən Pyotr utanma, söylə, səndə yaxşı alınır." Beləliklə, o, onsəkkiz yaşından xay söyləməyə başladı.O, həm də demişdi ki,"hələ xay söyləməyə başladığı vaxta qədər on beş-on altı yaşından alp-bahadırlar haqqında xay ifa etməyə başlamışdı." Dostları ilə bir yerə yığışarmış, orada qız olmayanda qırtlaq səslə xay oxuyarmışlar.Artıq o zaman o dostları arasında fərqlənir , seçilirmiş.Kurbijekovlar nəsilində Sorolax adlı çox istedadlı xayçı var idi, o,Pyotrun doğma əmisi idi.Sorolaxdan sonra Kurbijekovlar nəsilində güclü xayçı ancaq Pyotr olmuşdur." (10.a.g.k.səh.580,581.).

P.V.Kurbijekov alıptıx-nımax-bahadırlıq dastanları ilə yanaşı, rəvayət (kip çoox), nağıl (nımax), şifahi hekayələr (olanqay cooxtap), nəğmələr (ır), deyişmələr (taxpax), ata sözləri (söspekter), deyimlər (sispekter), tapmaca-bulmacalar (tapçanq nı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bütün janrlarında, gözəl, məlahətli, məxməri səsilə oxuyar, dinləyicilərə həm estetik zövq verərmiş, həm də doğma xakas türklərinə məxsus folklorun müxtəlif janrlarını təbliğ edərmiş.

Xay söyləmək, xayçılıq sənətkarlığı bütün digər-Qızıl qəbiləsindən başqa etnik xakas boyları üçün də- istər Kaçin,Koybal olsun, istərsə də Saqay, Şor, Kamasin və s. boylar olsun mənəvi dəyərlər silsiləsində mühüm yer tutur, alıptıx-nımaxlar xüsusi məhəbbət və sevgi ilə gözəl xayçıların ifasında dinlənilir, sevilir, yaşayır, epik-söz mədəniyyətinin sehrini,ecazını yeni zövqlə cilalayır, estetik-fəlsəfi şüur formalarını qədim türkün kainat KUT-u (RUH) ilə qırılmaz əlaqəyə bu gün də cəlb edir, təsir edir,tərbiyə edir.

**Resume**

First time in Azerbaijan folklore history khaychi – telling of khacas Turkish heroic epos “Altin Arig” I.M.Kadishev’s (5 000 lines) and P.V.Kurbijekov’s khaychi – telling profession is attracts to scientific investigation.

In article khaychi – telling profession considering common in all-Turkish context, comparing with other tale of Turkish nations and at last came to such sum conclusion that, from khay telling to singing as ashuk this type of profession begins from shamanism period, lives until nowadays dividing into degree and developing.

*Key words*: Altin Arig, khaychi, telling, I.M.Radishev, P.V.Kurbijekov

**Сказатели – хайчи героического эпоса «Алтын Арыг»**

И.М.Кадышев (5000 строк) и Т.ВКурбижеков (11 000 строк) являющийся хайчи – сказителями Хакасского тюркского героического эпоса, впервые исследуется хай – сказание научно-теоретической стороны в истории Азербайджанской фольклористикой.

В статье мастерство хайчи – сказателей рассмотривается в обшетюркском контексте, спрашивается в исполнителями других тюркских народов и в следствии этого приходим к мнению, что начиная с хой – сказания и до нения ашугов этой вид искусства восходит корнями и щаманизму, подразделяясь на степени и виды существует и развивается и по сей день.

***Ключевые слова***: Алтын Арыг, хайчи, сказитель, И.М.Кадышев, Т.В.Курбижеков

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# "KOROĞLU" DASTANINA AİD ƏLYAZMA NÜSXƏLƏRİ

***ƏLI MƏMMƏDBAĞIROĞLU***

Xalq ədəbiyyatı nümunələri yüz illər ərzində yaranaraq, əksər hissəsi insanların hafizəsinə köçüb, çağdaş dövrümüzə dildən-dilə, nəsildən-nəsilə ötürülməklə şifahi şəkildə gəlib çatsa da, nə vaxtsa onların bəziləri öz dövrünün katibləri tərəfindən kağıza köçürülmüşdür. Bu baxımdan folklor ədəbiyyatımızda geniş yayılmış, aşıqların, dastançıların dilinin əzbəri olub, məclislərdə daha çox söylənilən, xalq arasında geniş yayılmış "Koroğlu" dastanının müxtəlif şifahi variantları ilə bərabər hekayə, nağıl adı ilə böyük və kiçik həcmdə olmaqla vaxtilə qələmə alınmış bir çox yazılı nüsxələri də dövrümüzə gəlib çatmışdır.

Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda "Koroğlu" dastanına aid ayrı-ayrı şifr altında saxlanılan üç əlyazmanın (1;2;3;4), eləcə də, müxtəlif mənbələrdə, o cümlədən şəxsi arxivlərdə dastan
qəhrəmanı haqqında bir çox qoşma, gəraylıların (5), həmçinin xalq arasında uzun illər boyu yaranmış bəzi rəvayət və əhvalatların yazılı nümunələrinin mövcudluğu və onların üzərində yeni-yeni tədqiqatların aparılması koroğluşünaslığın daha da zənginləşməsinə səbəb ola bilər.

"Məşhur Koroğlunun hekayəsi", "Hekayəti-Koroğlu" və "Koroğlu" adı ilə xəzinədə saxlanılan əlyazmalardan birincisi 53 vərəqdən ibarət olub, Anadolu türklərinin dilində yaranmış dastanın bu variantı 1913-cü ildə Bakıda "Orucov qardaşları" mətbəəsində əlyazma nüsxəsindən fərqli olaraq, mətninin dilində bəzi dəyişikliklər edilməklə Rza Zaki tərəfindən nəşr etdirilmişdir (6). D-381 şifrli "Məşhur Koroğlunun hekayəsi" adlanan bu nüsxədə əlyazma mətninin katib kolofonu qeyd edilmədiyindən kim tərəfindən və nə vaxt köçürülməsi haqqında fikir söyləmək üçün ayrıca tədqiqata ehtiyac duyulur.

B-206 şifrli "Hekayəti-Koroğlu" adlı ikinci əlyazma isə həcmcə o biri nüsxələrdən daha böyük olub 260 vərəqdir. "Koroğlu" dastanının özbək (cığatay) variantı olan bu nüsxə Mirzə Xəlil Yüzbaşıyev Qarabaği tərəfindən 1936-1937-ci illərdə Rusiya EA Sankt-Peterburq filialının Şərqşünaslıq İnstitutunda saxlanılan nüsxədən köçürülmüşdür. Qeyd edək ki, əlyazmanın əsli isə hicri-qəməri tarixlə 1291(m.1874-75)-ci ildə yazıya alınmışdır. Nüsxənin digərlərindən başlıca fərqli xüsusiyyəti ondan ibarətdir ki, burada nəsr hissələr özbəkcə, nəzmi isə Azərbaycan dilindədir. Əlyazmanın bu cür köçürülməsi çox güman ki, dastanın azərbaycancadan özbəkcəyə çevrilməsi ilə bağlı olub, tərcüməçi-katib mətnin nəsrini çevirsə də, şeirlərini əslində olduğu kimi saxlamışdır.

Nəhayət, D-674 şifrli dastana aid üçüncü əlyazma nüsxəsi digər iki nüsxədən həcm etibarilə kiçikdir və bu əlyazmanın üzərində dayanaraq, apardığımız araşdırmalara əsasən mətnin bəzi məziyyətləri haqqında daha ətraflı məlumat verməyi vacib hesab edirik. Əlyazma 16 vərəqdən ibarət olub, 1907-1911-ci illərə aid Bakı bank kredit blanklarının təmiz üzünə nəstəliq xəttilə, qara mürəkkəblə köçürülmüşdür. Bu əlyazmada da katib kolofonu olmadığından mətnin paleoqrafik xüsusiyyətləri haqqında ilk anda məlumat əldə etmək mümkün olmur.

Əlyazma mətninin köçürülmə tarixi haqqında vərəqlərin əks tərəfindəki maliyyə qeydlərinə əsasən dəqiq olmasa da, təxmini fikir söyləmək olar. Bəs əlyazma mətninin xətti kimə məxsusdur? Dastana aid bu əlyazma necə yaranmışdır?

Tədqiqatçılar belə ehtimal edirlər ki, bu əlyazmanın xətti məşhur folklorçu və koroğluşünas alim Vəli Xulufluya məxsusdur. (7, s.38) Onun bu əlyazma mətnini ötən əsrin 20-ci illərində köçürdüyü təxmin edilir. Buna əminlik yaransın deyə Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin nəzdində olan Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət arxivində V.Xulufluya aid arxiv materiallarını nəzərdən keçirdik. (8) Alimin orada saxlanılan etnoqrafiyaya aid 83 vərəqlik öz dəst-xəttilə köçürdüyü əlyazmaları ilə haqqında danışdığımız "Koroğlu" əlyazmasının mətninin xətti demək olar ki oxşardır. Yuxarıda söylənən bu fikri həm də o zamanlar, yəni 20-ci illərdə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin nəzdində yaradılmış beş şöbədən birinə - Folklor şöbəsinə rəhbərlik etmiş V

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

abidələrinin toplanması və nəşri işinə birbaşa nəzarət etməsilə də əsaslandırmaq olar. Tədqiqatçı alim həmin cəmiyyətdə çalışarkən "Koroğlu" və digər folklor əsərlərinin çoxlu sayda nümunələrini şəxsən özü toplamış və eyni zamanda xalq ədəbiyyatına aid başqalarının da topladığı əsərləri kitab halında nəşrə təqdim etmişdir. Bu sahədə görülən işlərin nəticəsi kimi, alim 1927 və 1929-cu illərdə dastanın Aşıq Hüseyn Bozalqanlının dilindən qələmə alınan variantın birinci dəfə iki qolunu – "Toqat səfəri" və "Bağdad səfəri"ni (9, s.8), sonra isə geniş şəkildə - on müxtəsər qol və Axıska türklərindən Vəlizadə tərəfindən yazıya alınmış mətni (9, s.6) olmaqla nəşr etdirmişdir. Məhz həmin illərdə "Koroğlu"nun nəşri işi ilə əlaqədar olaraq, həm vaxtilə dastanın yazıya alınmış, həm də şifahi nitqdən toplanmış müxtəlif nüsxələri araya-ərsəyə gəlmışdır.

Folklor əsərlərinin həmin illərdə toplanmış nüsxələri ilə bağlı folklorşünas alim Azad Nəbiyev yazır: "Cəmiyyətin (Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti – Ə.M.) 1925-1932-ci illər ərzində Dərbənd və Borçalı da daxil olmaqla Azərbaycan rayonlarına folklor ekspedisiyaları təşkil etməsi barədə rəsmi sənədlər əldədir. Ancaq həmin illər ərzində toplanılıb yazıya alınmış materialların əlyazmalarının taleyi qeyri-müəyyəndir. Onların bir qisminə respublikanın müxtəlif arxivlərində pərakəndə şəkildə təsadüf edilir. Başqa bir qismi isə hələ də keçmiş KQB-nin arxivində zindan həyatını yaşayır..."(9, s.5) Beləliklə, burada belə qənaətə gəlmək olar ki, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu xəzinəsində saxlanılan "Koroğlu" dastanına aid haqqında danışılan kolofonsuz materiallar da çox güman ki, elə həmin illərdə əlyazma şəklində toplanmış və ayrı-ayrı şəxslərin dilindən yazıya alınmış, eyni zamanda araşdırıcıların müxtəlif mənbələrdən aşkarladığı folklor nümunələridir.

Professor A.Nəbiyev daha sonra yazır: "Pünhanda qalan zəngin şifahi milli sərvətin heç olmazsa bir qismini yeni dövr folklor informatorlarının yaddaşından yazıya almağa hələ gücümüz çatmasa da, vaxtilə yazılanların müəyyən hissəsini bu gün üzə çıxarmaq imkanını əldən verməməyə çalışmalıyıq". (9, s.5) Folklorşünas alimin bu çağırışı cəfakeş ziyalılarımızın vaxtilə toplayaraq, yazıya köçürdüyü xalqımızın zəngin folklor sərvətindən dövrümüzə gəlib çatmış irsin məhv olmaması və üzə çıxarılması ilə bağlı irəli sürdüyü çox haqlı bir təklifdir.

Yuxarıda söz açdığımız D-674 şifrli əlyazmaya da, məhz "pünhanda qalan" əsərlərdən biri – "Koroğlu" dastanına aid lakonik süjetdən ibarət bir hekayə köçürülmüşdür. 16 vərəqlik bu əlyazma iki hissədən ibarətdır. Əlyazmanın 1–7-ci vərəqlərinə qədim mədəniyyətə, zəngin folklor yaradıcılığına malik olan Azərbaycan xalqının dünya xalqları arasında xüsusi mövqe tutmasından, "Koroğlu" dastanının bir bədii abidə kimi möhtəşəmliyindən, qəhrəmanı ilə bağlı xalq arasında gəzib-dolaşan ifadələrdən bəhs edən ön söz və 7–16-cı vərəqlərinə isə dastana aid geniş yayılmış nağıllardan biri daxil edilmişdir.

Əlyazmanın birinci hissəsində Azərbaycan el ədəbiyyatının zənginliyindən söz açılaraq, onun tarixən çox qədim olmasından, başqa xalqların bu yerlərlə ta qədimdən mədəni əlaqə qurmasından və çoxsaylı yürüşlərdən sonra xalq ədəbiyyatımızda baş verən tarixi hadisələrlə bağlı bəzi epizodların öz əksini tapması, eyni zamanda digər xalqların dastan və əfsanələrində də Azərbaycan folkloruna aid xüsusiyyətlərin təzahür etməsindən bəhs olunur. Ön söz müəllifi "Koroğlu" ilə bağlı yazır ki, bu gün Azərbaycanın uzaq kəndlərinə getsək görəcəyik ki, aşıqların da toylarda, dügünlərdə, yığıncaqlarda, qonaqlıqlarda söylədikləri "Koroğlu" nağıllarıdır... Qoca nənələrin də ocaq başında dörd yanına toylanan nəvələrinə söylədikləri "Koroğlu" nağıllarıdır...(3)

Müəllifin bu yazısında diqqəti cəlb edən mühüm cəhətlərdən biri odur ki, burada əgər hər hansı bir məsələ ilə bağlı istilah, toponim, alınma sözdən istifadə edilirsə, ona aid elə həmin səhifənin haşiyəsində ətraflı qeyd və şərhlər də yazılmışdır. Məsələn, "batır", "əsatir", "Promete" və Koroğlunun gəzib-dolaşdığı dağlar, mağaralar və s. haqqında izahlar verilır ki, bu sözlərdən bir neçəsinin izahına diqqət yetirək: "Batır" – qəhrəman deməkdir. Farsların "bahadır"ı, rusların "bağatır"ı (Богатырь) bu kəlmədən götürülmüş olduğu zənn olunur; "əsatir" – xəlqin əski etiqad və dinlərinə dair mühüm fikir və xəyallarına deyilir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tədqiqatçı daha sonra dastanla əlaqəli fikirlərini davam etdirərək Koroğlu haqqında el dilində əzbər olan zərb-məsəllər və ifadələrdən (o burada həmin ifadələri atalar sözü adlandırmışdır – Ə.M.) söz açaraq, onlardan bir neçəsinin şərhini vermişdir.

Məsələn, "Koroğlu üçəcən deyibdir" – Yəni birinci və ikinci dəfələrdə görülə bilməyən bir iş, həll oluna bilməyən bir məsələ üçüncü dəfədə şübhəsiz yapılaraq və həll olunacaqdır, çünki: "Koroğlu üçəcən demişdir";

"Koroğlu kibi adamdır" – Yəni o qədər qoçaqdır, yigitdir ki, Koroğluya bənzəyə bilər.

Nəhayət, ön sözün sonunda tədqiqatçı alim "Koroğlu" dastanı və onun qəhrəmanı haqqında fikrini yekunlaşdıraraq yazır: "El arasında söylənilən dastanlara, nağıllara görə Koroğlu bir çox uğurlu və uğursuz, ağ və qara günlər görmüş, bir çox bəlalara, çətinliklərə, müsibətlərə düçar olmuşdur. Amma axırda yenə əqli və cəsarəti sayəsində xilas olmuş idi. Onun barəsində danışılan nağıllar da elə bunu göstərir. Biz də burada nümunə olmaq üçün Koroğlu haqqında nağıllardan birini söyləyəcəyik". (3) Elə həmin səhifənin haşiyəsində təqdim olunan "Koroğlu" nağılı ilə bağlı belə bir qeyd də oxuyuruq: "Həmin nağıl almaniyalı Baron Avqustun yazdığı "Qara dəniz və Bəhri-Xəzər arasında yaşayan millətlərin ailəvi və ictimai yaşayışlarına dair məlumat" adlı əsərinin ruscaya tərcüməsindən götürülmüşdür. Baron Avqustun Qafqasiyaya səyahəti 19-cu əsrin birinci yarısında olmuşdur". (3)

Ön söz məllifinin dastanın iki qoluna aid olan nağılı burada oxucuya təqdim etməsilə belə qənaətə gəlmək olar ki, V.Xuluflu Baron Avqustun yuxarıda adı çəkilən əsəri ilə yaxından tanış olmuş və XIX yüzilliyin I yarısında yazıya alınmış bu mətni tərcümə edib oxuculara təqdim etmək təşəbbüsü elə onun özünə məxsusdur.

Baron Avqust kimdir və necə olub ki, XIX yüzilliyin əvəllərində xalq arasında yaranan Koroğlu haqqında nağıl onun yazmış olduğu kitaba düşmüşdür?

Avqust Haksthauzen (1792-1866) adlı bu şəxs alman baronu, dövlət məmuru, Prussiya və Rusiyanın aqrar məsələlərinə dair bir çox əsərlərin müəllifi olmuşdur. O, XIX yüzilliyin 40-cı illərində çar I Nikolayın təklifi ilə Rusiyanın bir sıra bölgələrinə səyahət etmiş və "Rusiya xalq həyatının və xüsusilə kənd müəssisələrinin daxili münasibətlərinin tədqiqi" (rus dilinə tərcümə, 1869, I cild) adlı əsər yazmışdır. (10, s.112) V.Xuluflunun istinad etdiyi və o zaman yenicə Rusiyaya birləşdirilən Qafqazda yaşayan xalqların həyatına həsr edilmiş, yuxarıda haqqında danışdığımız əlyazmanın ön sözündə Baron Avqustun adı çəkilən əsərinin tam adı belədir:"Zaqafqaziya diyarı. Xəzər və Qara dəniz arasında yaşayan xalqların ailəvi və ictimai həyatı haqqında məlumat". (11)

Folklorçu alimin tərcümə etdiyi "Koroğlu"ya aid nağılın mətni kitabın 149-153-cü səhifələrindədir. Qeyd edək ki, rus dilinə tərcümə edilmiş nağıl heç də folklor əsərlərinə xas olan şəkildə, yəni dastançılıq ənənələri ilə qələmə alınmamışdır. Haksthauzen nağılı alman dilinə tərcümə edərkən ola bilsin ki, folklor ədəbi ənənələrinə əməl etmişdir, amma rus dilinə tərcüməsini dastanın bədiilikdən uzaq olan yalnız qısa xülasəsi hesab etmək olar. Beləliklə, bildirmək istəyirik ki, tanınmış folklorçu Vəli Xuluflu "Koroğlu" dastanının tədqiqatçısı və bilicisi olduğundan həmin mətni dastançılıq ənənələrimizə əsaslanmaqla böyük məharətlə rus dilindən ana dilimizə çevirmişdir.

Kitabla bağlı əvvəlcə onu deyək ki, bu mənbə həmişə olduğu kimi elə bu gün də ermənilərin ən çox istinad etdiyi məxəzlərdəndir. Demək olar ki, burada əvvəldən axıradək ermənilərlə bağlı fikirlər daha çox qabardılmışdır. Onu müşayiət edənlərdən birinin erməni olması, Tiflisdən çıxıb İrəvana gedərkən yol boyu ermənilərlə görüşü, erməni xalqının mədəniyyəti, həyat tərzi və sair haqqında tez-tez söz açması müəllifin ermənipərəst mövqeyindən xəbər verir. Əsərin ruscaya tərcüməsinə yazılmış müqəddimə və erməni katalikosu Nersesin (Kitabda katalikosun adı Narses yazılmışdır - Ə.M.) Sankt-Peterburqda olarkən kitabın müəllifinə ünvanladığı 1844-cü il 27 yanvar tarixli məktubu və rəssam Viktorun çəkdiyi katalikosun şəklinin kitabın lap əvvəlində verilməsi müəllifin tutduğu mövqeyə aydınlıq gətirir. Müəllif burada nə qədər ermənipərəstlik göstərsə də, yeri gəldikdə arabir bəzi həqiqətləri etiraf etməli olmuşdur. Məsələn, səyahət zamanı bir karvansarada qa

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qeyd edir ki, karvansaranın yaxınlığında bir erməni kəndi yerləşirdi. Həmin kənddəki erməni əhali 32 il əvvəl knyaz Sisiyanovun zamanında İran Ermənistanından (Sözsüz ki, bu inzibati ərazi uydurmadır – Ə.M.) gəlib burada məskunlaşmışdır. (11, s.154) Müəllif kitabın başqa bir yerində isə Tiflislə İrəvan arasındakı ərazilərdə azərbaycanlıların sayca ermənilərdən üstün olduğunu gizlədə bilməyərək yazır ki, tatarlar (türklər – Ə.M.) 100-300 evlik daha böyük kəndlərdə, ermənilər isə 100-dən yuxarı evi olmayan kiçik kəndlərdə yaşayırlar. (11, s.155)

B.A.Haksthauzen ön sözdə qeyd edir ki, o, kitabı 1849-cu ildə artıq nəşrə hazırlamışdı, ancaq müəyyən səbəblərə görə nəşr işi ləngiyir və 1855-ci ildə alman dilində, rus dilinə tərcüməsi isə 1857-ci ildə nəşr olunmuşdur. Kitabda ermənilərin marağı üstün tutulsa da, Qafqazın təbiəti, yerli xalqların həyat tərzi, mədəniyyəti ilə bağlı bir çox məsələlərdən söz açılması olduqca əhəmiyyətlidir. "Koroğlu" ilə əlaqəli kitaba daxil edilmiş nağılı bir çox mənbələrdə qeyd olunduğu kimi Baron Avqust heç də xalq dilindən deyil, yol yoldaşı, regionu daha yaxşı tanıyan, Azərbaycan türkcəsini gözəl bilən Pyotr Ney ona danışandan sonra qələmə almışdır. Qafqazı yaxşı tanıyan və yerli xalqların mədəniyyətinə yaxından bələd olan bu şəxsin haqqında belə güman etmək olar ki, o, XIX yüzilliyin əvvəllərində Rusiya çarının icazəsilə Tiflis ətrafında və Azərbaycanın qərbində məskunlaşmış almanlardan biridır.

Müəllif "Koroğlu" nağılını Pyotr Neyin ona necə söyləməsi haqqında kitabın IV fəsilində belə yazır:

Mən Tiflisdə ona görə qaldım ki, İrəvana səyahətə hazırlaşım. Yola düşməzdən əvvəl qubernatordan lazım olan sənədləri – pasport, zəmanət məktubunu aldım. Faytonumuz yaxşı vəziyyətdə olmadığından onun təmirinə xeyli vaxt itirdik. Avqustun 22-də mən, Pyotr Ney və bir rus poçtalyonla İrəvana yola düşdük. Təhlükəsizliyimiz üçün iki kazak bizi müşayiət edirdi. Kürün sahili ilə gedirdik. Sağ tərəfdə hündür qayalar sıralanmışdı. Sonra qarşımıza geniş əkin sahələri çıxdı. Hava qaralanda isə biz meşəyə çatıb, orada gecələməli olduq.

– Pyotr, əzizim, indi gecədir, heç nə görünmür, bəlkə mənə bildiyin nağıllardan birini danışasan – deyə, ondan xahiş etdim.

Beləliklə, əslən alman olan, yerli sakin Pyotr Ney "Kor Übeyd və onun oğlu Koroğlu haqqında tatar əfsanəsi" adlanan nağılı Baron Avqusta nəql edir.

Nağılda hadisələr İran şahlarından birinin sarayında baş verməsi ilə başlanır. Koroğlunun atasnın adı burada Alı deyil, Übeyd adlanır. Əlyazmanın mətnində diqqəti cəlb edən xüsusiyyətlərdən biri də "Qıratın qaçırılması" qolunun qısa məzmunundan ibarət olan nağılda Qıratı qaçıranın milliyətcə erməni olduğunun qeyd olunmasıdır.

Tanınmış folklorçu Vəli Xuluflunun dəst-xəttilə köçürülərək, bu günümüzə gəlib çatmış Koroğlu haqqında olan bu nağılın necə yaranmasına müəyyən mənada qismən də olsa aydınlıq gətirməklə bərabər, nəhayət, sonda xatırlatmaq istəyirik ki, xalq ədəbiyyatımızın ən parlaq nümunələrindən biri olan "Koroğlu" dastanı və onun formalaşmasında müstəsna rolu olmuş dastanın ayrı-ayrı qollarının, eposa aid nağılların, əhvalatların ilk dəfə XIX yüzilliyin birinci yarısından başlayaraq toplanmasına, tədqiqinə, müxtəlif dillərə tərcümə edilməsinə, nəşrinə böyük maraq və diqqət göstərmiş avropalı səyyah, diplomat və tədqiqatçılardan İ.Şopen, A.Xodzko, J.Sand, S.Penn və başqaları kimi Baron Avqust Haksthauzenin də bu sahədəki xidməti qeyd olunmalıdır.

**ƏDƏBIYYAT:**

1. Əlyazma. D-381. Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.
2. Əlyazma. B-206. Azərbaycan MEA Məhəmməd Füzuli adlna Əlyazmalar İnstitutu.
3. Əlyazma. D-674. Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.
4. Türk əlyazmaları kataloqu. – Folklor abidələri və müəllifsiz əlyazmalar (Təsvir və tərtib edənlər: filol.e.d.Şamil Cəmşidov, filol.e.n.Əli Məmmədbağıroğlu). Bakı:"Elm" nəşriyyatı, 2007
5. Salman Mümtaz. Koroğlu (qoşma və gəraylılar). Arxiv 38. Fond 24. Azərbaycan MEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

6. Koroğlu (Əski əlifbada). Mühərriri: Rza Zaki. Nəşriyyati-Bəradərani-Orucof. Bakı: h.1331/ m.1913.
7. Şamil Cəmşidov. Azərbaycan yazılı dastan abidələrinin tədqiqi.Bakı: “Nurlan”, 2002. .
8. Vəli Xuluflu. Rustov dairəsində pirlərə dair (Sərlövhəsiz. İ.P.Petruşevskinin rəyiilə). Azərbaycan Milli Arxiv İdarəsinin nəzdində Salman Mümtaz adına Ədəbiyyat və İncəsənət arxivi. Fond № 175, siyahı № 1
9. Koroğlu (Vəli Xuluflu nəşri – 1927). Nəşrə hazırlayanı və ön sözün müəllifi: Azad Nəbiyev; Mətni tərtib edən: Məhəmməd Məmmədov; Bakı: “Elm”, 2007.
10. Болъшая Советское Энциклопедия. 10 т., Москва, Государственное научное издателство «Болъшая Советская Энциклопедия», 1952..
11. Барон Август фонъ Гакстгаузен. Закавказский край. О семейной и общественной жизни и отношенияхъ народовъ, обитающихъ между Чернымъ и Каспийскимъ морями. Санкт-Петербургъ, 1857.
.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# PROTECTION AND CONSERVATION OF FOLKLORE AND CULTURAL HERITAGE FOR REGIONAL COOPERATION

***AZIM SAHATIMEHR***
***TOHID SAHATIMEHR***
***KARIM MOSSAZADEH***

**Abstract:**

Present century is the century of the information and communication. In another words more knowledge and understanding makes better access to greater opportunities. In marketing, study about the folklore, tradition and culture for customer satisfaction is part of obligation which can not be ignored.

Folklore consists of culture, including stories, music, dance, legends, oral history, proverbs, jokes, popular beliefs, customs and so forth within a particular population comprising the traditions (including oral traditions) of that culture, subculture, or group. It is also the set of practices through which those expressive genres are shared. The academic and usually ethnographic study of folklore is sometimes called folkloristic. The word 'folklore' was first used by the English antiquarian William Thomas in a letter published by the London Journal in Athenaeum in 1846[1]. In usage, there is a continuum between folklore and mythology .Stith Thompson made a major attempt to index the motifs of both folklore and mythology, providing an outline into which new motifs can be placed, and scholars can keep track of all older motifs.

Folklore can be divided into four areas of study: artifact (such as voodoo dolls), describable and transmissible entity (oral tradition), culture, and behavior. These areas do not stand alone; however, as often a particular item or element may fit into more than one of these areas.

Folklorist William Bascom states that folklore has many cultural aspects, such as allowing for escape from societal consequences. In addition, folklore can also serve to validate a culture (romantic nationalism), as well as transmit a culture's morals and values. Folklore can also be the root of many cultural types of music. Folklore can also be used to assert social pressures, or relieve them, for example in the case of humor and carnival.

In addition, folklorists study medical, supernatural, religious, and political belief systems as an essential, often unspoken, part of expressive culture.

Folklore and cultural heritage varies from one country in comparison to another.

Republic of Azerbaijan and Islamic republic of Iran due to commonality in many aspects, including in the fields of folklore and culture can make close cooperation for their economical development.

Key Words: folklore-Culture- Conservation-cooperation- economical development

**1-Introduction:**

Cultural heritage and folklore should be considered as an asset in each country .In the developed countries especial attention has been focused upon it for safeguarding and its protection.

The study of folklore has changed over time. Previously scholars believed that the subjects (texts or culture) were decaying or disappearing but now we consider folklore and culture as efficacious and meaningful processes within our present reality [2].

Fieldwork connects folklorists to the community and provides contextual knowledge for textual analysis.

The new generation of folklorists recognizes the interactions between how an individual tells a story and how the audiences react and interact, and interrelationships between art, architecture and other expressive elements of culture. Folklorists today look at the dynamic relations between the socially given, the traditional, and the creative individual. The field has re-calibrated itself from a focus on the traditional and ready-made, to a focus on the

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

emergent, socially given and creative. Such synthetic work seeks to better understand the world by recognizing the circular system of individual, group, and expression. Folklorists today have and use theories, but they also strive to maintain an empirical richness in their study, letting the fieldwork, the data, and the people involved direct the big picture as much as possible.

Today we appreciate collections and methods of previous generations, but the new insights of performance theory have further opened the field. Performance theory remains a valid and useful perspective but it must be attended to more frequently and fully. The more studies we have from a perspective of performance theory the better because culture is various and dynamic and can be almost infinitely described, analyzed, and appreciated (just as a text in literature can be read and understood from various perspectives).

Today, many folklorists use the word "consultant" rather than "informant" to refer to those with whom we work in the field. The word consultant represents a conceptual shift – giving the folk credit and space as performers and partners in understanding and analyzing material. They are not just a source to use. We work these days not to salvage something about to disappear, but to describe and analyze the present in cooperation with the people with whom we work. Those folklorists attendant to performance theory offer relatively full contextual pictures of the community in which they work. Those contexts aid our understanding of particular narratives or other expressive forms. Remember that folklore embodies a synthesis of the "folk" and the "lore." Ultimately, all of culture and humanity share these foci of folklore – creativity and society.

Looking to folklore from different angles in developed countries give broader ideas about, what the folklore is and how well it should be treated.

Actual problems of folklore in some countries are concerned with this matter.

In the similar sense in the developing state countries keeping the culture and folklore dynamic and live is essential and being aware from international lows could have determinant effect in conservation and protection of cultural heritage.

**2-Protection and safeguarding of folklore and cultural heritage;**

Recognition of "intangible heritage" as a subject for protection is one of the most significant recent developments of international cultural heritage law, and identifying its character has been a major challenge. Understanding the significance of the transmission of information (e.g., how a carpet is hand-woven) and of the skill of the producer of this heritage is central to its definition. The human (social and economic) context of the production of intangible heritage requires safeguarding as much as the tangible product itself and must be considered in evaluating existing or future protective measures. This perspective addresses the enormous economic and cultural impact of globalization, which is mostly perceived as a threat to the continued existence of this heritage itself, but which also has the potential to aid its preservation. The effects of globalization must be borne in mind when developing any new Convention or other programs for safeguarding folklore. An international standard-setting instrument is a means of countering the economic and cultural effects of globalization, which, while it may reduce the role of states, also increases the importance of local identities in countering global pressures. Giving value to folklore may help states legitimize their role in facing the challenge of globalism by legitimize local cultural identities within the framework of the state.

By considering The 1972 UNESCO "World Heritage Convention" and Recommendation We find out that:

The idea of including folklore within the framework of the 1972 World Heritage Convention (WHC) was raised during its drafting. Such heritage may be undervalued by the state, and the WHC would require the state to protect it and the world community to ensure this happens. Central to this Convention is the characterization of its subject as a "universal heritage" deserving of international protection; and its detailed system for international cooperation to support parties in applying this Convention makes it a potential model for raising national and international awareness of folklore. The composition of any Wo

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

crucial, since this Committee formulates the selection criteria and, if it concerned itself with folklore, would need a broad-based membership that reflects the diversity of interest groups. The flexible character of the selection criteria for sites is useful, allowing for re-evaluation in the light of changing world conditions. The provision of finances is important for empowering cultural communities, while educational programs are a valuable means of safeguarding folklore.

It is difficult to see, however, how folklore could be included within the existing definitional terms and provisions of this Convention, which assume that the subject of protection is a physical entity. This presents a major objection to using the WHC as the basis for safeguarding this heritage, since the Convention would require extensive redrafting to be applicable. Certain provisions, however, could usefully be included in a new Convention. In general, the WHC has had the positive effect of encouraging governments to value protected sites, since their inclusion on the World Heritage List lends them an international prestige.

The 1972 Recommendation, developed alongside the WHC, creates a two-tiered approach to protection that encourages the preservation of certain internationally outstanding examples of this heritage through the WHC, while also urging Member States to safeguard all components of this heritage on a national level. The latter is an important long-term aim, while the former activity raises government and popular awareness of the existence and importance of this heritage. The Preamble and General Principles of this Recommendation contain several ideas highly relevant to folklore and worth considering in drafting a new Convention, in particular, those provisions that reflect the importance of local empowerment and the use of “bottom-up” measures.

Other UNESCO Actions in the Field of Folklore is in the contest of: Living Cultural Properties/Living Human Treasures.

This program proposes the establishment of national systems of “living cultural properties,” who are exponents of folklore. It reflects concern over the effects of globalization of the economy and culture (especially the communications revolution) on oral and traditional culture and the producer communities. States are invited to submit to UNESCO a list of “living human treasures” in their country for inclusion in a future UNESCO World List. The program focuses on the bearers of this heritage and their ability to transmit the skills, techniques, and knowledge to “apprentices” as the most well-directed response to its increasing vulnerability. This recognizes that the continued existence of folklore is inextricably linked to the social and economic well-being of its creators and that it's continued value to them and their way of life must be sustained, even if changed in the modern context. The primary purpose of this system is to preserve the skills and techniques needed for the continuation of this heritage, an element that is missing from international protective measures so far, and that must be included in any future UNESCO instrument. The selection process of exponents of traditional knowledge and techniques for listing them further underlines the crucial role of the practitioners themselves and their apprentices.

Taking into consideration the, UNESCO and WIPO, Intellectual Property Rights and Safeguarding Folklore, it reveals that:

The 1989 Recommendation calls on Member States to draw the attention of the authorities to the work of UNESCO and WIPO in the area of using intellectual property rights (IPRs) to safeguard folklore. It makes an important proviso, however, that this work relates to only one aspect of folklore protection and stresses the urgent need for separate action in a range of other areas. Clearly, protecting the IPRs of creators and performers of folklore/traditional expressions is imperative to prevent its "improper exploitation" and distortion through commercialization, but this should be seen as a relatively narrow form of protection. Overemphasis on this may distort the way this heritage is viewed and the relationship of the creators to its practice by concentrating on protecting their rights in terms of the product and/or its public performance. This is not to deny the real problem of inappropriate commercializati

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

of developing legal protection against unauthorized exploitation. It is rather that IPRs do not adequately address the most central concerns for safeguarding folklore -- its integrity, its role in expressing the identity of the community for the community, its continued practice in traditional forms, and it's valuing by the producer community itself. It is vital to protect legally not only the product (or performance) but also the spontaneous act of creation and the social and cultural context that fostered its production. Furthermore, the definition of the subject of protection in the 1985 Model Provisions excludes many significant aspects of folklore such as beliefs, legends, practical traditions, craft skills, and other know-how.

In considering current moves to develop a new international treaty on the subject, one should bear in mind the limitations of IPRs in relation to folklore. Further examination of the role existing or new IPRs can play in the protection of expressions of folklore is a valuable exercise that may answer a specific need. However, it is potentially damaging to UNESCO's aims in relation to folklore if a new Convention on the IPR issues is drafted independently of one treating this heritage as a whole. If new IPR rules are to be elaborated on folklore, this should be within the framework of a new UNESCO Convention that embraces as broad an understanding as possible of folklore and safeguards not only the product but also the spontaneous act of creation and its social/cultural context. WIPO's exploring innovative ways of using IPRs to protect expressions of folklore in those contexts where this is appropriate would be an important adjunct to UNESCO's work.

**3-Rigional cooperation for folklore and cultural heritage**

Considering above mentioned facts about folklore and cultural heritage and trying to find methods and solutions to conserve and protect these assets to the future generations, reveals that each nation must have its own plan and full fill its duty in this respect.

Imposed wars and instability could have negative effect. Folklore and cultural heritage should be considered as an impotent income source, from tourist industry.

The commonality of folklore and tradition in Republic of Azerbaijan and in the Islamic republic of Iran especially in Azerbaijan Provinces needs strategic planning and management for economical development in the region.

Studying brief description about Azerbaijan provinces of Iran and its commonality in folklore and cultural heritage with Republic of Azerbaijan clarifies the reasons for mutual cooperation in different aspects including tourism industry in the region.

Iran is home to several ethnic groups, including Kurdish, Azerbaijanis, Assyrian, Bakhtiari and Baluchi peoples.

Between Azerbaijan provinces of Iran, East Azerbaijan has considerable share in folklore and cultural heritage.

East Azerbaijan province covers an area of approximately 47,830 km²; it has a population of around four million people. According to the latest divisions of the country in 1996, the counties of this province are :Ahar, Ajabshir ,Bostan Abad, Bonab, Tabriz, Jolfa, Sarab, Shabestar, Kaleybar, Maragha ,Marand, Malekan,Miyana, Heris, and Hashtrood. The historical city of Tabriz is the most important city of this province, culturally, politically, and commercially. The province has common borders with the current Republics of Azerbaijan, Armenia and Nakhchivan. A fine network of roads and railways connect East Azerbaijan to other parts of Iran. and also to neighboring countries.

The highest peak of East Azerbaijan is Sahand Mountain at 3,722 m of elevation, lying south of Tabriz, whereas the lower lying areas are around Garmadooz (Ahar). The heights of the province may be classified into three sectors, namely: the Qara Daq Mountains, the Sahand and Bozqoosh Mountains, and the Qaflan Kooh Mountains.

East Azerbaijan is one of the most archaic territories in Iran. During the reign of Alexander of Macedon in Iran (331 BCE), a warrior known as Attorpat led a revolt in this area, then a territory of the Medes, and thereafter it was called Attorpatkan. Since then this vicinity has been known as Azarabadegan, Azarbadgan and Azarbayjan.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Islamic researchers proclaim that the birth of the prophet Zoroaster was in this area, in the vicinity of Lake Orumieh (Chichesht), Konzak City.

The most outstanding features from a cultural point of view are the language, Azari/Azerice, and folklore of this region. According to Dehkhoda Dictionary, the language of Azerbaijan is originally "a branch of the Iranian languages known as Azari .However the modern Azeri language is a Turkic language very closely related to the language of West Azerbaijan and Turkey.

Iran's cultural Heritage Organization has registered 936 sites of historical significance in the province. Some are contemporary, and some are from the antiquity of ancient Persia. "Zahak Citadel", for example, is the name of an ancient ruin in East Azerbaijan, which according to various experts, was inhabited from the second millennium BC until the Timurid era. First excavated in the 1800s by British archeologists, Iran's cultural Heritage Organization has been studying the structure in 6 phases.

East Azerbaijan hails from a rich compendium of Azeri traditions. Many local dances and folk songs continue to survive among the various peoples of the province. As a longstanding province of Iran, Azerbaijan is mentioned favorably on many occasions in Persian Literature by Iran's greatest authors and poets.

Tabriz also has an excellent position in the handicraft industry of Iran, having a large share in the exports of the province. Tabriz carpets are widely known around the world and in international markets for their vibrant designs and colors. Without exaggeration, Iranian rugs owe their fame to the creative minds of the designers and the deft hands of the carpet weavers of East Azerbaijan.

At present there are about 66,000 carpet production units in the province, employing some 200,000 people. The annual production of these carpets is roughly 792,000 $m^2$, which comprises more than 70% of Iran's carpet exports. 35% of all Iranian carpets are produced in East Azerbaijan.

UNESCO has two Biosphere reserves in East Azerbaijan province. One in Lake Urmia and the other at Arasbaran .

About the music of Azerbaijan we have to look to four provinces:

These are the music of provinces of Zanjan, East Azerbaijan, West Azerbaijan and Ardabil in Iran. Azerbaijan like other parts of Iran has a distinct music. On February 21, 1828, under the Treaty of Turkmenchay, Russia seized the control of Iranian territory to the North of the River Aras, which is now called the Republic of Azerbaijan where they share very similar music as Azerbaijanis in Iran. The number of Azerbaijanis in Iran is about three times larger than population of Republic of Azerbaijan.

Well known folklore music in Azerbaijan provinces are as follows:

**"Oshari"**

Proceeding with a strong and galloping rhythm, Azerbaijan music has an epic and heroic quality both in from and in content. This music is quite stirring and lyrical, abounding in elements of folklore; it is played passionately and enthusiastically in many traditional ceremonies in this region, such as wedding ceremonies, "hennabandan" etc.

Azerbaijan Folk or Asheghi Music: This music is deeply rooted in the rural life and ancient cultural traditions of Azerbaijan people, and it is considered as folk music. "Asheghi" music has been popular in this region since long ago, and the Songs have been transmitted by word of mouth from one "ashegh" to another; thus, they have been preserved through the years. This music is known as the chief root and source of contemporary Azerbaijan music.

**Azerbaijan Rural or Radifi Music:**

Although this music is deeply rooted in "asheghi" music, it follows special principles, tone, structure, and combination of instruments. I personally believe that Azerbaijan rural music is in fact urban in nature, and it has a great deal of features in common with the traditional " radifi" music.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Azerbaijan Orchestral Music:**

This kind of music is not so old, and it has been written and performed in various forms during the recent years. Among these forms are the opera, the symphony, the concerto, the fantasy, and the ditties.

Detailed investigation and extensive study for understanding, presentation, protection and preservation of folklore and cultural heritage in Islamic republic of Iran especially in Azerbaijan provinces are needed. Management and strategic planning plays an important role in this respect. [5].

Republic of Azerbaijan has focused great attention on folklore, art, and cultural heritage in recent years. Most of the artists from this country in different artworks are well known in Azerbaijan provinces of Iran. Mutual interests in the leaders and authorities in these two neighbor countries for cooperation in different fields especially in cultural aspects will make rigid foundation for tourism industry which could lead to economical development in the region.

**4-Conclusion and recommendations:**

-Folklorists today look at the dynamic relations between the socially given, the traditional, and the creative individual

-Performance theory remains a valid and useful perspective but it must be attended to more frequently and fully.

- Today, many folklorists use the word "consultant" rather than "informant" to refer to those with whom we work in the field.

- In raising international awareness of the value and vulnerability of the cultural heritage should be borne in mind, since such awareness-raising for folklore is needed.

- The UNESCO/WIPO work on applying IPRs to folklore could be very useful if placed within the context of a broad-based Convention on its safeguarding.

-Mutual cooperation between Republic of Azerbaijan and Islamic Republic of Iran in the fields of folklore and cultural heritage will reveal actual problems of the subject, makes plans for implementation of methods of protection and preservation and enhance tourism industry which eventually leads to economical development in the region

**5-References:**

[1]-Georges, Robert A., Michael Owens Jones, "Folkloristic: An Introduction," Indiana university press, 1995.

[2]- Mary Magoulick, History of Folklore

[3]-Janet Blake, Safeguarding Traditional Cultural and Folklore, Existing International Law and future development, School of law, University of Glasgow Scotland.

[4]- Wikipedia-Iranian folk music

[5]- Azim Sahatimehr-Regional cooperation between Iran and Republic of Azerbaijan for Sustainable Development, International Conference “Culture and Beauty in Islam, Baku 9 -10 November 2009

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DASTAN ƏNƏNƏSI KONTEKSTINDƏ KLASSIK VÜCUDNAMƏLƏR
## (Güney Azərbaycandan Toplanmış Yeni Örnəklər)

***ELMİRA MƏMMƏDOVA***

İnsanın ömür yolunun mərhələlərini mühüm yaşlar üzrə təsvir edən vücudnamələr Türk Dünyasının çeşidli bölgələrində müxtəlif adlarla məlumdur: Azərbaycanda "vücudnamə", Kıbrıs ve Türkiyədə "yaş dastanı" və ya "yaşnamə", Türkmənistanda "sənənamə", Qazaxıstanda "yılnama", Özbəkistanda "həsbi-hal" və s. Bəzən "həyat dastanı" və ya "ömür dastanı" olaraq da adlandırılan bu cür şeirlərin ilk mükəmməl klassik örnəyinə Əhməd Yəsəvinin "Divani-Hikmət"ində rast gəlsək də, orta əsrlər və yeni dövr ədəbiyyatında da bir çox aşıq və şairlər də bu şeir şəklinə müraciət etmişlər. Bu baxımdan Cemal Hocanın, Irfaninin, Pir Sultan Abdalın, Talibinin, Zülalinin və digərlərinin "Yaş Dastanı" başlıqlı şeirləri dastan ənənəsi kontekstində söylənmiş əsərlərdir. Hətta Azərbaycanda nəzmlə nəsrin bir-birini izləməsi ilə yazılan dastanların əvvəlində bəzən ustadnamələrlə birlikdə vücudnamələrin də söyləndiyini görürük. Bu baxımdan "Şah İsmayıl" dastanı diqqəti cəlb edir.

Məlum olduğu kimi, İslamdan əvvəlki türk dastanlarında makro və mikrokosmosun yaradılması təsvir edilməkdə və orta əsr dastanlarında isə daha çox qəhrəmanlıq və köç mövzuları qələmə alınmaqdadır. Adətən, böyük həcmli mənzum əsərlər kimi diqqəti cəlb edən bu dastanlarla vücudnamələr arasında mövzu və məzmun baxımından yaxınlıq vardır. Bəzən böyük dastanların da içərisində vücudnamələr bir "xülasə edici" funksiyaya malik olması ilə diqqəti cəlb edir. "Manas" dastanındakı "Er Koşay" şeiri buna örnəkdir.

Vücudnamələrdə də insanın yaradılması, ruhlar dünyasından ana bətninə qədər ruhi seyri "Quran"dan qaynaqlanan motivlər əsasında təsvir edilməkdə, bu dünyaya gəlişindən etibarən həyat dastanı söylənməkdədir. Bundan başqa bəzi vücudnamələrdə də müharibə və qəhrəmanlıq mövzuları qabarıqdır. Kıbrıslı Oğuz Yorgancıoğlunun yaş dastanı (144 dördlük) həcmcə ən böyük yaşnamə kimi diqqəti cəlb etməklə yanaşı, dastan ənənəsinə daha çox bağlılığı ilə də əhəmiyyət kəsb etməkdədir.

Bütün bunları nəzərə aldıqda poetik baxımdan vücudnamələr klassik dastanların kiçik bir modeli olaraq araşdırmaya ehtiyac duyur. Eyni zamanda vücudnamələr həm klassik şeir, həm də aşıq şeirinin xüsusiyyətlərini daşımaqda, müəyyən mənada "vasitəçi" bir ədəbi şəkil olaraq diqqəti cəlb etməkdədir. Məqalədə Güney Azərbaycandan toplanmış [159] və indiyə qədər araşdırmaya cəlb olunmamış müəyyən vücudnamələr əsasında təhlil aparılacaqdır.

**Açar Sözlər: Dastan, Yaş Dastanı, Vücudnamə, Azərbaycan, Aşıq**

Klassik vücudnamələr [160] içərisində Güney Azərbaycan aşıqlarına məxsus qoşma və gəraylılar da diqqəti cəlb edir. Bunlardan biri Zənganlı Aşıq Müslüm Əsgəriyə məxsusdur. 12 bəndlik qoşma-vücudnamədə 1-100 yaş arası ömür yolunun müəyyən mərhələ və illəri ifadə edilir. Ad qoyma mərasimi xüsusilə vurğulanır:

*On günüm ki geçdi çağırdı anam,*
*Dedi: " Deyin, gəlsin qocaman babam"*
*Yemişlər paylandı, səsləndi atam:*
*"Bircə ad çağırın bu şirxarə".*

*Böyük babam aldı məni qucağə,*
*Sağ qulağma əzan sola iqamə*

---

159 Güney Azərbaycanın Zəngan, Savə, Təbriz bölgələrindən son dörd aşığın vücudnaməsini bizə Məhəmməd Zənganlı təqdim etmişdir.

160 Bu vücudnamələr üçün xarakterik cəhət insanın bu dünyadakı həyatı ilə yanaşı, ruh şəklində mövcud olmanın və öldükdən sonra dəfn mərasiminin, axirət dünyasının geniş təsviridir. Bu baxımdan aşağıdakı müəlliflərin vücudnamələri bu qrupa daxil edilə bilinər: Aşıq Abbas, Xəstə Həsən, Xəstə Qasın [illegible]
Mədəd, Miskin Vəli, Tilim xan, Mahmud Türkman, Məxdumqulu, Molla Nəfəs, C[illegible]

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Dedi : “Allah çox görməsin atamə”,*
*Gələn gəlir, edir mənə nizarə.*

Aşıq qocalıqdan, daha doğrusu, 90 yaşını keçdikdən sonra heç kimin ona baxmadığını və yetim bir uşağa bənzəməsini də maraqlı misralarla dilə gətirir. Bu vücudnamədə qəbir evi, axirət dünyası geniş şəkildə təsvir edilməsə də, on iki imam yad olunur və İmam Əli köməyə çağırılır:

***Yüz** yaşa çatanda gəldi əzrayil,*
*Oxudu başımda neçə fəzayıl,*
*Can çıxmaqlıq oldu zəhri həlahil,*
*Öz əməlim canda çəkdi şərarə.*

*Apardılar qəssal quslumu verdi,*
*Əgnimə kəfəni tez geyindirdi,*
*Qəbrə qoyulcağın yasaul gəldi.*
*Yerləşdi bədənim bir dar məzarə.*

*Oxundu qəbr üstə həqqin kəlamı,*
*Hördülər məzarım getdilər hamı,*
*Məlakələr dedi çağır imamı,*
*Gəldi qəbr evinə bir şəhsəvarə.*

*Oniki ada söz yazdı **ƏSGƏRİ***
*Çağır dadə yetsın sən ərənləri.*
*Hər anda tanrıdır dilim əzbəri,*
*Başarsan namə yaz gül üzlü yarə*[161].

Güney Azərbaycandan əldə etdiyimiz daha bir vücudnamə isə Savə bölgəsinə aid olub, Aşıq Tilim xana məxsus 48 bəndlik qoşmadır. Bu vücudnamə yüksək poetik obrazlılığı və ruh aləminin, eləcə də maddi dünyadakı yaşamın mərhələlər üzrə ən geniş, təfsilatlı şəkildə təsvirinin verildiyi bir şeir nümunəsi kimi diqqəti cəlb edir. İlk bənddə “zərrələr aləmi”ndə olduğunu deyən aşıq bəzmi-ələstdə Allaha verdiyi iqrardan bəhs edir:

*Aləm-i zərratda məxluqat oldum,*
*Şükr allaha, müsəlmanə yetişdim.*
*Məhəmmədə ümmət, Allaha bəndə,*
*İqrar verdim mən, imanə yetişdim.*

Bu iqrardan illər, qərinələr ötdükdən sonra o, insan olaraq dünyaya gəlir, daha doğrusu öncə atada, sonra anada vücud tapır. Ana bətnində əvvəlcə qan şəklində mövcud olur, 40 gün sonra cəsədi yaranır, mələklər gün keçdikcə 360 damar və piyi, 444 sümüyü formalaşdırırlar, 4 ay on gündən sonra isə “can” verilir:

*Nəqşbənd eylədi bu cansiz təni,*
*Bisəmən gövhəri qıldı səməni.*
*Gecə-gündüz pərvəriş etdi məni,*
*Dörd ay on gün geçdi, canə yetişdim.*

Burada aşıq müxtəlif mələklərdən bəhs edir və onlardan birisi onu doqquz aya yetirir. Bu zaman daha bir mələk gələrək, yenidən ondan iqrar alır:

*Bir mələk də xəbər tutdı halımdan,*
*Danışdırıb iqrar aldı dilimdən,*
*Hadıvü dəlil tək tutdu əlimdən,*
*Ta ki gəlib bu xakdanə yetişdim.*

Beləliklə, bu vücudnamədə aşıq iki dəfə iqrar etdiyini yazır və məlum olduğu kimi, bu təsdiqetmələr haqqında iki fikir vardır. Məlum olduğu kimi, bəzmi-ələst haqqında tədqiqatçılar

---
[161] Məhəmməd Zənganlının şəxsi arxivindən (Əlyazması hüququnda)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

arasında iki fikir vardır: “Farsça'daki "söhbet məclisi" anlamına gelen “bezm” sözcüğüyle Arapça'da "ben değil miyim" anlamındaki çekimli bir fiil olan elestü'den oluşan bezm-i elest terkibi "Ben sizin Rabbiniz değil miyim" hitabının yapıldığı ve ruhların da "belâ / evet" diye cevap verdikleri meclis anlamını ifade eder… Bezm-i elestte yapılan sözleşmenin zamanı, yeri ve keyfiyeti konusunda İslam alimleri farklı görüşler ileri sürülmüştür. Bunları iki grupta toplamak mümkündür:

1- Allah'ın insanlardan aldığı ahid insanın türünün fiilen dünyaya gelişinden önce gerçekleşmiş, bütün insanların zürriyeti Âdem'in sırtından zerreler halinde çıkartılmış, onlara ruh ve akıl verilerek kendilerine hitapta bulunulmuş, onlar da buna sözlü olarak cevap vermişlerdir...

2- İnsanların bedenleriyle birlikte dünyaya gelmelerinden önce zerreler halindeki zürriyetlerinden (ruhlarından) topluca alınmış bir ahid yoktur. Nasslarda sözü edilen sözleşme mecâzî anlamda olup, bedenlerin yaratılmasıyla gerçekleşmiştir... İnsanın Allah'ın varlığını ve birliğini kavrayabilecek bir nitelikte yaratılması sözlü olmayan, fakat fıtrî denebilecek bir ahid ve misak niteliğindedir... Yukarıdaki iki görüşten ilkini insan türüne ait umumi bir sözleşme, ikincisini de her ferdin bizzat yaptığı sözleşme şeklinde değerlendirilenler de vardır”. (Yavuz, 1992: 106-107)

Göründüyü kimi, Tilim xan hər iki iqrar etməni vücudnaməsində əks etdirmişdir.

Bu vücudnamədə diqqəti cəlb edən başqa bir özəllik müəyyən yaş mərhələri ilə müəyyən hadisə və qəlib adlandırmalarının paralel şəkildə verilməsidir. Buna nümunə olaraq, aşağıdakı misraları göstərə bilərik:

*Dörd yaşımda dörd kitabı eşitdim.*

*...On ikidə on ikini çağırdım.*

*...On dördümdə on dörd mə'sumu bildim*

Bu misralarda ömrün illəri ilə müvafiq dini anlayışlar əlaqələndirilərək, assosiativ şəkildə təqdim edilmiş, poetik quruluşda paralelizm gözlənilmişdir. Aşıq şiə olmasını da xüsusilə vurğulamışdır:

*Şeş ğuslü təyəmmüm, vizunu bildim,*
*Müəllimdən namaz dərsini aldım,*
*Namaz rəkətlərin on yeddi qıldım*
*Şiə olub müsəlmanə yetişdim*

Tilim xan qocalığın 60 yaşdan başlamasını qeyd edərək, ilk əlamətin belinin bükülməsi və əsa götürdüyü üçün iki deyil, üç əlliyə döndüyünü vurğulamışdır:

*Altmışa yetəndə bukuldu belim,*
*Bir əsa götürdüm üç oldu əlim,*
*Gözlərim az görür, bilmirəm neylim,*
*Qocalıqdan bu nişana yetişdim.*

Ümumiyyətlə, Tilim xanın vücudnaməsində cavanlıq getdikdən sonra yaşlılıq və xüsusilə də ömrün son illəri yüksək bədii çalarlarla, bənzətmələrlə əks etdirilmişdir:

*Doxsana yetəndə çox oldum düşgün,*
*Təvəqqü eylədim, görmədim xoş gün,*
*Lənət bu dünyayə, bu imiş beş gün,*
*İstiğfari paşimanə yetişdim.*

*Yüz yaşımda bir guşəyə saldılar,*
*Neçə gündən halım xəbər aldılar,*
*Qoca deyib danışdırıb-güldülər,*
*Gülünc olub qız-oğlanə yetişdim.*

*Yüzdən artıq oldu iyirmi yaşım,*
*Gedəndə gəlmədi başıma huşum,*
*Bədən lərzan oldu, ağrıdı başım,*
*Bir cəlladi-cavidanə yetişdim.*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Doxsan yaşında əldən düşən aşıq dünyanın faniliyinə lənət oxuyur və artıq "beş günlük" dünyanın son gününü, qürub zamanını yaşadığı, uzun ömrün bir an içində keçdiyini dərk edərək, bu dünyaya lənət oxuyur. Yüz yaşında isə neçə gündən bir halının xəbər alındığını yazan aşıq bəzi yaşlı insanların tənhalığını və gərəksizlik duyğularını, oğul-uşağın gülüş hədəfinə çevrildiyini təbii şəkildə və emosionallıqla ifadə edir. Yüz iyirmi yaşında isə artıq huşu gedib-gələn aşığın ziyarətçisi Əzrayıldır. Bir çox vücudnamələrdə təsvir edildiyi kimi, Əzrayıl çəngəlini salaraq onun canını alır və aşıq ağlaşma mərasiminin təsvirində "*Qovum-qardaş yığılıban ağladı, Biri canlı, biri cansız çağladı*", - misrası ilə insanların ölənə səmimi və qeyri-səmimi münasibətini ifadə edir. Kəfənə büküldükdən sonra əbədiyyətə yola düşənlərin karvanına tələsir:

*Mürdəşurlar qus(ü)l, tədfin verdilər,*
*Yeddi üzvə sidrü- kafur vurdular,*
*Başdan başa mənə ağ geydirdilər,*
*Cəhd eyləyib karivanə yetişdim.*

Taxta atın üstündə karvanına qoşularaq qəbiristanlığa gətirilən aşıq məzara qoyulmasını və orada artıq xəyali olaraq baş verənləri də geniş təsvir edərək, Məşriqdən gələn iki səsdən - İnkir-Ninkirdən də bəhs edir. Şiə inancına uyğun olaraq, hz. Əli dada yetişir və aşığın əvəzinə suallara cavab verir. Vücudnamədə hz. Əli ilə yanaşı, digər imamların - Həsən, Hüseyn, Zeynəlabdin, Bağır, Cəfər və Kazim, Rza, Təqi, Nəqi, Əsgərinin də adları çəkilir və sonuncu imam Mehdi "xətm-i Ə'azim" şəklində yad olunur. "Millətim Xəlildir, məzhəbim Cə'fər", – deyən aşıq tərcümeyi-halının dini məqamları haqqında dəqiq məlumat verir. Möhürbənddə isə Qasımın adı çəkilir və onu cənnətə aparması təsvir olunur:

*Çəhardəh mə'sumu çağır bigüman,*
*Söylədiyin başa gələr, Tilim xan!*
*Apardı behiştə Qasim ol cinan,*
*Bir kərəmi bipayanə yetişdim.*

Tilim xanın nəslindən[162] (dördüncü nəvəsi) olan Mahmud Türkmanın vücudnaməsi 73 bənddən ibarət gəraylı qəlibindən istifadə ilə qələmə alınmışdır. Bu şeir birinci aşığın güclü təsiri altında yazılmışdır. Mahmud Türkman babasının vücudnaməsinə əlavələr edərək, yeni variantda işləmişdir. Fikrimizi təsdiq üçün müəyyən oxşar və fərqli cəhətləri nəzərə çatdırmaq istərdik. Mahmud Türkman vücudnaməsində bəxt ulduzunun yar olmasını, yəni müsəlmanların səfində olmasını diləyir və xüsusilə vurğulayır. Daha sonra dörd ünsürdən xəlq olunduğunu qeyd edən aşıq eyni zamanda şiəliyinin də öncədən müəyyənləşdiyi qənaətindədir:

*Xilqət oldum dörd ünsürdən,*
*Narü baddan, bəhrü bərdən,*
*Şiyə oldum əzəllərdən,*
*Düşdüm caddey-imanə.*

Gəraylının sonrakı bəndləri Tilim xanın iqrar etmə ilə bağlı misraları ilə uyğunluq təşkil edir:

*Əzəl başdan zərrə oldum,*
*Sur sazını mənzil qıldım,*
*O yerdə həbs olub qaldım,*
*Bir müddəti-mədidanə.*

*Çox qərnələr geçdi ondan,*
*Bir Xatab endi yəzdandan,*
*Varindir heç xəbər məndən*
*Kiməy, heç agəhəy ya nə?*

*Ərz eylədim xudavəndə:*
*Sən Allaha mən də bəndə!*

[162] Tilim xanın oğlu Qulamhüseyn, onun oğlu Kərim, onun övladı Muradxan, onun

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Oldu cari ləfzim ondə,*
*Cavab verdim qayibanə.*

Aşığa görə, bu iqrardan çox müddət keçdikdən sonra Məhəmməd Peyğəmbər dünyaya gəlir. Daha sonra isə aşıq öncə atasında, sonra anasında vücud tapdığını və embriounun ana bətnində inkişafını babasının şerində olduğu kimi xarakterizə edir. Nümunə üçün aşağıdakı bəndi təqdim edirik:

*Dörd ay, on gün geçdi ondan,*
*Ruhu qalıb qıldı yəzdan,*
*Üç yüz şəstü şeş damardan,*
*Dörd yüz qırx dörd üstüxanə.*

Tilim xanın vücudnaməsində olduğu kimi, burada da 366 damar və 444 üstüxanın (sümük) formalaşmasından bəhs olunur. Bu iki şeir arasında diqqəti cəlb edən cəhətlərdən biri nəvənin dilinin ərəb-fars söz və tərkibləri ilə zəngin olmasıdır. Tilim xanın qoşmasında olduğu kimi, bu gəraylıda da bir mələk gələrək ana bətnində iqrar etdirir. Yuxarıda qeyd etdiyimiz hər iki iqrarın bir şeir daxilində verilməsi Mahmud Türkman yaradıcılığında babasından gələn ənənənin davamı kimi səslənməkdədir:

*Bir mələki-digər gəldi,*
*Danışdırıb, iqrar aldı,*
*Yol göstərib, yola saldı,*
*Rəvan oldum xakdanə.*

Beləliklə, qeyb aləmindən ana bətninə, oradan da bu dünyaya gələn ruh bu dünyada 120 il ömür sürür. Göründüyü kimi, yaşlar arasında da eynilik vardır. Hətta Tilim xanın vücudnaməsində yaşlarla müəyyən dini motiv və elementlərin əlaqələndirilməsinə də Mahmud Türkmanın da gəraylısında təsadüf edirik:

*On yaşımda şəhbaz oldum,*
*On birdə üz gərdin*[163] *sildim,*
*On ikidə müştaq oldum*
*Mən on iki imamanə.*

Vücudnamələr arasındakı bənzərlik qocalıq yaşlarının təsvirində də özünü göstərir: 70 yaşda dişlər tökülür, 80 yaşda dərddən bel əyilir, 90 yaşda düşkünləşib bir tərəfdə qalır. Ölüm, meyidin yuyulması səhnəsi, ağlaşma mərasiminin təsviri, tabuta qoyularaq ölülər karvanına qoşulma, "şəhri-xamuşana" gətirilmə və qəbirdəki sorğu-sual, hz. Əlinin imdada yetişib sorğu-suala özü cavab verməsi də üst-üstə düşən məqamlar kimi diqqəti cəlb edir:

*Hər nə Nəkir ilən Münkər,*
*Sual etdi Əli yeksər-*
*Cavabını verdi əzbər,*
*O, dəlildir möminanə.*

Mahmud Türkman da Xəlilin millətindən, Cəfəri məzhəbindən olduğunu vurğulayır. Bundan başqa, Qəddad ilə Şəddadın adının çəkilməsi, Darüssəlama gəlmə hər iki şeirin oxşarlığını təmin edən cəhətlərdəndir. Ümumiyyətlə, hər iki vücudnamədə axirət dünyasının, qiyamətin müəyyən təsvirləri verilsə də, Mahmud Türkmanın gəraylısında daha geniş əks etdirilmə vardır. İsrafil sur çaldıqdan sonra qiyamət qopur və bütün insanlar dirilərək "əcülanə"yə üz qoyurlar. Aşıq Sirat körpüsünün də əlamətlərini təsvir edərək, hz. Əlinin yardımı ilə buradan keçdiyini qeyd edir:

*Tiğdən tiz-o incə qıldan,*
*Geçmək olmaz üç min ildən,*
*Hər düşənlər həman yoldan,*
*Qərq olar nari-neyranə.*

*Be hovlu qüvvəti-Rəhman,*
*Geçmək olar mənə asan,*

[163] toz

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Tutar dəstim şahı-mərdan,*
*Aparar ali divanə.*

Haqdan yaxşı ilə yamanın ayırd edilməsinə dair fərman gəldikdə də aşığın köməyinə Ərbə Əşər çatır, daha doğrusu, ona rəhbərlik edərək, Kövsər şərbətindən içirir və Rizvan bağında məskun edir:

*Gələr həqqiy ki fərmanı:*
*- Ayırın yaxşı-yamanı!*
*Səvabü barı- üsyanı*
*Çəkərlər hərdəm bir yanə.*

*O zəmanda Ərbə' Əşər,*
*Olarlar çün mənə rəhbər.*
*Verərlər şərbəti-kövsər,*
*Salarlar bağı-Rizvanə.*

“Quran”ın “Rəhman” surəsindən[164] çıxış edən şair cənnət bağında məskən salan aşığın ətrafında hurilər dolaşdığını bildirir:

*Qismət olar təxti- şövkət,*
*O bəladan ollam rahət,*
*Başa qoyub tacı- izzət,*
*Məhrəm ollam hüriyanə.*

*Türkman Tilim, et əndişə,*
*Özüy vurma dağə, daşə,*
*Söylədigi gələr başə,*
*Sözləri qalar nişanə.*

Qeyd etməliyik ki, vücudnamələr arasında bu şeir həcm etibarilə daha böyük olmaqla yanaşı, o dünyanın, cənnətin də geniş şəkildə təsvirinin verilməsi ilə digərlərindən seçilir.

Beləliklə, klassik dastanların kiçik modeli kimi diqqəti cəlb edən vücudnamələrdə insanın ömür yolu geniş şəkildə təsvir edilməsi ilə səciyyələnir və Güney Azərbaycandan toplanmış konkret nümunələr əsasında bunun bariz örnəyini gördük.

[164] “Orada (o cənnətlərin hamısında, dördündə də) xoş xasiyyətli, gözəl üzlü qadınl

Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

## KOROĞLU HIMASƏSI

***ƏKBƏR DÖVLƏTŞAHİ***

"qul deyərlər qulun boynun burarlar
qullar qabağında gedən tirəm mən
*"Türkistan'daki Oğuz el ulusu kısım kısım, boy, boy, aşiret aşiret, uruğ uruğ yaşıyorlardı… O kurultaya Balkan Dağı'nda yaşayan Oğuzlardan, Köpetdağı'nın eteğinde yaşayan Oğuzlardan, Oğuzların uzak ilinden, Tecen, Murgap, Amuderya, kıyısında yaşayan Oğuzlardan, Ural Dağı eteğinde yaşayan Oğuzlardan, Haral Denizi'nin kıyısında yaşayan Oğuzlardan, Sebiz'de, Çıkırlı'da yaşayan Oğuzlar'dan, Hankata'da, Hazarasıp'ta, Kât'de yaşayan Oğuzlardan, Hazar Denizi'nin kıyısında yaşayan Oğuzlar'dan, kısacası İçoğuz'dan, Dışoğuz'dan geldiler…"*

*"Gorkut Ata" Türkmen Halk Destanın'dan (Nurmemmet 2001:71)*

*"Oğuz'un veziri Uluğ Türk bir gün rüyasında altın yay ve üç gümüş ok gördü. Altın yay gün doğusundan gün batımına kadar uzanıyordu. Gümüş oklar ise kuzeye doğru gidiyordu. Gümüş oklar ise kuzeye doğru gidiyordu. Uluğ kalkıp rüyasını Oğuz'a söyledi. Oğuz da oğulları Gün, Ay ve Yıldız'ı gün doğusuna, Gök, Dağ ve Deniz'i de gün batısına doğru gönderdi. Gün doğusuna gidenler bir altın yay, gün batısına gidenler üç gümüş ok buldular… Bir gün kurultayı toplayıp şunları söyledi: "Artık çok yaşlandım. Kaç savaşlar gördüm, düşmanları ağlattım, dostlarımı güldürdüm. Tanrıya olan borcumu eda ettim, yurdumu size bırakıyorum."*

*Oğuz Kağan Uygur Destanı"(Nurmemmet 2001:71)*

Azerbaycanlı yazar Mevlüt Süleymanlı'nın Göç romanı da simgesel anlamda Göç destanı ile ilintilidir. Romanın başkişisi İmir'in gördüğü rüyaların gerçekleşmesi üzerine kurgulanan anlatıda Karakellelerin asıl vatanlarından kan davası nedeniyle göç etmeleri ve birkaç nesil sonra anayurtlarına geri dönme/ göç etmeleri anlatılır. Uygurların Göç destanında kuruyan nehirler ve suyu tükenen göller ile verimsiz hale gelen topraklardan insanlar kıtlık, susuzluk nedeniyle vatanından ayrılmak zorunda kalır. Göç romanında ise kan davası

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

etmek zorunda kalan insanlar vardır. Bu iki durumda arketipsel anlamda ayrılma aşamasının gerçekleşmesi maceraya çağrı anlamını taşır.

Yine Türkmen yazar Annaguli Nurmemmet'in Oğuz Yurdu romanının devamı olarak kaleme aldığı Büyük Göç romanı da Göç destanından izler taşır. Roman ile destan arasında konular birebir bağlantılı olmasa da göç olgusu maceraya çağrı aşamasının başlangıcı olarak ortaktır. Romanda başkişi Sultan Sancar Tuti Han ile konuşurken "Kılıçla değil göçle yurt edinilsin" (Nurmemmet 2002:24) sözünün ardından yoldan gelip geçen dervişlerin söyledikleri aklına gelir:

*"Şu yoldan dervişler geçerken her defasında bu olay tekrarlanıyor. Cümle cihan ezgiyle doluyormuş gibi oluyor. Bizimkiler de onlar geçerken bunu hayırlı bir işaret sayarlar, "Hayır kapına gelir" diye göç etmeye başlarlar. Onların kulaklarında sanki, "Göç! Göç! Göç!.." diye bir ses yankılanır."* (Nurmemmet 2002:25)

İşte bu "göç, göç, göç!" sesi kahramanı yolculuğa çağıran ve onun maceraya atılmasını sağlayan dış güç olarak dikkati çeker.

Cengiz Aytmatov'un Beyaz Gemi adlı anlatısında da efsanevi unsurların ve destana ait bazı özelliklerin metin içerisine yerleştirildiği görülür. Anlatının temeline yerleştirilen Maral Ana Efsanesi, Kırgızların yaratılış/türeyişi ile ilgili milli destanları Manas'a göndermede bulunur. Yine aynı anlatıda Mümin Dede torununa "Issık-Kul'da yaşayan herkes bu masalı bilmek zorundadır. Bilmemek günahtır." diyerek hem Manas destanının hem de Maral Ana efsanesinin önemini vurgular.

Anlatı kahramanları kendilik değerlerine ulaşmadan önce birer eksik özen konumundadır. Bu eksikliği tümlemek için maceraya atılmak zorundadırlar. Çağrıya kulak vererek atıldıkları macera onları sınavlar yolundaki erginlenme aşamasına yönlendirir.

**2. Erginlenme Aşaması/ Aşama Arketipi**

Mono-mitin ikinci aşaması, Aşama ya da Erginlenme adını taşır. Bu aşamada kahraman, yiğitlik ve cesaret göstererek amacına ulaşmak ister. Erginlenme aşaması aynı zamanda insanın kendi ruhundaki "düşman gölge" arketipini de yenmesiyle gerçekleşecektir. Erginlenme sırasında kahramanın cesaretinin yanı sıra zekası da ön plana çıkar. Erginlenme kahramanın hem fiziksel hem de ruhsal anlamda bir dizi zorlu yolculuktan geçerek kendilik değerlerini bulduğu sınavlar yoludur. Campbell bu aşama için; "kahraman bir dizi sınavdan geçmek üzere tuhaf biçimde akışkan, belirsiz biçimlerin düş dünyasına ilerler." (Campbell 2010: 15) demektedir. Kahramanın kendini gerçekleştirmesi ve bireyleşim sürecini tamamlaması için karşısına çıkan engeller, iç ve dış hayatın güçleri tarafından oluşturulan arketipsel sembollerdir.

Gerek destanlarda gerekse modern anlatılarda genellikle kahramanın içsel yolculuğu önemli bir yer tutar. Zira içsel yolculuk ve fiziksel zorluklar bireyi olgunlaşmaya/ erginlenmeye doğru yöneltir.

Annaguli Nurmmemmet'in Oğuz Yurdu romanında sınavlar yolunda ilerleyen kahramanlar Selçuk Ağa ile Çağrı ve Tuğrul Beylerdir. Selçuk Ağa, altın yayın alametiyle/işaretiyle Takkale'ye göç hazırlıklarına girişerek erginlenme yolunda adımlar atar. Selçuk Ağa, Tanrı Dağlarıyla yeni Gök Tanrı inancı ile Cent şehri yani İslamiyet dini arasındaki kararsızlığı sınavlar yolundaki engelerdir. Bu engelleri aşma yolunda ona yardımcı olan kişi ise Aksakal'dır. Anlatıdaki Aksakal aslında Türk anlatı geleneği içerisinde varolan Alp-Bilge tipinin bir yansımasıdır. Jung toplumsal bilinçdışının kodları olarak adlandırdığı arketiplerde Yüce Birey arketipinden söz eder. Bu arketip aslında Dede Korkut ile başlayan ve toplumun yol göstericisi olan "aksaklı bilge" geleneğinin devam ettiren bir kültürün tipleşmiş halidir. *"Birey, ait olduğu toplumun değerler dizgesini, yüce-birey arketipi aracılığı ile edinmeye çalışır. Zira Jung, kişisel bilinçdışının temelinde, insan ırkının geçmiş deneyimlerinin "depoladığı" ve sezgi, algı, idrak gibi doğuştan gelen bir "kollektif bilinçdışı" (collective unconscious) nosyonunu gündeme getirir."* (Korkmaz 2005) Oğuz Yurdu anlatısında da Aksakal, Selçuk Ağa'nın yol göstericisi olarak bu rolü üstlenir. Aslında anlatının tümünde bu rolü üstlenene

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

başlangıcında altın yay ve gümüş okları farklı noktalara fırlatarak torunlarını hem sınavlar yoluna gönderir hem de onların müşkül durumlarında geçmişteki tecrübelerinin aktarımıyla yol gösterici olur. Yine Nurmemmet'in Büyük Göç romanında da Aksakallı ihtiyarlar yüce-birey arketipinin sembolü olarak karşımıza çıkarlar.

Sınavlar yolu bireyin hem içsel hem de fiziksel anlamda bir yürüyüşü olarak nitelendirilebilir. Maceraya çağrılan birey, içinde bulunduğu sınavı başarılı bir şekilde geçmek isterken aslında kendi benliğiyle de yüzleşmektedir. Bu yüzleşme, onun sadece verilen bir görevi sıradan bir başarı ile değil ruhsal bir olgunlaşma kazanarak tamamlanmasını sağlar. Oğuz Yurdu romanında Selçuk Ağa'nın yeni yurt arayışı ve İslamiyet'i kabulü; Büyük Göç romanında Sultan Sancar'ın esaret yaşadığı günler onların erginlenme yolundaki sınavlarıdır.

Aytmatov'un Beyaz Gemi anlatısındaki Maral Ana Efsanesi ve Mümin Dede ile torununun varoluş mücadeleleri bu durumu örneklendirir. Aytmatov anlatılarında dikkati çeken asıl nokta ise kendilik değerlerinden uzaklaştırılan/ koparılan "mankurtlaşmış /ötekileşmiş" insanların ve toplumların "kültürel bellek hafızasında yer alan kültürel kodlarla varoluş dizgesini oluşturma ve kurma çabalarının sembolik boyutta aktarımıdır. Bu aktarımı sağlayacak olan halkın milli hafızasına işlemiş olan destanlar, masallar, efsaneler, türküler vd.ürünler bit toplumu ayakta tutan temel değerlerdir. *"Efsaneler ve mitlerin, toplumların pedagojik eğitimini içeren kültürel kazanımlar olduğunu söyleyebiliriz. Toplumların sağlıklı gelişmeleri, geleceğe güvenle ve dünyayı tehdit etmeden açılmaları bu pedagojik eğitimin niteliği ile doğrudan ilişkilidir."* (Korkmaz 2004: 80) Aytmatov'un Gün Uzar Yüzyıl Olur anlatısındaki Juan Juanlar ile Nayman Ana Efsanesi; Sultanmurat'taki kahramanların zorlu mücadelerinin tıpkı Manas destanından izler taşıması; Yıldırım Sesli Manasçı'da Manas Destanını anlatma geleneğinin sürdürülmesi, Beyaz Gemi'de Maral Ana Efsanesi ve Manas Destanı'nın anlatıların içerisine yerleştirilmesi bu kültürel kazanımların yaşatılması içindir.

Geleneksel anlatılar ve özellikle de destanlar içerisindeki sınavlar yolunda karşılaşılan güçlükler genellikle doğaüstü olaylar ve doğal felaketlerden kaynaklanır. Bu durumda ise gücünü halkın varoluş amacından alan bir kahramanın ortaya çıkarak yol gösterici olması bilgi, beceri, kuvvet ve erk ile yaşanılan sıkıntıdan halkını kurtarması beklenir. Dünya üzerindeki bütün anlatıların temelinde yatan nosyon da zaten budur. Bireyi yaşadığı toplumun özü ve kendilik değerleri kuran bu nosyon "kahramanın sonsuz yolculuğu"ndan hareketle dünya üzerinde yeniden yaşamaya sevk eder. Cengiz Aytmatov'un, Annaguli Nurmemmet'in, Mevlüt Süleymanlı'nın ve efsane, mit, destan gibi anlatıları modern anlatılarla toplumlara sunan diğer yazarların eserlerinde asıl amaç toplumun varouş dizgesini sağlayan kodları toplumların bilinçdışını oluşturan arketipler aracılığıyla bireylere sunmaktır.

**3- Dönüş Aşaması**

Mitolojik çevrimin son aşaması dönüştür. Kahramanın yukarıda adı geçen üç aşamalı yolda bireyleşim sürecini tamamlayarak geri dönmesi arketipsel sembolizm bakımından ruhi olgunluğu yakalamış olmasını, sınavlar yolunu başarıyla tamamlamış olduğunu gösterir. Maceraya çağrılan ve sınavlar yolunda ilerleyerek erginlenme aşamasını tamamlayan kahraman "ödül olarak kazandıkları" ile birlikte amacına ulaşır. Oğuz Yurdu romanında kahraman, kendine yeni bir yurt edinmesi, Büyük Göç romanında Sultan Sancar'ın Oğuzlar elinde hapis iken yaptığı hataları görmesi ve bunu gelecek nesillere aktarması, Aytmatov'un Gün Uzar Yüzyıl Olur eserinde Nayman Ana'nın oğlu Jolaman'ı özüne döndürmesi olumlu örneklendirirler. Bununla birlikte Aytmatov'un Beyaz Gemi anlatısında Maral Ana efsanesindeki çocuğun, dedesinin Maral Ana'yı öldürmesi sonucu intihar etmesi ise erginlenmenin tamamlanamadan dönüş aşamasının gerçekleştiği anlamını taşır.

**Çıkarım**

Anlatılar, genel anlamda toplumların kültürel hafızalarını ruhlarında barındıran sembolik söylencelerdir. Bu söylenceler ilkellikten modernliğe değin tüm insanlığın ortak ve farklı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yönlerini içinde barındırarak birlikte yaşama gereklerini nesilden nesile aktarma rolünü üstlenirler. Destandan doğarak romana ulaşan Türk anlatı geleneği Jung'un toplumsal bilinçdışı olarak adlandırdığı insanlığın ortak kültürel kodlarının çözümlenmesi ve Campbell'in kahramanlık mitosu olarak adlandırdığı kozmogonik çevrim yöntemleri ile derinlemesine ele alındığında simgesel ve metaforik boyutta çok katmanlı eserlerle karşılaşılacak ve bu eserlerin gerçek değerleri daha iyi anlaşılacaktır.

**KAYNAKLAR**

CAMPBELL, Joseph (2010), *Kahramanın Sonsuz Yolculuğu*, (çev.: Sabri Gürses), Kabalcı Yayınevi, İstanbul

GÖKERİ A.İ. (1979), *Arketiplere Dayanan Yeni Bir İnceleme Yönteminin Tanıtılarak İngiliz ve Türk Edebiyatında Bazı Romans ve Epik Niteliğinde Yapıtlara Uygulanması,* Ankara Üniversitesi Dil Tarih ve Coğrafya Fakültesi Yayınlanmamış Doktora Tezi, Ankara

JUNG, Carl Gustav (2001*), İnsan Ruhuna Yöneliş*, (Çev.: Engin Büyükinal), Say Yayınları, İstanbul

KAPLAN, Mehmet, (1995), *Türk Edebiyatı Üzerine Araştırmalar I*, Dergah Yay., İstanbul

KORKMAZ, Ramazan (2004), *Aytmatov Anlatılarında Ötekileşme Sorunu ve Dönüş İzlekleri,* Grafiker Yay., Ankara

KORKMAZ, Ramazan, (2002) *Oğuz Yurdu Romanında Toplumsal Bilinçaltının Görüntü Düzeyleri*", I. Uluslararası Avrasya Yıldızları Sempozyumu (28 Nisan 2002 Ankara), (Düzenleyen; Uluslararası Ahmet Yesevi Üniversitesi- TÜRKSAV ve TDKM), Ankara, Bilig, Güz 2003, S.27, s.71-83

KORKMAZ, Ramazan, (2005) *Dede Korkut Anlatılarında Alp-Bilge Tipi*, Türk Dil ve Kültürünün En Eski Dönemleri Uluslar arası Bilgi Şöleni, 22-23 Mayıs 2005, Girne Amerikan Üniversitesi, Girne/KKTC

KÖPRÜLÜ, M. Fuad, *Türk Edebiyatı Tarihi*, Ötüken Yay., İst., 1981

NURMEMMET, Annaguli, (2001), *Oğuz Yurdu,* Devran Matbaacılık, Ankara

NURMEMMET, Annaguli, (2002), *Büyük Göç*, Devran Matbaacılık, Ankara

SÜLEYMANLI, Mevlüt, (2000), Göç, Ötüken, Yay., İstanbul

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# TÜRK VƏ SKANDINAV EPOSLARINDA DÜNYANIN ÜÇLÜ MODELINI EHTIVA EDƏN KOSMOQONIK ÜNSÜRLƏR

***FƏRƏH CƏLIL***

Dünyanın üçlü modelini özündə ehtiva edən dünya ağacı bəzi hallarda dirək və ya nərdivan, dağ və ya çadır kimi də təsvir olunurdu.

Məsələn, uyğur dastanı “Oğuznamə”də Oğuzun oğlanları üçün dikdiyi dirəklərdən söz açılır. Yaxud “Maaday Qara dastanında” Həyat ağacı funksiyasını daşıyan dirəkdən bəhs olunur. Dastanın araşdırmaçılarından olan türk folklorşünas alimlərindən S. Bekki “Maaday Qara” dastanında yer alan dünya dirəyini belə təsvir edir: “Maaday Qara” dastanının girişində Həyat ağacının qarşılıqlısı kimi “At Çakı” doqquz tərəfli, kənarları gümüşdən təsvir olunur. Doxsan tərəfli möhtəşəm çadırın qarşısında olan “At çakı” hörmətli qonaqların qarşılandığı yerdir. Buraya gələn qəhrəman ağacın yanında atından yenər, qonaq olacağı şəxsin yurduna doğru gedər. Dastandakı Həyat ağacı kimi Ak Çakı da ilahi mənşəlidir. Dünyanın əsasını oluşdurduğuna inanılan bu qeyri-adı təsisin yuxarı hissəsi Ulu Tanrı Üç-Kurbustana doğru uzanır və ona at çakı olur Alt ucu aşağı dünyadadır və Aybıstan ona atını bağlayır. Bu qeyri adı təsisin orta hissəsi qəhrəmanın payına düşür və onun At Çakısı olur (2, s.284).

Dastanda Qara-Qula kağan, Maaday- Qaranın ölkəsini yağmaladıqdan sonra At Çakıyı yerindən çıxarmaq istəyir. Altmış bahadır onun alt ucundan tutaraq yerinə bərkidir. O, üst ucunu aşağı əymək istəyərkən doxsan bahadır onu təkrar göyə dartır. Dastanda həyat ağacı motivi yalnız bir yerdə öz əksini tapsa da At Çakı hər yurdun önündə görtərilir. Yurdda baş verən hadisələr bilavasitə Ak Çakıda da öz əksini tapır. Nümunə olaraq qeyd etmək olar ki, Qara-Qula xaqan öləndə atı da Ak Çakının dibində ölür.

Skandinav folklorunda isə tanrılarla yer arasında belə vasitəçi elementlərdən biri də göy qurşağıdır. “Kiçik Edda” əsərinin “Qulvinin kahinliyi” bölümündə Qanqleri Qulviye belə bir sual verir: “O nədir ki, yerdən göyə aparır?” Müdrik bu suala gülüşlə cavab verdi: ”Məgər sənə bəlli deyil ki, allahlar yerdən göyə qədər körpü çəkiblər? Bu körpü Biverst adlanır. Sən yəqin ki, onu görmüsən. Çox güman ki, sən onu göy qurşağı adlandırırsan. O üç rənglidir, çox möhkəm hazırlanıb. Daha hiyləgərcəsinə və mahircəsinə hazırlanması mümkün deyil. Lakin bu körpü nə qədər möhkəm olsa da Muspell oğullaraı bu körpünün üzərindən

keçəndə o qırılacaq” (6 s.20) Bu söylənilənlərdən aydın olur ki, istər ağac istərsə də körpü özlüyündə dünyanın üçlü modelini ehtiva etməklə yanaşı eyni zamanda dünyanın mərkəzi, digər dünyalarla əlaqə saxlamaq üçün körpü rolunu oynayırdı.

Cəlal Bəydilli “Türk mifoloji obrazlar sistemi: struktur və funksiya” əsərinin “Türk xalq demonologiyasının obrazlar aləmi” bölümündə dünyanın mərkəzi ilə bağlı fikrini belə ifadə edirdi: “ Arxaik və ənənəvi cəmiyyətlərdə ətraf aləm bir mikrokosm kimi düşünülmüşdür. Bu mikrokosmun hər qarışında sakral enerji mistik güc mövcuddur. Ənənəvi cəmiyyət üçün onun məskunlaşdığı yer sakral enerjinin ən çox toplanıldığı yerdir. Dünyanın orta göbəyi bilinən bu yeri əhatə eləyən dairə içərisində nə varsa nizamlı dünyanın timsalıdır. Buna görə də yaradılışın güc qaynağı dünyanın tən ortasındadır. Həmin yerdən-sakral enerjinin toplanıldığı o dairədən qırağa çıxdıqca və oradan da gedərək uzaqlaşdıqca qalan bütün yerlər özgə məkanı kimi qavranılır ( 1, s.206). Məsələn, “Maaday Qara” dastanında yerlə göyün birləşdiyi yerdə Ay Toyonun məskunlaşdığı yer də Altay adlandırılır. Lakin bu Altay Maaday Qaranın yaxud Kögütey Mergenin yaşadığı sosiumda mövcud olan Altay deyil. Bu Altay sosiumdan kənarda tanrılara məxsus Altaydır. Mərkəzdən bu yerlə əlaqə saxlamaq üçün isə daha dəqiq desək, bu yerləri bir- birinə bağlayan dirək mövcuddur. İstər səmavi tanrıların məskəninə, istərsə də yeraltı dünyaya yetişmək üçün bəzi əngəlləri aşmaq lazımdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Maaday Qara" dastanından aydın olur ki, Erlik xanın məskəninə çatmaq üçün şamanların yeddi əngəli aşması lazımdır. Dastanında isə bu əngəllər sürüdən qaçmış dördqulaqlı, dörd hörüklü bir boz ayğır üçün Kara Kula xaqanın hazırladığı əngəllərə bərabərdir.

Dastanda yerlə göyün birləşdiyi yerdə gah birləşən gah da ayrılan **dağdan** söz açılır. Bu dağ düşmən üzərinə hücum edən qəhrəmanın qarşısına əngəl kimi "Buudak" çıxır. Ay qanadlı quşlar buradan uçaraq keçə bilməz, sürü kimi qırılaraq "oboo" kimi üst-üstə qalanırlar (2, s.273). Türk mifoloji təfəkküründə dağ dünyanın üçlü modelini özündə ehtiva etməklə yanaşı dünyanın mərkəzi funksiyasını da yerinə yetirirdi. "Maaday Qara" dastanında dünyanın mərkəzi və başqa dünyaya keçid funksiyasını yerinə yetirən dağ belə təqdim olunur:

1325
Yer üzündə yeddi əngəl var,
O əngəllərdə səni qısnayacağam
Altayda altı əngəl var,
O əngəllərdə səni tutacağam
dedi.
Dəmir dağın ətəyində

Dağ yalnız dünyanın mərkəzi dünyanın üçlü modelini özündə ehtiva edən kosmoqonik element kimi çıxış etmirdi. Dağ eyni zamanda totemizm funksiyalarına sahib idi. Bununla bağlı "Maaday Qara" dastanında deyilir:

37
Ala dağa atam deyən
376
Maaday Qara özü isə dağ ruhundan yaradılmışdı.
Doğulanda sol əlində
Döqquz künclü qara bir daş var idi.
775-758
Dünyaya gələrkən sağ əlində
Yeddi künclü boz daş var idi
38-31
Qış mövsümünün bu zamanında
Qırağı düşməz bəy tayğalı,
Doqquz zirvəli Çeret-Çemet tayğalı,
Doqquz zirvəli, Cemet tayğalı
36-39
Ayın altında yay kimi uzanan
Ala dağa atam deyən
Vadini aydınladan, günəşin altında uzanan
Ala dağa atam deyən
Vadini aydınladan Günəşin altında uzanan
Boz dağa anam deyən
485
Çer Cumardın ətəyində
Bocitinin boz yatağından
1856-1857
Basıb yuxarı çıxdı
1874
Koçdunun qara yamacından
2265
Belə davransan Sümer-Ulom dağını belə yerindən oynadarsan

Dağla yanaşı dünya ilanı da mifoloji təfəkkürdə dünyanın mərkəzi rolunu oynayırdı. Öncəliklə qeyd etməliyik ki, ilan mifoloji təfəkkürdə bir çox funksiy

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ilə bağlı çıxış edirdi. B. A. Uspenski, "Slavyan qədimliyi sahəsində filoloji araşdırmalar" əsərində ilanla bağlı yazırdı ki, İlan- Volosun dünya yumurtası ilə, yaxud kosmik yaradılışla əlaqəsi vardır İkinci bir tərəfdən ilan dünyanın mərkəzini müəyyən edir. Məsələn, "Maaday Qara" dastanında Kara- Kula kağan atını belə təhdid edir.

1330
Pambıq bəyazı çölün tam ortasında,
Demir qovağın altında
Bir-birinə tay iki zəhərli ilana
Seni yedirməsəm, qanını içməsəm"-dedi

Bildiyimiz kimi dağ dünyanın mərkəzlərindən biri kimi müəyyənləşdirilirdi. Çölün ortası da dünyanın mərkəzi kimi dəyərləndirilir. Məhz iki zəhərli ilan burada yəni mərkəzdə bir sözlə dünyanın mərkəzində təsvir olunur.

İlanın dünyanın mərkəzini bildirməsi fikri M. Eliadenin əsərlərində də öz əksini tapmışdı. Müəllif "Kosmos və tarix" əsərinin "Kosmoqoniyanın təkrarlanması" bölümündə dünya ilanı ilə bağlı fikirlərini belə ifadə edirdi: "Hindistanda tək-vahid daşı yerləşdirmək üçün astroloq özülü müəyyənləşdirir. Özül ilanın üzərinə düşməlidir. Çünki dünya bu ilanın üzərində dayanır. Daş ustası ağacdan taxta yonur və kokos fındığının köməyi ilə dəqiq göstərilən yerə vurur. Bunun mənası ilanın başını bərkitmək məqsədini daşıyır. Daş taxta bərkidilən yerə qoyulur. Bu isə dünyanın dəqiq mərkəzini göstərir. Bu akt kosmoqonik aktın təkrarlanmasını, bir sözlə Somanın yaxud İndranın ilkin jestini ifadə edir. İldirim onun başını qoparmışdı. İlan xaos, aydın olmayan nizamsızlığı ifadə edir. İndra daim, yatan, dərin yuxuya getmiş, oyanmayan, açıq vəziyyətdə Vritranı qarşılayır. Onu ildırımla vurmaq və başını üzmək yaradılış aktına bərabər idi. Bu isə mücərrədlikdən aydınlığa, formasızlıqdan formaya keçid idi" ( 7, s.44).

Bu təhlillərə nəzər saldıqda aydın olur ki, istər ağac istər, dirək, istər dağ, istərsə də ilan ayrı –ayrılıqda müxtəlif funksiyaları yerinə yetirsələr də ümumilikdə dünya modelinin göstəricisi idilər. Bu nəsnələr eyni zamanda dünyanın mərkəzi rolunu oynayırdılar. Hər iki xalqın dünyanın modeli və teoqoniya anlayışlarını qarşılaşdırdığımız zaman isə gəldiyimiz nəticə ondan ibarətdir ki, onlar arasındakı tipoloji uyğunluq ibtidai inanclardan qaynaqlanan sosial-psixoloji haldır.

**Ədəbiyyat**

1.Bəydilli C. (Məmmədov). Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. Bakı, Mütərcim, 2007, 271 s.
2.Bekki S. Maaday Kara Destanı. Manas yayıncılık, 2007, 560 s.
3.Kitabi-Dədə Qorqud. Bakı, Yazıçı, 1988, 266 s.
4.Oğuznamələr Tərtibçilər: Vəliyev G. Uğurlu F. Bakı Universiteti Nəşriyyatı, 1993, 90 s.
5.Беовульф. Старшая Эдда. Песнь о Нибелунгах. Москва,Худоъественная Литература,1975,750 с.
6.Младшая Эдда. Л., Изд. Наука, 1970, 139 с.
7.Элиаде М. Космос и история. М., Прогресс, 1987, 313 с.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# "KOROĞLU" DASTANININ BƏZİ MƏTNLƏRİNDƏ TƏSƏVVÜF ELEMENTLƏRİ

***FƏXRƏDDİN BAXŞƏLİYEV***

Azərbaycan şifahi xalq yaradıcılığının ən möhtəşəm incilərindən biri də məşhur «**Koroğlu**» dastanıdır. «**Koroğlu**»nun təkcə Azərbaycanda yox, bütün Türk dünyasında, Yaxın və Orta Şərqdə ən sevilən sənət abidələrindən olduğu danılmaz faktdır. Bu dastan, tarixi kimliyi hələ də dəqiq bilinməyən bir xalq qəhrəmanı haqqındadır. Koroğlunun obraz olaraq əfsanəvi-mifik, yoxsa real tarixi şəxsiyyət kimi qəbul olunması məsələsi uzun zamandır ki, müxtəlif ölkələrdə, çoxlu alimlər tərəfindən mübahisə predmeti olmuşdur. Onun 17-ci əsrdə Cənubi Azərbaycan ərazisində yayılmış məşhur Cəlalilər üsyanının başçısı olaraq görənlər də vardır. Lakin, bir şifahi xalq yaradıcılığı nümunəsi olaraq, «**Koroğlu**» dastanında elə süjet və hadisələr mövcuddur ki, onları nəinki 17-ci əsrə, heç ona yaxın yüzilliklərə belə şamil etmək mümkün deyil. «**Koroğlu**» nun real tarixi şəxsiyyət olması barədəki fikirlər bizim fikrimizcə, konkret elmi dəlillərə söykənmir. Sadəcə, publisistik xarakter daşıyan həmin fikirlər bədii tərtibat və ədəbi tənqiddən o qədər də seçilmir. Məsələ burasındadır ki, tarix elminin nəzəri metodlarıyla əfsanə, mif, dastan süjetlərini təhlil etməyin özü də müşkül məsələdir. Tarix elmi mütləq şəkildə konkretlik tələb edir. Şifahi xalq yaradıcılığı janrı isə bədii olmaqla bərabər, həm də ağız ədəbiyyatı nümunəsi olduğu üçün təbii olaraq, deformasıya və təhriflərə uğramışdır. Bu isə, dastan qəhrəmanlarına, əfsanəvi süjetlərə tarixi mənbə kimi yanaşmağı çətinləşdirir. Ümumiyyətlə, biz bu məsələnin araşdırılmasında tarixiliyin o qədər də əhəmiyyətli olduğunu zənn etmirik. Hər bir dastan süjeti, mif qəhrəmanı mütləq bir tarixi gerçəkliyə, real hadisəyə söykənmək məcburiyyətində deyil. Bu yaradıcılıq nümunələri konkret şəxslərin bədii təxəyyülü də ola bilər. Lakin, bir məsələyə də diqqəti yönəltmək istərdik ki, nə qədər tarixilikdən, zaman və məkan etibarilə reallıqdan uzaq olsalar da əsrlərcə yaddaşlarda yaşayan, xalqın sevimlisinə çevrilən hətta mifik və əfsanəvi qəhrəmanlar belə özündə çox güclü gerçəklik faktoru yaşadır. Bu fikrin müxtəlif tərəfləri mövcuddur. Əsas etibarilə iki məsələ üzərində dayanmaq istərdik. Bunlardan biri yuxarıda da qeyd etdiyimiz kimi, əsas etibarilə dastan qəhrəmanlarının hansısa tarixi şəxsiyyətin bədii obrazı olması faktorudur. Tədqiqatamıza uyğun şərh edəcəyimiz «**Koroğlu**» dastanında bu məsələ bir qədər mübahisəlidir. Çünki, sözümüzün əvvəlində də vurğuladığımız kimi, bu dastandakı qəhrəmanların varlığı tarixi reallığa o qədər də uyğun gəlmir. Bu fikir, yəni, dastan qəhrəmanları ətrafındakı gerçəklik faktoru əsasən məhəbbət dastanları kimi tanıdığımız aşıq dastanlarına şamil edilə bilər. Əlbəttə, «**Koroğlu**» aşıq dastanıdır. Bizim vurğuladığımız mətləb məhəbbət dastanları qəhrəmanlarının əksəriyyətinin aşıq olmasıdır. Bunlara misal olaraq, Aşıq Qurbanini, Aşıq Abbas Tufarqanlını və başqalarını göstərmək olar.

Haqqında söhbət açdığmız dastan qəhrəmanları ətrafındakı gerçəklik faktoru məsələsinin ikinci tərəfi real tarixi şəxsiyyətlərin əfsanəvi, mifik prototipliyi məsələsidir. Bu məsələ də bizim fikrimizcə, kifayət qədər araşdırılmamış, elmi tədqiqatdan kənarda qalmış bir məsələdir. Bizim bu haqdakı düşüncələrimiz də əsas etibarilə ürfan və təsəvvüf prinsipləri ətrafında formalaşmış detalları əhatə edir. Məsələn, konkret olaraq Koroğlu obrazı, zənnimizcə, müəyyən tarixi, fəlsəfi paralellərə əsasən, Azərbaycan Səfəvilər Dövlətinin banisi Şah İsmayıl Xətainin xalq təxəyyülündəki yaşatma modeli və xalqın onun haqqındakı, belə demək mümkünsə, arzu və diləkləridir. Əlbəttə ki, bu fikir müəyyən qədər subyektivdir və qeyri-elmi mülahizə təsiri bağışlaya bilər. Həqiqətən də biz bu və buna bənzər fikirləri bir ehtimal olaraq ortaya atırıq. Lakin hər ehtimal özündə müəyyən mənada həqiqət gəzdirir və gələcəkdə elmi-nəzəri polemikaların yaranmasına səbəb olur. Biz də bu baxımdan öz düşüncələrimizi paylaşmağı vacib sayırıq.

Şah Xətainin çox mühüm milli atribut olan saz-aşıq sənəti ilə mənəvi-ruhi bağlılığı bu böyük arifin bir xalq insanı olduğunu şərtləndirən keyfiyyətlərdən biridir. Şah Xətai mübarək doğuluşunun müjdəsi öncədən verilən və ölümündən sonra da

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

atributları, dünyəvi şan və izzəti tarixin içərisində əriyib getməsinə rəğmən, xalqın demək olar ki, bütün təbəqələrinin yaddaşında öz varlığını sürdürən nadir şəxsiyyətlərdən biridir. Bu baxımdan onun xalq arasında gəzən əfsanəvi obrazı özündən sonra dastan, rəvayət, aşıq şeiri, musiqi və incəsənətin digər növlərində həyat vəsiqəsi qazanmışdır. Sonunculara misal olaraq, «Şahsevəni» saz havasını, «Şah Xətai» muğam şöbəsini (Azərbaycan muğamı olan «Bayatı-Qacar»ın tərkibində) xatırlatmaq yerinə düşərdi. Bütün bunlar onu göstərir ki, bu böyük şəxsiyyətin mənəvi irsi özünün klassik Şərq formatına, ənənəvi təsəvvüf modelinə baxmayaraq, sadə və geniş xalq kütləsinin sərvətinə çevrilmişdir. Əlbəttə, unutmaq olmaz ki, bu klassik formatla bərabər, Şah Xətainin özü də xüsusi səylə dərin ürfani mətləbləri, qəliz təsəvvüf məfkurəsini sadə xalqın dilində, incəsənətində ifadə etməyə çalışmış və bu sahədə tarixdə analoqu olmayan bir uğur əldə etmişdir. Beləliklə, Şah Xətai faktoru Azərbaycan-Türk milli düşüncə sisteminin aparıcı qollarından birinə sahib olmuşdur. Biz məhz bu düşüncə sistemindən çıxış edərək, Şah Xətainin xalq məfkurəsində daha başqa şəkillərdə yaşadıldığı fikrini ortaya atırıq.

**«Koroğlu»** dastanı və ondakı təsəvvüf elementləri barədə danışarkən, Şah Xətai mövzusu həm qəhrəmanlıq, həm milli-əxlaqi, həm də saz-aşıq faktoru ilə təzahür edən təsəvvüf dünyagörüşü baxımından diqqəti özünə çəkir. Yəni, bir qədər şəxsi təxəyyül məhsulu da olsa, söyləmək istərdik ki, Koroğlunun timsalında xalq Şah Xətaini özünə daha da yaxınlaşdıraraq, onun simasında arzu etdiklərini, görmək istəyib, görə bilmədiklərini yaratmışdır. Bir qədər qəribə də görünsə, adama elə gəlir ki, Çaldıran savaşında zahirən məğlub olan Şah İsmayıl Xətainin intiqamını xalq Koroğlunun timsalında Osmanlı paşalarından alır. Bu cür düşüncələrlə biz hansısa türkçülüyə, milli zəmindəki birliyə zərbə vurmuruq. Əksinə, Şah Xətai ilə, onun bədii-fəlsəfi obrazı ilə müqayisə olunan bir xalq qəhrəmanı daha milli, daha artıq türkçü olaraq şərtləndirilir. Çünki, Şah Xətai qurduğu milli dövlətlə, 14-15-ci əsrlərdə heç bir Türk arealında kimsənin ağlına gəlməyən dövlət dilinə çevirdiyi türkcəyə olan bağlılığı ilə təpədən-dırnağa qədər türkcüdür. Belə bir dövlətə, belə bir şaha malik olan xalq öz məfkurəsi ilə yaratdığı istər yazılı, istər şifahi ədəbi-bədii nümunələrdə onun milli ideologiyasını yaradan dahilərin yolunu ləyaqətlə davam etdirmişdir. Bu baxımdan Azərbaycan şifahi xalq yaradıcılığının incisi olan **«Koroğlu»** son dərəcə milli, eyni zamanda da bəşəridir.

Bu keyfiyyətləri göz önünə alaraq apardığımız paralellər bizim qənaətimizə görə, müəyyən qədər obyektiv və qəbul olunandır. Elə Koroğlunu Şah Xətaiyə bağlayan ən cəlbedici atributlardan biri də sazdır. Əlbəttə, sazın varlığı Azərbaycan şifahi xalq dastanlarında əvəzedilməz və yoxluğu mümkün olmayan bir məsələdir. Lakin sazın vasitəsilə bədii sujetlərin təzahür olunmasına rəğmən, Koroğlu həm də konkret olaraq aşıqdır, yəni, aşiqdir. Bu «aşiq»liyin məğzində nələrin yatdığı isə bizim ümumiyyətlə tədqiqatımızın baş mövzusudur. Artıq dəfələrlə bəyan etdiyimiz və izahına geniş yer verdiyimiz fikirlərə əsasən, Koroğlunun sazı onun «boş vaxtlarında əlinə aldığı», qılıncı yerə qoyandan sonra götürdüyü bir nəsnə deyil. Biz artıq «saz»deyərkən «aşıqlığı», sənətkarlığı deyil, «aşiqliyi» --- Haqq aşiqliyini düşünürük. Koroğlunun sazı xalqın beynində Şah Xətainin mürşidi-kamilliyinin, pirliyinin, mənəvi şahlığının davamıdır. Bu baxımdan, əslində fani olan, keçici olan Şah Xətainin də, Koroğlunun da zahiri qəhrəmanlığı, dünyəvi qüdrəti, polad qılıncı idi. Əgər belə olmasaydı, qılınc oynatmağı, pəhləvanlığı bir tərəfə atılaraq, Koroğlu dəlisi olmaq istəyən birisini sazla imtahana çəkməzdilər. Bu imtahan həmin «dəliliyə namizəd»in bir tərəfdən türkçülüyünün, digər tərəfdən isə ruhani təkamülün baş atributlarından sayılan saza və beləliklə də ruhani ustada olan məhəbbət və sədaqətinin imtahana çəkilməsidir. Əgər onun qəlbində bu məhəbbət, bu sədaqət yoxdursa, «ondan Koroğlu dəlisi olmaz». Bu cür şərtlənmələr **«Koroğlu»** dastanında, eləcə də şifahi xalq yaradıcılığının əksər janrlarında üstüörtülü, sətiraltı şəkildə də olsa, mövcuddur. Beləliklə, gəldiyimiz qənaətlərə görə, Azərbaycan xalq dastanlarında saz müqəddəslik, hal və zikr simvolu, eyni zamanda da ruhani informasiya daşıyıcısıdır. Koroğlunun sazı, belə demək mümkünsə, Şah Xətainin dövlətçiliyinin, savaşlarının, qarışıq çevrəsinin kölgəsində «yarımçıq qalmış» sazının tam mənada, «ürəklərdən tikan çıxaracaq qədər» davamıdır. Bizə

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

qüdsal bir rabitə olaraq görmüş, vəsf etdiyi qəhrəmanın onu heç vəchlə əlindən yerə qoymasına imkan verməmişdir.

**«Koroğlu»** dastanının çoxtərəfli keyfiyyətləri haqda kifayət qədər deyilib, yazılıb. Bu dastanın əksər məziyyətləri müxtəlif tədqiqatçılar tərəfindən araşdırılıb. Demək olar ki, **«Koroğlu»**da qaranlıq heç nə qalmayıb. Fəqət bu, ilk baxışda belədir. Çünki, məlum olduğu üzrə, digər dastanlar kimi, xalq yaradıcılığının digər janrları kimi, **«Koroğlu»** dastanı da Azərbaycanda əsas etibarilə son yüz il ərzində elm adamları tərəfindən araşdırılmışdır. Bu dövr isə ideoloji təbliğat maşınının birtərəfli nəzarəti altında idi. Bu fakt təbii olaraq, xalqın bədii estetik təfəkkürünə elmi yanaşmanı istiqamətləndirirdi. Ən acınacaqlı hal ondan ibarətdir ki, sinfiliyi, yalançı xəlqiliyi təbliğ edən qırmızı imperiyanın süqutundan 20 ilə yaxın bir zaman keçməsinə baxmayaraq, xüsusilə də humanitar elmlər sahəsində necə deyərlər, «əski hamamdır, əski tas». İdeoloji yanaşma tərzi baxımından demək olar ki, heç nə dəyişməyib. Yenə də Koroğlu sinfi mübarizə qəhrəmanı, «məzlum kütlələrlə hakim feodal sinfi» arasında gedən «mübarizənin» «ön cəbhəsindədir». Düşüncə tərzinin dəyişməməsinin əsas səbəblərindən birisi də, bizim düşüncəmizə görə, uzun müddət ərzində aparılan təbliğat və təlim tərbiyədir. Bu tərbiyənin nəticəsidir ki, bu gün fərqli düşünən araşdırmaçılar orta və yaşlı nəslin nümayəndələri tərəfindən kifayət qədər aqressiv qarşılanır. Bu isə ilk növbədə bizim işimizi – apardığımız tədqiqatları şübhə altına salır. Lakin, hər şeyə rəğmən yeni dövr elmi metodologiyası qarşısıalınmaz bir prosesdir. Bu prosesə qoşulmaq üçün, xüsusilə də humanitar elmlər sahəsində ideoloji baxış tərzini dəyişmək vacibdir.

İdeoloji baxış tərzini dəyişməyin ən mühüm tərəflərindən biri, konkret olaraq bədii-yazılı və bədii-folklor mətnlərinə materialist-ateist düşüncə ilə yanaşmaya son qoymaqdır.

**«Koroğlu»** dastanının ürfani tərəfləri əsas etibarilə onun şəxsiyyəti ətrafında nəzərə çarpır. Onun Alı kişinin oğlu olması, «Qoşa bulaq»dan su içməsi, Qıratla Düratın səmavi ata dönmələrini qırx gün gözləməsi, bütün bunlar əslində mifik süjetlər olmasına baxmayaraq, batini anlamda ürfanidir. Bəlli olduğu üzrə, **«Koroğlu»**nun Orta Asiya variantlarında bir adı **«Qoroğlu»**, digər adı **«Goroğlu»**dur. «Qoroğlu» heç şübhəsiz ki, «od oğlu», «atəş oğlu»dur. Digər anlamda isə bu, yəqin ki, işıq oğlu, nur oğludur. Uzun zaman aparılan tədqiqatlarda bu keyfiyyətlər mifoloji sayılsa da bizcə bunlar daha çox ilahiyyatla, ruhani rabitə ilə bağlıdır. Əlbəttə, mifdə də ilahi, ruhani keyfiyyətlər mövcuddur. Lakin, mübahisəli olan, mifdə bu keyfiyyətlərin mövcud olub-olmaması deyil. Mübahisəli olan, müasir mifologiyada həmin keyfiyyətlərə baxış tərzidir. Heç kəsə sirr deyil ki, mifologiya elmi səmavi dinlərə qədərki insan təfəkkürünü araşdırdığı üçün ruhani-mistik, dolayısı ilə ürfani görüşlərdən uzaq tutulmuşdur. Burada əlbəttə ki, materialist dünyagörüşün, xüsusilə də elmi ateizmin «xidməti» az olmamışdır. Yəni, daha dəqiq ifadə etsək, çoxlu sayda mətləblər mifoloji metodlarla ilahiyyat prizmasından kənarda tədqiq edilmişdir. Bizim düşüncələrimizə görə isə, istər səmavi dinlərə qədər olsun, istərsə də əksəriyyəti real şəxsiyyət olaraq müasir tarix elmində təsdiq olunmayan peyğəmbərlərin gəlişindən sonra insan təfəkkürü ilahi rabitədən kənarda qalmamışdır. Bu rabitə isə, çoxlarının düşündüyü kimi, təbiət hadisələri ətrafında yaranan qorxu və anlaşılmazlığın nəticəsi deyil, insan oğlunun öz içindən doğan mənəvi-ruhi ehtiyacların göstəricisi olmuşdur. Bu mənada dastan süjetləri müəyyən mənada mifoloji olsa da ruhani-ilahi və xüsusilə ürfani keyfiyyətlərdən xali deyildir.

Bu deyilənləri göz önünə alaraq, **«Koroğlu»**nun əksər türkdilli xalqlarda mövcud olan müxtəlif variantlarında ürfan və təsəvvüf elementləri barədə düşünmək faydalı bir iş olardı. Yuxarıda qeyd etdiyimiz kimi, dastanın digər bir adı da **«Goroğlu»**dur. Məlumdur ki, «goroğlu» torpaq oğludur. Orta Asiyada məşhur olan bu variantda qəhrəman qəbirdə, torpağın içində doğulur. Torpağın ürfani, sirli mahiyyəti təkcə təsəvvüfdə yox, eyni zamanda dini qaynaqlarda da mövcuddur. Məsələn, Həzrət Əlinin tarixə məlum olan kunyələrindən biri də «Əbu Turab»dır. «Əbu Turab» ərəb dilində «torpağın atası» deməkdir. Bu adın ona verilməsinin kökündə yenə də ürfani mətləblər yatır. Belə ki, insanın torpaqdan yaranışı birbaşa dini motiv olsa da əksər dünya xalqlarının mistik və mifoloji dünyagörüşündə mövcuddur. Təsəvvüfün «mərifət», əsasə

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Həzrət Əlinin mövqeyi, şəxsiyyəti bu məsələyə yaşıl işıq tutur. Belə ki, onun «Yaradanın məzhəri», «Xudanın zatı» olması torpaqdan yaranan insanın mürşidi, dolayısı ilə atası olduğu xəbərlərini verir. Təsəvvüfdəki başqa bir məsələ Həzrəti Fatimənin «torpağın anası», ümumiyyətlə, torpağın onun bir simvolu olmasıdır. Bu əfkarın içərisində, yəni, Həzrəti Fatimənin «torpaq»la əlaqəsinin bətnində onun da torpaq kimi, dünyaya gətirmək keyfiyyətinin mövcud olması yatır. Bəlkə də dilimizdə məşhur olan «ana torpaq» ifadəsinin kökündə də elə bu mətləb gizlənir. Beləliklə, görünür ki, torpaqla bağlı ürfani mətləblərin **«Koroğlu»** dastanındakı yeri təsadüfi deyildir. Buna bir sübut da dastandakı Alı kişi obrazıdır. Çox güman ki, «Alı» adı «Əli»nin Azərbaycan türkcəsindəki təhrif variantıdır. Elə bəzi bölgələrdə və müxtəlif aşıqların dilində «Alı kişi» sözü «Əli kişi» kimi ifadə olunur. **«Koroğlu»**nun məşhur olduğu Anadolu bölgəsində isə «Əli» adı «Ali» olaraq tələffüz olunur. Bu da onu deməyə əsas verir ki, Koroğlu Əlinin --- «Əbu Turab»ın --- «Torpaq Atası»nın --- torpağın oğludur. Məhz ürfani təhlillər vasitəsilə **«Koroğlu»**nun **«Goroğlü»** ilə batini əlaqəsi meydana çıxır. Bu fikirlər müəyyən qədər subyektiv görünsə də hər halda fərqli düşünməyə və məsələlərə fərqli metodlarla yanaşmağa əsas verir.

Yuxarıda qeyd etmişdik ki, ürfani qaynaqlarda adı xüsusi məntiqlə «Əbu Turab» kimi keçən Həzrət Əlinin bir mənəvi keyfiyyəti də Həzrəti Adəmin, ümumiyyətlə insan oğlunun ustadı, piri olmasıdır. Koroğlunun kamillik məqamına qədər yüksəlməsində atasının ona mürşidliyi, ustadlıq etməsi dastanın əsas təməl prinsiplərindən biridir. Təhlillərdən də göründüyü kimi, Alı kişinin təsəvvüfi anlamda Həzrət Əlini təmsil etməsi bu məsələdə müəyyən uyğunluq və məntiq yaradır. Biz qeyd etdik ki, Alı kişi obrazı həm də ustadlıq anlayışını özündə ehtiva edir. Alı atadır. Atanın həm də ruhani ustad olması faktoruna biz Dədə Qorqudun simasında aydın rast gəlirik. Qorqud Atanın atalığı, dədəliyi onun məhz ustadlığının, pirliyinin göstəriciləridir. Bu paralel onu göstərir ki, Koroğlunun atası Alı kişi də onun cismani atası olmaqdan daha çox, ruhani atasıdır, yəni, ustadı, mürşididir. Buradan belə bir məntiqi nəticə çıxır ki, ustad ruhani olduqda şagird də ruhani olur. Çünki, ruhani ustad ruhi bilgilər ötürür. Dolayısı ilə irşadla məşğul olur və deməli, mürşiddir.

Bu düşüncələrin təməlində dayanan əsas mətləb **«Koroğlu»** dastanının və ümumiyyətlə, Azərbaycan-Türk xalq dastanlarının motivində zahiri qəhrəmanlıqdan, cismani məhəbbətdən, material məişət əhvalatlarından çox, batini, ruhi, ilahi informasiyalar yatır.

**«Koroğlu»** dastanının son nəşrində maraqlı bir məqama rast gəlirik. **«Koroğlunun iyirminci məclisi»**ndə Koroğlunun məhz Həzrət Əli ilə batini, ruhani ünsiyyəti nəql edilir. Koroğlu onunla yuxuda görüşür. Lakin məlumdur ki, bu, adi yuxu deyil, həvalədir, mürşidin müridə ilqası, pirin öz talibinə ruhani müjdəsidir. Koroğlu isə gördüyü «röyanı» belə nəql edir:

**Canım ata, necə türkü söylərəm,**
**Aç qulaqun, sözlərimi eşit bir.**
**Qadir Allah verdi mənim payımı,**
**Aç qulaqun, sözlərimi eşit bir.**

**Ağam Əli verdi, içdim badəni,**
**İtirmişdim, yaxşı tapdım caddəni,**
**Həqq ucaltdı bu türkəman zadəni,**
**Aç qulaqun, sözlərimi eşit bir.**

**Ağam Əli qurşuyubdur belimi,**
**Uzun edib düşmən üstə dilimi,**
**Tərk edirəm Cəlali tək elimi,**
**Aç qulaqun, sözlərimi eşit bir.**

**Ağam Əli görünübdür gözümə,**
**Həqq qapusu açılubdur üzümə,**
**Koroğluyam, bir qulaq ver sözümə,**
**Aç qulaqun, sözlərimi eşit bir.** (1, 457)

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biz bu mətni **«Koroğlu»**nun Təbriz variantından nümunə gətirdik. Bizim məhz bu varianta müraciət etməmiz heç də təsadüfi deyil. Əvvəla onu qeyd edək ki, dastanın Təbriz variantında əvvəlki nəşrlərdən fərqli olaraq, dini mövhumatçılıq adı altında unutdurulan mətn və süjetlər mövcuddur. İkincisi isə, bu variant ümumiyyətlə, **«Koroğlu»** nun digər başqa variantlarından həm ideya, həm də məzmun baxımından köklü şəkildə fərqlənir. Məhz bu fərqlilik bizə imkan yaradır ki, dastandakı ürfani, sufiyanə meylləri və elementləri üzə çıxarıb, təhlil edə bilək.

Dastanın bu variantında Koroğlunun atasının adı Alı kişi deyil, Mirzə bəy olaraq keçir. Lakin bu heç də qəhrəmanın Həzrət Əli ilə bağlılığına dair yürütdüyümüz fikirlərə xələl gətirmir. Əksinə, bu variantda həmin məsələ daha da qüvvətli şəkildə təzahür olunmuşdur. Onu da vurğulamaq istərdik ki, Koroğlunun atasının adı məsələsi dastanlardakı variantlılıq məsələsidir ki, bu da bizim araşdırma dairəmizə daxil deyildir.

Yuxarıda təqdim olunan mənzum nümunədə, qeyd etdiyimiz kimi, Koroğlu Həzrət Əli ilə batini əlaqəyə girir. Təbii ki, bu əlaqə ustad-şagird, pir-mürid əlaqəsidir. Bu mənzumədə maraqlı fikirlər yer almışdır. Məsələn, **«Ağam Əli verdi, içdim badəni»** misrasında ənənəvi ürfani meydən, batini sirrləri ortaya çıxaran ruhani məstlikdən söhbət gedir. Bu meyin, bu məstliyin mahiyyətində məhz elə Həzrət Əliyə məxsus olan gizlin təriqət bilgiləri, təsəvvüf elmi yatır. Daha sonra deyilən **«Ağam Əli qurşuyubdur belimi»** misrası özündə bir çox sirləri ehtiva edir. Burada söhbət müəyyən ürfani məqama yetişmiş müridin belinə bağlanan təriqət kəmərindən gedir. Bu kəmər bir mənada da mürşidə bağlılıq rəmzi olan eşq kəməridir. Ümumiyyətlə, istər ürfanda, istərsə də xalq adət və ənənələrində bel bağlamaq xüsusi bir mərasimdir. Belin bağlanması, qurşanması müəyyən yerə, ocağa, müəyyən şəxslərə bağlanmağın, sədaqətin nişanəsidir. Tutaq ki, gəlinin belinin bağlanması onun qədəm qoyduğu ocağa bağlayır, ona bağlılıq və sadiqlik məsuliyyəti yükləyir. Ruhani çevrələrdə isə, bu, xüsusi bir ayindir. Əksər təsəvvüf təriqətlərində həmin mərasim bu gün də icra olunur. Bunun ən bariz örnəyi Əhli-Həq zümrəsindəki cəmxanalardadır. Əhli-Həqlər Cəm ayini zamanı mütləq şəkildə bellərini bağlayırlar. Həmin qurşaq yalnız pirin, Cəm şahının çevrəsində oturanlara, onların öz təbiri ilə desək, «dövrəyə girənlərə» şamil edilir. Yəni, dolayısı ilə, bu bir məqamdır ki, hər kəsə bu məqam nəsib olmur.

Bu amilləri nəzərə alaraq, söyləyə bilərik ki, Həzrət Əlinin Koroğluya badə verməsi, onun belini qurşaması ürfani fəlsəfənin tərkib hissəsidir. Həmin mənzumənin son bəndində ürfani baxımdan daha da irəliyə gedən fikirlər öz əksini tapmışdır:

**Ağam Əli görünübdür gözümə,**
**Həqq qapısı açılıbdır üzümə…**

Koroğlunun gözünə Həzrət Əlinin görünməsi iki ayrı mətləbin ortaya çıxmasına şərait yaradır. Bunlardan biri, İslam Peyğəmbərinin Həzrət Əlinin şənində buyurduğu **«Ənə mədinətül-elm, Əliyyən babuha» --- «Elmin şəhəri mənəm, qapısı Əlidir»** məşhur hədisidir ki, bu hədis həmin misrada tam mənası ilə öz bədii əksini tapmışdır. Belə ki, buradakı «Həqq qapısı» ifadəsini «elm qapısı», «elm şəhərinin qapısı» kimi təvil etsək, zənnimizcə, yanılmarıq. Yəni, «Əlini görmək» onu tanımaq, onu tanımaq isə Rəsulallahın mənsub olduğu elm şəhərinə varid olmaqdır. Bu, məsələnin zahiri, yəni, şəriət elmi tərəfindən qəbul olunan versiyasının şərhidir.

Həmin misralarda əks olunan digər məsələ, sırf təsəvvüf dünyagörüşü ilə bağlıdır. Özü də həmin dünyagörüş ürfani zümrələr içərisində ən çox Əhli-Həqlərdə daha qabarıq və aydın şəkildə tərənnüm olunur. Belə ki, Həzrət Əlinin Xudanın məzhəri, Haqqın zati təcəllası olması haqdakı inanc sistemi məhz Əhli-Həqlərdə, ruhani təkamülün «həqiqət» adlanan pilləsində mövcuddur. Beləliklə, gəlinən nəticə budur ki, Həzrət Əlini görməklə, Koroğlu əslində Haqqın özünü görür.

Dastanda Koroğlu sanki bu sözlərlə kifayətlənməyib, ikinci şeiri oxuyur. Həqiqətən də bu parçada həmin mətləblər daha da qabarıq, daha da kəskin şəkildə ifadə olunur:

**Ata, məni çox eyləmə məlamət,**
**Başımda var Ağam Əli havası,**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Qəni Mövlam badə verüb, içmişəm,**
**Gecə-gündüz zövq artırır səfası.**

**Namərdilən bir meydana girmənəm,**
**Nitq eyləsə, qulaqımı vermənəm,**
**Xudam qoysa, baş düşmənə vermənəm,**
**Başımda var Ağam Əli havası.**

**Ovçu kimi bu dağları gəzərəm,**
**Qəvvas olub dəryaları üzərəm,**
**Qərəquştək düşmən başın üzərəm,**
**Başımda var Ağam Əli havası.**

**Qoç Koroğlu sığınıbdır Xudayə,**
**Şahlar Şahı Əli kimi Mövlayə,**
**Düşmən başın keçirərəm cidayə,**
**Başımda var Ağam Əli havası.** (1, 457-458)

Qeyd etdiyimiz kimi, bu şeirdə ürfani mətləblər daha qabarıq və cəsarətli şəkildə təcəssüm olunmuşdur. Koroğlu burada eşq havasından söz edərək, bunu **"başımda var Ağam Əli havası"** deyə ifadə edir. Bu ifadə həddindən ziyadə məhrəm və istidir. Belə ki, burada sırf dərvişanə və sufiyanə tərzdə "Əli eşqi" tərənnüm edilir. Bu tərz istər-istəməz böyük Şah Xətainin misralarını xatırladır. Biz yuxarıda da qeyd etmişdik ki, dastanın bu variantında ürfani, mistik- ruhani məqamlar daha çox və müxtəlif süjetlər baxımından öndədir. Ümumiyyətlə, biz bu fikirdəyik ki, "Koroğlu" dastanının və özəlliklə də Koroğlu obrazının özünün mahiyyətində ruhani mübarizə, mənəvi mücadilə gizlənmişdir. Əks təqdirdə qılıncla, qanla, yaxud da zahiri məhəbbət, məlum məişət elementləri ilə hər hansı bir dastan və ya xalq yaradıcılığının digər janrları əsrlər boyu yaddaşlarda qala bilməzdi.

Bütün bu deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan dastanları həm zahiri, həm batini şəkilləri özündə ehtiva etməklə, səmavi informasiyaların bədii formatına uyğun olaraq məcazlıq və simvolika keyfiyyətlərinə sahibdir. Bu keyfiyyətlər eyni zamanda şifahi xalq yaradıcılığının digər janrlarına, o cümlədən nağıllara, bayatılara, xalq mahnılarına da sirayət etmişdir. Zənnimizcə, həmin özəllik Azərbaycan Türklərinin və Türk dünyasının mənəvi-ruhi təkamülə, bəşəri
və İlahi sevgiyə olan güclü meylindən irəli gəlir.

## ƏDƏBİYYAT

1. Koroğlu, Bakı, Səda, 2005, 751 s.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ƏSKİ TÜRK ABİDƏLƏRİNİN YARANMASINDA DASTAN TƏFƏKKÜRÜ VƏ DASTAN ÜSLUBU

***FÜZULİ BAYAT***

## Giriş

Arxeoloji qazıntılardan əldə edilən məlumatlara, bəzi tarixi və coğrafi vəsiqələrə dayanaraq türk bozkır mədəniyyətinin başlanğıcını e. ə. 2500 il ilə 1700 il arasında qəbul etmək mümkündür. Zəngin folklor mədəniyyətinə sahib türklərin e. ə. Böyük dövlətlər qurmaları dastan dövrünün də başlamasına səbəb olmuşdur. İlk yazılı mətnlərimiz olan Orxon-Yenisey daş kitabələrinin ortay çıxmasına qədər qonar-köçər həyat tərzi keçirən türklərin zəngin sözlü ədəbiyyatı etnik mədəniyyətdə dominant rol oynayırdı. Təbii ki, VII-VIII yüzillərin yazılı abidələrinə qədər dastan mədəniyyəti müəyyən inkişaf yolu keçmişdi ki, bu gün biz bu dastanlara arxaik strukturlu dastanlar deyirik. O baxımdan dastan ənənəsi əski türk kitabələrinin ruhunu və ifadə formasını şəkilləndirmiş, tarixi şüur, yüksək dövlətçilik şüuru dastan təhkiyə üslubu üzərində təqdim edilmişdir. Kitabələrdə keçmişi xatırlama epik ənənə baxımından yox olmamanın təməl şərti kimi təqdim edilir. Bu xatırlama yazılı mətnlərə axtarısla da yazı mədəniyyətinə dayanan xatırlatma deyil, təkrarlarla, örnəkləmələrlə canlı tutulmağa çalışılan xatırlamadır ki, özəlliklə arxaik dastanlarımız üçün spesifik folklor hadisəsi sayıla bilər. Ona görə də Göytürk abidələrindəki xarırlama, geriyə lirik ricətlər sözlü ənənə üzərində şəkillənən bir xatırlamanın növüdür. Bununla birlikdə abidələrin üslubunda dastan təfəkkürü üçün spesifik olan ədəbi-estetik fiqurları və poetik dilin vermiş olduğu axıcılığı xüsusilə qeyd etmək lazımdır.

Orxon-Yenisey yazılarının və Uyğur tərcümə ədəbiyyatının ortaya çıxmasında dastanların, xalq mahnılarının, ağıların, atalar sözlərinin, mifoloji düşüncənin təsiri və xalq ədəbiyyatının digər növlərinin daş kitabələrin ideya və ədəbi estetik qaynağı rolunda iştirak etməsi hələ də kifayət qədər araşdırılmamışdır. İlk araşdırmaçılardan başlayaraq son dövrün elm adamlarına qədər bir çox tədqiqatçı abidələrin üslubunda milli türk şeir formasının, atalar sözlərinin, dastan elementlərinin və poetik dilin vermiş olduğu axıcılığı qeyd etmişlər.[188]

## Qədim Türk Abidələrinin Məğzində və Üslubunda Duran Dastan Şüuru

Qədim türk yazılı abidələrinin yaranmasında dastan təfəkkürünün və üslubunun rolu Orxon-Yenisey yazılarını oxuyarkən, araşdırarkən açıq şəkildə görünür. Belə ki, burada dastan şüurunun savaş səhnələrinin, təkbətək döyüşlərin təsvir, təqdim təhkiyə üslubunda qorunması daş kitabələri yazanların xalq yaradıcılığı, özəlliklə bu gün arxaik dastan adlandırdığımız epik növdən yararlandıqlarını isbat edir. Orxon-Yenisey yazılarının dilində dastan ənənəsi üçün xarakteristik olan sinonim feillər və sinonim isimlər bol-bol işlənərək mətndə bir canlılıq meydana gətirmişdir. Məsələn, **iş-güç**, **kut-ülük**[189] (vəziyyət, hal), **öl-yit** (məhv olmaq), **içik-yükün** (tabe olmaq, boyun əymək), **it-yarat** (meydana gətirmək, qurmaq), **emgek-tolkak** (kədərlənmək), **çurta-yogla** (ağlamaq) və s. Bu cüt və ya sinonim isim və feillər abidələrin dilinə gözəlilik, şeiriyyət verir. Bununla bərabər sintaktik ifadələrin təkrarlanması ki, folklorun və dastanın başlıca epik qanunudur, Orxon-Yenisey abidələrində sadəcə poetik füqur kimi deyil, həm də folklor ənənəsi kimi işlənmişdir. Həm də poetik sintaktik ifadələr daş kitabələrdə konkret bir məqsəd üçün istifadə edilmişdir.

Bu sintaktik ifadələr simvolik məna bildirməsi ilə dastan mətni kimi çoxfunksiyalıdır. Məsələn, Orxon-Yenisey yazılarında **ot sub kılmatım** (atəşi su etmədim) sülh, sakitlik, əmin-

---

[188] Bax. Melioranskiy, P.M. 1899, "Pamyatnik v çest Kül Tegina", Zapiski vostoçnoqo otdeleniya ruskoqo arxeologiçeskoqo obşestva, vıp.2-3, t.XII, St.Petersburg, 1899; Korş, F.E., "Drevneyşiy narodnıy stih turetskix plemyon!", Zapiski vostoçnoqo otdeleniya ruskoqo arxeologiçeskoqo obşestva, vıp.2, t.XIX, St.Petersburg, 1910; Bernştam, A.N., Sosialno-ekonomiçeskiy story Orxono-Yeniseyskix tyurok VI-VIII vekov, Moskva, 1946; Bayat F., "Sözlü kültür bağlamında eski türk yazıtları", Milli Folklor, sayı 61, Bahar, 2004, s.13-21

[189] Orxon-Yenisey yazılarından gətirilən misallar əsasən Orkun H. N., Eski Türk Yazıtları, Ankara, 1994 və qismən də Rəcəbov, Ə., Məmmədov Y., Orxon-Yenisey abidələri, B., 1993 kitablarından a

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

amanlıq, barışıq mənalarında; **tün uyumatım, kündüz olurmatım** (gecə yatmadım, gündüz oturmadım) işləmək, çalışmaq, məsuliyyət daşımaq mənasında; **erür-berür** (gəlir, gedir) azad olmaq, xilas olmaq, qurtulmaq mənalarında; **közü kuşu yablaç boltaçı** (gözləri və qaşları bir-birinə qarışdı, pozuldu) yas, matəm, ölüm-itim mənalarında; **adak gamşattı** (ayaqlarını çırpdı) narazılıq, üsyan, qiyam, baş qaldırma mənalarında; **közü yukarı koptı** (gözü yuxarı qalxdı) yüngüllük, özünü bilməməzlik mənalarında; **içre aşsız, taşra tonsuz** (içi ac, çölü paltarsız) kasıblıq, yoxsulluq mənasında; **başlıkık yüköndürmüş, tizlikik sökürmiş** (başı olana baş əydirmiş, diz olana diz çökdürmüş) güc, qüvvət və sədaqət, egemonluq mənalarında; **körür közüm körmes teg, bilir bilgim bilmes teg** (görər gözüm görməz oldu, bilər biliyim bilməz oldu) qorxu, təlaş, narahatlıq, naməlumluq mənalarında.

Birincilərin daşıyıcı subyekti "ozanlar", ikincilərinki isə "aşıqlar" idi. Birincilər, əgər qopuzun yaranma tarixi ilə hesablasaq, "e.ə. V-III minillikdən" (22, s. 17) b.e.-nın XV əsrinədək zamanla bağlı müxtəlif mükəmməllik səviyyələrində fəaliyyət göstəriblər. İkincilər birincilərin tamamilə təkrarı deyildilər, amma onların bəzi keyfiyyətlərini və funksiyalarını yeni sosial-mədəni və ictimai-siyasi şəraitdə davam etdirirdilər. Birincilər Tanrıçılığın tərənnümçüsü, ikincilər isə İslamın (sufi çevrəsində olsa da) təbliğatçısı idi. Ozanın "boyladığı" (yaratdığı) "boy"la (dastanla) aşığın söylədiyi "dastan"ın fərqi "İslam redaksiyası"nda gəlib çatsa da, KDQ mətni ilə "məhəbbət dastanları"nın müqayisəsində aydın şəkildə müşahidə olunur.

"Boy" və "dastan"ın fərqli və oxşar elementləri çox məhdud kəmiyyətdə deyildir. Əski türk dastanı olan "boy" başdan-başa şeirlə söylənmişdir, "yelətmə" qopuz musiqisi ilə müşayiət

---

* Bu mülahizə "saz" adlı musiqi alətinin əskidən mövcudluğu faktının təkzib

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olunmuşdur. "Bütün bu şeirlər türkcənin təbii vəzni olan "heca vəzni" ilə söylənirdi. Türkcənin bəlli və eyni cins hecalarının bəlli vurğulu saylarla ayrılmasından vücuda gələn bu vəznin çeşidli növləri vardı. Bunlar arasında ən az saylı, yəni bəsit olanlar ən əskiləri idi. Bu dövrdə müxtəlif mövzulara aid şeirlərdən hamısının bəlli bir şəkli vardı. Türk şeirinin bu ilk şəkillərində başlıca iki cəhət gözə çarpır: birincisi şəkillərin azlığı və qısalığıdır ki, ilk dövrlərdə ədəbi şəxsiyyətlərin sərbəstcə gəlişməsi mümkün olmamasından və hər şairin mövcud şəkillərə adətən dindaranə riayətə məcbur olmasından irəli gəlirdi. İkincisi, əksərən dörd misradan meydana gələn bəndlərdə ilk üç misranın yalnız bir-biri ilə və dördüncü misranın bütün bəndlərdə qafiyəli olmasındadır ki, bu da, o cins şeirlərin tərənnüm olunmaq üçün bir türkü "nəqarət – bağlama"sı təşkil etdiyi cəhətlə təbii daima eyni qafiyəni mühafizə etdiyini göstərir. Musiqi ilə şeirin hələ ayrılmadığı bu ilk dövr əsərlərində, qafiyə qaydaları da çox bəsit və ibtidai idi. O qədər ki, onlara bu günkü mənada qafiyə adını verməkdənsə yarımqafiyə (assonans) demək daha doğrudur. Onlarda misraların son hecaları arasında uzaq bir bənzərlik qafiyənin varlığı üçün kifayət edirdi və şeirin büsbütün asan təmini üçün bu əksəriyyət etibarilə fellərin təsriflənən formalarından yaradılırdı. Xülasə, məhdud, bəsit, ibtidai olmaqla bərabər bu ilk dövrdəki ədəbi məhsullar bütün bir qövmün ruhundan qopur, onun kədərlərini, nəşələrini tərənnüm edirdi" (19, s. 12).

Əski poetik sistem "dillə birgə yaranmışdır" (23, s. 7). Əski çağın poeziyası "dilin poeziyasına" bərabər olmuşdur. K.V.Nərimanoğluna görə, poetik sintaktik konstruksiyaların yaranmasında "təkrarların rolu aparıcıdır. Səslərin, sözlərin qrammatik forma və konstruksiyaların təkrarı ritm yaradır və həmin ritm ifadə vasitələri arsenalında özünəməxsus qanunauyğunluqlarla çıxış edir" (24, s.16).

Müəllif jazır ki, DQ-də ritm jaradan vasitələr dilin jarusları üzrədir; fonetik, leksik, morfoloji sintaktik. Və hər bir jarusun elementləri o biri jarusların vahidləri ilə dialektik əlaqədədir" (24, s. 16). Türk ədəbi mətnləri və dil materialı üzərində dil stixiyasından və linqvistik poetika nəzəriyyəsindən çıxış etməklə apardığı son dərəcə ciddi və dəqiq elmi müşahidə və təhlillərin nəticəsi olaraq, K.V.Nərimanoğlu əski ədəbiyyatın linqvopoetik əsaslarını aşkarlayır: "Dil ilə bədii təfəkkürün qırılmaz bağlılığı mədəniyyət tarixinin ilkin dövrlərinə nəzər saldıqda daha aydın görünür. Bu dövrdə ibtidai insan öz mənəvi dünyasını, hiss və həyəcanlarını ifadə etmək üçün aktiv şəkildə öz dilini zənginləşdirməli, yeni ifadə vasitələri, konstruksiyalar yaratmalı idi. Söz sənətinin bizə bəlli olan ən qədim örnəkləri-alqışlar, dualar, dastanlar və b. tarixin ilkin çağlarında dil yaradıcılığının nə qədər intensiv və mürəkkəb bir proses olduğunu aydın göstərməkdədir. Öz spesifik qanunları olan söz sənəti dili özünəməxsus şəkildə dəyişir, onun müxtəlif vahidlərinin yeni çalarlar qazanmasına, yeni əlaqələrə girməsinə səbəb olur. Bir sözlə, adi danışıq dilindən tam bir sıra cizgiləri ilə seçilən bədii dil yaranır. Bu dil artıq özünün ilkin formalarında kifayət qədər inkişaf etmiş mürəkkəb bir sistemdir" (25, s. 7).

Əski türk dastan tipi kimi "boy"un KDQ mətni islam kültürü və Şərq poetik sistemi layları altında olsa da, poetik strukturu K.V.Nərimanoğlunun aşkarladığı kimi ritm və intonasiyanın aparıcı rolunu təsdiqləyir. Ritm və intonasiya poetik informasiyanın daşıyıcısı kimi əski türk xalq şeirində xüsusi mövqeyi ilə seçilir. Bu kontekstdə iki türk dastan tipi – "boy" və "dastan" arasındakı fərq, tarixi-poetik təkamül kimi aydın şəkildə müşahidə olunur.

Eposun tarixi-mədəni diferensasiyası kontekstində türk epos təfəkkürünün inkişaf meyllərini araşdıran N.Cəfərov yazır: "Epos" sadəcə dastan deyil, müxtəlif süjetlər, motivlər verən, mənsub olduğu xalqın ictimai-estetik təfəkkürünü bütövlükdə ifadə edən möhtəşəm dastan potensiyasıdır. Onu tam halında bərpa etmək mümkün deyil, mövcud mənbələr əsasında yalnız təsəvvür etmək mümkündür ki, həmin təsəvvür ideya-estetik, poetexnoloji, linqvistik və s. komponentlərin üzvi vəhdətindən ibarətdir" (20, s. 12).

Dastanın eposla identik vahid olmadığı aydındır. Eyni zamanda dastan epik sistemdə avtonom hüquqlara da malikdir. Əslində dastanın mətn avtonomiyası vardır. Xalq yaradıcılığı örnəklərinin digər elementləri onun strukturunda yalnız kanonik qəliblərə dola və ya hansısa vahidi əvəzləyə bilirlər. Amma dastanın strukturu dəyişmir; çünki o sabit informasiya daşıyıcısı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kimi bir işarə bütövüdür və mətn strukturunun sabitliyi həm də bununla bağlıdır. Təbii ki, şüur-gerçəklik münasibətləri səviyyəsində janr kanonikliyi qətiyyən istisna olunmur.

Türk epik sistemində istər "boy", istərsə də "dastan" türk şüurunun varlığa münasibətinin, poetik dunyaduyum və dünyadərkinin, özünün və dünyanın dildə, fikirdə və sənətdə modelləşdirilmiş, türk kodu ilə şifrələnmiş və yalnız bu kodla anlaşılan, obrazlı motivlənmiş işarələr sistemidir.

Türk folklor ənənəsinin "təbii ədəbiyyat"dan "süni ədəbiyyat"a (26, s. 191), kollektiv sənətdən fərdi və qrup sənətinə üzvlənməsi ilə artıq "süni sənət" səviyyəsində şifahi və yazılı ədəbiyyatın öz spesifik inkişaf qanunauyğunluqları zəminində iki bir-birindən təmamilə izolə edilməmiş müstəsna qolunun formalaşması prosesi başlanır. Xalq ədəbi yaradıcılığının üzvlənməsi prosesində üçüncü bir qol da mövcuddur; bu, aşıq ədəbiyyatıdır. Həmin üzvlənmə prosesinin diaxron sxemi aşağıdakı şəkildədir:

1. Şifahi xalq ədəbiyyatı (folklor)
2. Aşıq ədəbiyyatı
3. Yazılı ədəbiyyat

Məsələ burasındadır ki, bunların heç biri öz funksionallığını itirməyib, Hər üç istiqamət öz çevrəsi daxilində yaşam hüququnu saxlayıb. Folklor əsasına yaxınlığına görə aşıq ədəbiyyatı 1-ci ilə 3-cünün arasında yerləşir. Ümumtürk ədəbiyyatı kontekstində qeyd olunan 3 qol "Oğuz-türkman ədəbiyyatı" tipini müəyyənləşdirən oğuz-türk ədəbi sisteminin iri struktur vahidlərini təşkil edir

Folklorun bədii yaradıcılıq istiqaməti ənənəvilik, şifahilik, kollektivlik kimi dominant atributiv keyfiyyətlərlə səciyyələnir; folklor mətninin dil kollektivində ya ümumilikdə, ya da ən azı regional kontekstdə toplum üçün anlaşıla bilən semantik kodu və şifrəsinin mövcudluğu folklor faktının mövcudluğunu təsdiqləyən zəruri hadisədir. Konservativ folklor mühitlərində regional spesifikadan başqa, həm də əski ənənə yaxşı qorunur, arxaik elementlərin iştirakı intensiv xarakter daşıyır.

Aşıq yaradıcılığı bir tərəfdən və əsasən folklordan qaynaqlanır; onun kanonik mətn tiplərindən istifadə edir. Digər tərəfdən isə o yazılı ədəbiyyatla qismən təmasda olur. Aşıq yaradıcı şəxsiyyətdir, şairdir və öz intellektual mülkiyyətinin sahibidir. Bu mənada aşıq ədəbiyyatı tam folklor hadisəsi deyildir. Sadəcə olaraq, aşıq yaradıcılığı folklor çevrəsində fəaliyyət göstərir; aşıq poeziyası əsasən, xalq şeiri üslubunda yaradılır.

Yazılı ədəbiyyatın mətn arsenalı məlum olduğundan o daha çox öyrənilmişdir. Bizim araşdırma kontekstində yazılı ədəbiyyata müraciət olunması milli ədəbi sistemin struktur elementlərini bir bütöv halında təsəvvürdə canlandırmaq üçündür. Yazılı ədəbiyyat həm milli, həm də qeyri milli ədəbi sistemlərlə əlaqədə olur və inteqrasiya prosesində iştirak edir. Aşıq yazılı ədəbiyyatın öz kanonlarına uyğun gələ bilən bəzi elementlərindən faydalanır.

Məlum olduğu kimi, "dastan" sözü hadisə, əhvalat, təsvir, tərif, tərcümeyi-hal, bəzən də tarix kimi mənalarda işlənmiş, sonralar isə hekayətnamələr adlandırılmışdır. "Dədə Qorqud kitabı"nda bu, məlum olduğu kimi "boy" adlanır. Aşıqlar, onların dinləyiciləri isə buna "nağıl" adı vermişlər. Aşıq üçün dastan yaradıcılığı xüsusi əhəmiyyəti olan bir ədəbi hadisədir. Xalq içərisində aşığın necə sənətkar olmasını qiymətləndirməkdə onun "dastan ehtiyatının" xüsusi rolu olmuşdur.

"Ümumiyyətlə, aşıq sənətinin, əgər belə demək mümkündürsə, özünə görə "anketi" vardır. Bu "anket" aşağıdakı suallardan ibarətdir:

a) Ustadın kimdir?
b) Hansı dastanları bilirsən?
v) Hansı aşıq havacatını bilirsən?
q) Neçə qatar şeir bilirsən?
d) Neçə şagird yetirmisən?

Bu suallara alınan cavablar aşığın bir sənətkar kimi dəyərini, qiymətini üzə çıxarır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər bir ustad aşıq öz yetişdirdiyi şagirdin bütün nöqsanlarına, qüsurlarına da cavabdehdir. Ustad öz şagirdinin əxlaqına, hətta özünü el içərisində necə aparmağına da məsuldur. Ələsgər aşıqlıq sənətinin vacib şərtlərini belə izah etmişdir:

Aşıq olub tərki-vətən olanın,
Əzəl başdan pür kəmalı gərəkdir.
Oturub-durmaqda ədəbin bilə
Mərifət elmində dolu gərəkdir...

Lakin aşıqlar içərisində bu qanun-qaydaya əməl etməyənlər, onu pozanlar da az olmamışdır. Bir sıra görkəmli aşıqlar isə hələ kamilləşməmiş ustadına kəm baxan, onu saymayıb sərbəst aşıqlığa başlayanların başlarına gələn fəlakəti təsvir edən xüsusi dastanlar yaratmışlar" (27, s. 53-54).

Buradan da göründüyü kimi, dastan bilmək, dastanı ifa etmək aşığın necə bir sənətkar olduğunu qiymətləndirməkdə, üzə çıxarmaqda əvəzsiz bir meyar olmuşdur. Aşıqların bir çoxu yeni-yeni dastanlar düzüb-qoşmuş, bununla yanaşı yaradıcılıq prosesində ənənəvi dastanların da müxtəlif variantlarını yaratmışlar. “Koroğlu”, "Abbas-Gülgəz", "Aşıq Qərib", "Qurbani", "Əsli-Kərəm", "Şah İsmayıl", "Məsum-Diləfruz", "Mügim şah", "Aslan şah", "Seyidi-Pəri" kimi dastanların çeşidli variantları yaranmışdır.

Məlum olduğu kimi dastan yaradıcılığında bir neçə yol olmuşdur. Bu məsələ ilə bağlı bir çox tədqiqatçılar maraqlı mülahizələr söyləmişlər. Belə mülahizələrdən biri prof. F.Qasımzadənindir. Onun fikrincə, dastanların bir qismi ustad aşıqların qoşquları əsasında sonrakı aşıqlar tərəfindən yaradılır: "Beləliklə, dastanda iki üslub yaşayırdı. Dastanın "yurd" adlanan nağıl hissəsi dastanın müəllifinə, şeir hissəsi ustad xalq aşığına aid olurdu" (28, s. 137).

Bir çox folklor araşdırıcıları “Koroğlu”, "Abbas-Gülgəz", "Xəstə Qasım" və başqa dastanların Koroğlu, Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım kimi böyük sənətçilərin şeirlərindən istifadə ilə sonrakı aşıqlar tərəfindən yaradılmış olduğu fikrini irəli sürürlər (29, s. 485-500).

Dastan yaradıcılığının müxtəlif yolları barədə akademik H.Araslı, M.İbrahimov və başqaları da müxtəlif fikirlər söyləmişlər. Bu barədəki mülahizələri ümumiləşdirən prof. M.H.Təhmasib o qənaətə gəlir ki, dastanların ustad aşıqların şeirləri əsasında ad-sanı məlum olmayan başqaları, əksər hallarda isə şagirdlər tərəfindən yaradılmış olduqlarını ümumiləşdirmək, bunu əsas usul kimi qəbul etmək ustadları dastançılıq qüdrətindən məhrum eləmək, dastançılıq qabiliyyətini ustadlardan alıb, ustad olmajan şagirdlərə bağışlamaq kimi bir şeydir. Bu barədəki fikrini davam etdirən tədqiqatçı yazır:

"Lakin bir qədər ətraflı araşdırmalar aydın göstərdi ki, bu, bizim məlum-məşhur ustad aşıqlarımıza qarşı haqsızlıq, dastançılıq kimi mühüm bir yaradıcılıq prosesini isə görkəmli, qüdrətli sənətkarların əlindən alıb, təsadüflərə bağlamaq kimi yanlış bir yoldur. Məgər süjetli, konfliktli, surətli, səciyyəli, aşiqli-məşuqəli, "bağlama" və "açma"lı, "duvaqqapma" və "ustadnamə"li dastan yaratmaq kiçik şeirlər, qoşmalar yaratmaqdan çox asandırmı ki, bu ikincini ustadlara, birincini isə "naməlumlar"a bağlayırıq?"

Akad. H.Araslı aşıq yaradıcılığında bu problemə toxunaraq dastanlarımızın üç yolla yarandığını söyləmişdir. H.Araslıya görə, bu yollardan birincisi budur ki, "bəzi dastanlarda həqiqətən tarixdə yaşamış şəxsiyyətin adı ilə bağlı müasirlərinin yaratdığı şeirlər həmin dastanın əsasını təşkil edir". Tədqiqatçı bu yolla yaranmış dastanlara misal olaraq "Koroğlu"nu göstərir. Bu hökm bir qədər dürüstləşdirilməlidir. Burası doğrudur ki, "Koroğlu" eposunun yaranmasında bir çox aşıq və aşıq məktəbinin rolu olmuşdur. Lakin bu dastanların əsası bizcə, Koroğlu adlı, jaxud Koroğlu ləqəbli, təxəllüslü, ayamalı bir şəxsiyyətin özü tərəfindən qoyulmuşdur.

Dastan, dastan yaradıcılığı barədə ayrı-ayrı əsərlərində, müxtəlif təhlil proseslərində dönə-dönə söhbət açan M.H.Təhmasib bu barədəki fikirlərini dəqiqləşdirməyə çalışmış, mülahizələrini konkret nümunələr əsasında inkişaf etdirmiş, dastan yaradıcılığının orijinal olduğu qədər də çox

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mürəkkəb bir yaradıcılıq prosesi olduğunu göstərmişdir. Müəllif fikirlərini davam etdirərək göstərir ki, məharətli, ustad aşıqların içərisində dastan yaratmayanlar da olmuşdur.

**Ənənə və improvizasiya**. P.A.Qrinçerin qeyd etdirdi ki, epik söyləyicinin əsas vəzifəsi dinləyici üçün tanış, ənənəvi olan hekayəti ona tanış, ənənəvi yolla nəql etməkdir və «uğurlu, fasiləsiz ifa üçün ifaçı şifahi yaradıcılıq texnikasına, başqa sözlə, ənənəvi dil, ənənəvi tematika, ənənəvi kompozisiya fəndlərinə tam yiyələnməlidir. «Aşıq sənətinin ustad-şagird ənənəsinə söykənməsi, davamlı və qırılmaz olması, epik ənənədəki çeşidli süjet, motiv, kompozisiya, forma və digər elementlərin daha geniş miqyasda əsrlərdən-əsrlərə daşınmasına imkan vermişdir. Aşıq sənəti vahid Oğuz etnik-mədəni çevrəsindən diferensiallaşmış Azərbaycan türk mədəniyyətinin hadisəsi olduğundan aşıqların dastan yaradıcılığı Azərbaycan epik təfəkkürünün inkişaf göstəricisi sayıla bilər».

Məlumdur ki, Azərbaycanda xalq arasında dastançı aşıqlar xüsusi nüfuza malik olmuşlar. Aşıq ədəbiyyatını tədqiq edən bir-sıra alimlər hətta epik ifaçılıq və epik yaradıcılıq qabiliyyəti, məharəti olan bu aşıqları («dastançı aşıqlar») aşıqların ənənəvi klassifikasiyasında (ustad aşıqlar, ifaçı aşıqlar, el şairləri) fərqləndirməyin vacibliyini də vurğulamışlar (30, s. 12).

Dastanlar Azərbaycan epik xalq yaradıcılığının ən mükəmməl örnəkləridir və onun əsas tiplərini qəhrəmanlıq və məhəbbət dastanları təşkil edir. M.H.Təhmasibin təsnifatında üçüncü qrup dastanlar olan ailə-əxlaq dastanları az intişar tapmışdır (27, s. 112).

Azərbaycan qəhrəmanlıq dastanları üçün təkqəhrəmanlılığa meyl xarakterikdir. Professor N.Cəfərov türk epik ənənəsində tək (bir) qəhrəman obrazını Tanrı ideyasının (təkallahlığın formalaşması ilə əlaqələndirərək yazmışdır: «Mükəmməl epos təfəkkürü üçün tək bir Allah (tək bir hökmdar, tək bir qəhrəman!) lazım idi. Ona görə də qədim türk eposunun (müxtəlif mənbələrdə bu və ya diər şəkildə mühafizə olunmuş dastanların) əsas qəhrəmanları «Tanrı» obrazının transformları olan hökmdar-qəhrəmanlardır ki, onların iradəsi həmin dastanı yaradan epos təfəkkürünün (xalqın, etnosun, etnik-mədəni sistemin və s.) bilavasitə iradəsidir (20, s. 14). Müəllif Koroğlunun övladsızlığının (tənhalığının) genetik səbəbini də buna bağlayır: «Koroğlunun ilahi mənşəyi, Tanrı obrazının özünəməxsus transformu olması onun (Koroğlunun) tənhalığının (övladsızlığının) genetik səbəbidir, ancaq həmin əbəb XVII-XVIII əsrlərdə tamamilə arxaikləşmiş, funksional (cari) məntiqini, poetik semantikasını itirmişdir (20, s. 145).

Azərbaycan məhəbbət dastanlarının quruluşu da, alimlərin qeyd etdiyi kimi, ilk öncə ənənə hadisəsidir. Azərbaycan dastanları ənənəvi sintaktik struktura malikdir.

M.Cəfərli yazır: «Məhəbbət dastanlarında məşuqə ilahi gözəlliyin daşıyıcısı, İlahinin təcəllasıdır. Bu baxımdan dərviş – Xızır, Həzrət Əli aşiqlə məşuq arasında, əslində bu dünya ilə o dünya, insanlar dünyası ilə İlahi Dünya arasında vasitəçilik edirlər. Bu vasitəçilik dastanda həm birbaşa vasitəçilikdir (bu yolla qəhrəmanlar dünyaya gəlirlər, bir-biri ilə buta yolu ilə nişanlanırlar), vasitəçilik həm də xilaskarlıq şəklində təzahür edir: mediator bütün qəhrəmanı xilas edir. İşə qarışmalı olur. Orasını da yada salaq ki, onun bütün xilaskarlıqdan möcüzəli olur. Döyüşən qəhrəmanın könlünə söz doldurur, ona verilmiş müəmmaların cavabını şirli şəkildə qəhrəmana «pıçıldayır». Aşıq qəhrəman bütün hallarda öz hamisinin köməyi ilə qələbə qazanır» (2, s. 166-167).

Tərki-vətən olub diyar-diyar gəzməyi özünün missiyası hesab edən aşıq bir ənənə olaraq öz qəhrəmanını səfərə göndərir. Qəhrəmanın macərası (qürbətə getmə) məhəbbət dastanlarının ən uzun hissəsini təşkil edir. «Tahir və Zöhrə», «Miskin Abdal və Sənubər», «Qul Mahmud», «Şah İsmayıl», «Qurbani» kimi onlarla xalq romanlarında qəhrəman buta aldıqdan sonra səfərə yollanır.

Aşiqin qürbətə yollanması «Koroğlu» qollarındakı kimi qəhrəmanlıq məzmunundan nə qədər kənar olsa da, ənənənin inersiyası ilə hətta müasir dastanlarımızda belə bəzən dastanların və aşıq rəvayətlərinin adında əski motivlərini qorumaqdadır. Məsələn: «Aşıq Alının Türkiyə səfəri», «Aşıq Ələsgərin Qaraqoyunlu səfəri», «Aşıq Ələsgərin Qarabağ səfəri», «Növrəs İmanın Tiflis səfəri» və s. «Ələsgərnən Səhnəbanu»da da Aşıq Ələsgər kasıb olduğundan sevgilisinə qovuşa bilmir, Aşıq Alıya qoşulub gedir, kəndinə döndükdə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məhərrəmin oğlu Mustafaya verildiyini bilir (31, s. 414-431). Səfərə çıxan qəhrəman yol boyu bir sıra maneələrlə üzləşməli, sınaqlardan çıxmalı olur.

Göründüyü kimi, «Koroğlu» dastanında mif, tarix və epos mürəkkəb semantik struktura malikdir. Biz burada məsələnin bəzi əsas hesab etdiyimiz tərəflərini ələ aldıq. Hesab edirik ki, göstərilən istiqamətdə tədqiqatların aparılması zəruridir.

**ƏDƏBİYYAT**

1. Cəfərli M. Dastan və mif. B., 2000.
2. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. B., 2000
3. Cəfərov N. Eposdan kitaba, B., 1999.
4. Köroğlu. Ankara, 1973
5. Koroğlu (çapa hazırlayan və ön sözün müəllifi M.H.Təhmasib). B., 1956
6. Koroğlu (çapa hazırlayan E.Tofiqqızı, ön sözün müəllifləri H.İsmayılov, E.Tofiqqızı). B., 2004.
7. Xəlil A. «Koroğlu»nun tatar-tobol versiyası. «Dədə Qorqud» jur., №4, 2005.
8. İ.Abbaslı. "Koroğlu" eposunun janr özünəməxsusluğuna dair. "Dədə Qorqud", №1, 2001
9. F.Bayat. Koroğlu obrazının formalaşmasında xalq sufizmi mərhələsi. «Ulduz» jur. Bakı, 1999, №1
10. C.Anadol. Qoçyigit Köroğlu. Ankara, 1993
11. P.N. Boratav. Köroğlu destanı. İkinci basım. İstanbul, "Adam yayıncılık", 1984
12. M.Ekici. Türk dünyasında Koroğlu. Ankara, 2004.
13. Àçÿðáàéúàí òàðèõè, I úèëä. Áàêû, 1994.
14. A.Davrijeüi. Kniqa istoriö M., 1973
15.İ.P.Petruşevskiy. Qosudarstvo Azerbaydjana v XV veke. Sbornik statey po istorii Azerbaydjana, t. I, B., 1949
16. Rodoslovnə turkmen. İzd. Kononova, Soçinenie Abu-l-Qazi xana xvinskoqo, M.-L., 1958.
17. À.Âàìáåðè. Îðòà Àñèéà ñÿéàùÿòè. Ì., 1865
18. V.V.Bartold. Soçineniə. V t. M., 1968
19. F.Köprülü. Türk edebiyyatında ilk mütasavviflar. Diyanet işleri başkanlı‹ı yayınları. Ankara, 1991
20. N.†ЃfЃrov. Eposdan kitaba. B., 1999
21. A.†afero‹lu. AzЃrbaj‡an edebijatı. S. 140-217, Türk dünjası edebijatı I, Türk dünjası araştırmaları vakfı, 1991
22. R. Zaqretdinov. Kubız. Şkola iqrı na Kubıze. Ufa. Belaə reka, 1997
23. Ə.Abid. Heca vəzninin tarixi. "Maarif işçisi" jurnalı. 1927, №4
24. K.Vəliyev. Azərbaycan dilinin poetik sintaksisi. B., ADU, 1981
25. K.Vəliyev. Linqvistik poetikaya giriş. B., ADU, 1989
26. A.Bombaçi. Törkskie literaturı, vvedenie v istoriö i stilğ. S. 191-293. Zarubejnaə törkoloqiə, M., Nauka, 1986
27. Təhmasib M.H. Azrbaycan xalq dastanları (orta əsrlər). Bakı, Elm, 1972
28. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. ADU nəşriyyatı, Bakı, 1956, s.137.
29. Azərbaycan ədəbiyyatı tarixi. I cild, Bakı, EA nəşriyyatı, 1960, s. 485-500.
30. Dadaşzade K. Gpiçeskaə tradiüiə nak obğektğ praqmatiçeskoqo issledovaniə. B., İPO NA
31. Ələsgərnən Səhnəbanu. – Göyçə dastanları və aşıq rəvayətləri (toplayanı və tərtib edəni H.İsmayılov). B., «Səda», 2001

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ARXETİP ANLAYIŞI VƏ EPİK ƏNƏNƏDƏ MÜDRİK QOCA ARXETİPİ

***HİKMƏT QULİYEV***

Uzun müddət psixologiyanın tədqiqat obyekti hesab olunmuş arxetip anlayışı gerçəklik, şüur, mətn münasibətləri müstəvisində maraqlı nəticələr doğurmuşdur. Artıq bir sıra tədqiqatlarda istər yazılı, istərsə də şifahi yaradıcılığa məxsus mətnlər bu yöndən araşdırılmaqdadır. Nəzərə alsaq ki, həm şifahi, həm də yazılı məhsullar insan şüurunun gerçəkliyə münasibəti əsasında formalaşır, onda bunların "insanlığın ümumi mirası" (4, 11) kimi söz kodu ilə mətnləşmiş olduğunu deyə bilərik .

Psixologiyada arxetip anlayışına münasibət fərqli məcrada inkişaf etmişdir. İlkin dövrlərdə bəzi alimlərin K.Q.Yunq tərəfindən elmə gətirilmiş "arxetip" anlayışına münasibəti birmənalı olmamışdır. K.Q.Yunq yazır: "Onlar sadəlövhcəsinə hesab edirlər ki, belə yanaşma fərdin daxilindəki ikili "subyektin" yaxud ikili şəxsiyyətin mövcudluğunun gözdən qaçırılmasına gətirib çıxarır. Gerçəklikdə isə bu, elə belədir. Və müasir insanın kabuslarından biri də şəxsiyyətin parçalanması ilə bağlıdır. Və bu heç bir halda patoloji simptom deyil, bütün məkan və zamanlarda izlənilən normal faktdır (normal hadisədir). Sağ əlin etdiyindən sol əlin xəbərsizliyi təkcə nevrotiklərdə deyildir. Bu xoşagəlməz hal kollektiv şüursuzluq simptomu kimi mübahisəsiz olaraq bəşəriyyətin ümumi mirasıdır" (4, 11). Əslində isə yaşadığı regiondan, aid olduğu xalqın mənşəyindən asılı olmayaraq, insanlığı birləşdirən ümumi, qeyri-şüri aspekt vardır ki, bu konkret situasiyalarda fərdin gerçəkliyə emosiya əsasında münasibəti ilə meydana çıxır. Emosiya isə bu mənada yardıcılığın ilkin qaynağını təkil edir. Təsadüfi deyildir ki, foklorun janrlar üzrə təsniflənməsi də emosiyaya münasibətdə baş verir. Emosiyanın gerçəkliyə əsaslanan mahiyyəti onun janr tipologiyasını bəlli edir.

Müxtəlif psixoloji hallarda özünü göstərən bu detallar psixikanın elə dərin qatlarından qaynaqlanır ki, bunun da əsasını arxetiplər təşkil edir. Yəni gerçəkliyə münasibətin hər hansı bir forması olan arxetip simvol və obrazlar əsasında formalaşır. Bunu mətnin təqdim etdiyi informasiya əsasında bərpa etmək mümkündür. Məsələn, nağıl mətnlərində geniş şəkildə yayılmış obrazlardan biri olan dərviş obrazı özündə müdrik qoca arxetipinin xüsusiyyətlərini yaşadır. Başqa sözlə, bu obraz həmin arxetip əsasında qurulmuşdur. Nağıl, eyni zamanda digər janrlarda yer alan bu obraz funksional-semantikası baxımından arxetipik mahiyyət daşıyır. Müxtəlif situasiyalarda bu obrazın həyata keçirdiyi fəaliyyətlər onun dərin mifoloji strukturu barədə düşünməyə imkan verir.

Qeyd etmək lazımdır ki, K.Q.Yunqa qədər sosial-antropoloji və psixoanalitik təhlillər aparılmışdır. Xüsusi ilə bu sahədə Kembric məktəbinin görkəmli nümayəndəsi C.C.Freyzerin apardığı araşdırmalar bu sahədə mühüm mərhələni təşkil etmişdir. Freyzerin tədqiqatlarında insanın bütün zaman və məkanlarda istək və arzularının oxşarlığı ideyası diqqəti cəlb edir ki, bu ideya sonradan təhtəlşüur anlayışının araşdırılmasına şərait yaratmışdır. Sonradan K.Q.Yunqun tədqiqatlarında kollektiv şüursuzluq, şüuraltı və ya qeyri-şüri və s. kimi anlayışlar geniş şəkildə öyrənilmişdir. "Arxetiplər və Kollektiv Şüursuzluq" məqaləsində müəllif şüuraltını fərdi və ortaq olaraq iki qrupa bölür (1, 3-4). Fərdi və ortaq şüuraltı anlayışlarını izah edərkən müəllif yazır ki, "...Ancaq bu fərdi şüuraltı fərdi təcrübələrdən törəməyən və fərdi bir qaynağa deyil, doğuluşdan mövcud olan bir mənbəyə malikdir. Bu daha dərindəki mənbəni mən ortaq (yaxud başqa adla "kollektiv" – H.Q) şüuraltı adlandırıram. "Ortaq" terminine üstünlük verməyimin səbəbi odur ki, şüuraltının bu qismi fərdi deyil, universaldır" (1, 3-4). Yunq arxetip anlayışına otraq şüursuzluq faktı kimi baxır. O yazır: "Fərdi qeyri-şüurinin mahiyyətini fərdin mövcudluğu ərzində əldə edilənlər, ortaq qeyri-şüurinin mahiyyəti isə əzəldən var olan sabit arxetiplər təşkil edir" (2, 36**)**. Əslində bu tərifə nəzər yetirdikdə arxetip anlayışı və şüuraltı və ya qeyri-şüuri ifadələrinin mahiyyəti aydınlaşmış olur. Müəllifə görə yaşadığı zaman və məkandan asılı olmayaraq insanın daşıdığı ümumi təcrübə və bilgilər mövcuddur ki, bunun da qaynağını ortaq şüuraltı təşkil edir. Ortaq şüuraltının əsasında isə sabit arxetiplər durur.

Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Bu mənada arxetip simvol, obraz kimi mətndə informasiya yükünə çevrilir. Başqa sözlə desək, arxetip obraz və simvol statik haldan dinamik hala (xüsusi hallarda) keçərək mətnin mexanizmini yaradır.

Arxetip anlayışı barədə danışarkən bir məsələni də diqqət önünə gətirmək lazımdır. K.Q.Yunqun da tədqiqatlarında fərqləndirdiyi kimi, arxetiplə onun simvol və obrazları fərqli mahiyyətə malikdir. Belə ki, arxetip anlayışı özündə geniş məna və mahiyyəti ifadə edir. Müəyyən arxetipin simvol və obrazları hər hansı bir mədəniyyət daxilində yüzlərlə ola bilər. Məsələn, müdrik qoca arxetipdir. Lakin bu arxetipin cizgilərini özündə əks etdirən çoxsaylı təzahür formaları vardır. Yaşlı və bilikli, müdrik statusunda dərviş, qoca, lələ, baba, ata, qarı, münəccim və başqa obrazlarla yanaşı, yardımçı-köməkçi statusunda çıxış edən qeyri-adi informasiya və bilgi təqdim edən heyvan obrazlar – at, ilan, quş və s. də ola bilər. Yaxud ana arxetipinin təzahür formaları kimi ana, dayə, qarı kimi obrazlar, eyni zamanda özündə saxlama, qoruma, hifz etmə kimi cəhətləri əks etdirən mağara, quyu, dərə, ağac koğuşu, qaya (döl tutmaq) və s. də ola bilər. Şüuraltı faktı kimi mövcud olan arxetiplər universal xarakter daşıyır və heç bir zaman unudulmur. O müəyyən obraz və simvollar vasitəsi ilə şüurlu sahəyə daxil olur. Və burada şüursuzluq faktının şüurlu şəkildə ifadə olunması özünü göstərir. K.Q.Yunq arxetiplərin şüurluluq sahəsinə daxil olmasının məhsulu kimi yuxu və mifləri göstərir (3, 6). Təbii ki, yuxu və mif mətnlərinin yaşatdığı qeyri-şüurinin faktları müxtəlif janrların tərkibində "ərimiş"dir. Bununla əlaqədar olaraq nağıl, dastan və s. tipli mətnlərdən müdrik qoca arxetipinin obraz və simvolikasını, eləcə də təzahür formalarını müəyyənləşdirmək xüsusi tədqiqat tələb edir.

Məsələyə yanaşmada obraz və simvolların paradiqmatik strukturu diqqət önündə saxlanılmalıdır. Bu mənada müdrik qoca arxetipinin Dədə Qorqud, Molla Nəsrəddin, dərviş (obraz kompleksi və s. kimi obraz paradiqmaları şəklində təhlili məqsədəuyğundur. Bunun əsasında obrazın arxetipdən qaynaqlanma səviyyəsi, mətnin strukturunda tutduğu yer, obrazın hərəkət sxeminin formalaşması kimi məsələlər aydınlaşdırılmış olur. Bir məsələni də qeyd edək ki, müdrik qoca arxetipinin mədəni qəhrəman və trikster kontekstində təhlili də vacibdir. Belə ki, Azərbayacan lətifələrinin əsas obrazlarından olan Molla Nəsrəddinin strukturunda ikili mahiyyət, hadisələrə fərqli yanaşma özünü göstərir ki, bu da komik situasiyada qeyri-şüurinin yaşaması əsasında olur. Məsələn, Molla Nəsrəddin lətifələrindən birinə diqqət yetirək. Belə ki, qonşu kəndlərdən birinə qonaq gedən Molla Nəsrəddin yediyi yeməyin adını soruşur ki, evdə də həmin yeməkdən bişirtdirsin. Yolda bu sözü təkrarlayan Molla Nəsrəddin arxdan keçərkən yeməyin adını unudur. Və yerində dayanaraq arxda həmin sözü axtarır. Suyu o qədər qarışdırır ki, su bulanır. Yoldan keçənlər ondan nə axtardığını soruşduqda o, sözü bu arxa saldığını deyir. Mollanın bu hərəkətinə gülən yolçu ona deyir ki, sən lap suyu "horra" elədin ki. Molla sevinir ki, hə bax mənə elə bu söz lazımdır.

Mətnə diqqət etdikdə Molla Nəsrəddinin sözü arxda axtarması gülüş doğuran fakt kimi özünü göstərir. Amma məsələnin mahiyyəti elə məhz burada qorunub saxlanılmışdır. Belə ki, komik planda özünü göstərən bu fakt əslində arxaik yaddaşda suyun (arxın) malik olduğu semantika əsasında izah oluna bilər. Bəllidir ki, mifoloji şüurda su keçid məkan xarakteri daşıyır. Bunun vasitəsi isə xaosdan kosmosa, yaxud kosmosdan xaosa keçid baş verir. Və kosmosdan xaosa hərəkət edən qəhrəman kosmosda mailk olduğu bilgiləri unudur. Bu mənada mollanın məhz arxdan keçərkən bu sözü unutması təsadüfi hal deyildir. Mətndə arxetip simvolun qorunması ilə əlaqədardır.

## ƏDƏBİYYAT

1. Carl Gustav Jung "The Archetypes and The Collective Unconscious". Princeton, Princeton University Press, 1977.
2. Carl Gustav Jung "Psychological reflections; an anthology of the üritings of C.G.Jung", New York, Harper, 1953.
3. Steven F. Walker "The Jung and The Jungians On Myths", New York, Garland Publishing, 1995.
4. К.Г.Юнг. Архетип и символ. // http://www.razumei.ru/files/othe

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# «KİTABİ-DƏDƏ QORQUD»DA QARAVƏLLİ

***İBADƏT RÜSTƏMOV***

Qaravəlli Azərbaycan şifahi xalq ədəbiyyatında yumoristik janr kimi ta qədimdən yaşamaqdadır. Qaravəllilər, adətən, aşıq məclislərində söylənilir. Demək, onların yaradıcısı da söyləyicisi də aşıqlardır. Bəzi müəlliflər qaravəllilərin yaranma tarixini orta əsrlərə aid etsələr də (3-34), qaravəllilərin bu gün də yarandığını inkar etmək haqsızlıq olardı.

Qaravəlli-həcmcə kiçik, özündə nağıl elementləri saxlayan, daha çox lətifəyə bənzəyən, novellavari bədii əsərlərdir ki, aşıqlar və nağılçılar bunlardan geniş istifadə edir.

Qaravəlli danışmaq dinləyicilərin əhvalına uyğun edilir. Qaravəllini ya dastanı (nağılı) başlamazdan əvvəl, ya da danışarkən söyləyirlər. Qaravəlli dinləyicidə dastanda olan mətləbə meyli daha da gücləndirmək üçün söylənilir. Aşıq dastanın ən maraqlı yerində söhbəti dayandırır. Dinləyicidə intizar yaradır. Ustad aşıqlar, adətən, qaravəlli söyləməyi şagirdinə həvalə edir. Bu da şagirdin, bir növ, məclisdə danışıq aparmaq, söhbət etmək, dinləyicini cəlb etmək səriştəsini artırır. Dastançılıq, nağılçılıq vərdişlərinə yiyələnməyə kömək edir. Qaravəllinin əsas məqsədi incə yumorla dinləyiciləri əyləndirməkdir. Qaravəlli qəhrəmanları, adətən, sadə adamlar olur; yetim, kasıb, cütcü, naxırçı və s.

Qaravəlli söyləyən aşıq şagirdi obraza girir, həmin obrazın dili ilə danışır və özünün hərəkətlərini obrazınkına uyğunlaşdırır. Həm də nə qədər gülüş doğrucu səhnə olsa da, qaravəlli ifaçısı özü gülmür. Aşıq sənətində məclisdə aşığın davranışına çox diqqət yetirilir. O məclisdə nümunəvi davranış nümayiş etdirməlidir. Çox yəqin ki, ulu ustadlar öz salğarlarını saxlamaq üçün, bir priyom kimi, qaravəlli danışmağı şagirdə həvalə edirlər. Deyək ki, aşıq özü bir neçə dəqiqə əvvəl Koroğlu obrazında idisə, daha Keçəli özü yox, şagirdi oynayır.

Qaravəllilərdən Azərbaycanda «Kukla», «Qaravəlli» teatrlarında, Novruz şənliklərində «Kosa və Keçəl» meydan teatrlarında geniş istifadə olunur. Əsrlərin sınağından çıxmış bu janrın yaşamağa və lazımınca tədqiq olunmağa haqqı var.

Aşıq sənətində daha bir kiçik janr mövcuddur – pişro «Pişro» sözü, çox yəqin fars dilində olan pişvaz sözündən əmələ gəlib. Pişrolar qaravəllilərdən fərqli olaraq, nəzmlə deyilir. Kiçik müqəddimə ilə başlanan şeirdən ibarət olur. Pişronu, adətən, hansısa bir şadyanalıqda bəyin, yubilyarın, mənsəbə yetənin şərəfinə və s. söyləyirlər. Pişrolar da qədimdən bir janr kimi yaşamaqdadır. Dədə Kərəm də pisro söyləyib.

Təəssüf doğuran odur ki, orta məktəblərin 10-cu sinifi üçün əvvəllər nəşr olunan dərslikdə «Aşıq yaradıcılığı» bölməsində qaravəllilərin adı çəkilirdi. Haqqında bir neçə kəlmə yazılırdı. Yeni 2009-cu il nəşrində aşıq yaradıcılığı haqda səthi yazıların arasında qaravəllilərə yer verilməyib. Pisro haqda deyilən bir neçə söz varsa, orada da janrın adını «Pisron» kimi veriblər. Görəsən bölməni yazan müəllif aşıq sənəti kimi bir xəzinəyə niyə belə münasibət göstərib? (8-17)

Təəssüf doğurucu haldır ki, qaravəlli kimi oynaq folklor janrının toplanması və nəşri 20-ci əsrin ikinci yarsına təsadüf edir. Ancaq biz qaravəlli nümunəsi ilə bəşəriyyəti heyran qoyan «Kitabi-Dədə Qorqud» abidəsində rastlaşırıq. Nə səbəbdənsə bu indiyə kimi tədqiqatçıların nəzərindən qasıb. Ustadnamələr haqda söhbət gedəndə, kitabı çapa hazırdayan H.Araslı yazdığı girişdə «Kim bilir, bəlkə də bu boyların yazıya alındığı əsrlərdə ozanlar bunları hər dastana başlamazdan əvvəl demişlər. Toplayıcı kaitib öz işini asanlaşdırmaq üçün onların hamısını bir-birinin dalına düzərək kitabın əvvəlinə yerləşdirmişdir» (1-11).

Ustadnamələr haqda biz də bu fikirdəyik. Ancaq, inanmaq olmur, gülüş doğuran qadın davranışlarından ustadnamə kimi hansı ozan ya aşıq istifadə edə bilərdi? Ustadnamə – ustad sözü, ustad kəlamı anlamındadır. Bu şeirlərdə ustad sözü mənəviyyat formalaşdırmaq, əxlaqi keyfiyyət aşılamaq üçün nəğmədir, nəsr deyil, gülüş də doğurmur. Abidənin «Müqəddimə» hissəsinə yerləşdirilən, bizim fikrimizcə, qaravəlli olan parçanı bütövlükdə təqdim edirik.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

«Ozan ajdır: «Qarılar dörd dürlidü: Soldıran soydır, birisi toldıran toydır, birisi evin tayağıdır, birisi necə söylərsən, bayağıdır».

Ozan, evin, tayağı oldır ki, yarıdan-yabandan evə bir qonaq gəlsə, ər adam evdə olmasa, ol anı yedirər, içirər, ağırlar-əzizlər, göndərər. Ol Ayişə, Fatimə soyıdır, xanım. Anun bəbəkləri biesün. Ocağına bunsılayın övrət gəlsün... Gəldin, ol kim soldıran soydır. Sapadanca yerindən uru turar, əlini-yüzini yumadan toguz bazlamac ilən bir küvlət yoğurd cəvəzlər, toyunca tıqa-basa yeyər, əlin bögrinə urar, aydar: «Bu evi xarab olası! Ərə varalıdan bərü dəxi qarnım toymadı, yüzim gülmədi. Ayağım başmaq, yüzim yaşmaq görmədi». Deyər: «Ah noleydi, bu öleydi, birinə dəxi vareydim. Umarımdan yaxşı-uyar oleydi» - deyər. Anun kibinin, xanım, bəbəkləri bitməsün. Ocağına buncılayın övrət gəlməsün. Gəldin, ol kim doldıran toytoydır, dəpdiicə uru turdı, əlin-yüzin yumadan obanın ol ucından bu ucına – ol ucına çarpışdırdı. Quv quvaladı, din dinlədi. Öyləyədəncə gəzdi. Öylədən sonra evinə gəldi. Gördi kim, oğrı köpək, yekə tana evini biri-birinə qatmış-tauq komasına, sığır tamına döndərmüş. Qonşularına çağırar ki Yetər! Zəlixa, Zübeydə! Uruydə-can qız-can! Paşa! Ayna Mələk! Qutlu Mələk! Ölməyə-itməyə getməmişdim, yatacaq yerim genə bu xərab olasıydı. Noleydi, bənim evimə bir ləhzə baqaydınız! «Qonşı həqqi-tənri həqqi», deü söylər. Bunın kibinin, xanım, bəbəkləri bitməsün. Ocağına bunun kibi övrət gəlməsün. Gəldin ol kim necə söylərsən, bayağıdır. Evinə yazıdan-yabandan bir udlu qonaq gəlsə, ər adam evdə olsa, ana disə ki, tur ətmək gətür, yeyəlim, bu da yesün; disə, bişmiş ətməgün bəqası olmaz, yemək gərəkdir, övrət aydar: «Neyləyəyim, bu yığılacaq evdə un yoq, ələk yoq. Dəvə dəgirmandan gəlmədi», - diyər, Nə gəlürsə, bənim sağrıma gəlsün» deyü əlüyün… urur, yönin anarı, sağısın ərinə döndərür. Bin söylərsən, birisini guymaz, ərin sözini qulağına qoymaz. Ol, Nuh peyğəmbərin eşşəği əslidür. Andan dəxi sizi, xanım, allah saqlasun. Ocağınıza buncılayın övrət gəlməsün» (2, 33). Göründüyü kimi parçanın həcmi, dili, abidəylə heç bir əlaqəsi olmaması söyləyici ozanın sərbəst danışığı, parçada olan yumor, xeyir-dua parçanın qaravəlli olmasına heç bir şübhə yeri qoymur.

Bu parçada işlənən bəzi əksi sözlər bu gün də Qazax-Borçalı ləhcəsində canlı danışıq dilində abidədə işləmiş sonur «n» səsi uşaqdan böyüyə hamının dilindədir: «evin», «yazıdan-yabandan» (yazı əski dilimizdə «çöl» deməkdir, Kürün sol tərəfindəki qədim meşə zolağı Qarayazı təsadüfən adlanmır. Qarayazı meşəsi Qazaxla borçalının ərazisində yerləşir. Gürcüstanda yerləşən Qardabani rayon mərkəzinin əski adı da Qarayazı adlanırdı). «Ağırlar-əzizlər» (bu ibarə rəğmən qarşılayar, hörmət və izzətlə yolla salar mənasında işlədilir). «Ölməgə-itməyə getməmişdim». (haradasa gecikən adam özünə bəraət qazandırmaq üçün bu ibarəni işlədir» və s. Onu qeyd etmək istərdik ki, abidənin özündə də yüzlərlə söz, ibarə bu gün də Qazax-Borçalı camaatının aktiv lüğət fondunu təşkil edir. Demək abidə yazya köçürülərkən ya dastançı ozan, ya da abidəni yazya alan toplayıcı mirzə bu yerlərin sakini olub.

Demək istəyirik ki, bu qəbildən olan qaravəllilər bu gün də Qazax-Borçalı nahiyəsində aşıqların dillərindədir.

**ƏDƏBİYYAT**

1. «Kitabi Dədə Qorqud». B., 1962.
2. «Kitabi Dədə Qorqud». B., 1988.
3. «Qaravəllilər». B., 1967.
4. «Dədə Qorqud» jurnal №3, 2008.
5. İbadət Rüstəmov. «Dədə Qorqud»da insan gözəlliyi. B., 1978.
6. Xalq dastanları. I., B., 1961.
7. Borçalı lətifələri. B., 2008.
8. Ədəbiyyat. 10-cu sinif üçün dərslik. B., 2009.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# TÜRK DASTANLARININ ALP İGİDLƏRİ XETT VƏ URARTU PANTEONUNDA TANRI OĞULLARI KİMİ

***İLHAMİ CƏFƏRSOYLU***

Türk xalqlarının şifahi yaddaşından süzülüb gələn qəhrəmanlıq dastanları yalnız ədəbi abidələr deyil. Onlar eyni zamanda qiymətli tarixi mənbələrdir. Türk dastanlarının alp igidləri Ön Asiyanın mixiyazılı mənbələrində tanrı oğulları kimi yazıya alınmışdır.

Həm tarix elmimiz, həm folklorşünaslığımız üçün maraqlıdır ki, e.ö. XIV-XIII əsrlərə aid Xett və e.ö. IX-VI əsrlərə aid Urartu yazılarında eponimlərimizin arxaik variantları dinqir və dinqir şe sillabik formantları altında göstərilir (1, 438). Dinqir «tanrı», dinqir şe «tanrı övladları» deməkdir (2, 272).

Ön Asiyanın ölü dillərində yazıya al[illegible]ın eponimlərdən biri Tumandır. Dədə Qorqud Kayı İnal xanın oğluna *Tuman,* yəni Duman adı verir (3, 11, 4[illegible]uman eponimi Çin salnamələrində *Teoman* formasında yazıya alınmışdır. Tuman tari[illegible]ksiyyət olub, böyük Xun xaqanı Metenin atasıdır (4, 56, 63). Bundan 2 əsr öncə Elam dövlətini *Urtakla* birlikdə *Tuman* adlı hökmdar idarə edirdi (5, 68; 6, 323-325).

İqrarın və Sumbatzadə Əlisöhbət Sumbatoviçin davamçıları iddia edirlər ki, Türkiyə ilə Çin arasında 10 min km məsafə var. Ona görə də Tanrı dağlarındakı duman nəsli ilə Anadoludakı Duman ölkəsi arasında tarixi bağlar ola bilməz. Onlar nəzərə almırlar ki, kainatda hər şey hərəkətdə olduğu kimi, insanlar da daim hərəkətdə olmuşdur. Avrasiyada bir-birinin xarabalıqları üzərində yüksələn sivilizasiyalar etnosların miqrasiyaları nətijəsində yaranmışdır.

Duman etnosu haqqında bizə məlum olan ilk bilgilər e.ö – XIV-XIII əsrlərə aid Xett gil lövhələrindədir. Həmin mixiyazılı kitabələr Kızıl İrmak çayı sahilindəki Boğazköy kəndindən tapılmışdır (7, 3-12). Lövhələrin birində göstərilir ki, tumanlar xettlərin qonşuluğunda yaşayırlar. Onların ölkəsi Babil mənşəli Xett yazılarında *Tummania* adlandırılır (8, 104, 180). Başqa bir lövhədə qeyd olunur ki, *Dumanna* vilayəti və şəhəri Bala tayfasının yaşadığı düzənlikdə yerləşir (9, 128).

Xett yazılarında son hejalar daha çox samitlərlə başlayır. Ona görə də duman etnonimi gah dumanna, gah da tummania şəklində yazıya alınır. Sözlərin sonundakı -a, -ia sillabik formantları totem tanrıların adlarından etnonimlər yaradır (9, 41, 133; 10, 22, 57). Məlum olur ki, Dumanna, Tumania «totemi duman olan», «dumana tapınan nəslin yurdu» deməkdir.

Oğuzlar da monoteizmə qədər dumana sitayiş edər, öz oğlanlarına duman adı qoyardılar. Bu etiqadın izləri Əbülqazi Bahadur xanın türkmən qojalarının dilindən qələmə aldığı şəjərədə qalmışdır. Kayı İnal xanın oğluna ad qoyarkən Dədə Korkut deyir ki, düzdür, duman olanda ətrafı görmək olmur. Anjaq duman çöllərə nəmlik gətirir, otlar göyərir, sürülər otlayıb çoxalır (3, 11; 11, 71). Dumana olan ikili münasibət başqa antroponimlərdə də özünü göstərir. Çobanilərin *Kor Duman* (XIV əsr) adlı xanı olmuşdur. Övliya Çələbi (XVII əsr) yazır ki, onun qəbri Ərzincan yaxınlığında indi də durur (12, 246).

Bəzi tədqiqatçılar belə hesab edirlər ki, Tumanın qalası Dədə Qorqud dövrünün toponimidir. Əslində isə duman şəhəri, qalası və ölkəsi indiki Türkiyə ərazisində «Oğuznamə»lərin yaranışından 2 min il qabaq mövcud idi. Bir zaman Orta Anadoluda yaşayan duman nəsli makedoniyalılar və sasanilər tərəfindən Qafqaz dağlarının şimal və qərb ətəklərinə sıxışdırılmışdır.

Fikrimizcə, Gürcüstanın Dumanisi rayonu dumana tapınan soydaşlarımızın qədim yurdudur. 1721-ci ildə Osmanlı ordusu qərargahının tərtib etdiyi vergi dəftərində göstərilir ki, *Tumanis* qala və nahiyədir (13, 157). -is, -os yunan mənşəli şəkilçidir (15, 201; 24, 163). Gürcülər sonradan Duman mahalının adına -i səsi artırıblar. Rusiya Coğrafiya Cəmiyyətinin tərtib etdiyi lüğətdə Axalsix qəzasında qeydə alınan gölün adı Dmanisi və ya Tumanis yox, Tuman şəklində göstərilmişdir (16, 256).

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sasanilər Duman nəslinin bir hissəsini Bizans sınırlarından Dağıstana köçürtdülər. A.Bakıxanova görə, Dağıstandakı Tumanlar kəndi Ənuşirəvanın bura köçürtdüyü *Tuman* tayfasından qalmadır (17, 21). Tarixçi yazır: «Ənuşirəvan Səməndər, Sulak, Koysu, Balk, Tarku və başqa qalaları Tuman tayfasına tapşırıb, oranı *Tuman şah* adlandırdı (17, 44).

IX-X əsr ərəb səyyahlarının yazdıqlarına görə, Tuman qalası Dağıstanın şimal-qərbində yerləşmişdir. Əhməd ibn-Asam əl-Kufi (-926) yazır: «Mərvan ibn Məhəmməd Sərirdən sonra Tuman qalasını tutdu. Qalanın hakimi hər il Dərbəndə gəlib, xilafətə xərac verməli idi (18, 55).

Tarixi mənbələrin tədqiqi göstərir ki, dumana tapınan soydaşlarımız Gürcüstanda gürcülərin hakim milləti olan baqrationlardan – İudeya çarı Davidin törəmələrindən qabaq yurd salmışdır.

Paralelləri Ön Asiyanın mixiyazılı kitabələrində mövcud olan «Oğuznamə» eponimlərindən biri kürdür. Əbülqazi Bahadur xanın yazdığına görə, Oğuzun bir əmisinin adı *Kür xan* olmuşdur (3, 63; 19, 41). Bundan əlavə, Səlcuq Məhəmməd Taparın və oğlu Sultan Mahmudun dövründə (XIII əsr) Aşağı Zab çayı sahilindəki Bəvaric qalasının hakimi *Kür* Yavı bəy idi (27, 145).

Azərbaycanın 2 ən böyük çayının – Kür və Arazın adları teonim mənşəlidir. E.ö. I minilliyin mixiyazılı kitabələrində Kür çayının yuxarı axarında *Kür* (1, 330; 5, 36), Araz çayının yuxarı axarında *Araz* ölkəsi (1, 417; 2, 272) yerləşirdi. Urartu qayaüstü yazılarında həm Kür (mətndə *Quria*), həm Araz (mətndə *Araza*) nəsillərinin adları dinqir, yəni tanrı ideoqramı altında göstərilir (2, 272; 20, II). Dinqir Quriani «tanrı Kürə sitayiş edənlərin ölkəsi» deməkdir.

Skiflərin də Kürə və Araza uyğun tanrıları vardı. Kür yaradan – Araz məhv edən, Kür gözlərə işıq verən – Araz gözləri kor edən, Kür çöllərə nəmlik gətirən – Araz quraqlıq yaradan, Kür insanlara gənclik verən – Araz adamları qocaldan tanrılar idi (21, 413).

Tarixi mənbələrdən görünür ki, Kür ilahə, Araz tanrı kimi təsəvvür olunmuşdur. Qırğızlar mifik cənnət qızını *Kur kızı* adlandırırdılar (22, 447). Koroğlu obrazının arxaik versiyası olan Goroğlu gorda doğulur. Gor sözünü dar mənada – qəbir anlamında başa düşmək doğru olmazdı. Yer altında, yəni gorda, cənnətdə Kur kızı alp igidləri doğurdu. Onların gözlərinə işıq, qollarına qüvvət verirdi. Dastanın son versiyalarında ilahə Kur kızı unudulmuşdur. Çünki o, İslam təfəkkürünə uyğun gəlmirdi.

İlahə Kur xristianlıqdan öncəki h'ayların (indiki ermənilərin yox) panteonunda da vardı. Assur kitabələrində *Qur,* Urartu yazılarında Kur (8, 123) adlandırılan həmin ilahə «yeraltı dünyanın sahibəsi» sayılırdı (9, 25, 89). Özlərini Ayküz xanın övladları sayan h'aylar (23) ilahənin bütlərini də *Kur* adlandırırdılar (26, 143; 28, 15-16). Q.B.Caukyan belə hesab edir ki, Urartu kitabələrindəki *dinqir Qur* h'ay teonimidir (25, 63). Nikita Emin yazır ki, *kurq* kurların – bütlərin cəmidir. H'aylar əcdadların kur adlandırdıqları bütlərini daşdan və metaldan düzəldərdilər (26, 255-256).

Q.A.Melikişvili belə hesab edir ki, mixiyazılı kitabələrdəki *Kur* və *Quria* ayrı-ayrı ölkələrdir. Qur ölkəsi Çıldır gölü yaxınlığında, Kur ölkəsi isə Kiçik Qafqazda yerləşmişdir (1, 427, 438). İ.İ.Meşşaninov belə hesab edir ki, Gur (mətndə *Guriani*) mixiyazılı kitabələrdə «gölün o tərəfində», yəni Albaniyada yerləşən 19 ölkədən biridir (33, 56).

Bizim fikrimizcə, assurların gur, xaldların kur adlandırdıqları eyni etnosdur. Onlar 2 yerə bölünərək bir hissəsi Qərbi Gürcüstana, bir qismi Albaniyaya köçmüşdür. Onlar Göyçə gölü yaxınlığındakı Alçalı və Atamxan kəndlərindən tapılan kitabədə Urartuya düşmən olan etnos kimi xatırlanırlar (1, 330; 5, II, 31, 45, 54; 32, 70).

Orta əsr mənbələrində Qərbi Gürcüstandakı kurların ölkəsi *Quria* və *Quriel*, onların Albaniyadakı soydaşları isə *kur*, *kur tarqar*, nəhayət *kür* adlandırılır. Övliya Çələbi yazır ki, Gürcüstanda yaşayan quriellər David peyğəmbərin nəslindəndirlər (12, 184). Müqayisə üçün bildiririk ki, bəzi qazaxlar da Çingiz xanın nəslindəndirlər. Bu, o demək deyil ki, qazaxların hamısı monqol, qurların hamısı yəhudidir. Quriada baş verən etnik çarpazlaşmalarda yəhudi ünsürü üstünlük təşkil etdiyindən qurların dili gürcü dilinə xeyli yaxınlaşmışdır. Cənubi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dağıstandakı Kür dili isə Yafəs dillərindən biridir (32, 57; 35, 8-9; 36, 153). Kür dilində keçən əsrin 20-ci illərində yüzlərlə türk sözü qeydə alınmışdır (35, 6-19).

Qərbi Gürcüstandakı Qur elindən fərqli olaraq Albaniyadakı Kür eli IV-VI yüzil Suriya kilsə salnamələrində köçəri tayfa kimi göstərilir. Mitilenli Zaxari yazır ki, *Kur Tarqar* tayfası Dadu (Dağıstan hüdudlarında çadırda yaşayır (44, 165).

Kür tayfası indi də həmin ərazidə – Dağıstanın Kür bölgəsində yaşayır. Hacı Zeynalabdin Tağıyevin ikinci xanımı Kür bəylərindən birinin qızı idi. Osmanlı səyyahı Övliya Çələbi yazır: «Kür ölkəsi Dağıstanla Gürcüstanın arasındadır. Əhalisi müsəlmandır. Onlar boy-buxunlu, yaraşıqlı adamlardır. Qadınları adətə görə evdən çölə çıxa bilməzlər.

Kürlərin bir boyu Azərbaycan, bir boyu qazax xalqının mənşəyinə daxil olmuşdur. V.V.Radlov 1861-ci ildə qazaxların ulu cüz tayfa birliyinin tərkibində *Kur ulus* boyunun yaşadığını görmüşdü (34, 730). XX əsrin əvvəllərində Bakı qəzasında köçəri Kür elinin bir binəsi qeydə alınmışdı (36, 9). Yəqin ki, onların yaylağı Dağıstanda olmuşdur.

Paralelləri Ön Asiyanın ölü dillərində qeydə alınan ən dəyərli eponimlərimizdən biri Manasdır. Bu eponim həm türk dastanlarında, həm mixiyazılı kitabələrdə iki cür – *Manas* və *Manak* formalarında yazıya alınmışdır.

Bizim üçün xüsusilə maraqlıdır ki, Manna dövlətinin adı Assur mənbələrində daha çox Manas, Urartu kitabələrində Mana kimi göstərilmişdir (1, 223; 38, 30). III Salmanasarın Urmiya bölgəsinə yürüşünü təsvir edən kitabədə hökmdarın dilindən deyilir: «Manalı Udaki canını qurtarmaq üçün qaçdı. *Manaş* ölkəsindən çıxıb, onların şəhərlərini tutdum (37, 30).

Yaxşı olardı ki, tarix dərsliklərimizdə Manna dövlətinin adı tarixi mənbələrdə olduğu kimi yazılsın. Belə olsa, onun türk etnotoponimi olduğu açıq-aydın görünər. Öz dərs kitabında Azərbaycanın ən qədim dövlətinin adının Manas olduğunu görən tələbə istər-istəməz düşünəcək: «Nəyə görə mənim dövlətimin və dastanamın adı eynidir? Nə üçün həm Xəzər xaqanı, həm də Qəbələ yepiskopu Manas adı daşıyırdı? Hansı səbəbdən «ermənilərin» bir şəhəri Manaskert adlanırdı?

İuda dininə iman gətirən bir Xəzər xaqanının soyadı Manas (yəhudi mətnlərində *Manassiya*) olmuşdur (38, 8, 64). Manassiya «ərvahı Manas olan», «Manas övladı» deməkdir. Bundan 450 il öncə – 488-ci ildə Bərdə yaxınlığında keçirilən kilsə məclisində Kapalak (Qəbələ) yepiskopu *Manas* iştirak etmişdi (39, 58, 72; 40, 24).

Balaca Sumbatzadələr hələ də iddia edirlər ki, qədim Albaniyada bircə nəfər türk olmayıb. Onlar bizə inanmırlarsa, yəhudi tarixçisi Yusifə – İosippona müraciət etsinlər. İosippon min il bundan öncə yazıb ki, Xəzər xaqanı Manas yəhudi dinli türkdür (38, 8-12).

Folklorşünaslar Duxa Qoca oğlu Dəli Domrulun (41, 79) boyu ilə yunanların Teqenis əfsanəsi arasında bir çox uyğunluqlar görmüşlər (42, 199). Ancaq tarixi mənbələrin tədqiqi göstərir ki, bu sadəcə şifahi xalq ədəbiyyatına xas olan sücet oxşarlığı deyil. Duxa nəslinin müsəlman qolu türklərin, xristian qolu yunanların arasında yaşamışdır. İslam dininə iman gətirənlər Tuva və başqurd xalqlarının formalaşmasında iştirak etmiş, xristian duxalar yunanlar arasında assimilyasiya olunmuşdur. Bizansın yekcins xalq olmadığını yaxşı bilən Göytürk xaqanının qardaşı Bizans səfirinə demişdi: «Siz yunanlar 10 tayfasınız və bizimlə 10 dildə danışırsınız».

V.V.Bartold yazır ki, *Duka* məşhur Bizans nəslidir (42, 199-201). Bizim fikrimizcə, Duxa türk nəslidir. Onların Anadoluda yaşayan hissəsi xristian olduğundan yunanlarla siyasi ittifaqa girmişdir. V.V.Bartold 1862-ci ildə müşahidə etmişdi ki, tuvalar özlərini *Tuxa* adlandırırlar (42, 633). Vaxtilə Tatarıstanın Aktanış rayonunda Töke kəndi vardı. Q.F.Sattarov belə hesab edir ki, *Toke* başqurd nəslidir (43, 18).

Duxa Qoca eponiminin paralelləri Urartu qaya yazılarında *Duka,* Xett gil lövhələrində *Dukama* formasında yazıya alınmışdır. Babil mənşəli yazılarda -ma, -na hecaları teonimlərdən etnik adlar yaradır (9, 41, 58, 133, 146). Deməli, *dinqir Dukama* «tanrı Dukanın övladı» kimi başa düşülməlidir.

Urartu çarı I Argişti e.ö. VIII əsrin əvvəllərində *Duka* şəhərinə basqın etmişdi. Duka şəhəri o zaman Urmiya gölünün cənubunda yerləşirdi (37, 126).

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Türk dastanlarına yalnız əcdadlarımızın obrazlı təfəkkürünün məhsulu kimi baxmaq olmaz. Onlar keçmişimizin tarixi mənbələrlə təsdiq olunan salnaməsidir.

**İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT**

1. Меликишвили Г.А. Урартские клинообразные надписи. М.,Изд-во АН СССР,1960,504 с.
bu işi axırısı.
Böyük rəhbər seçildi
An-özcə ataları,
Oldu məsləhətçisi
əsgər Enlil onların.
Mələklərin üstündə
böyük oldu Ninurta,
Nəzarətçi qoydular
üstəlik Nerqalı da.
Əllərini üst-üstə
qoyub bir gün tanrılar,
Püşk atıb bu işləri
hamıya payladılar.
Göylərin ağalığını
götürdü Anın özü,
Enlilin oldu bütün
göyün altı, yer üzü.
Suların çəkilməsi,
Okeanın qapısı,
Hökmdar kimi Enkiyə
tapşırıldı hamısı
An öz işini görüb
qalxdı uca göylərə,
Enki də ordan birbaş
endi dərinliklərə.
Onlar uca göylərdən
gələn annunaklar,
Mələklərin boynuna

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ağır işlər qoydular.
Mələklər başladılar
çay yatağı qazmağa,
Ölkəyə can verəcək
kanallar yaratmağa.
Çayların yatağını
mələklər qazırdılar
Kanallar çəkməyə
can-başla hazırdılar.
Onlar Dəclə çayını
gencə-gencə qazdılar,
Sonra Fərat çayını
pəncə-pəncə qazdılar.
Mələklər çalışdılar
suların lap dibində,
Bir məbəd ucaltdılar
onlar da Enki üçün,
Abzunu ucaltdılar
sularda Enki üçün

***

Onlar həmin məbədi
göylərə qaldırdılar.
Ağır-ağır işlərə
dözdülər onlar on il,
Ağır-ağır işlərə
dözdülər iyirmi il.
Ağır-ağır işlərə
dözdülər düz otuz il. (8, s.95-96)

Mələklər düz iki min beş yüz il bu ağır işlərə birtəhər dözürlər, lakin artıq bezirlər. Palçıqda, bataqlıqda, tozda, torpaqda işləmək onlarda mələklik qoymur. Yavaş-yavaş Enlildən şikayətlənirlər, onun vəzifəyə düzgün qoyulmadığını dilə gətirirlər, onu dəyişmək tələbləri səslənir. Külünglərini sındırıb, bellərindən tonqal çatıb, zənbillərini oda atıb Enlilin məbədinin qapısına yığışırlar. Mələklər burda əməlli-başlı üsyan qaldırırlar, hətta bu işlərdən ölüm qoxusu gəlir. Enlil yubanmadan böyük tanrıları yanına çağırır. An gəlir, Enki gəlir. Ninurta, Nerqal gəlir. Hətta böyük tanrıların burdakı söhbətlərindən bəlli olur ki, mələklər Enlilin öz oğlanlarıdı. Enlilin məsləhətçisi Nusku Enlilə deyir ki, sən öz oğlanlarından niyə qorxursan?”

Mələklər özləri də bir-birini qardaş sayırdılar. Ağır işlər görüb bezdikdə mələklərin ağsaqqalı öz yoldaşlarına “qardaşlarım” deyə üz tutmuşdur. Bu məqamları ona görə xatırladıram ki, onlarda insanın yaranmasının çox incə sirləri gizlənmişdir. Bunlar yeri gəldikcə öz-özünə çözələnəcək. İndi görək tanrılar yığışıb nə qərara gəldilər?

Enlil xaraktercə davakardı, biz bunu onun bütün əməllərində görürük. Hətta Tufanı da o törətmiş, bütün insanları o məhv etmişdir. Burda da eyni fikrə düşür, mələkləri öldürmək istəyir, An da, Enki də onunla razılaşmırlar. Mələklərə doğrudan da ağır işlər tapşırdıqlarını, əslində onlara işgəncə verdiklərini boyunlarına alırlar. Axı mələklər çox zərif, çox incə varlıqlardı, onların gördükləri işlər mələk işi deyil. Enlil davakarlığından dönmək istəmir və deyir:

Çağırtdırdı Anı da,
göydən endi yanına,
Gözlərinin önündə
Enki baxırdı ona.
Oturdu aşağı An
bu göylərin yiyəsi.

Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Qulaq kəsildi Enki-
o Absunun yiyəsi
Böyük Annunaklar da
oturdular sırayla,
Danışdı bu mətləbdən
Enlil qalxıb harayla.
Enlil açdı sandığı,
tökdü pambığı necə,
O böyük tanrılara
söylədi bax beləcə:
“Burda nələr baş verir,
mat qalmışam bu işə,
İndi mən atılmalı
deyiləmmi döyüşə?!
Nələr görür gözlərim,
inana bilmirəm mən,
Kəsib mənim qapımı
dava gəlib indidən.” (7, s.98)

An Enlili sakitləşdirir, o atasının tapşırığıyla Nuskunu mələklərin yanına göndərir ki, onların dərdini öyrənsin. Nusku öyrənir ki, onların bircə dərdi var- ağır işlərdən beziblər, o çətinliklərə daha dözmürlər. An da, Enki də mələklərin işinin ağır və dözülməz olduğunu təsdiqləyirlər.

“An açaraq ağzını,
qəlbində bir xoş dilək,
Tanrı qardaşlarına
nələr söylədi görək:
Niyə, niyə onlara
pislik etməliyik biz?
İşləri lap ağırdı,
əzabları böyükdü,
Hər gün zənbil daşımaq
onlara ağır yükdür.
Ahlarını eşidir,
Göz yaşlarını görrük.
Yaratsın insanı öz
ulu nənəsi gərək,
Tanrıların yükünü
biz də onlara verək.” (7, s.100)

İnsanın yaranması ilk dəfə burda ortaya çıxır. Ata tanrı An insanın ulu nənəsini yada salır. Deməli, insanı yaratmaq problemi yoxdur. Onun ulu nənəsi var, qadın var, ana var. Əsərdə həmin “ulu nənə”, insanı yaradacaq ana Nintidir. Onu çağırır və insanı yaratmağı tapşırırlar:

Enki açdı ağzını
qəlbində bir xoş dilək,
Tanrı qardaşlarına
nələr söylədi görək:
Niyə, niyə onlara
pislik etməliyik biz?
“İşləri lap ağırdı,
əzabları böyükdü,
Hər gün zənbil daşımaq
onlara ağır yükdü.
Ahlarını eşidirik,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

göz yaşlarını görrük.
Dursunlar qabağında
qoy Annunaklar yenə,
Tanrıların nənəsi
Nintu çıxsın qoy önə.
O yaratsın insanı,
yaratsın qoyun görək,
Tanrıların yükünü
biz də onlara verək.
Tanrılar görən işi
tapşıraq insanlara.
Qoyun insanlar çəksin
boyunduruğu daha
İnsanların nənəsi
Nintu öndə duranda
İnsanların nənəsi
insanı yaradanda,
Tanrıların zənbilini
daşıyarlar insanlar."
Qışqırıb çağırdılar
tanrı ananı onlar,
Allahlar mamaçası
o ağıllı Mamanı:
"Ay insanın nənəsi,
yarat, yarat insanı!
Yarat insanı, verək
ağır yükləri ona,
Enlilin tapşırdığı
işi çəksin boynuna:
Daşısın tanrıların
zənbilini insanlar!" (7, s.100-101)

Ən maraqlısı odur ki, Ninti insanı yaratmağa razı olur, ancaq onu təkbaşına yarada bilməyəcəyini söyləyir. O, "insanı yalnız Enki ilə birlikdə yarada biləcəyini" vurğualyır. Ninti qadındı-anadı! Enki kişidi-atadı! Deməli, insan bic deyil, anası da var, atası da:

Ninti açdı ağzını
qəlbində bir xoş dilək,
O, böyük tanrılara
necə söylədi görək:
"İnsanı təkbaşına
yarada bilmərəm mən,
Lakin Enkiylə birgə
gələrəm öhdəsindən." (7, s.101)

Bu kiçik parçada insanın ata və ana başlanğıcından yarandığı öz aydın ifadəsini tapıb. Doğrudur, poemanın sonrakı parçalarında insanın gildən-palçıqdan yaradıldığı vurğulanır, ancaq orda çox gizli, örtülü saxlanmış bir mətləbə göz yummaq olmaz. Bu da ondan ibarətdir ki, Ninti tanrılardan birinin qanını gillə yoğurur və insanın mayası tanrı qanı ilə gildən qoyulur. Tanrı qanı burda geni bildirir: İnsan tanrı qanından, tanrı genindəndi. Gil məncə, ana bətnini ifadə eləyir. Buna poemanın sonrakı parçlarında rast gəlinir. Yoğrulmuş palçıq, mayalanmış rüşeymdən başqa bir şey deyil. O doqquz ay, doqquz gün ana bətnində qalır, böyüyür və bu da uşağın ana bətnində qaldığı müddətə tam uyğun gəlir. Bəs gilin sirri nədədi? Niyə məhz gil?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Poemanın başlanğıcında mələklərin Enlilə qarşı necə qəzəbləndiklərini, üsyan, hətta qiyam qaldırdıqlarını gördük. Mələklər tanrıların öz övladlarıdır, onlar ağır işlərə, əzab-əziyyətlərə dözməyib öz atalarından-Enlildən intiqam almağa qalxırlar. İndi həmin ağır işlər, əzab-əziyyətlər boyunduruq kimi insanların boynuna taxılacaq. İnsan tanrı övladı olduğunu bilsə, o da sabah qiyama qalxacaq. Bax bu qiyamın baş verməməsi üçün tanrılar insanın guya gildən yarandığını önə çəkiblər. Lakin poemada təkcə o gildən yoğrulma səhnəsini bir kənara qoysaq, insanın elə bu gün bizim bildiyimiz qaydada ana bətnində mayalanmağından tutmuş doğuluşuna qədər hər şeyi aydın şəkildə təsvir edilmişdir. Gildən yoğrulma ana bətnində mayalanmanın obrazlı, poetik ifadəsindən başqa bir şey deyil.

Misir miflərindən danışan R.Antes də yazırdı ki, insanlar çox vaxt tanrıların övladı hesab edilmişdir. O, insanın gildən düzəldilməsi haqqındakı Misir mifinə belə münasibət bildirmişdir: “İnsanların tanrı Xiuma tərəfindən ayrı-ayrılıqda gildən yaradılması haqqında təsəvvürləri sonrakı dövrlərə aiddir və kosmoqonik deyil, yəni bu ilk insanın gildən yarandığını nəzərdə tutmur” (8, s.68). Bizə elə gəlir ki, Şumer miflərindəki gil də sonradan artırılmışdır. İlk miflərdə gil olmamışdır.

“Enki və Ninmah” əsatirində də insanların tanrılara qulluq etmək üçün yaradıldığını görürük. Bu mifdə də ilk insanı Ninmah düzəldir və Enki onun taleyini müəyyənləşdirir (9, s.61-62).

Şumer mifinə görə, ilk dəfə yeddi kişi və yeddi qadın yaranmışdır. Sonra onlar cüt-cüt evlənmişlər və görünür, onlardan hərəsi bir tayfanın başlanğıcını, əsasını qoymuşdur.

Poemada insanın doğulması da bədii boyalarla verilmişdir. Lakin bu boyalar həqiqi mənzərəni gizlətmək yox, daha gözəl ifadə etmək məqsədilə seçilmişdir. Aşağıdakı parça bunu aydın göstərir:

Doğacaq tanrıları
bir yerə toplayaraq,
Nintu özü oturub
günləri sayırdı bax.
Taleyi gözləyirdi-
tale o doqquz aydı.
Elə ki gəlib çatdı
o doqquzuncu ay da
Qoyulmuş həmin vaxtda
qucaqlar da açıldı,
Sevinc işıq saçırdı,
şadlıq işıq saçırdı.
Başını bağlayaraq,
mamaçalıq edirdi
Belini sarıyaraq
xeyir-dua verirdi.
Nintu unu da səpdi,
kərpicləri də qoydu.
“Bunu özüm yaratdım,
öz əllərim yaratdı.
Mamaça gəlib kahin
qızın evinə çatdı.
Doğmağa başlayarlar
o vaxt boylu qadınlar
Yükünü yerə qoyub
azad olarlar onlar.
Doqquz gün qabağına
mütləq kərpic qoyarlar
İnsanların nənəsi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nintunu da öyərlər.
Onun bacısı tanrı
Mamanı çağırarlar,
Mamanı da öyərlər,
Keşi də uğurlarlar.
Keş də arvad alanda,
qız da ərə gedəndə,
İştar şadlıq eləsin
qayınata evində.
Doqquz gün, doqquz gecə
bu şənlik də uzanar,
İştarı da İşxara
adıyla çağırarlar.
Hər taleyin adına
bir tarix yazılıbdı.” (7, s.103)

Bu parçada kişinin arvad alması, arvadın ərə getməsi, onların bir yastığa baş qoyması, uşağın ana bətninə düşməsi, doqquz ay, doqquz gün orda böyüməsi, boylu qadının öz yükünü yerə qoyması, bu doğumun şadlıqla, şənliklə keçirilməsi o qədər real bədii ifadəsini tapmışdır ki, elə bil poema beş min il öncə yox, lap bizim günlərdə yazılıb. Poema beş min il öncə yazıya alınsa da, onun tarixi daha qədimdir. Əsər yəqin ki, neçə min il də ağızlardan ağızlara ötürülə-ötürülə yaşamışdır. Çünki yazı kəşf ediləndə bu əsərlər bizim oxuduğumuz şəkildə yaddaşlarda mövcud olmuşdur. Bu cür bitkin, gözəl bir şəklə düşənə qədər də sözsüz ki, min illərlə yaddaşlarda cilalanma, püxtələşmə yolu keçmişdir.



*Tanrı Ninmax doğduğu ilk uşağı göstərir ki, bunu mən yaratmışam*

Poemadakı Mama adı çox maraq doğurur. Doğum işinə məhz o baxır, daha doğrusu, mamaçalıq edir. Dilimizdə işlənən mamaça sözü məhz onun adına “ça” sözdüzəldici şəkilçisi artırılmaqla yaranmışdır. Deməli, mamaça alınma yox, təmiz türk sözüdür.

Doğumu və körpə uşaqları sevgi- məhəbbət tanrısı İnannanın himayə etdiyi də öz əksini tapmışdır ki, bu digər Şumer qaynaqlarında İnannanın vəzifəsiylə üst-üstə düşür.

## QAYNAQLAR

**1.** Arif Əliyev. Şumer dastanları. Bakı, 2007.
**2.** Rzasoy Seyfəddin. Oğuz mifi və ata sözləri. “Dədə Qorqud”, 2005,№1, s.66-72.
**3.** “Kitabi-Dədə Qorqud”, Bakı,1978.
**4.** Эрих Церен. Лунный бог. Москва. 1976.
**5.** Böyük Türk klassikləri. Ötükən.
**6.** Афанасьева В.К., Дьяконов И.М., Вейнберг И.П. Культура Передней Азии к первой половине 1 тысячелетия до н.э. //История Древнего мира. Москва, 1982, с.92-127.
**7.** Я открою тебе сокровенное слово. Москва. 1981.
**8.** Антес Р. Мифология в Древнем Египте. МДМ, с.55-121.
9. Nağıyev Cəlil. Qədim Şərq ədəbiyyatı tarixi. “Asiya” nəşriyyat

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# RUMINİYA TÜRKLƏRİNİN DASTANLARINDA İGİD VƏ AT MOTİVLƏRİ

***JALƏ İSMAYILOVA***

Dobrucada (Rumıniya və Bolqarıstanda türkmənşəli xalqların məskunlaşdığı ərazi) yayılmış dastanlar digər türk xalqlarının folklorunda mövcud olan dastanların bir qədər fərqli süjetə malik qollarından ibarətdir. «Koroğlu», «Edige Batır», «Çora Batır», «Kozı Körpeş», «Adil Sultan» və digər dastanların motivlərinə Altaydan Qafqaza, Anadoludan Balkanlara bir çox türk xalqlarında rast gəlinir. Bu fakt özlüyündə Rumıniyada yaşayan türklərin əcdadları haqqında lazım olduğundan artıq məlumat verir.

Rumıniya türklərinin ədəbiyyatı müxtəlif türk mədəniyyətlərinin sintezindən ibarət olduğu üçün maraqlı bir xarakterə sahibdir. Belə ki, Krım tatarları və Anadolu türkləri üstünlük təşkil etməklə müxtəlif türk tayfaları əsrlər boyu bu əraziyə köç etmiş və özlərinə məxsus mədəniyyətin, o cümlədən, folklorun bölgədə yayılmasına səbəb olmuşlar.

Dobrucada yayılmış dastanlar öz xarakterik xüsusiyyətlərinə görə bizə məlum olan, məsələn, bir çox Azərbaycan dastanları ilə ciddi fərqlərə malik deyillər. Hətta mübaliğəsiz demək mümkündür ki, bütün türk məskənlərində türkün tapındığı dəyərlər eyni olmuşdur. Bu səbəbdən də dastanlarda tanış motivlərə (at, silah, igidin xanımı, qeyri-adi varlıqlar, gələcəkdən xəbər verən falçılar və s.), oxşar süjet xəttinə (sevgilini axtarıb tapmaq, yuxuda gələcəyini görmək, kasıblara əl tutmaq, əzilən xalqı müdafiə etmək, vətən üçün ölümə getmək və s.), başqa dastanlarda qarşılaşdığımız qəhrəmanlara (Koroğlu və s.) rast gəlinir. Dastanların araşdırılmasında rast gəlinən başlıca problem onların çoxvariantlı olmasıdır. Təkcə «Koroğlu»nun 500-dən artıq versiyası mövcuddur (1). Dobruca türklərində də bu dastanın bir neçə variantı vardır. Həmçinin, «Çora Batır», «Edige Batır» dastanlarının bir neçə – Kazan, Dobruca, qaraqalpaq, çərkəz və s. – versiyası məlumdur (2). Biz əldə etdiyimiz variantlar üzərində igid və at motivləri haqqında danışacağıq.

Bütün türk dastanlarında olduğu kimi Dobrucada yayılmış dastanlarda da xalq içindən çıxmış qəhrəman və onun atı haqqında geniş danışılır, dastan boyu onların vəsfinə xüsusi yer ayrılır. Onlar həm də əsərin əsas qəhrəmanları olurlar. İgidin üstünlükləri sırasında da onun yaxşı at sürməyi diqqətə çatdırılır. «Edige Batır» dastanında falçı qarının Toxtamış xan üçün Edigeni təsvir etməsinə baxaq:

Bu oğlanın kürəyi geniş
Yaxşı yay çəkər bu oğlan
Gözləri qıyıq bu oğlanın
Yaxşı at minər bu oğlan
Alnı çıxıq bu oğlanın
Çox cəsurdur bu oğlan
Ovcu böyük bu oğlanın
Mərdanədir bu oğlan
Tezliklə çarəsini tapmasan
Tezliklə sürgünə göndərməsən
Ailəni yıxar (yox edər bu oğlan) (3)

Göründüyü kimi, qəhrəmanın fiziki göstəriciləri onun hər hansı bir qabiliyyətilə xarakterizə olunur və bu əlamətlər onun başqalarından seçilməsi anlamına gəlir. Ümumiyyətlə, dastanlarda qəhrəmanın adi insanlardan seçdirilməsi – onların qeyri-adi gücə, qeyri-adi fiziki ölçülərə sahib olması, cəsarət göstərmələri, ağıllı və uzaqgörən olmaları bir qayda olaraq geniş istifadə olunan üsullardır. Hətta dastan tarixi şəxsiyyətlərin qəhrəmanlıqları üzərində yaradılsa da, real həyatda yaşamış insanların qabiliyyətləri də şişirdilir.

Sevgi dastanı hesab olunan «Kozı Körpeş» dastanının variantlarının birində qəhrəmanın təsvirini arvadının dilindən eşidirik. Ədalətli xanlıq dövründən sonra vəfat etmiş Kozının arvadı Bayan Sultan onun türbəsinə girir və dünyadan köçmüş ərini bu cür x

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Aslan ürəkli, fil kimi güclü,
Bütün düşmənlərindən intiqam almış
Bədəni polad, beyni qızıl,
Tələb ilə el almış
Könlü saray, qorxu ziyadə,
Nəsli nurdan yaradılmış
Gözəlliyilə nurunu görən insanın,
Ağlı başından gedib baxmış
Xasiyyətini, ağlını bilən insan,
Əlində olmadan bağlanmış

Bəzi məqamlarda qəhrəman özü-özünün kimliyini nişan verir. «Edige Batır» dastanında Edigenin oğlu Nuradin buna misal ola ilər. Qan düşməni Kadırberdi ilə döyüşdən əvvəl başlayan deyişmədə deyir:

Mən anamdan qapqara doğulmuşam
Sabunlayıb yusan ağarmaram
Mən gurlaramsa çox sərt
Borandan sərt gurlaram.
Düşmənə gələn buludam
Yağmasam durmaram

Yaxud «Koroğlu»nun özünü Bolu bəyinə tanıtması məqamına baxaq:

Koroğludur axıdır düşmən qanını
Sağ buraxmaz heç bir bəyin canını
Qırar vəzirlərini, tutar xanını
O da çətin deyil, mən Koroğluyam

İgid sevgidə sədaqətlidir. «Kozı Körpeş» dastanında qəhrəman öz göbəkkəsdisi Bayan Sultanı tapmaq üçün uzaq bir səfərə çıxır, bir çox mərhumiyyətlərə dözərək Bayana qovuşur. İgid vətənin dar günündə öndədir. «Çora Batır»ın qəhrəmanı ata-anasının, bacısının və arvadının yalvarışlarına baxmayaraq, Kazanın müdafiəsinə qoşulur və qalib gəlir. «Adil Sultan»ın qəhrəmanı Adil döyüşə atılmamışdan öncə ordusuna müraciət edir:

Qorxaqlar çadırda qalsınlar
Analarından doğulduqları günü düşünsünlər
Qoçaqlar düşmən üçün ayrılsın
Qorxaqlar çadırda otursun
Qorxmayanlar mənimlə
Qızılbaş deyilən düşmənə
Günorta vaxtı hücum etsin.

Bir qayda olaraq, qəhrəmanlar mükəmməl təsvir olunur. Onlar hər zaman ədalətli qərar çıxarır, xalqla mehriban davranır, yalnız düşmənlərini incidir. Fikrimizcə, bu cür təsvirlər həm də xalqın ədalətli rəhbər arzusu ilə əlaqələndirilməlidir - arzuladıqları kimi bir başçı görmək.

Türk dastanlarında igidə tay tutula biləcək yeganə personaj atdır. Hətta sevgi dastanlarında belə sevglisini tapmaq üçün aşiq mütləq yaxşı bir atla yola çıxır. Dastanlarda igid atla xatırlanır, atı igidə görə tanıyırlar. Bəzi nümunələrə baxaq: Oğuz Xaqan və Alaca At, Alpamış və Baysubar, Alp Manas və Ağ Boz At, Ər Töstük və Çal Quyruq, Edige və Tim Çuvar, Ural Batır və Ağ Boz At, Koroğlu və Qırat...(4)

Türklərin ata bu qədər önəm verməsi təbii ki, onların həyat tərzlərilə birbaşa bağlıdır. Köçəri həyat tərzi keçirən türklər atdan həm minik vasitəsi, həm yük daşımaq üçün, eyni zamanda, ətindən, südündən istifadə edirdilər. Dastanlara gəlincə, at döyüş meydanında igidin ən yaxşı köməkçisidir, düşmən hiyləsindən daha tez duyuq düşərək sahibinə xəbər verir, igidə sadiq qalaraq belinə onun düşmənlərini almır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dastanların hamısında igidin olacaq at onunla eyni zaman kəsiyində böyüyür və əksər hallarda onunla bərabər də ölür. «Çora Batır»da Çoranın atası Narik yeniyetmə vaxtı bir bəyin yanında nökər işi tapır. Bəylə belə bir şərt kəsir. İşinin əvəzində 25 yaşına çatanda bəydən istədiyi bir atı alacaq və istədiyi yerdən qızla evlənəcək. Vaxt çatdıqda Narik ilxının içinə girib atları bir-bir quyruqlarından tutub atır. Heç bir at ayaqları üstündə yerə düşmür. Sonunda bir dayça ayaqları üstündə düşür. Maraqlıdır ki, dastanda Narikin atı niyə məhz bu üsulla seçməsi açıqlanmır. Yaxud «Koroğlu»da yeniyetmə Rövşənlə Qıratın həddi-buluğa çatması eyni vaxta təsadüf edir. Müəyyən vaxtda eyni çaydan su içdikləri üçün qeyri-adi gücə də bərabər olaraq yiyələnirlər.

Adətən qəhrəman özü atının qulluğunda durub böyüdür. Atı düşmən əlinə keçərsə, bunu özünə böyük dərd edir, hətta atını sazla-sözlə xatırlayır və mütləq ən yaxın dostunu düşmənin əlindən almaq üçün özünü təhlükəyə atır. Buna ən göəzl nümunə «Koroğlu» dastanıdır. Hansı bölgədə yayılmasından asılı olmayaraq, bütün variantlarda Koroğlu və Qırat ayrılmaz yoldaşdırlar.

Qəhrəmanların özlərindən başqa digər şəxslər də, əsasən elin ağsaqqalı və ya aşığı tərəfindən igidin atı mədh olunur. İstər qəhrəmanın özü, istərsə də başqa şəxslər tərəfindən ata qafiyəli formada (bu nümunələrin əksəriyyətini bitkin şeir kimi qəbul etmək çətindir) müraciət də diqqət çəkir. «Çora Batır»da Çoranın dilindən öz atı haqqında oxuyuruq:

Sarımsaq kimi azı dişli
Böyük qulaqlı
Bardaq kimi
Daim hərəkətdə olan ayaqlı
Yalı, quyruğu qaytan kimi
Qaçması şeytan kimi
Sağrısı qara təpə kimi
Qarşı tərəfi qara təkər kimi
Azava başını baxdırmış
Bəyə saçını daratmış
Yüyənli atı davayla minib getdi.

İgidin qəhrəmanlığı, at çapıb, ox atıb gözəl qılınc oynatması, bəzən düşməninə qarşı belə mərhəmətli olması kimi xüsusiyyətləri vəsf edildiyi halda atın qaçışı, duruşu, kişnərtisi, yalı təriflənir. Bu zaman gözəl təşbehlərdən istifadə olunur, bir at bir gözəl qadın qədər tərifə layiq görülür.

Qəhrəmanların və atların təsvirində, təbii ki, şişirtmələrə yer verilir. Bu da mədh obyektinə sonsuz sevgidən və hər bir dastanda reallıqla əfsanənin birgə yoğrulmasından irəli gəlir. Lakin istənilən halda bu dastanlar tamamilə uydurma deyildir, alt qatlarında xalqın keçmişini, yaşam tərzini, təfəkkürünü qoruyub saxlayır. Bu baxımdan hesab edirik ki, Rumıniya türklərinin dastanları ilə tanış olmaq, onları araşdırmaq Dobrucada yaşayan qardaş türk xalqlarını daha yaxından tanımaq üçün əvəzolunmaz vasitə və mənbədir.

**QAYNAQLAR:**

1. www.shahidov.com/?p=210
2. www.nogai.blogspot.com
3. http://nogai.blogspot.com/2008/06/blog-post_08.html
4. Özkul Çobanoğlu, *Türk Dünyası Epik Destan Geleneği*, Akçağ Yay., Ankara 2003, s.110.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# "KİTABİ-DƏDƏ QORQUD" DASTANINDA YER ALAN OBRAZLARIN SEMANTİKASI

***JALƏ QARAYEVA***

Şifahi yaradıcılığın əsas özəlliyi ibtidai düşüncədən qaynaqlanan mifoloji təsəvvürləri özündə ehtiva etməsi ilə bağlıdır. Dastanlar da bu mənada böyük informasiya qoruyucusudur. Dastanlar şifahi xalq yaradıcılığı nümunəsi olduğu üçün zamanla dəyişmələrə məruz qalaraq yeni interpretasiyalarda təqdim olunmuşdur. Dastanlarda arxaik motiv və süjetlərlə yanaşı obrazların da transformasiyası baş verir. Belə ki, ibtidai düşüncədən qaynaqlanan, totemistik, animistik düşüncə ve bır çok kult seciyeli elementlər motiv və süjetlərlə yanaşı qəhrəmanların adlarında da kodlaşdırılır

Türk dünyasının monumental əsərlərindən olan "Kitabi-Dədə Qorqud" dastanında da belə personajlar mövcuddur. Buna nümunə olaraq Dədə Qorqud, Beyrək, Basat, Sarı donlu Selcan Xatun, Bəkil obrazlarını qeyd etmək olar.

Bu obrazların adlarındakı məna çalarlarına nəzər saldığımızda aydın olur ki, Beyrək, Bəkil, sarı donlu Selcan xatun totemistik düşüncəni özündə ehtiva edir. Bu obrazlar zamanla dastan yaradıcılığına yeni interpretasiyalarda təqdim olunsa da onların ilkin funksiyaları adlarında kodlaşdırılmışdır.

Təhlilə cəlb etdiyimiz ilk obraz "Kitabi-Dədə Qorqud" dastanın önəmli personajlarından olan Dədə Qorquddur. Dədə Qorqud dastanda belə təqdim olunur: "Resul alehıselam zamanına yakın Bayat boyundan, Korkut ata deyerler, bir er kopdı. Oğuyun ol kişi temam bilicisiydi,-ne derse, olurdu. Ğaibden türlü haber söylerdi. " ( 2. s.31).

İlk ifadədə Dədə Qorqudun Rəsul Əleyhissəlam zamanında doğulduğu qeyd olunur. Dədə Qorqudla bağlı yaranan ilk rəvayətlər islamdan çox öncələrə məxsusdur. İslamın türk dünyasına yayılmasından sonrakı dövrlərdə təbii ki, ozanlar qədim rəvayətləri yeni formada, yəni islami çalarlardan istifadə edərək interpretasiya edirdilər. Bunun ardınca dastanda Dədə Qorqudun Bayat boyundan olması söylənilir. Türk tarixdən bəllidir ki, Bayat boyu 24 oğuz boyundan birinin adıdır. (7. s. 170). Türk dünyasının müxtəlif bölgələrində bu gün də bu boya məxsus tayfalar yaşamaqdadır.

Dədə Qorquduntəqdimatında maraqlı məqamlardan biri də 'Oguzun ol kişi temam bilicisiydi,-ne diyerse olurdu. Ğaıbden dürlü daber söylerdi' ifadəsi iolə bağlıdır.

Bu ifadə Dede Qorqudun kimliyindən və onun ictimai funksiyasından xəbər verir. Türk etnomədəni araşdırmalarından aydın olur ki, türklər ibtidai inanc sisemi baxımından şamançı dünyagörüşünə sahib idilər. El bilicisi şamanın əsas məziyyəti onun öncedenörme qabiliyyətidir. Bu qabiliyyət onlara varisliklə de keçə bilərdi. Amma bu mütləq deyildi. Çünki Şaman olacaq şəxs bu statusu yuxuda buta vasitəsi ilə qazanırdı. Söyləmələrə görə şaman olacaq şəxs bir neçə günlüyə ağır yuxuya dalardı. O yuxuda ikən ruhlar ona müxtəlif əzablar verirdilər, o yuxudan oyandığı zaman isə artıq şaman statusuna sahib olurdu. (4, 14). Onun başçılığı altında eldə müxtəlif mərasimlər icra olunurdu. Şaman mərasim zamanı transa girər, özünə gələn zaman isə tayfasının başına gələcək olaylardan xəbər verərdi.

Şamanın funksiyası bununla bitməzdi. O eynı zamanda advermə ayininə de qatılar, igidlik göstərmiş yeniyetməyə ad verərdi.

'Kitabi-Dede Qorkut' destanının "Dirse han oğlu Bugac boyu'nda igidlik göstərərək buğanı yenən Dirsə xanın oğluna Dədə Qorqud ad verir: 'Bayandır hanın ağ meydanında bu oğlan ceng etmişdür. Bir buğa öldürmüş senin oğlun, adı Buğac olsun. Adını ben verdüm yaşını allah versün (2, s. 36).

Dede Qorkut eyni zamanda evlilik mərasiminə də dəvət edilir, yaxud Dədə Qorqud elçiliyə göndərilir "Qamböre oğlu Bamsı Beyrek Boyu'nda Beyreye elçilik etmək vəzifəsi Dede Qorkuta həvalə edilir. Banuçiçəyin qardaşı Deli Karcar isə bacısını istəyən hər kəsi öldürür. Dede Qorqud elçiliyə getmək üçin Bayandır xanın axurundan iki

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bunda məqsədi budur ki, qaçma -qovma olursa birini minsin, digərini isə yedəkləsin. Onun getdiyi məkan adi yer deyil. Bura ayaqlıların gəlmədiyi, ağızlıların su içmədiyi yerdir. Bu söyləmədən belli olur ki, Dede Qorqudun getdiyi məkan onun soyundan kənarda yerləşir. Bu üzdən de buraya sadəcə Dede Qorkutun mistik atları ilə getmək olar.

Söylədiklərimizdən belli olur ki, el ağsaqqalı Dede Qorqud şaman obrazı ilə bağlıdır. Ayin zamanı ekstaza girən şaman ruhlarım məkanına mistik atla səyahət edərdi. Deli Qarcar isə Banuçiçəyi qoruyan ruhdur. Şamanın ruhlarla savaşması, yaxud ruhlarla deyiklənmə, şamançı düşüncədə geniş yayılmışdı. Dede Qorqudla ilgili maraqlı məqamlardan biri də onun adını etimologiyası ilə bağlıdır. M. Seyidov akademik araşdırmalarında bu adla ilgili qiymətli məlumatlar vermişdi.

Qorqud adı iki sadə sözün birləşməsindən yaranıb. Qor kəlməsi odla, işıqla bağlıdır. Bu isə özlüyündə ocaq, yəni əcdad kultuna işarədir. Kut müqəddəslik, xoşbəxtlik, rifah anlamlarını verir. O zaman aydın olur ki, Qorqud müqəddəs işıq anlamındadır. Od, işıq özlüyündə mədəni qəhrəmanla, ecdadla bağlıdır. Əvvəldə söylədiyimiz kimi, odun işığın əcdad kultu ilə əlaqəsi olduğu üçün Dədə Qorqud əcdad kultunu özündə ehtiva edər.

“Kitabi Dede Korkut” dastanının digər personajlarından biri də Beyrekdir. Dastanda Beyrəklə bağlı diqqət çəkən ən maraqlı məqamlardan biri onun doğumu ilə bağlıdır. Beyrəyin doğumu mifoloji kontesdə möcüzəvi doğum motivinə aiddir. Qazan xan Kam Gan oğlu Bayandırın düzənlədiyi məclisə gələn Kam Börədən niyə dərdli soruşur. O isə Qazan xana evladsızlıqdan şikayət edir. Destanda deyilir: ‘Kazan aydır’ ‘Maksudun bumıdır Bayböre beg’. Aydır: ‘Beli, budır’. Menim dahi oğlum olsa olsa, han Bayandurın karşısın alsa, tutsa, kulluk eylese, men dahi baksam sevinsem, qıvansayum, güvenseyim... ‘-dedı’. Böyle digec kalın oguz beyleri yüz göye tutdular. El kaldırıb dua eyledıler: ‘Allah teala sana bir oğul versin’- dediler!’( 2, s. 52).

Beyrəklə bağlı digər maraqlı məqam onun doğumu münasibəti ilə Beyrəyə alınan atla bağlıdır. Beyrəyin atı digər atlardan fərlənir. Onun atı dəniz qulunu boz ayğırdır. Beyrəyin evlənmə motivi də digər evliliklərdən fərqlidir. Onun deyiklisi Baybican bəyin qızı Banuçiçəkdir. Banuçiçək də bəylərin xeyir –duası ilə doğulmuşdur. Bu qız döyüşçü olması ilə digərlər qadınlardan seçilir. Mifoloji düşüncədə isə o, başqa eldən, yəni başqa dünyadandır. Beyrək Dede Qorquddan ad almadan öncə Boz oğlan kimi tanınır. Dede Qorqud isə Boz oğlana ad verməden öncə onun atasına belə deyir: ‘Sen oğlanı bamsun diye okşarsın; Bunun adı Boz aykırlık Bamsı Beyrek olsun’ (2. s.54).

Beyreyin adının təhlilinə keçmədən öncə onun atasının adına diqqət yetirək. Dastanda Qam Böre adıyla tanınan bu obrazın adının qarşısındakı qam kəlməsi diqqət çəkir. Qədim türklər türklər şamanı qam adlandırırdılar. Börə sözünə gəlincə Böre ve Beyrek sözü əslində eyni kökdəndir. Börü, Börte Orta Asya türklərində qurt anlamını verir. Börük kiçiltmə, əzizləmə mənasında işlədilir və qurt balası, yaxud qurt oğlu mənasını verir. Demək Qam Böre oğlu Beyrək Qurt oğlu anlamına gəlir. Onun öncə boz oğlan adlandırılması və atının da boz rəngli olması da onun qurt kultundan olmasından xəbər verir. Boz qurt türk mifoloji düşüncesinde kurtarıcı, mediyator, yəni yerlə göy arasında vasitəçi anlamında idi.

“Kitabi-Dede Qorqud destanının maraqlı personajlarından biri də **Bekil** obrazı ilə bağlıdır. Öncə Bekilin Bayandır xanın ordusundakı roluna nəzər salaq. Bekilə Bayandır xan tərəfindən at, qılınc və çomaq verilmiş və vətəni qoruması üçün Gürcüstan elinə keşikçi təyin edilmişdir. Buradan da belli olur ki, Bekil sərhəd qoruyucusudur. Bəkilə verilən çomak onun çoban kultuyla əlaqəsindən xəbər verir. Bəkilin diger funksiyası ov kultuyla bağlıdır. Dastanda deyilir: “Üç yüz altmış altı yigit altı ova atlansa, keyik üzerine yürüş olsa, Bekıl yay kurmaz, ok atmazdı. O yayı bileginden çıkarıp, buğanın sığırın boynuna atardı, çekip durdurardı. Arık olsa qulağını delirdi ki, ovda belli olsun. Ama kök olsa boğazlayıb keserdi. Beyler kulağı delik keyık ovlayanda ‘Bu Bekilın nişan etdigidir diye ona gönderirlerdi” (2, s.104).

Mətndə diqqət çəkən motivlərdən biri də Bəkilin ovu nişanlaması ilə bağlıdır. F. Cəlilin təhlillərinə görə ovun Bəkilə göndərilməsi ovla bağlı keçirilən məras

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hadisə ov ayinin dastan yaradıcılığına transformasiyası ilə bağlıdır. E.S. Novik "Sibir şamanizmində ayin ve folklor" əsərində yazırdı ki, ovçu ova çıxmadan öncə hami ruhları yedirirdi. Yəni ruhların hami ruhların müqəvvasının dodağına yağ çəkərdi (6, s. 165). Bu mənada Bəkil mifoloji obrazını təhlil edərkən belə qənaətə gəlirik ki, qəhrəman ov hamisinin özüdür. Ov hamisinin ovunu nişanlaması zəyif heyvanların ovlanmaması üçün düşünülmüş yasaqlardan idi.

Bəkilin daha arxaik variantı adının adının etimologiyası ilə bağlıdır. Öncə Azerbaycan folklorunda yer alan bir deyimə nəzər salaq:

Ekil -Bəkil quş idi
Divara qonmuş idi.
Getdim onu tutmağa,
O məni tutmuş idi

Bəkil burada quş kimi təqdim olunur. Quş ayin zamanı şamanı hər iki dünyaya götürən mistik quş olaraq düşünülürdü. Cabbar Bəydilli 'Qam-şamancılığın etnomədəniyyətimizdə yeri' adlı əsərində şamanın ruhları çağırmasıyla ilgili yazırdı: "Bu ruhlar arasında Börküt də var. Şaman qartalı " Tanrı quşu qartal, bakır dırnaklı, müthiş quş, sağ qanadı günəş qatlar, sol kanadi ayı qatlar" deyə tərif edər. Bu quşla Bəkil obrazı arasında uyğunluqlar var"

"Kitabi-Dədə Qorqud" dastanının qəhrəmanı Bəkilin ov zamanı qolunun qırılması və uçurumdan yıxılması onun havada ov edən qartalın qanadlarının qırılması kimi də yozula bilər.

"Kitabi-Dədə Qorqud" dastanında kişi personajlarla yanaşı, qadın obrazlarının da semantik yozumuna böyük ethiyac var. Bu obrazlardan biri də Sarı Donlu Selcan Xatundur.

Türk epik yaradıcılığında mistik qadın obrazlarında sarı, qırmızı rəng elementlərindən çox istifadə olunur. Belə qadın obrazlarından biri də Qanturalının sevgilisi Sari Donlu Selcan Xatundur. Qəhrəman Selcan Hatunu əldə edə bilmək üçün buğa və aslanla savaşır. Onun buğa və aslanla savaşı Selcan Xatunun kimliyinin açılmasına xidmət edir.

Öncə buğa və aslan kimi mifoloji personajların simvolik deyərlərinə nəzər salaq. Fadlun Əfəndi "12 simvol və canlandırmalar" eserində bu mifoloji varlıqların simvolik dəyərlerini açmağa çalışmışdır. O buğayla bağlı yazırdı ki, Şumerlərdə, Qafqaz Albanıyasında, Orta Asyada, Azərbaycanda eski çağlarda bu varlıq Ay tanrıçasının simvoluydu (4, s. 6). Müəllif şir obrazıyla bağlı yazırdı ki, əski çağlarda aslan odun, aydınlığın günəşin simvolu olaraq düşünülürdü. Söylənilənlərdən belə aydın olur ki, qəhrəmanın Selcan xatunu əldə etməsi üçün öküz və aslanla savaşması Günəşi qoruyan hami ruhlarla savaşması motivi ilə bağlıdır. Sarı, qızılı rəngin qadın obrazıyla bağlılığı "Dirse xan oğlu Buğac boyu"nda da belli olur. Burada Bayandır xanın əmrinə görə qızı olanlar qızılı çadırda oturdulur. "Kİtabi-Dədə Qorqud" dastanında yer alan bu adların semantik yozumuna nəzər saldıqda belə qənaətə gəlmiş oluruq ki, xalqımız zamanla formalaşdırdığı dəyərləri folklorda kodlaşdıraraq yaşatmışdır.

## ƏDƏBİYYAT

1. Bəydilli C.C. Qam-şamançılığın etnomədəniyyətimizdə yeri. Bakı, Ağrıdağ, 2000, 204 s.
2. Kitabi -Dədə Qorqud, Baki, Yazıçı, 1988, 266 s.
3. Cəlil F. Türk və slavyan xalqlarının folkloklorunda mifoloji elementlərin müqayisəsi (Azərbaycan və rus eposunda) Baki, 2004, 132 c.
4.Şaman əfsanələri və söyləmələri. Baki, 1993, 144 c.
5. Efendi F. 12 simvolov i olisetvoriniy. Bakı, Gənclik, 1988, 108 s.
6. Novik E.S. Obryad i folklor v sibirskom şamanizme. M., Nauka, 1984, 304 s.
7. Faruk Sümer. Oguzlar, İstanbul, 1992

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ANDALYBYŇ "ÝUSUP-ZÜLEÝHÄ " DESSANYNYŇ DIL AÝRATYNLYGY

***KAKAJAN JANYBEKOW***

Türkmen diliniň taryhyny öwrenmekde esasy çeşmeleriň biri ýazuwly edebiýatdyr. Ýazuwly edebiýat halk döredijilik eserlerinden tapawutlylykda eseriň döredilen döwründäki dil aýratynlygyny üýtgetmän saklamaga ukyplydyr. Şu nukdaýnazardan hem nusgawy edebiýatymyzyň eserleriniň irki ýazuwly nusgalarynyň diliniň häzirki zaman türkmen dili bilen deňeşdirilmegi diliň ösüşindäki bolup geçýän hadysalary ýüze çykarmaga mümkinçilik berer. Biz muňa XVIII asyryň beýik şahsyýetleriniň biri Nurmuhammet Andalybyň „Ýusup-Züleýha" dessanynyň dil aýratynlygyny öwrenenimizde hem anyk göz ýetirýäris. „Ýusup-Züleýha" dessanynyň dil aýratynlygy diýlende örän giň möçberi öz içine alýanlygy üçin biz bu ýerde diňe dessanda ulanylan frazeologizmlere ünsi çekýäris. Diliň taryhyny giňişleýin beýan etmekde frazeologizmleriň ähmiýeti örän uludyr. Sebäbi, frazeologik birlikler belli bir döwürde döräp, göçme mana eýe bolup öz bitewiligini saklap gelýärler. Frazeologizmleriň esasy özboluşlylygy olaryň millilige eýe bolmagy bilen häsiýetlendirilýär. Frazeologik birlikler taryhyň belli bir döwürlerinde aýratyn alnan halkyň, milletiň durmuşynda meňzetme esasynda döreýärler. Olar janly gepleşik diliniň, halk döredijiliginiň, edebi diliň çeşmeleriniň esasynda ýüze çykmak bilen, dilden-dile geçip pikiri has täsirli beýan etmek üçin dilde giňden ulanylýar. "Ýusup-Züleýha" dessanynda gabat gelýän frazeologizmlere seredip geçenimizde olaryň arasynda köpmanyly, sinonimleşýän frazeologizmleriň gabat gelýändigine göz ýetirýäris.

Polisemiýa, ýagny köpmanylylyk meselesi, aýratyn alnan sözüň mysalynda ýeterlik derejede öwrenilendir. Ýöne, polisemiýa hadysanyň frazeologizmlerde ýüze çykyş özboluşlylygy soňky ýyllarda öwrenilmäge başlandy. Frazeologizmleriň, esasan, bir manyda bolýandygyny, ýöne käbir frazeologizmiň birnäçe mana eýe bolup bilýändigi barada ýigriminji asyryň kyrkynjy ýyllarynda professor A.I.Ýefimow öz makalasynda ýatlaýar.[196] Şol döwürden başlap, frazeologizmlerde köpmanylylygy ýüze çykaryşy dilçi alymlaryň ünsüni özüne çekipdir. Rus we nemes dilleriniň frazeologiýasyny deňeşdirip öwrenen A.E. Binowiç köpmanylylygyň frazeologizmlere hem mahsusdygyny degişli mysallaryň üsti bilen subut edýär. [197]

Köpmanyly frazeologizmleri öwrenmäge türkologiýada soňky ýyllarda başlandy. Frazeologizmleriň köpmanylylygy has dolulygyna Ş. Rahmatullaýewiň "Özbek frazeologiýasynyň käbir meseleleri" atly doktorlyk dissertasiýasynda öwrenilipdir. Özüniň derňewleriniň netijesinde Ş. Rahmatullaýew frazeologik polisemiýanyň ýaýraýyş çäginiň leksiki polisemiýa baglydygyny nygtaýar.

Türki dilleriň mysalynda frazeologizmleriň köpmanylylyk hasiýetlerini derňemäge basga-da birentek alymlar synanyşypdyrlar. Olardan, başgyrt dili boýunça Z.G.Uraksin[198], azarbaýjan dilinden N.R.Ragimzade[199], gyrgyz dilinden J.Osmanowa[200] türki dilleriň frazeologiýasynyň köpmanylylygyny öwrenmekde belli bir ylmy netijeleri öňe sürdüler.

Türkologiýada frazeologik köpmanylylyga ünsüň güýçlenmägi bilen türkmen diliniň frazeologiýasynda hem bu mesele dilçileriň ünsüni çekdi. Ýöne, frazeologik polisemiýa entek özbaşdak derňewiň obýekti bolmazlygynda galýar. Türkmen frazeologiýasy boýunça edilen

---

[196] А.И. Ефимов. Фразеологическое новаторство Салтыкова – Щедрина. Ж. "Русский язык в школе", 1940, № 1, 37 стр.

[197] Л.Э. Бинович. О многозначности идиом. Ж. "Иностранный язык в школе" , 1952, № 5, 29 – 35 стр.

[198] З.Г.Ураксин. Фразеологические синонимия в современном башкирском языке. Автореф. канд. дисс. Уфа. 1996 г.

[199] Н.Р. Рагимзаде. Идеоматические вражения в азербайджанском языке. Автореф. ланд. дисс. Баку, 1967 г.

[200] Ж.Османова. Идиомы в киргизиском языке. Автореф. канд дисс. Фрунзе, 1

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

işleriň köpüsinde köpmanylylyk meselesi bilen belli derejede gyzyklanylýar. A.Annamämmedow "Hydyr Derýaýewyň "Ykbal" romanynyň frazeologiýasyny" öwrenende romanda duş gelýan frazeologizmleriň köpmanylylygyna seredip geçýär. A.Annamämmedowyň "Häzirki zaman türkmen dilinde frazeologik polisemiýa we frazeologik antonimler" atly kitaby bolsa, frazeologik kopmanylylyga bagyşlanylan ýörite işdir.

Türkmen dilindäki frazeolizmleriň kopmanylylygyna K.Amangeldiýewanyň dissertasiýa işinde [201] has giňişleýin üns berlipdir. Munuň sebabi, alymyň öňünde goýan meselesi frazeologizmleriň leksikografik tarapy bolany üçin, polisemiýa esasy nazarda tutulmaly aýratynlyklaryň biri bolup durýar. Köpmanyly frazeologizmleri derňemäge M.Abdyrahmanowanyň işinde uly üns berlipdir. Awtor bu meselä öz dissertasiýa işiniň tutuş bir bölumini bagyşlapdyr.[202]

Andalybyň "Ýusup-Züleýha" dessanynda köpmanyly frazeologizmler seýrek hem bolsa duş gelýär. Mysallara ýüzleneliň:

**El götermek**- Bu frazeologizme "Türkmen diliniň frazeologik sözlüginde" (369 sah) 1. Umyt üzmek, el çekmek, terk etmek; bes etmek, taşlamak, daşlaşmak. 2. Urmak, jeza bermek- manylary berilýär. Dessanda onuň "Haka ýalbarmak, Hudaýa ýüzlenmek" manylary bar. *El göterip* haka doga çaglasa... (Nurmuhammet Andalyp. Ýusup-Züleýha. Aşgabat. Ylym.1987, 162 sah).Görnüşi ýaly, bu ýerde üçünji many ýüze çykýar.

**El degmedik**- 1.Ulanylan bolmazlyk, täze bolmak. El degmedik zat. 2.Päk, arassa. Dessanda frazeologizmiň ikinji manysy göz öňünde tutulýar. *El degmedik* pygamberiň bagyýem...(Nurmuhammet Andalyp. Ýusup-Züleýha. Aşgabat. Ylym.1987, 114 sah).

Leksiki birlikleriň, ýagny sözleriň sinonimleşip gelmegi dil biliminin nazary we tejribe tarapdan işlenilen pudagydyr. Leksik sinonimleşme bilen bir hatarda durnukly söz duzumleriň hem sinonimleşip bilýändigi alymlaryň ünsüni çekdi we durnukly söz düzümleriniň, şeýle-de olaryn frazeologizm görnüşindäkileriniň sinonimleşmegine degişli birnäçe işler edildi.Frazeologik sinonimler barada ýazylan Ý.D.Apresýanyň [203] , Ş.Rahmatullaýewiň [204] , Ý.Riskeriň[205], L.I.Spridonowanyň[206], W.N.Şanskiniň [207] makalalarydyr ylmy işleri bu meseläni aýdyňlaşdyrdy.

Andalybyň "Ýuzup-Züleýha" dessanynda gabat gelýän frazeologizmleriň arasynda sinonimleşýän frazeologizmler hem bar. Mysallara ýüzleneiň:

**Ganyna galmak**-öldürmek. Al, indi *ganyma galdyň*, Züleýhanyň halyn bildiň. (Nurmuhammet Andalyp. Ýusup-Züleýha. Aşgabat. Ylym.1987, 110 sah).

**Janyna hanjar çekmek**-öldürmek. Her biri bir *hanjar çeker janyma*. (Nurmuhammet Andalyp. Ýusup-Züleýha. Aşgabat. Ylym.1987, 62 sah)

**Oduna köýmek**-ugrunda jebir çekmek, biri ýa-da bir zat üçin kösenmek, biriniň ýa-da bir zadyň yzasyny çekmek; derdini bölüşmek. Zireke niçe ýyldan bäri Züleýha meniň *odumga köýer*.
(Nurmuhammet Andalyp. Ýusup-Züleýha. Aşgabat. Ylym.1987, 114 sah).

**Ýürek-bagry kebap bolmak**- biriniň ýa-da bir zadyň ugrunda jepa çekmek, azap görmek, ýanyp bişmek, horlanmak. *Ýürek-bagrym kebap oldy...* (Nurmuhammet Andalyp. Ýusup-Züleýha. Aşgabat. Ylym.1987, 116 sah).

---

[201] К.Амангельдыева. Принципы подачи фразеологических единиц в "Туркменско-русском словаря". Автореф.канд.дисс.Ашхабад, 1971, с 13
[202] М.Абдырахманова. Устойчывые словосочетание с числительнымы в туркменском языке. ( рукопис, канд дисс.) Ашхабад -1971 г, с 148.
[203] Апресян. Ю.Д. "Фразеологические синонимы типа глагола существительное в современном английском языке". Автореферат на уч. степ.канд.фил.наук. М.,1956.
[204]Рахматуллаев Ш. Некоторые вопросы узбекской фразеологии. Автореферат на.докт.дисс.Ташкент 1966.
[205] Рицкер Я. Гак В. Французско-русский фразеологический словарь. М.,1963.
[206] Спридонова Л.И. Русская фразеология. Ростов –на Дону.1989.
[207] Шанский В.М. Проблемы лексико –фразеологической синонимии и ее типа, китапда : Лексикология и фразеология: новый взгляд. М., 1990.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ýokarda görkezilen „ganyna galmak“, „janyna hanjar çekmek“ frazeologizmleri, „oduna köýmek“ we „ýürek-bagry kebap bolmak“ frazeologizmleri biri-biri bilen sinonim-many taýdan meňzeşlik gatnaşygyna girýärler.

Biziň pikirimizçe, Andalybyň “Ýusup-Züleýha” dessanynda duş gelýän sinonim frazeologizmleri şeýle häsiýetlendirmek bolar:

a) olar dürli leksiki birliklerden düzülip, golaý many çäginde yerleşip, köplenç bir söz toparyna degişlidirler;

b) sinonimleşen frazeologizmler many öwüşginleri bilen tapawutlanyp ýa-da bir-birine gönüden-göni gabat gelip bilerler;

ç) sinonim frazeologizmler stilistik nukdaýnazardan hem tapawutlanyp bilýarler.

Nurmuhammet Andalybyň „Ýusup-Züleýha“ dessanynda ulanylan frazeologizmleri häzirki zaman türkmen edebi dilinde işjeň ulanylýan we häzirki zaman türkmen edebi dilinde dessandaky ýaly görnüşde gabat gelmeýän frazeologizmler görnüşinde iki topara bölmek bolar.

Dessandaky zähresi ýarylmak ( 48 sah),ýüregine ot düşmek ( 49 sah), bagryna basmak ( 50 sah), jepa çekmek ( 54 sah), gulak salmak (63 sah), bagry kebap bolmak (70 sah), aýagyna ýykylmak ( 84 sah), myradyna ýetmek ( 96 sah),duzuny iýmek (106 sah), janyndan umyt üzmek ( 111 sah),günäsini boýnuna almak (127 sah), jan bermek (72 sah), köňli jaý bolmak (126 sah), gol gowşuryp durmak ( 150 sah), gaşyna barmak ( 155 sah), boýnuna düşmek ( 159 sah), bil baglamak ( 164 sah), bagyny daglamak (55 sah), gözi ýolda galmak ( 61 sah) ýaly frazeologizmler häzirki zaman türkmen edebi dilinde işjeň ulanylyşa eýedir.

Gulak tutmak-diňlemek, eşitmek islemek ( 157 sah), janyna ýanar ot düşmek-gapagopluga düşmek, biynjalyk bolmak (52 sah), göz tutmak-göz öňünde tutmak, kimdir birine daýanmak (72 sah),akyly gitmek- maýyl bolmak, erkini aldyrmak (78 sah),umydyn elden üzmek ( 83 sah), öz başyna goýmak-öz ygtyýaryna goýbermek, azar bermezlik (100 sah), gulagyna ýetişmek-eşitmek (111 sah), duzuny içmek-çöregini iýmek, kimdir biriniň goldawynda ýaşamak (123 sah),içine ot düşmek-biynjalyk bolmak, howsala düşmek, rahatlygyny bozmak, ynjalyksyzlanmak (126 sah),el gowşurmak-tabyn bolmak, hormat goýýandygyňy bildirmek (148 sah), gaşyndan aýyrmazlyk-ýakynynda, ýanynda saklamak, golaýynda bolmak (49 sah),köňli eremek-rehimi gelmek, nebsi agyrmak, gynanmak (142 sah) frazeologizmleriniň aňladýan manylary häzirki zaman türkmen edebi dilinde başga frazeologizmler arkaly aňladylýan hem bolsa, olar ýokardaky görnüşde edebi dilde gabat gelmeýär.

Diýmek, diliň sözlük düzüminde leksiki birlikler-sözler babatynda bolup geçýän özgerişlikler frazeologizmlre hem degişlidir. Sözleriň könelmegi, ýagny arhaizmleşmegi frazeologizmlere-de mahsusdyr. Nusgawy edebiýatymyzyň dil aýratynlygyny öwrenmek belli bir taryhy döwürlerde ulanylan frazeologizmleri ýüze çykarmaga, olary täzeden dolanyşyga girizmäge ýardam berer.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# OĞUZ KAĞAN DESTANINDA EPİK TEFEKKÜR BAĞLAMINDA ZAMAN VE MEKÂN ANLAYIŞI

***KEMAL ÜÇÜNCÜ***

**Giriş**: Türk destanlarının teşekkül ettiği dönem Avrasya'daki Neolitik devrimle ilişkilendirmek gerekir. Malum olduğu üzere tarım, hayvanın evcilleştirmesi buna bağlı olara büyük hayvancılık ağırlıklı olarak Neolitik devrimle beraber başlamıştır. Neolitik dönem ayrıca insanlığın boylar halinde örgütlendiği bir dönemdir [ Asya'da Neolitik dönem MÖ. 5000-/7000 arasında tahmin edilmektedir].Avrasya'da göçer evli iskan tipine bağlı olarak yaşayan Türkler kadim zamanlardan Orta Çağın sonuna kadar Karadeniz'in kuzeyinden Sibirya içlerine oradan Ordos Nehrine Altay Dağlarına kadar olan coğrafyada geniş bir sahada bulunmuşlardır. Bu anlamda Türklerde siyasal teşkilatlanma geleneği ve devlet düşüncesi bu coğrafyanı dayattığı disiplinli olarak bir arada yaşama gerçeğinden etkilendiği görülür.

Yapılan arkeolojik araştırmalar da bu fikri teyit eder niteliktedir. Türklere ait en eski arkeolojik ve antropolojik buluntu, bu sahada -Güney Sibirya'da- bulunmuştur. Bu yerlerde yapılan kazılar neticesinde M.Ö. IV. bin yıllarına kadar giden kültürel kalıntılara rastlanmıştır. Bunların başlıcaları, Abakan yöresinde Afenesyova kültürü [M.Ö. 3000-1709]; Tanrı Dağları, Balkaş Gölü ve Yayık nehrine kadar uzanan bölgede Andronova kültürü [M.Ö. 1700-1200]; Yenisey Irmağı çevresinde Karasuk kültürü [1200-700]; Abakan ve Minusinsk bölgelerinde Tagar ve Taştık kültürü [M.Ö. 700-100] ve batı Türkistan'da [M.Ö.4000-1000] Anav kültürüdür ( İsmail, 2002:12-13).

Arkeolog M. Ungvitskaya'ya göre kahramanlık destanlarının ilk şekilleri MÖ. III ve I. asırlar arasında Tagar Kültürü devri MÖ. II-I. ve MS. I-II. asırlar arsındaki Taştık devrinde ortaya çıkmıştır. E. D. Tursınov'un kanaatine göre destan anlatıcılarının bugünkü şekillerinin ve tiplerinin ortaya çıkışı MÖ. VIII. asır ile MS.VI-VII. asırlar arasında ortaya çıkmaya başlamıştır." (Yıldırım, 1998: 148; Ayrıca bk. Mannay, 1970: 97; Ungvistkaya, 1973: 34; Tursınov, 1976: 176; Esin,1978: 3).

Türk destancılık geleneğine ait elimizde bulunan en eski metin Oğuz Kağan Destanının Uygurca versiyonudur [=UOKD]•. Destandaki siyasal teşekkül ve teşkilatlanma düzeyine baktığımızda boydan millet anlayışına çok erken bir dönemeçte geçildiğinin izleri görülür. Cihan hakimiyeti ideali , halk karşısında töre önünde hesap veren Kağan , sosyal norm düzeni Türk epik tefekkürünün sistematik düşünme aşamasına evrildiği bir süreci gözleriz.Bu manada zaman ve mekan anlayışı destanın arkaik köklerini ışık tutan verile sunar.

## 1. Oğuz Kağan Destanında Epik Mekân Anlayışı

Türk destanlarında mekanın oluşumu, anlatıcı bakış açısı ve muhayyilesinin geçerek dolayımla bir şekilde dinleyiciye ulaşır. Anlatıcı Hakim/İlahi bakış açısıyla üçüncü tekil şahıs ağzından metni anlatır. Bazı destan metinleri tek bir tarihsel olay etrafında şekillense de umumiyetle farklı tarihsel devirler ve medeni seviyelerdeki olaylar aynı metin içerisinde bazen anakronik bazen zincir şeklinde birbirine sebep sonuç ilişkisi içerisinde eklenerek destan oluşturulur. Bu oluşumda "esas itibarıyla destanların teşekkülü ve tabakalaşması çok uzun bir süreyi gerektirir. Tarihi bir hadisenin tam bir destan olabilmesi için o olayın ağızdan ağza nesilden nesile yüzyıllarca aktarılması yeni tarihi hadiselerin ve coğrafi mekanların ona ilave edilmesi gerekir. Nesiller arasındaki kültür ve dini telakki değişikliklerinin de olay örgüsünün şekillenmesinde yer alması gerekir. Bütün folklor eserlerinde olduğu gibi destanlarda da hatırası zayıflayan " yer

• Bu tebliğde ,BANG, W, R. ARAT (1936). **Oğuz Kağan Destanı**, İstanbul: Burhaneddin Basımevi ,adlı neşirden istifade edilmiştir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ve şahıs isimleriyle" , hatırası zayıflayan tarihi olaylar, yerlerini daha yakın dönemde olan taze isimlere ve olaylara bırakırlar. Destanın teşekkülünse sebep olan ilk olay kısa tarihi manzume haliyle veya destanlaşmış bir halde değişik milletlere veya bir milletin farklı coğrafyalarda yaşayan boylarına yayılmış ise yeni coğrafyasında hafızasında yaşadığı milletin veya boyun sonraki tarihi maceralarına göre tabakalaşabilir (Ergun, 1997:73).

Bütün bu süreç destan metinlerindeki mekan isimleriniz ve kompozisyonun ağırlıklı olarak kurmaca bir mahiyette sunulmasına zemin hazırlar. Elbette yer yer kullanılan yer isimleri etnonim, toponim ve hydronimler reel dünyadan seçilirler. Fakat mekan sırf bunlarla sınırlı değildir. Vakanın üzerinde geçtiği zemin mekan düzenini zorunlu kılar.

Destanlarda yer alan "mekanların" bir kısmı gün değmez, Kar yağmaz , yer altı gibi tamamen hayali, kurgusal olarak nitelendirebileceğimiz mitolojik mekanlar iken , büyük bir çoğunluğu gerçek yer adlarından hareket edilerek kalıplaşmış ve tipolojik özelliklere sahip "gerçeğimsi mekanlardır.Ancak inandırıcılık ve ele alınan konunun içeriği varsayılan yeri görmek ve bilmekten kaynaklanana nedenlerle destancıların daha fazla detay bilgisini bir araya getirerek gerçeğimsiliğin dozajını artırdıkları destanlar da vardır.Köroğlu ve Alpamış örnekleri başta olmak üzere çeşitlenmeler belli bir yayılım hattı düşünülemeyecek kadar çok yönlü olarak gerçekleşmiş olması kuvvetle muhtemeldir.Söz konusu destan konularına bağlı olarak oluşan yerel efsane unsurlarının destanlarda anlatılan maddi kültürel hatırlatıcılar olarak geniş yığınların nezdinde onların gerçekliğine dair inandırıcılığı artırıcı fonksiyonlara sahip oldukları da eklemeliyiz. Şüphesiz bu tür mekana bağlı olarak oluşan efsaneler yumağının beraberinde yatır veya kutsallaşan kahramanın eşyalarının mistik iyileştirici işlevleriyle taşıdıkları kültleştirici ve ritüelistik işlevler de unutulmamalıdır (Çobanoğlu,2003:115-116).

Mekan temel niteliği itibarıyla kapsamlı bir kavramdır. İçinde toplumsallaşmanın temel değerlerini barındırır. En geniş anlamıyla mekan uygarlığın ve uygarlaşmanın vitrinidir.(Tekin, 2006: 132-134 2006). Destanda mekan statik bir karakterdedir. Mitolojik ve arkaik destanlarda mekan irreel ve fanteziye dayalı Altın Dağ yer altı vb. olurken tarihi destanlar vadisinde mekanlar daha gerçekçidir. Çevresi ve bağlamıyla bir nevi kahramanın içinde bulunduğu durumu betimler.

Oğuz Kağan Destanında mekanda sürekli bir hareket vardır. Mekanı tanımlamak anlamak için üzerinde durmak ve bakmak lazımdır.Destanlarda olay olay ve epizotlara bağlı olarak bir sahne ve mekan tasarımı söz konusudur. Bu anlamda sahne anlatıcı tarafından konuya ve kahramanların fiziki psikolojik durumuna göre düzenlenir.

Kaplan'a göre " Oğuz Kağan ve Dede Korkut kahramanları ile kendisini idealize eden eski Türk insanı tamamıyla dışa dönük, mekanda genişlemek isteyen ve maddi kuvvete inanan bir insandır.Alp tipi için dünya fethedilecek yer, diğer insanlar galebe çalınacak, tabi kılınacak düşmanlardır (Kaplan:1985: 14). Destanın dışa dönük karakteri, mekânın sınırsız bir bütün olarak işlenmesini sağlamıştır.

Bu bütünlük içinde mekân, destan için önemli bir unsur olmaktan uzaktır. Efsaneler de mekânı, destan gibi düşsel bir formda karşımıza çıkarır. Günümüzde dağ, orman, mağara gibi kimi mekânsal kavramların kutsal anlamlarla yüklü bulunmaları, efsane ve menkıbelerde geçmelerinden dolayıdır (Elçin, 1993:315).

Bir neçə mətndə göstərilir ki, Əzrayıl adamı mişar ilə kəsib öldürür. Bu zaman evin divarları, ətrafdakı adamların üst-başı qan olur. Odur ki, ölü çıxan evin divarları yarıdan aşağı şirələnməli, yuyulmalı, ölünün yanında oturmuş adamlar da çimməlidirlər. Yalnız bundan sonra həmin evdə yemək yeyilə bilər.

Bu tip mətnlərə görə, Əzrayıl pis adamı mişar ilə kəsib öldürür, yaxşı adamlara isə gül iylədib canını alır. "Bu yurd bayquşa qalmaz" kitabında "Ölüm də bir yuxuymuş" başlığı altında gedən mətnlərin birində də oxşar süjetlə rastlaşdıq. Bu mətndə oğlan cildində olan Əzrayıl pis əməllərin sahibi olan adamı kərənti ilə kəsib öldürür, yaxşı adama isə gül iylədib canını alır (7, 10). Əzrayılın oğlan kimi göründüyü digər bir mətni də Şəkidən qeydə almışıq. Onu da qeyd edək ki, yuxarıdakı mətn qeydə aldığımız mətnə nisbətən bitkindir. Eyni proses bu gün başqa xalqların folklorunda da özünü göstərir. Bu barədə rus folklorşünası N.İ.Plotnikova yazır: «Süjetin deformasiyası indi ənənəvi folklorda gedən proseslərdən biridir » (17, 167).

Ərazidən qeydə aldığımız bir mətnə görə, Əzrayıl uşaq kimi, digər mətndə isə qadın kimi görünür. Əzrayılın uşaq kimi görünməsi ilə "Azərbaycan mifoloji mətnləri" kitabında da qarşılaşdıq. Həmin mətnə görə, Əzrayıl vədəsi çatmış adama uşaq kimi görünür və aldadaraq onun canını alır (6, 112).

Maraqlıdır ki, qadın formasında görünən Əzrayılın adı Humaydır. V.Verbitski Sibir türklərindən Umayın «Ölüm mələyi» (Anqel smerti) anlamını qeydə almışdır (18, 79). Eləcə də B.N. Basilov Əzrayıl sözünü «Ölüm mələyi» kimi izah edir (16, 28). V.Radlov türk xalqlarından biri olan şorlarda Umaya uşaqları qoruyan ilahə və «ölünün ruhunu yola salan» anlamına tuş olmuşdur (12, 109).

Qeydə aldığımız digər nağıl isə beynəlxalq göstəricidə 950-ci nömrə altında gedən nağıl süjetidir. Həmin nağıl "Dayiynən bacoğlu" adlanır. Burada Əzrayıl keçi cildində, üstü zınqırovlu təsvir olunur.

İslam dinində Əzrayılın yuxarıda saydığımız atributları yoxdur. Həmin atributlar türk mifologiyasına məxsus hansısa obrazın atributları olmuşdur. İslam dininin təsiri altında həmin mifoloji obraz sıradan çıxsa da, ona məxsus atributlar Əzrayıl obrazına keçmişdir. Çox güman ki, İslam mifologiyasında Əzrayılın yerinə yetirdiyi funksiyanı türk mifologiyasında həmin obraz yerinə yetirmişdir. Məhz funksiya eyniliyi nəticəsində həmin atributlar Əzrayıl obrazına keçmişdir.

Mətnlərin bir neçəsində göstərilir ki, bəzən Əzrayıl müəyyən səbəblərdən vaxtı çatmış adamın canını almaq istəmir (çox cavandır, evin tək uşağıdır və s.). Bu zaman Allah-taala özü ona elə şərait yaradır ki, ölü sahibləri günahı Əzrayılda görmürlər. Bununla bağlı olaraq Şəkidə belə bir deyim işlənir: "Əzrayıl özünə qarğatmiyifdi".

Söyləyicilərdən birinin verdiyi məlumata görə, Əzrayıl özü də peyğəmbərdir, ona görə də ona qarğımaq olmaz.

Şəkidə işgüzar, çox cəld hərəkət edən adamlar haqqında "Filankəs elə bil Əzrevıldı" deyirlər. Bu deyimin digər ekvivalenti isə belədir: «Filankəs elə bil Ə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ərazidən qeydə aldığımız iki mətnə görə isə Əzrayıl harada qəmginlik, peşmanlıq görsə, yönünü o tərəfə tutur. Mətnlərin birində göstərilir ki, Əzrayıl bir evə gəlir. Evdə də iki gəlin varmış. Əzrayıl gələndə onlardan biri mahnı oxuyur, o birisi isə əlləri qoynunda, peşman dayanıbmış. Əzrayıl mahnı oxuyan gəlinin canını almağa gəlsə də, əli qoynunda dayananın canını alıb gedir.

İkinci bir mətndə də Əzrayıl deyib-gülmək, şənlik olan evə yaxın düşmür, əvəzində gedib ağlaşma olan evdən can aparır.

**Tanrı tərəfindən bağışlanan 40 illik həyat.** İnsanın hansasa yaxşı əməlinin müqabilində Allahın onu bağışlaması, onun ömrünü uzatması kimi motivlərə də folklor mətnlərində tez-tez rastlaşırıq. Ərazidən bu mövzu ilə bağlı bir neçə mətn qeydə ala bildik. Həmin mətnlərdən birinə görə, oğlanın toy gecəsinə qədər ömrü varmış. Toy günü Allah tərəfindən göndərilən ilan onu çalıb öldürəcəkmiş. Amma gəlinin ac bir adama verdiyi xonçanın müqabilində Allah oğlanın ömrünü uzadır (11).

Ərazidən topladığımız başqa bir mətn isə bir qədər fərqlidir. Belə ki, həmin mətndə kişinin ömrünü Allah yox, Əzrayıl uzadır. Bu mətnə görə, böyük ailəsi olan bir kişi evdə bişirilən yeməkdən doymur. O, özü üçün yemək götürüb dağa çıxır ki, tək yesin. O, dağda süfrə açarkən qəflətən bir kişi peyda olur və Allah tərəfindən göndərildiyini deyir. Kişi Allahın ədalətsiz olduğunu söyləyərək ona yemək vermir. Süfrəni ikinci dəfə açanda yenə də bir kişi peyda olaraq Əzrayıl olduğunu söyləyir. O, Əzrayılı ədalətli saydığı üçün süfrəyə dəvət edir. Əzrayıl isə bunun müqabilində kişinin ömrünü iyirmi il uzadır.

**ƏDƏBİYYAT**

**1.** Azərbaycan folkloru antologiyası. 16 cilddə. IV c. Şəki folkloru (tərtib edənlər: Əbdülhəlimov H., Qafarlı R., Əliyev O., Aslan V.). Bakı, Səda, 2000

**2.** Azərbaycan folkloru antologiyası. 16 cilddə. V c. Qarabağ folkloru (toplayanlar: Abbaslı İ., Fərzəliyev T., Quliyev N.). Bakı, Səda, 2001

**3.** Azərbaycan folkloru antologiyası. 16 cilddə. VI c. Şəki folkloru (toplayıb tərtib edən: Əbdülhəlimov H.). Bakı, Səda, 2002

**4.** Azərbaycan folkloru antologiyası. 16 cilddə. XII c. Zəngəzur folkloru (toplayanlar: Nəbioğlu V., Kazımoğlu M., Əsgər Ə.). Bakı, Səda, 2005

**5.** Azərbaycan folkloru antologiyası. 16 cilddə XIII c. Şəki-Zaqatala folkloru (tərtibçilər: İsmayılov H., Əliyev O., Abdullayeva M.). Bakı, Səda, 2005

**6.** Azərbaycan mifoloji mətnləri (tərtib edəni, ön sözün və şərhlərin müəllifi Acalov A.). Bakı, Elm, 1988

**7.** Bu yurd bayquşa qalmaz (toplayıb tərtib edənlər Nəbioğlu V., Qaradaşlı M., Əsgər Ə.). Bakı, Yazıçı, 1995

**8.** Dədə Qorqudla bağlı rəvayətlər silsiləsindən. Toplayanı: Ə. Şamil. «Dədə Qorqud» jurnalı. 2003, № 4

**9.** Hacıyev T. Mikayıl Baştunun «Şan qızı dastanı» və poetikası. Bakı, Təhsil, 2005

**10.** Kitabi-Dədə Qorqud (Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə Zeynalov F. və Əlizadə S.). Bakı, Yazıçı, 1988

**11.** Mənbəyi göstərilməyən nümunələr müəllifin şəxsi arxivindədir.

**12.** Seyidov M. Qam-Şaman və onun qaynaqlarına ümumi baxış. Bakı, Gənclik, 1994

**13.** Təhmasib M. H. Azərbaycan xalq dastanları (orta əsərlər). Bakı, Elm, 1972

**14.** Dedem Korkudun kitabı (hazırlayan Gökyay O.Ş.). İstanbul: Milli Eğitim Basım Evi, 2000

**15.** Şirəliyev M. Azərbaycan dialetologiyasının əsasları. Bakı, «Maarif», 1968

**16.** Басилов Б.Н. Культ святых в исламе. Москва: Мысль, 1970

**17.** Бикбулатов Н.Б., Фатыхова Ф.Ф. Семейный быт Башкир ХЫХ–ХХ вв.. Москва, Наука, 1991

**18.** Вербицкий В.И. Алтайские инародцы. Москва: Дом Левенс

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Мотивы, связанные с образом Дели Домрула в народном творчестве**
**(на основе фольклорных материалов, собранных в Шеки)**

Статья посвящена исследованию мотивов, с образом Дели Домрула – одного из легендарных героев эпоса «Деде Коркут», которые к сожелению не так часто присутствуют в различных жанрах азербайджанского фольклора. Автор статьи на основе анализа таких мотивов как «отдать жизнь за жизнь», «преодевание Азраиля в облик (одеяние) птица» (превращение Азраиля в птицу»), «жизнь, даренная Танры (Богом), которые встречаются в недавно собранных фольклорных материалах в Шеки строит свои суждения по структуре образа Дели Домрул.

**Deli Domrul motivations in folklore**
**(on the fundamental materials gathered in Sheki)**

Nowdays it is difficult to meet (to come across) the character. Deli Domrul in those texts, but we can come across the motivations in this part of the folklore materials of the modern time. The motivations we meet more often are: “to give life for life”, “Azrail in fird’s clothes” and “The life presented by God”.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# TÜRK DASTANLARINDA İŞLƏNƏN BƏZİ TERMİN VƏ ORTAQ KƏLMƏLƏRİN AÇIQLANMASI

***MAARİFƏ HACIYEVA***

Türk dünyasının ortaq mədəniyyətinin ifadəsi olan türk dastanlarında işlənən termin – sözlərin açıqlanması, müqayisəli şəkildə izahı, türk xalqlarının ortaq keçmişinə işıq tutar, milli-mənəvi dəyərləri bir daha bütün parametrlərlə ortaya çıxarar, ortaq mənəvi mədəniyyətin tarixi köklərinin daha dərindən incələnməsinə imkan yaradar.

Türk dastanlarında işlənən termin – kəlmələr folklor elmində geniş şəkildə araşdırılmamış və ya az araşdırılmışdır. Dastanlarımızın mətnlərindəki termin – kəlmələrin sistemli şəkildə araşdırılması folklor elminin qarşısında duran vəzifələrdən biridir.

Türk dastanlarında milli xüsusiyyətləri ifadə edən termin – kəlmələri təxminən belə qruplaşdırmaq mümkündür:

1. Qəhrəmanlıq ifadə edən adlarla bağlı kəlmələr;
2. Toponimlərlə bağlı termin – kəlmələr;
3. Etnonimlərlə bağlı kəlmələr;
4. Şəxs adları ilə bağlı kəlmələr;
5. Astronomik termin kəlmələr;
6. Təbabətlə bağlı kəlmələr;
7. Dini terminlər;
8. Mifoloci terminlər;
9. Silah-sursatla bağlı terminlər;
10. Titullarla bağlı termin- kəlmələr;
11. Heyvandarlıq, ovçuluqla bağlı kəlmələr;
12. Oyun, əyləncə, evlənmə ilə bağlı terminlər;
13. Əl sənətkarlığı ilə bağlı termin - sözlər;
14. Adət-ənələlərlə bağlı termin- kəlmələr və s.

Türk dünyasında yaranan dastanların bu səpkidə adlandırılması çox vacibdir. Bir məqalədə bunların araşdırılıb ərsəyə gətirilməsi mümkün olmadığı üçün fikrimizi iki türk dastanı üzərində cəmləşdirmək niyyətindəyik: «Oğuz xan» və «Koroğlu».

Məlumdur ki, qədim türk epos təfəkkürü müxtəlif mənbələrdən gəlib zəmanəmizə çatmışdır. «Yaradılış dastanları», «Alp Ər Tonqa», «Oğuz Kağan», «Göy türk», «Ərgənəkon», «Şu», «Siyenpi», «Köç» kimi türk dastan mədəniyyətinin bir çox nümunələrini müxtəlif qaynaqlardan öyrənmişik. Ona görə də dastan mətnlərində işlənən termin – kəlmələrin bu mətnlərdə bəzi dəyişikliklərlə ifadə edilməsinin nəzərə alınması da tamamilə qanunauyğun bir haldır.

O da məlumdur ki, Oğuzların atası Oğuz xan və oğullarının dastanını anladan başlıca iki mənbə vardır. Bunlardan birincisi Paris Milli Kitabxanasında olan Uyqur yazısı ilə yazılmış, tam olmayan əlyazmasıdır. Bu nüsxə Rza Nur tərəfindən tapılmış, elmi olaraq W.Banq və R.R.Arat tərəfindən öncə alman dilində (1932), daha sonra türkcə «Oğuz Kağan dastanı» (1936) adı ilə nəşr edilmişdir.

İkinci önəmli qaynaq isə İlhanlı sarayında yaşamış doktor Rəşidədinin yazıya aldığı Oğuz xan və oğullarına aid rəvayətlərdir.

XV əsrdə yaşayan Yazıçıoğlu və XVII əsrdə yaşayan Əbülqazi Bahadır xan (1643-1665) Rəşidəddinin rəvayətlərini qərb və şərq türkcəsinə çevirmişdir. Xivə xanı Əbülqazi Bahadır xan Rəşidədinin «Jamiüt-təvarix» əsərindəki məlumatlara əsaslansa da «Səcəreyi-Tərakimə» əsərinə dastanın birinci və ikincisində görünməyən «Kazan Alp» mədhiyyəsini daxil etmiş, beləliklə, dastandakı alp-qəhrəman tiplərini zənginləşdirmişdir. «Kazan Alp» mədhiyyəsi ilə birlikdə əldə olan hər iki mətn «Oğuz xan» dastanının tam mətni deyildir və dünya kitabxanalarında dastanın işıq üzü görməmiş mətninin mövcudluğuna şübhə doğurmur. Vaxtilə bu cəhətə diqqət yetirən

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

prof. Məhmət Kaplan yazırdı: «Oğuz Kağan» dastanı uzun illər şifahi olaraq yaşamış, müxtəlif bölgələrdə bəzi qisimləri yazıya alınmışdır (1, 12).

Yuxarıda adı keçən mətnin şifahidən yazıya, yazıdan nəşrə keçərkən önəmli dəyişiklikliyə, fərqli dil, din və mədəniyyət çevrələrində nə kimi dəyişikliyə uğradığını ehtimal etmək mümkündür. Bununla belə bir-birindən ən az yüz il sonra yazıya alınmış olsalar da dastanın hər iki mətninin bir çox cəhətdən yönünün ortaq olduğu, çox fərqli yer və zamanlarda təsbit edilməsinə baxmayaraq aralarında coğrafi və mədəni dəyişikliklərin dastana çox da təsir etmədiyini görə bilərik.

Göründüyü kimi, dastanın tam mətni əlimizdə yoxdur və ldə olan mətnlər isə fars və uyqur yazısı ilə yazılmış Çin mənbələrindən alınmışdır.

«Koroğlu» dastanının da türk dünyasında yayqın olan mətnləri də tədqiqatçını uzaq və geniş bir tədqiqat obyektinə yönəldir.

Türk xalqlarının ortaq dəyərlərini ifadə edən «Oğuz xan» və «Koroğlu» kimi qəhrəmanlıq dastanları arasında mənəvi bağlılıq, milli-mənəvi cizgilər ortaq türk mədəniyyətinin bir çox yönlərini açıqlamaqdadır.

Bu məqalədə hər iki dastanda rast gəldiyimiz toponim (yer adları), qəhrəmanlıq ifadə edən termin –sözlər, at, silah, sursat, yer adları ilə bağlı sözlərin ortaq yönlərini incələməyə çalışmışıq.

Türk dünyasının tarixi coğrafiyasının öyrəniləmsində dastanlarda adı çəkilən yer adlarını ifadə edən termin kəlmələrin araşdırılması tarixin uzaq keçmişində saxlanan izlərin qatının açılmasında uğurlu material verir. Yer, yurd, şəhər, dağ, daş ifadə edən toponimlərin bir qismi müəyyən tarixi səbəblər üzündən qorunub saxlana bilməsələr də onların dastan mətnlərində yaşayan adları tarixin qaranlıq yerlərinə işıq sala bilir və bir çox problemlərin açılmasına yardımçı ola bilər. «Oğuz xan» və «Koroğlu» dastanlarında adı keçən toponim kəlmələr də tariximizin bir parçasını ifadə etməkdədir. Bunların hər birinin ayrı-ayrılıqda incələnməsinə böyük ehtiyac vardır.

«Oğuz xan» dastanında türklərin uzun müddət içində yaşadıqları «atlı köçəri mədəniyyəti» haqqında dərin təsəvvürlər var.

Bu barədə əlimizdə olan «Oğuz xan» dastanının hər iki nüsxəsi bir-birindən fərqlidir. Belə ki, uyqurca olan «Oğuz Kağan» dastanında Oğuzun anayurdu sayılacaq bir yer yoxdur. «Tarixi Oğuzxan və Türkan»da isə Oğuzun ana yurdu Türküstanda **Lpranç** şəhəri yaxınlığındakı **Ortak** və «Kurtak» yaylaq, Karakurumdakı **Borsuk** isə qışlaq kimi göstərilir.

Dastanda göstərilir ki, burada iki şəhər vardı. Birisi **Talas**, birisi **Karı Sayran** ki, bu son şəhərin qırx qapısı vardı (1, 17).

«Tarixi Oğuzxan və Türkanda məkan ilə insan arasındakı münasibətə diqqət edilməsi əsəri tarixə yaxınlaşdırır. Məsələn, Oğuzxan **Şirvan** tərəfdən qalxaraq **Aran** və **Muğana** gəldiyi zaman sıcaqlar başlayır» (1, 21).

Dastanda göstərilir ki, hava son dərəcə isti və istidən dolayı burada qalmaq mümkün olmadığından, onlar yaylaq olan dağlara getdilər. Qış gəlincə təkrar enərək bu vilayətləri alar, yağma edərik dedilər. Yaz aylarında bu vilayətlərin bütün yayla və dağ məntəqələrini **Sebelan** dağlarına, **Altak** və **Ağdıbori** dağlarına qədər işğal etdilər (1, 30).

Nümunələrdən göründüyü kimi dastanda türk tarixi coğrafiyasının bir çox qədim yer adlarının adı çəkilir.

Dastanın bir nüsxəsinə görə Oğuz xanın özü, oğulları və nəvələri Çin, Hindistan, İran, Misir və İrakı fəth etmişlər.

Dastanda adı çəkilən Şirvan, Aran, Muğan, Sebalan, Altak, Ağrıböri kimi toponimlər bu mənada diqqət çəkməkdədir.

Prof. Məhmət Kaplan «Oğuz Kağan» – «Oğuz xan dastanı» adlı məqaləsində yazır ki, «Bu dövrdə Oğuzlar və digərtürk qəbilələri qərbdə Rum ölkəsindən şərqə – Çin və Çüçitə (Mancuriya) qədər uzanan cahanşümul bir dövlətin başında göstərilmişlər. Bunun coğrafiyası Monqolustanda, Qafqaz, Baalbek, Kiluye, Dimavend və Hindukuş dağlarına yayılmış qışlaq və yaylaq yerləri olduğu təsbit edilmişdir (1, 12).

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Məlumdur ki, Türk dünyasının hər bölgəsində yayqın olan «Koroğlu» da yarandığı dövrdən başlayaraq dəfələrlə yazıya alınsa da onun vahid bir mətni yoxdur. Böyük ədəbi salnamə olan «Koroğlu» mətnlərinin bir araya gətirilib onun müqayisəli araşdırılması da öz həllini gözləməkdədir. Belə bir çalışmanın ərsəyə gəlməsi «Koroğlu» mətnlərindəki ortaq dəyərlərin açıqlanmasına geniş material verə bilər.

Dastanın tarixi coğrafi sərhədləri böyükdür. Bunu elə dastanın mövcud olan qollarında adı çəkilən yer adlarından da görmək olar. «Koroğlunun Qars səfəri», «Koroğlunun Dərbənd səfəri», «Koroğlunun İstanbul səfəri», «Koroğlunun Bağdad səfəri» və s.

Bu adlar türk dünyasının tarixi coğrafiyasından xəbər verdiyi kimi adı çəkilən Koroğlu səfərlərinin içərisində olan yurd, dağ, daş, şəhər, kənd, tayfa adları da tədqiqat üçün maraqlı material verir. Çənlibel, Qoşabulaq, Bolu, Ərzurum, Təkə-Türkman, Kağızman, Muş, Bağdad, Çanaqqala, Sarıqamış, Ağqaya, Rum, Toqat, Təbriz, Çin Maçin, Çardaxlıbel və s.

Koroğlunun digər türk xalqları versiyasında olan toponim kəlmələr maraqlı araşdırma mövzusu verə bilər.

Bir çox türk qəhrəmanlıq dastanlarında olduğu kimi «Oğuz xan» və «Koroğlu» dastanlarında da ideal igid tipi, qəhrəmanlığı ifadə edən Alp, Alp Ərən, Ər kimi termin sözlər ön planda görünməkdədir.

Hər iki dastanda bu termin – kəlmələrin mənası savaş, comərdlik, fövqalədəlik kimi milli xasiyyətlər ifadə edir. İgid, cəsur, savaş qəhrəmanları olan alplar at üstündə yaranmış türk mədəniyyətinin idealizə edilmiş nümunəsidir.

Aralarında böyük tarixi fərq olması ilə bağlı olaraq hər iki dastandakı alp tipini sosyal, siyasi, iqtisadi, coğrafi, mədəni dəyişikliklər səbəbi ilə iki qrupda öyrənmək daha məqsədəuyğun olardı:

1. Böyük dövlət qurma idealları ilə yaşayan Alp-ərənlər. Buna «Oğuz xan» dastanındakı cahangirlik, cahan hakimiyyəti məfkurəsi ilə dövlət qurmaq istəyən alp-qəhrəmanları misal gətirmək olar.

«Oğuz xan» dastanındakı Oğuz xan doğuşdan igid olma ehtirası ilə dopdolu olan bir alp tipidir.

Prof. Mehmet Kaplanın yazdığı kimi «Oğuz Kağan» alp tipinin zirfəyə ulaşmış və islamiyyət təsiri ilə təşəkkül edən türk dastanlarının bir təmsilçisidir» (A.K.Ə.).

2. Xalqının uğradığı haqsızlığa qarşı mübarizə eşqi ilə yaşayan, xalqı uğradığı haqsızlıq və əsarətdən qurtarmaq üçün qəhrəmanlıq göstərən alplar, ərənlər. Buna türk dünyasında mövcud olan «Koroğlu» dastanlarında da rast gəlirik. Dastanda alp, ərən kəlməsi ilə yanaşı, bu kəlmələrlə eyni mənanı ifadə edən «dəli» kəlməsi ilə də rastlaşırıq.

Türk xalqlarının sevimli qəhrəmanı türk alp-ərənlərinin uca abidəsi olan Koroğlu mənəvi şəxsiyyət kimi comərd, cəsarətli olmaqla bərabər aman istəyəni bağışlamış, gücsüzlərə «dəliləri» (qəhrəmanları) ilə bərabər kömək etmişdir.

«Koroğlu» ərənləri dosta, təmiz, sadə insanlara nə qədər səmimidirlərsə, haqsızlıq edənlərə qarşı bir o qədər sərt və amansız «dəli»lərdir.

Hər yana getsən yolundu,
Ərənlər sağın-solundu (2, 151).
Koroğlu eydür gülbangı yetürdik,
Ərənlərin sancağını götürdük.
Qatar-qatar mayaların gətirdik,
Gedən Mevlanındır, qalan bizimdir (3, 117)

Prof. Məhmət Kaplan Koroğlunu belə xarakterizə edir:

«Həyatın mənasını qüvvətli olma və qələbə çalmada görməsi baxımından heç şübhəsiz o da Oğuz Kağan və Dədə Qorqud qəhrəmanları soyundan gəlir. O da onlar kimi igidliyi ən üstün qiymət sayan aktiv, savaşçı bir tipdir. Şəxsiyyətinin ayrılmaz bir parçası və başarılarının təməli olan məşhur Qıratı, açıq məkan adamı olması, köçərilərdə olduğu kimi dağlarda yaşaması ilə də

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

o, Alp tipinə yaxınlaşır. Türk xalqının bu gün belə Koroğlunu bir qəhrəman olaraq ucaltması ilə, əlbəttə ki, onun şüurunda yaşayan Alp tipini xatırlamasının böyük payı vardır» (1, 101).

Alp termini ilə yanaşı dastanlarımızda at adları ilə bağlı kəlmələr də müstəsna səciyyə daşıyır. Orxon yazılarındakı şahzadə Gültəkinin atlarından birinin adı Alp Salçıdır. İgid fövqəladə bir ata sahib olmaqla, hər zaman atlıdır, taleyini öz atı ilə birlikdə yaşayır və atın onun sosial həyatında yeri böyükdür. Koroğlunun Qıratı, Düratı, Oğuz xanın Buz dağından Karlukun tapıb gətirdiyi atın, Giziroğlu Mustafa bəyin Alapaçasının, Eyvazın Ərəb atının qəhrəmanların həyatında heç bir varlıqla ölçülməyən qədər böyük önəmi var.

«Oğuz xan» dastanında Oğuzun həyatının at sürüləri ətrafında keçdiyi söylənilir. Dastanda deyilir ki, «Oğuz Kağan hər zaman bir alaca at minərdi. O, bu atı çox sevərdi».

«Koroğlu» dastanında xüsusi vurğulanan Qırat, Dürat, Ərəb at, Alapaça qəhrəmanlar kimi bir şəxsiyyətə sahib atlardır. Bu atlar da dastan qəhrəmanları kimi öz adları ilə məşhur olub müstəsna xüsusiyyətlərə malikdirlər.

At odu üstündən ər aşırmağa,
Dərə dolandırıb yal aşırmaya,
Üstündə əl-ətək dolaşdırmaya,
Qoç igidin atı dəli gərəkdi (2, 90)

Bir atı var Alapaça,
Macal verməz Qırat qaça.
Az qaldı ortamdan biçə,
Giziroğlu Mustafa bəy (3, 203).

Dastanlarımızda at vəfalı və fədakardır. Torpağa və sahibinə bağlıdır.

Yeri gəlmişkən bir haşiyə:

Məşhur Qarabağ atları dünyada öz xisləti ilə tanınmışdır:

«Qarabağ atı ilə bağlı ən təsirli tarixçələrdən biri Zaman adlı atın İngiltərədəki taleyidir. Zaman yad eldə heç kimi yaxına buraxmayıb və dərddən çərləyib ölmüşdü…» (4, 238).

Şair Bəxtiyar Vahabzadə 1956-cı ildə İngiltərə kraliçasına hədiyyə göndərilən bu atın sahibinə, torpağına sədaqətini belə poetikləşdirir.

Zaman keçdi,
Zəmanətdə «Qırat», «Dürat», «Zaman» oldu,
…Kraliça Yelzaveta
Meyil salıb Qarabağdan
Töhfə gətirilən
Kəhər ata.
Zaman yatmır ipə, sapa,
Dirək olub kişnətrtisi yerə, göyə.
…O yemədi, o içmədi,
Arıqladı o günbəgün.
Xiffətini çəkirdi at,
Şahbulağın,
Jıdır düzün.
…O dözmədi, yox dözmədi.
Bu xiffətdə çox hikmət var.
Yad iqlimə dözə bilməz,
Öz-özünü tanıyanlar! (5, 165).

Tədqiqata cəlb etdiyimiz «Oğuz xan», «Koroğlu» kimi türk dastanlarında silah, «mizraq», «qalxan», «sursat», «qılınc», «ox», «süngü», «şeşpər» kimi döyüş ləvazimatlarının adı çəkilir.

«Oğuz xan»da «yay», «ox», «qalxan», «qılınc» kəlmələri dastanda təkrar-təkrar işlədilir. Dastanda deyilir ki, Oğuz xanın vəziri Uluk Türük bir yuxu görür: Qızıldan olan bir yay gündoğandan günbatana qədər getməkdə, üç gümüş ox da quzeyə (

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Türük yuxusunu Oğuz xana belə yozur: «Göy Tanrı röyamda göstərdiyini həqiqət etsin, bütün dünya sənin uğurlarını görsün». Dastanın başqa bir yerində isə deyilir: «Oğuz Kağan» cəsur bir adamdı. Bu gərgədanı ovlamaq istədi. Bir gün ova çıxdı. Qarğı, yay, ox, qılınc və qalxanla ova getdi: «Burada İtil Müren adında bir dəniz vardı. Bu İtil Mürenin kənarında bir qara dağın önündə savaş başladı. Oxla, qarğı ilə və qılıncla vuruşdular».

«Koroğlu» dastanında da milli silah-sursatlarının adı çəkilir.

Müxənnət özün öyəndə,
Bənövşə boynun əyəndə,
**Şeşpər qalxana** dəyəndə,
Yəhərdən aşdığın varmı? (6, 54).

Məndən salam olsun Bolu Bəyinə,
Çıxıb şu dağlara yaslanmalıdır.
**Ox** çığırtısından, **qalxan** səsindən,
Dağlar gümbür-gümbür səslənməlidir (3, 202).

«Koroğlu» Türkiyə versiyasında da milli silah-sursat adları eynən təkrar olunur.

Bir yigit oxunu almış əlinə,
Başın qoymuş yigitliyin yoluna.
Qalxan paralana zırhlar dəlinə,
Qanlı köynək qoç igidə don olur (3, 121).

Dediklərimizdən belə bir nəticəyə gəlmək olur ki, böyük tarixi dəyəri olan türk dastanlarında, o cümlədən müqayisəli şəkildə örnək götürdüyümüz «Oğuz Kağan» və «Koroğlu» kimi milli dastanlarda türk qəhrəmanlıq dastanlarına məxsus toponim, etnonim, astronomiya, titul, qəhrəmanlıq titulları, adət-ənənə, mifoloci təfəkkür, dini anlayış və s. ilə bağlı işlədilən termin-sözlər tariximizin dərinliklərindən gələn milli kimliyimizi təsdiq edən türk xalqlarının tarixi keçmişi haqqında mühüm məlumatı verən sözlərdir.

Nəinki müqayisəli şəkildə örnək götürdüyümüz «Oğuz xan» və «Koroğlu» dastanları, həmçinin türk dünyasının əvəzsiz milli dastanları türk xalqlarının ortaq mədəniyyətindən xəbər verən türk tarixinin bir parçasıdır. Bu dastanlar kökü dərinlərdə olan bir ulu ağacın qol-budaqlarıdır.

Dastanlarımız müxtəlif zamanlarda müxtəlif mühitdə toplanıb yazıya alınmasına baxmayaraq, onlar vahid özəkdən ayrılmamışlar. Bunu örnək olaraq müqayisəli şəkildə araşdırdığımız «Oğuz xan» və «Koroğlu» dastanlarındakı termin - kəlmələrin anlamlarından da görməkdəyik.

Türk xalqlarının tarixinə işıq tutan türk dastanları bu xalqların tarixi və tarixi coğrafiyası, etnoqrafiyası, mifik təfəkkür tərzi, qəhrəmanlıq anlayışı, etnik mədəniyyətin daşıyıcısı olan tayfa, soykökü, qəbilə adları, adət-ənənələr kimi milli xüsusiyyətlərinin hərtərəfli öyrənilməsində əvəzsiz tədqiqat mənbəyidir. Bu dastanlar bəzən tarixin uzaq keçmişdə saxlanan izlərinin qatını aça bilir, dürüst və uğurlu materialların əldə edilməsinə vəsilə olur.

## ƏDƏBİYYAT

1. Mehmet Kaplan. Türk Edebiyatı Üzerinde Araştırmalar. 3 tip tahlilleri, İstanbul, 1985
2. «Koroğlu» Paris nüsxəsi, Bakı, 1977, səh. 151
3. Şükrü Elçin. Halk Edebiyyatına giriş. Ankara, 1981
4. Sabir Rüstəmxanlı. «Ömür kitabı», Bakı, Gənclik, 1989
5. B.Vahabzadə. Əsərləri, IV c. Bakı, 2002
6. «Koroğlu». Bakı, Gənclik, 1982

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# "KITABI-DƏDƏ QORQUD" DASTANI "VARLIQ" JURNALINDA

***MƏRYƏM SƏBRİ***

"Kitabi-Dədə Qorqud" boyları türdilli xalqların ədəbiyyat tarixində özünəməxsus bir yer tutur. Bu dastan türk xalqlarının yaratdığı milli mədəniyyətin ən zəngin və ən ulu qaynaqlarından biridir.

"Kitabi-Dədə Qorqud"un hər boyu el-obaya, ata-anaya, qardaş-bacıya ülvi məhəbbətin canlı salnaməsidir: mərdlik və qəhrəmanlığa, yer üzündə səadət və bəxtiyarlığa qüdrətli himndir. Ona görə də bu dastanların tədqiq, nəşr və təbliğ edilməsi təbii görünür (9. s. 5).

Dastanın tədqiqi ilə Cənubi Azərbaycanda da məşğul olmuşlar. Belə ki, bu tədqiqat işini "Varlıq" jurnalı böyük məhəbbətlə həyata keçirmişdir. Jurnal 1979-cu ildə Cənubi Azərbaycanda nəşr edilən jurnallardan biri və ən əsasıdır. Doktor Cavad Heyətin təşəbbüsü ilə Tehranda işıq üzü görməyə başlayan bu jurnal tez bir zamanda böyük oxucu kütləsinin marağına səbəb olmuşdur. Jurnal Azərbaycan ictimai fikir tarixində xüsusi bir mövqeyə malikdir. Dərgidə Azərbaycanın istər şifahi, istərsə də yazılı ədəbiyyatı geniş şəkildə tədqiq və təbliğ edilir.

Folklorun tədqiqi, təbliği və nəşrinə xüsusi yer verən jurnalda bu sahədə aparılan tədqiqatlar böyük marağa səbəb olur. Burada folklorun ayrı-ayrı növ və janrlarına çoxlu tədqiqat xarakterli məqalələr həsr edilmiş və toplayıcılıq sahəsində də bir sıra tədbirlər həyata keçirilmiş, müəyyən irəliləyişlər əldə edilmişdir.

"Varlıq" jurnalında "Kitabi-Dədə Qorqud"la bağlı məqalələrin nəşri də diqqəti cəlb edir. Bu dastana, onun ayrı-ayrı qollarına həsr edilmiş nəşrlərin sayı çoxdur və bunlar arasında olduqca maraqlı məsələlərə rast gəlinir. Bu məsələlər də qorqudşünaslıq sahəsində mühüm addımlardan sayıla bilər. Burada ilk növbədə tanınmış tədqiqatçıların bu sahə ilə bağlı məqalələri diqqəti cəlb edir. Məsələn, Cavad Heyətin "Dədə Qorqud haqqında düşüncələrim", "Dədə Qorqud dastanlarının dilində Türkiyə türkcəsi özəllikləri", Mirhidayət Hesarinin "Dədə Qorqud kitabının yazılışı və dastanların yaranma tarixi", Hüseyn M. Güneylinin "Dədə Qorqud kitabının Drezden nüsxəsi də köçürülmədir", Həmid Nitqinin "Türklüyün ərən ozanı Dədə Qorqud", Əhməd Bican Ərcilasunun "Dədə Qorqud" kitabı ilə oğuz dastanı arasında əlaqə", Sadiq Turalın "Dədə Qorqud" dastanlarında ailə", M.E.Fərzanənin "Dədə Qorqud boylarının dil və üslub özəlliklərini Azərbaycan türkcəsində aramalıyıq", Əhməd Şəmidənin "Dədə Qorqudu tərcümə edərkən" və s. araşdırmalarda bu qədim abidə barəsində maraqlı fikirlərə rast gəlmək olar.

Ümumiyyətlə, "Varlıq" jurnalının müxtəlif saylarında "Dədə Qorqud"la bağlı araşdırmalar zəngin və çeşidlidir. Dərgini araşdırarkən görürük ki, dastanın araşdırılması ilə Doktor Cavad Heyət, M.Fərzanə, H.Nitqi və b. xüsusi ciddiyyətlə məşğul olmuşlar. Onların nəşr etdirdikləri məqalələr qədim dastan haqqında olduqca maraqlı fakt və fikirlər ortaya qoyur. Məsələn, Doktor Cavad Heyət "Dədə Qorqud dastanlarının dilində Türkiyə türkcəsi özəllikləri" adlı məqaləsində Dədə Qorqud dastanlarının dilinin Azərbaycan və Anadolu türkcəsinə digər türk dil və ləhcələrindən daha yaxın olduğunu qeyd edir. Bildirir ki, Dədə Qorqudun dili bugünkü dilimizdən bir az fərqlidir, lakin 11-12-ci əsrlərdə bu bölgələrdə yaşayan oğuzların danışdığı dilin eynidir. Müəllif qeyd edir ki, Dədə Qorqudun dilində farsca və ərəbcə sözlər çox azdır, onların yerinə türkcə sözlər işlənmişdir. Məsələn, "aşıq" yerinə "ozan", "dua" yerinə "alqış", "xəstə" yerinə "sayru" və s. işlənmişdir. Bəzi sözlərin tələffüzü bugünkündən fərqlidir. Məsələn, "hansı" yerinə "qansı" və s. kimi. Müəllif Dədə Qorqud dastanlarının dilində Türkiyə türkcəsi özəlliklərini müqayisəli şəkildə araşdıraraq, bunlar arasındakı yaxınlığı müəyyən müqayisələr əsasında verməyə çalışmışdır (6, s. 3-7).

E.M.Fərzanə isə "Dədə Qorqud boylarının dil və üslub özəlliklərini Azərbaycan türkcəsində aramalıyıq" adlı məqaləsində Məhərrəm Ərgin və Orxan Şaiq Gökyayın Dədə Qorqud boyları ilə bağlı məsələlərdə və xüsusilə əsərin dil və üslubunda olan azəri türkcəsi özəllikləri və uyğunluqları barədə ayrı-ayrı və bəzən də bir-birinə uyuşmayan görüşlər və mülahizələr yürütməklə fərqli qənaətlərə gəlib çatdıqlarını qeyd etm

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

hər iki müəllif yaydıqları Dədə Qorqud mətnlərində bu gün azəri türkcəsi sahəsində olduqca açıq-aydın duyulan və heç cür dəyişdirilməsi və bayağılaşdırılması gərəkli olmayan sözləri də dəyişdirib və onların yerinə şübhəsiz duyulması və anlamı Türkiyə türkcəsində daha əlverişli olan sözlər yerləşdirmişlər (4, s. 7-11).

Bu qədim abidənin İranda daha geniş tanınması və nəşri "Varlıq" jurnalı ilə çox bağlıdır. Jurnalın 1997-ci ildə çıxmış sayında dastanın bu tarixi haqqında Əlirza Sərafinin "İranda "Dədə Qorqud" kitabının tanınması və nəşri tarixindən" adlı məqaləsi ilə rastlaşdıq. Müəllif İranda "Dədə Qorqud"la bağlı keçirilən simpozyumun yekunu olaraq nəşr etdirdiyi bu məqaləsində "nə üçün "Dədə Qorqud"u layiqincə tanımırıq" mövzusunda maraqlı fikirlər irəli sürmüşdür. Bu mövzuya açıqlıq gətirməyə çalışan Ə.Sərafi fikirlərini tutarlı dəlillərlə sübut etməyə çalışmışdır. Müəllif də yuxarıda bəhs etdiyimiz alim M.Fərzanənin "Dədə Qorqud" kitabının nəşri sahəsindəki yorulmaz fəaliyyətindən böyük fərəhlə bəhs etmişdir. O, yazır ki, "məlum olduğu kimi, "Dədə Qorqud" ilk dəfə türkcə 1916-cı ildə İstanbulda çap edilmiş və onun nüsxəsi həmən illərdə başqa kitablarla birlikdə Azərbaycanın görkəmli mədəniyyət xadimlərindən sayılan Məhəmmədəli Tərbiyətin əlinə çatmış və onu bir çox kitablarla Təbrizin, ya daha doğrusu İranın ilk yeni üslubda qurulmuş tərtib kitabxanasına vermişdi.

1921-ci il Rzaxanın hökumət başına keçirilib və onun ardınca aşırı nasionalizm və asimilasion siyasəti Azərbaycanda yürüdülüncə "Dədə Qorqud" kitabı da sıradan çıxarılır və "Oraq balta" adı ilə başqa kitablar, nəşrlər və qəzetlərlə birlikdə anbara yığılıb qapısı möhürlənir. "Dədə Qorqud"un Təbrizdə zindanda olduğu sırada hələ əsər müəyyən səbəblər üzündən Bakıda çap edilmir və Türkiyədən İrana kitab gətirilmirdi.

Ikinci dünya savaşı Cənubi Azərbaycanın sovet orduları tərəfindən işğal edilməsilə nəticələnir və burada müvəqqəti olaraq asimilasion siyasəti zəifləyir və "Dədə Qorqud" kitabı da bir çox kitablar və nəşrlər kimi oraq balta zindanından azad edilir.

Bu gün M.E.Fərzanə adı ilə tanınmış ədib və araşdırıcı o vaxtlar kitabxanada məsul vəzifədə olduğundan Təbrizdə çıxan "Azərbaycan" ruznaməsində "Azərbaycan milli dastanları" ünvanlı ardıcıl məqalələrdə "Dədə Qorqud" dastanlarının böyük hissəsini başqa dastanlarla birlikdə buraxır və bu buraxılış dastanların yayılma və tanınma işinə yardım edir" (3, s. 23).

"Kitabi Dədə Qoqud" dastanının ilk dəfə 1939-cu ildə Həmid Araslı tərəfindən Bakıda nəşr edilməsindən sonra başlayaraq, İranda da bu sahədə irəliləyişlər başlayır. Ə.Sərrafi Azərbaycanın milli şairi B.Q. Səhəndin bu sahədəki fəaliyyəti haqqında yazır: "...B.Q. Səhənd "Dədə Qorqud" boylarına şeir donu biçməyə başlayır və onun birinci altı dastanı 1964-cü ildə "Sazımın sözü" ünvanı ilə çapa hazır olur. Lakin heç bir çapxana kitabın çapına boyun qoymur. Ən sonda bir çapxana bu işi qəbul edir, o da bu şərtlə ki, bütün çap işləri ancaq gecələr başa gəlsin. Kitab gecələr düzülsün, gecələr təshih edilsin, gecələr çap olsun və səhər tezdən çap olmuş qurumlar çapxanadan aparılsın. Beləliklə kitab çap olub yayılır. Kitaba M.E. Fərzanə tərəfindən yazılmış ön söz əsərin xalq arasında tanınmasına yardım göstərir. Kitabın ikinci çapı zamandan asılı qalır.

Kitabın çıxıb yayılması ilə hamıdan əvvəl Təbriz ona səs verir. Səməd Behrəngi və onun əməkdaşı kitabı qiymətləndirirlər və Səməd "Dədə Qorqud və sazımın sözü" haqqında başlıca bir məqalə yazır.

1976-cı ildə "Dədə Qorqud"un farsca tərcüməsi Əli Əkbər Həriri və Təriba Əzbədfətri tərəfindən Təbrizdə çapdan çıxır. Bu tərcümə Cəfəri Löisin ingiliscə tərcüməsindən farscaya çevrilmişdir. Bununla yanaşı Anarın "Dədə Qorqud" üzrə yazdığı bədii əsəri də farscaya tərcümə edilib yayıldı.

İslami inqilabın qələbəsi ilə yaranan imkanlar üzündən "Varlıq" jurnalının ikinci il (1359) saylarında mənim ardıcıl surətdə 8 məqaləm "Dədə Qorqud" haqqında nəşr edildi. Ondan bir il öncə (1358) də kitabın əsl mətni hörmətli alim Doktor Məhəmmədəli Fərzanə tərəfindən yazılmış ön sözlə yayıldı" (3, s. 23-24).

Sərrafinin bu məqaləsi göstərir ki, dastan İranda yayılarkən nə kimi çətinliklər keçməli olmuş, hansı əngəllərlə qarşılaşmışdır. Belə ki, dastan siyasi səbəbl

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

da, bir sıra çətinliklərdən sonra, Şimali Azərbaycanda olduğu kimi, Cənubda da ona böyük hörmət və qayğı göstərilmiş, görkəmli tədqiqatçılar, alimlər tərəfindən bəzən ayrı-ayrı məqalələr, bəzən də tədqiqat xarakterli kitablar şəklində nəşr edilmişdir. Bu sahədə isə "Varlıq" jurnalının müxtəlif saylarında tanınmış tədqiqatçı alimlər tərəfindən çap edilmiş nəşrlərin xüsusi yeri olmuşdur.

"Dədə Qorqud" dastanının tədqiqi məsələləri ilə məşğul olan Nəzakət Rzaqızı jurnalın bir sayında bu sahə ilə bağlı araşdırma aparan, müəyyən işlər görən tədqiqatçılar barəsində söhbət açmış və bu tədqiqat və nəşrlərin səmərəsindən bəhs etmişdir (11, s. 65-67).

Qeyd etdik ki, jurnalda "Dədə Qorqud" dastanı müxtəlif cəhətləri ilə tədqiqata cəlb edilmişdir. Belə ki, dərginin başqa bir sayında prof. Əhməd Bican Ərcilasun "Dədə Qorqud kitabı ilə oğuz dastanı arasında əlaqə" adı ilə dərc etdirdiyi məqaləsində oğuznamələr arasında qarşılıqlı şəkildə müqayisələr aparmışdır. Müəllif bu tədqiqatda Oğuz Xaqan və Dədə Qorqudun yaşadığı dövrlər üzərində dayanmış və bunların Dədə Qorqud kitabındakı qarşılıqlarını axtarmışdır. Məqalənin sonrakı gedişində dastandakı yer adları ilə bağlı araşdırma aparan müəllif bildirir ki, Şərqi Anadoluya və Azərbaycana aid yer adlarının "Dədə Qorqud" kitabında özünə yer tapması "Dədə Qorqud" boylarının heç olmazsa birinin məntəqədə baş verdiyini göstərir. Bununla bağlı olaraq, o, F. Sümerin fikrini təsdiqləyir. Onu da göstərir ki, yer adlarından başqa bəzi motiv və ad yaxınlıqları bəzi boyların mənbələrini Anadoluda və Azərbaycanda axtarmağa imkan verir (2, s. 59 ).

Həmin sayda dərc edilən başqa bir məqalədə isə dastanda ailə məsələləri araşdırılmışdır. Prof. Sadiq Tural tərəfindən "Dədə Qorqud dastanlarında ailə" başlığı altında dərc edilən bu məqalədə "Dədə Qorqud" boylarında ailənin əhəmiyyəti və əxlaqlı olması barədə fikirlər ifadə edilir. Müəllif bunu belə izah edir: "Ailə və xüsusilə qadının rolu məsələsində "Dədə Qorqud" dastanının ən mühüm cəhəti, islamlaşdırılmasına baxmayaraq, tək qadınlı evlilik, ailə qurmaq anlayışıdır. "Dədə Qorqud" dastanları tək kişi, tək qadından ibarət ailəni aşılayan və qadını bir ailə üçün "qurucu", "əsl üzv" sayan bir özəl mətndir... Qadın və kişi arasında münasibətdə, tanış olma, bəyənmə, sevmə, aşiq olma mərhələlərini yaşadanın, hər şeydən əvvəl, duyğu mübadiləsi olması bəllidir. Kişi və qadın arasında bu duyğuları və nəticəni açıqlayan hadisə arxasında milli mədəniyyətimiz yerləşmişdir. "Dədə Qorqud" dastanlarında ifrat duyğuya, xəyalpərəstliyə imkan verməyən bir əsas var...

Dünyadakı heç bir dastanda "Dədə Qorqud"da olduğu kimi qadını kişi ilə bərabər sayan, qadını sədaqət, namus simvolu hesab edən, ailə quran və qoruyan, yüksəldən, qadını qəhrəmanlıqları ilə önə çıxaran, əxlaqi dəyərləri ailəvi dəyərlərlə eyniləşdirən tək arvadlılığı aşılayan bir əsər yoxdur. "Dədə Qorqud" dastanı bir əxlaq, ailə dastanı, ailəni milli mənlik və kimlik mərkəzi sayan, artıq qəhrəmanlıq öyrədən eposumuzdur" (12, s. 63-64).

"Varlıq" jurnalında daima maraqlı məqalələri, araşdırmaları ilə tanınan doktor Həmid Nitqi "Türklüyün ərən ozanı Dədə Qorqud" məqaləsində kitab haqqında ağızdolusu danışmışdır. Müəllif kitabın türk mədəniyyəti və türkdilli xalqların daimi ilham qaynağı olmasını, ona qarşı istər türk, istərsə də xarici ölkələrdə rəğbətin artığını ifadə etmişdir. Tədqiqatçı "Dədə Qorqud" haqqındakı fikirlərini, onun nəşri tarixi barəsində geniş məlumat verdikdən sonra belə ümumiləşdirmişdir: "Belə təsəvvür etmək olar ki, Dədə Qorqud türk tarixinin ruhu kimi əfsanələşmişdir. O zamanın oğuzlarının həmişə imdadına yetdiyi kimi, indi belə onun müqəddəs xatirəsi altaylardan bura və ötələrə qədər türklərin həyat mənbəyi olmuşdur" (8, s. 8).

Bu sayda dastanla bağlı çap edilən bir məqalə isə H.M.Güneyliyə məxsusdur. O, "Dədə Qorqud kitabının Drezden nüsxəsi də köçürülmədir" adlı araşdırmasında Dədə Qorqud kitabının bu günə qədər tapılan və əldə olan nüsxələrinin ən əskisi Drezden nüsxəsinin də köçürülmə olduğu barədə öz fikirlərini irəli sürmüşdür. Əsərin ön sözündən başlayaraq, bütün boylarını bu cəhətdən araşdıran tədqiqatçı əsərin köçürülmə olduğunu ön söz və boylardan anlaşıldığı kimi, tarixi sənədlərdən də duyulduğunu bildirmiş, buna aid bir çox nümunələr gətirmişdir (5, s. 41-45).

Dastanın yaranma tarixi ilə bir çox tədqiqatçılar məşğul olmuşdur. Belə tədqiqatçılardan biri də yuxarıda adını çəkdiyimiz Mirhidayət Hesaridir. O, "Dədə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dastanların yaranma tarixi" adlı araşdırmasında bir çox tarixi müqayisələr apararaq, sonda belə bir fikir irəli sürür ki, Dədə Qorqud kitabının inşa tərzi və bir para nişanələr onun qədim zamanlara aid olduğunu göstərir. Eyni halda dastanların baş vermə tarixi onların yazıya alınmalarından (kitabın yazılış tarixindən) qədim də ola bilər (10, s. 21-25).

"Dədə Qorqud dastanları, Dədə Qorqud kitabının əvvəlində də yazıldığı kimi, oğuz türklərinin dastanıdır. Bu dastanlar oğuz ellərinin yaşamlarının bir aynası və qədim kültür və folklorumuzun zəngin xəzinəsidir" – deyən Dokrot Cavad Heyət dastan haqqındakı düşüncələrini jurnalın 2003-cü ildəki sayında geniş br məqalədə ifadə etmişdir. "Dədə Qorqud" dastanı haqqında bir çox məqalə müəllifi olan C.Heyət bu araşdırmasında dastandakı hadisələr, onların baş verdiyi ərazilər, yer adları, adət-ənənələr, abidənin dili və s. haqqında geniş tədqiqat apararaq, dastan haqqındakı öz düşüncələrini belə ifadə etmişdir: "Dədə Qorqud dastanları oğuzların milli dastanları və ən qiymətli milli ədəbi abidələridir. Dastanlar qərbi Azərbaycan (o tay-bu tay) və Türkiyənin şərqi oxunda baş verən hadisələrlə son şəklini almışdır. Dastanların dili oğuz türkcəsi olmaqla yanaşı bugünkü Azərbaycan türkcəsinə daha yaxındır. Yer adları və dil xüsusiyyətlərini də diqqət-nəzərə alarsaq, dastanların son şəkillərinin min ili keçmədiyi qənaətindəyəm" (7, s. 13).

"Varlıq" jurnalında diqqəti cəlb edən araşdırmalardan biri də tədqiqatçı alim Seyfəddin Altaylının "Dədə Qorqudda sağ-sol anlayışı və bunun türk dövlət gələnəyi baxımından əhəmiyyəti" adlı məqaləsidir. Bu məqalədə müəllif bildirir ki, dastanın tədqiqi ilə məşğul olan tədqiqatçılar xüsusilə dil, ədəbiyyat, adət-ənənə, məişət və s. mövzularda araşdırma aparmışlar. Müəllif isə fərqli bir tədqiqat obyekti seçərək, türk dövlət gələnəyində sağ-sol anlayışı və onun "Dədə Qorqud"da tutduğu yerə işarə etmişdir (13, s. 72-75).

Bildiyimiz kimi, dastanda qadına xüsusi hörmət göstərilir. Bu haqda çoxlu məqalələr yazılmışdır. Belə məqalələrdən biri də R.Eyvazovaya məxsusdur. Onun "Dədə Qorqud dastanlarında qadın mənəviyyatı" adlı araşdırması dastanda qadına göstərilən münasibətə həsr edilmişdir. Müəllif qeyd edir ki, "...Müqəddimədən başqa kitabın 12 boyunda da qadınlar hadisələrin ən çalışqan aparıcı qüvvələrindən biridir. Bu mövzunu vurğulayarkən hər şeydən öncə eposda qadınların ümumi mövqe, analıq şərəfi, ailə namusu, saf məhəbbət nümunələri, fədakarlıq, döyüş igidliyi və s. xüsusiyyətlərini qabarıq şəkildə göstərmək lazımdır" (1, s. 55).

Yuxarıda deyilənlərdən göründüyü kimi, dərgidə qədim abidə ilə əlaqədar olduqca müxtəlif məzmunlu məqalələrə rast gəlmək mümkündür. "Varlıq" əsasən İranda yaşayan tədqiqatçıları öz ətrafında birləşdirsə də, dərgidə tez-tez Türkiyənin, Şimali Azərbaycanın və b. ölkələrin də tanınmış alimlərinin araşdırmaları dərc edilir ki, bu da dərginin əhəmiyyətini daha da artırır.

**ƏDƏBİYYAT**

1. Eyvazova R. Dədə Qorqud dastanlarında qadın mənəviyyatı / "Varlıq", 1999, № 3-4.
2. Əhməd Bican Ərcilasun. Dədə Qorqud kitabı ilə oğuz dastanı arasında əlaqə / "Varlıq" dərgisi, 1999, №1-2.
3. Əlirza Sərafi. İranda Dədə Qorqud kitabının tanınması və nəşri tarixindən / "Varlıq" dərgisi, 1997, № 105-2, 106-3.
4. Fərzanə M.E. Dədə Qorqud boylarının dil və üslub özəlliklərini Azərbaycan türkcəsində aramalıyıq / "Varlıq",1998, №1-2.
5. Güneyli H.M. Dədə Qorqud kitabının Drezden nüsxəsi də köçürülmədir / "Varlıq", 2001, № 123-4.
6. Heyət C. Dədə Qorqud dastanlarının dilində Türkiyə türkcəsi özəllikləri / "Varlıq", 1998, № 109.
7. Heyət C. Dədə Qorqud haqqında düşüncələrim / "Varlıq", 2003, № 2.
8. Həmid Nitqi. Türklüyün ərən ozanı Dədə Qorqud / "Varlıq", 2001, № 123-4.
9. "Kitabi-Dədə Qorqud", Yazıçı, 1988.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

10. Mirhidayət Hesari. Dədə Qorqud kitabının yazılışı və dastanların yaranma tarixi / “Varlıq”, 2001, № 4.
11. Nəzakət Rzaqızı. “Dədə Qorqud” dastanının tədqiqi məsələləri / “Varlıq” dərgisi, 1999, №112-1, 113-2.
12. Sadiq Tural. Dədə Qorqud dastanlarında ailə / “Varlıq” dərgisi, 1999, №1-2.
13. Seyfəddin Altaylı. Dədə Qorqudda sağ-sol anlayışı və bunun türk dövlət gələnəyi baxımından əhəmiyyəti / “Varlıq”, 1999, № 114-3, 115-4.

**Эпос «Китаби-Деде Коркут» в журнале «Варлыг»**

Журнал «Варлыг», издаваемый в Тегране на азербайджанском языке, играет важную роль в изучении и пропоганде азербайджанской культуры, истории и литературы.

Вопросы фольклористики тоже занимают важное место в журнале. В данной стате говорится об исследованиях, которые были опубликованы в журнале «Варлыг» об огузском героическом эпосе «Книга моего деда Коркута». В статье особенное внимание удалено исследованиям таких известных авторов, как Джавад Хейят, Мирхидайет Хисари, Гусейн Гюнейли, Хамид Нитги, Ахмед Биджан Арджиласун и др.

**“Kitabi-Dede Gorgud” epic in “Varlig” magazine**

“Varlig journal” published in the Azerbaijani language in Tehran plays an important role in learning and propagating of Azerbaijan culture, history and literature.

Folklore-studies matters also play an important role in the magazine. The article deals with investigations about oguz heroic epic “Kitabi-Dede Gorgud” which were published in “Varlig” journal.

In the article investigations of Javad Heyat, Mirhidayet Hesari, Huseyn Guneyly, Hamid Nitgi, Ahmad Bejan Arjilayun and other well-known authors are specially stated.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DASTANLARDA VƏ GƏMİQAYA TƏSVİRLƏRİNDƏ MARAL OBRAZININ İFADƏSİ

***MƏHSƏTI İSMAYIL***

Qədim türk mədəniyyətinin köklü izləri əski inanclar dastanlarda- silinməyən yaddaş sferasında qorunmuşdur. Maral- keyik gözəllik simvolu ilə yanaşı müqəddəsliyi də ifadə edir.

Günümüzdə xalq arasinda ovlarla (xalq av şəklində tələffüz edir) bağlı xeyli sayda inam, əfsanə, rəvayət, mif, nağıl və sair mətnlər söylənməkdədir. Bu gün ov deyərkən əsasən dağ keçisi nəzərdə tutulur. Bildiyimiz kimi, keçmiş zamanlarda mifoloji maral obrazını xarakterizə edən xeyli sayda folklor materialları toplanmışdır. İqlim dəyişilmələri, təbiətdə gedən proseslər müasir yaddaşötürücü -söyləyicidə maralı və dağ keçisini ümumiləşdirilmiş obyekt kimi- av deyə təqdimatına səbəb olmuşdur.

Məlum olduğu kimi Gəmiqayada qayalar üzərində xeyli sayda maral təsvirləri vardır. Şərur rayonu, Ovçulartəpəsində aparılan arxeoloji qazıntılarda eneolit dövrünə aid heyvan sümükləri ilə yanaşı yabanı qırmızı maralın sümükləri də tapılmışdır (7, s. 56). Maral sümükləri II Kültəpə və Qızılburun yaşayış yerindəki arxeoloji qazıntılar zamanı da aşkar olunmuşdur (2, s. 155). Yaycı nekropolundan aşkarlanmış qablar üzərində dağ keçiləri və maral təsviri mövcuddur (3, s. 37). Obrazın mifoloji yükünü, qayaüstü lal təsvirlərin dilini dastanlardakı sözlü ifadə mənaları ilə anlamaq mümkündür.

Türk boylarında maral müqəddəslik ifadə etdiyi üçün simvollaşdırılmışdır. Simvollaşdırılan hər hansı bir nəsnə əslində bir çox keyfiyyəti ilə mifoloji anlamda sərgilənməkdədir. Mifoloji sistemdə inancın əsas qaynağı çoxşaxəli baxışdan yaranır. Maral təbiətin yaradılışın gözəlliyin, zərifliyin rəmzidir. İnsanın təsəvvüfi düşüncəsində bütün gözəlliklərdə fövqəladə güc Tanrı –yaradıcı yaratdıqlarında təcəssüm etmişdir.



Təbiətin sonsuz rəngləri və müxtəlifliyi içərisində canlı və sonsuz nəsnələrdə, varləqlarda onun yəni yaradıcının bəxş etdikləri durur. Gəmiqaya təsvirlərinin bir çoxunda da maral zərif cizgiləri ilə məsum, incə kövrək təsir bağışlayır. Ovçuluq səhnələrindəki bir sıra təsvirlərdə isə sıradan heyvan görüntüsü verilmişdir. Qayaüstü təsvirlərin ümumi xarakterində belə təzadlar aydın oxunmaqdadır. Ümumiyyətlə Gəmiqaya təsvirləri sənət baxımından təsvir gözəlliyi və müxtəlifliyi ilə yanaşı fikir ifadəsində də daha çox söz deyir. Kompozisiyalı təsvirlərin hər birinin mifik inanç qaynağı vardır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional



Tarixçi arxeoloq V.Baxşəliyev maralın nəinki qədim insanların mifik düşüncəsində həmçinin təsərrüfat həyatında da rol oynadığını qeyd etmişdir. Aparılan arxeoloji qazıntılar zamanı yaşayış yerlərindən xeyli miqdarda maral sümükləri və maral sümüklərindən hazırlanmış əmək alətləri aşkar edilmişdir (4, s. 664). Maral təsviri Gəmiqaya qayaüstü təsvirlərlə yanaşı Altay Hun çağından qalma qabartma və fiqurlarda xalı, kilim, bəzək əşyalarında təsərüffat məişət qablarının üzərində görülməkdədir. Mifoloji sistemin zəncirvari halqasını təşkil edən keyik-maral mifik düşüncədən daş təsvirlərə sonra şifahi sözə və əl bacarığı olan sənətə köçürülmüşdür. Mifoloji yaddaşda maral müqəddəsliyi onun insanlara süd verməsi ilə də bilinməkdədir (1, s.61-62-63). Mifoloji mətnlərin əksəriyyətində ana maral onu qoruyan insanlara öz qoruyuculuğu ilə qarşılıq verir. Təsvirlərdəki ovçuluq səhnələri qədim insanların təsərrüfat həyatını aydın şəkildə göstərir.





Mətnlərdə isə ovlanmaqda olan maralın mifoloji gücü verilir. Əfsanələrin də əksəriyyətində marallar ocaq adlandırılan yerlərə ziyarətə və ya sağına gedirlər. Burada isə qadın sağıcı və maral arasındakı qoruyuculuq qarşılıqlı şəkildə biri-birini tamamlayır. Xalq kültürü araşdırmacısı Y.Kalafat şamanların qadın doğumu mərasimində buynuzlu maskalar istifadə etməsini keyiklərin qadınlarla bağlandığına sübut olduğunu qənaətinə varmışdır. Alim həmçinin maral fəsiləsindən olan karacanın çaptı türklərinin müqəddəs heyvanı olduğunu inama görə isə karacanın bəzi heyvanlarla birlikdə dünyanın yaradılışına qatıldığını yazmışdır (10). Ümumiyyətlə Azərbaycan mifologiyasında maral, Divani-i luğati türkdə ıvuk, keyik, Orxon abidələrində sıbun, kiyik, keyik, Kitabi-Dədə Qorqud dastanında boğa (buğa) adlanmaqdadır. Türklərin kültür və ədəbiyyatında keyik motivini araşdıran Dr.Qiyasəddin Aytaş məsnəvi tərzində yazılan keyik dastanını əski Anadolu türkcəsinin bütün keyfiyyətlərini daşıdığı qənaətinə varmışdır. Dastan əski mifoloji düşüncəni ifadə etməkdədir. Dastanda deyilir ki, Məhəmməd (s.ə.s) Həzrət Əli (ə) və səhabələr məsciddə söhbət edərkən qırx atlı gəlir. Bizim bütlərə qarşı çıxanı göstərin deyə peyğəmbəri istəyərlər. Səhabələr müdaxilə etmək istəyəndə Həzrət Məhəmməd(s.ə.s) mane olur və onların qarşısına çıxır. Peyğəmbər atlıların ovlamış olduğu marala işarə ilə deyir ki, onu azad edərlərsə peyğəmbərliyini elan edəcəkdir. Kafirlər maralı açınca o peyğəmbərin önünə gəlir və dil açaraq hörmətlə necə yaxalandığını iki balasının anasız qaldığını əgər izin vərərlərsə onları əmizdirib geri gələcəyinə söz verir. Həzrəti Məhəmmədin zamin durması ilə ona ikindiyə qədər vaxt verilir. Maral balalarının yanına gedib başına gələnləri danışır

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yolda tələyə düşən maral sözunu tuta bilmədiyinə üzülüb Allaha yalvarır. Bu yalvarış üzərinə Cəbrayıl(ə) gəlir maralı düşdüyü tələdən qurtarıb peyğəmbərin hüzuruna gətirir. Kafirlər bu möcüzə qarşısında müsəlman olurlar (9). Ana maral, dişi maral qoruyucu obrazı Qazax “Kozi-Köpəş” və “Bayan Sulu” dastanında da verilmişdir. Qarabay və Sarıbay övladsızdırlar ov zamanı dişi maral vasitəsilə övladlarının olacağı əlamətinə rast gəlirlər. Qarabay rəhm etsə də Sarıbay onu ovlayır. Burada boğaz dişi maral övlad verilməsi üçün əlamət kimi qəbul olunur. Folklorşünas M.Cəfərli bu dastanın türk variantı ilə fərqli cəhətlərini müqayisə etmişdir. Dastanın bu variantında obrazların yeri dəyişikdir. Ov zamanı Qarabay və Sarıbay dərdləşərək deyirlər ki, əgər övladları olarsa evləndirsinlər. Bu vaxt dişi bir maral görürlər. Qarabayın israrına qarşı Sarıbay maralı öldürsəm hamımıza zərər gələr desə də maralı öldürür. Bu zaman eyni ox maraldan geri qayıdıb Sarıbayın özünü öldürür. Onlar ovda ikən hər ikisinin övladı olur. Prof. M.Cəfərli dişi boğaz maral obrazını sakral gücü ilə əcdad kultunun qalıntıları kimi dəyərləndirmişdir (5, s. 79-80). Kitabi- Dədə Qorqud dastanında “Bayburanın oğlu Bamsı Beyrək boyunu bəyan edər” boyunda ov zamanı Beyrəyin önünə bir sürü keyik gəlir. Bamsı Beyrək birini qovalayır və göy çimənlikdə nişanlısının otağı ilə qarşılaşır (6, s. 46). Keyik dastanların əksəriyyətində vasitəçi, yolgöstərən obrazdır. B.Ögəl dastanlarda maralın dağlarda, vadilərdə, sərt qayalarda sirli şəkildə görünüb yox olmasını insanı heyrətləndirən və xəyala salan səbəb olaraq görmüşdür. Ala keyiği yerin simvolu ruhu adlandırmışdır (8, s. 103).







Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gəmiqaya üzərindəki qədim ovçuluq təsvirlərində də maralla keçinin ov səhnələri bir arada verilmişdir. Bölgədə ovların ziyarət etdikləri yerlər olaraq bilinən pirlərə dair əfsanə və inanclarda əslində hər iki obraz -həm keci həm də maral kultunun izləri görülməkdədir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan mifoloji mətnləri. Bakı: Elm, 1988, 196 s.
2. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана.Баку: Элм, 1991, 256 с.
3. Belli O. Bahşaliyev V. Nahçıvan Bölgesinde Orta ve Son Tunç Çağı Boya Bezemeli Çanak Çömlek Kültürü.İstanbul: Arkeoloji ve Sanat, 2001, 120 s.
4. Baxşəliyev V. Azərbaycan folkloru və qədim sənət nümunələrindəki maral obrazının mifoloji xüsusiyyətləri // "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə" V uluslararası folklor konfransı materialları, Bakı: Səda, 2007, s. 664-665.
5. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı: Elm, 2000, 264 s.
6. Kitabi-Dədə Qorqud. Bakı: Azərnəşr, 1962, 176 s.
7. Marro C., Bakhchaliyev V. Ashurov S. Excavations at Ovçular Tepesi( Nakhchivan, Azerbaijan). First preliminary report: the 2006-2008 seasons. Anatolia Antiqua, 2009, XVII, p. 31-87.
8. Ögəl B. Türk mitolojisi. II cilt, Ankara: TTKB, 2002, 610 s.
9. www.gazi.edu.tr/web/giyaytas/turkkulturgeyik.htm
10. www.yasarkalafat.info


Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# XALQ HEKAYƏTI “DÜZD VƏ QAZI” HAQQINDA

*MÖHSÜN NAĞISOYLU*

Azərbaycan folklorunun epik növünün maraqlı janrlarından biri də xalq hekayətləridir. Bu janrın “Kəllənamə”, “Keyiknamə”, “İbrahimnamə” və s. kimi nəzmlə məsnəvi şəklində qələmə alınmış çeşidli nümunələri günümüzə qədər gəlib çatmışdır. Adlarından da göründüyü kimi bu xalq hekayəti nümunələri dini, dini-əsatiri və dini-əfsanəvi məzmun daşıyır. Məhz buna görə də onlar məlum səbəblər üzündən indiyədək diqqətdən kənarda qalmış və ayrıca olaraq nə tədqiq olunmuş, nə də nəşr olunmuşdur. Əlyazmaşünas alimlər Şamil Cəmşidov və Əli Əliyev bir sıra dastanlarla yanaşı, adı çəkilən xalq hekayətlərini də doğru olaraq yazılı folklor nümunələri kimi dəyərləndirmiş və ayrıca bir əlyazma kataloquna daxil edərək onların yığcam elmi-paleoqrafik təsvirini vermişlər (1). Əsasən, orta yüzilliklərə aid olan Azərbaycan xalq hekayətləri sırasında “Düzd və qazı” (“Oğru və qazı”) adlı folklor nümunəsinin özünəməxsus yeri və çəkisi vardır. “Düzd və qazı” digər xalq hekayətlərindən bir sıra özəl cəhətləri ilə seçilir. Birincisi, Azərbaycan xalq hekayətlərinin çoxu nəzmlə olduğu halda, “Düzd və qazı” nəsr şəklindədir. İkincisi, hekayətin məzmunu bilavasitə islam dininin hüquq qaydalarını özündə birləşdirən şəriət məsələləri ilə bağlıdır. Üçüncüsü, hekayətin qəhrəmanı, müəyyən qədər təəccüb doğurmasına baxmayaraq, oğrudur. Bəri başdan qeyd edək ki, bu oğru adi oğrulardan deyil, varlı ailədən çıxmış, atasının sağlığında yaxşı təhsil almışdır, Qurana, hədislərə incəliyinə qədər bələddir. Bununla belə, atasının ölümündən sonra onun var-dövlətini dağıtmış və oğurluqla məşğul olur. Əsərdən məlum olur ki, oğru şəriət məsələlərini bu sahədə ad çıxarmış məşhur Bağdad qazısından daha yaxşı bilir.

“Düzd və qazı”nın digər Azərbaycan xalq hekayətlərindən daha bir fərqli cəhəti onun indiyədək müəyyən qədər öyrənilməsi, hətta nəşr edilməsidir (bax: 2)

“Düzd və qazı” haqqında ilk dəfə görkəmli Azərbaycan ədəbiyyatşünası akademik Həmid Araslı məlumat verərək onu XVIII əsrə aid tərcümə nümunəsi – hekayə adlandırmış və əslinin ərəbcə olduğunu güman şəklində söyləmişdir (**3**, 299). Əsərdəki hadisələr məşhur xəlifə Harunərrəşid zamanında, xilafətin paytaxtı Bağdadda baş verir və görünür, məhz bu cəhəti nəzərə alan akademik H.Araslı belə bir mülahizəni irəli sürmüşdür. “Düzd və qazı”da Quran ayələri və ərəb dilində olan hədislər, ayrı-ayrı cümlələr, sonra isə onların türkcələri də verilmişdir ki, fikrimizcə, bu amil də akademik H.Araslının belə bir qənaətə gəlməsi üçün əsas ola bilərmiş. Biz də belə bir qənaətdəyik ki, “Düzd və qazı” hekayəti ilk olaraq ərəb dilində yaranmış, sonralar o, dildən-dilə, ağızdan-ağıza keçərək yayılmış və əsərin həm farsca, həm də türkcə müxtəlif variantları ortaya çəxmışdır. Bir sıra müsəlman Şərqi xalqlarında analoji halın-oxşar məzmunlu folklor nümunələrinin olması (“Koroğlu” dastanının türk, Azərbaycan, özbək, tacik variantlarının mövcudluğunu yada salaq) belə bir fikrə gəlməyə əsas verir.

“Düzd və qazı”nı XVIII əsrin bədii nəsr nümunəsi kimi nəşr etdirmiş Araz Dadaşzadə və Qasım Cahaninin fikrincə isə, hekayə orijinal əsərdir və onun müəllifi Əbdülqəni Xaşmazidir (**2**, 190). Ədəbiyyatşünas Əlyar Səfərli də “Düzd və qazı”nı hekayə adlandırmış, lakin onun müəllifinin Əbdülqəni Xaşmazi deyil, Vəli Ərəşi olduğunu qeyd etmişdir (**4**, 171). Tədqiqatçı alim onu da əlavə etmişdir ki, Vəli Ərəşi bu əsərini Əbdülqəni Xaşmazi üçün qələmə almışdır. Digər bir tədqiqtçı – Altay Məmmədov da “Azərbaycan hekayəsi” adlı monoqrafiyasında Ə.Səfərlinin bu fikrini eynilə təkrar etmişdir (5,9)

Süjeti oğru ilə qazının şəriət məsələləri ilə bağlı mübahisəsi üzərində qurulan “Düzd və qazı” Yaxın və Orta Şərqdə geniş yayılmış folklor nümunəsi – xalq hekayətidir (**6**,42). Bu fikrin sübutu olaraq təkcə belə bir faktı qeyd etmək kifayətdir ki, “Düzd və qazı”nın Azərbaycan türkcəsindən başqa farsca (**6**,37-38; 7, 3713-3714), türkcə (**8**,369-370), özbəkcə (**9**, 242-243) və tatarca da (**9**, 243) müxtəlif variantları vardır və onların hamısı, təbii ki, müəllifsizdir – folklor nümunəsidir. Bundan əlavə Azərbaycan türkcəsində olan “Düzd və qazı”nın üç, farsca “Dozd və

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qazi[+]"nın isə ən azı iki variantı bizə məlumdur. Çoxvariantlılıq isə, bəlli olduğu kimi, əsasən, yazılı ədəbiyyat üçün deyil, şifahi xalq ədəbiyyatı üçün səciyyəvi bir xüsusiyyətdir.

Bundan əlavə Azərbaycan türkcəsində olan "Düzd və qazı"nın bütün variantlarının dil və üslub özəllikləri üzərindəki müşahidələr də əsərin məhz folklor nümunəsi – xalq hekayəti olmasını bir daha əyani şəkildə sübut edir.

"Düzd və qazi" hekayətinin Əbdülqəni Xaşmaziyə və Vəli Ərəşiyə aid edilməsinə gəldikdə isə bu yanlışlıq əsərin Bakıda – Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan B-2228 şifrli əlyazmasının sonunda ənənəyə görə ərəb dilində olan aşağıdakı katib qeydi ilə bağlıdır:

تمت حکایت دزد و قاضی سنه ۱۱۸۰ سودهو ولی عرشی لاجل اخی العزیز ملا عبدالغنی خشمازی
(10,19[b])

*"Oğru və qazi" hekayəti sona çatdı hicri 1180-ci ildə (miladi 1766-67-də - M.N.). Vəli Ərşi onu əziz qardaşı molla Əbdülqəni Xaşmazi üçün köçürdü.*

Katib qeydindən göründüyü kimi,Vəli Ərəşi hekayətin müəllifi yox, yazıya alanı - katibidir. Molla Əbdülqəni Xaşmazi isə Vəli Ərəşinin yaxın dostudur ("əxi-qardaş" sözü burada məhz bu mənada işlənmişdir). Deməli, istər A.Dadaşzadə və Q.Cahani, istərsə də Ə.Səfərli yuxarıdakı qeydə lazımı diqqət yetirmədikləri üçün Əbdülqəni Xaşmazini və Vəli Ərəşini yanlış olaraq "Düzd və qazı" hekayətinin müəllifi hesab etmişlər. Qeyd edək ki, B-2228 şifrli əlyazmadakı yuxarıdakı katib qeydi eyni xətlə, lakin çox kiçik fərqlə M-315 şifrli, 1179/1765-ci il tarixli əlyazmanın sonunda da vardır (11, 168b), deməli, hər iki əlyazmanı eyni katib-Vəli Ərəşi köçürmüşdür. Sadəcə olaraq M-315 şifrli əlyazmada Molla Əbdülqəni Xaşmazi əvəzinə digər bir şəxsin adı yazılıbmış. Həmin şəxsin adı sonralar, görünür, müəyyən səbəblərə görə qəsdən pozulmuş, buna görə də oxunmur, lakin adın ilk hərfi - "əlif" açıq-aşkar görünür. Bundan əlavə pozulmuş yerə Molla Əbdülqəni Xaşmazi antroponimi heç cür yerləşə bilməzdi. Qeyd edək ki, "Düzd və qazı" hekayəsinin çapı əsərin B-2228 şifrli nüsxəsi əsasında hazırlanmışdır.

Əlyazmalar İnstitutunda Azərbaycan türkcəsində olan "Düzd və qazi" hekayətinin on üç əlyazma nüsxəsi saxlanılır ki, onlar içərisində ən qədimləri Vəli Ərəşinin köçürdüyü, yuxarıda adları çəkilən iki nüsxədir. Yeri gəlmişkən qeyd edək ki, "Düzd və qazı"nın bu iki əlyazması, şübhəsiz ki, akademik H.Arazlıya da bəlli imiş, əks halda görkəmli ədəbiyyatşünas hekayəti XVIII əsrə aid etməzdi.

"Düzd və qazı"nın on bir əlyazmasından doqquzunun mətni məzmunca Vəli Ərəşinin köçürdüyü nüsxələrə əsasən uyğun gəlir. Bu nüsxələrin hamısı XIX əsrin müxtəlif illərində hazırlanmış əlyazma toplularıdır ki, onlardan birinin (şifri: A-517, tarixi 1244/1828) katibi Vəli Ərəşinin həmyerlisi, bəlkə də onun nəslindən olan Mustafa bəy İmanqulu bəy oğlu Ərəşidir.

Beləliklə, "Düzd və qazı" nın Bakı nüsxələrindən on birinin mətni, əsasən bir-birinə uyğun gəlir və onları şərti olaraq əsərin birinci variantı adlandırırıq.

"Düzd və qazı"nın Bakı nüsxələri içərisində B-2456 şifrli əlyazma isə həcminə görə əvvəlkilərdən təxminən ikiqat artıqdır. 10 vərəqlik bu nüsxədə birinci variantda olmayan epizodlar da vardır. Bundan əlavə əsərin final hissəsi də birinci variantdan azacıq fərqlidir. Əlyazmada hekayətin köçürülmə tarixi göstərilməsə də, onu paleoqrafik əlamətlərinə görə XIX əsrin 20-30-cu illərinə aid etmək olar. Hekayətin bu variantı ilə demək olar ki, üst-üstə düşən bir daşbasma çapı da Əlyazmalar İnstitutunda saxlanılır (şifri: XVI-1091/5229). "Hekayeyi-oğru ilə qazı" adlandırılmış bu kitabın çap yeri və ili qeyd olunmasa da, dil xüsusiyyətlərinə görə, o, çox güman ki, Türkiyədə basılmışdır. Burada bir maraqlı faktı da qeyd etmək yerinə düşər. "Düzd və qazı" hekayətinin osmanlı türkcəsində olan bir variantında (**7**, 369-370) hadisənin baş verdiyi yer Bağdaddan Rum vilayətinə köçürülür: *"Rəvayət olunur ki, vilayəti-Rumda bir qazı var idi, elm ilə arastə idi. Bir gecə kitab mütaliəsində görmüş ki..."* (**8**, 370). Bu fakt hekayətin dildən-dilə

---

[+] Fars mənşəli "düzd" sözü "oğru" deməkdir və bu sözün dilimizə uyğunlaşdırılmış tələffüz formasıdır. Əsərin farscası ilə türkcə variantlarını fərqləndirmək üçün fars dilində [illegible] olduğu kimi – "Dozd və qazi" şəklində verməyi məqsədəuyğun saydıq

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

keçdiyini və müəyyən dəyişikliyə uğradığını sübut edir. Hekayətin bu variantının sonluğu Vəli Ərəşi nüsxəsi ilə üst-üstə düşür: qazı qızını oğruya ərə verir: *"Oğru çələbi ol düxtəri-pakizənin dürri-nasüftəsin siftə edüb, aləmi-təəssüfdən qurtardı. Anlar bu təriqlə muradlarına irdilər, siz də böylə. Amin, ya Allah"* (**8**,370). Göründüyü kimi, hekayətin son cümləsi eynilə xalq nağıllarını xatırladır.

D-5955 şifrli əlyazmadakı "Düzd və qazı" hekayəti isə fars dilindən tərcümə olunmuşdur və əsərin bu – üçüncü variantı həcmcə əvvəlkilərdən daha böyükdür – 24 vərəqdən ibarətdir. Əlyazmanın müqəddiməsində göstərilir ki, Məhəmməd Tağı ibn Qasım Qudyali fars dilində olan "Dozd və qazi" kitabını türkcəyə tərcümə etmişdir. Əlyazmanın sonunda əsərin 1263/1846-ci ildə mütərcimin öz xətti ilə köçürüldüyü də göstərilmişdir. Qudyalinin bu tərcüməsini Əlyazmalar İnstitutunda saxlanılan farsca bir daşbasma çapı olan "Düzd və qazi" kitabı ilə (şifri: VI-335/31023) müqayisə etdik, onların mətnlərinin tam üst-üstə düşdüyü aydın oldu. Qudyalinin tərcüməsi ilə eyni vaxtda – 1263/1846-cı ildə Təbrizdə basılmış bu kitabda 11 şəkil-miniatür də verilmişdir. Maraqlıdır ki, kitabın ilk səhifələrindəki şəkillər eyni ilə Qudyalinin avtoqrafında da vardır. Əsərin bu Təbriz çapının sonunda qeyd olunub ki, "Dozd və qazı" kitabı əvvəllər çap olunmuşdu (1262/1845-ci il Tehran çapı nəzərdə tutulur – M.N), Abbas Ütarid onu genişləndirdi və öz şeirlərini ora daxil etdi (12). Abbas Ütarid "Dozd və qazi"nin bu variantına bir sıra yeni epizodlar, kiçik hekayət və lətifələr əlavə etmişdir. Maraqlıdır ki, bu hekayətlərdən birində o, türkcə bütöv bir cümlə işlətmişdir.

Kitabın Təbrizdə çap olunduğunu da nəzərə alsaq, Ütaridün Azərbaycan türkü olduğunu söyləyə bilərik. Qudyali "Dozd və qazi"nin bu çapını dəqiq tərcümə etmiş, ondakı şeirlərə isə toxunmamış, olduğu kimi – fars dilində vermişdir. Qudyalinin tərcüməsində "Düzd və qazı"nın digər variantlarından fərqli olaraq, ərəb və fars söz və ifadələrinə daha geniş yer verilmişdir. Təkcə belə bir faktı qeyd etmək kifayətdir ki, Vəli Ərəşinin nüsxəsindəki *"Yuxu ölümün qardaşıdır"* cümləsini Qudyali bütövlüklə fars dilində vermişdir: *"Xab bəradəri-mərgdir"* (13, 2a).

Azərbaycan dilində müəllifli "Düzd və qazı" əsəri də vardır. Mirzə Mahmud Zövi Şirvaninin eyni adlı bu hekayəsi 1913-cü ildə Tiflisdə "Şərq" mətbəəsində nəşr olunmuşdur. 19 səhifəlik bu kitabça məzmunca Vəli Ərəşinin "Düzd və qazı" nüsxəsinə uyğun gəlir. Bununla belə, burada oğrunun ertəsi günü qazının yanına gəlməsi səhnəsi yoxdur. Mirzə Mahmud Zövi Şirvani hekayəyə azərbaycanca və farsca bir neçə şeir parçası və kiçik rəvayətlər də artırmışdır. Kitabçanın bir nüsxəsi Əlyazmalar İnstitutunda saxlanılır (şifri: II – 109/553). Beləliklə, istər Abbas Ütaridün farsca qələmə aldığı "Dozd və qazi"sı, istərsə də Mirzə Mahmud Zövi Şirvaninin eyni adlı kitabçası sübut edir ki, folklor materialları əsasında müstəqil əsər yazmaq ənənəsi Şərqdə əski zamanlardan bəri mövcud olmuş və geniş yayılmışdır.

"Dozd və qazı"nın farsca əlyazma nüsxələri daha çoxdur. İran alimi Əhməd Münzəvinin "Fars əlyazmaları kataloqu"nda əsərin on səkkiz əlyazması (**7**, 3713-3714), rus şərqşünası N.Tumanoviçin tərtib etdiyi kataloqda isə on altı əlyazması (**6**, 37-38) qeydə alınmışdır. Həmin əlyazmalar içərisində ən qədimi hicri XII əsrin əvvəllərinə (miladi tarixilə XVII yüzilliyin əvvəllərinə aiddir (**13**, 68-69). Farsca "Dozd və qazı" hekayətinin köçürülmə tarixi bəlli olan ən qədim əlyazması isə 1199/1784-cü ildə köçürülmüşdür və Oksford kitabxanasında saxlanılır (**7**, 3713).

AMEA-nın Əlyazmalar İnstitutunda da farsca "Dozd və qazi"nin iki əlyazması saxlanılır ki, onlardan biri (şifri: B-4902, $58^b$-$60^b$), fikrimizcə, XVII yüzilliyin ikinci yarısına aiddir. Əlyazma toplusunda olan əsərin sonunda (**14**, $60^b$) nüsxənin köçürülmə tarixi qeyd olunmasa da, toplu içərisindəki digər bir əsərdə tarix vardır: 1084/1673-cü il (**14**, 47a). Bundan əlavə əlyazma toplusunun müxtəlif vərəqlərində ayrı-ayrı şəxslərin vəfat ili kimi qeyd olunmuş 1075/1664, 1077/1066 və 1090/1679-cu il tarixləri də vardır ki, bu yazıların xətti "Dozd və qazı"nın B-4902 şifrli əlyazmasının xətti ilə eynidir. Əlyazmanın səciyyəvi paleoqrafik əlamətlərinə əsasən də (kağızı, imla xüsusiyyətləri və s.) onu XVII əsrin 70-80-cı illərinə aid etməyə əsas verir. Bu isə o deməkdir ki, "Dozd və qazı"nın bu Bakı əlyazması hekayətin farsca variantının ən qədim nüsxəsidir. Burada bir maraqlı məqamı da qeyd etməyi vacib sayırıq. Əsərin istər türkcə, istərsə də farsca variantlarının çoxunda oğru ilə qazının şəriət məsələləri il

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bitir: qazı qızını oğruya ərə verir. "Dozd və qazı"nın B-4902 şifrli Bakı nüsxəsində isə əksinə, oğru qazı ilə mübahisə etdikdən sonra ertəsi gün də qazının yanına gələrək ondan pul tələb edir. Oğrunun dəlilləri qarşısında aciz qalan qazı ona yüz dirhəm qızıl pul və bir dəst paltar verərək yaxasını ondan qurtarır. Əsərin həcmcə nisbətən kiçik olan bu variantındakı sonluğa heç bir kataloqda rast gəlmirik.

Fikrimizcə, daha məntiqi təsir bağışlayan bu sonluq da "Dozd və qazi"nin Bakı nüsxəsinin qədimliyini bir daha sübut edir. Farsca "Dozd və qazi"nin ikinci Bakı nüsxəsində (şifri: B-855, vərəq 47a-50b) əlyazma toplusu içərisindədir. Burada hekayətin sonunda da tarix yoxdur, lakin topludakı eyni xətlə köçürülmüş bir əsərin mətninin sonunda (vərəq 43a) tarix vardır: 1199/1784-cü il. Əlyazma toplularında bu cür hallara rast gəlindiyindən həmin tarixi "Dozd və qazi"yə də etmək olar. Hekayətin bu variantı həcmcə daha böyükdür və məzmunca Vəli Ərəşinin köçürdüyü nüsxələrə uyğun gəlir.

"Düzd və qazı" xalq hekayətində bir çox lətifələrdə, xüsusilə də məşhur Molla Nəsrəddin lətifələrində olduğu kimi, hazırcavablıq və çoxbilmişlik, zirəklik və fərasətlilik kimi keyfiyyətlər təbliğ olunur. Əsərin süjeti olduqca maraqlı bir əhvalat üzərində qurulmuşdur: Bağdadın ən savadlı və tanınmış qazılarından biri bir gecə evdə mütaliə zamanı belə bir hədisə rast gəlir: "Bağlarda olan ibadəti sevirəm". Qazı ulağına minib şəhərin kənarındakı səfalı bağına gedərək orada ibadət etmək qərarına gəlir. Gecə vaxtı yolda qazının qarşısına bir oğru çıxır və ondan üstündəki əşyalarını çıxarmağı və paltarlarını soyunub ona verməsini tələb edir. Qazı özünün kim olduğunu bildirərək oğruya bu işin yaxşı olmadığını deyir və fikrinə sübut olaraq bir hədis söyləyir. Oğru da bu məsələ ilə bağlı başqa bir hədis söyləyərək qazının qazandığı malların haram yolla – rüşvətlə əldə edildiyini deyir. Burada xalq hekayətinin yaradıcıları hələ o dövrdə bir çox qazıların rüşvətxor olduqlarına işarə edirlər. Qazı ilə oğrunun hədislərə, ayələrə əsaslanan mübahisəsi ikincinin qələbəsi ilə bitiri və şəriət hakimi cavan oğlanın möhkəm dəlil-sübutları qarşısında çarəsiz qalaraq təslim olur və paltarlarını soyunaraq oğruya verir. Ertəsi gün oğru özü qazının yanına gəlir və yenə də öz biliyini, hazırcavablığını göstərir. Qazı qızını oğruya ərə verir, bununla da hekayət bitir.

Hekayətin digər bir variantında isə oğru yenidən qazının yanında gələrək onun bütün var-dövlətini ələ keçirir.

Qeyd edək ki, hekayətdəki Quran ayələri və hədislər əvvəlcə orijinalda olduğu kimi ərəbcə verilir, sonra isə onların türkcəyə tərcüməsi göstərilir.

Son olaraq onu da qeyd edək ki, biz hələ 1988-ci ildə nəşr etdirdiyimiz bir məqaləmizdə (15) "Düzd və qazı"nın yazılı ədəbiyyat nümunəsi deyil, folklor örnəyi – xalq hekayəti olması fikrini söyləmişik.

**QAYNAQLAR**

1.Türk əlyazmaları kataloqu. Folklor abidələri və müəllifsiz əlyazmalar. I cild. Təsvir və tərtib edənlər: Ş.Cəmşidov, Ə.Məmmədbağıroğlu. Bakı, "Elm", 2007.

2.Araz Dadaşzadə, Qasım Cahani. XVIII əsrin bədii nəsr nümunəsi. – "Azərbaycan", 1970, №1.

3.Həmid Araslı. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı, Bakı, 1956.

4.Əlyar Səfərli. XVII-XVIII əsrlər Azərbaycan epik şeri. Bakı, 1982.

5.Altay Məmmədov. Azərbaycan hekayəsi. Bakı, 1984.

6.Туманович Н.Н. Описание персидских и таджикских рукописей Института Востоковедения. Москва, 1981.

7.احمد منزوی. فهرست نسخه های خطی فارسی، جلد پنجم، تهران، ۱۳۵۱

8.Arabishe, türkische und persische handschriften der Universitats bibliothek in Bratislava. Bratislava 1961

9.Собрание восточных рукописей АН Узбекской ССР, т VII, Ташкент, 1964

10. Əlyazma məcmuəsi: B-2228, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.

11. Əlyazma məcmuəsi: M-315, AMEA M.Füzuli adına Əlyazmala

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

12. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu: VI-335/31023 دزد و قاضی. تبریز ۱۲۶۳
13. احمد گلچین معانی. فهرست خطی کتابخانه آستان قدس رضوی. جلد هفتم، مشهد، ۱۳٤٦
14. Əlyazma məcmuəsi: B-4902. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.
15. M.Z.Nağıyev. “Düzd və qazı” hekayəsinin əlyazma və variantları. – “Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri”, ədəbiyyat, dil və incəsənət seriyası, 1988, №3, s.105-108.

**О народном хикайете «Дузд ва кази»**

О народном хикайете «Дузд ва кази» («Вор и судя») до сих пор имелись разные сведения, противоречащие друг другу. Один и тот же вариант хикайета сперва считался переводом с арабского языка, далее он был представлен как оригинальное сочинение Абдулгани Хашмази. По последнему же существовавшему мнению рассказ написан неким Вали Араши для друга Абдулгани Хашмази.

На основе сопоставительного анализа рукописей сочинения впервые установлено, что азербайджанских вариантов рассказа три: два из них являются продуктом устаного народного творчества, третий же – перевод с персидского языка. В статье рассмотрены также персидские списки хикайета, хранящиеся в Институте Рукописей НАН Азербайджана, один из которых является древнейшим в мире (70-80-ые годы XVII столетия).

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## AŞIQ QURBANİ İLƏ PƏRİ XANIM
## ( TƏBRIZ TÜRÜ )

***MƏHƏMMƏD ƏLİPUR MUQƏDDƏM***

Azərbaycanın Qaradağ mahalının diri kəndində Fərəməz bəyin iki oğlu varıdır, birinin adı Fərzi Əli bəy; o birisinin adı Mirzə Əli kişi. Mirzə Əli kişinin Şah İsmayıl sarayında böyük məqamı varıdır. Bir gün mirzəli kişi şahdan izin alıb, ailəsini görmək üçün diri kəndinə gəldi. Bir neçə gündən sonra istədi getsin, xanımın çağırıb dedi: mən şah tərəfindən Hindistanın elçiliyinə seçilmişəm, ona görə Hindistana getməliyəm, işdi uzun illər bir - birimizi görənməsək səndən istəyirəm boyundakı uşaq qız olsa heç, oğlan olsa bu qol bağını qoluna bağlayasan. Mirzə Əli kişi qohum - qardaşıyla halallaşıb, yola düşdü.

Çox zaman keçmədi Mirzə Əli kişinin xanımı qurban bayramında yükünü yerə qoyub, bir gözəl oğlan uşağın işıqlı dünyaya gətirdi. Qurban bayramı günü olduğuna oğlanın adın "Qurban " qoydular. İllər ötdü, günlər keçdi. Qurbanı böyüyüb yeddi yaşına çatdı, onu məktəbə qoydular. İllər bir - birinin dalınca yel kimi keçib, Qurbanı on yeddi yaşına çatdı. Bir gün cuma axşamı Qurbanı məktəb yoldaşların da götürüb, kəndlərinin yaxınlığında olan ərənlər yatağı adlanan ocağa getdilər. Gecəni orada qaldılar. Səhər, ban vaxtı yuxudan durub, namazların qılıb, yenə yatdılar. Qurbanı təzə yuxuya girmişdi gördü mövlası (Həzrəti Əli) əlində bülül bir cam ,başının üstündə durub. "Oğul Qurbanı, al bu badəni iç!" Qurbanı badəni alıb içdi. Mövlası dedi: oğul bir bu yana bax gör nə görürsən? Qurbanı baxdı gördü bir güllü - çiçəkli bağ görünür, bağda çarhovuzun qırağında bir ay parçasına bənzər qız əyləşib. Mövlası dedi: oğul bu gəncə bəyinin bacısı Pəri xanımdır, atasının adı Ziyad xan, qardaşının da adı Abdullaxandir . Onu sənə görsətdim, səni də ona görsətmişəm. Borda sənə aşıqlığı da vergi verdim, gedib, onu alarsan. Bu anda birdən yuxudan oyanıb, ağlamağa başladı , səsinə yoldaşları yuxudan oyanıb, gördülər Qurbanı ağlayır" sənə nə oldu bəs niyə ağlayırsan?" Qurbanı dedi: qulaq asın deyim :

**Yatmışıdım xabi qəflət içində,**
**"Qəfil, nə yatıbsan? Oyan!" Dedilər.**
**Dül - Dülün sahibi, qənbər ağası,**
**Bu gələnə, şahı Mərdan dedilər.**

Yoldaşları dedilər: diyəsən Qurbanı şer deyir, bu ki şer bilməzdi!
Qurbanı şerinin dalısını dedi:

**Oyandım qəflətdən, açdım gözümü,**
**Ərənlər payına sürtdüm üzümü,**
**Dindirdilər, haqq söylədim sözümü,**
**Doxsan min kəlməni bəyan dedilər.**

Biri dedi: görəsən bona nə oldu? Qurbanı sözünün sonunu belə dedi:

**"Qurbanı", batıbsan qəm dəryasına!**
**Ovçunun məskəni dağ arxasına,**
**Bir sığal çəkdilər könül pasına!**
**Aşiqi, məşuqa qurban dedilər.**

söz qurtardı, Qurbanının yoldaşları dedilər: bura bax yazıq Mirzə Əlinın var - yox bir oğlu varıdır, onun da başına hava gəldi, biri dedi: Qurbanı bir aydın de görək sənin başıva nə gəldi?!
Qurbanı dedi:

**Laməkan şəhərində gəldim cana mən,**
**Canlar əhli, bir canana yetişdim.**
**Əldən, ələ; qabdan, qaba süzüldüm,**
**Qətrə idim, bir ummana yetişdim.**
***
**Bir gözəlin ələyindən ələndim,**
**Bəli dedim, bəlasına bələndim,**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Yeri, göyü yaradandan diləndim,**
**Gövhəri axtardım, yol - ərkana yetişdim.**
***
**İxlas kəmərini vurdum belimə,**
**Həqiqətdən su bağlandı gölümə,**
**Mərifətdən bir yol düşdü əlimə,**
**Gövhəri axtarırdım, kana yetişdim.**
***
**"Qurbanı"_ yam budur söz müxtəsəri,**
**Ağam Əldə tutub abi kövsəri,**
**Ənbiyalər, övliyalar sərvəri,**
**Pirim olan şah Mərdana yetişdim.**
***

söz qurtarıb, hava işıqlandı. Uşaqlar əl üzlərin yuyub, Qurbanını da götürüb evlərinə gəldilər. Qurbanının anası, onu bu halda görəndə qorxdu " ay bala sənə nə olub?!". Dedilər: gecə ərənlər yatağında yatmışdıq, diyəsən cin vurub, öz - öz ünə danışır, şer deyir. Fərzi Əli bəyi çağırdılar, Fərzi Əli bəy gəlib, gördü Qurbanı öz - özünə şer deyir. Bir nəfəri yolladı" get bizim evdən mənim sazımı gətir! Saz gəlincə bir ayrısını da məktəb mirzəsinin dalınca yolladı. Saz gəldi, mirzə də gəldi. Eşidən Qurbanının evinə yığışdı. Fərzi Əli bəy dedi: oğul Qurbanı bu saz, dur ürəyindən keçəni bizə sazınan de! Qurbanı qalxıb ayağa sazın zilini zil, bəmini isə bəm kökləyib, bağrına basdı:

**Cuma günü vardım könül şəhərinə,**
**Gördüm, o şəhərdə şahlar şahı var.**
**Uç yüz altmış küçəsini seyr etdim,**
**Qırx səkkiz məhəllə, bəndərgahı var.**
***
**Bir seyidləri var başı bələkli,**
**Qiyamətdə o da bizə köməkli,**
**Bir məscidləri var min bir dirəkli,**
**Hər yana qılasan; qibləgahı var.**
***

söz qurtardı, mirzə işi bildi. Fərzi Əli bəy dedi: ay mirzə! Qurbanı ya bu şerləri sən öyrədibsən? Mirzə dedi: Fərzi Əli bəy, Qurbanıya vergi verilib, indi o haqq aşığıdır. Fərzi Əli bəy mirzə ilə Qurbanının haqq aşıqlığın hamıya bilindirdi ki sonra deməsinlər Qurbanının başına hava gəlib. Fərzi Əli bəy Qurbanıya dedi: oğul sözün varsa de biz bilək! Qurbanı dedi:

**Yatmışdım üstümə gəldi ərənlər,**
**Yazılı, şəninə "ya mən əl_ta" (1) .**
**İmam ola, damadı" Əhməd Mürsəl",**
**Doldurub camını eylədi əta.**
***
**Tərəhhüm eylədi abi kövsərdən,**
**Onun çün keçmişəm can ilə sərdən,**
**İstədim mətləbim şahı qənbərdən,**
**Kəramət eylədi mənə bir buta.**
***
**Eşq əlindən namus, arım qalmadı!**
**Nə, bir səbrim; nə, qərarım qalmadı!**
**"Qurbanı"_ yam, ixtiyarım qalmadı!**
**Dönmüşəm kamana, qəddimdir do ta.**
***

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sözlər qurtardı. Dövrədən dedilər: Qurbanı nə gözəl sözlər oxuyursan, sən Allah qurtarma varsa birin də oxu. Qurbanı sazı bağrına basıb, oxudu:

**Yer ilə göy yox kən bir nəzər qıldı,**
**Əritdi gövhəri, dürr eylədi şah (2).**
**Yox yerdən aləmi bərqərar etdi,**
**Bütün yer üzünü nur eylədi şah.**
***
**Gətirdi kəlamı cümlə cahana,**
**Qırx ları göstərdi əhli ürfana,**
**Peyğəmbər xitabın gətdi dəhana,**
**Həbibin söhbətin şur eylədi şah.**
***
**" Dirili Qurbanı " götür din indi,**
**Boynumdadır məhəbbətin kəməndi,**
**Dərya üstə oynadırdı səməndi,**
**Özün " Cəbreyil "_ə pər eylədi şah.**
***

Fərzi Əli bəy dedi: Qurbanı oxuduqların büyün üçün bəsdir gəl otur, yorğunsan dincəlginən! Sonra da hamını yola saldı məclis dağıldı. Hər kəs öz evinə qayıtdı,. Qurbanı üzün tütdü anasına:

**Könül qalxdı, mərdə (3) sarı yeridi,**
**Orda bir şəhər var adı "Gəncə" hey!**
**Gözəlləri, məhbubları, xubları,**
**Xub batıblar mala, mülkə gəncə hey!**

**Anası:**

**Başiva (4) mən dönüm gül üzlü oğul,**
**Dərd çəkməyə heç kəs olmaz məncə hey!**
**Gözəl sevib, abdal olub, çaşıbsan,**
**Tayın yoxdur sultanca hey, xanca hey!**

**Qurbanı:**

**Qarışqalar yuvasını qayırdı,**
**Gözəl kəhlik balasını doyurdu,**
**Fələk vurub, məni yardan ayırdı,**
**Aram düşüb nazlı yardan gencə hey!**

**Anası:**

**Mən "banu" yam, əldən getdi varımız!**
**Kimlər çəkər namus ilə arımız?!**
**Çünki olduq xeyrə, şərə yarı biz (5),**
**Gəl, sən ilə borcu verək səncə hey!**

**Qurbanı:**

**"Qurbanı"_ yam Musalaya varmadım!**
**Əl uzadıb qunca gülün dərmədim!**
**"İran" gəzdim, "Turan" gəzdim görmədim!**
**gözəllikdə məhbubluqda onca hey!**
***

Gecə oldu, yatdılar. Səhər açıldı Fərzi Əli bəy gəldi Qurbanı gilə gördü Qurbanının anası narahatdır." Niyə narahatsan? Qurbanının anası ağlaya - ağlaya dedi: Qurbanı istəyir məni borda tək qoyub, Gəncəyə gedə. Fərzi Əli bəy Qurbanını çağırdı " oğul, Gəncəyə nəyə gedirsən? Orda nə işin var? Qurbanı dedi: əmi qulaq as deyim!

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Dust bizi buyurdu xidmət şərifə,**
**Dedik ki baş üstə " gaf " o " lam " o " kaf " (6).**
**Fitnə qaşlı, cadu gözlü sevdiyim,**
**Çoxların eyləyib " ha " o " lam " o " kaf " (7).**
***
**Sidqi durust olan yetişər haca,**
**Kimsə də kimsəyə etməz iltica,**
**Peyğəmbər ki qədəm basdı meraca,**
**Pişvazına gəldi "mim" o "laf" o "kaf" (8).**
***
**" Məhdi" görər qoşununun sanını,**
**İnsan üçün qurar haq mizanını,**
**Bir gün alar "Qurbanı"_nın canını,**
**Bir gözləri cəllad "kaf" o "lam" o "kaf" (9).**
***

Qurbanının oxumağı qurtaranda Fərzi Əli bəy dedi: oğul sən bir qız almağa, Gəncəyə gedirsən, sənə elə bir qız alaram ki üstünə qız olmaz. Qurbanı dedi: əmi mən getməliyəm." Axı niyə?" Qurbanı:

**Gündüzün mehridir, gecənin mahı,**
**Qüdrət üçün sirri ilahi zülfün.**
**Ucun tutan gedər həşri behiştə,**
**Möminlərin puştu pənahı zülfün.**
***
**Şəmsi mat eylədi camalın şövqü,**
**Zülmətdə qalmadı qəmlərin zövqü,**
**Katibin ərzəsi, cənnətin foqu,**
**Nurdan sənə çəkmiş kulahı zülfün.**
***
**"Qurbanı" deyir: gözüm, yuxudan oyan!**
**On iki adı et gilən sən bəyan,**
**Sərasər yazılıb ayeyi "Quran",**
**Katiblər şərh edər anahı zülfün.**
***

Fərzi Əli bəy gördü Qurbanı dediyindən çönən deyil, odur ki Qurbanının anasına dedi: Qurbanını saxlamaq olmaz o haqq aşığıdır, Ona zaval yoxdü qoy getsin. Qurbanı gilin yaxınlığında Saleh sövdəgər adlı bir tacir varıdır anası Qurbanını o tacirə tapşırıb Gəncəyə sarı yola saldı. Qurbanı anasından ayrılan zaman ağlaya - ağlaya dedi:

**Başıva mən dönüm gül üzlü ana,**
**"Gəncə" deyib, yana - yana gedirəm!**
**Südüvü əmmişəm mən qana - qana,**
**"Gəncə" deyib, yana - yana gedirəm!**
***
**Haca gedər hacıların hacısı,**
**Yaman olar şirin dilin acısı,**
**Adı "Pəri", "Abdullaxann " bacısı.**
**"Gəncə" deyib, yana - yana gedirəm!**
***

Anası bir dönə də Qurbanıya üz tutub, dedi: ay oğul gəl bu yoldan qayıt, sən o qızı görmüyübsən ki, bəlkə sən dediyin olmaya. Qurbanı dedi: yox ay ana mən onu görmüşəm, dediyim kimidir, anası dedi: ay bala axı sən onu harda görübsən? Qurbanı dedi:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Ay ana! can gedib, qalıbdı qəfəs,**
**Bu nişanda belə yarı görmüşəm.**
**Bunca bir gözəli tapmadı könül,**
**Ah çəkibən intizarı görmüşəm!**
***
**Gözəllikdə kimsə yoxdur təhərində,**
**Onunçün çəkirəm yarın qəhrində,**
**Nə, "İran"; "nə" Turan" ,"Gəncə" şəhərində,**
**Canlar alan ol nigarı görmüşəm.**
***

Qurbanının anası gördü yox, oğlu dayanan deyil, odur ki, oğlun tapışırdı tacirə:

**Başıva mən dönüm gül üzlü tacir,**
**Amandır, can oğlumun, can sənin.**
**Alışıb oduna, biryan olmuşam,**
**Amandır, can oğlumun, can sənin.**
***
**Mənim dərdim günü - gündən ziyada!**
**Çağıram mövlanı yetişər dada,**
**" Mirzə Əli "_nin bir oğlu var dünyada!**
**Amandır, can oğlumun, can sənin.**

Söz qurtardı. Karvan yola düşdü. Qurbanı çönüb arxasında qalan dağlara baxdıqda ötən günlərin xatırladı. Dözənməyib sazın bağrına basdı:

**Əzəl xilqətimiz torpaqdan, sudan,**
**Sən bizə atasan, anasan, dağlar.**
**Pərvəriş verirsən məhdi zəminə,**
**Açırsan gül - çiçək, lala, sən, dağlar.**
***
**Rəhmi mürüvvət qalıb ixtiyarına,**
**İnsaf, iman bağlı etibarına,**
**Gözüm həsrət baxır burcu barına,**
**Qüdrətdən yapılmış qalasan, dağlar**
***
**Çətin daha qalam, çoxdur üzarım!**
**Matahım dürrüdür, yoxdur bazarım!**
**Düşə ya düşməyə bir də güzarım!**
**Səfərdir, salamat qalasan dağlar.**
***
**Canım səndə qalır, gedir nişanam!**
**Xəstəyəm, əhvalı çox Pərişanam!**
**Söyləyib bir kəsə, nə, danışanam!**
**Sən bilib dərdimi, qanasan, dağlar!**
***
**Baxıb seyrangaha, qan ağla gözüm!**
**Bu qədər cəfaya mən necə dözüm!?**
**Budur iltimasım, müxtəsər sözüm!**
**" Qurbanı "_ nı yada salasan dağlar.**
***

Sözün qurtarıb, karvana qatıldı. Get ha get, bunlar gəlib, bir çimənliyə yetişdilər, Qurbanı tacirə dedi: icazə versən atımla bir gəzim, gəlim. Qurbanı çıxıb gəzməyə, bir yerə çatdı ki orda yol uç yerə ayrılırdı, qayıdıb gəldi tacirin yanına" ay tacir bu getdiyimiz yol uç yola ayrılır, bu yolların hər birisi hara gedir? Tacir dedi: oğul sağ yoldan Gəncəyə uç günl

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

adamı orada tutub, öldürəllər. Sol yoldan Gəncəyə beş günlük yoldur, amma orda adamı tutub, mal - matahın alıb, ancaq özün öldürməzlər, diri yola salallar. Orta yoldan da Gəncəyə qırx günlük yoldur, oradan gedən, sağ - salamt gedib, çatar. Qurbanı dedi: ay tacir mən uç günlük yoldan gedəcəyəm, tacir dedi: ay oğul səni anan mənə tapşırıb, gedərsən tutub, öldürəllər. Qurbanı çox yalvardığına, tacir hirslənib dedi: dur atını sür, haraynan gedirsən get. Qurbanı atın minib, sağ yandakı yolunan, yollandı. Gəl ha gəl gəlib, bir dağın ətəyinə çatdı. Gördü, önündəki dağın başında bir qalaça var. Yolun üstündə iki nəfər dayanıb, sən demə bunlar yol kəsən imişlər. Yol kəsənlər gördülər, bir atlı oğlan gəlir, amma deyəsən yola tanış deyil. Dedilər: ay sultan, ay xan, gəl yaxına bizə qonaq ol! Qurbanı tacirin sözün xatırladı, sazın bağrına basıb, oxudu:

**Dəli könül, sənə sultan dedilər,**
**Öz - özünə sultan olmaq yanı nə?**
**Əzəl danışanda bir az fikr eylə,**
**Sonrasında peşman olmaq yanı nə?**
***
**Bir adam dağda bir gülü əkməyə,**
**Əkib, onun cəfasını çəkməyə,**
**Tanış loğman xəstəyə baş çəkməyə,**
**Özgələrə loğman olmaq yanı nə?**
***
**"Qurbanı"_ yam çağıraram imdada,**
**Şahlar şahı özü yetsin fəryada,**
**Anam yoxdur, tək qalmışam dünyada,**
**Birdən birə suzan olmaq yanı nə?**
***

Qurbanı atı çapıb, qaçdı. yol kəsənlər də dalına düşdülər. Qurbanı arazın qırağına yetirdi, gördü yol kəsənlər yetirirlər özünün Araza vurdu. Yol kəsənlərin başçısı dedi: bu oğlan dəlidir, bu su adamı boğar, Qayıdın! Qurbanı Arazda burulğana düşdü, gördü boğulur, üzün göyə tutub ağasın dada çağırdı:

**Dərməndə (10) qalmışam yetiş dadıma,**
**Özünü "Xeybər"_ə yetirən "Əli"!**
**Do dəm Zülfüqarı çəkən zəbanə,**
**Dinsizləri dinə gətirn "Əli"!**
***
**Necə " Zülfüqar " dı, nə yerdə qaldı?**
**Neçə min ənbiya səndən dərs aldı?**
**Üzündə niqabı bir ərəb gəldi,**
**Özü, öz tabutun götürən "Əli"!**
***
**Şiə tək əyil sən "Əli", "Vəli" yə,**
**Şahı vilayətə, huri Cəlilə,**
**İşart eylədi göydə ki günə,**
**Günü, gün ertədən qaytaran "Əli"!**
***
**Mənim pirim kövsər üstə saqıdır,**
**Möminlərin yeri cənnət bağıdır,**
**" Qurbanı "_nın bu gün müşkül çağıdır,**
**Cəmi müşkülləri bitirən "Əli"!**
***

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qurbanının sözü qurtaran, gördü bir atlı ərəb Arazın o tayından əlin uzadıb, dedi: oğul əlini ver əlimə! Qurbanı əlin verib, mövlasının əlinə, sudan çıxdı. Düşdü mövlasının ayaqlarına " ya mövla bura haradır?"
_ oğul bu yolu düz getsən gəncə şəhərinə çatarsan. Qurbanı gözün yoldan çəkib, mövlasına baxanda, gördü, gözdən qeyb olub, Qurbanı yola düşdü, bir az gəlmişdi gördü camaat yolun qırağında yığılıb. camaatı bura yığan dərviş İbrahim idi, dərviş İbrahim ömrünü hoqqa bazlıq la keçirtmişdi. Yoldaşı Heydərə dedi: çiynində saz bir aşıq gəlir. Qəbul eləsə, bonu da özümüzünən dolandırardıq, yaxşı pul yığılar, bir, iki qıran özünə verib, qalanın özümüzə götürərdik. Qurbanı yığıncağa yaxınlaşanda, dərviş İbrahim dedi: ay aşıq istəsən gəl bizinən yoldaş ol! Sənə də yaxşı pul çıxar, Qurbanı gördü, bu kişi düz adama bənzəmir, dedi: baba dərviş, allahı lən öz aramızda düz ilqar bağlayax kı bir - birimizə xəyanət eyləməyək mən qəribəm. Belə deyəndə dərvişin rəngi atdı. İşi belə görəndə, Qurbanı dedi: icazə versən birin oxuyum? Dərviş dedi: oxu bular da qulaq assın! Qurbanı sazını, köynəyindən çıxartdı:

**Fənd eyləmə, feli dərviş!**
**Belə, kar eyləmək olmaz.**
**Yıxıbsan könlüm şəhərini;**
**Murğuzlar eyləmək olmaz!**
***
**Söylə dərdin, bilənlərə,**
**Dərd başına, gələnlərə,**
**Hər üzüvə gülənlərə;**
**Etibar eyləmək olmaz.**
***
**" Qurbanı "_ ya gətir məzə!**
**Dərd üstündə dərdim təzə!**
**Dərd biləni, dərd bilməzə;**
**Giriftar eyləmək olmaz.**
***

Dərviş İbrahim dedi: bala haralısan?
_ Baba dərviş, Qaradağdanam.
_ Qaradağın harasından?
_ Soruşmasan yaxşıdır, sən əyri, mən düz.
"Allah sizə yaxşı yol versin" deyə Qurbanı onlardan ayrılıb, yolun tutdu. Gəlib, bir bulağın başına çatdı. Əyilib bulaqdan su içirdi gördü bir dəstə qız - gəlin gül dərib, əldən ələ verirlər, gülmək səsi göyə qalxıb, Qurbanı bir daşın üstündə oturub, sazın aldı köksünə:

**Ay ariflər! bu dünyanın üzündə,**
**Təzəcə açılan güllər sevinsin.**
**Baş - ağzı ləçəkli, gülgəz yanaqlı,**
**Telləri dağıdan yellər sevinsin.**
***
**Gəlsin bahar fəsli, açılsın yazlar,**
**Göllərə tökülsün ağ quba qazlar,**
**Bəy nişan oğlanlar, xan zada qızlar,**
**Onlarla danışan dillər sevinsin.**
***
**"Qurbanı"_ yam mən sevərəm narıncı,**
**Yar - yar deyib, oldum axır zarıncı!**
**Almanı, heyvani, narı, turuncu,**
**Bu dördünü dərən əllər sevinsin.**
***

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qızlar Qurbanının səsin eşidib, araya aldılar " aşıq bir az bizim üçün çal, oxu!" Qurbanı çalıb, oxuyandan sonra qızlardan soruşdu: bordan Gəncəyə nə qədər yoldu?
_ Bir saat.
Qurbanı qızlardan ayrılıb, yola düşdü. Söz borda qalsın gedək Gəncəyə. Nazir Məmmədəli, Abdullaxann vəziri idi. Özü də Pəri xanımın elçiliyin eləmişdi, qardaşı da Pərini ona vermişdi.
Bir gün Nazir Məmmədəli Abdullaxannın yanına gəldi: qurban icazə versən toyu başlayaq. Abdullaxann dedi: qoy Pərinin özündən soruşum, görüm nə deyir. Abdullaxann Pərini yanına çağırıb, dedi: Nazir Məmmədəli deyir toyu başlayaq, nə deyirsən?
_ Bir qızı birinə ərə verəllər, ikisinə yox! Abdullaxann baş tapmadı.
Dedi: nə oldu?
_ Mən qaradağlı aşıq Qurbanını yuxumda görüb, ilqar bağlamışamı, ona gedəm.
_ Yuxu, düz olmaz!
_ O bu tezlikdə gələcək. Abdullaxann Nazir Məmmədəli çağırıb, Pəri xanımın dediyini ona dedi. Nazir Məmmədəli fikirləşib, öz - özünə dedi: gəl, bu şəhərdə Qurbanı adınan, Pəri adının deyilməsin qadağan elə. Belə də oldu şəhərdə car çəkildi indidən belə heç kəsin haqqı yoxdur, Qurbanı la Pəri kəlməsini ağzına gətirsin, hər kəs bu adları desə dara çəkiləcək.
Bu işdən sonra Qurbanı gəlib, gəncə şəhərinə çatdı, sazı yaxşı olmadığına şəhəri axtarıb, bir saz bənd tükanını tapdı. İçəri girib, bir saz istədi. Saz bənd hansı sazı gətirdi Qurbanı sevmədi.
_ Bə usta, sənin bir yaxşı sazın yoxdü?
_ Təzə bir saz düzətmişəm onu da xanın qızı düzətdirib ki aşığım gələcək.
_ Usta onu da gətir baxım!
Usta, sədəfli sazı gətirdi, Qurbanı bir mizrab vurduqda, sazın səsi tükanı bürüdü, elə bu vaxt ustanın Nərgiz adlı qızı, tükana nahar gətirdi, usta dedi:
cavan, birin oxu görüm, necə oxuyansan?
Qurbanı sazı basdı bağrına:

**Usta! bir qız sevdim sizin diyarda,**
**Cəmi gözəllərə o da yarıdı.**
**Aydı, maşallahı, gündü şöləsi,**
**Mələklər şahının sitəmkarıdı.**

Usta, öz nəzərində tutdu ki, yəqin Qurbanı onun qızı Nərgizə vurulub, odur ki dedi: sağ ol aşıq o sazı elə sənə verəcəyəm. Pəri xanıma ayrısını düzəldərəm. Yaxşı oxuyursan dalısını oxu! Qurbanı:

**Usta! sənə kar eyləycək bu sözlər,**
**Bağçanızda bitər gülü nərgizlər,**
**"Pəri"m çıxıb dam üstündə yol gözlər,**
**O da mənim üçün intizarıdı**
***
**Əcaib gözəldir nə xoş dilbərdir,**
**Camalına cümlə aləm əfzəldir,**
**Ağzında dişləri ləl o gövhərdir,**
**Sinəsi dağların təzə qarıdı.**
***

_ Aşıq çox yaxşı oxuyursan, sazı sənə pulsuz verəcəyəm,
Qurbanı dalısını oxudu:

**Mənim dərsim " əlif " dədi, " bey " dədi,**
**Bir gözəl sevmişəm cana faydadır,**
**Desələr: "Qurbanı" bu nə sevdadır?**
**Söylə: bir " Pəri "-nin yadigarıdır (11).**
***

Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Qurbanı la Pəri adı gələndə, usta Qurbanının üstünə qısqırdı: nə danışırsan, tez dur sazı da götür, bordan çıx, Abdullaxannın adamları eşitsələr, mənim tükanımı dağıdallar. Qurbanı istədi sazın pulonu versin, usta yavaşca dedi: Pəri xanım bu sazı sənə göra düzətdirib, pulonu da verib, şəhərdə Qurbanınan Pəri adını çəkmək qadağadır, bir də bu adları dilinə gətirmə, yoxsa tutub, öldürəllər. Qurbanı "sağ ol usta" deyə tükandan çıxdı. Şəhərin bir küçəsində gördü, bir yığıncaq var, bu yığıncaq Aşıq Əhmədin şagirdlərinin oxu maqlarına görəydi. Camaat gördü bir cavan aşıq saz çiynində gəlir, dedilər: qoyun Aşıq Əhməddən icazə alaq, bu cavan aşıq da bir az oxusun. Məhəmməd adlı bir oğlan Qurbanıya sarı yönəlib, dedi: aşıq, icazə alsaq bizə oxuyarsan?
_ Oxuyaram.
_ Haralısan?
_ Qaradağlıyam.
_ Biz də qaradağlıyıq. Aşıq Əhməd icazə verməyə bilməz. Məhəmməd sonra, gedib Aşıq Əhmədən icazə aldı, Qurbanı meydana girdi, sazını sinəsinə basıb, oxudu:

**İbtida eyləyib, girdim meydana,**
**Aşıqlar ustadı görün handadır?**
**Pünhanı dərdlərim çoxdur canımda,**
**Dürrü - gövhərlərim hələ kandadır.**
***
**Nazlı yar əlindən sinəsi dağam,**
**Süreyya (12) tək yatmamışam oyağam,**
**Şahindən ayığam, qazdan sayığam ,**
**İki gözüm gözlər sübhi dandadır.**
***

cavan aşığın oxuması hamının xoşuna gəldi. "Sağ ol" səsi göyə qalxdı. Belə olanda Aşıq Əhməd hirsli - hirsli aşıq Qurbanı ya baxdı. Qurbanı son bəndi oxudu:

**Mənə badə veribdir "Həzrət Əli ",**
**O nə ki buyurub demişəm bəli,**
**"Qurbanı"nın fikri, zikri, xəyali,**
**Axır ki mətləbi "Pəri" xandadır.**
***

hamı "var ol aşıq" dedi. Aşıq Əhməd qabağa yeriyib, dedi: gərək sənnən deyişəm. Qurbanı dedi: Aşıq Əhməd sən on səkkiz aşığın ustadı san, mənnən deyişmək elə bir iftixar dəyir, Aşıq Əhməd əl çəkmədi. Hamı dedi: olsun deyişin, görək nə olur? Qurbanı dedi: olsun, Aşıq Əhməd başla görək nə soruşacağ san?
Aşıq Əhməd başladı:

**Səndən xəbər alım ay cavan aşıq;**
**O nədir ki göydən haça gəlibdi?**
**Kimiyidi gəşt etdi merac evini?**
**Minib buraqını (13) necə gəlibdi?**

**Qurbanı:**
**Sənə cavab verim ay aşıq "Əhməd",**
**Zülfiqardı göydən haça gəlibdir.**
**Peyğəmbər dolandı, gəzdi meracı,**
**Minib buraqını, gecə gəlibdir.**

**Aşıq Əhməd:**
**O nədir ki, tapılmadı çarası?**
**O nədir ki, düzəlmədi yarası?**
**" İsmayıl"a gələn qoyun balası,**
**Nə gündə, nə ayda qoça gəlibdir.**

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Dövrədən hamı nigaran baxırdı, "görəsən bona da cavab verəbiləcək ?!"

**Qurbanı:**
**O ölümdür tapılmadı çarası,**
**Tənə sözdür düzəlmədi yarası,**
**"İsmayıl"a gələn qoyun balası,**
**Şəvvalın onunda qoça gəlibdir.**

**Aşıq Əhməd:**
**" Əhməd " deyər: kimdir getdi meraca?**
**Kimdir təam verdi fəqirə, aca?**
**Yalan sözlər gəlməz hesaba, vəcə,**
**Kimdir meracdan gecə gəlibdir?**

**Qurbanı:**
**"Qurban"(14) deyir: "Məhəmməd" getdi meraca,**
**"Əli" təam verdi fəqirə, aca,**
**Yalan sözlər gəlməz hesaba, vəcə,**
**"Məhəmməd" meracdan gecə gəlibdir.**

***

hamı aşıq Qurbanını alqışladı. Aşıq Əhməd gördü cavan aşığı bağla yanmadı . Dedi: aşıq səndən birində soruşacam.

_ Usta soruş!

Aşıq Əhməd sazın kökləyib, üzün tutdu aşıq Qurbanıya:

**Aşıq Əhməd:**
**Səndən xəbər alım ay cavan aşıq,**
**Mənasını bilsən; de barakallah.**
**Nə qaladı dörd tərəfi dəryadır?**
**Əsasını bilsən; de barakallah.**
**Qurbanı:**
**Al sözün cavabın, ay kamil ustad,**
**Mənasını deyir dil, barakallah.**
**Qala, bədən, dörd tərəfi dəryadır,**
**Yolu anılmazdı, bil, barakallah.**
**Aşıq Əhməd:**
**Arxamızda olan de necə yükdür!?**
**Nədən xalq olunub, bir qətrə tökdü?**
**Nə şəxsidi, hər şəxsidən böyükdür?**
**Sevdasını bilsən; de barakallah!**
**Qurbanı:**
**O, günahdır, arxamızda bir yükdür,**
**Uşaqdır, yaranıb, bir qətrə tökdü,**
**Xaliq özü hər kimsədən böyükdür,**
**Qəlbindən, kədəri sil, barakallah!**
**Aşıq Əhməd:**
**Necə beşdir gözəllərdə dəstədir?**
**Necə güldü, tamam güldən üstədi?**
**"Əhməd" bu sözlərə cavab istədi,**
**Röyasını bilsən; de barakallah!**
**Qurbanı:**
**"Ali əba" gözəllərə dəstədi,**
**"Hüseyn" şəhid, şühədadan üstədi,**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**"Əhməd", " Qurbanı "_dan cavab istədi,**
**Sözə əhsən desin, el, barakallah.**

***

camaat Qurbanının başından pul yağdırdı,
_ Aşıq Əhməd, indi aşıq Qurbanı soruşacaq sən cavab verəcəksən.
Qurbanı sazın bağrına basıb meydanı bir o baş - bu baş elədi:

**On iki gözəlin seyrinə vardım,**
**gözüm düşdü gözəllərin dördünə.**
**Altısı bəd xislət dindirmək olmaz,**
**ikisi mehriban, de! bəs dördü nə?**

Aşıq Əhməddən cavab olmadı. Dedi: oxu hamısına birdən cavab verəcəm. Qurbanı gülüb oxudu:

**Ay ağalar dərdim yaman artıbdı!**
**Çarxı fələk, eldən daşım atıbdı!**
**Səkkiz şeydən bu dünyanı tutubdu,**
**Ab o ataş, xak o badır dördü nə?**
**(ab ; su- ataş ; od-xak; topraq-bad ; yel.)**

***

Sən demə Abdullaxann, kiçik vəziri Hüseyn bəy lə ovdan qayıdırmışlar yığıncağı görüb, gəlib, iki aşığın deyişməsinə qulaq asırmışlar. Abdullaxan öz qəlbində bu cavan aşığa məhəbbət bəslədi, Qurbanı son bəndi soruşdu:

**"Qurbanı" sözünü eyləyir tamam,**
**Sizə də xoş gələr bu şirin kalam,**
**Səkkiz şey insana verildi ənam,**
**Ağıl, mərifət, hüş, kamal dördü nə?**

***

Aşıq Əhməd cavab verənmədi. Aşıq Qurbanı qabağa yeriyib, dedi: Aşıq Əhməd qaydadır aşıq, aşığı bağlayanda sazın alar, mən sənin sazını almıram, bu saz neçə oğlanları, qızları bir - birinə qovuşdurub. Day indən belə heç kəsə dolaşma.
Abdullaxan Qurbanı adın eşidəndə, öz - özünə dedi: bu, bacım Pəri xanım deyən aşıq olacaq. Odur ki, Hüseyn bəyə dedi: mən getdim, sən o cavan aşığı mənim yanıma gətir. Hüseyn bəy qabağa keçib, Qurbanıya dedi: mənim lə saraya getməliyik. Camaat mayıflandı " bu aşıq Qurbanı adını dilinə gətirdiyinə saraya aparırlar " Qurbanı qəbul eyləyib, Hüseyn bəy lə yola düşdü. Gəlib sarayın bağına girəndə, Hüseyn bəy dedi: aşıq, sənə bir sözüm var, o da budur ki, bağdan çıxınca dövrə bərə baxmayacaqsan! Qurbanı dedi:

**Əziziyəm yar anlar,**
**Yar sözünü yar anlar,**
**Sözü işarə eylə;**
**Arif olsa; yar anlar.**

Öz özünə dedi: bura Pərinin bağıdır.
_ Hüseyn bəy sən dedin, qoy mən də deyim.
_Nə deyəcəksən?
_ Mənim uşağlığdan bir qarın sancım var, bağdan keçəndə tutar, sancım tutsa mən bir addım da ata bilmərəm,
_ Allah qoysa sənə heç zad olmaz.
Bir az gəlmişdilər Qurbanı gördü, Pəri xanım eyvanda əyləşib barmaqlarına xına qoyur. Oturdu yerə. Hüseyn bəy dedi: niyə oturdun?
_ Sancım tütdü.
Pəri xanım bu səsi eşidəndə , dərindən qulaq verdi. Hüseyn bəy dedi: ay sənin son aşıqlığın olsun.
İndi Abdullaxan sənin oturmağını bilsə səni də, məni də öldürər. Pəri xanım dedi: Hüseyn bəy kiminən danışırsan?

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

_ Bir cavan aşıq var, onnan danışıram. Pəri xanım yaxşı baxıb, gördü, sevgilisi Qurbanı dır. Özünü sındırmayıb, dedi: aşıq sənin sancının dərmanı nədi?
_ Bir iki kəlmə oxusam, düzələrəm.
_ On da bəs oxu!
Qurbanı sazın köynəyindən çıxardıb köklədi:

**Hayıl - mayıl pəncərədən baxan yar,**
**Baxan dilbər, məni candan eylədin!**
**Şirin canı atəşlərə yaxan yar,**
**Yaxan dilbər, məni candan eylədin!**
***
**Qurban olum sənin kimi həmdəmə,**
**Arif olub bir qulaq as bu dəmə!**
**Açıldı düymələr, göründü məmə,**
**Baxan dilbər, məni candan eylədin!**
***
**Bakım yoxdur sultanından, xanından,**
**Öldürsələr; qorxum yoxdur canımdan,**
**Ağ əlin lə " Qurbanı "_ nın qanından,**
**Yaxan dilbər, məni candan eylədin!**
***

Pəri xanım dedi: Hüseyn bəy bu aşığı hara aparırsan?
_ Xanım, bu Abdullaxanın xoşuna gəlib, odur ki istəyir özünə aşıq eyləsin. Hüseyn bəy aşığı Abdullaxanın yanına gətirdi. Dalısınca Pəri xanım da kənizlərlə birgə qardaşının yanına gəldi. Nazir Məmmədəli dedi: xan bu kimdir? Abdullaxan dedi: bu Qaradağlı dır, özüdə haqq aşığıdır. Nazir Məmmədəli dedi: bu yaxşı aşıq olanmaz. Abdullaxan dedi: oxumağın görmüşəm yaxşı aşıqdır. Nazir Məmmədəli dedi: onda sınayaq. Abdullaxan Xan dedi: Qurbanı razısan?
_ Hə .
Nazir Məmmədəli Qurbanının gözlərin bağladıb, qabağında quranı açdı. Barmağın bir ayənin üstünə qoyub, dedi: əgər haqq aşığısan bu ayəni de! Pəri xanım gil də qapının dalından qulaq asırdılar. Elə bu anda Qurbanının mövlası gözünə görünüb, dedi: oğul səni bu yola çağıran səni darda tək qoymaz. Ayə peyğəmbərin meracıdır, qorxma sözünü de! Pəri xanım da qapının dalısından qulaq asır. Qurbanı sazın basdı bağrına:

**Cəbinin təcəlla, cəmalın günəş,**
**"Küllü şey xalıq allah" deyibdir (15),**
**İki qabı qövsün (16), qurətoleyn (17),**
**Bilmirəmm qanıma nə susayıbdır?**

Hamı Qurbanının sözlərinə mat qalıb, Nazir Məmmədəli Qurbanının sözündən seçdi ki qızlar qapının dalına yığılıblar. Odur ki qapını açıb, dedi: xanım gəlin yaxından qulaq asın, qızlar məclisə girdilər. Pəri xanım dedi: aşıq nə əcaib cavablar verirsən?! Qurbanı sözünün dalısını oxudu:

**Peyğəmbər gedəndə ərşi əlayə,**
**Kimə nəzər saldı, kim gəldi sayə?**
**Ərşin mələkləri ol tamaşayə,**
**Söylədi nə gözəl, nə əcayibdir!"**

Nazir Məmmədəli gördü, qızlar bura gələndən Qurbanı lap coşa gəlib. Pəri xanıma üz tutub, dedi: xanım tamaşa elədiyiz bəsdir. Borda naməhrəm var məclisdən çıxın, gedin qapının dalından qulaq asın! Deməli Qurbanının gözü bağlıdır amma mövlası hər zadı onun gözünə görsədir. Qızlar məclisdən çıxıb, qapı dalısına getdilər. Qurbanı sözünün ardın tütdü:

**Peyğəmbər qayıtdı ərşi əladən,**
**Bizə xəbər verdi ol hüveydadan,**
**Camalın şöləsi təfsir ayədən,**
**Ayı şəq eyləyib, gün də qıyıbdır.**

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***

**Təbəssüm eyləyir hərdən nazənin,**
**Mərifət anlayıb, mənasın bilin!**
**Ya, müşkü ənbərdir siyah kakilin;**
**Ya, şəbi yaldadır (18) , ya rəğayıbdır (19).**

***

Bu anda mövlası yenə Qurbanıya dedi: oğul sən borda həqiqətdən danış sonra Pəriyə şer deməyə vaxt var. Qurbanı oxudu:

**Elmin mədənisən, kərəmin kanı,**
**Sən - sən bu dünyanın darda amanı,**
**"Qurbanı"! Bəsdir, sən həddini tanı,**
**Məlayik üzünə durma! ayıbdır.**

***

Abdullaxan dedi: Nazir Məmməd Əli, aşıq Qurbanı sınaqdan çıxdı. Abdullaxan Hüseyn bəyə dedi: aşıq Qurbanını apar otaqların birində dincəlsin. Qurbanı gedib, otaqda yatdı, Pəri xanım kənizi Axsaq Xubanını götürüb, gizlicə Qurbanının otağına girib, gördü Qurbanı yatıb. Pəri xanım tellərin dən on ikisini ayırıb barmaqların da mizrab eləyib Qurbanını oyatmağa başladı:

**Şirin yuxusuna qurban olduğum,**
**Dur yuxudan, mehribanım ay oğlan!**
**Bu həsrət gözlərim baxsın gözünə,**
**Təzələnsin din - imanım, ay oğlan!**

***

**Kənardan baxmaqla doya bilmirəm,**
**Bu, nə həqiqətdir duya bilmirəm,**
**" Xuban " yanımdadır, deyə bilmirəm,**
**Aç gözünü, çıxdı canım ay oğlan!**

***

**Artırma könlümün dərdi sərini!**
**Yaxşı var, yaman var borda görünür,**
266 Hatta perde açıldığı zaman, sahnenin önünde, ikinci ve geniş bir atlas perde görünür. Bu atlas perdenin üstünde büyük bir Asya, Avrupa ve Afrika haritası çizilmiş ve oklarla Türklerin akın yolları gösterilmiştir. Çamlıbel, a.g.e., s. 7-8.

267 Çamlıbel, a.g.e., s. 47.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yüzden hileyi meydana çıkarır. Mertliğe sığmayan bu tutumları yüzünden, halk üç başbuğu öldürür. Bunların oğulları Bumîn, Bayan ve Demir başbuğ olur ve İstemi Han'ın "Akın" ülküsünü gerçekleştirmek için boylarıyla birlikte üç yöne dağılırlar."

4 Ocak 1932 gecesi Ankara Halkevi'nde sahnelenen ve Atatürk tarafından da izlenilen "Akın" daha sonra şehir tiyatrolarında da temsil edildi.[268]

Faruk Nafiz (Çamlıbel)'in "Özyurt" adlı destanında ise akıncıların önce anayurttan öz yurda daha sonra da deniz kıyısına gelişleri, kıyılarda ilkel yaşayan yerlilere sevgi ve uygarlık öğretmeleri anlatılmaktadır.[269]

Behçet Kemal (Çağlar)'ın "Çoban" adlı oyunu ise, Türk tarihini öğrenmeye çalışan fakat bunda pek başarılı olamayan bir çocuğun esneyerek ve uyuklayarak yaptığı bir konuşmayla başlamakta ve oyunun diğer kahramanı dedenin ona yardımını konu edinmektedir. Oyunda tarih dede, Türklerin tarihte başkalarına boyun eğmeyen tek halk olduğunu söylemekte, çocuk ta Türklerin yeni ve bilinmeyen eserleri konusunda sürekli olarak ona sormaktadır. Oyunun sonunda, tarih öğrenmek isteyen çocukla tarih dede arasında tek bir kişi olmayıp, Türk ırkını ve kahramanlarını temsil ettiğini belirtir. En sonunda da çoban yeni Türkiye'nin büyük kurucusu ve önderi olan Atatürk'le özdeşleştirilir.[270]

Cumhuriyetin onuncu yıl kutlamalarında oynatılan Yaşar Nabi (Nayır)'ın "Mete" isimli oyunu Türk'ün özgürlük aşkını işlemektedir. Eserde Mete ile Atatürk özdeşleştirilmekte, çöken bir Osmanlı Devleti'nden genç bir Türkiye Cumhuriyeti'nin çıkması anlatılmaktadır.[271] Türk tarihinin ve erdeminin anlatılmaya çalışıldığı eser, Mete'nin babası Teoman ve karısının öldürüleceğini ve halkın Mete'yi baş tacı edeceğini haber veren büyücü sahnesiyle başlamakta ve gelişen olaylar bu kehaneti doğrulamaktadır. Eserin sonuna doğru tekrar ortaya çıkan büyücüler bu kez Türk tarihinin nasıl olacağını, Mustafa Kemal'in Türk milletini nasıl kurtaracağını anlatırlar. Oyunun esas temasını oluşturan Türk milletinin özgürlük ve uygarlık konusundaki hassasiyeti ise Mete'nin ağzından şu mısralarla verilir:

Çünkü alışkın değil bir Türk esir olmaya
At üstünde büyüyen çünkü yürümez yaya.[272]

Behçet Kemal (Çağlar)'ın "Ergenekon" bu manzum oyunuyla, Türk milletini uygarlığın kurucusu olarak takdim etmekte ve ozanın ağzından Türk milletini şöyle anlatmaktadır:[273]

Türk kalbinden geçti ilk tanrıların kanları
Öbür ırklar sürüyken Türklerdi çobanları
Gün görmezden öteki insanların inleri
Kafalarında güneş Türklerin bilginleri
...
Hey Rab!Çıkmam gerekti arşındaki kürsüne
Madem ki ilk demiri koymuştu Türk örsüne
…
Madem ki ilk kıvılcım sıçramıştı toprağa
Hacet yoktu bir yeni büyüklük yaratmaya
Doldurunca bir demir sapı Türkün elini
Yere diktin demekti etten bir heykelini
...
Ne çok gecikecekti insan olmakta insan
Olmasa Türk ilk seven, ilk inanan, ilk yazan.

---

268 Çamlıbel, a.g.e.; Tan, a.g.m., s. 259-260.
269 Çamlıbel, a.g.e.
270 Çağlar, a.g.e.
271 Nayır, a.g.e.; Hayati Asılyazıcı, "Yaşar Nabi Nayır'ın Tiyatroya Bakışı Üzerine", Yaşar Nabi'ye Saygı, İstanbul 1982, s. 126.
272 Yaşar Nabi, a.g.e., s. 17.
273 Behçet Kemal Çağlar, "Ergenekon", *Ülkü,* Cilt:1, Şubat 1933, s. 14-15.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Diğer oyunlar ise, konularını daha çok Osmanlı'nın son döneminden, İstiklâl Savaşı'ndan, Atatürk'ün hayatından ve devrimlerinden alıyordu.[274] Örneğin Faruk Nafiz (Çamlıbel)'in yazdığı "Kahraman" adlı manzum destan, vatan ve Atatürk sevgisinin tüm aşkların üstünde olduğu temasını işlemektedir. Kahraman Destanı'na göre; 1920'lerde asker kaçağı Aşık Hüseyin, hancının kızını seviyor. Hancı kızını asker kaçağına vermek istemiyor. Aşık Hüseyin'in kardeşi Hasan ise düşmanla işbirliği halindedir. Hana gelen binbaşının evraklarını çalıyor. O sırada hanın önünden "Kahraman" (Mustafa Kemal Paşa) geçiyor. Aşık Hüseyin Mustafa Kemal'e su veriyor ve tümüyle ona bağlanıyor. Hüseyin, düşmanla işbirliği yapan kardeşi Hasan ile çatışıyor, Hüseyin kardeşini öldürmek zorunda kalıyor. Binbaşı durumu öğrenince Hüseyin'i gönüllülerin başına geçiriyor. Aşık Hüseyin, sevgilisi ile birlikte artık savaşa gidecektir.[275]

Saim Kerim Kalkan'ın "Vatan ve Vazife" adlı eserinde ise düğün gecesi karısını bırakıp aldığı emir gereği cepheye giden bir teğmenin vatan ve vazife konusunda yaptığı fedakârlıkları anlatmaktadır. Oyunda teğmen ölümü pahasına düşman cephaneliğini havaya uçuruyor, tek kolunu ve gözünü yitiriyor.[276]

Milli bilinci ve vatan sevgisini işleyen oyunlardan biri de Peyami Safa'nın "Gün Doğarken" adlı eseridir. Bu eserde kurtuluş savaşının Mustafa Kemal Paşa'nın izinde iç ve dış düşmanlara karşı kazanıldığını konusu işlenmektedir. Oyunda başkahraman Murat Bey, Anadolu'ya silah ve asker kaçırıyor. Üvey babası ise İstanbul Hükümeti ile ilişki kuruyor, "nerede rahat edersem orası benim vatanımdır" diyor. Murat Bey yakalanıyor, divan-ı harbe götürülürken nöbetçiyi ulus sevgisi ile ikna ediyor. Birlikte Anadolu'ya kaçıyorlar. Anadolu'da düşman cephaneliğini havaya uçururken yakalanıyorlar. Savaş kazanılıyor, üvey babası pasaport alıp İngiltere'ye giderken, Murat Bey yaralı olarak İstanbul'a dönüyor.[277]

Halit Fahri Ozansoy'un "On Yılın Destanı" adlı manzum destanında da, fen ve güzel sanatların vatanı parlatacak güneş olduğu üzerinde durulmakta ve Avrupalıların sömüremeyeceği bir ulus yaratılması hedeflenmektedir.[278]

Münir Hayri (Egeli) tarafından yazılan ve Aydın Saygun tarafından bestelenen "Öz Soy" adlı eser ise Türk ve İran halklarının kardeşliğini konu almaktaydı.[279] İran Şahı Rıza Pehlevi'nin Türkiye'yi ziyareti vesilesiyle ilk olarak 19 Haziran 1934'de Ankara Halkevi'nde sahnelenen bu eserde izleyenlere dört bin yıl öncesinden Mustafa Kemal Paşa'ya ve Rıza Pehlevi'ye uzanan bir süreç sunulmuştur.[280] Eserde insanlığın etrafındaki karabulutları yırtan Kave ve Bozkurt inkılâbından sonra büyük hükümdar Feridun'un iki oğlu dünyaya gelmiş ve bunların isimleri "Tur" ve "İraç" olarak koyulmuştu. Daha sonra bu iki çocuk tarihin her safhasına hâkim olmuş olan iki neslin cedleri olmuştu. Gökten inen melekler ise onlara ve nesillerine büyük istikballer vaat etmişti. Bu suretle hiç ölmeyecek olan "Tur" ve "İraç" nesilleri her defa yeni bir ümitle kuvvetlendikçe gençleşecekler ve birbirine bağlı kaldıkça insanlık için bir nur kaynağı teşkil edeceklerdi. Üç defa büyük medeniyet kurmuş olan bu iki kavim son olarak İslam medeniyetini kurmuş fakat bundan sonra kara günler başlamış ve iki kardeş kavim ayrı düşmüşlerdi. Nihayet aradan uzun zaman geçmiş ve "Tur"un vatanındaki kara günlere Mustafa Kemal ismindeki kurtarıcı son vermiştir. Aynı şekilde "İraç"ın vatanının kurtarıcısı da Rıza Pehlevi olmuştu.[281]

---

274 Sakaoğlu, a.g.m., s. 30.
275 Karadağ, a.g.e., s. 135.
276 Kalkan, a.g.e.
277 Peyami Safa, a.g.e.
278 Karadağ, a.g.e., s. 140.
279 "Öz Soy" adlı oyun, Mustafa Kemal Paşa'nın, İran Şahı Rıza Pehlevi gelmeden önce Münir Hayri Bey'i çağırtarak Türklerle İranlıların soy ve kültür itibarıyla kardeş olduğunu sırf mezhep mücadelesi yüzünden birbirinden ayrılmış olan bu iki kardeşin aslında bir olduğunu gösteren bir piyes yazmasını istemesi üzerine kaleme alınmıştı. N. Ahmet Banoğlu, *Nükte ve Fıkralarla Atatürk*, İstanbul, 1976, s. 312.
280 Ömer Erden, *Atatürk Dönemi Türkiye'yi ziyaret Eden Yabancı Devlet Başkanları*, Ankara, 2006, s. 232; Müzeyyen Buttanrı, "Atatürk Dönemi Tiyatro", *Cumhuriyet Dönemi Türk Kültürü, Atatürk Dönemi (1920-1938), Cilt: 2*, Ankara, 2009, s. 956.
281 *Cumhuriyet*, 20 Haziran 1934, No: 3635.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Halkevleri Temsil Şubelerinde gösterilen ve yukarıda birkaç örnek sunduğumuz gösteri faaliyetleriyle Türk tarihini bir bütün olarak sunulması, Türk halkının tarihi derinliğini öğrenmesi, milli kimlik kazanması, karşılaşacağı zorlukları vatan, millet sevgisi ve sosyal yardımlaşma ile aşabileceği, her toplumda var olabilecek yanlışlıkların ve kötü alışkanlıkların gösterilmesi ve erdemli bir toplum yaratılması amaçlanmıştır.

Halkevlerinde izlenen bu yeni kültür politikası ile aynı zamanda aydınların halktan kopması ve ulusal kültürden uzaklaşarak kozmopolitleşmeleri önlenmek istenmiş, bir başka ifadeyle, aydın-halk ikiliği ortadan kaldırılarak aydın halk kucaklaşmasını hedeflenmiş, kısa sürede önemli başarılar elde edilmiştir.

Bu süreç o tarihe kadar bu tür etkinliklere yabancı olan Anadolu halkı için bir kültürlenmeden başka sosyal yaşamda bir dönüm noktası olmuş, o zamana kadar uzak kaldığı bir alanda boy göstermeye başlamış, çok sayıda sanat, siyaset, bilim ve kültür adamı yetişmiştir.[282]

Ne var ki, Türk kültüründen güç alarak yeni bir toplum inşa etmeyi amaçlayan ve bu konuda önemli çalışmalar yapan halkevleri II. Dünya Savaşı sonrası değişen dünya şartları ve bu şartların iç politikaya yansıması sonucu kapatılmış, yerine benzer faaliyetleri yürütebilecek başka bir kurum da kurulmadığı için Atatürk'ün büyük önem verdiği milli ve modern bir toplum yaratma projesi yarım kalmıştır.

282 Nitekim Halkevi temsil sahnelerinde kendilerini tanıtma fırsatı bulan birçok genç arasından, daha sonraki dönemin büyük tiyatro ustaları çıkmıştır Örneğin Münir Özkul, Renan Fos[illegible]
Halkevi'nden yetişmişlerdi. Firdevs Gümüşoğlu, *Ülkü Dergisi ve Kemalist To*[illegible]

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# KÖROĞLU DESTANININ AZERBAYCAN KOLUNDAKİ KAHRAMAN VE KARŞI KAHRAMAN TİPLERİ ÜZERİNDE DEĞERLENDİRME

***MUSTAFA SEVER***

Tip; destanlarda, masallarda, efsanelerde, fıkralarda, ve. türlerde belirli kişilik özellikleriyle bir insan grubunu temsil eden varlıktır. Genel özelliklerin yansıtıcısı olması sebebiyle anlatılarda değişmez, kalıp özellikleriyle yer alır ve bu yönüyle belli bir devirdeki bir toplumun değer yargılarını temsil eder. Toplumun iyi-kötü, doğru-yanlış, olumlu-olumsuz, vb. şekildeki anlayışını, değerler sistemini ifade etmede somut bir araçtır. Destan anlatıcısı, anlatımında bu kalıp kişiliği gelenekte hazır bulur; ki bu yönüyle bu kalıp kişilik, stereotip[283] olarak da adlandırılabilir. Çünkü, kişiliğin anlatımı bir genellemeyi içerir.

Tebliğimizde, Köroğlu destanının Azerbaycan kolunda[284] yer alan kahramanlar (asıl kahraman ve karşı kahraman), bunların tipik özellikleri ve temsil ettikleri toplumsal değerler üzerinde durulacaktır.

Bilindiği üzere, destanlarda kahraman/lar/ın gerçekleştirdiği eylemlerin ulvîleştirilmesi söz konusudur. Bu ulvîleştirmenin gerekçesi, kahramanın yaptığı eylemlerin bir millet veya bir topluluk adına gerçekleştirilmiş olmasıdır. Yapılan iş, toplumun çıkarına, yararına, iyiliğinedir. Yaşanılan tarihî gerçeklikler kahramanın penceresinden değerlendirilir, olması gereken tepkiler kahraman aracılığı ile verilir gözükürken aslında arka planda kamunun bakışı, değerlendirişi söz konusudur. Burada “*genel amaçların, tekil kişiliklerin eylemlerine dönüşmesi, yaşamdaki kahramanlığın özünü karakterize etmektedir*.” (Pospelov 1995: 139).

Toplumsal değerler açısından doğru ve haklı kabul edilen eylemleri gerçekleştiren ve dolayısıyla haklı tarafta yer alan, eylemlerini şahsî olmaktan öte toplum yararına gerçekleştiren destan kahramanı, yaptığı hareketin amacı hususunda kararlı ve sorumluluk duygusuna sahip bir kişidir. Destan kahramanları, toplumsal değerler adını verdiğimiz ve milletin ortak hafızasında saklanıp nesilden nesile aktarılan değerlerin dile getiricisi, uygulayıcısı rolündedir. Toplumsal değer sözü, toplum hayatında toplumu meydana getirenlerce doğru-yanlış, olumlu-olumsuz, gerekli-gereksiz, vb. şekilde adlandırılan inanç ve uygulamalardır. Bu inanç ve uygulamalar, toplumsal hayatın düzenlenmesini, işlemesini sağlayan toplumun temel normlarıdır. Geleneksel olan bu normlar bin yıllar öncesinden kalıp düşünceler, davranışlar şeklinde güncele taşınmıştır. Aileden başlayarak millete kadar genişleyen topluluklar tarafından üretilir, benimsenir ve paylaşılır. Ailenin, soyun, boyun, milletin değerleri, toplumsal normlar olarak gündelik hayatta uygulanır ve aileyi, soyu, boyu, milleti öteki aileden, soydan, boydan, milletten farklı kılan anlayışlar, düşünceler, davranışlar (bilgi, inanç, namus, ahlâk, yardımlaşma, hoşgörülülük, vatana bağlılık, milletini sevme, adalet, vb.) şeklinde ortaya çıkarlar.

Çalışmamıza esas kabul ettiğimiz Köroğlu destanının Azerbaycan kollarında, başta Köroğlu olmak üzere kahramanların (kahraman ve karşı kahramanlar) gerek fizikî gerekse ruhî özellikleri, toplumun değer yargılarının dile getirilişi, ideal özellikteki insan tipinin somutlanışıdır.

Köroğlu destanının çeşitli kollarında yer alan kahramanlar, destandaki adlandırma ile deliler, kendilerine özgü nitelikleriyle, dolayısıyla işlevleriyle tarif edilirler. Köroğlu ise, “*çok farklı görünüşlere sahiptir. O, kahramanca işleri, kuvvet ve cesareti ile oldukça etkileyicidir; fakat aynı zamanda her zaman ona mal edilmeyen utanılacak durumlarda da bulunabilir.*” (Reıchl 2002: 309).

Köroğlu ve delileri birer eşkıya görünümündedirler ki bunun nedeni, “*Köroğlu ve arkadaşlarının kendilerini destekleyen tabiî bir topluma ve normal bir iktisadî temele dayanmayışları]*” (Kaplan 1985: 102), Çamlıbel’de Köroğlu’ya bağlanmakla oluşmuş ve ilk

---

283 Etimolojik olarak stereotip, stereos (katı) ve typos (nitelik, tip) kelimelerinden müteşekkildir ve bir anlamı da “kalıp hüküm, yargı”dır.

284 Çalışmamızda, metin olarak “Tehmasîb, M.H., Azerbaycan Dastanları, c.4, Çıraq ı
alınmıştır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

başlarda erkeklerden meydana gelen bir topluluk olmaları, yol keserek baç/haraç almalarıdır. Pekiyi, bu durumda utanılacak bir hareket yapan, yol kesen, haraç alan kişiler halkın nasıl olur da sevgilisi olabilir? Bilindiği üzere "*Türk boylarının töresinde haksızlık ve eşkıyalığın onaylandığı durumlara rastlanmaz.*" (Özkan 1997: 233). Dolayısıyla Köroğlu ve delileri, eğer eşkıya olsalar, halka haksızlık ve zulüm yapsalardı kahramanlaştırılmazlardı. Köroğlu'nun eşkıya olmayışını, "Köroğlu'nun Qocalığı" boyunda, onun İran padişahının hazinesini soyan hırsızları yakaladıktan sonra onlarla konuşması izah edici niteliktedir:

"*-Balam, senin ki ele işin, peşen şahların, paşaların var-yoxunu çalıb-çapıb yemek olub. İndi haradan olubsan bele əməli saleh, Allah adamı?*

*Köroğlu dedi:*

*-Düzdü. Men hemişe şahların, paşaların var-yoxunu çalıb-çapmışam. Amma men sizin kimi oğurluq eləməmişəm. Men meydan açmışam. Dava eləmişəm, düşmen öldürmüşəm. Sonra da varını-yoxunu çalıb-çapıb aparmışam. Men her ne eləmişəmse, açıq eləmişəm, merd eləmişəm. Amma siz it kimi oğurluq eleyirsiniz. Siz namerdsiniz.*" (Koroğlunun Qocalığı, s. 384).

Şahların, paşaların düşmanı olmak, mevcut otoriteye asî olmaktır; ancak asîlik halk üzerinde zulüm uygulayanlara karşı olduğu için meşruluk kazanmıştır. Halk bu anlamda Köroğlu ve yiğitlerini yüceltmiş, idealleştirmiştir. Eric Hobsbawm'a göre (Çobanoğlu 1999: 185) bu tür kahramanlar kariyerlerine bir suçla değil, adaletsizliğin kurbanı olarak başlarlar ve yaptıkları halk nezdinde suç olarak değerlendirilmez. Köroğlu'nun asîliği "*yerel yöneticilere ve kısmen de kendi hükümdarına karşı (tabiî ki, devlete karşı değil)*" (Bayat 2003: 9) bir asîlik olup toplum beyninde idealize edilmiş, doğruluğun, adaletin, huzurun hakim olduğu bir toplumsal düzeni sağlamayan, kendi çıkar ve emelleri doğrultusunda halkı soyan, sömüren yerel idarecilere yöneliktir. Yerleşik ve Müslüman bir toplumda halkın gerek gelenek yoluyla sahip olduğu değerlerin, gerekse dinî anlamda İslâmiyet'in öngördüğü değerlerin hakim olduğu ve tatbik edildiği bir yaşama şeklini görmek istemesi ve var olan toplumsal yaşamdaki aksaklıkların, çarpıklıkların da giderilmesini beklemesi pek tabiîdir; yerel yönetimlerin bu beklentiyi karşılayamamaları, halkın yönetene olan güvenini sarsmış; ki bu durumda Köroğlu, halkın beyninde kurtarıcı bir kahraman tipi olarak görülmüştür. Köroğlu ve yiğitlerinin halkla bir alış-verişleri olmamıştır. Bunu "*Tacir deyilem bac alasınız, paşa deyilem öç.*" (s.32) sözünden anlamak mümkündür.

Kahraman tipi olarak, gerçekçi çizgilerle betimlenen Köroğlu, "*kâh saf, mert bir destanî kahraman –bir Oğuz beyi- kâh kuvvetin para etmediği yerlerde hileye de müracaat eden dessas bir adam gibi tasavvur olunmuştur. Çok defa düpedüz giremeyeceği yerlere âşık kıyafetinde girer.*" (Boratav 1984: 75). Amaç, halkın vicdanında doğru olunca, amacın gerçekleştirilmesinde kullanılan yöntem konusunda halkın hoşgörüsü devreye girmekte, dolayısıyla Köroğlu'nun kılık değiştirmesi, hatta Köroğlu olduğunu inkar etmesi normal karşılanmaktadır. Çünkü halk biliyor ki Köroğlu, "*mağdur bir babanın oğludur. Zulmü, haksızlığı daha küçüklüğünde görmüş[tür].*" (Boratav 1984: 100). Bu mağdurluk ve zulme uğrama nedeniyle, onu mağdur edenlerden ve ona zulmedenlerden alacağı intikam, artık Köroğlu'nun şahsî intikamı olmaktan çıkmış, halkın intikamı haline gelmiştir. Yani, ortaya çıkışında bireysel bir hareket olan Köroğlu hareketi, bir süre sonra toplumsal bir mahiyet kazanmıştır.

Köroğlu yiğitlerine/delilerine gelince, aslında fizikî ve ruhî açıdan birbirlerinden pek farklı olmayan, anlatıcının gelenekte hazır bulduğu kalıp tipte (stereotip) insanlardır. Fizikî özellikler açısından güçlülük, irilik, pehlivanlık gibi olağanüstülüklerle; ata binme, silah kullanma ve saz çalma gibi özelliklerle tasvir edilen deliler, toplumsal değerler açısından ideal özellikler olan doğruluk, yiğitlik, mertlik, vefâlılık, saflık, paylaşma, vb. gibi ortak karakter özellikleri ile vasıflandırılmışlardır. Sözgelimi, Belli Ahmet tanıtılırken onun hem fizikî özellikleri hem de karakter özellikleri, "*bığ yerleri hele tezece terleyirdi. Amma gücde, qüvvetde Rüstem pehlivana bac vermezdi. Özü de çoq gözü-könlü tox adamdı. Ömründe bir defe de olsun eline düşeni tek yememişdi. Kasıbca sürfesi hemişe dostların qabağında açıq olardı.*" (Koroğlunun İstanbul Seferi, s.28) şeklinde belirtilir. Demircioğlı

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

bahsederken Kırat'ı babası nallarken onun Kırat'ın arka ayaklarını tuttuğu ve atın kımıldayamadığı bilgisi verilir. Yine Durna Teli anlatısında Demircioğlu ve Belli Ahmed, bağlı oldukları darağaçlarını ellerine alarak düşmana saldırırlar ve her vuruşlarında on-on beş adamı hurd-heşil eylerler. Köroğlu delileri Ayvaz, Tüpdağıtan, Tanrıtanımaz, Gürcüoğlu, İsabalı, vd. savaş meydanında adeta aslana dönüşürler; kendilerinden daha güçlü kişileri, çok kalabalık orduları yenerler. Mesela, Ayvaz'ın Arap Reyhan'la vuruşması şöyle anlatılır: "Eyvaz birden ərep Reyhan'ın çiyinlerini buraxıb yapışdı bel kemerinden. Bir "Ya meded" deyip dik qaldırdı göye, vurup yere, çökdü sinesine." (Köroğlu'nun Qars Seferi, s. 335). Böylesi fizikî olağanüstülükleri yanında, yiğitler/deliler ahlâken son derece ölçülü, saygılı ve Köroğlu'na, çevrelerindeki insanlara itaatkârdırlar. Her ne görev olursa gönüllü giderler. Tabir yerindeyse gözlerini budaktan esirgemezler. Diğer bir söyleyişle Türkün töresi ve değerlerine uygun düşünüş ve hareketlere sahiplerdir

Halk anlatılarının her türünde (destan, masal, efsane, vd.) olduğu gibi, Köroğlu kollarında da acımasızlık, bencillik, riyakârlık, kalleşlik, adaletsizlik, vb. özellikleriyle toplum değerlerinin karşısında yer alan kahramanlar da vardır ve bunlar anlatılarda karşı kahraman olarak değerlendirilir. Bunlar, toplum değerlerini temsil eden kahramanların tavır ve davranışlarının olumlanmasını pekiştirici işlevdedirler. Dinleyici veya okuyucu, her anlatıda toplumun benimsediği kahramanlarla dinleyici/okuyucu duygusal bir bağ kurar, yani özdeşleşir. Özdeşleşme, kişinin kendisini davranış, düşünüş yönünden ideal gördüğü, beğendiği bir kişinin veya bir grubun yerine koyması, kişiyi veya grubu içselleştirmesidir. Olumsuzluklarıyla anlatılarda öne çıkan karşı kahramanlarla dinleyici/okuyucu bu içselleştirmeyi yaşayamaz, yani özdeşlik bağı kuramaz, onları benimseyemez. Köroğlu kollarını bir bütün olarak ele aldığımızda her anlatıda farklı isimlerle ortaya çıkan ve genel olarak da yönetici (paşa, han, vb.) olan kahramanlar ortak özellikleriyle karşı kahraman tipini meydana getirmektedirler. Namert, hilekâr, açgözlü, bencil, kalleş, vb. özellikleriyle anlatılarda yer alan karşı kahraman tipi, Türk ahlâk anlayışında adeta "Edebi edepsizden öğren" sözünü açıklar mahiyette, ideal ahlâkî kuralların hatırlanmasında, özlenilen insanî ilişkilerin idrak edilmesinde araç rolü görürler.

Örnekleyecek olursak, bunlardan Bürcü Sultan (Köroğlu'nun İstanbul Seferi, s. 50), güçlü olduğunda, daha doğrusu arkasında askerleri olduğunda küstahlaşan, ancak yalnız kaldığında zavallılaşan biridir. Aslan Paşa, "*[ç]ox namerd, çox müxennet, çok da hiyleger adamdı[r]*" (Durna Teli, s. 143). Hasan Paşa, Köroğlu'nun babasının gözlerini çıkarttıracak denli zalim; Halil Paşa, mertçe savaşamayacak denli korkak ve hilekâr, Alemkulu (Qulun Qaçmağı, s. 266) ve Rum Paşası (Mehbub Xanımın Çenlibele Gelmeyi, s. 206), kendi iradeleriyle karar veremeyen aciz yöneticilerdir. Yine, Kara Han anlatıda, "*ezazil bir xan idi. Çox az adam tapılardı ki, onun elinden sinedağlı olmasın. Özü de yaman tamahkâr idi. Kimde bir yaxşı şey görseydi ya xoşla ya hilye ile ya da ki, bunların heç birisi baş tutmayanda, zorla tutub elinden alardı.*"(Köroğlu Düratın İtmeyi, s. 279) şeklinde tasvir edilirken Bolu Beyi, (Köroğlu İle Bolu Bey, s. 298), sözünde durmayan, zorda kalınca aman dileyen, ancak fırsatını bulunca da kalleşçe davranabilen bir kişidir. Karşı kahraman olarak anlatılarda yer alan kişiler, padişahın kendilerine takdir ettiği yöneticiliği layıkıyla yapmayan, iktidarı kendi çıkar ve amaçları yönünde bir araç olarak kullanan olumsuz nitelikte insanlardır.

Sonuç olarak, Köroğlu destanının Azerbaycan kolunda yer alan olumlu ve olumsuz kahraman tipleri, Türk milletinin değerler sistemini yansıtan tiplerdir. Anlatıda olay ve durumlarda takındıkları tavır, karşılıklı ilişkilerdeki düşünüş ve eylem biçimi, okuyucu veya dinleyicide belli etkiler uyandırır. Bu etki ile, bireyden topluma kadar herkeste var olan potansiyel değerler harekete geçirilir. Toplumsal yapının özlenilen şekilde oluşturulması ve işletilmesi, değerler sisteminin güncellenmesini ve işletilmesini gerektirir. Halk anlatıları bu açıdan toplumun ahlâkî eğitiminde başvurulacak en önemli kaynaklardan biridir. Tipler ise, anlatılar yoluyla örnek edilmesi gerekenle şerrinden kaçınılması gerekeni bir arada göstermeleri nedeniyle önemlidir.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**KAYNAKÇA**

BAYAT, Fuzuli 2003, Köroğlu, Şamandan Âşıka, Alptan Erene, Akçağ Yay., Ank.
BORATAV, Pertev, N 1984, Köroğlu Destanı, adam Yay., İst.
ÇOBANOĞLU, Özkul 1999, Halkbilimi Kuramları ve Araştırma Yöntemleri Tarihine Giriş, Akçağ Yay., Ank.
KAPLAN, Mehmet 1985,
ÖZKAN, İsa 1997, "Köroğlu Destanı'nda Kahraman ve Atının Doğuşu İle iLgili Motiflerin Tahlili", Türk Dili, sayı: 549, Eylül 1997, s. 223-233.
POSPELOV, Gennadiy .N. 1995, Edebiyat Bilimi, Evrensel Kültür Kitaplığı, İst.
REICHL, Karl2002, Türk Boylarının Destanları, TDK Yay., Ank.
TEHMASİB, M.H. 2005, Azerbaycan Dastanları, c. 4, "Koroğlu Dastanı", Çıraq neşriyatı, Bakı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# TÜRK EPIK ƏNƏNƏSINDƏ DINI DASTANLARIN YERI: "BATTAL QAZİ" DASTANI

***MEHMET TURMUŞ***

Türk dastançılıq ənənəsinin çox qədim tarixi kökləri və folklor qaynaqları vardır. Türk dastanlarının əsas səciyyəvi cəhətlərindən biri onların gerçəkliklə xəyalın, miflə reallığın, həqiqətlə sənətin qovuşuğunda olmasıdır. Bura o da əlavə olunmalıdır ki, türklərdə uzun müddət şifahi tarix rolunda dastanlar çıxış etmiş və əsrlərlə bu vəzifəni yerinə yetirmişdir.

Türk dastanlarının ilkin nümunələri özündə kiçik xalq hekayələrinin hələ tamamən bitkinləşməmiş nümunələrini əks etdirən "əski dastanlar"dır. Bunlara "dastan süjetləri" və ya "əski türk dastanları" da deyilməkdədir. Bu kateqoriyaya aid olan "Törəyiş", "Boz qurd", "Köç", "Şu", "Alp Ər Tonqa", "Mete Kağan" və s. kimi epik mətn silsiləsi türk dastançılıq ənənəsinin ilkin örnəklərini təşkil etməkdədir. Qeyd olunan dövriyyəyə aid olan mətnlərin əsas ideyası yaradılış, köç və xilaskarlıq kimi mifoloji təsəvvürlər üzərində qurulur. Bu mətnlərin adı da, əlbəttə ki, dastan olaraq keçməməkdədir. Dastan adlı mətnlərlə onun altında ifadə olunan dastan anlayışının uzlaşması sonrakı dönəmlərə aid məsələdir.

Orta çağ oğuz türkləri  epik yaradıcılıqlarının bu sahəsini "boy" termini ilə ifadə etməyə başladılar. Bu dönəmin ən mükəmməl epik yadigarı "Kitabi-Dədə Qorqud" abidəsidir.

İslam dönəmində mədəniyyətlərarası inteqrasiya sürətləndiyindən xalq yaradıcılığı sahəsində əlaqələr və qarşılıqlı təsirlər çoxalmış oldu. Belə ki, fars mənşəli termin olan "dastan" janrı öncə yazılı ədəbiyyatda, daha sonra isə şifahi xalq yaradıcılığında istifadə olunmağa başladı. Türk ədəbiyyatşünaslığında "dastan" termini birdən çox şeir şəkli və janrı üçün istifadə olunan bir anlayış kimi izah edilir. Xalq yaradıcılığındakı "dastan"  da şeirlə verilən uzun xalq hekayələri kimi anlaşıla bilər. Amma, məsələ burasındadır ki, folklorda dastan, tamamən şeirlə, tamamən nəsrlə və ya qarışıq (növbəli) şəkildə ola bilir.

Məlum olduğu kimi dastanlarımızın təsnifatı məsələsində də müxtəlif fikirlər olmuşdur. Bu barədə Azərbaycan xalq dastanlarının tədqiqi ilə uzun müddət məşğul olmuş professor M.H.Təhmasibin apardığı təsnifatı əhatəliyi ilə seçilir (7, 112

İslami türk dastanları haqqında Azərbaycan eposşünaslığında çox az məlumata rast gəlmək olar. Məmməd Hüseyn Təhmasib bu təsnifatında dini dastanlar adlı kateqoriya göstərməsə də, onun "Dastanlarımızın bir növü haqqında" məqaləsi (8) bu mövzuda Azərbaycanda ilk araşdırmalardan sayıla bilər.

Bu məqalədə əsas tədqiqat obyekti seçdiyimiz "Battal qazi" dastanı M.H.Təhmasibin təsnifatda tarixi şəxsiyyətlərlə bağlı yaranan dastanlar qrupuna da aid oluna bilər. Cünki bu dastan real tarixi hadisələrlə  – Bizans-Ərəb müharibələri ilə səsləşir və onun qəhrəmanının real tarixi prototipi vardır. Dastanda ümumən xalqın həyatında mühüm əhəmiyyət kəsb edən məsələlər yer alır. M.H.Təhmasib "Azərbaycan xalq dastanları (orta əsrlər)" adlı monoqrafiyasında qəhrəmanlıq dastanlarını məhəbbət dastanları ilə müqayisə edərkən onların ümumxalq, siyasi-sosial məzmunlu olmasını xüsusi vurğulamışdır:

"Məhəbbət dastanlarının qəhrəmanlıq dastanlarından fərqli bir sıra xüsusiyyətləri vardır ki, ən əsasları aşağıdakılardır:

1. Adlarından da göründüyü kimi, bizim qəhrəmanlıq dastanları əsasən, bahadırlıq, alplıq, qəhrəmanlıqdan, məhəbbət dastanlarımız isə sevgidən, məhəbbətdən danışır, bunları təsvir və tərənnüm edir.

2. Qəhrəmanlıq dastanları daha çox ümumxalq mənafeyi uğrunda aparılan mübarizələrdən bəhs edir, ayrı-ayrı şəxsiyyətlərin, dəstələrin, qrupların, kütlələrin basqınçı, işğalçı qüvvələrə, yaxud daxili zülmə, istismara qarşı fədakar mübai

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

edirlər. Məhəbbət dastanları isə belə iqtisadi, siyasi məsələlərdən daha çox, azad sevgi məsələsi qoyur, iki gəncin, iki butanın bir-birinə matmasına mane olan qara qüvvələrə qarşı mübarizədən danışır.

3. Elə buna görə də mübarizələrin özü də bir-birindən fərqlənir. Burada nəinki məna, məzmun, məqsəd, hətta vasitələr, silahlar belə başqa-başqadır (7, 177).

M.H.Təhmasib dini məzmunlu dastanlara ayrıca yer verməsə də, son zamanlar Azərbaycan alimi Füzuli Bayatın Türkiyədə capdan cıxmış "Oğuz dastan dünyası" adlı kitabında biz bu məsələyə toxunulduğunu görə bilirik (1, 177-188).

Keçmiş Sovet türk respublikalarında da dastanların bölgüsü ilə bağlı aparılmış bəzi tədqiqatlarda da orujinal baxış ifadə olunsa da dini-epik dastanlar yer almır.

Dastan təsnifatı ilə bağlı Türkiyədə daha geniş araşdırmalar mövcuddur. Həm də burada dastan mətnlərinin daha geniş şəbəkəsi tədqiqata cəlb olunur. Belə ki, həm zaman baxımından, həm də məkan baxımından bu genişliyin miqyası bütün türk dünyasını əhatə etməkdədir.

Türkiyə ədəbiyyatşünaslığında və folklorşünaslığında, məlum olduğu kimi, türk dastanları "tarixi-qövmi" prinsirə əsaslanaraq, iki böyük qismə bölünür: İslamiyyətdən əvvəlki dastanlar və İslamiyyətdən sonrakı dastanlar. Bu təsnifat Mehmet Fuat Köprülü, Faruk Kadri Timurtaş, Pertev Naili Boratav, Şükrü Elçin, Necati Sebetçioğlu kimi böyük alimlərin əsərlərində yer almışdır. P.N.Boratav "Battal Qazi"ni "Danişməndnamə" ilə birlikdə "İslamiyyətdən sonrakı əsərlər" içərisində ayrıca "Anadolunu istila dastanları" kimi qeyd etmişdir. F.K.Timurtaşın bölgüsündə isə "Kitabi-Dədə Qorqud" və "Koroğlu" kimi qəhrəmanlıq dastanları İslamiyyətdən öncəki, "Battal Qazi" və "Danişmənd Qazi" dastanları isə İslamiyyətdən sonrakı dastanlar sırasında göstərilmişdir (3, 223-225). Doğan Kaya "Battalnamələr"i dini-təsəvvüfi türk xalq ədəbiyyatı içində "Dini-dastani mətnlər" kimi klassifikasiya edib, bu sıraya aşağıdakı "kitablaşmış" dastanları daxil etmişdir:

1. Battalnamə;
2. Danişməndnamə;
3. Əbu-Müslimnamə;
4. Həmzənamə;
5. Həzrəti Əli "Cəngnamə"ləri;
6. İbrahim Ədhəm hekayəsi;
7. Müseyyib Qazi;
8. Saltuknamə;
9. Kəsikbaş hekayəsi;
10. Mənaqibül-Qüdsiyyə;
11. Mənaqibnamələr (Mənaqibi-Hacı Bektaş Vəli, Mənaqibi-Kayğusuz Baba, Mənaqibül-Arifin, Vilayətnameyi-Abdal Musa, Vilayətnameyi-Hacim Sultan, Vilayətnameyi-Otman Baba, Vilayətnameyi-Seyyid Əli Sultan, Vilayətnameyi-Sultan Şücaəddin) (3, 245).

Hələ vaxtilə Zəki Vəlidi yazırdı ki, «Battal Gazi ve Dânişmend Gazi destanları, Ebamüslim ile Hamza destanları kadar îslâmî'dirler. Bunlar, Oğuznâme ve Dede Korkut'la bir silsileye dâhil olmazlar» (9, 53).

Amma bütün təsnifatlar dastanın iki böyük və əsas tipini inkar etmir ki, bunlar aşağıdakılardır:

1. Qəhrəmanlıq dastanları.
2. Məhəbbət dastanları (Eşq dastanları).

Qəhrəmanlıq dastanları da iki yerə bölünür:

1. Alplıq dastanları.
2. Ərənlik dastanları.

Türk dastanlarının bu şəkildə bölgüsü nə qədər mübahis

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Battal Qazi"nin dini-epik məzmun daşıdığının birmənalı şəkildə qəbul olunduğunu sərgiləyir.

Qeyd etmək lazımdır ki, bu kateqoriyada göstərilən dastanların bir qismi, ələlxüsus "Battalnamə", "Danişməndnamə", "Əbu-Müslimnamə", "Həmzənamə", Həzrəti Əli "Cəngnamə"si və "Kəsikbaş" dastanı orta əsrlərdə Balkanlardan Orta Asiya və Volqaboyunadək türk dünyasında kifayət qədər yayğın olmuşdur.

"Həmzənamə" və ya "Qissət əl-Əmir Həmzə Pəhləvan" kimi tanınan dastanda, "Battal Qazi"dən fərqli olaraq, əsasən, ərəblərin İranla apardığı müharıbələrdən bəhs olunsa da, oxşar və ya eyni süjetlər, motivlər və obrazların yer aldığını görürük. Həm Battal, həm də Əmir Həmzə Pəhləvan peyğəmbər soyunu təmsil edir, hər ikisinin silahları mağarada tapılır, hər ikisi dərya ilə səfərə yollanır, hər ikisinə islam müqəddəsləri (xüsusən Xızır) kömək edir, hər ikisinin atının adı Əşqər-Divzaddır, hər ikisi şəhzadə qızlarla evlənmişlər və s.

Eyni tipli oxşarlıqları biz "Danişməndnamə", "Müseyyibnamə", "Həzrət Əli dastanı" və "Saltuknamə"də də tapa bilərik. Bu hal onların eyni ədəbi və folklor mühitlərində ərsəyə gəldiyinə dəlalət edir. Adı cəkilən dini dastanların orta əsrlərdə islam xalqları arasında yayğın olması türk, ərəb və İran xalqlarının qarşılıqlı folklor əlaqələrinin genişlənməsinə şərait yaratmışdır. Əksəri ərəb kitab eposundan qaynaqlanan bu dastanlar, XI-XVI əsrlərdə oğuz türkləri arasında populyarlıq qazanarkən, əsasən şifahi funksional olan türk eposunun böyük təsirinə məruz qalmışlar.

Bu dastanlar ortaya çıxması, din (islam) qəhrəmanlarının şücaətləri haqqında xalq arasında dolaşan hekayələrin yazıya alınmaqla folklorla paralel olaraq, "kitab" ənənəsində də gələcəyə ötürülməsini təmin etmişdir.

Haqqında bəhs etdiyimiz kitab dastanlardan Əmir Həmzə Pəhləvanın Azərbaycan daha çox yaygın olduğunu qeyd etməliyik. "Deyilənlərə görə, bu nağıl onuncu Hicri əsrində Əkbərşah tərəfindən toplanmışdır. Elə buna görə də istər məzmun, istərsə də yazı üslubu baxımından öz orijinallığını saxlaya bilməmişdir. Başqa-başqa xalqların terminləri əsərə daxil edilmiş, onu dəyişmişdir. Elə həmin səbəbə görə də bəzən oxucunu yorur. Lakin bu, heç də bunun mütaliəsini azaltmır. Baxmayaraq ki, əsəri bərpa edərkən ona əl gəzdirilmişdir, lakin onun mifik çərçivəsini dəqiq nəzərdən keçirdikdə, əsərin türkdilli xalqlara aid olması açıq-aydın özünü göstərir. Əgər ilkin təfəkkürə əsasən Koroğlu Çənlibel dağında oturmaqla ruhla birləşirsə və öz əsli olan təbiətə qovuşursa, Həmzə də Azərbaycanda əfsanəvi Qaf dağına gedərək güc qazanır və bir rəvayətə görə on səkkiz il orada Əhrimən qüvvələri, yaxud divlərlə vuruşur. O, Koroğlu kimi dağdan yuxarı qalxaraq çiçəklənmənin və özdəndoğuşun zirvəsinə çatır. Çünki dağa qayıtmaq, anaya və əslə qayıtmaq deməkdir. Müəllifin fikrincə, "Həmzənamə"də adı çəkilən İrəm bağı Qoşabulaqla bir olmasa da, cəsarətlə demək olar ki, mifoloji baxımdan Çənlibel və Qoşabulaq keyfiyyətlərinə malik olmuşdur.

Əgər Koroğlu Alı kişi vasitəsilə Çənlibelə aparılıb, tanrılar məkanında oturursa, Həmzənin də oğlu Qaf dağında su pərilərinin südündən qidalanaraq böyüyür. O, yeddi yaşında ikən at sürməyi, döyüş paltarı geyib ox atmağı və divləri öldürməyi öyrənir. Ədədlərə (rəqəmlərə) pərəstişin mifoloji bölümündə izah edildiyi kimi, yeddi rəqəmi, Həmzənin oğlunun həddi-buluğa çatıb, formalaşmasının göstəricisidir. Bu isə ilkin təfəkkürə əsasən, fürsət və təyinedici deməkdir.

Bunlardan başqa, "Məzdəkin hakim Əmirəlmöminin Həmzəni kor etməsi" adlı əlli yeddinci dastanında, Həmzə Koroğlunun atası Alı kişi kimi kor edilir, lakin Həsənpaşa əlilə deyil, Məzdək adlı bir hakimin əlilə görməkdən məhrum olur. "Koroğlu" mifində Alı kişi kor ediləndən sonra mübarizəni davam etdirdiyi kimi, Həmzə də kor edildikdən sonra kafirlərə qarşı vuruşur.

Həmzə, Xacə Xızırın yardımı ilə görmə qabiliyyətini bərpa edən bir yarpaq əldə edir. Bu dastanda Həmzə Əlburz dağının kənarından mifo

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

müqəddəs sayılan və dünyanın mərkəzi hesab olunan Savalana doğru hərəkətə başlayır. O, Ərdəbildə ikən Ənuşiravana qarşı döyüşür. İran əsatirinə əsasən, Zal, cəmiyyətdən və öz ailəsindən qovulduqdan sonra Simurğ onu qəbul edir və dağda natiqlik və elmlə məşğul olur (2, 232-233).

Prof. M.F.Köprülüzadənin yazdığı kimi "...tamamilə milli bir mahiyyətə hayiz olan qəhrəmanlar, islamiyyətdən sonra təbii əski şəkildə qala bilməzdi, binaiəleyh qəhrəman xatirəsi türklərin hafizəsində yaşayan xorasanlı Əbu Müslim cəngləri, Həzrəti Həmzənin qəhrəmanlıq mənqəbələri, sonra Koroğlu və Şah İsmayıl kimi mövzular xalq arasında yaşanmaya başladı" (6, 86-87).

"Dədə Qorqud" boyları nə qədər əski yaradıcılıq nümunəsi olsa da, orada alplıq və ərənlik tiplərinin qovuşduğu müşahidə olunmaqdadır. Görünür, mətnlər məhz islama keçid dövründə yazıya alınmış və beləcə özündə din mücadiləsi verən türk qəhrəmanlığı ünsürlərini də əhatə etmişdir. Burada iki böyük dönəm-islam öncəsi və islamın ilk dönəmi öz ifadəsini bu və ya başqa şəkildə tapır.

Oğuz türklərinin bir neçə dövlət qurub ayrıldıqları dönəmlərdə onların siyasi coğrafiyalarında baş verən gerçəklikləri əks etdirən bir qrup dastanlar da yarandı. Türkiyə sahəsi üçün belə bir dastan "Battal Qazi" dastanıdır. Azərbaycanda daha çox "Koroğlu", Türkiyədə isə mərkəzi mövqeyə məhz "Battal Qazi" dastanı çıxmış oldu.

Həm "Battal Qazi" dastanı, həm "Kitabi-Dədə Qorqud" dastanı inkişaf etmiş, möhkəm dövlətçilik ənənələrinə sahib oğuz-müsəlman cəmiyyətini, daha doğrusu dövlətini tərənnüm edir. Dastandakı bu bu dövlətdə hər şey öz yerindədir. Kitabda qorunan mətnlər sivil bir cəmiəti işarələyir. "Kitabi-Dədə Qorqud"da görürük ki, oğuzlar heç kimə təcavüz etmir, yalnız təcavüzə məruz qalanda savaş başlanır və düşmən darmadağan edilir. Həm "Battal Qazi", həm "Kitabi-Dədə Qorqud" dastanında təsvir olunan Oğuz-müsəlman cəmiyyətində Tanrı nizamına uyğun olaraq yüksək səviyyəli haqq ədaləti hökm sürür; haqq ədaləti pozan isə layiq olduğu cəzanı alır. Burada dövlətçilik mədəniyyəti, əxlaqı, sədaqəti və başqa davranış qaydaları çağdaş cəmiyyət üçün çox gözəl örnəkdir. "Kitabi-Dədə Qorqud"da Qazan xanın əmiri-axuru Qaraca Çoban dövləti əsas ərzaq ehtiyatını təşkil edən qoyun-quzunu düşməndən mərdliklə qoruyur, döyüşdə qardaşlarını itirir, dövlətçiliyə sədaqətini itirmir. "Battal Qazi"də də sadə müsəlmanlar Qeysərin atəşinə atılsalar da, öz dinlərindən və dövlətə sədaqətlərindən əl çəkmirlər.

Söylənənələrə görə, Battal Qazi 680-740-cı illər arasında yaşamış, Malatyada doğulmuş, Seyyidqazidə vəfat etmiş və üçlər təpəsində dfən olunmuşdur. Sonra məzarını Əlaəddin Keyqubadın anası Ümmühan Sultan tapmış və türbə tikdirmişdir. Türbə zamanla ziyarətgaha çevrilmişdir. Battal Qazinin XI, XII və XIII əsrlərdə yaşadığını təxmin edənlər də vardır.

Battal Qazi gerçək olduğu qədər də əfsanəvi bir xalq qəhrəmanıdır. Məzarı səkkiz metrədir. Söylənənlərə görə, boyu 2 metrə 40 sm. Olmuşdur. Onun fiziki və mənəvi şücaətləri, qəhrəmanlıqları xalqın dilində əfasənləşmiş, ona şeirlər qoşulmuş, romanlar yazılmışdır. Həyatı haqqında bir neçə film çəkilmişdir. Ona dastanlar söylənmiş, qəhramanlıqları 1888-ci ildə Kazanda kitab şəklində nəşr edilmişdir.

Sosioloqlar üçün Battal Qazi bir modern örnək, şəxsiyyət, müdrik, cəsur, səxavətli, güclü və s. keyfiyyətləri özündə birləşdirən tam bir türk xalq qəhrəmanıdır. Bu dastanın əsasında Əməvilərin Bizansa etdikləri yürüşün və Əməvi ordusuna mənsub olan Battal adlı bir qəhrəmanın olması dastanın türk dastanı olmasına mane olmur. Çünki bu dastan Osmanlı coğrafiyasında uzun illər dillərdən dillərə, nəsillərdən nəsillərə ötürülərək yaşadılmışdır.

Battal ərəbcə "qəhrəman" deməkdir. Dastanda adlar ərəbcədir. Amma bu dastanın bir türk dastanı olmadığı anlamışna gəlməz. Dastan bütün məzmunu, ideyası və ruhu etibarilə bir türk dastanıdır. Dastanda əsas ideya İslamı yaymaqdır. Buradan da aydın olur ki, dastan türklərin islamı qəbul etdikləri və başqa xalqalara da yaydıqları dönəmlərin gerçəkliklərini əks etdirməkdədir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Görkəmli alim Fuat Köprülü Battal Qazi dastanını türk ədəbiyyatı tarixində Anadolu türk dastanlarının ilk nümunəsi kimi səciyyələndirmişdir.

Türklərin islamı qəbul etməsindən sonra qısa bir zaman içində bu dastan oxşar dastanları gölgədə qoyaraq insanların könül dünyasına daxil olmuş və sonsuz bir sevgi ilə sevilmişdir. Uzun qış gecələrində səhər qədər insanlar bu dastanı söyləyərək yaşamışlar. Uşaqlarını bu dastanın ruhu ilə böyüdmüşlər. Hətta fəthlərin azaldığı dövrlərdə türk ordusu Battal Qazinin türbəsinə gələrək duasını alaraq savaşlara çıxmışdır. Bu dualarla alınan ruhi-mənəvi enerji ilə bir çox qələbələr qazanılmışdır.

Osmanlılar dönəmində “Battal Qazi” dastanı Anadolu insanları arsında çox geniş bir şəkildə yayılmışdır. Hətta əsarət altında olan Orta Asya xalqları arasında belə bu dastan populyarlıq qazanıb. Dastan insanları ruhlandırmış, doğruluğa, təmizliyə aparmış, milli hisslərin qabarıq şəkildə coşmasına səbəb olmuşdur. Vaxtilə Anadoluda kəndin hər evinin divarında “Battal Qazi” dastanının asılı olması bu dastanın xalq tərəfindən nə qədər mənimsənildiyinin göstəricisidir.

Həsən Köksal “Battal Qazi” dastanının formalaşdığı və yayıldığı çevrəni belə ümumiləşdirir: “Her destan, çekirdeğini meydana getiren tarihi olaylar zincirinin teşekkülünden en az 500 yıl sonra ortaya çıkar. Malatya Emiri Ömer’in ölümüne kadar (863) süren, Malatya Emirliğinin en parlak devirlerine ait Arap-Bizans çatışmalarının akisleri, Battal Gazi destanınındaki tarihi olayların en önemlilerini temsil etmektedir. Destanın coğrafyası; Malatya merkez olmak üzere, Amasya, Kayseri, Ankara, İstanbul, Fırat Boyları, Tarsus, İskenderun, Suriye, Kıbrıs və tam mevkileri üzerinde kesin bir tayine varamadığımız birçok yer adlarını içine alan yakın doğudur. Destanın son kısmına doğru, Çin, Maçin, Kaf Dağ və masal alemini dolduran harkülade yerler büyük bir epizodu meydana getirmektedir.” (4, 12).

Lakin Anadolu türkləri arasında Battal obrazının böyük populyarlığına baxmayaraq, “Battal Qazi” dastanı kitab eposu nümunəsidir və onda yazılı ədəbiyyat ənənələrinin təsiri aşkardır. “Battal Qazi” dastanı “Kitabi-Dədə Qorqud” və “Koroğlu” kimi qəhrəmanlaq eposlarından fərqli olaraq, ozan, aşıq kimi xalq nəğməkarları tərəfindən yaradılmamışdır (və ya ifa edilməmişdir). Əl-Battal haqqında ərəb “sirə”lərindən qaynaqlanan və XII-XIII əsrlərdə Anadolu türkləri arasında yenidən populyarlaşan rəvayətləri dini savadlı ravilər və ya katiblər “kitab” halına salmışlar.

**ƏDƏBİYYAT**


1. Bayat F. Oğuz destan dünyası. Ankara: Ötüken, 2006, 328 s.
2. Həqqi B. “Koroğlu” – tarixi-mifoloji gerçəklik. Bakı, Nurlan, 2003, səh. 232-233
3. Kaya D. Ansiklopedik Türk halk edebiyatı terimleri sözlüğü. Ankara: Akçağ, 2007, 822 s.
4. Köksal H. Battalnamelerde Tip ve Motif Yapısı. Ankara: Milli Folklor Araştırma dairesi yayınları, 1994.
5. Köksal H. Battal Gazi Destanı. Ankara: Akçağ, 2003.
6. Köprülü M.F. Edebiyat Araştırmaları. İstanbul.
7. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972.
8. Təhmasib M.H. Dastanlarımızın bir növü haqqında / Azərbaycan şifahi xalq ədəbiyyatəna dair tədqiqlər, IV kitab. Bakı: Elm, 1973.
9. Toğan Z.V. Türk Destanının Tasnifi / Atsız Mecmua, N: I (3), 1931.


Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# SƏNƏT SAHƏLƏRİNİN DASTAN İFAÇILIĞINDAKI SİNKRETİZMİNƏ KULTUROLOJİ BIR BAXIŞ

***MÜBARIZ SÜLEYMANLI***

Türk millətinin ruhunda, qəlbində, mənəvi aləmində, dünyagörüşündə özünə möhkəm yer tutmuş sinkretik mahiyyətli aşıq sənəti əsrlər boyu saz-söz sənətinə yeni-yeni musiqi əlvanlığı və poetik boyalar qazandırmışdır. Əvəzsiz xidmətləri ilə adları hörmətlə anılan, isimləri mədəniyyət tariximizə qızıl hərflərlə həkk olunmuş ustad aşıqlarımızın bu xəzinəyə bəxş etdikləri sənət inciləri neçə-neçə araşdırmaçının diqqətini özünə cəlb etmişdir. Çünki həm yaranma tarixinə, həm də bədii əhatə dairəsinə görə monolit incəsənət toplusu olan aşıq sənəti milli-mədəni irsimizin ən canlı və emosional nümunəsidir.

Sinkretik bir yaradıcılığın daşıyıcısı olan aşığın fəaliyyətində türk milli folklorunun bütün nümunələri cəmləşmişdir. Bu özünəməxsusluq ondan irəli gəlir ki, aşıq yaradıcılığında qədim sənətin bir sıra xarakter xüsusiyyətləri bu və ya digər dərəcədə mühafizə olunmuşdur.

Əslində bu sənətə xas olan sinkretizm müxtəlif sənət növlərinin bir sənətdə çarpazlaşması, birləşməsidir. Burada şairlik, xanəndəlik, bəstəkarlıq, rəqs, aktyorluq və s. üzvi surətdə birləşir ki, bu cəhət yalnız klassik aşıq sənətində deyil, onun indiki inkişaf mərhələsində də özünü göstərməkdədir. Bu onu göstərir ki, aşıq sənəti öz köklərini çox qədim zamanlardan, ibtidai icma dövründən götürmüş və sonralar müəyyən inkişaf mərhələləri keçirmişdir (4, s. 173-174).

Sinkretik sənət sahəsi olan aşıq yaradıcılığında dastançılıq öz funksionallığı baxımından xüsusi yer tutur. Mövzu-mətn, süjet və motivlərin vahid milli-etnik düşüncə çevrəsində təqdimatı, peşəkar ifaçılıq baxımından hazır hala gətirilməsi üçün dastan böyük inkişaf yolu keçmiş, bəlkə də bütün aşıq yaradıcılığının ifadə keyfiyyətləri bir janrda formalaşmışdır.

Özündə bir neçə sahəni birləşdirən bu qədim sənət janrlarının yaradıcısı və ifaçısı olan aşıq şifahi xalq ədəbiyyatını dərindən bilən şairdir, instrumental ifaçıdır, aşıq havaları bəstələyən yaradıcı sənətkardır, gözəl səslə yerli dialektdə oxuyan sənətkardır, milli rəqslərə xas hərəkətlərlə öz ifası zamanı rəqs edən icraçıdır (10, s. 295-299).

Aşıq sənəti poeziyanın inkişafına və bu sahədə bir sıra janrların yaranmasına böyük təsir göstərmişdir. Qoşmaların, təcnislərin, divanların, qıfılbəndin, dodaqdəyməzin və başqa şer formalarının yaranmasında və inkişaf etməsində aşıq poeziyasının rolu çox böyük olmuşdur. Aşıq yaradıcılığı şifahi ədəbiyyatda geniş yayılmış xalq dastanlarının yaranmasında və şifahi şəkildə nəsldən-nəslə ötürülərək itib aradan getməməsində, onların gənc nəslə çatdırılmasında, qorunmasında böyük, həlledici rol oynamışdır. Aşıq yaradıcılığının sayəsində qədim dövrlərdən dövrümüzə qədər onlarla dastan, klassik aşıq havası və müasir dövrün tələblərinə uyğun çoxsaylı aşıq havası yaranmışdır. Aşıq yaradıcılığının sayəsində milli musiqi sənətində bir sıra yeni musiqi janrları yaranmışdır. Aşıq yaradıcılığı teatrallıq baxımından əhəmiyyətli sayılan ən mühüm ünsürləri yaşadaraq müasir teatr sənətinin təşəkkülü və inkişafına təkan vermişdir.

Dastan mətninin dramaturji imkanlarına və bunun əməli təzahürü olan dastan məclislərindəki söyləmələrə diqqət yetirdikdə məlum olur ki, iş, hərəkət, hadisə dramda olduğu kimi, aşıq məclisləri üçün əsas materialdır. Ona görə də söz də, fikir də, hisslər də burada işgüzar olmalı, müəyyən məqsədə yönəldilməli, nəticə etibarı ilə dastandakı hadisələri, xarakterləri şərh etməli, onların dialektik inkişafına təkan verməlidir. Sadalanan bu cəhətlərin hamısı isə xalq oyun və dramlarında olduğu kimi dastanların da canı-cövhəridir.

Fikrimizcə, əgər əvvəllər dastan söyləmələri saatlarla, günlərlə davam edirsə, müasir dünyanın sürətli dinamikası şəraitində aşıq iki-üç saatın ərzində tamaşaçıya tamam və bitkin bir həyat parçası göstərilməlidir. Buna görə də müasir aşıqlar dastan mətninin dramaturji imkanlarını götür-qoy etməli, vaxta qənaət etmək üçün hadisələrin və xarakterlərin ən əhəmiyyətlisini, ən vaciblərini seçməli, onları bir fikir, bir ana xətt ətrafında toplamalıdırlar. Ona görə ki, mətndə dramatik hərəkətin düzgün təşkili və məqsədə doğru istiqamətləndirilməsi kompozisiyanın yaranmasında fəal iştirak edir. Dastan mətnində b

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yalnız dinamik hərəkət vasitəsilə məna kəsb edə bilər. Hərəkət zamanın, şəxsiyyətin əqidəsinə, həyat idealının tələblərinə doğru ardıcıl bir irəliləyişdir. Hərəkət qəhrəmanların arzu və istəkləri, xeyirlə şərin mövqeyi, ideal uğrunda gedən mübarizə prosesidir. Deməli, teatral hərəkət dastan məclislərinin canıdır və belə bir hərəkətin zaman-məkan anlayışı, xarakter və məna çaları müxtəlifdir. Dramatik hadisələrlə zəngin olan dastanlarımızda iş və hərəkətin bilavasitə göz qabağında olmadığı epizodlarda belə güclü dramatizm hiss edilir.

Dastan mətnləri dram və tamaşa üçün ən vacib element-komponentlərdən olan ziddiyyət, mübarizə, konflikt baxımından bitkin və dolğundur. Burada hadisələrin hərəkətverici qüvvəsi olan ziddiyyət (latınca konflikt) dramaturji toqquşmanı nəzərdə tutur. Bir-birinə əks olan fəaliyyət, əməl, istək, ideya və mənafenin toqquşması dramaturji hadisələri əsərin ali məqsədinə tabe etdirir. Dramaturji ziddiyyət qarşıdurmanın bədii inikasının forması kimi ayrı-ayrı sosial və sinfi qrupların mübarizə prosesini və qəhrəmanların etik-əxlaqi mövqeyini əks etdirir.

Aşıq dastanlarında teatrallıq üçün əsas şərtlərdən olan ritm və dramatizm özünü qabarıqlığı ilə büruzə verir. Bu elementi ona görə dəyərləndiririk ki, teatrallıq, oyun – hərəkət etmək, oynamaq, tamaşa göstərmək mənalarını ifadə edir. Bu o deməkdir ki, dramaturji mətndə hərəkət hadisələrin inkişaf prosesində nəzərə çarpır, dinamika ifadə edir, hərəkət hadisələrin mahiyyəti və əsasıdır, canlı və dinamik prosesdir. Bu da özü ilə birlikdə xarakterlərlə əlaqələnir. Dramatik mətndə müəyyən işarələr və simvollar da fikrin izahedicisi, ifadəçisi və obrazlı təcəssümü kimi səciyyələnir.

Bu təkzibolunmaz bir faktdır ki, dastan söyləmələrində özünü qabarıqlığı ilə büruzə verən hərəkət, dramın spesifik forması və daxili hərəkətverici qüvvəsidir. Həmin hərəkət dastanın bütün tərkib hissələrini öz ətrafında birləşdirir, müəyyən məqsədli ritmə və dinamikaya tabe edir, konkret idealın tərənnümünə şərait yaradır. Bu zaman hərəkət özü həyat prosesinə çevrilir. Konkret olaraq dastan mətnindən söhbət getdiyinə görə, burada həm xalqın mənəviyyatı, varlığı, hissi, düşüncəsi, həm də ictimai mühit, həyat fəlsəfəsi, insanların əqidəsi, mənəvi ləyaqəti, etik və sosial münasibətləri öz əksini tapır. Əgər dastan mətnləri bu keyfiyyətlərdən məhrum vəziyyətdə məclisə gətirilmiş olsaydı, təbii ki, teatral hərəkətdən imtina etməklə özünün daxili bütövlüyünü, onun vəhdətini, qanunauyğunluğunu pozmuş olardı, sənətlə həyatın qarşılıqlı rabitəsini aradan götürərdi.

Dramaturji əsərdə o şey hərəkət hesab edilir ki, o bilavasitə meydanda, göz qabağında baş vermiş olsun, burada şahid olduğumuz hadisələrə qədər baş verən hərəkətlər isə – bütün bunlar, həmin hərəkətləri anlamağa imkan yaradan və onları əvəz etməyə qadir olmayan informasiyalardır. Nəinki dastan mətnini, ümumiyyətlə, istənilən materialı dramaturji prinsiplərə uyğunlaşdırarkən, mətni başdan-başa informasiya üzərində qurmaq, əsərdəki hərəkət xəttini və onun tamaşaçıya emosional təsir gücünü xeyli zəiflədir. Ona görə də dastanın əsas süjet xəttinə – ana xəttə sadiq qalmaq, xırda, əhəmiyyətsiz informasiyalardan qaçaraq "magistral" hərəkət xəttinə mühüm diqqət yetirmək tələb edilir (13, s. 14-15).

Dastan mətnləri üçün də hələ qədim yunan dramaturji modelindən məlum olan kompozisiya – ekspozisiya, düyün, inkişaf, zirvə, açılış və final problemi də səciyyəvidir. Ta qədimdən üzü bəri, aşıq əvvəlcə danışacağı dastanın ümumi ruhuna müvafiq saz çalır və mahnı oxuyurdu. O, dastana başlayanda isə bir neçə obrazın adından danışır, onların psixoloji sarsıntılarını, sevinc və kədərini təsvir edirdi. Lakin bu təsvir adi seyrçilik xarakteri daşımırdı. Aşıq mahir bir aktyor kimi tamaşaçıların psixologiyasını da nəzərə alırdı. Adətən, söhbəti dramatik bir nöqtədə saxlayıb fasilə verməklə tamaşaçılarda intizar yaradır, dramatizmi qüvvətləndirirdi. Aşıq hər bir söhbətində konkret məqsəd izləyir, mərdliyi, cəsurluğu, vətənpərvərlik və qəhrəmanlığı, pak məhəbbəti tərənnüm edir, xəyanətə, mənəvi eybəcərliyə nifrət hissi oyadırdı. "Aşıq xalqın ruhuna, qəlbinə və düşüncəsinə təsir etməyi bacaran orijinal və çoxcəhətli bir yaradıcı idi. O, Azərbaycan xalq tamaşalarının inkişafında da fəal iştirak etmişdir. ... O, danışdığı dastanın bütün obrazlarını ifa edərkən, bilavasitə obrazlara çevrilmir, obrazların başına gələni danışır, sözlə, sazla ümumi əhval-ruhiyyə yaradırdı. Lakin bu bədii ifadə ehtirasla, aşığın yaradıcı münasibətilə müşayiət edilirdi. Buna görə də əhali a

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

inanır və onu hörmətlə qarşılayırdı (2, s. 122). Məhz bu xüsusiyyətlərinə görədir ki, aşıq məclisləri ən izdihamlı, ən intizamlı keçən bir məclis idi. Burada ictimai etikadan kənar heç bir münasibət olmazdı. Aşıq dastan başladıqda sonra həm yumorla dolu, gülməli, kiçik bir nağıl başlayır, bir qədər danışdıqdan sonra süjetin maraqlı bir yerində onu dayandırıb yenidən dastanı davam etdirir. Hər iki süjeti belə məharətlə paralel şəkildə aparmaq mümkün olmadıqda kiçik, gülməli əhvalatlardan, hətta qaravəllilərdən də istifadə edirdilər.

Müasir teatr aktyorlarından fərqli olaraq, aşıqlar tamaşaçılar qarşısında özlərinin xarakterik geyimlərindən başqa heç bir geyim və qrimdən istifadə etməzdilər. Lakin, onlar hadisələrin emosionallığını artırmaq üçün jest və mimikalarını obrazın tələbinə tabe edirdilər. Tamaşaçılar isə vəcdə gəlib öz razılıqlarını bildirərkən "sağ ol", "sən yaşa, aşıq" deyirdilər. Bu isə aşıqlara nəinki mane olur, əksinə onları daha da ruhlandırırdı. Əksər tədqiqatçılar bu qənaətdədirlər ki, aşıqların fəaliyyəti tək aktyor teatrına bənzəyir, onun oxuduğu mahnı, danışdığı dastan çox zaman özününkü olurdu. Aşıq danışır, hər sözün, cümlənin, ümumi hadisənin məntiqi mənasını yaradıcı surətdə, obrazlı bir tərzdə canlandırır, tamaşaçıları valeh edirdi. Saza qulaq asan başqa xalqlar belə, onun zərif, ahəngdar, harmonik və ehtişamlı səsindəki dərin mənaya, dramatizmə heyran qalırdılar (2, s. 124-125).

Aşıq sənətindəki sinkretizmdən bəhs edən M.H.Təhmasib yazır ki, bu sənət həmişə sinkretik olmuş, indi də sinkretizmin bütün xüsusiyyətlərini özündə yaşatmaqdadır. Yəni hələ bu gün də aşıq həm şair, həm bəstəkar, həm dastançı, həm müğənni, həm çalan, həm oynayan, həm aktyor, həm də nağılçıdır. Başqa şəkildə deyilsə, o, həm şer, həm dastan, həm də musiqi havaları yaradan, yaratdıqlarını isə öz məlahətli səsi, məharətli barmaqları ilə ifa etməyi bacaran bir sənətkardır" (14, s. 27-28).

Bəzən aşıq yaradıcılığındakı sinkretizmi sənətin üç əsas sahəsinin – şeirin, musiqinin və rəqsin vəhdətində, daha doğrusu, hələlik ayrılmamış birgəliyində görürlər. Bu, əsasən düzgündürsə də, tam deyildir. Aşıq əgər yalnız bu üç sahəni özündə birləşdirən bir sənətkar olsaydı, misal üçün, onunla məharətli bir xanəndə, yaxud bir operetta aktyoru arasında heç bir fərq qalmazdı. Məlum olduğu üzrə, mahir xanəndələr də çox zaman həm çalır, həm də oxuyurlar. Eləcə də istedadlı aktyor çalmağı da, oxumağı da, oynamağı da bacarır. Bəzən hətta bu sənətkarlar öz çalıb oxuduqlarının müəllifi də olurlar. Lakin bütün bu nadir bacarıq və istedadlarına baxmayaraq, belə sənətkarlarla ustad aşıq arasında çox böyük fərq vardır (14, s. 45). M.H.Təhmasibə görə "aşığın sənəti daha geniş, daha əhatəlidir. O, həm şair, həm bəstəkar, həm müğənni, həm çalan, həm oynayan, həm aktyor, həm dastançı, həm aparıcı, həm də rejissordur. Aşığın oxumağı, hətta oynamağı da bacaran xanəndədən fərqi odur ki, xanəndə ancaq oxuduğu halda, aşıq oxuduğunu həm də bir aktyor kimi ifa edir. (...) Aktyordan fərqi budur ki, hər bir aktyor, hər hansı bir tamaşada ancaq bir rol ifa edirsə, aşıq danışdığı dastandakı bütün surətləri canlandırır, eyni zamanda həm əsərin nağılçısı, həm aparıcısı, həm də rejissoru olur (14, s. 45).

Aşıq sənətinin canı və cövhəri improvizədir. İmprovizə ifa edə-edə yaratmaq, yarada-yarada ifa etmək deməkdir. Az-çox qoşmaq, düzmək, yaratmaq qabiliyyətinə malik olan hər bir aşıq improvizatordur. Aydındır ki, zəiflərin improvizəsi elə oradaca da unudulur. Qüvvətli ustadların improvizəsi isə gözəl variantların, versiyaların, nəzirələrin, bəzən isə hətta eyni mövzuya həsr edilmiş yeni orijinal əsərlərin yaranmasına səbəb olur. İmprovizə deyişmə məclislərində daha aydın, daha qüvvətli və maraqlı olur ki, bu barədə əvvəlki fəsildə geniş bəhs etmişik.

Sinkretizm istər variantlılıq məsələlərində, istərsə də aşıq sənətinin digər ünsürlərində özünü həmişə göstərir. Təbii ki, bunlar içərisində hər zaman aydın hiss olunan teatrallıq xüsusi əhəmiyyət kəsb edir. Belə ki, dastan söylədikdə və bəy tərifi zamanı aşıq meydana girəndə xalq teatrının elementləri aydınca hiss olunur. Hər aşığın da bir cür təhkiyə üsulu və özünün toy aparma üslubu olur. Burada aşığın hazırcavablığı və improvizasiya qabiliyyəti də olmalıdır. Bir də görürsən aşıq zaman və məkan anlayışına öz "ilmə"lərini toxuyur. O, dastan qəhrəmanlarını bu günümüzə, lap elə olduğumuz məkana gətirir. Aşıq dastanı elə n

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bu saat hansısa gülüstanın kənarında iki sevgilini seyr edirsən. O, dastanları danışanda elə bil ki, buta onun özünə verilib. Sanki bu saat toyxanadan çıxıb gedəcək. Lakin ya balabançıyamı, ya da ki, mağarda ərki çatan bir kimsəyə etdiyi şirin zarafatla dastan dünyasından qopursan və özünü hiss edirsən. Hiss edirsən ki, sən XVII əsrdə Tokatda deyil, XXI əsrin Şamaxısındasan.

Aşıq dastanlarımız bədii fikrin inkişafının və ustad aşıqlarımızın yaradıcılıq axtarışlarının nəticəsi olub onların istedad və təcrübələrinə əsaslanır. Aşıq sənətində əhatəli, hərtərəfli bir janr hesab edilən dastan çox geniş mənalar ifadə edir. Burada aşıq hər hansı bir əhvalatı, və yaxud müəyyən bir rəvayəti nəql edir. Ustadnamə söyləyir, dastanda olan şerləri münasib havalar üstə ifa edir. Bu proseslərin mərkəzində əlbəttə ki, aşıq özü dayanır. Məhz aşıq, dastanda olan hadisələri tədricən inkişaf etdirib kulminasiya həddinə gətirib çatdırır. Nəhayət bu hadisələri dramatik vəziyyətdən çıxarıb öz yoluna qoyur.

Sinkretizmin ən mükəmməl nümunələrinə rast gəldiyimiz aşıq sənətinin məhsulu olan dastan – poeziya, nəsr və musiqini, nitq mədəniyyətini, bədii qiraət, vokal və instrumental ifaçılığı qanunauyğun bir formada birləşdirib, təbii surətdə ardıcıllaşdırır. Bu baxımdan dastan aşıq ifaçılığı sənətində ən mükəmməl və ən mürəkkəb bir formadır. Məhz aşıq dastanlarında poeziya, musiqi, nəsr, habelə ifaçılıq sənəti birləşir. Dastanlardakı hadisələr həm nəsrlə, həm nəzmlə, həm də musiqi ilə, o cümlədən də ifaçılıqla, yəni havaları sözə münasib çalıb-oxumaqla, həmçinin də mahir bir aktyor kimi emosional diksiya ilə ifa etməklə inkişaf edir. Aşıq yaradıcılığının bir qolu olan dastanlarımızdakı hadisələr dastan qəhrəmanının psixoloji vəziyyətini əks etdirir. Buradakı hadisələrin dramatik inkişafı məhz dastan qəhrəmanı ilə bağlıdır. Ona görə də hadisələrin mərkəzində dastan qəhrəmanı dayanır. Onun düşdüyü çıxılmaz ağır vəziyyətlər, keçirdiyi iztirablar, sarsıntılar hadisələri daha da dramatikləşdirir, daha da gərginləşdirir. Bütün bunlar dastanın həm nəsr hissəsində, həm də poeziya hissəsində, həmçinin də musiqi hissəsində öz əksini tapır. Beləliklə də dastanın ümumi dramatik inkişafına xidmət edir. Fikir dolğunluğu ilə zəngin olan dastanlar məzmunca dərin, mövzuca rəngarəngdir və bitkin sujetliyi ilə diqqəti daha çox cəlb edir. Burada xalqımızın gözəl adət-ənənələri, arzu-istəkləri, müqəddəs vətənimizin qanlı-qadalı keçmişi, ulu babalarımızın dərdli-ələmli günləri, güzəranları, əhval-ruhiyyələri təsvir olunur.

Dastan ifaçılığının mühüm xüsusiyyətlərindən biri də danışıqla jest, hərəkət, mimika arasındakı uyğunluqdur. Dastan ifaçılığındakı hərəkətin səciyyəvi xarakteri, obrazın daxili aləmi ilə bilavasitə əlaqəlidir. Ona görə də dastan ifaçılığında aşığın icra etdiyi hər bir hərəkət yerli-yerində, təbii və inandırıcı olmalı, obrazın daxili aləminin açılmasına xidmət etməlidir. Aşığın bir aktyor kimi hərəkət və davranışı dastan ifaçılığı zamanı musiqidən gəlmə ritmə, ahəngə münasib olması ilə də özünü göstərir. Bu xüsusiyyət aşığın musiqi duyumu ilə bağlıdır. Havaları çalıb ifa edən sənətkar musiqini necə duyub hiss edirsə ona münasib də təbii jestlərdən, mimiki nüanslardan istifadə edir. Bütün bunlar dastan ifaçılığı zamanı sazın müşayiəti ilə daha cilalı və təbii olur. Əgər aşıq dastanın əsas obrazının xarakterini, daxili aləmini hiss edib duya bilirsə, bununla belə çaldığı havanın ruhu ilə yaşamağı bacarırsa onda həmin sənətkarın hər bir hərəkəti, davranışı daha təbii, mənalı, məzmunlu, canlı və inandırıcı olur. Bütün bu məziyyətlər obrazın xarakterinin, əhval-ruhiyyəsinin açılmasına imkan yaratmış olur. Aşığın söylədiyi dastanda müəyyən bir hadisə ilə bağlı qəhrəmanın mübarizəsi, çıxılmaz vəziyyəti, dərdi, qəmi, kədəri, iztirabları, istəyi, diləyi, arzusu təsvir olunursa, deməli ustad sənətkar bütün imkanlardan, jestlərdən, mimikalardan, aktyorluq məharətindən bacarıqla, yerli-yerində istifadə etməlidir ki, özünün timsalında obrazın hisslərini, düşüncələrini, surətini, görkəmini və xarakterini yarada bilsin. Bütün bunlar dastan ifaçılığına məxsus xüsusiyyətlərdir (7, s. 117).

Müxtəlif səciyyəvi xüsusiyyətlərin dastan ifaçılığında öz funksiyası və əhəmiyyəti vardır. Bunlardan birinin yaxud da digərinin olmaması dastan ifaçılığına xələl gətirmiş olur. Bu cəhətlərin birgə fəaliyyəti aşıq sənətinin sinkretikliyi ilə əlaqədardır.

Aşıq sənətinin sinkretik təbiəti onun janr-forma, mətn-mühit münasibətində də özünü göstərir. Əgər şeirin bölgüləri yeni saz havalarının yaranmasına təsirli olursa, mətn-musiqi təsiri şeir şəkillərində yeni sistemləri formalaşdırır. Bu qarşılıqlı demokrat

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

sürətli inkişafı üçün geniş perspektivlər açmışdır. Şifahi xalq ədəbiyyatı, xüsusən aşıq poeziyası, səslə sazın, musiqi ilə poetik fikrin harmoniyasından yaranan özünəməxsus dil sistemidir. Aşıq yaradıcılığı və onun yaratdığı ifadə vasitəsi də folklorun tərkib hissəsi kimi öyrənilir (12, s. 240).

Aşıq sənətinin zənginliyi, təsirliliyi, koloriti canlı danışıq dilinə əsaslanmasındadır. Bu dil yüz illərdir ki, bədii gücünü xalqın məişət dilindəki zəngin söz fondundan alır. Bədii təsvir və ifadə vasitələrinin təbiiliyi və dəqiq işlədilməsi də bununla əlaqədardır. Başqa bir tərəfdən bu dilin saz pərdələri və saz köklərinə uyğunlaşdırılmasındadır. Məlumdur ki, canlı danışıq dilində bədiilik, gözəllik əsas ifadə vasitəsidir. İfadələri çeşidləmək, onu saz melodiyaları ahənginə sıralamaq, dinləyiciləri qulaq və melodik qafiyələr ilə sətirləmək aşıq poeziyasının ümdə şərtlərindəndir. Buna görədir ki, geniş fikrin konkret, təsirli şəkildə oxucu-dinləyicilərə çatdırılmasında, təsvir olunan lirik fikir və təsvir obyektinə, sözsüz, hüsn-rəğbət aşıq poeziyasında əsrlər boyu təravətini, bakirəliyini itirməmişdir (5, s. 175).

İfaçılıq – aşıq sənətinin ən mühüm komponentlərindən biridir. Saz, söz sənəti ifaçılıq vasitəsilə öz əzəmətini əyani göstərməklə, gücünü və qüdrətini xalq qarşısında daha qabarıq təcəssüm etdirir. İfaçılıq sənətini sinkretizm, vəhdət olmadan düşünmək qeyri-mümkündür. Hansı sənət olursa-olsun ifaçılıq varsa vəhdətin olması orada labüddür. Vəhdət olmayan yerdə ifaçılıq sənətindən söz açmağa dəyməz, ifaçılıq sənətində vəhdət olmasa aşıqlar öz bacarığını və istedadını doğru-dürüst göstərə bilməz. Çünki vəhdət prosesində saz sözə qovuşub, şeir musiqiyə çevrilir, bənd melodiyada, havacat misrada, ahəng də məna və məzmunda qaynayıb-qarışır. İfaçılığın mahiyyəti də bu zaman özünü büruzə verir. Vəhdət dedikdə, sazın sözə ruhən bağlı olması nəzərdə tutulur. Əgər saz sözə qaynayıb-qarışmayıbsa, şeir musiqiyə ruhən bağlı deyilsə, onu vəhdət kimi qəbul edə bilmərik. Sazın-sözün bir ahəngdə, bir mənada, bir əhval-ruhiyyədə qovuşub, biri-digərini tamamlaması aşıq ifaçılığı sənətinin mahiyyətidir.

Aşıq ifaçılığı zamanı iştirak edən vasitələrdən ən başlıcası saz, söz, və səsdir. Bu üç ünsürün qarşılıqlı bir halda, eyni məqamda qanuna müvafiq hərəkətə gətirilməsi, ünsiyyəti sayəsində aşıq ifaçılığı sənəti fəaliyyətə başlamış olur. Aşıq ifaçılığında olan vəhdətin bir xüsusiyyəti özünü səslə söz arasında tərənnüm edir. Aşıq havalarının hər hansı bir münasib şeirlə ifa olunması sözlə səsin, habelə səslə sözün vəhdətini yaradır. Tempindən və ruhundan asılı olmayaraq hər hansı aşıq havasının ifası zamanı səslə söz bir ahəngdə qovuşduğu üçün vahid bir proses kimi özünü göstərmiş olur. Bu vəhdət həmçinin sözlə səs arasında olan əlaqə deməkdir (9, s. 60-61).

Sazın səsi ilə aşığın səsinin ifa zamanı uyum saxlaması vəhdətin səciyyəvi xüsusiyyətidir. Saz havalarının instrumental şəkildə çalınması bu alətin səsini nümayiş etdirdiyi kimi, aşıq havalarının münasib bir söz ilə ifa olunması da aşığın özünəməxsus tembrə malik səsinin nəyə qadir olduğunu aşkara çıxarır. Aşıq havalarının çalına-çalına münasib bir sözlə birgə oxunması, sazın səsi ilə aşığın səsini bir-biri ilə qovuşdurur. Bu qovuşma anı saz səsi ilə aşığın səsi, habelə ifaçı sənətkarın səsi ilə saz səsi arasında yaranan tembr əlaqəsidir (9, s. 62).

Sözün melodiya, onun ritminə, ahənginə, ölçüsünə uyğunlaşdırılması, habelə musiqinin ritmik ölçülərinin şeirin formasına, misradakı hecaların sayına tabe edilməsi, sözün hava ilə, musiqinin poeziya ilə olan vəhdətinin səciyyəvi bir xüsusiyyətidir. Belə bir nəticəyə gəlirik ki, ifa zamanı o yerdə ki, saz aparıcı rol oynayır, onda söz melodiyaya tabe olur və bu zaman melodiyaya uyğun halda oxunur. Yəni söz bir növ musiqiləşir. O yerdə ki, söz aparıcı funksiya daşıyır bu məqamda melodiya sözün qəlibinə, formasına tabe olur. Beləliklə də, bir ifa prosesində söz musiqiyə, melodiya isə şeiriyyətə qaynayıb-qarışır, təbii olaraq bir-birini qanunauyğun şəkildə əvəz edir. Ustad aşıqlarımız ifa zamanı yalnız sazı və sözü ayrılıqda nümayiş etdirmir. Onlar həm də sazla sözün vəhdətini ifa prosesində seyirçilərinə göstərir.

Deməli, aşıq sənətinin subyekti olan aşıq da sinkretik funksiya daşıyır: xalq şeiri üslubunda şeir qoşur; saz musiqi havası üzərində mahnı ifa edir; ənənəvi aşıq musiqisini ifa edir; ifa zamanı rəqs edir; məclis idarə edir və s." (3, s. 14; 11, s. 9).

Bəs aşıq sənətində gözəl danışığın əsas mahiyyəti nədədir? Bu, fitri keyfiyyətdir, anadangəlmə istedaddır, yoxsa müəyyən sənətkarlıq, təcrübə

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

keyfiyyətdir? Bu mənada aşıq bir sıra qeyri-adi fitri keyfiyyətlərə malik olmalıdır. O, gur, ahəngdar və melodik səsi, bədəncə möhkəmliyi və sağlamlığı ilə fərqlənməlidir. Heç şübhəsiz, aşıqların fitri istedadının əhəmiyyətini inkar etmək olmaz. Lakin bununla yanaşı, yaxşı aşıq kimi yetişməkdən ötrü, hər şeydən əvvəl, yaxşı öyrənmək, işləmək və cəsarətli olmaq lazımdır. Lakin hər bir elm, həmçinin aşıqlıq qabiliyyəti sahəsində, hər şeydən əvvəl, əməyin çox böyük rolu vardır (6). Hər şeydən əvvəl, aşıqdan yaxşı diksiya (tələffüzün aydınlığı) tələb olunur. Aşıq ucadan danışmalıdır ki, onun səsi məclisin arxa sıralarına gedib çata bilsin. Lakin bu ucadan danışmaq qışqırığa çevrilməməlidir. Həmişə aydın səslə danışmaq lazımdır ki, hər bir söz, səs dinləyicilərə çata bilsin, burada, xüsusən cümlənin sonundakı sözün tələffüzünə diqqət edilməlidir. Aşıq nə qədər canlı, təsirli və qüvvətli danışsa, dinləyicilər ona bir o qədər maraq və inamla qulaq asar və danışdıqlarının düzgünlüyünə əmin olarlar.

Diksiya və templə yanaşı, intonasiya da danışığın ən mühüm cəhətlərindən biridir. İntonasiya – danışıqda sözün canıdır. İntonasiya mürəkkəb bir hadisədir. Buna səs tonunun alçaldılıb yüksəldilməsi, danışığın sürəti, tələffüzün qüvvətləndirilib zəifləndirilməsi, cümlə daxilində fasilənin olub-olmaması və s. daxildir. İntonasiyadan düzgün istifadə etmək, söylənilən mətnin mənasını yaxşı başa düşməyə kömək edir. Görkəmli aşıqların danışarkən və oxuyarkən intonasiyadan nə qədər böyük bacarıqla istifadə etdikləri bizə məlumdur. Onlar intonasiyadan düzgün istifadə edərək, dastanların məzmun və mənasını, eyni zamanda onları yaradarkən qəhrəmanların keçirdikləri hiss və həyəcanları məharətlə tamaşaçıların şüuruna çatdıra bilirlər.

Dastan söyləməsi zamanı aşıq dinləyicilərə yalnız öz çıxışındakı ekspressivliklə deyil, eyni zamanda müəyyən jest və mimikalar vasitəsi ilə də təsir göstərir. Bu jest və mimikaların təlimi şübhəsiz, daha çox teatral baxımdan öyrənilsə də, buna baxmayaraq aşıq bilməlidir ki: “jestin ifanı canlandırmasına baxmayaraq, ondan ehtiyatla istifadə etmək lazımdır. İfadəli jest danışıqda irəli sürülən fikirlərə, söylənilən cümlə və ya ayrı-ayrı sözlərə uyğun olmalıdır. Unudulmamalıdır ki, jest danışığın tonu ilə hərəkət edildikdə effektli ola bilər” (1, s. 107-108). Bu mənada dastan söyləmələrində bir sıra jestlərdən, yəni əl-qol hərəkətlərindən düzgün istifadə etmək bacarığı da müəyyən əhəmiyyətə malikdir. Eyni zamanda aşığın müvəffəqiyyət qazanması üçün yalnız onun səsi deyil, həm də xarici görünüşü, pozası, jesti və mimikası mühüm rol oynayır. Amma gərək jest və mimikalar da öz-özlüyündə, təbii şəkildə meydana çıxmalıdır. Jest və mimika aşığın təfəkkürü və hissləri ilə üzvi şəkildə bağlı olmalıdır. Allah tərəfindən bəxş edilən hündür boy, qədd-qamət, əzəmət – ümumiyyətlə xarici gözəllik, görkəm; gur, təsirli, yapışıqlı səs; möhkəm məntiq kimi keyfiyyətlərin heç birisini heç bir aşıq sonradan qazana bilməz, bunlar insana ancaq ilahinin mərhəməti ilə verilir – aşıqlıq üçün tələb olunan qalan şeylər isə insanın özündən, qazandığı təcrübədən, keçdiyi məktəbdən asılıdır.

Dastan ifaçılığını diksiyasız təsəvvür etmək qeyri mümkündür. Çünki diksiya olmasa aşıq ifaçılıq sənəti bir növ kəm-kəsirdə qalar. Aşıq ifaçılığı sənətində diksiyanın istifadə edildiyi əsas sahələr isə bunlardır: dastanların nəsr hissələrinin diksiya ilə söylənməsi; aşıq deyişmələrinin bəzi məqamlarında olan diksiya; saz havalarının adının diksiya ilə elan edilməsi; şerin diksiya ilə deyilməsi; diksiya ilə olan xeyir-dualar; diksiya ilə olan müraciətlər; diksiya ilə olan yekun sözlər.

Diksiyanın mahiyyəti aşıq ifaçılıq sənətində müəyyən bir sözün, kəlmənin anlaşılmazlığına son qoymaq, həm də dinləyicilərin ifaçı sənətkardan narazı qalmasının qarşısını almaqdır. Bir məclisdə dinləyicilər aşıqdan narazı qalırsa, demək bu sənətkarın ifaçılığında nə isə bir çatışmazlıq. Belə bir situasiyanın baş verməməsi üçün isə aşıq istedadından, qabiliyyətindən, söz ehtiyatından, ifaçılığından və təcrübəsindən bacarıqla və məharətlə istifadə etməklə ustadlığını sübut etməyə çalışır (6; 8, s. 830-831).

Aşıq sənətinin həm tarixiliyi, həm də müasirliyi onunla ölçülür ki, incəsənətin müxtəlif növləri aşıq yaradıcılığından nə qədər bəhrələnsə də, onun musiqisindən, dram ünsürlərindən, teatr elementlərindən, danışıq tərzindən, improvizə xüsusiyyətlərindən nə qədər genə-bol istifadə edilsə də, canlı aşıq söyləmələrinə maraq bu gün belə azalmamışdır. Dastan ifaçılığında sinkretizm özünü orijinal bir axıcılıqda, tədrici əvəzlənmələrdə

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

danışacağı dastanın ümumi ruhuna müvafiq saz çalır və mahnı oxuyur. O, dastana başlayanda isə bir neçə obrazın adından danışır, onların psixoloji sarsıntılarını, sevinc və kədərini təsvir edir. Lakin bu təsvir adi seyrçilik xarakteri daşımır. Aşıq mahir bir aktyor kimi tamaşaçıların psixologiyasını da nəzərə alır. Adətən, söhbəti dramatik bir nöqtədə saxlayıb fasilə verməklə tamaşaçılarda intizar yaradır, dramatizmi qüvvətləndirir. Aşıq hər bir söhbətində konkret məqsəd izləyir, mərdliyi, cəsurluğu, vətənpərvərlik və qəhrəmanlığı, pak məhəbbəti tərənnüm edir, xəyanətə, mənəvi eybəcərliyə qarşı nifrət hissi oyadır. Ümumiyyətlə, aşıq tarixən geniş tamaşaçı kütləsinin həm müəllimi, həm onun tarixçisi, həm nəğməkarı və həm də poetik tamaşa ənənələrinin davametdiricisi olmuşdur. Bir sözlə, müasir tamaşası üçün vacib olan ən mühüm teatral ünsürlər, incəsənət sahələri aşıq sənətində sinkretik halda cəmlənmişdir. Bu mənada aşıq ifaçılığında obraza girmə, özünütəlqin və ekstaz momenti aktyor oyunu baxımından diqqəti cəlb edir. Çox vaxt da aşığın yan-yörəsində ona ruh verən, onu "qızışdıran" sazəndələr qrupu olduqda və ya rəqib aşıqlarla üz-üzə gəlmə məqamlarında vəcdə gəlmə halları daha coşqun xarakter alırdı. Məlahətli oxu, məharətli çalğı və ustad söyləmələri sayəsində özünü inandırma, özünütəlqin sayəsində ekstaz məqamına çatmaqla tamaşaçını ovsunlamaq, ələ almaq, onların sevgisini, alqışlarını qazanmaq hər aşığa müyəssər olmamışdır.

Mütəxəssislərin ümumi qənaəti belədir ki, aşıq sənəti kiçik bir tamaşadır və bu özünü musiqi, söz və şer mətnlərinin müəllifi, saz ifaçısı və rəqs edən bir improvizatorçu simasında göstərir. Bir çox saz-söz ustadları öz yaradıcılığında şair, xanəndə, musiqiçi və aktyor xüsusiyyətlərini cəmləşdirmişlər. Ustad aşıqlar öz ifalarında şairlik və bəstəkarlıq istedadı, kamil müğənni, çalğıçı, aktyor, hətta rəqqaslıq sənətkarlığı nümayiş etdirərək bu müxtəlif sənət sahələrinin dastan ifaçılığındakı sinkretizminə möhür vurmuşlar.

## ƏDƏBIYYAT

1. Abdullayev A.S. Nitq mədəniyyəti və natiqlik məharəti haqqında. Bakı: Azərnəşr, 1968.
2. Allahverdiyev M. Azərbaycan xalq teatrı tarixi. Bakı: Maarif, 1978.
3. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XX c. Bakı, 2006.
4. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1981.
5. Həkimov M.İ. Azərbaycan aşıq ədəbiyyatı. Bakı: Yazıçı, 1983.
6. İbrahimova T.M. Azərbaycanda natiqlik sənətinin tarixi-kulturoloji problemləri və Heydər Əliyevin natiqlik təcrübəsi. Kulturologiya elmləri nam. … dis. avtoref. Bakı: ADMİU, 2008.
7. İmamverdiyev İ.C. Azərbaycan aşıq ifaçılığı sənətinin səciyyəvi xüsusiyyətləri (Qərb bölgəsi üzrə). Bakı: Şirvannəşr, 2004.
8. İmamverdiyev İ.C. Azərbaycan və İran aşıq sənətinin qarşılıqlı əlaqələri. Bakı: Nafta-Press, 2008.
9. İmamverdiyev İ.C. Aşıq ifaçılığı sənətində vəhdət məsələləri. "Yeni mədəni-maarif" jurnalı, 2008, № 3, s. 57-63.
10. İmrani R. Azərbaycanın aşıq sənəti. Ortaq türk keçmişindən ortaq türk gələcəyinə III uluslararası folklor konfransı. Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu, 13-16 noyabr 2005, s. 295-299.
11. Qəniyev S. Şirvan aşıqları. Bakı: Nurlan, 2007.
12. Mirzə A. Şirvan aşıq yaradıcılığı (təşəkkülü və inkişaf tarixindən). Bakı: Elm, 2007.
13. Orucov F.C. Azərbaycan teatr mədəniyyətində dastan janrının təzahür formaları. Sənətşünaslıq nam. … dis. avtoref. Bakı: ADMİU, 2005.
14. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# ARXAİK TÜRK DASTANLARININ MİFOLOJİ-KOSMOQONİK MAHİYYƏTİNƏ DAİR

***NAIL QURBANOV***

Məlumdur ki, mifoloji şüurun parçalanması nəticəsində miflər öz sakral mahiyyətini itirmiş, lakin mifoloji təsəvvürlər «mifopoetik mərhələdən» sonra da, yəni tarixi və epik şüurün hakim kəsildiyi dövrdə belə sonunculara öz güclü təsirini göstərmişdir. Bu baxımdan, mifoloji təsəvvürlər əfsanə, rəvayət, nağıl kimi, epik şüurun digər forması olan dastan mətnlərinə də transformasiya etmişdir. Bunu dastan mətnində bu və ya digər şəkildə öz mövcudluğunu sürən mifik motiv, obraz və s. aşkar göstərir. Dastan mətni, ümumiyyətlə, öz poetik strukturu etibarilə mifdən qaynaqlanır. Məsələn, E.M.Meletinski göstərir ki, mədəni qəhrəman haqqında olan miflər, bir qayda olaraq, qəhrəmanlıq eposlarının kökündə durur (1, 21-94). Başqa sözlə desək, qəhrəmanlıq dastanları elə mədəni qəhrəmanlar haqqında olan miflərdən qaynaqlanır.

Fikrimizcə, mifin dastanlara keçidi və ya təsiri daha çox bu cür baş vermişdir: ya əski mif mətnləri dövrün, çağın dəyişməsi (mifoloji şüur tipindən epik şüur tipinə keçid) ilə bağlı olaraq yeni keyfiyyət və ünsürlərlə zənginləşərək dastana çevrilmişdir, ya da sonralar müstəqil şəkildə yaranmış dastan süjetinə mif motivləri daxil olaraq onu zənginləşdirmişdir. Bu hadisə arxaik dastanlar və qismən müasir (başqa sözlə, klassik) dastanların müqayisəli tədqiqi zamanı aşkarlanır. Arxaik dastanlarda mif-dastan keçidi daha qabarıq görünür.

F.Bayat bu barədə yazır: «Mif və dastanın iç-içə girdiyi dönəm arxaik dastanlar dönəmidir... Arxaik dastan miflə klassik dastan arasında bir növ keçid mərhələsidir» (3, 112). Müəllif daha sonra qeyd edir ki, «arxaik dastanda qəbilənin, toplunun keçmişindən həqiqi tarix kimi bəhs edilir və insanın mənşəyi, yaranması, mədəni ünsürlərin əldə edilməsi və onların fantastik varlıqlardan – əjdaha və divlərdən qorunması məsələsi qarşımıza çıxır... Arxaik dastanlarda epik zaman mifoloji özəlliyə də sahibdir. Məsələn, «Gilqamış» dastanında hadisələr yerin göydən ayrıldığı və insan nəslinin ad qoyulduğu bir dövrdən başlar... » (3, 105).

A.Şükürov sözü gedən məsələnin arxaik fəlsəfi əsaslarını nəzərdə tutaraq yazır: «Eposun arxaik formaları mifə gedib çıxır. Burada epik mənzərə hələ də tanrılarla, ruhlarla doldurulmuş, epik zaman isə ilk yaradılışın mifik zamanı ilə üst-üstə düşür. Epik düşmənlər çox vaxt qorxunc əjdahalar olur, qəhrəman özü isə əcdadların ilkin cizgiləri ilə təsvir olunur (valideynləri olmayan, göylərdən enən ilk insan – qəhrəman kimi). Sonra epik qəhrəman ilk mədəni obyektləri kəşf edən kimi (odu, balıqçılıq və əkinçilik alətini, musiqi alətləri və s.) göstərilir və nəhayət, epik qəhrəman yer üzündə qorxunc mənfi qüvvələrin, əjdahaların təmizləyicisi ro-lunda çıxış edir» (6, 140).

Göründüyü kimi, sonradan epik mətnə transformasiya etmiş, yəni dastana çevrilmiş mətnlərdə kosmosun, konkret obyektlərin yaradılması və ümumilikdə kosmik nizamın bərpası kimi ilkin fəaliyyətlərin, yəni mifin izləri aşkar görünməkdədir. Həmin fəaliyyət arxaik türk dastanı olan «Oğuz kağan» dastanında da aşkar görünməkdədir. Dastanda Oğuzun göydən günəş şüası ilə enən qızdan Gün xan, Ay xan, Ulduz xan, Dünya ağacının bəlgəsi olan qızdan Göy xan, Dəniz xan, Dağ xan adlı oğlanlarının olduğu göstərilir. Bu özü göstərir ki, Oğuz xanın oğlanları kosmik obyektləri təcəssüm etdirir. Doğrudur, kosmik obyektlərin adlarını daşıyan obrazların varlığından çıxış edərək mətnin mifoloji-kosmoqonik mahiyyətli olmasını iddia etmək mübahisə doğura bilər. Lakin yada salaq ki, dastan belə başlayır:

Olsun dedilər. Onun şəkli budur (burada isə bir göy öküz şəkli verilir – F. B.).

Bundan sonra sevinc tapdılar.

Yenə günlərin bir günü Ay kağanın gözləri yarıdı, bir oğlu oldu (4, 35).

Göründüyü kimi, dastan mətninin əvvəlində «olsun» deyilir və məhz bu əmrdən sonra «onun şəkli budur» deyə göy öküzün təsviri verilir. Qeyd edək ki, nümunə kimi verdiyimiz parçada mifin dastana keçid hadisəsi transformativ yox, transmissivdir. Yəni burada mifdən dastana keçid hadisəsi birbaşadır, heç bir şəkildəyişmə hadisəsi baş verməmişdir. F.Bayat dastandakı öküz şəkli haqqında yazır: «Oğuz kağan» dastanında çəkilən göy öküz şəkli Oğuzun yox, Tanrının yaratdığı yerin simvoludur» (4, 37). Müəllif buna

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

miflərindəki, eyni zamanda dini kitablardakı «olsun» və ya «yaransın» tipli əmrlərin yerin yaradılmasına yönəldilmiş sözlər olduğunu göstərir. Məlum olduğu kimi, islam və xristian dinlərində Allahın dünyanı «olsun» deyə əmr verməklə yaratdığı göstərilir. Məhz bu nöqteyi-nəzərdən çıxış edərək F.Bayat yazır: «Yaradılış miflərindəki «yarat» və ya «olsun» hökmü «Oğuz kağan» dastanındakı «bolsun kıl» (olsun) hökmünə adekvatdır. Məntiqi baxımdan dünyanın yaranmasından sonra Oğuzun doğulması da yaradılış miflərindən gəlir. Mifoloji mətnlərdə bu Ülgenin yaratdığı ilk insandır və ya Kayrakanın doqquz ağac budağından yaratdığı doqquz adamdır. Bibliyada və İslamda ilk insan olan Adəmdir» (4, 36).

Dastanda verilən öküz təsvirinin Yerlə bağlı olması tezisi bir sıra xalqların, eləcə də islam və türk mif mədəniyyətində mövcud olan yerin öküzün üzərində saxlanılması motivi ilə də səsləşir. Bu qəbildən olan miflər Qafqazdan tutmuş Volqaboyuna kimi, Krımdakı türklərin mifoloji dünyagörüşlərində mövcud olmuş və qeydə alınmışdır. Təbii ki, bu mifoloji təsəvvürlərin bir çox variantları Azərbaycan türklərinin də mifoloji düşüncəsində özünə yer etmişdir (9, 779; 10, 7-9 ).

Bundan başqa, dastanın bəzi variantlarında göstərildiyi kimi, Oğuzun xtonik keyfiyyətlərə malik olması – ayağının öküz ayağına, belinin qurd belinə, kürəyinin samur kürəyinə, köksünün ayı köksünə bənzəməsi, bədəninin hər yerinin sıx tüklə örtülməsi, oxu, yayı yaratması, müəyyən əşyalara ad verməsi (məsələn, arabaya, türk tayfalarına və s.) onun ilkin əcdad, mədəni qəhrəman statusundan xəbər verir. Beləcə, dastanın zamanının da ilkin, sakral çağı, yaradılış çağını əks etdirməsi meydana çıxır. S.Rzasoy dastanın uyğur versiyasında mövcud olan mifoloji informasiyalara istinad edərək yazır:«… bu dastan məzmunu və ideologiyasına görə daha arxaik-dir və bu mənada onda təqdim olunan kosmoqonik mif daha canlıdır» (11, 93). Məhz bu dəlillərin mövcudluğu bizə imkan verir ki, «Oğuz kağan» dastanındakı yaradılış motivinin kosmoqonik mif mətnindən qaynaqlandığını qeyd edək. Dastan mətnində müşahidə olunan digər epik elementlər isə sonrakı çağlarda epik şüurun diktəsi ilə əmələ gəlmişdir. Bu baxımdan, Oğuz kağanın mif çağında kosmik obyektlərin antropomorfik təcəssümü olan oğlanlarının da sonradan dastan mətnində adi insanlar səviyyəsinə enmələri epik məntiqin «yozumudur».

Xatırladaq ki, eyni süjet A.Nəbiyevin aşkarlayıb üzə çıxardığı Boz Öküz haqqında olan Azərbaycan mifində də özünü göstərir. Burada da kosmik düzən Oğuz və onun övrəti Fatının uşaqları – Göy xan, Dəniz xan, Qodu xan, Yel xan, Sel xan, Dağ xan, Torpaq xan vasitəsilə bərpa olunur. Lakin bu mif mətnində Yaradıcı-Tanrı statusunda Boz Öküz iştirak edir (5, 34-38). Analoji kosmoqonik təsəvvür digər arxaik dastanlarda da müşahidə olunur. Məsələn, Bulqar-tatar qəhəmanlıq salnaməsi olan «Şan qızı» dastanında tanrının dünyada ilk dəfə alpları – ölümsüz varlıqları, onların vasitəsilə isə insanları necə yaratması, şər qüvvələrin himayəçisi Albastının (Tama-Tarxanın) Yeraltı dünyaya hakimlik etməsi və s. kimi mifoloji-kosmoqonik təsəvvürlər özünü göstərir:

Qədim zamanlarda,
Hələ Yer üzündə
İnsanlar olmayanda
Ulu Tanrı alp-divləri yaratdı.
Əvvəl yaratdı
Böyük alpları:
Günəşi və Ayı,
Və bəzi başqalarını.
... Tanrı onlara cəza verdi –
Elə etdi ki,bu alplardan
Ancaq ölümlü insanlar doğulsun.
Yer üzünə insanlar belə gəldi (7, 104-105).

Altaylardan qeydə alınan «Yaradılış» dastanında da kosmik düzənin, həmçinin Yer üzünün yaradılışı ilə bağlı olan mifoloji görüşlər əks olunmuşdur (yakut və çuvaşlarda da oxşar mif mətnləri mövcuddur):

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünya bir dəniz idi, nə göy vardı, nə bir yer,
Ucsuz, bucaqsız, sonsuz sular içrəydi hər yer.
Tanrı Ülgen uçurdu, yoxdu bir qonmağa,
Uçurdu, axtarırdı bərk bir yer, sığınmağa.
... Ülgen hey düşünmüşdü ta göylərə baxaraq:
– Bir dünya istəyirəm, bir soyla yaradayım.
Ülgen aşağı baxaraq «Yaransın yer!» demiş,
Bu istək əsasında dənizdən yer törəmiş.
…Torpağın üzərində bir qədər gil dururdu.
Torpaq üstündəki şey dedi nədir, əcəba,
İnsan oğlu bu olsun, insana olsun ata,
Görünməyə başladı insan kimi bir şəkil,
Birdən insan olmuşdu torpaq üstündəki gil (2, 428-431).

Göründüyü kimi, Altay türklərindən qeydə alınmış «Yaradılış» dastanı öz arxaik məzmununu mühafizə etməklə türklərin əski mifoloji-kosmoqonik dünyagörüşünü – dünyanın yaradılışı, onun necə üç balıq vasitəsilə dünya suları üzərində dayanması (dastanın Verbitski topladığı variantında yaradılmış dünya üç balıq üzərinə qoyulur (2, 429)), insanların yaradılışı barədə təsəvvürləri özündə əks etdirir.

Dastanda kosmoqoniya prosesi davamlı şəkildə özünü göstərir. Burada qədim türklər tərəfindən Yerin relyefinin əvvəllər hamar, sonra isə nahamar olmasının səbəbləri özünəməxsus şəkildə izah olunur:

Tanrı insanoğluna «tüpür» deyə bağırdı,
Tüpürdü, tüpürcəyi yer üzünə dağıldı.
Yer üzü dümdüz ikən qırışıb birdən soldu,
Sanki yoxdan yaranıb hər yan təpə-dağ oldu (2, 449).

Daha sonra dastanda digər kosmoqonik akt – yerin digər təbii landşaftının, heyvanların yaranma formaları göstərilir:

Şeytan qutu alınca göstərdi öz xislətin,
Yer altında düzəltdi bir körük, bir kəlbətin.
Çəkic alıb əlinə başladı örs vurmağa,
Örslə çəkic zərbindən yarandı bir qurbağa.
Bir vurdu, ilan çıxıb qıvrılaraq qeyb oldu,
Bir vurdu, ayı çıxdı, qaçıb toz-duman oldu.
Bir vurdu, donuz çıxdı, donuzların vəhşisi,
Bir vurdu, dəvə çıxdı, tanrının səbri daşdı (2, 457).

«Yaradılış» dastanında, həmçinin Ülgenlə Erliyin timsalında yaradıcı-xeyir başlanğıcla yaradıcı-şər başlanğıcın (kosmos-xaos) qarşıdurması, bu qarşıdurma nəticəsində şərin – Erliyin məğlub olması, onun yeraltı dünyaya qovulması və yeraltı dünyada qalaraq bütün şər qüvvələrə himayədarlıq etməsi kimi mifoloji-kosmoqonik görüşlər də əks olunmuşdur.

Göründüyü kimi, yuxarıda gətirilən nümunələrdən aydın olur ki, «Yaradılış» dastanı da arxaik dastanın tipik nümunəsidir və dastanın əsas məzmununu dünyanın yaradılışının mifo-poetik cəhətdən izah olunması təşkil edir. Bu isə özlüyündə həmin dastanın mifoloji-kosmoqonik düşüncədən qaynaqlandığını göstərir. Sözsüz ki, bu tipli arxaik dastanlar müəyyən bir mif-arxetipə söykənməkdədir. Lakin klassik dastanlar fərqli zaman və düşüncənin – epik düşüncə dövrünün məhsulu olduğundan onlarda olan mifoloji dünyagörüşü bəzən itmiş, bəzən isə relikt (gizli qalıq) şəkildə müasir zamana gəlib çatmışdır. Müşahidələr nəticəsində aşkarlanan belə mifoloji qalıqlara nümunə olaraq dastan qəhrəmanlarının möcüzəli şəkildə doğuluşu motivlərini, qəhrəmana buta verilməsi motivlərini və s. misal göstərmək olar. «Yaradılış» tipli arxaik dastanların isə bir sıra səbəblərdən «müasirləşmə» imkanı olmadığından onlar öz mifoloji kök-lərinə bağlılığını itirməmişdir. Məsələn, Sibirdə yaşayan türklər digər türk xalqlarına nisbətən daha az xarici təsirlərə (eləcə də müasirləşməyə) məruz qalmış, tarix

Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

dayanmış, bir növ, təcrid olunmuş şəraitdə yaşamışlar. Buna görə də bu arxaik dastanın verdiyi mifoloji informasiya türk xalqlarında yaradılış haqqındakı digər mifoloji informasiyalara nisbətən daha təmiz (yəni yad ünsürlərsiz), daha ilkindir. Dünya xalqları ilə, yeni ideologiyalarla daha çox təmasda olmuş digər türk xalqlarında (qaqauz, özbək, türkmən, azəri, osmanlı türklərində) isə vəziyyət başqa cürdür. Bu xalqlarda mifoloji motiv və süjetlər, eyni zamanda dünyanın, insanın yaranması ilə bağlı olan kosmoqonik görüşlər xarici təsirlərin, eləcə də başqa xalqlarla mədəni əlaqələrin nəticəsində əksər hallarda ya digər mifoloji təsəvvürlərlə çulğaşmış, ya da yeniləri ilə əvəz olunmuş şəkildə bizə çatmışdır.

Yuxarıda adı keçən türk dastanlarından gətirdiyimiz nümunələrdən göründü ki, arxaik dastanlar bir sıra mifoloji özəlliklərə sahibdir: burada zaman sakraldır, hadisələr ilkin yaradılış çağında baş verir, xaosdan kosmosa keçid təcəssüm olunur. Bütün bunlar bizə belə bir qənaətə gəlməyə əsas verir ki, həqiqətən də, arxaik dastanlar, əsasən, kosmoqonik mif mətnlərindən qaynaqlanmışdır.

**ƏDƏBİYYAT**

1. Мелетинский Е.М. Происхождение героического эпоса. Ранние формы и архаические памятники. М., 1963
2. Ögəl B. Türk mifologiyası. I cild (II nəşr) (Tərcümə edən, ön sözün, qeyd və izahların müəllifi Ramiz Əskər), Bakı, 2006
3. Bayat F. Mifolojiye giriş. Karam, Çorum, 2005
4. Bayat F. Oğuz epik ənənəsi və «Oğuz Kağan» dastanı. Bakı, Sabah, 1993
5. Nəbiyev A. Azərbaycan mifologiyası. Folklorşünaslıq məsələləri. V buraxılış. Bakı, Bakı Universiteti, 2002. səh. 6-92
6. Şükürov A. Mifologiya (I kitab). Bakı, Elm, 1995
7. Hacıyev T. Mikayıl Baştunun «Şan qızı dastanı» və poetikası. Bakı, Təhsil, 2005
8. Atsiz. Türk edebiyati tarihi. İstanbul, Türk tarih kurumu, 1943
9. Потанин Г.К. Очерки Северо-Западной Монголии. В 4-х т., т. 4. С-Пб., Из-во Импер. Рус. Геогр. Об-ва, 1883
10. Архангелский А. Мухаммеданская космогония. Казань, 1899
11. Rzasoy S. Oğuz mifologiyası (metod, struktur, rekonstruksiya). Bakı, 2009

**About the mythological-cosmogonic aim of archaic turk eposes**

In the article it is said about the theoretical bases transition forms of mythological-cosmogonic thoughts transmitted into Turk eposes and the definite results are got. As in investigation object “Oghuz Kagan”, “Yaradilish”, “Shan gizi” and other archaic Turk eposes are used.

**Key words:** archaic Turk eposes, mythological-cosmogonic world view, Oghuz Kagan, Yaradilish, Shan gizi

**О Мифологическо-Космогонической Сущности Архаических Тюркских Дастанов**

В статье рассматриваются проблемы трансформации мифологическо-космогонических мировоззрений в архаических тюркских дастанах. И объектом исследования являются тюркские архаические дастаны – «Огуз каган», «Сотворения», «Шан кызы» и др.

**Ключевые слова:** архаические тюркские дастаны, мифологическо-космогонические мировоззрения, «Огуз каган», «Сотворения», «Шан кызы»

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ORTAK TÜRK GEÇMİŞİNDEN ORTAK TÜRK GELECEĞİNE DESTANLAR

*NECATI DEMİR*

**Giriş:**

Türk milletinin ortak bir tarihî geçmişi ve doğal olarak ortak bir kültürü bulunmaktadır. Türk milleti tarih içerisinde geniş coğrafyalara yayılmış olmasına rağmen ortak geçmişini ve ortak kültürünü büyük oranda korumuştur. Dil birliği, tarih birliği, edebiyat, aile yapısı, müzik,... bunlardan bazılarıdır.

Türk milletinin iki türlü sınırı vardır. Bunlardan ilki ve daha çok üzerinde durulanı siyasî sınırlardır. Siyasî sınırlar, Türklerin üzerinde bağımsız devleti olan topraklardır. Türkiye Cumhuriyeti'nin ve Türk cumhuriyetlerinin siyasî sınırları, bugün bildiğimiz haritadır. *Türkiye Cumhuriyeti, Kazakistan Cumhuriyeti, Türkmenistan Cumhuriyeti, Azerbaycan Cumhuriyeti, Kırgızistan Cumhuriyeti, Özbekistan Cumhuriyeti ve Kuzey Kıbrıs Türk Cumhuriyeti*'ne ait topraklar, Türk milletinin siyasî sınırları içerisinde kalmaktadır.

Türk milletinin bir de kültür sınırı bulunmaktadır. Tarih içerisinde ve günümüzde Türklerin yaşadığı her yer bu sınıra dâhildir. Doğal olarak Türk milletinin kültür sınırı, siyasî sınırından çok geniştir. Asya kıtasının hemen hemen tamamı, Avrupa kıtasının büyük bir bölümü ve Afrika kıtasının bir kısmı, Türk kültür sınırları içerisindedir. Bu kadar geniş alana yayılan Türkleri bugün birbirine bağlayan en önemli bağ, dil, tarih ve kültürdür. Yani Türkçe ve Türkçe ile şekillenen edebiyattır.

**1. Ortak Türk Geçmişinde Türk Destanları:**

Destanlar, olağanüstü olayların ifadesidir. Hareketsiz toplumların ve milletlerin destanları olmaz. Türkler, tarih boyunca çok geniş coğrafyalara yayıldıklarından, hareketin âdeta sembolü olmuşlardır. Anavatanlarında ve gittikleri yerlerin çoğunda, değişik unsurlara karşı mücadeleler etmek zorunda kalmışlardır. Bu mücadelelerin bir kısmı, destanlaşarak tarih boyunca milletin hafızasından silinmeyip ebedîleşmiştir. Çeşitli dönemlerde edebiyatımıza yansıyan bu önemli tarihî olaylar, yazıya da geçirilmiş ve destan olarak adlandırılmıştır.

Destanların kültür tarihimizde çok önemli bir yeri vardır. Onlar; edebî bir mahsul olmakla beraber, tarihin kırık dökük aynalarıdır. Konuları, çoğunlukla tarihî gerçeklere dayanmaktadır. Geçmiş zaman içerisinde yaşanmış olaylar ve yaşamış kahramanlar hakkındaki bilgileri, hiç değilse ana hatlarıyla öğrenmemizi sağlamaktadırlar. Bu türdeki yazılı metinler dikkatli bir şekilde incelendiğinde, uzak geçmiş ile ilgili çok kıymetli malzemeler elde edilmektedir.

Destanlar, milletlerin ansiklopedileridir. Tarihî unsurların yanında, milletlerin geçmişteki gelenek, görenek ve yaşayış tarzları ile ilgili olarak belki de hiç bir kaynakta bulunamayacak bilgiler, destanlarda yer almaktadır. Geçmişte Türklerin yedikleri yemekler, çaldıkları çalgılar, kullandıkları savaş âletleri, ağırlık ölçüleri, giydikleri elbiseler, ... hakkındaki ayrıntılı gerçekleri, destan yazarları farkında olmadan bizlere kadar ulaştırmıştır.

Destanlar, zoru başarmanın belgeleridir. Başarılması imkânsız hadiselerin zekâsı ve gücü ile bir kahraman tarafından olumlu bir sonuç ile bitirilmesi, destanların genel olarak konusudur. Bu hadiseler, bazı destanlarda bir milletin yok olması veya varlığını sürdürebilmesi gibi hayatî meselelerdir. Bazılarında ise olağanüstü başarılar anlatılmaktadır.

Bu eserler aynı zamanda yazı dilinin önemli belgeleridir. Türkçenin tarihî gelişmesinin araştırılmasında çok önemli malzemelerdir. Genellikle halk ağzından derlenip yazıya geçirildiği için dilin özelliklerini çok yönlü yansıtan bu yazılı metinler, tarihî Türkçe açısından âdeta birer hazine durumundadır.

Türk destanlarının çok büyük bir bölümü yazıya geçirilmemiş olmalıdır. Yazıya geçirilen veya bilinen önemli Türk destanlarını iki grup altında incelemekteyiz.

*1.1. İslâmiyetin Kabulünden Önceki Türk Destanları:* İslâmiyet öncesinde teşekkül etmiş destanların bir kısmında ağırlıklı konu Türklerin yok olması veya varlıklarını sürdürmesi iken bir kısmında da çeşitli unsurlarla mücadeledir. Mücadele edilen unsurlar tabiat veya çeşitli

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

milletlerdir. İslâmiyet öncesi destanlardan en önemlileri; *Alp Er Tonga Destanı, Oğuz Kağan Destanı, Bozkurt Destanı, Ergenekon Destanı, Uygur Destanı*'dır.

*Dede Korkut Destanı* ve *Manas Destanı* geçiş dönemine aittir denilebilir. Yani bu destanlarda İslâmiyet öncesi ve İslâmî unsurlar iç içedir.

*1.2. İslâmî Türk Destanları:* Bu devir içerisinde yer alan destanlar, Anadolu'da Türk kültürüyle şekillenmiştir. Fakat bir kısmının kahramanları, konusu ve coğrafyası Türklükle ilgili değildir. Konuya birkaç açıdan bakmak zorunlu olduğu için İslâmî daire içerisinde teşekkül etmiş destanların tasnifi oldukça zordur.

Destanlar, mücadelelere konu olan idealin büyüklüğüne göre şekillenip daha sonraki nesillere intikal ederler. Bunun en güzel örneği, Anadolu'da görülmektedir. Tarihî olayların edebiyatımıza yansıyışını inceleyen ve İslamî Türk Destanları’nın tarihî olaylarla ilgisini inceleyen Müjgân Cunbur, konuyu:

"*1. İslâm dinini yayma dönemi,*
*2. Yurt edinme, devlet kurma, geliştirme dönemi,*
*3. Durgunlaşma, bir bakıma idealde güçsüzleşme dönemi,*
*4. Kurtarma ve koruma dönemi*"[285] olarak dört bölümde inceler.

Birinci dönemin destanları; *Hazret-i Ali Cenkleri*[286]*, Hamza-nâme, Müseyyeb-nâme*[287]*, Ebâ Müslim-nâme*[288] ve *Battal-nâme'*dir[289]. İkinci dönemin destanları ise *Dânişmend-nâme*[290] ve *Saltık-nâme'*dir[291].

Üçüncüsünde ise destan geleneği durmuştur. Bu devre; padişahların savaşa gitmediği, yerine birini tayin ettiği, maksadın da daha önce fethedilen yerlerin kaybedilmemesi olduğu Osmanlı Devleti’nin duraklama, gerileme ve dağılma dönemleridir. Bu dönemde devletin otoritesi sarsılmış, halk düzenli yaşama umudunu halkın içinden çıkacak kahramanlara bağlamıştır. *Köroğlu Destanı* bu dönemin mahsulüdür.

---

285 Müjgân Cunbur, “Anadolu Gazileri ve Edebiyatımız”, *Erdem*, C. 3, S. 9, Eylül 1987, s. 780.

286 Geniş bilgi için bk. Necati Demir-M. Dursun Erdem, *Hazret-i Ali Cenkleri*, Ankara 2007; aynı yazarlar, *Hazret-i Ali Destanı*, Ankara 2007; İsmet Çetin, *Türk Edebiyatında Hazret-i Ali Cenknameleri*, Gazi Üniversitesi Sosyal Bilimler Enstitüsü, (Baslımamış Doktora Tezi), Ankara 1995; aynı yazar, *Türk Edebiyatında Hazret-i Ali Cenknameleri*, Ankara 1997.

287 Müseyyeb Gazi ile ilgili menkıbelerden bahseden tespit ettiğimiz en eski kaynak, *Saltık-nâme* (Millî Kütüphane nüshası, 167/b ve sonrası)'dir. Konu ile ilgili hiçbir edebiyat tarihinde bilgiye rastlanmamıştır. Eldeki bilgiler ışığında *Müseyyeb Gazi Destanı*’nın yazma nüshaları araştırılmış, tek yazma nüshasına Divriği Halk Kütüphanesi’nde ulaşılmıştır. *“Der-Beyan-ı Müseyyeb Gazi”* başlığını taşıyan yazma, C. 6086/37 numarada kayıtlıdır. Bu eser; Eski Türkiye Türkçesi ile (M. Dursun Erdem, *Müseyyeb-nâme*, Ankara 2007) ve Türkiye Türkçesine aktarılarak (Necati Demir, *Müseyyeb Gazi Destanı*, Ankara 2007) yayımlanmıştır.

288 Geniş Bilgi için bk. Irène Melikoff, *Ebû Muslım*, Paris 1962.

289 Geniş Bilgi için bk. Necati Demir-M.Dursun Erdem, *Battal-nâme*, Ankara 2006; aynı yazarlar, *Battal Gazi Destanı*, Ankara 2006.

290 Necati Demir, *Dânişmend-nâme*, Part One, *(Critical Edition),* Published at The Department of Near Eastern Languages and Civilizations Harvard University, Harvard 2002; aynı yazar, *Dânişmend-nâme*, Part Two, *(Turkish Translation),* Published at The Department of Near Eastern Languages and Civilizations Harvard University, Harvard 2002, 216; aynı yazar, *Dânişmend-nâme*, Part Three, *(Linguistic Analysis and Glossary),* Published at The Department of Near Eastern Languages and Civilizations Harvard University, Harvard 2001; aynı yazar, *Dânişmend-nâme,* Part Four, *(Facsimile)*, Published at The Department of Near Eastern Languages and Civilizations Harvard University, Harvard 2002.

291 Saltuk-nâme için bk., Necati Demir-M. Dursun Erdem, *Saltık Gazi Destanı*, Ankara 2007; aynı yazarlar, *Saltık-nâme*, Ankara 2007; Şükrü Halûk Akalın, *Ebü'l-Hayr-ı Rûmî - Saltuk-nâme* Ankara 1987, 534 s; aynı yazar, *Ebü'l-Hayr-ı Rûmî - Saltuk-nâme II,* Ankara 1988, 371 s.; aynı yazar, *Ebü'l-Hayr-ı Rûmî - Saltuk-nâme III,* Ankara 1990, 456 s.; aynı yazar; "Ebu'l-Hayr-ı Rûmî'nin Saltuk-nâme'si", *TDAY Belleten 1992*, Ankara 1195, s. 37-59; Kemal Yüce, *Saltuk-nâme'de Tarihî, Dinî ve Efasnevî Unsurlar,* Ankara 1987. Necati Demir, “Saltuk-nâme'nin Giriş Kısmına Göre Sarı Saltuk'un Şeceresi ve Anadolu’daki Bazı Şehirlerin Müslüman Türkler Tarafından Fethi”, *Revak* (Sivas Vakıflar Bölge Müdürlüğü Dergisi) "Saltuk-nâme'nin Yeni Bulunan Altıncı Nüshası Üzerine", *Bilge*, S. 15, Kış

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Son dönem ise Millî Mücadele'dir. Millî Mücadele'yi işleyen destanlar vardır[292]. Ancak bu destanlar, anonim değer taşımadıkları için geleneği devam ettirecek özelliklere sahip değildir. Dağınık ve çok çeşitlidir.

Anadolu'da vücut bulmuş destanî hikâyeleri, "*İslâmî Türk Destanları*" başlığı altında incelemek yerinde olacaktır.

*Hazret-i Ali Destanı, Müseyyeb Gazi Destanı, Ebâ Müslim Destanı* ve *Battal Gazi Destanı* Arap, Türk ve İranlı Müslüman kahramanlar çevresinde vücut bulmuştur. Bu eserlerin mekânları Türkistan, Horasan, Arabistan, İran ve Türkiye coğrafyasıdır. Metinler; sade dille kaleme alınmış, metinler oluşturulurken Türk muhayyilesinin ilâvesiyle zenginleştirilmiştir.

İslam dinini yayma dönemi içerisinde yer alan *Ebâ Müslim Destanı;* diğer İslamî Türk destanlarına göre, kahramanının Türk olması bakımından farklı bir durum arz etmektedir. Ebâ Müslim Horasânî/ Ebâ Müslim Mervî, Türktür. Destan özetle, Hazret-i Ali'yi sevenlerle Muaviye taraftarları arasındaki mücadeleyi anlatmaktadır.

Yine İslâmî destanlar arasında inceleyebileceğimiz *Battal Gazi Destanı'*nın da yukarıdaki eserlere göre bazı farklılıkları vardır. *Battal Gazi Destanı'*nın coğrafyasının Anadolu, konusunun İslâmiyeti üstün kılmak olması sebebiyle Türk insanı bu esere ayrıca önem vermiştir. İslâmî Türk destanlarının da bizzat kaynağı olarak kabul etmiştir.

Anadolu'da, Malatya'dan başlayıp İstanbul'a kadar uzayan çizginin kuzeyinde kalan kısmın Dânişmend Gazi ve gaza arkadaşları tarafından fethini anlatan *Dânişmend Gazi Destanı* ise İslâmî-Türk Destanları'nın ilk örneğidir.

Bu destanların Anadolu coğrafyasındaki son örneği ise *Dânişmend Gazi Destanı* ile konu açısından benzerlik gösteren *Saltık Gazi Destanı*'dır. *Saltık Gazi Destanı'*nın birinci derecede kahramanı "*Sarı Saltuk; Anadolu'da, özellikle Rumeli'de Müslümanlığı yayan büyük velî-kahraman sıfatıyla asırlarca tebcil edilmiştir. Şahsiyeti etrafında yalnız Müslümanlar arasında değil, Türk hâkimiyetinin ulaştığı birçok sahada, bilhassa Balkanlar'da etraflı bir menkıbe hâlesi teşekkül etmiştir*"[293]. Bu menkıbelerin halk ağzından derlenerek yazıya geçirilmesiyle *Saltık Gazi Destanı* ortaya çıkmıştır.

Selçuklu ve Osmanlı dönemlerinde yazıya geçen veya şekil alan bu metinler, Müslüman Türklerin maddî ve manevî fetihlerini konu edinmesinden ve sade dille vücut bulmasından dolayı devletin en uzak köylerinden sarayına, ordusundan edebiyat dünyasına kadar her muhitinde ilgi görmüş ve okunmuştur.

### a. Ortak Türk Geçmişinde Hazret-i Ali Cenkleri'nin Yeri

Bu bildiride, önce gelenekli anlatılarla tiyatro arasındaki bağa dikkat çekilecek, sonra gelenekli anlatıların modern tiyatro kurgusunda üstlendiği role temas değinilecek ve bu çerçevede Güngör Dilmen'in Deli Dumrul ve Haldun Taner'in Keşanlı Ali Destanı adlı tiyatro eserlerinin destandan yararlanma tarzları ele alınacaktır.

Kültürel, sosyal, ahlakî kabulleri yansıtan halk anlatıları, sahip oldukları dinamik yapıyla ortak kültürü yaşatırlar. Edebî ve estetik nitelikleriyle halk anlatıları iletişimi sağladıkları gibi, bu iletişim sonucunda sosyal norm ve değerlerin nesiller arası aktarımını da gerçekleştirmiş olurlar. Duygu ve düşünceleri aktarma, eğitim, hoş vakit geçirme, öğüt verme, ulus olma ve ortak bir tarih ve kültüre sahip olma bilincini kazandırma gibi işlevler halk anlatılarının işlevlerinden bazılarıdır. Destanlar da bu anlatılar içinde yer alır ve sözü edilen bu özellikleri yansıtır.

Destanlar, insanlık tarihinin ilk ürünleri olarak tanımlanabilecek olan mitlerden sonra ve çoğunlukla onların izlerini taşıyarak gelişmiştir ve kahramanlarının olağanüstü eylemlerini coşkulu, törensel bir üslupla anlatan ve genellikle birkaç bölümden oluşan manzum yapıtlardır. Bilinen en eski edebiyat türlerinden biridir. Mitoloji, efsane, folklor ve tarihi öğeler içerir. Manzum olması, bir milletin millî iradesinin direnme gücünü yansıtması bu türün başlıca özelliklerindendir.Destanlar ve destansı öyküler ilkçağlardan beri dünyanın her yerinde gelenekleri sonraki kuşaklara aktarmak için kollektif olarak yaratılmış edebi biçimlerdir.(1)

Milli destanlarda; Türk milletinin acılarını, hasretlerini,sevgilerini, inançlarını, umutlarını, kısacası geçmişten geleceğe uzanan değerler bütününü bulmak mümkündür. Bu nedenle yeni nesillerin eğitiminde,destanların önemli bir kaynak olduğunu yadsıyamayız. Batılı toplumların, kendi destanlarını sinema, tiyatro ya da roman gibi türlere uyarlamalarının nedeni şöyle belirtilebilir : Gençliğe milli kültür değerlerini kazandırmak, sanat ürünleri aracılığıyla başka milletlere kendi milli kültürlerini tanıtmak. Bu noktada gençliğe sadece akademik destan metinleriyle hitap edilemeyeceği, bu eserlerin yeni bir dil ve anlatımla tekrar yorumlanarak çağdaş yöntemlerle destan konulu filmlere, tiyatro eserlerine uyarlanmasının büyük önem taşıdığı görülmektedir.

Günümüzde modernist avangart açılımdan postmodern yönelişe kadar gelenekli anlatılardan yararlanan; destan, masal, efsane gibi türlerin motiflerini yahut olay örgüsünü montaj tekniği veya metinlerarasılıkla modern anlatının dünyasına taşıyan eserlerle karşılaşırız. Bazı yazarlarda destan motifleri, modern anlatıdaki belirli bir duyguyu veya düşünceyi kuvvetlendirici öge olarak kullanılırken, kimi yazarlarda bir estetik ögeye dönüşerek estetik fonksiyonu öne çıkarır. Bazen de destan, masal ve efsane gibi kolektif anlatılardan kurgu unsuru olarak faydalanılarak, bu yönüyle modern eseri anlamca desteklemesi, derinleştirmesi ve zenginleştirmesi beklenir. Gelenekli anlatılardan hangi ölçüde ve teknikle, hangi amaç ve işlevle yararlanılırsa yararlanılsın bu anlatıların edebî esere zenginlik kattığını, onu genişletip içeriğini yenilediğini söylemek mümkündür. (2)İşte bu çerçevede yaklaştığımızda araştırma-inceleme konumuz; Güngör Dilmen'in Deli Dumrul adlı oyunu ile Haldun Taner'in Keşanlı Ali Destanı adlı oyunudur. Her iki yazarın da mitolojik ve tarihsel malzemeden yararlanarak çağının eleştirisini yapmaya çalışmalarının yanısıra, iki oyunda da tematik bir ortaklık bulunmaktadır; "kendini arama", "kendini gerçekleştirme".

### Deli Dumrul

Oğuz Türkleri'nden günümüze gelen tek destan metni Dede Korkut Kitabı'dır. Yaklaşık bir asırdan beri süregelen Dede korkut, yarı mensur yarı manzum şekilde yazılan on iki hikâyeden oluşmaktadır. Tarihin derinliklerinden gelen ve Türk yaşantısının yansıtılmasıyla şekillenen Dede Korkut, Türklüğün özünü, ahlaki,sosyal ve insa

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ruhunu, geleneklerini, kahramanlık, şeref ve onur anlayışlarını dile getirir. Bir kültür ve tarih varlığına dönüşmüş olan bu eser, günümüz sanat ve bilim adamları için ilham kaynağı olmaya devam etmektedir.(2) Farklı dönemlerde, çeşitli üsluplarda, değişik malzeme kullanarak Türk sanatçıları bunları yeniden biçimlendirip farklı düzeyde yaşatmışlar. Bunlardan biri de Güngör Dilmenİn, 1979 yılında yazdığı Deli Dumrul adlı tiyatro eseridir.(3)

Güngör Dilmen, Dede Korkut Hikayeleri içinde yer alan Deli Dumrul'u tiyatro eserine konu olarak alırken, geçmişi ve bugünü birlikte değerlendirerek, bilinen olayların ardında yatan gerçekleri sorgulamıştır. Bunu yaparken de destansı kimlikleri, geçmişin görüntüsünden ayırıp; çelişkilerini, zaaflarını, tutkularını, mutluluklarını, özlemlerini çoğaltarak onları duyan, düşünen gerçek birer tiyatro kişisi olarak karşımıza çıkarmıştır.

Güngör Dilmen'in Deli Dumrul adlı eseri manzum olarak yazılmış, ayrıca Dede Korkut'taki gibi şiirsel bir dil kullanılmıştır. Destandan yararlanılarak, güncel olan soyutlanarak verilebimiştir. İnsanın ölüm karşısındaki duruşu, üzerine kurulu olan Duha Kocaoğlu Deli Dumrul Hikâyesi'nde en yüksek duygularından biri yiğitlik olan şamana, Tanrı ve Tanrı'nın sonsuz gücünü ve bu güç aracılığı ile insanoğlunun sonluluğunu göstermek için isminin önüne "deli" sıfatının yerleştirildiği Dumrul aracılığı ile bir simge olarak verilmiştir.(4) Hikâyede Dumrul, fanilikle ölümsüzlük çatışmasının tam ortasındadır. Bu anlamda iç içe geçmiş olan fanilik,boyun eğme ve bağışlanma, Tanrı ile insan arasındaki sınır, teslimiyet simgelerinin taşıyıcısıdır. Deli Dumrul'da sahnede önce kızıl bir ışık olarak temsil edilen Azrail, ardından hep insan kılığında görünür. Azraile dik başlılık ve direnme gösteren Deli Dumrul, annesinden,babasından can ister ancak olumsuz yanıt alır. Deli Dumrul'a sadece eşi Elif can vermek ister. Elif, insanları mutlak iyiler ve mutlak kötüler diye kategorize etmeyen, her türlü insani değere eleştirel yaklaşan bir kadındır. Adını deliye çıkarmış, halkın zorba diye tanımladığı Dumrul'un özündeki iyiliği derinden kavramıştır. Dedesi Dede Korkut'a da benzer bir yaklaşım gösterir onun da bazen ölçüyü kaçırabileceğinin ayırdındadır. Elif'in,Annesinin,babasının Dumrul'dan esirgediği canı, tereddütsüzce Deli Dumrul'a vermesi noktasında düş, mutlak gerçekle karşılaşarak yerini gerçeğe bırakır; simgesel düşün direnişi ile gerçeğin uzlaşması Deli Dumrul'un teslimiyetiyle sonuçlanır.

Dede Korkut'ta düğün alayıyla köylülerin köprü üstündeki karşılaşmaları, yaşanan kargaşa ve gelinin "ay gelin uçtu" nidalarıyla omuzlarda havalanması, Dede Korkut'la Deli Dumrul ve Azrail'in dövüşmelerinin vurmalı sazlar eşliğinde kareografik danslarla verilmesi, yiğitlerin özelliklerinin sloganlaştırılarak yazıldığı tabelaları boyunlarına astıkları yiğit pazarı sahnesi gibi unsurların tümü görsel açıdan zengin sahnelerdir.

Deli Dumrul'un Azrail'e kılıç çekmesi, soyut bir varlıkla mücadeleye girişmesi, can imtihanı,aslında simgesel bir niteliğe sahiptir. Metinlerin derin dokusunu kuran, birbirine bağlayan da bu yapılardır Dilin bu çok yönlü aracılığı, kültürün zenginliği ile birleşince mitik bilinç ve geleceğe dair görünümler başarı ile sunulmuştur.. Deli görünüş ile niyet arasında çok yönlü bir ilişki vardır.Bu ilişki, bizi düş ile gerçek arsındaki çatışma/ karşıtlık ilişkisine götürür. Nitekim Deli Dumrul Hikâyesi'nde gerçek görününce, direnme ortadan kalkmış ve Deli Dumrul aracılığı ile çok ciddi bir bilgiye de gönderme yapılmıştır. "İnsan ölümlüdür. Çünkü başlangıç zamanda (in illo tempore) bir şey olmuştur. Eğer bir şey gerçekleşmeseydi, insan ölümlü olmazdı."(Eliade, 1993)

Bu eserde, Azrail'e kılıç çekme, soyut bir varlıkla mücadele, can imtihanı, aile bağları, yaşamın kıymeti, yas törenleri.vb. ile ilgili milli bilinç de sunulmaktadır. Anlatı düzleminde Deli Dumrul ve değerler dünyası, hikâyenin dramatik aksiyonuna yön veren bir güçtür. Onun sembolik anlamda yaptığı yolculuk, aslında insanlığın kendini gerçekleştirmek için yaptığı yolculuklar düzlemidir.

**Keşanlı Ali Destanı**

Ele alınacak olan diğer tiyatro eseri 1962'de yazılmış olan Haldun Taner'in Keşanlı Ali Destanı'dır.(5) Bu eser iki perde, on beş tabloluk bir müzikli komedidir ve giriş müziği ile baslayıp, "Kıssadan Hisse" başlığını taşıyan manzum sözlerle sonuçl

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Türk tiyatrosu olarak nitelendirilen bu eserinde modern epik tiyatroyla halk tiyatrosunu birlestirerek yeni bir üslûp oluşturmuş, konu, dil ve söyleyiş bakımından bütünüyle yerli özellikleri yansıtmıştır. Taner, Türk seyircisinin seyretme alıskanlığı içinde yer alan bu tanıdık, göstermeci biçimleri, toplumsal-politik elestiriye yönelen akılcı, ilerici, uyarıcı bir içerikle kaynaştırarak özgün bir Türk 'epik-göstermeci' tiyatrosu birleşimi oluşturmuştur.(6)

Kesanlı Ali Destanı'nda, senelerdir ağaların hâkim olduğu sömürü düzenine baş eğmek zorunda kalan halk, kendi çıkarlarını kollayacak bir kahraman yaratmak zorundadır. Kahraman yaratma yönüyle, bu eserle Türk destan geleneği (Köroğlu) arasında bağdaşıklık görülür.Sinekli'nin aradığı ve ürettiği kahraman Ali'dir. Keşan'dan gelme olan Ali, sevgilisi Zilha'nın dayısı Çamur İhsan'ı öldürme suçundan dört yıl hapis yatmıştır. Yokluğunda etrafında olusan efsaneyle halk arasında "şerbetli", "kurşun işlemez" özelliği kazanmış, adına "destan" yazılmıs yoksul, sahipsiz bir kişidir. Halkın arasında onun şöhretinin yayılmasında Çamur İhsan'ın fesat ve kötü bir karakter olmasının da rolü vardır. Aslında Çamur İhsan'ı gerçekten öldürüp öldürmediği de oyunun başında ve gelişme bölümünde pek belirlili değildir. Yazar, böyle bir düğüm atar ve eserinin sonuna kadar bunu izleyicide merak uyandıracak bir unsur olarak sürdürür. Ancak, bütün umudunu ona bağlayan Sinekli halkının gözünde, Kesanlı Ali kimsesiz, halkın, , korunma ihtiyacının yarattığı bir düş kahramanıdır. Bu kimliği ile Ali, halk için polisin, kanunun, politikacının, hukukun, kısacası bütün devlet otoritesinin yerini tutan bir destan kahramanına, sembolik kişiliğe dönüşür.(7) Şehrin uzağında gecekondu yerlesiminde kaderine terk edilmis insanlar, otorite bosluğunun zeminini olusturduğu güvensizliği ve düzensizliği umut bağladıkları ve kendilerinin yarattıkları içlerinden çıkan destanlaşmıs Keşanlı Ali'de ararlar. Cafer, gecekondu evlerinden birini atese verir. Zilha'nın bütün çabasına ve itirazlarına rağmen Ali, korksa da, çıkmak ve Cafer'i durdurmak zorundadır: Zilha şart koşar:"Ya ben ya destan." Ali:"Kaderim beni çağırıyor. İnsanlar ölür, destanlar kalır. Ben gidiyorum." (s. 98) diyerek dısarıya çıkar, Cafer'le kapışır. Bir el tabanca sesi duyulur ve Cafer yere düşer. Polis gelir ve Ali'nin eline kelepçe vurur. Ali'nin özgürlüğünü ve sevgilisini, Zilha'nın kavuştuğu sevgilisini ve mutluluğunu kaybetmesi pahasına da olsa, yalan gerçek olmuş ve destan doğrulanmıstır. Sineklidağ,tekrar korumasız kalmıstır. Mahalleli, olayla ilgili duygu ve düsüncelerini dile getirirken, Genç Osman Destanı'nı çağrıştıran bir ifade kullanılır: (8)

"K o r o : Of, off..
Sinekli'de durulmuyor yastan,
Sağından vuruldun, soluna yaslan
Hey, Ali, koç Ali, babamız Ali
Analar doğurmaz böyle bir aslan
Morgol gömlek giyerdi
Gümüs köstek takardı
Hafif sehla bakardı
Yaktı mı kalpten yakardı.
(s. 99)

Oyun, kıssadan hisse çıkarılarak sonuçlandırılır.

Kesanlı Ali Destanı'nın bir destan kahramanı olarak adlandırılmasıyla, Köroğlu Destanı'nın kahramanının ismi arasında bağ kurulabilir. Köroğlu'nun asıl adı Ruşen Ali'dir. Ayrıca Türk-İslâm kültüründe halk arasında Hazreti Ali menkıbeleri de önemli bir yer tutar. Kesanlı Ali ismi ile bu menkıbeler arasında da bağlantı kurulabilir.(9)

Yazar, manzum ve mensur karışık olarak kaleme aldığı eserinde manzum kısımlarda müziğin de eşliğinde canlı hayat tabloları kurmaya çalısır ve bu konuda basarı sağla dığı görülür.Eserin dil ve üslûbunu kurmada yazar, argo, deyim, atasözü gibi halk dilinde yaygın kullanım alanı olan söz varlığından ve yine halk arasında yaygın olarak başvurulan benzetme unsurlarından geniş ölçüde yararlanır. Halk arasında kullanılan iyilik duaları ve beddualar da metin içerisinde yer alır.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**Sonuç**

Araştırma-inceleme konusu olarak ele aldığımız Güngör Dilmen'in Deli Dumrul adlı oyunu ile Haldun Taner'in Keşanlı Ali Destanı adlı oyunlarında, her iki yazar da modern anlatı türü tiyatronun dünyasında destan olarak karşımıza çıkan metin halkalarını, tiyatronun kurgusunda teknik ve estetik bir öğe olarak kullanmıştır. Her iki oyunda da kolektif bilincin şimdiki zamanda sürekliliği durumundaki destan öğeleri, tiyatro eserinin kuruluşunun teknik bir unsuru durumundadır. Bu, aynı zamanda kökleri geçmiş zamanın derinliklerine uzanan destanın, modern anlatım türü olan tiyatroyla bir noktada metin içi buluşmasını, tiyatro metninin anlamını zenginleştirmesini sağlar. Böylece dilin bu çok yönlü aracılığı, kültürün zenginliği ile birleşince mitik bilinç, modern ve görsel ögelerle bütünleştirilerek her iki eserde de başarı ile sunulmuştur.

Destanların farklı türlere kaynaklık etmesinin bir diğer nedeni de şudur: Mitolojik ve tarihsel malzemeden yararlanarak çağının eleştirisini yapmaya çalışan Güngör Dilmen'in Deli Dumrul ve Haldun Taner'in Keşanlı Ali Destanı adlı oyunlarında tematik bir ortaklık daha göze çarpar; "kendini arama", "kendini gerçekleştirme". Umberto Eco'nun ifade ettiği gibi, "neden dünyaya geldiğimizi ve yaşadığımızı söyleyecek bir ilk öykünün arayışı" içindeyiz.(10) Bu sebeple insanlığın değişimi ve gelişimi sürdükçe, yazarların da farklı metin türleri ve bu farklı metin türleriyle de yeni kahramanlar, yeni ifadeler ortaya koyma ihtiyacı duydukları görülmektedir.

**KAYNAKÇA:**

(1)Sakaoğlu Saim, (1998), Dede Korkut Kitabı,İncelemeler-Derlemeler-Aktarmalar, Konya
(2)Togan Z. Velidi, (1972), Oğuz Kağan Destanı,İstanbul
(3)Dilmen Güngör,(1998), Deli Dumrul, Mitos Boyut Yayınları,İstanbul
(4) Çobanoğlu Özkul ,(1998) Türk Dünyası Ortak Edebiyatı Türk Dünyası Edebiyat Tarihi, c. I, Atatürk Kültür Merkezi Başkanlığı yay., s. 6
(5) Taner Haldun ,(2000) Kesanlı Ali Destanı, Bilgi Yayınevi, 8. Baskı, Ankara
(6)Anamur Hasan,(1989) "Keşanlı Ali Destanı Üzerine Bir inceleme", Tiyatro Anadolu, s. 92-107.
(7)And, Metin, (1992)"Tiyatroda 'Açık Biçim' ve Türk Tiyatrosu Bakımından Önemi", Ankara Üniversitesi Dil ve Tarih Coğrafya Fakültesi Tiyatro Arastırmaları
(8)Gürel, Zeki, "Haldun Taner'in Kesanlı Ali Destanı Üzerine", Hacettepe Üniversitesi Eğitim Fakültesi Dergisi,nr. 6, Ankara, Ocak 1991, s. 307-323.
(9)Enstitüsü Tiyatro Arastırmaları Dergisi, nr. 1, Ankara 1970, s.19-31.
(10)Çalıslar, Aziz, (1995), Tiyatro Ansiklopedisi, Kültür Bakanlığı Yayınları, Ankara

Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# ŞİRVAN DASTANLARININ JANR SƏCİYYƏSİ; AŞIQ RƏVAYƏTLƏRİ VƏ AŞIQ ƏHVALATLARI

***QALİB SAYILOV***

Yazılı irsimizi kimi folklor da xalqın əsrlərdən bəri yaratdığı, qoruyub yaşatdığı mənəvi sərvətlərdəndir. Folklor hər şeydən öncə, məxsus olduğu xalqın istək və arzusunu, gələcəyə ümidini, tarixə münasibətini insan və zaman haqqında dünyagörüşünü poetik şəkildə ifadə edir. Xalq yaradıcılığı janr etibarilə çox rəngarəngdir. Belə ki gerçəklikdə olan müxtəliflik öz bədii ifadəsini folklor janrlarında da tapır. Hər bir janrın isə özünəməxsus xüsusiyyətləri vardır.

Folklor üzərində yaranan xalq şeiri yazılı ədəbiyyata öz təsirlərini göstərir və şeir nümunələrinin daha mükəmməl olması üçün qaynaq rolunu oynayırdı. İkinci minilliyin ilk əsrlərində türkdilli şeir inkişaf edirdi. Artıq Yusif Has Hacib Balasaqunlunun "Qutadqu bilik", Mahmud Kaşqarlının "Divani-lüğət-it-türk", Əhməd Yuqnəkinin "Divani-hikmət" kimi əsərləri mövcud idi. Təsəvvüf dünyasında Xoca Əhməd Yəsəvi vardı. Xalq şeirinin Yunis Əmrə nümunəsi var idi. Bu dövrdə Şirvanda türkdilli xalq şeirinin mövcudluğu haqqında məlumatlar bu gerçəklikləri nəzərə aldıqda tamamilə təbii və real görünür.

Aşıq yaradıcılığı da öz əhatəsi və ya repertuarı etibarilə olduqca zəngindir. Çünki aşıq peşəkar bir folklor söyləyicisidir və onun xalq yaradıcılığındakı rolu böyükdür. Aşıq xalq yaradıcılığının anonim hissəsindən yaradıcı şəkildə istifadə edərək öz repertuarını daha da zənginləşdirir. Aşıq yaradıcılığının belə qovuşuq sahələrindən biri də aşıq rəvayətləridir. Çünki burada xalq yaradıcılığından bizə yaxşı məlum olan "rəvayət" janrı yeni bir səciyyə qazanır və öz məzmununu və əhatə dairəsini genişləndirmiş olur. Rəvayətin aşıqla əlaqələnməsi hələ aşıq haqqında ənənəvi rəvayət demək deyildir. Bu xüsusi bir yaradıcılıq hadisəsidir və aktiv aşıq mühitlərinə xas xüsusiyyətdir. Şirvan zəngin aşıq mühiti olduğu üçün aşıq rəvayətlərinin bu mühitə məxsus materiallar əsasında öyrənilməsi daha məqsədəuyğun sayılır.

Musiqi repertuarından fərqli olaraq, Şirvan aşıq mühitinin söz repertuarı digər mühitlərdən özünəməxsus əlamətlərlə seçilmir. Ənənəvi klassik aşıq dastanları, eləcə də saz-söz ustadlarının poetik irsi burada da öz yükünün əsasını təşkil edir. Bir sıra hallarda bəzi dastanların ("Abbas-Gülgəz", "Xəstə Qasım", "Alıxan-Pərixanım", "Şah İsmayıl" və s.) süjet xəttində variant dəyişiklikləri nəzərə çarpır ki, bu da aşıq mühitlərinin əksəriyyəti üçün səciyyəvidir və folklor mətninin şifahi şəkildə mövcudluğundan irəli gələn təbii bir haldır"

Aşıq rəvayətlərinin janr səciyyəsini müəyyənləşdirmək üçün ilk növbədə onu anonim folklordan bildiyimiz "rəvayət"lərlə müqayisə etməliyik. Bu halda oxşar və fərqli xüsusiyyətləri müəyyənləşdirmək mümkündür.

Bildiyimiz kimi, rəvayət olmuş, baş vermiş həyat hadisələrinin yığcam inikasıdır. Doğrudur, o da dəyişir, vaxt ötdükcə törədiyi yerdən başqa bir yerə, əraziyə keçdikcə nəyisə itirir və ya nə isə yeni bir hadisə əlavə olunur. Beləliklə, rəvayət müəyyən dərəcədə öz ilkin mənbəyindən uzaqlaşmış olur. Lakin bununla rəvayətin reallıq əsası aradan qalxmır. Rəvayətlər daha çox tarixi şəxsiyyətlərin həyatı və hünərləri ilə bağlı olur və buna görə də onun gerçəkliyi uzun müddət hifz olunur.

O da məlumdur ki, rəvayətlər ağızdan-ağıza keçərək ilkin dəqiqliyini, təfərrüatını itirmiş söhbətlərdir. Buna görə də həmişə *"rəvayətə görə", "deyilənə görə", "belə rəvayət edirlər ki"* ifadələri ilə başlanır və ibrətamiz həyat faktını əhatə edir. Rəvayətlərdə cəmiyyət həyatının aktual problemləri, onu sağlamlaşdırmaq, estetik dəyərlərə etimad meylləri, normal düşüncə və ibrətamiz əxlaq özünü göstərir.

Əfsanələrdən fərqli olaraq rəvayətlərdə mifikləşmə və əfsanəviliyə meyl yoxdur, rəvayətlərdə real zəmin üstünlük təşkil edir. Rəvayətlər həcmcə konkret və yığcam olur.

Araşdırma göstərir ki, əfsanə və rəvayətlər arasında bir ortaq məsələ də onlarda tarixi şəxslərin iştirakı məsələsidir. Rəvayətlər üçü bu hadisə tipik və xarakterikdir. Əfsanələrdə bu baş verə bilir. Lakin bu zaman həmin əfsanə və rəvayətin məzmun və si

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

nəzər salmaq lazımdır. Məsələn, esxotoloji təsəvvürləri özündə əks etdirən əfsanələr vardır ki, onlarda tarixdən adı bəlli olan Nuh, Musa və s. kimi şəxslər iştirak edir və ya əbədi həyat verən abi-kövsər suyunun axtarıb tapılması kimi məlum olan əfsanə süjetində də İskəndər kimi tarixi şəxsin iştirakı bəllidir. Burada əsasən bir şeyə diqqət yetirmək lazımdır ki, I tip əfsanələrdə mövcud kosmosun məhv olub yenidən qurulması kimi, II tip əfsanələrdə isə abi-kövsər suyunun axtarıb tapılması mifoloji təsəvvürləri özünədə əks etdirən hadisələr təsəvvür olunur. Məlum olduğu kimi, hər iki hadisənin heç birində həqiqətin, reallığın heç bir işartısı görünmür. Bu əfsanələrdə adları keçən tarixi şəxslərin əfsanələrdə iştirakı nisbidir. Həmin tarixi şəxsin adının yerinə digər ixtiyari bir ad qoysaq, əfsanənin süjet və məzmununa heç bir xələl gəlməz. Bu baxımdan onların əfsanə olduqları şübhəsizdir. Başqa sözlə, rəvayətdə əfsanədən fərqli olaraq tarixi reallıqla bağlılıq mütləq olmalıdır.

Rəvayətlərdə obrazlar tarixi və mifoloji olmaqla iki qrupa bölünür. Eyni mövzulu rəvayət mətnlərinin müxtəlif tarixi şəraitdən asılı olaraq məzmunu ikiləşir, üçləşir və s. Tarixi hadisələr bəzən bir-birinin oxşarı olduğu üçün düşüncədə olan model strukturu həmin mətnləri tipoloji cəhətdən də yaxınlaşdırır. Deməli, oxşar süjetlər bir-biri ilə tipoloji bağlılıqda olur. Tipoloji bağlılıq janrı mövzu cəhətdən bir-birindən ayıran xüsusiyyət kimi də önə çıxır (5).

Folklorun başqa janrları kimi rəvayətlər də tarixi, sosioloji, etnik, məişət mövzuları ilə sıx bağlıdır və həmin mövzularla təmasda yaranmışlar. Epik növün nağıl, əfsanə, dastan, hekayət janrlarından fərqli olaraq rəvayətlər başlıca olaraq dinləyicilərinə daha çox dünyəvi, tarixi, dini və həyat tərzi ilə bağlı biliklər aşılayır.

Ayrı-ayrı tarixi mərhələlərdə dildə-ağızda dolaşan rəvayətlər çox vaxt janrdaxili xüsusiyyətlərindən, poetik fiqurlarından uzaqlaşmış, məzmun çalarlarına görə nağıl səciyyəsi daşımışlar.

Türk xalq ədəbiyyatı ensiklopediyasında aşığın söylədiyi mətnləri məzmun baxımından aşağıdakı şəkildə təsnif edirlər:

1. Qəhrəmanlıq hekayələri
2. Məhəbbət hekayələri
3. Dini-təsəvvüfi hekayələr
4. Aşıqların yaşadığı macəralar (6, 27).

Bu təsnifatda "aşıq rəvayətləri" sonuncu maddəyə aid edilə bilər.

Rəvayət burada janrı müəyyənləşdirən əsas forma kimi seçilir. Bu janr məzmun baxımından inkişaf edir və yeni məzmunda yeni mətnlər törədir. Çünki aşıq olmamışdan öncə də rəvayət olmuşdur. Aşıq sənəti meydana gəldikdən və aşığın mədəniyyətdə məlum bir mövqeyi formalaşdıqdan sonra isə aşıq da bir rəvayət çevrəsini təşkil etməyə başlamışdır.

Rəvayətlərin müxtəlif folklor janrları ilə əlaqələri olduqca sıxdır. Çünki o, epik növün əsas dinamik və hərəkətverici nüvəsini təşkil etməkdədir. Təxəyyülün gücündən asılı olaraq gerçəklikdən uzaqlaşanda əfsanə, geçəkliklə əlaqəsini tamamilə kəsməyəndə isə rəvayət olaraq öz janr xarakterini mühafizə edir.

Azərbacan xalq rəvayətləri lətifələrlə də qaynayıb qarışmışdır. Ayrı-ayrı tarixi şəxsiyyətlər, onların fəaliyyətləri, mübarizələri barədə söz açan rəvayətlər bəzən şifahi gələnəkdə dolşa-dolaşa satirik yumotistik boyalara bürünmüş, beləliklə də qismən gülməcələrə doğru istiqamət götürmüşdür. Belə ki Sultan Mahmud, Bəhlul Danəndə, Nəsrəddin Tusi, Molla Nəsrəddinin adları ilə bağlı rəvayətlərlə yanaşı külli miqdarda lətifələr də formalaşmışdır.

Başqa xalqların rəvayətləri kimi Azərbaycan rəvayətləri də məzmun və ideyalarına, səciyyə və mahiyyətlərinə görə ayrı-ayrı formalarda müşahidə olunur. Bu formalar içində əsas yeri milli rəvayətlər tutur. Bu qəbil rəvayətlər özlərinin coğrafi çevrəsinə, iştirakçıların kimsəliyinə, qəhrəmanlarının ad-sanlarına görə məxsus olduğu xalqın, yaşadığı tarixi dövrlə, onu inam və etiqadları ilə, təsərrüfat münasibətləri ilə, həmçinin də məişət həyatı, tarixi keçmişi, mədəniyyəti, xarakteri, psixologiyası ilə bilavasitə yaxından bağlanır. Elə rəvayətlər də vardır ki, onlar mövzu və ideyalarına görə daha çox beynəlxalq mahiyyət daşıyır. Süjet və motivləri, mövzu və obrazları etibarilə bu rəvayətlər əksr xalqlar arasında eyni

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dünya, ay, günəş, ulduz haqqında olan kosmoqonik rəvayətlər demək olar ki, əksər xalqlar arasında eyn məzmuna malikdir.

Rəvayətlərin toplanması və nəşri uzun və çətin bir mərhələni keçmişdir. Bu sahədə bir çox tədqiqatçıların təşəbbüsü olmuşdur.

XX yüzilliyin 20-ci illərinə qədər rəvayətlərin tədqiqi əsaslı və ardıcıl şəkildə olmamışdır. Sovet hakimiyyəti dövründə isə folklorumuzun digər janrları ilə yanaşı rəvayətlərlə bağlı müəyyən işlər görülmüşdür. Bu dövrün araşdırmalarında rəvayətlərin tarixi təşəkkülünə, milli xüsusiyyətlərin izahına daha çox önəm verilmişdir.

Rəvayətləri xalq arasında yaşadığı kimi, yazılı ədəbiyyatın tərkibində də yaşamaqdadır. Ümumiyyətlə, yazılı ədəbiyyat xalq ədəbiyyatından bəhrələnməklə yanaşı, həm də xalq ədəbiyyatı nümunələrini qoruyub saxlayır.

Rəvayətlərdə məxsus olduğu xalqın dünyagörüşü, mübarizliyi, humanist keyfiyyətləri əks olunur. Bu folklor janrı müasir dövrdə də insanların mənəvi cəhətdən zənginləşməsində, kamilləşməsində əhəmiyyətini bu gün də qoruyub saxlamaqdadır.

Rəvayətlər əsasən iki şəkildə özünü göstərir:

1. Müstəqil janr kimi.
2. Digər janrın tərkb hissəsi kimi.

Rəvayətlər üç yolla yayılır və mövcud ola bilir:

1. Şifahi yolla, müstəqil bir sər kimi.
2. Dastanların daxilində, onların tərkib hissəsi kimi.
3. Yazılı qaynaqlarda.

Ə.Axundovun 1968-ci ildə nəşr etdirdiyi "Azərbaycan folkloru anto-logiyası"nın ikinci cildində əfsanə və rəvayətlərdən nümunələr verilmişdir. Amma burada əfsanə və rəvayətlər vahid bir janr kimi birləşdirilmişdir.

Azərbaycan əfsanə və rəvayətlərinin bir küll halında toplanması, nəşri və tədqiqi XX əsrin 60-70-ci illərindən balayır.

Azərbaycan Sovet folklorşünaslığında əfsanə və rəvayətlərə dair ilk geniş təsnifatı Vaqif Vəliyev aparmışdır. Vaqif Vəliyev əfsanələri əsasən dörd qrupa bölmüşdür:

Birinci qrupa təbiət hadisələri, ayrı-ayrı canlılar, bitki və ağaclarla əlaqədar olaraq yaranana əfsanələr;

İkinci qrupa təbiət qüvvələrinin insanabənzər təsəvvür edilməsi nəticəsində, yəni antropomorfizm nəticəsində yaranan əfsanələr;

Üçüncü qrupa tarixi hadisə, şəxsiyyət və abidələrlə bağlı olan əfsanələr;

Dördüncü qrupa isə dini əfsanələr daxildir (1).

Bu təsnifata görə aşıq rəvayətləri üçüncü qrupa aid edilə bilər. Çünki aşıq tarixi şəxsiyyətdir və xalq tərəfindən də sənəti ilə sevilir. Yəni onun şəxsiyyəti ətrafında yaranan rəvayətlər və əfsanələr də ola bilər.

Əfsanələri xalq ədəbiyyatında epik növün ilkin janrlarından sayan P.Əfəndiyev onları belə qruplaşdırmışdır:

1. Heyvanlar, quşlar haqqında əfsanələr;
2. Yer adları, qalalar, abidələr və s. ilə bağlı olan əfsanələr;
3. Tayfa, el, xalq, nəsil, totem adları ilə bağlı olan əfsanələr;
4. Nizami Gəncəvi yaradıcılığı ilə bağlı olan əfsanələr;
5. Ailə-məişət, xalqın istək və arzuları haqqında əfsanələr (bunlara ictimai məzmunlu, bəzən də utopik əfsanələr də deyilir);
6. Tarixi şəxsiyyətlərlə bağlı əfsanələr;
7. Səma cisimləri – Ay, Günəş, Ulduz və səyyarələr haqqında əfsanələr;
8. Dini əfsanələr (2, 165).

Burada qeyd olunan "tarixi şəxsiyyətlərlə bağlı əfsanələr" qrupu aşıq rəvayətlərinə məhz tarixilik və şəxsiyyət prinsipi baxımından yaxındır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İ.Abbaslı "Əfsanə və rəvayətlərin janr özünəməxsusluğu" adlı araşdırmasında əfsanə və rəvayətləri folklorun müstəqil janrı kimi tədqiq etmiş və onların bir-birindən seçilən səciyyəvi xüsusiyyətlərini nəzərdən keçirmiş, sərhədlərini müəy-yənləşdirməyə çalışmışdır. Əfsanələrin janr özünəməxsusluğundan danışan müəllif qeyd edir ki, "əfsanələr bir janr kimi əsasən kosmoqonik, toponimik, etnoqrafik, dini, tarixi, qəhrəmanlıq səciyyəsi daşıyır" (3, 3). O, rəvayətləri isə ayrılıqda aşağıdakı şəkildə təsnif etmişdir:

1. Etimoloji rəvayətlər.
2. İzahlı rəvayətlər.
3. Real və yarımtarixi şəxsiyyətlərlə bağlı rəvayətlər (3, 9-15).

İ.Abbaslı etimoloji və izahlı rəvayətlərin təsnifində bu bölmələrin də olduğunu qeyd etmişdir: "Günəş, ay, ulduzlar haqqında; Dağlar, qayalar, dərələr, səhralar; Göllər, çaylar, bulaqlar, şəlalələr; Bitkilər və heyvanlar aləmi; Mahallar, şəhərlər, kəndlər; Qalalar, körpülər, yollar; Sərdabələr, qəbirlər, qəbristanlıqlar və s." (3, 15).

İ.Abbaslı mindən artıq Azərbaycan əfsanə və rəvayətlərini nəzərdən keçirildikdən sonra onları aşağıdakı şəkildə təsnif edir:

1. Əsatiri təbiətli əfsanələr.
2. Mifoloji qaynaqlı qəhrəmanlıq əfsanələri.
3. Tarixi qəhrəmanlıq rəvayətləri.
4. Qədim abidələrlə bağlı rəvayətlər.
5. Məhəbbət rəvayətləri.
6. Ailə-məişət rəvayətləri.
7. Tarixi və tarixi şəxsiyyətlərlə bağlı rəvayətlər.
8. Dini rəvayətlər (4, 47).

Burada da aşıq rəvayətlərinin aid ola biləcəyi qrup aydın görünür. Amma məsələ bu qrup rəvayətlərin gerçək təbiətini və hanr xarakterini daha da aydın təsəvvür etmək üçün onların geniş mətn materialına malik olmaqdan və onların üzərində təhlil aparmaqdan ibarətdir. Aşıq rəvayətləri canlı aşıq tarixidir və eyni zamanda aşıq şəxsiyyəti ilə yanaşı xalqın böyük bir mədəniyyətini özündə yaşadan sənət salnaməsi və bədii yaradıcılıq nümunəsidir.

Azərbaycan xalq yaradıcılığında özünün xüsusi mövqeyi ilə seçilən aşıq yaradıcılığı olduqca geniş əhatəli və zəngindir. Aşığın söz repertuarında zəngin poeziya nümunələri, rəngarəng şeir şəkilləri, dastan yaradıcılığı olduğu kimi aşıq rəvayətlərinin də özünəməxsus yeri vardır. Aşıq rəvayətlərinin yaranması, ümumiyyətlə, rəvayətlərin yaranması ilə eyni qanunauyğunluğa əsaslanır. Amma rəvayət janrının məzmun baxımından belə şəkillənməsi, əlbəttə ki, ilk növbədə yerli şərait və mühitlə bağlı məsələdir. Aşıq rəvayəti o yerdə yarana bilər ki, ilk növbədə orada aşıq mədəniyyətinin mühüm bir hadisəsi olsun. Aşığın fəaliyyəti zamanı onun sərgüzəştləri, başına gələn əhvalatlar olmalıdır, onları da bədii miniatürlərə çevirən sənətkarlar olmalıdır ki, onlar folklorlaşsın. Şirvan uzun müddət dövlətçilik ənənələrini yaşatdığı üçün burada mütəfəkkir yazıçılar, dai alimlər, diplomatik elita ilə yanaşı elat mədəniyyəti də, eləcə də təriqət mədəniyyəti də inkişaf edirdi. Təriqətdən gələn aşiqlər də rəvayətlər yaradırdı. Butavermə, butaalma, eşq badəsi və sair kimi təsəvvüf anlayışları geniş əks olunurdu. XV əsrdən Aşıq Şirvan mədənyyətinə nüfuz edirdi. Artıq mədəniyyətin digər hadisələri onun məhvərinin ətrafında və ya cazibəsində hərəkət edirdi.

Şirvanda musiqi və şeir ənənəsinin tarixi qədim olduğu kimi, dastan-təhkiyə sənətinin də qədim və zəngin ənənələri vardır. Şirvanda inkişaf edən dastan mədəniyyəti aşıq sənətinin inkişafına təkan vermiş, onun bədii imkanlarını daha da zənginləşdirmişdir.

Əlbəttə, aşıq yaradıcılığında rəvayətlərin yeri və mövqeyi məsələsi ciddi maraq doğurur. Rəvayətin xalq yaradıcılığında ən qədim janrlardan biri olduğuna baxmayaraq, aşığa münasibətdə yeni bir hadisə kimi müşahidə olunur. Onun dastan yaradıcılığının bi şəkli olması da istisan olunmur. Çünki dastan dövrü bitdikdən sonra aşıq yaradıcılığında onu yerini daha real məsələləri əhatə edən formalar yaranması düşünülə bilər. Bu da bir həqiqətdir ki, qəhrəmanlıq və məhəbbət dastanlarının söylənməsi xüsusi bir situasiya, mərasim v

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qısa ölçülü rəvayətlərin söylənməsi belə bir hazırlığa və auditoriyaya ehtiyac duymur. Söylənməsi rahat olduğu üçün, real həyat lövhələrini əks etdirdiyi üçüm aktiv aşıq mühitlərində geniş yayıla bilmişdir. Deməк, aşıq rəvayətlərinin yaranması hər şeydən öncə dövr, zaman və şəaraitlə bağlıdır. Digər mühüm səbəb isə, yerli şəraitlə əlaqəlidir. Daha sonra bu, əlbəttə, müasir dünyagörüşlə bağlıdır.

Azərbaycan dastançılıq ənənələrinin tarixi çox qədimdir: kökləri ümumtürk dastançılığına gedib çıxır. Milli epos ənənələrimiz "Dədə Qorqud kitabı"ndan tutmuş bu günə kimi zəngin inkişaf yolu keçmişdir. Orta əsrlərdə dastançılıq ənənəsində məhəbbət motivləri çox güclənmiş və eşq-məhəbbət dastanları sürətli inkişafa başlamışdır. "Qurbani", "Abbas-Gülgəz", "Əsli-Kərəm" və s. kimi klassik məhəbbət dastanlarının meydana çıxması qəhrəmanlıq dastanlarının inkişafını dayandırmadı.Tədqiqatlar aydın göstərir ki, milli dastançılıq ənənəmizdə məhəbbət və qəhrəmanlıq dastanları yanaşı yaşamış və heç vaxt öz inkişaflarını dayandırmamışdır. Möhtəşəm "Koroğlu" eposu məhəbbət dastanları ilə yanaşı ifa olunmuş və inkişaf edərək zənginləşmişdir. Göründüyü kimi, Azərbaycan dastançılıq ənənəsində məhəbbət və qəhrəmanlıq motivləri paralel olaraq yaşamış və heç vaxt inkişafdan qalmamışdır. Bunun iki əsas səbəbi vardır:

**Birincisi:** Azərbaycan dastançılıq ənənəsi çox böyük və əzəmətli ümumtürk eposu bünövrəsi əsasında təşəkkül tapmışdır. Epik ənənənin tükənməzliyi, milli-epik düşüncədə dastançılıq kodunun üstün yer tutması onun folklorumuzda daim yaşamasının və inkişaf etməsinin əsas qaynaqlarındandır.

**İkincisi:** orta əsrlərdə aşıq sənətinin meydana çıxmasının ictimai-ideoloji, fəlsəfi-estetik əsaslarını təşkil etmiş təsəvvüfi dünyagörüşü Azərbaycan dastançılıq ənənəsində məhəbbət dastanlarının təşəkkülü və inkişafını şərtləndirdiyi kimi, qəhrəmanlıq dastanı ənənəsinin də inkişafını şərtləndirmişdir.

Şirvan dastanları Türk dastan janrının çevrəsi daxilindədir; onun inkişaf qanunauyğunluğu mexanizmi ilə işləyir; passiv epik imkanlar da onda reallaşa bilir. Yəni türk dastançlığı fasiləsiz şəkildə yaşayır və müxtəlif səviyyələrdə ransformasiya olunur.

Şirvan aşıqlarının dastan-rəvayətləri bir tərəfdən rəvayətdirsə, digər tərəfdən də bir dastan şəklidir. Bunların hər ikisinin (rəvayət və dastan) epik növdə birləşdiyini və bir-biri ilə əlaqəli yaradıcılıq hadisəsi olduğunu da təsəvvür etmək çətin deyil. Bunların arasında diaxron-zama ardıcıllığı əlaqəsi vardır. Çünki əvvəl rəvayət mövcud olub, sonra isə dastan yaranıb. Məsələn, Haşiyə: Aşıq bəzən dastanın arasında rəvayət danışır. Bu o deməkdir ki, rəvayət dastanı inkişaf etdirir. Aşıq öz sənətini, necə deyərlər öz mətahını baha satmaq üçün dastanı şirin yerində rəvayət danışır. " – Deyirlər bir gün Musa peyğəmbər Allah-təala ilə Tur dağında söhbət edib ayrılarkən Allah-təala Musaya deyir: "Ya Musa, bizim söhbətlərimizi bir kimsə bilməsin. Həzrəti Musa Allah-təalaya təzim edir və geri dönür. Tur dağının ətəyinə düşəndə orada ozanları görür. Maraqlı hal o idi ki, ozanlar Musa ilə Allah arasında olan söhbəti oxuyurlarmış.

Musa bu hadisədən bərk pərişan olur və tez-tələsik geri dönür. Səcdəyə gedərək Allaha yalvarmağa başlayır. Allah-təala soruşur ki, nə olub, Musa? Musa buyurur ki, Ya Rəbbim, mən səndən ayrılıb gedərkən ozanların bizim söhbətimizi çalıb oxuduqlarını gördüm. Gəldim ki, məni bağışlayasan. Mən heç bir sirri açmamışam. Uca Rəbbimiz Musaya deyir ki, sən narahat olma, onlar mənim aşiqlərimdir. Mənim onlarla bir könül bağlılığım var.

Bu rəvayətlər dastanlardan çox öncə yaranmışdır. Dastan özündə özündən öncəki bir sıra janrların imkanlarını da ehtiva etməkdədir. Bu baxımdan aşıq rəvayətlərinə rəvayət prizmasından yanaşıldığı kimi, dastan yaradıcılığı gerçəkliyindən də nəzər yetirmək lazımdır. İlk növbədə M.H.Təhmasibin dastan təsnifatına diqqət edək:

**I. Qəhrəmanlıq dastanları.**

a) Qədim bahadırlıq nağılları, sehirli nağıllar və tarixi görüşlərlə səslənən qəhrəmanlıq dastanları.
b) Tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanları.
c) Adi qəhrəmanlıq dastanları.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**II. Məhəbbət dastanları.**

1) Məhəbbətlə qəhrəmanlığın hüdudunda dayanan dastanlar
2) Əsil məhəbbət dastanları
a) Nağıllarla basğlı məhəbbət dastanları
b) Qədim eposla bağlı məhəbbət dastanları
c) Yazılı ədəbiyyatla bağlı məhəbbət dastanları
d) Orijinal məhəbbət dastanları

**III. Ailə-əxlaq dastanları** (6, 373).

Bu təsnifatda aşıq rəvayətlərinin yerini müəyyənləşdirmək çətindir. Amma burada biz aşıq rəvayətlərinin məzmununa görə bu sistemin hansı həlqəsinə aid ola biləcəyini müəyyənləşdirə bilərik.

"Soltan Kösər" dastanını bu bölgüdə birinci qrupa, tarixi hadisələrlə səsləşən qəhrəmanlıq dastanları qrupuna aid tmək olar. Qeyd etdiyimiz kimi, dastranda bir çox tarixi hadisələrin əksi, tarixi qəhrəmanlıq dastanlarının əsasında qəhrəmanlıq motivi durur. Bu dastanın baş qəhrəmanı isə ustad sənətkar, haqq aşığıdır. Burada əsas yeri saz, söz tutur, ona görə də bu dastanı qəhrəmanlıq dastanları bölümünə aid etmək olmazdı.

V.M.Jirmunski və H.T.Zərifov özbək dastanlarını aşağıdakı kimi təsnif etmişdir.

1. Bahadırlıq eposu.
2. Əsgəri-hərbi povest
3. Tarixi məzmuna malik dastanlar
4. Roman dastanlar
5. "Koroğlu" silsiləsi
6. Mənşəyi yazılı ədəbiyyatdan götürülən dastanlar (6, 374).

Bu təsnifatda da

Biz yeni yaradıcılığındakı yeni təmayülləri müşahidə etmirik. Əlbəttə, təsnifat materialı da buna imkan verməmişdir. Çünki Şirvanda müşahidə olunan epik yaradıcılıq faktı öz müvafiqü təsnifini zəruri edir.

Şirvan aşıq mühitində  ustada dastan bağlama ənənəsi də mövcuddur. Bu baxımdan diqqəti çəkən bir sıra dastanlar var. Aşıq Əhməd ustad Mirzə Bilalın adına eyni adlı dastan bağlayıb. Bu dastanın qəhrəmanı müasir Şirvan aşıqlarının atası ustad Mirzə Bilaldır. Dastan tarixi motivlərlə zəngindir. Müasir dövrdə yaranması dastanın məzmunundan müşahidə olunur. Burada Mirzə Bilalın Sabirlə münasibətlərinə də yer verilmişdir.

Şirvan aşıqlarının repertuarında olan dastanları aşağıdakı kimi təsnif etmək olar:

1) Şirvan aşıq dastanları
2) Ustad aşıqlar haqqında yaradılmış dastanlar
3) Digər tarixi şəxsiyyətlər haqqında dastanlar
4) Şirvan dastan-rəvayətləri
5) Aşıqlarla bağlı dastan-rəvayətlər

Şirvan dastanlarını təhlil etdikdə biz rəvayətdən dastana, dastandan rəvayətə doğru bir hərəkət müşahidə edirik. Bunlar əslində dastana bənzər rəvayətlərdir. Başqa deyilişlə, aşıq rəvayəti "dastan-rəvayət" şəklində yenidən öz başlanğıcına, mənşəyinə qayıdır. Digər tərəfdən də bu formanın elə qədimdən mövcud olması və mühitdə mühafizə olunaraq yaşaması da istisna olunmur. Əlbəttə, mövcud gerçəkliyi rəvayətin dastana doğru genişlənməsi hadisəsi ilə yanaşı, buna əks olan, dastanın rəvayətə doğru daralması hadisəsi kimi epik qanunauyğunluqla da izah etmək olar. Azərbaycan dastanlarının Şirvan variantlarından əlavə Şirvan aşıq repertuarını Şirvan aşıqlarının özlərinin yaratdığı dastan və rəvayətlər zəngin-ləşdirir. Şirvan aşıqlarının yaratdığı dastan-rəvayətlər mövzusuna görə həm məhəbbət, həm də qəhrəmanlıq dastanlarına bölünür.

"Soltan Kösər", "Seyfəlmülk" qəhrəmanlıq, "Səhər və Təbriz", "Bilal və Badam", "Canbaxışın elçiliyi", "Şakir-Ceyran", "Soltanmurad-Albuxara" dastan-rəvayətləri isə məhəbbət dastanlarına aiddir. "Aşıq Şakirin Tovuz səfəri" isə aşıq əhvalatı kimi səciyyələndirmək olar.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ƏDƏBİYYAT**

1. Vəliyev V. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, ADU nəşriyatı, 1970.
2. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, "Maarif" nəş., 1992.
3. Abbasslı İ. Əfsanə və rəvayətlərin özünəməxsusluğu, Azərbaycan şifahi xalq ədəbiyyatı tarixinə dair tədqiqlər, XI kitab, Bakı, "Səda" nəşriyyatı, 2002.
4. Sədnik Paşa Pirsultanlı. Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli tədqiqi. Bakı, "Nurlan" nəş., 2007, s. 47
5. Qəniyev S.
6. Folklor terminləri. Bakı, 2009.
7. Ansiklopedik Halk edebiyyatı Sözlüğü. Ankara, LM, 2004.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QƏDİM DASTANLARIN İZLƏRİ

*QARA NAMAZOV*

“Türklər dastan yazmadılar, dastan yaratdılar” məşhur kəlamında deyildiyi kimi, qədim türk xalqları, eləcə də Azərbaycan xalqının öz torpaqlarında yaranan dövlətlərin qurucuları haqqında min illərdən bəri yaşanan dastanların öyrənilməsi problemi həm tarixə yenidən dönüş, həm də soy kökümüzə qayıdış baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qaynaqlardan bəllidir ki, m.ö. VI-II minilliklərdə İkiçayarası və onun şimalında, Urmiya gölünün cənubunda yaranan şəhərtipli dövlətlərin mədəniyyəti, sonrakı yüzilliklərdə Şərqdə törəyib Qərbə doğru genişlənən türk dövlətlərinin özlərindən sonrakı nəsillərinin yaratdıqları epik mədəniyyət tarixi qaynaq kimi də böyük əhəmiyyət kəsb edir.

Buna görə də, həm “Aratta-Şumer dastan məktəbi”ni özündə ehtiva edən, həm də sonrakı türk dövlət quruculuğunu məzmununda yaşadan islamaqədərki dastan nümunələrini, şərti olaraq iki tarixi epoxanın epik mədəniyyət ənənəsini, izləmək məqsədəuyğundur.

Birinci “Aratta-Şumer dastan məktəbi”nə İkiçayarasında və Güney Azərbaycanda fəaliyyət göstərən dövlətlərin bir-birilə münasibətlərindən və münaqişələrindən bəhs edən tarixi dastanlar daxildir.

M.ö.VI-II minilliklərdə İkiçayarasının quzeyində və Güney Azərbaycanın (Urmiyanın cənubunda) bölgələrinə müstəqil dövlətlər (Uruq, Aratta, Lullubi, Kiş, Turruki, Kuntum, Eredu, Larsa, Ur, Laqaş, Umma, İsin, Sippar, Şuruppak, Nippur) meydana gəlib yaşamış, bir-biri ilə münasibətdə və münaqişələrdə olmuşlar. Bu dövlətlər üç min ildən çox fəaliyyət göstərib bəşər mədəniyyəti tarixində silinməz iz buraxmışlar.

Şumer əfsanələrinə görə, onların dövlətləri Nuh daşqınından əvvəllərə - təxminən 30 min il qabağa aiddir. İslam dinində Nuh, Tövratda Noy, Akkad əsatirlərində Utnapiştim kimi yaşanan hadisə Dəclə və Fərat çaylarının güclü daşqını ilə əlaqələndirilir. Bu daşqının təfsilatı “Bilqamıs dastanı”nda daha ətraflı təsvir olunmuşdur.

Şumer tarixinə, mədəniyyətinə, dininə, ədəbiyyatına, şifahi xalq yaradıcılığına dair zəngin qaynaqlar və onların nümunələri m.ö. III minillikdə gil lövhələrə köçürülmüş, beş minillik bir tarixi yol keçərək dövrümüzə qədər gəlib çıxmışdır. Onların arasında Şumer əfsanələri və dastanları xüsusi yer tutur. Və sonrakı minilliklərdə yaranan əfsanə və dastanlarda əbədi iz buraxmış, dini kitablara da daxil olmuşdur.

Şumer dastanları daha çox tarixi hadisələri və xatirələri, dövlətlər arasında baş verən müharibə və münaqişələri, qarşılıqlı münasibətləri özündə ehtiva etmişdir. Bu dastanlardan “Uruq və Aratta”, “En Merkar və Aratta”, “Luqalbanda və En Merkar”, “Luqalbanda və Hurrum”, “Bilqamıs və Aka (Anqa)”, “Bilqamıs haqqında dastan” və s. xatırlamaq olar.

Tarixçilərin qeyd etdikləri kimi, dastanlarda adı çəkilən En Merkar, Luqalbanda, Bilqamıs və Aka tarixi şəxsiyyət olmuşlar.

“En Merkar və Aratta” geniş məzmunlu dastandır. Dastan Urmiya gölünün cənub-şərq (Güney Azərbaycan) torpaqlarında Aratta hökmdarlığından, onun Uruq dövlətilə münasibətlərindən, mübahisə və müharibələrindən bəhs edir.

Yeddi dağ arxasında yerləşən Aratta (Aratta cənubi Azərbaycanda e.ə. III minilliyin birinci yarısında meydana gəlmiş ilk dövlət qurumu idi. Bax: «Azərbaycan tarixi», 1994, səh.61) ölkəsini Uruq hakimi En Merkar öz ölkəsinə tabe etmək istəyir. Bu məqsədlə En Merkar Aratta ölkəsinə qasid göndərir. Qasid Qara dağı (Yeddi dağ, Qara dağ e.ə. bu adı daşımışlar) aşıb, Yeddi dağı köçüb Aratta ölkəsinə daxil olur. En Merkarın tələblərini Aratta hakiminə bildirir (Aratta- Ər dağı deməkdir).

Aratta En Merkarın tələbini rədd edir, bildirir ki, “Səma hökmdarının özülü Kainat hökmdarəsi, bütün qanunlar hakiməsi müqəddəs İnanna ...məni pak adət-ənənələr ölkəsi Arattaya gətirdi, dağlarda onun (Arattanın) önündə böyük qapı kimi məni qoydu. Necə ola bilər k, Aratta Uruqa boyun əysin”. Aratta hakimi Er Merkarın elçisinə sülh təklif edir. Uruq hakimi En Merkar bu təklifi qəbul eləmir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"En Merkar və Aratta" dastanında hökmdarların münaqişəsi əvvəlcə bir-birlərinə göndərdikləri tapmacalarla müşayiət olunur. Arattanın En Merkara göndərdiyi birinci tapmacada deyilir: "Hakimiyyət rəmzi" qoy ağacdan olmasın, ağacın adını da deməsin, qoy sidr olmasın, sərv olmasın, ağcaqayın olmasın, lacivərd olmasın. Hakimiyyət rəmzini hazırlasın, özüylə götürsün. Əqiqi bir ağac kimi, lacivərdli bir ağac kimi gülabın ali kahin hökmdarı əlinə alsın və mənim yanıma gəlsin".

En Merkar müdriklik Allahı Enkinin köməyilə tapmacanı açır. Aratta tapmacanın açılmasından kədərlənsə də, ruhdan düşmür, yeni tapmaca göndərir. Eyni zamanda, külək allahı İşgur Aratta üzərinə yağış yağdırır, hər yerdə buğda, noxud göyərməyə başlayır. Arattalılar taxıl anbarlarını doldururlar. En Merkar İnannanın Arattanı himayə etdiyini bilir, o da səbətlər dolu taxıl, sonra qurbanlıq qoyun, keçi, inək götürüb Arattaya yola düşür. Arattalılar İkiçayarasından gətirilən məhsulla qızıl, gümüş, lacivərdi mübadilə edirlər.

Xatırladaq ki, qədim nağıl və dastanlarımızda dövlətlərarası münaqişələrdə tapmacalardan geniş istifadə olunmuşdur. Dastanlarımızda bağlama – deyişmələr də, şübhəsiz, bu qədim ənənə ilə bağlıdır. "En Merkar və Aratta hökmdarı" dastanı Şumer dastanları arasında həm zəngin məzmun və mündəricəsi, həm də zaman və məkan baxımından bizim üçün çox əhəmiyyətli dastandır. Belə ki, bu dastandakı hadisələr həm Azərbaycan ərazisində baş verir, həm də tarixən ən qədim dastanlardan sayıla bilər. Çünki "En Merkar və Aratta" dastanı yeni eradan əvvəlki III minilliyin əvvəllərində – yəni 2800-cü illərdə, başqa cür desək, 4800 il bundan əvvəl yaranmış və yazıya alınmışdır. Dastanda Yeddi dağ arxasında Aratta ölkəsinin zənginliyi təsvir olunur: "Dağ məharətlə dolu qəhrəmandır. O, öz evinə yollanan axşam şəfəqidir. Onun üzərində qaranlıq yayılır. O, üzü şölə ilə dolu olan fəzaya qalxan Aya bənzəyir. O, dağlara çəpər olan ağaclara (meşəyə) bənzəyir. Pak adət-ənənə ölkəsinin lütfkar Laması (Aratta ilahəsi) – Arattanın tacı, şəfəqli səma tacı (İnanna) kimi Arattaya yol göstərdi, mən öz əzəmətliyimi həqiqətən dərk etdim". Dastanda Aratta ölkəsində zəngin sərvətlər olduğu xatırladılır.

Tarixçilərin qeyd etdikləri kimi, dastanlarda adı çəkilən En Merkar, Luqalbanda, Bilqamıs, En Suküşiranna, Aka (Ağa) tarixi şəxsiyyət olmuşlar.

Dastanlardakı adların bəziləri bu gün də dilimizdə işlənən sözlərdir: Uruq sözünün "Oğuz Kağan" dastanında, Dədə Qorqud boylarında, Mahmud Qaşqarlının "Türk dili" lüğətində soy, kök, hətta toxum mənasında işləndiyi qeyd olunur.

"Bilqamıs" dastanında uruq sözü – Uruq şəhəri, Uruq qalası, həm də uruq xalqı kimi mənaları daşıyır: uruq türklərin qədim "Erkənqon" dastanında soy-nəsil və yurd-oymaq anlamında işlənmişdir.

Uruq sözü bu gün də Qafqaz və Asiya türk xalqlarında "uruq-turuq" – soy, nəsil, kök mənasını bildirir.

Bu baxımdan şumerlərin soy adını daşıyan uruq sözü ilə eyni dilli xalqları birləşdirən türk sözünün bir kökdən olması diqqət çəkir. Buradan belə anlaşılır ki, uruq-turuq türk sözü şumerlərdə bugünkü mənasını daşımaqla İkiçayarası mədəniyyətində bir sıra başqa sözlərlə yanaşı (Yeddi dağ, Qara dağ və s.), uruq sözü (türk sözü də eyni mənanı daşıyır) türk mənşəli sözdür. Aratta sözü professor Y.Yusifovun qeyd etdiyi kimi, Ər dağı anlamındadır. Hurrum-Hərum Nizaminin "İsgəndərnamə" poemasında Bərdənin qədim adı kimi təqdim olunur. "Bilqamıs bilən – hər şeyi bilən, vaqif olan, Aka-Ağa-qağa-qədim kağan sözünün el arasında işlənən variantıdır və s.

Qeyd etdiyimiz kimi, bu dastanlar şübhəsiz miladdan öncəki III-II minillklərin hadisələrini özündə yaşatmış, sonrakı dastanlarda da iz buraxmışdır.

Bilqamıs haqqında dastanın bir çox motivləri və izləri Dədə Qorqud boylarında müşahidə olunmaqdadır.

Dədə Qorqudun da Bilqamıs kimi hər şeyi bilməsi, keçmişdən və gələcəkdən xəbər verməsi, müdrik ağlı ilə böyük hörmət və nüfuz qazanması, nəhayət, əbədi yaşamaq arzusu, demək olar ki, eynidir.

Bilqamısla Enkidunun birlikdə sidr meşəsinə səfər edib ş

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

öldürmələri Basatın Təpəgözü öldürdüyü səhnəni yada salır.

Ümumiyyətlə, e.ə. minilliklərdə İkiçayarasında və Urmiya gölünün cənubunda yaşamış şəhər dövlətlərindən miras qalmış müxtəlif janrlı ədəbi nümunələrin bir çoxu sonrakı folklor qaynaqlarına köçərək yaşanmışdır.

Bütün bu ümumi qeydlərimiz qədim Urmiya və İkiçayarası mədəniyyətin bir çox əyalətlərinin sonrakı ozan-aşıq dastançılığının ruhunda iz qoyub yaşanması bu sənət məbədinin bütövlükdə yenidən öyrənilməsinə təkan verir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QARDAŞ TÜRK DASTANLARININ «DƏDƏ QORQUD» TOPLUSUNDA ÇAP TƏCRÜBƏSİNDƏN

*QUMRU ŞƏHRİYAR*

2001-ci ildən bu günə qədər «Dədə Qorqud» jurnalının 35 sayı işıq üzü görmüşdür. Bu illər ərzində jurnalın «Qardaş türk folkloru» bölməsində müxtəlif türk xalqlarının folklorundan nümunələr – atalar sözləri və məsəllər, tapmacalar, ninnilər, oxşamalar, türkülər (notlarla), lətifələr, əfsanələr, nağıllar, dastanlar çap olunmuşdur. Jurnalda bütün nümunələr əvvəlcə orijinalda oluduğu kimi, qarşısında isə Azərbaycan dilində tərcüməsi verilmişdir. Əsasən irihəcmli folklor nümunələri (xüsusilə dastanlar) sətri tərcümə, nisbətən kiçik olanları isə (məsələn, atalar sözləri) bəzən Azərbaycan dilindəki qarşılığı ilə verilmişdir.

S.Reyser yazır ki, təcrübi iş zamanı mətnşünasların qarşısına ən müxtəlif və ən gözlənilməz problemlər çıxır. Bu problemlər hər yeni mətn üzərində işə başlayarkən üzə çıxır desək, yanılmarıq. Heç bir təlimat qarşıya çıxan çətinliklərin öhdəsindən gəlməyə yardım edə bilməz (10, səh. 3). Burada müxtəliflik o qədər böyükdür ki (hər yeni folklor materialının nəşrində ayrı-ayrı problemlər – dil, mətn və s.), bəzi tədqiqatçılar iddia edirlər ki, «heç bir mətnşünaslıq prinsipləri, heç bir qayda ümumi ola bilməz» (11, səh. 24). «Mətnşünaslığın problemləri təcrübi iş zamanı meydana çıxır və nəzəri təfəkkürdən çox uğurlu təcrübə sayəsində həll olunur» (12, səh. 22-23).

D.Lixaçev əbəs yerə məntşünaslığı «qaydasız oyun» (13, səh. 15) adlandırmamışdır. Nəşrə başladığımız ilk gündən «Dədə Qorqud» toplusunda çap olunan ayrı-ayrı folklor nümunələrinə müxtəlif cür yanaşılmış, hər mətnin öz dili, quruluşu, informasiya bazası saxlanılmağa çalışılmışdır. Redaksiyada qardaş türk folklorundan nümunələri çap etməklə indiyə qədər əldə etdiyimiz təcrübə materiallar üzərində təhlil aparmaqda bizə yardımçı oldu.

Bu məqalədə «Dədə Qorqud» jurnalında çap olunan dastanların tərcüməsi, çapı və bu zaman ortaya çıxan problemlər üzərində dayanacağıq. «Dədə Qorqud» jurnalında çap olunan müxtəlif dastanlar bəzən türk, bəzən rus və bəzən də orijinaldan tərcümə olunmuşdur. Bu da, təbii ki, hər dastanda tərcümə zamanı müxtəlif problemlərin ortaya çıxmasına səbəb olmuşdur.

Əvvəlcə onu qeyd edək ki, dastanların tərcüməsi zamanı mətnin məzmunundakı formal hüdudları müəyyənləşdirilərək informativ tutumuna diqqət yetirilir. Məntşünaslığın qaydalarına ciddi əməl olunur, yəni dastanın informativ strukturu və təşkili mexanizmi, mürəkkəb sintaktik vahidlərin bədii mətn vahidi kimi dastanda özünə yer alması, dastan üçün səciyyəvi olan funksional-məzmun, struktur-forma elementləri, nəzm və nəsr formalı mətnlərin fərqli və özünəməxsus xüsusiyyətləri, dastanın dili üçün xarakterik olan sintaktik quruluşlar, bədii təsvir və ifadə vasitələri sistemi, fonem, heca, intonasiya, ahəng qanunu və s. bu kimi qanunlara riayət olunur.

Bildiyimiz kimi, türk dastanlarında forma və məzmun göstəricilərinin özünəməxsus əlamətləri mövcuddur. Məlumdur ki, türk bədii mətninin strukturu özündə iki əsas komponenti birləşdirir: informasiya və informasiyanın ifadəsi. İnformativ struktur şeir və ya nəsr mətninin bazisini təşkil edir. İstənilən mətn və ya sintaqmatik hüdudları olan dil vahidi informasiyasız mümkün deyil (1, səh. 11).

«Dədə Qorqud» toplusunda çap olunan dastanları yuxarıda sadaladığımız göstəricilərə əsaslanaraq tərcümə edilir. Dastanların nəsrlə ifadə olunan hissələri informasiya xarakterlidir. Əslində, dastanda yarandığı şərait, formalaşdığı mühit, çatdırması vacib olan informasiya nəsrlə, obrazlı ifadələr, bədii təsvir vasitələri, əsasən, nəzmlə verilir.

Bununla yanaşı, bədii mətnin təşkilində informasiya nə qədər zəruri sayılırsa, onun ifadə forması bir o qədər əhəmiyyətli hesab edilir. Bu ifadə formalarına bütün sintaktik vahidləri (söz birləşməsi, sadə cümlə, tabesiz mürəkkəb cümlə, tabeli mürəkkəb cümlə, qarışıq tipli mürəkkəb cümlə, mürəkkəb sintaktik bütöv) aid etmək mümkündür (1, səh. 27).

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

«Dədə Qorqud» toplusunda çap edilən dastanlarda mətnlər mümkün qədər orijinala yaxın tərcümə olunur, bəzən söz birləşmələri, ifadələr, hətta cümlələr də olduğu kimi saxlanılaraq mətnin sonunda izahı verilir. Bu yalnız o halda baş verir ki, bir çox sözlərin və ya ifadələrin tərcüməsi zamanı dastanın dilinə, sintaktik quruluşuna, fonetikasına, orfoqrafiyasına, hətta qafiyə quruluşuna xələl gəlir. Elə türk xalqları var ki, onların dilindən çevirmələrə ehtiyac duyulmadığından (məsələn, Osmanlı imperiyası ilə bağlı yaranan əfsanələr. «Dədə Qorqud» toplusu, 2008 (III) mətn olduğu kimi verilir. Bu zaman, təbii ki, çətin anlaşılan sözlər, söz birləşmələri, cümlələr, hətta bəzən fikirlərə də izahlar verilir.

Topluda çap olunan dastanların təhlilinə keçək.

2002-ci ilin II nömrəsindən etibarən «Dədə Qorqud» jurnalında vaxtaşırı qardaş türk xalqlarının folkloruna aid dastanlar nəşr olunur. İlk çap olunan krım-tatar qəhrəmanlıq dastanı «Çorabatır»dır. Dastan haqqında onu deyə bilərik ki, onun üç variantı mövcuddur və hər üç variantı V.V.Radlov toplayaraq 1896-cı ildə Sankt-Peterburqda nəşr etdirmişdir. Jurnalda təqdim olunan mətn isə 1999-cu ildə Türkiyə türkcəsinə çevrilərək nəşr olunan variantdır (2, səh.149). Tərcüməçi dastanın dilini olduğu kimi saxlamaqla yanaşı, axıcılığı da qoruya bilmişdir.

Dastandan bir parçaya diqqət yetirək:

Key tor atqa mingensiħ (7)
Quyruğuħnu, calnıħnı (7)
İpek bilen tüygensiħ (7)
Ağam qayda ketesiħ? (7)

Azərbaycan dilində:

Kəhər ata minibsən (7),
Quyruğunu, yalını (7),
İpək ilə hörübsən (7),
Ağam, hara gedirsən? (7)

Göründüyü kimi, dillərin bir-birinə yaxınlığı misradaxili hecaların quruluşuna heç bir xələl gətirməmişdir. Dastan boyu hecaların sayı bəzən 8, bəzən 10 olur. Bu da müvafiq olaraq Azərbaycan dilində 8 və 10 hecalı verilir. Çox nadir hallarda dastanda bəzi misraların sayı 6, 9 və ya 11-dir. Düşünürük ki, bu, söyləyicinin nitqindəki əlavə səslərin və ya əlavə cümlələrin mətndə olduğu kimi saxlanılmasından irəli gəlir. Məsələn, əvvəldəki misradaxili hecaların sayı 7 olan bir parçada:

Çora cevap bere (6)
Töre degil, qaraman (7)
Köyümniħ adını sorasaħ (9)
Köküşlü kök tamalıman (8).

Bu şəkildə misradaxili hecaların sayının qarışıq olması dastan boyu bir neçə yerdə müşahidə olunur.

Dastanın nəsrlə olan bölməsində də yuxarıda qeyd etdiyimiz mətnşünaslığın tələblərinə əməl olunaraq obrazlı ifadələr olduğu kimi saxlanılmış, bədii təsvir və ifadə vasitələrindən də yeri gəldikcə istifadə olunmuşdur. Məsələn:

Sarımsaq tək iri dişli,
Dovşan tək qulaqlı (Dovşan qulaqlı olmalıdır – Q.Ş.),
Hərəkəti uzun-uzadı,
Uzun saçları qaytan tək,
Oturuşu, duruşu şeytan tək,
Budları qara təpə tək,
Qarnı qara təpə tək,
Azacıq başın burub,
Bəyə saçın daradıb…» (2, səh. 162-163).

Bu dastanın dili, mətni və s. üzərində işləmək yalnız dilçilərin deyil, düşünürük ki, elə folklorçuların da marağına səbəb olacaqdır. Folklorşünaslar dastanın

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

kontaminasiyanın da şahidi olacaqlar. Dastanda üzə çıxan bu fakta «DədəQorqud» toplusunda çap olunan dastanların heç birində rast gəlinməyib.

Toplunun sonrakı nömrəsində «Axısqa türklərinin iman yeri – kobilyanlı Aşıq Səfi» adlı məqalə dərc olunmuşdur. Məqalədə Aşıq Məhəmməd Səfilinin «1915 – Ardahan kırğını destanı»ndan parçalar və «Aşıx Sefilinan dəqirmançının dastanı» verilmişdir (3, səh. 133). Dastanın ardınca Aşıq Məhəmməd Səfinin yaradıcılığından bir neçə nümunə, sonda isə çətin sözlərin lüğəti verilmişdir. Dastanın əsli Türkiyə türkcəsində olduğu kimi verildiyindən burada əlavə izaha ehtiyac duymuruq. Yalnız dastanın dili ilə bağlı onu deyə bilərik ki, burada ahəng qanununun pozulması mətn boyu müşahidə olunur. Düşünürük ki, bu, şivə xüsusiyyətindən irəli gələn amildir. Çünki hər iki dastanın fonetik quruluşu elə mürəkkəbdir ki, dastanda dil baxımından tədqiqata ehtiyac duyulur. Burada qalın və incə səslərin bir-birini sürətlə əvəzləyir. Məsələn, «Məzəristan bir əl qaxdi da aşıx Səfiliya göstərib dedi ki, sanin qardaşluğun İbrahimin türbəsi deho türbədir». Yaxud da:

Hani qələmqaşli gəzi nargözlər,
Aglar qohum-qardaş, analar sızlar,
Nişanli gəlinnər, köçəcax qızdar,
Ölüm baxmaz cəhil-sivana, qardaş (3, səh. 139).

Qafiyə quruluşu hər iki dastanda sabitdir. Dastanlar 11 hecalıdır, birinci bəndində birinci ilə üçüncü misraları, ikinci ilə dördüncü misraları həmqafiyə, sonrakı bəndlərdə isə əvvəlki üç misra həmqafiyə, sonuncu misra isə birinci bəndin sonuncu misrası ilə qafiyələnir. Bu cür qafiyələnmə qoşma janrına xasdır və hər iki dastanda bu prinsipə riayət olunur.

Dərginin digər sayında «Koroğlu» dastanının tatar-tobol versiyası dərc edilmişdir (4, səh. 136). Mətni akademik V.V.Radlov tobol tatarlarının Sala kəndində yazıya almışdır. V.V.Radlovun qeydinə görə, mətni İsəli Rusi oğlu söyləmişdir.

Mətn «Hekayəti-Koroğlu Soltan» adı ilə Kazan nəşriyyatında 1889, 1890, 1894, 1895, 1901, 1903, 1906, 1909, 1911, 1915, 1916-cı illərdə çap olunmuşdur. V.V.Radlovun yazıya aldığı mətn Kazanda tatar xalq dastanlarının fundamental nəşri olan «Dastanlar – 1984»-ə də daxil edilmişdir (4, səh. 138).

Bildiyimiz kimi, «Koroğlu» dastanının bir neçə variantı mövcuddur. Ümumiyyətlə, qardaş türk xalqlarının ağız ədəbiyyatında yalnız dastan deyil, eyni zamanda Koroğlu obrazı ilə bağlı çoxlu əfsanələrə, rəvayətlərə, nağıllara da rast gəlmək olar.

Dərgidə çap olunan bu versiya M.H.Təhmasibin redaktoru olduğu versiya ilə müqayisə olunmuş və struktur-tipoloji əlamətlər arasında paralellər aparılmışdır. Burada obrazlar, xüsusi isimlər qruplaşdırılmış, tatar-tobol versiyasındakı variantla qarşılaşdırılmışdır. Bu zaman aşkar olunmuşdur ki, tatar-tobol versiyasındakı Kük biyan (göy madyan), Qart kişi kimi obrazların qarşılığı Azərbaycan versiyasında yoxdur və yaxud əksinə, Ərəb Reyhan, Dəli Həsən, Dəmirçioğlu, Giziroğlu Mustafa bəyə məxsus bəzi xüsusiyyətlər Aqasaus adlı obrazda cəmləşmişdir.

Dastanda, eyni zamanda, buta motivinə də rast gəlmək mümkündür ki, bu da Azərbaycan nağıl və dastanları üçün xarakterik xüsusiyyətdir. Mətndə «İstanbul qalasında Nigar xanım adlı bir qızın Küerin (korun – Q.Ş.) oğluna layiq olmasını xəbər verən qocanın funksiyası nağıllarda və xüsusilə məhəbbət dastanlarında sehrli alma verən dərvişin funksiyası ilə uyğundur» (4, səh. 141).

Dastanın dilinə gəlincə, türk dilləri üçün xarakterik olan cümlə quruluşunun tam əksinə olaraq xəbər əvvəldə gəlir, yəni burada artıq yenə də söyləyicilik ənənəsi özünü digər qaydalara nisbətən daha üstün göstərir ki, biz bunu fərdi üslub hesab edirik. Məsələn: Gedirəm indi bu yerdən İstanbul qalasına. Bir ay sizə müddət, bir aydan sonra mən gəlməsəm, gəlin, məni axtarın! (4, səh. 147) Dastanda digər diqqətəlayiq məsələlərdən biri də ahəng qanunudur. Burada ahəng qanunu əvvəldən sona qədər bir qayda olaraq qorunmuşdur. Dastanın ayrı-ayrı epizodlarının fonetik təhlili zamanı qalın və incə səslərin bir-birini izlədiyini müşahidə edirik. Əgər İstanbul, Nigar xanım, namə və s. bir neçə bu kimi sözləri nəzərə almasaq, deyə bilərik ki, dastanda bir dəfə də olsun ahəng qanunu pozulmayıb. Məsələn: Gird

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qız var, bu qıza (qalın) him elədi (incə), qız (qalın) gəldi… Yəhərin, yüyənin (incə), qılıncın (qalın) götürdü (incə). Bul (qalın) Bək (incə) yatıb qalmışdı. Sarayın qapısın açdı, qara atını da çıxardı (qalın) (4, səh. 149).

Maraqlısı budur ki, müəllif tərcümə zamanı «onomastik fondun fonetik variantlarına toxunmadığını, adların fərqli deyilişinin araşdırma üçün material verdiyini» (4, səh. 141) nəzərə alaraq olduğu kimi saxladığını qeyd edir. Müəllifin bu qeydi bizim yuxarıda göstərdiyimiz ahəng qanunu prinsipini təsdiqləmiş olur.

Dərgidə çap olunan digər bir dastan da Baraba tatarlarının folklorundan «Kozıkörpəç və Bayansılu»dur (5, səh.156). Burada «Kozıkörpəç və Bayansılu» dastanının baraba tatarlarından İ.V.Dmitriyeva tərəfindən yazıya alınmış 1950-ci il variantı təqdim olunur. Qeyd edək ki, İ.V.Dmitriyeva bu dastanın üç variantını yazıya almışdır (9, səh. 25). O, dastanın iki variantını 1967 və 1968-ci illərdə yazıya almışdır. Hər iki mətnin sonra yazıya alınmasına baxmayaraq, 1950-ci il nəşri tamdır.

Dastan orijinaldan tərcümə olunmuşdur. Ona görə də tərcümə zamanı bir sıra çətinliklər meydana çıxmışdır. Müəllif yazır ki, Azərbaycan dili ilə baraba tatarlarının dilində bir sıra söz və ifadələr, xüsusilə də cümlə quruluşu və təhkiyələr arasında uyğunluq olduğundan bir qohum dildən digərinə tərcümə zamanı tez-tez orijinalın təsirinə düşmək təhlükəsi yaranmışdı (5, səh. 157). Lakin bəzi xırda qüsurların olmasına baxmayaraq, düşünürük ki, mətnin tərcüməsi uğurlu alınmışdır.

Dastanın dili axıcıdır, sözlər ahəng qanununa tabe olur, tərcümə zamanı obrazlı ifadələrdən yerli-yerində istifadə olunmuşdur.

Yuxarıda qeyd etmişdik ki, bəzən dastanın dilinə, onun üçün xarakterik olan sintaktik quruluşlara, şeirlərin qafiyə quruluşuna, nəzm və nəsr formalı mətnlərin fərqli və özünəməxsus xüsusiyyətlərinə, bədii təsvir və ifadə vasitələrinə xələl yetirməmək üçün sözlər orijinalda olduğu kimi saxlanılır, mətnin sonunda izah verilir. «Kozıkörpəç və Bayansılu» dastanında da bu ənənəyə sadiq qalınmış, bəzi sözləri tərcümə etmək lazım bilinməmişdir. Məsələn:

Süyinçi Bayan, süyinçi Bayan,
Süyinçilərin məndədir, Bayan.

Bu iki misralı şeir olduğu kimi, mətnin sonunda isə izahı verilmişdir: süyinçi – hədiyyə, müjdə, muştuluq.

Orijinalda işlənən frazeoloji birləşmə və ifadələrin isə dilimizdəki qarşılığı verilmişdir (məsələn: «aş aşamayın, su içməyin, yütip qaldı» ifadəsini «yemək yemədi, su içmədi, saralıb-soldu» kimi) (5, səh. 157).

Dastan mətnşünaslığın qaydalarına riayət edilərək tərcümə olunmuşdur. Bədii təsvir və ifadə vasitələrindən yeri gəldikcə istifadə olunmuşdur. Məsələn, «Kozıkörpəcin saçındakı qızıl muncuq günəş kimi parıldadığından bu otaqda şam yandırmağa ehtiyac olmadı» (5, səh. 167).

Dastan bu kimi obrazlı ifadələrlə zəngindir. Belə misallardan onlarla çəkmək mümkündür. Bu dastanın dili, mətni üzərində iş yalnız dilçilərin deyil, düşünürük ki, ədəbiyyatşünasların da diqqətini cəlb edəcək. Mətn klassik dastançılıq ənənəsi üzərində qurulmuşdur. Dastanda ənənəvi olmayan yeni motiv diqqəti cəlb edir. Burada ağ vedrə ilə bulaqdan su götürən gözəl qadın Kozıkörpəcə «ertə gedən deyikli»si olduğunu deyir. Kozıkörpəc onu axtarmağa getmək üçün anasından izn alır. Amma anası onun getməsinə izn vermir. Əvvəlcə yatıb yuxuda onun getməsinə izn verib-verməməsini öyrənmək istəyir. Ana yuxu görməyə başlayanda oğul onu yuxudan oyadır. Ana izn vermir, deyir: «Otur, balam, döşümün südünü sağım, əgər südüm ağzına yetsə, gedərsən». Oğul bir neçə dəfə cəhd etsə də, ana izn vermir, döşünün südünü sağır, südü ağzına çatmır, nəhayət, oğul ananın razılığı olmadan deyiklisini axtarmağa gedir.

Göründüyü kimi, bu, ənənəvi dastançılığa xas olmayan bir mövzudur.

Dərginin başqa nömrəsində həcmcə digər dastanlardan çox olan Altay dastanı «Kozın Erkeş»dir. Dərgidə çap olunan «Kozın Erkeş» dastanı 1940-cı ildə P.V.Kuçiyak tərəfindən qələmə alınmış versiyadır (6, səh. 174). Bəzi alimlər bu dastanın «Kozıkörpəç və Bayansılu»nun bir variantı olmasını qeyd edirlər. «Kozıkörpəç və Bayansılu» kimi «

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bir neçə variantı mövcuddur. Tədqiqatçıların fikrincə, «Kozın Erkeş» dastanının məhəbbət dastanı olmasına baxmayaraq, dastan qəhramanlıq motivləri ilə zəngindir (8, səh. 21).

Qeyd edək ki, dastan Türkiyə türkcəsindən çevrilmişdir. Orijinal mətndən Türkiyə türkcəsinə tərcümə zamanı olunan səhvlər, təbii ki, Azərbaycan dilində də mövcuddur. Məsələn, dastanın orijinal mətnində «Ćastaranga ćeŋ eledi, Ćabınarga ton eledi» misraları Türkiyə türkcəsində «Yaslanmaktan yen yıprandı, Giyinmekten palto yıprandı» (8, səh. 258) kimi tərcümə olunmuşdur. Azərbaycan dilində isə yanlış olaraq bu misralar «Uzanmaqdan yer də bezdi, Geyinməkdən palto üzüldü (köhnəldi)» (6, 2008 (IV), səh. 182) kimi verilmişdir. Əslində birinci misrada «Yaslanmaqdan paltarın qolu köhnəldi» (bu, Türkiyə türkcəsindən Azərbaycan dilinə çevirmə zamanı edilən səhvdir), ikinci misrada isə «Geyinməkdən don köhnəldi» (bu da orijinaldan Türkiyə türkcəsinə çevrilmə zamanı edilən səhvdir) olmalı idi. Çevirmə zamanı Türkiyə türkcəsini əsas götürdüyümüz üçün mətndəki ifadələri də o şəkildə vermişik.

Dastanda diqqəti çəkən digər bir məsələ də al tin – altın sözləridir. Mətnin orijinalında «At ölböskö altın emes, Er ölböskö möŋkü emes» (8, səh. 260) misraları Azərbaycanca «At ölməyincə, altın deyil, İgid ölməyincə əbədi deyil» (6, 2008 (IV), səh. 184) kimi tərcümə olunmalıdır. Təbii ki, Türkiyə türkcəsində də bu söz «altın» kimi tərcümə olunmuşdur. Amma bu fikrin türk təfəkkürünün məhsulu olmadığını düşünərək araşdırma apardıq və belə məlum oldu ki, əslində bu söz qədim türkcədə «al tin»dir ki, bu da «qırmızı dəri» (qədimdə bu dərilər qiymətli hesab olunarmış) mənasını verir. Görünür, V.P.Kuçiyak bu ifadənin ilkin mənasını itirməsinə fikir vermədən söyləyicinin dilində olduğu kimi saxlamışdır.

Mətnin başqa bir parçasında: «Sen tastarakay bolup kubul, Menile kojo atanıb bar» (8, səh. 264) misralarındakı «tastarakay» sözü olduğu kimi saxlanılaraq «Sən tastarakay olub cildini dəyişdir, Mənimlə bərabər gəl» kimi tərcümə edilmişdir. Tastarakay sözü Altay dastanlarında qəhrəmanların təğyir-libas olub keçəl və dilənçi libası geyinmələrinə verilən addır (6, 2008 (IV), səh. 188). Həm də bu ifadə atrıq Altay dastanlarında bir obraz kimi formalaşdığından olduğu kimi saxlanılmışdır. Dastanda: «Onı ukkan Karatı Kaan, Altı ikiliçi uuldar taldattı» misraları Türkiyə türkcəsində «Bunu işiten Karatı Kağan, Altı ikilici oğul seçtirdi» kimi tərcümə olunmuşdur. Yanlış olaraq bu ifadə olduğu kimi saxlanılaraq «ikilici» (6, 2009 (I), səh. 169) kimi yazılmışdır. Türkiyə türkcəsində «-cı$^4$» şəkilçisi çox işlək olduğu halda, Azərbaycan dilində bu söz say+sifət+isim stukturu (iki+li+çi), başqa sözlə desək, adlardan isim düzəldən şəkilçi kimi yazılmalı idi.

Dastanın bir neçə yerində cümlələr orijinalda, yaxud da Türkiyə türkcəsində olduğu kimi verilmişdir (6, 2009 (II), səh. 52, 53). Baxmayaraq ki, mətn sətri tərcümə olunmuşdur, belə cümlələrin izahı, yaxud Azərbaycan dilindəki qarşılığı səhifənin sonunda göstərilmişdir. Bu, mətnin orjinal formasına xələl gətirməmək üçün edilmişdir.

Dərgidə ən sonuncu nəşr olunan dastan Xakas türklərinin qəhrəmanlıq dastanı «Altın-Arığ»dır. «Altın-Arığ» ilk dəfə sovet dövründə – 1955-ci ildə T.Q.Taçeyeva tərəfindən, ikinci varintı isə 1964-cü ildə folklorşünas alim V.E.Maynoqaşeva tərəfindən yazıya alınmışdır. Hər iki variantın süjeti təxminən eynidir. Bəzi epizodlar, personajların adları, sehrli alətlər, hadisələrin ardıcıllığının düzülməsi fərqlənir. T.Q.Taçeyevanın yazıya aldığı variant 5181 misradan, V.E.Maynoqaşevanın yazıya aldığı variant isə 10341 misradan ibarətdir.

Bu dastan həcm etibarilə «Kozın Erkeş» dastanından da çoxdur və «Dədə Qorqud» toplusunun bir neçə nömrəsində çap olunub.

Burada ənənəvi türk dastançılığı – hadisələrin bir-birini izləməsi, qəhramanların mübarizəsi, cəngavər qadın obrazı özünü qabarıq şəkildə göstərir. Dastan təşəkkül tapdığı dövr və mənsub olduğu xalq haqqında çox geniş informasıya verir. Həm etnoqrafik, həm folklor materialları ilə zəngin olan dastanın orijinalı qədər tərcüməsi də çox qiymətli mənbədir.

Əvvəla, onu qeyd edək ki, dastanın tərcüməsi zamanı dilindəki fonetika, heca, ahəng qanunu pozulmuşdur. Amma buna baxmayaraq, bədii təsvir və ifadə vasitələri sistemi çox axıcı və dolğun şəkildə dastan boyu müşahidə olunur, məsələn, «Güdülən malların yiyəsi, Xalqın-elin xanı, bəyi, Altı qulac boylu, Ağ-sabdar atlı, Arıq, gözəl Piçen-Arığ» (

Created with nitroPDF professional download the free trial online at nitropdf.com/professional

Dastanın davamı hal-hazırda «Dədə Qorqud» toplusunda çap olunmaqdadır.

«Dədə Qorqud» toplusunda çap olunan bütün qardaş türk folkloru nümunələrini yuxarıda sadaladığımız mətnşünaslığın qəlibinə salınır, müəlliflərlə sıx əməkdaşlıq edilir. Dərgidə materialların iki dildə – orijinal və Azərbaycan dilində verilməsi türk xalqlarının dilini, etnoqrafiyasını öyrənən alimlər üçün əvəzsiz mənbədir. Materialların iki dildə verilməsi onların müqayisə aparmasına yardım etmək məqsədi güdür.

Bizim bu məqaləni «Dədə Qorqud» toplusunun Qardaş türk folkloru bölməsinə həsr etməyimiz oxucuların diqqətini bu istiqamətə yönəltmək, tədqiqatçılar üçün maraqlı tədqiqat obyektinin olmasını dilə gətirmək idi. Burada çox maraqlı faktları, çap zamanı qarşımıza çıxan çətinlikləri, xırda qüsurları dilə gətirməklə əslində çox ciddi araşdırmalara ehtiyac duyan məqamların olduğunu qeyd etmək istədik və bundan sonrakı işi tədqiqatçıların öhdəsinə buraxırıq.

## ƏDƏBİYYAT

1. Əliyev Y. Ümumi mətnşünaslıq («Kitabi-Dədə Qoqud» mətnlərinin linqvopoetik təhlili əsasında). Dərs vəsaiti, Bakı, 2007
2. Qasımov İ. «Çorabatır dastanı» haqqında. «Dədə Qorqud» toplusu, 2002 (II)
3. Kazımov İ. Axısqa türklərinin iman yeri – kobilyanlı Aşıq Səfi. «Dədə Qorqud» toplusu, 2002 (IV)
4. Xəlil A. «Koroğlu» dastanının tatar-tobol versiyası. «Dədə Qorqud» toplusu, 2004 (IV)
5. Fərhadov F. Baraba tatarlarının folklorundan «Kozıkörpəç və Bayansılu». «Dədə Qorqud» toplusu, 2005 (III)
6. Şəhriyar Q. Altay dastanı «Kozın Erkeş». «Dədə Qorqud» toplusu, 2008 (IV); 2009 (I); 2009 (II)
7. Kərimbəyli Ə. Xakas türklərinin qəhramanlıq dastanı «Altın-Arığ». «Dədə Qorqud» toplusu,
8. Altay Destanları (hazırlayan: Dilek İ). I cild, Ankara, 2002
9. Дмитриева Л.В. Язык барабинских татар (материалы и исследования). Ленинград, 1981
10. Рейсер С. Основы текстологии. Ленинград, 1978
11. ***Чернышевский Н.Г. Полное собрание сочинений. Т. X, ч. 1, СПб., 1906***
12. ***Белинский В.Г. Полное собрание сочинений. Т.III, Москва, 1953***
13. Лихачев Д.С. Текстология: на материале русской литературы X-XВЫЫ вв. М.-Л., 1962

**Резюме**

Каждый дастан из сборника «Деде Горгут», напечатанный в разделе братского тюрксого фольклора имеет свои самобытные особенности. Здесь анализируются язык дастанов, композиции дастанских текстов, информации, доставляемые ими, проблемы, возникающие во время перевода на Азербайджанский язык, прпинципы сохранение в текстах фразеологизмов, сложных предложений, средства художественных изображений и выражений. Иногда приводятся примеры из братского тюркского фолклора, проводятся сравнения с вариантами на Азербайджанском языке.

**Ключевые слова:** тюркский фольклор, особенности языка, принципы текстоведения, опыт печатания

**Summary**

Each dastan from “Dede Gorgud” published in Turkish folklore has its specific features. The language of the dastans, compositions of their texts, information, given by them, problems, appeared during the thanslation into Azerbaijani; principles of keeping phraseological sentences, complex sentences, means of literary description and expressions are analyzed here.

Sometimes examples from Turkish folklore are given, they give comparison with the variants in Azerbaijani.

**Key words:** Turkish folklore, pecularities of the language, the principles of texts, experience of publication

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# AZƏRBAYCAN-TÜRK MİFOLOJİ DÜNYA MODELİNİN REKONSTRUKSİYA QAYNAQLARI

***RAMAZAN QAFARLI***

Mif öz çağının (mifoloji-kosmoqonik düşüncə epoxasının) şüur hadisəsi kimi tarixi düşüncəyə keçid zamanı transformasiyalara uğrayır. Bu baxımdan, tarixi düşüncə ilə yaşayan cəmiyyətlərdə ona «təmiz» şəkildə rast gəlmək mümkün deyildir. Öz çağının hakim dünyagörüşünü təşkil edən mifologiya tarixi şüura keçiddən sonra ictimai şüurun müxtəlif formalarını təşkil edir. Buna görə də hər hansı etnik-mədəni sistemin mifoloji təsəvvürlər sisteminin öyrənilməsi kosmoqonik-mifoloji dünya modelinin müxtəlif mətnlərdən bərpasını nəzərdə tutur. Bu halda folklor mətnləri, ilk növbədə dastanlar, nağıllar, əfsanələr, mərasimlər və s. rekonstruksiyanın qaynaqları sayılır.

Azərbaycan-türk miflərinin bərpası, araşdırılması, mənbələrinin üzə çıxarılması sahəsində xeyli iş görülmüşdür. Lakin A.Acalovun irəli sürdüyü bəzi tezislərlə razılaşmaq mümkün deyil. O yazır: «Terminoloji baxımdan «Azərbaycan xalqının mifoloji görüşləri», «Azərbaycan mifoloji görüşləri» və bu kimi ifadələrin həm məzmunu, həm də sərhədləri aydındır, heç bir etiraz doğura bilməz. Burada söhbət müasir və tarixi (bugünkü «Azərbaycan» adlı xalqın mövcud olduğu müddət) azərbaycanlıların mədəniyyətində yer almış mifoloji strukturlardan gedir. Bəzən bu terminlərə sinonim olaraq «Azərbaycan mifologiyası» ifadəsi də işlənir. Lakin burada müəyyən dəqiqlik gözə dəymir. Belə ki, mifologiya konkret etnik-mədəni birliklərin arxaik dövrlərdə meydana çıxan universal sistemi olduğuna görə bu termin təzadlı səslənir. Bəlli olduğu kimi, hər bir xalq özünün mövcudiyyəti ərzində sabit və dolğun birlik halında qalmayaraq, daim dəyişir... Digər halda isə bir neçə nisbətən kiçik etnos birləşərək daha böyük etnik birliyin meydana çıxmasına səbəb olur (məsələn, XII yüzillikdə monqol etnosunun formalaşması). Və hər bir yeni yaranan etnos öz sələfindən tam bir sıra cizgilərinə görə fərqlənir. Bu fərqlər nə qədər dərin olsa da, onların hər ikisi eyni bir xalqın ayrı-ayrı inkişaf (etnogenez) mərhələləri kimi anlaşılır. Bu mülahizələrdən çıxış edərək, Azərbaycanın etnik tarixinə nəzər saldıqda aydın görünür ki, bugünkü azərbaycanlılar millət olmaq üzrə son 500-600 ilin məhsuludur (bir daha qeyd edirik ki, burada azərbaycanlılardan bir xalq kimi yox, XIV - XVI yüzillərdə başlanmış etnogenez prosesinin nəticəsi olan konkret millət olaraq danışılır. Həmin yüzillərə qədərki bir neçə min il ərzində bu ərazidə eyni, yaxud çox yaxın dildə danışan etnosların mövcudluğu bizdə heç bir şübhə oyatmır və onların hamısı vahid Azərbaycan xalqı anlayışı altında təbii olaraq birləşir)» [1, 19-20]. Bu müddəalarda, *ilk növbədə,* məsələnin terminoloji cəhətdən izahı etiraz doğurur. Belə ki, «mifoloji görüşlər» anlayışı «mifologiya»ya qarşı qoyulur, belə çıxır ki, mifoloji görüşlər bir şey, mifologiya isə tamamilə başqa şeydir, əslində isə mifologiya mifoloji görüşlərin toplusu və sistemidir. Necə ola bilər ki, bir xalqın mifoloji görüşləri mövcud olsun, amma mifologiyası, mifoloji sistemi olmasın. Birincisi, ona görə ki, Azərbaycanda türklərin əsaslı şəkildə kök salmasının - millətləşməsinin tarixini 500-600 il əvvəldən başlanmasını deməklə keçmiş sovet tarixşünaslığının «nailiyyətlərinə» haqq qazandırılır.

*İkincisi,* Azərbaycan tarixinin XIV -XVI əsrlərə qədərki tarixini şübhə altına almaq ənənəsinə xidmət edən fikirləri müasir terminlərlə yüklənməsi baxımından yaraşıqlı görünür, lakin ululuğunu, qədimliyini xarici alimlərin belə tutarlı dəlillərlə dəfələrlə təsdiqlədikləri Azərbaycan türklərini bu qədər «cavanlaşdırmaqla» öz mifologiyasının olmaması qənaətinə gəlir: «Göstərilən dövrdə formalaşmış olan Azərbaycan etnosu aydın məsələdir ki, mifoloji düşüncə ilə yaşamırdı və deməli, mifoloji sistem yarada bilməzdi» [1, 20].

*Üçüncüsü,* həmin qənaətlərlə razılaşsaq, onda eyni qayda ilə yunan mifologiyasını şübhə altına alıb ona da «mifoloji görüşlər» adı verməliyik. Çünki bizə məlum olan antik mifoloji sistem yunanların millət kimi formalaşmasından çox-çox əvvəlki dövrlərin məhsuludur. Hətta buraya dil faktorunu da əlavə etmək olar: mifləri meydana gətirən

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

şəkildə (millət halına düşən yunanların anlamadığı əski yunan və ölü latın dillərində) danışırdılar. Hətta miflərin yazıya alındığı dövrün dili belə yunan milləti üçün anlaşılmaz olmuşdur.

*Dördüncüsü,* A.Acalovun gəldiyi son nəticə bundan ibarətdir ki, «türk mifologiyası» termini daha məqbuldur və anlayışın mahiyyətini daha düzgün ifadə edir» [1, 21]. Lakin əvvəldə verdiyi hökmlər («Bir qədər qədimlərə getdikdə isə artıq nəinki ayrıca Azərbaycan dilindən, ümumiyyətlə, heç bir müstəqil türk dilindən söhbət gedə bilməz») olmasaydı, qarşısına «Azərbaycan» sözünü artırmaqla bu fikrə bəraət qazandırmaq olardı. Beləliklə, A.Acalovun tezislərində bir-birini inkar edən üç qənaətlə rastlaşırıq: a) əvvəl Azərbaycanda türkün əsaslı şəkildə möhkəmlənib guya XIV-XVI yüzilliklərdə millətə çevrilməsi «faktı»na söykənərək mifologiyanın yoxluğundan, «mifoloji görüşlərin» (?) isə varlığından danışır, b) sonra, ümumiyyətlə, türk dilinin qədimlərdə Azərbaycanda mövcudluğuna etirazını bildirir, v) nəhayət, tezliklə bunu da unudub «türk mifologiyası» terminini daha məqbul sayır. Belə alınır ki, Azərbaycanda 500-600 il əvvəl millət formalaşanda gəlmə türk etnosu üstünlük təşkil etmiş, ya yerli əhalini tamamilə sıradan çıxarmış, ya da qısa müddətdə öz dilini və əski mifologiyasını hansı yollasa onların yaddaşlarına yeritmişdir. Bu, Qrimm qardaşlarının arilərin Avropada yaşayan başqa xalqların içərisinə yayılarkən allahlar haqqındakı miflərini özləri ilə aparıb onlara bağışlaması ideyasına bənzəyir.

Bu məsələ üzərində geniş dayanmağımızın səbəbi odur ki, belə mülahizələrə əsaslanaraq «Azərbaycanın mifologiyası yoxdur» (mifologiyası olmayan xalq isə öz ululuğundan, qədimliyindən danışa bilməz) kimi əsassız qənaətlər tez-tez söylənilir. Əslində isə dünyanın bütün xalqlarında olduğu kimi, Azərbaycan türklərinin də bir sıra cəhətləri ilə başqalarınınkından seçilən mifologiyası mövcuddur. Qədim mənbələrini müəyyənləşdirib onları bərpa etsək, böyük bir xəzinəni bataqlıqdan çıxarmış olarıq. Azərbaycan miflərini özündə əks etdirən qaynaqlar olduqca çoxdur. Hətta onları sistemləşdirib qruplaşdırmaq mümkündür. Beləliklə, Azərbaycan miflərini ilkin ədəbi-tarixi abidələrdə, dini kitablarda, arxeoloji qazıntıların yekunlarında, dini təsəvvürlərdə, yurdumuzun qədim tarixi, mədəniyyəti və etnoqrafiyasına aid yunan, ərəb, İran, hind və Çin mənbələrindəki məlumatlarda, nağıl, dastan, əfsanə və başqa folklor qaynaqlarında, yazıya alınmış qəhrəmanlıq eposlarında, klassik ədəbiyyatda və qədim dövr şair, filosof və mütəfəkkirlərimizin əsərlərində, dünya xalqlarının mifologiyasını tədqiq edən Avropa və Asiya alimlərinin tədqiqatlarında, XIX-XX əsr rus və Azərbaycan mətbuatında, Azərbaycan folklorşünaslarının araşdırma və toplularında, xalq ritual və inanclarında axtarmaq lazımdır.

Əsatiri-mifik qaynaqların Azərbaycan xalqının ululuğunu, dünyanın ilk sakinləri sırasında durduğunu göstərən ilk insan məskənlərində (Azıx mağarası, Qobustan qayalıqları və s.) yaranması şübhəsizdir. Oradakı daşlar, qayalar ulu babalarımızın ən əski rituallarının, kultlarının şahidləridir. Şahid qayaların bir neçəsinin üstündə ibtidai əcdadlarımızın əlləri ilə yonulan günəş, insan, heyvan şəkilləri və qəribə fiqurlar, naxışlar bu günədək qorunub saxlanmışdır. Ulu əcdadlarımız rəsmləri qayalara cızmaqla müxtəlif mifləri həmişəlik yaşatmışlar.

İlkin ədəbi-tarixi abidələrdə, dini kitablarda, arxeoloji qazıntılar zamanı tapılan müxtəlif məişət əşyalarının, silah və sursatların üstündə mif motivlərini əks etdirən işarə, naxış və qrafik şəkillərə təsadüf olunur ki, onların mif sistemlərinin bərpasında böyük əhəmiyyəti vardır. Bu işarələr nənə-babalarımız tərəfindən sonralar xalçaların üzərinə köçürülmüşdür. Azərbaycanın qədim toxumalarında dünyanın yaranması haqqında mifik təsəvvürün bütöv mətnlərinin əks olunması şübhəsizdir. Onların kodunun açılması yolunda uğurlu addımlar atılır.

Ancaq buna baxmayaraq, təəssüf ki, torpaqlarımızda aramsız qanlı müharibələr getdiyindən, ox-yaydan, qılıncdan daha çox musiqiyə, şeirə, sənətə üstünlük verən ulularımızla yanaşı, onların yaratdıqları abidələr də ya məhv edilmiş, ya da başqa ölkələrə aparılmışdır; bu zaman ancaq yadların özlərinə sərf edən hissələr perqamentlərdən, əlyazma kitablardan götürülmüş, orijinal mətnlər isə oda qalanmışdır. Məsələn, ilkin olaraq on iki min inək dərisi üzərində qızıl hərflərlə Azərbaycan ərazisində yerləşən qədim Midiy

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

etnosudur) dilində yazıya alınan «Avesta» Makedoniyalı İsgəndər tərəfindən Yunanıstana göndərilmiş, avropalıların ürəklərinə yatan hissələr yunan dilinə çevrildikdən sonra orijinal mətn məhv edilmişdir. Sonradan midiyalılara məxsus bu nəhəng abidənin cüzi hissəsi ancaq qədim pəhləvi və sindi dillərində bərpa edilmişdir. Bununla xalqımızın neçə min illik tarixinə kölgə salınmışdır. Ona görə də yurdumuzun qədim tarixi, etnoqrafiyası, mədəniyyətinə aid məlumatları yunan, ərəb, İran, hind, Çin və b. ölkələrin əski sənədlərinin arasından axtarmaq, damcı-damcı da olsa, tapıb illərlə boş qalan susuz gölləri doldurmaq lazımdır.

Azərbaycan öz geopolitik mövqeyinə görə Şərqlə Qərbi birləşdirən karvan yolunun üstündə olduğundan tacirlər, səyyahlar, bilicilər, şeir-sənət hamiləri yurdumuzda yaşayan insanların adət-ənənələri, dünyagörüşü, yaratdıqları barədə əldə etdiklərini də özləri ilə bir üzü Şərqə, bir üzü Qərbə daşımışlar. Ona görə də başqa xalqlara aid bir sıra mötəbər kitablarda yurdumuzla bağlı maraqlı yazılara rast gəlirik. Herodotun, Strabonun, Plutarkın və başqalarının qələmi ilə ulu babalarımızın həyatının ən qədim çağlarına az da olsa, aydınlıq gətirilir. İlk «Tarix» (Herodot) kitabına düşən «Astiaq» və «Tomris» rəvayətləri ilə bir sıra mif sistemlərinin (xüsusilə tale mifi) ömrü uzadılır. Roma mifologiyasında ilkin dövlətçilik görüşləri əks olunur ki, bunu mədəni aləmin başlanğıcı hesab edirlər. Romul və Rem Romanı düşmən hücumlarından və daxili xəyanətkarlardan qorumaq üçün xüsusi icra mexanizmi olan yeni birlik yaradırlar. Astiyaqın ulu babası Deiyokun Midiya dövləti qurması haqqında Herodotun verdiyi məlumatlar göstərir ki, Azərbaycan mifoloji təsəvvüründə dövlətin daha mükəmməl modeli qurulmuşdur.

Əski Şərqin ən əski mifoloji-dini sistemi olan atəşpərəstliyin və onun banisi, peyğəmbər Zoroastrın yurdumuzla bağlamasını nəzərə alsaq, «Avesta» miflərimiz toplanan əski qaynaqlar sırasında ən mötəbər yerlərdən birini tutur. Doğrudur, «Avesta»nın Azərbaycanda (Midiyada) yaranan orijinalı Makedoniyalı İsgəndər tərəfindən yandırıldığından, çox-çox sonralar zoroastrizmi dövlət dini kimi qəbul edən iranlılar yaddaşlardan toplayıb, yenidən peyğəmbərin ana dilində deyil, qədim pəhləvicə bərpa etdiyindən, midiyalıların mənafeyinə uyğun hissələr atılaraq pəhləviləşdirilmişdir. Buna görə də bütün dünya «Avesta»nı yalnız İran abidəsi kimi tanıyır. Lakin «Avesta»da olan mifik görüşlərdə ulu torpaqda midiyalıları əvəz edən azərbaycanlıların da payı vardır.

Alim-yazıçı Y.V.Çəmənzəminli mifləri nağıllar əsasında bərpa etməyə (bu klassik üsulun baniləri «Mifoloji məktəb» və «İqtibas» nəzəriyyələrinin nümayəndələridir) təşəbbüs göstərən ilk Azərbaycan tədqiqatçısıdır. Onun qənaətinə görə, miflər məhz zərdüştçülüyün işığında aydınlaşdırıla bilər. Bəzi tədqiqatçılar isə, yalnız türk faktorunu ortaya atırlar. «Avesta»da olan ikili dünya formulu öz rüşeymlərini türkün Urgen-Yerlik qarşılaşmasından götürə bilər. Yaxud əksinə. Əslində xeyir-şər qarşılaşmasının mənşəyi daha dərinlərdə – qışla yazın mübarizəsi motivlərində axtarılmalıdır. Ona görə də folklorumuzdan və yazılı ədəbiyyatımızdan qırmızı xətlə keçən arxetipik simvolların - xeyir-şər, qaranlıq-işıq, soyuq-isti, yerüstü-yeraltı dünya, və s. mifik təsəvvürlərin kökünü təkcə şamançılıqla və atəşpərəstliklə əlaqələndirmək heç də uğurlu nəticə verməz.

Folklor yaradıcılığının elə bir janrı yoxdur ki, miflərdən mayalanmasın. Atalar sözündən tutmuş çoxşaxəli süjetə malik eposlaradək hər bir folklor nümunəsini diqqətlə saf-çürük etsək və əski kitablardan («Avesta» və «Dədə Qorqud» kimi) bizə məlum olan görüş sistemlərinin süzgəcindən keçirsək Azərbaycan türklərinin mifoloji modelləri haqqında tam təsəvvürə malik olarıq.

Azərbaycan-türk mifoloji dünya modelinin bərpasının ən mühüm qaynaqlarından birini Oğuznamə eposu təşkil edir. Mifoloq S.Rzasoyun yazdığı kimi: «Oğuznamə eposu Oğuz mifinin transformativ paradiqmalar sistemi kimi çox geniş və zəngin material verir Bunu bütövlükdə əhatə etmək nəhəng işdir. Təkcə Oğuznamə eposunun janr strukturu, hər bir janrı əhatə edən mətnin poetik strukturu, bu strukturu təşkil edən qatlar, onlardakı elementlər, onların düzüm prinsip və mexanizmləri, nəhayət, funksional dinamikası (necə işləməsi) son dərəcə zəngin informasiya vermək qüdrətindədir» [2, 6-7].

Miflərimizi özündə əks etdirib yaşadan «Kitabi-Dədə Qorqud» oğuznamələri ən gərəkli mənbədir. Həm ilkin türk təsəvvürləri, həm də Qafqaz mü

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mifologiyasını belə qidalandıran ən arxaik görüşlər onun içərisində sintez edilir. Bu mənada «Kitabi-Dədə Qorqud»u Azərbaycan türk mifologiyasının «İliada»sı, «Odisseya»sı, «Bilqamış»ı, «Riqveda»sı hesab etmək olar.

Azərbaycan klassik ədəbiyyatının qədim dövrlərinə nəzər salanda diqqətdən yayınan bir məsələyə heyran qalmamaq mümkün deyil. İndiyədək yazılı epik ənənədə «rəsmi hissə» kimi qəbul edilən (minacat, tövhid, nət, sitayiş, yaradan haqqında) poema, dastan başlanğıclarına dini don geyindirib təhlildən kənarda qoymuşduq. Lakin Qətran Təbrizi, Xaqani, Nizami, Əvhədi, Füzuli kimi klassik söz sənətkarlarının poetik irsinin həmin hissəsində islam mifoloji görüşləri ilə yanaşı, dünyanın yaranması haqqında xalqımızın daha qədim spesifik inamlarına rast gəlirik. Onların əsərlərinin süjetində mühüm əhəmiyyət kəsb edən hadisələrin də əksəriyyətinin miflərdən yoğrulduğunu görməmək mümkün deyil. Azərbaycanın Gəncə şəhərində doğulub yaşamış, Türk Atabəylər sülaləsinin vəliəhdlərinin müəllimi olmuş Əbu-Bəkr ibn Xosrov əl-Ustadın (XII əsr) «Munisnamə» əsərində (1920-ci ildə Azərbaycandan aparılan yeganə əlyazma nüsxəsi Londonda saxlanılır) bütöv bir mif sistemindən ibarət - göy cisimləri, dünya, kainat, varlıqların yaranması, təbiət hadisələrinin, heyvanat, bitki aləminin mənbəyi, insan nəslinin mənşəyi haqqında təsəvvürlər verilmişdir. Bura Nizaminin, Məsihinin astral görüşlərini də əlavə etmək olar. Deməli, klassik ədəbiyyat mif modellərinin bərpasına zəngin material verən qaynaq kimi də qiymətlidir.

Öz strukturunda zamanının mifoloji mahiyyətini nəzərdə tutan bölgünü Məhəmməd Füzuli beş yüz il qabaq aparmış və özünəməxsus şəkildə şərh etmişdir. Onun «Mətləül-etiqad» əsərində oxuyuruq: «Aləm qədimdir; çünki o tam səbəbdən dərhal nəşət etmişdir. Buna görə də aləmdən əvvəl yoxluğun olmaması (yəni mifik zamanın - R.Q.) lazım gəlir; çünki ilkinlik zaman tələb edir. Zaman isə varlığa aid olunduğundan, yoxluqla bir araya sığmaz» [3, 110]. Şair demək istəyir ki, zamandan söz açılırsa, nəyinsə mövcudluğu təsəvvürə gətirilməlidir. Məkan, varlıq yoxdursa, zaman da yoxdur. Mifik zamana münasibət də bu şəkildədir. Mifik zaman yoxluq zamanı deyil, dünyada mövcud olanların meydana gəlməyə başladığı zamandır. Füzuli Yunan filosoflarının fikirlərini ümumiləşdirərək belə qənaətə gəlir ki, sonradan törəyən öz yoxluğundan qabaq mövcud ola bilməz. Bu mənada varlığı iki qismə ayırır: birincisi, mütləq varlıqdır ki, Tanrının varlığı buna misaldır. Belə varlıq dəyişilməzdir və başqasından alınmamışdır. İkincisi, əldə edilən, sonradan alınan varlıqdır. Belə varlıq dəyişilləndir və başqasının yardımı ilə meydana gətirilir. Miflərin dili ilə desək, dünyanın və onun ayrı-ayrı elementlərinin yaranması «mütləq varlığın» - tanrının yardımı ilə həyata keçirilir. Füzuli zamanı müasir alimlər kimi təsnif edir:

| ELMİ BÖLGÜ | FÜZULİNİN BÖLGÜSÜ |
|---|---|
| 1.Mifik zaman<br>2.Emprik - tarixi zaman | Qədimi-zamani<br>Qədimi-zati |

Şairin verdiyi izahatı mifoloji zaman haqqındakı çağdaş bilgilər kontekstində dəyərləndirsək, E.M.Meletinskinin «mifik zaman» anlayışı haqqında söylədikləri ilə üst-üstə düşən qənaətləri görməmək mümkün deyil: «Qədim iki cürədir. Bunlardan birisi zatən qədimdir («qədimi-zati»), yəni o öz varlığı etibarilə başqasına möhtac deyildir.

Füzulidə mifologiya dünya haqqında bilgilər sistemi kimi, «tanrı elmi» mənasına gəlir: «Elm iki cürdür: birisi, Hüzuri - yəni bildirmə vasitəsindən asılı olmayan elmdir (Şair bəlkə də mifik görüşlərdən, əsatirlərdən doğan bilgiləri nəzərdə tutur). Məsələn, Tanrının bütün məfhumlar haqqındakı elmi (dünya modeli, zaman və məkan haqqındakı mifik məlumatlar) və yaxud bizim öz varlığımız (ilk insanın yaranması barədəki miflər) haqqındakı elmimiz belədir. Digəri Hüsuli, yəni vasitədən asılı olan elmdir. Məsələn, bizim bəzi şeylərin mahiyyətləri haqqındakı elmimiz belədir. Belə bir elmə bilik də deyilir; çünki bu elmin bir bildirənə ehtiyacı vardır». Şair düzgün olaraq insanın topla-dığı hər cür məlumatı, yaxud müxtəlif yollarla, vasitələrlə əldə olunan biliklərin hamısını elm hesab etmir, kon

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mürəkkəb şeyləri dərk etməyi», «təfərrüat və yaxud sadə şeyləri anlamağı», dünyadakı varlıqların mahiyyətinə varmağı əsl bilik (mərifət) və elm sayır: «Demək olmaz ki, təfərrüatın dərk edilməsi biliyə (mərifətə) xasdır, belə bir bilik tanrıya mənsub edilməzsə, belə nəticə çıxır ki, guya tanrı təfərrüatı dərk etmir; bu, filosofların fikridir. Halbuki, tanrı külliyyatla birlikdə və eyni zamanda ayrı-ayrı təfərrüatın biliyindən asılı olmadan, hərtərəfli olaraq dərk edir. Həmçinin (bəziləri) demişlər ki, təfərrüatın dərk edilməsi ilə külli bir məfhum da dərk edilir; çünki külli məfhum həmin məfhumun təfərrüatının biliyindən ibarətdir. Bu mənada olan bilik elm adı daşıyır və insana alim deyildiyi kimi, arif də deyilir» [3, 108].

Diqqətçəkicidir ki, antik çağın yunan tarixçiləri və mifologiyanı dünya miqyasında araşdıran Avropa tədqiqatçıları da öz əsərlərində, cüzi də olsa, azərbaycanlıların ibtidai görüşlərinə yer ayırmışlar. C.Frezer «ikinci doğuşdan» danışanda bildirirdi ki, «Qafqaz türklərində oğulluğa götürmə adi hadisədir, mərasim ondan ibarətdir ki, oğulluğa götürülən yeni ananın köynəyindən keçirilir, ona görə də türkcə «adamı köynəyindən keçir» anlayışı «oğulluğa götür» mənasını verir» [326, 256]. Məgər bu, «Koroğlu» eposundakı Nigarın Eyvazı oğulluğa götürməsinin analoqu deyilmi? Alim nağıllarımızda tez-tez rastlaşdığımız «kiçik qardaşa üstünlük verilməsi» məsələsinə aydınlıq gətirən orijinal fikirlər söyləyir və yas mərasimi haqqında yazır ki, «qədimlərdə türklər ölüləri üçün ağlayanda üzlərini bıçaqla elə kəsirdilər ki, qan damcıları yanaqlarında göz yaşları ilə yanaşı axırdı» [4, 450]. Azərbaycanlıların qamlara aid mifik görüşlərində göstərilir ki, insanın ruhu bədənindən ayrılıb yeraltı dünyaya gedir və orada şər qüvvələr ona olmazın əzab-əziyyət verir. Yer üzündə qalan qohumları ağlayıb üz-gözlərini dırnaqları ilə, ya da iti bıçaqla yaralayırdılar. Duzlu göz yaşları fışqıran qana qarışıb üz-gözünə yayılır və torpağın üstünə axırdı. Bununla elə zənn edirdilər ki, isti qanlarını qara yerdəki şər qüvvələrin üstünə səpirlər. Qan şər ruhları gücsüzləşdirdiyindən ölənin üstünə cuma bilmirlər. Xalq arasında indi də geniş işlənən «gözdən qan çıxartmaq», «gözü qanlı», «gözlərindən qan damar» ifadələrinin kökü C.Frezerin nişan verdiyi adətlə və mifik təsəvvürlə bağlıdır. Əslində duzlu göz yaşı üzün kəsilmiş hissəsini yuduqda insan bərk ağrı çəkir, ulu əcdad bununla mərhumun o dünyadakı acılarına şərik çıxdığını anlayırdı. Klassik saz-söz ustalarının qoşma, təcnis və ustadnamələrində həmin təsəvvürə əsaslanan ifadə vasitələrindən sənətkarlıqla istifadə olunduğunun şahidi olunur. Aşıq Abbas Tufarqanlı «Nə baxırsan, gözü qanlı haramı?» misrası ilə başlanan qoşmasında yarının qapısında üzünün qanını tökdüyü üçün daha heç kəsə pis nəzərlə baxmır:

Yarın qapısında yüz qan eylədim,
Əl uzatdım, çəkdim, üz qan eylədim,
Bir könülə dəydim, yüz qan eylədim,
Daha bir kəsinən yaman deyiləm. [5, 18]

Yaxud yarını zorla ayırıb hökmdarın hərəmxanasına aparılmasını biləndə düşdüyü halı ölüsünün üstündə üzünü yarıb göz yaşı yerinə qan axıdan ulu babalarının çəkdiyi acı ilə müqayisə edir:

Şah hökmüylə xan üstünə xan getdi,
Ağlar didəm, yaş yerinə qan getdi... [5, 19]

XIX əsr etnoloqu C.Frezerin «Qızıl budaq» və başqa əsərlərində yurdumuzla bağlı ilkin mif sistemlərinin şərhinə aid onlarla fakta rast gəlirik. C.Frezer az qala, xristian xalqlarının əksəriyyətinin dilində işlənən «Buraxılmaq üçün seçilən keçi» («Козель для отпушения») anlayışının əsasında duran mifin də köklərini Azərbaycanda axtarır. O, yazır ki, Şərqi Qafqazda yaşayan albanlar* Ay məbədində «müqəddəs» qullar saxlayırdılar ki, onların çoxu peyğəmbərlik xəstəliyinə tutulurdu.

Qullardan hansında hond tayfalarında olduğu kimi (hondların təsəvvüründə allah bayram vaxtı bir nəfəri seçir, tayfanın bütün günahlarını onun üstünə yıxıb çöllərə salır, ağlını başından alır) havalanmaq nişanələri birinci üzə çıxırdısa, məbəddən çıxıb meşədə özbaşına gəzib dolaşırdısa, baş kahin onu müqəddəs zəncirlə bağlayırdı [4, 535]. Bir il bu qulu yağ-bal içərisində bəsləyirdilər, sonra onu aparıb tanrılara həsr olunan mərasimdə qurban edirdilər. Belə ki, kütlənin içərisindən çıxan əli nizəli şəxs əvvəl nişan alıb «r

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

vururdu. İcmanın gələcəkdə uğur qazanıb-qazanmayacağı nizənin qulun düz ürəyinə dəyib yıxılmasından, canını o dəqiqə allaha tapşırmasından asılı olurdu. Sonra cəsədi xüsusi ayrılmış yerə aparırdılar və orada günahlarını yumaq üçün icma üzvlərinin hamısı meyiti tapdalayıb o tərəfə keçirdi. Ay məbədində olan başqa qulları isə aparıb meşənin dərinliklərində sərbəst buraxırdılar. C.Frezer həmin mərasimin keçi ilə əvəzlənən formasının başqa xalqlara keçdiyini bildirir. Mənbələrdə yəhudi və xristianların *«Козель для отпущения»* (bu kəlmələr hal-hazırda rus dilində məsəl kimi işlənir) ritualı geniş şərh olunur və Qafqaz albanlarının insanla bağlı keçirilən adətini xatırladır. Böyük «Günahları bağışlama günü» yəhudilər xüsusi mərasim təşkil edirdilər: iki keçi gətirib Tanrının (yəni bütün) qarşısına qoyurdular; sonra püşk atıb keçilərdən hansının qurban verilməsini, hansının səhraya aparılıb sərbəst buraxılmasını müəyyənləşdirirdilər. Birincini onlar qandallayıb günahlarının əvəzinə qurban edirdilər. Yəhudilərin baş kahini əlini kəsilən keçinin başına qoyub öz xalqının günahlarını onun üzərinə köçürürdü, digər heyvanın səhradan sağ-salamat qayıtması Allah tərəfindən bağışlanmaları, susuzluqdan ölməsi isə əksinə ikiqat cəzalanacaqları kimi anılırdı .

XIX yüzilliyin ikinci yarısında xalq yaradıcılığına böyük marağın oyanması ilə külli miqdarda mif mətnləri yazıya alınıb etnoqrafik və folklor materialları ilə bir sırada rusdilli SMOMPK və başqa məcmuələrdə nəşr olunmuşdur. O dövrdə bu iş ənənəvi xarakter daşıyırdı, ona görə də miflərin digər mətbuat orqanı səhifələrinə də yol tapması şübhəsizdir.

Bu cəhətdən, adı çəkilən və yüzlərlə hələ araşdırılıb üzə çıxarılmayan qaynaqlara baş vurulsa, Azərbaycan türklərinin mifologiyasının bərpasına tam nail olmaq mümkündür. Və qəribədir ki, təxminən 150-180 il bundan qabaq Qrimm qardaşları, E.Taylor, F.Dits, C.Frezer və A.Düma kimi dünyaşöhrətli tədqiqatçılar, yazıçılar Avropada əyləşib Azərbaycan xalqının etnik tərkibinə daxil olan əsas etnosun adət-ənənələrini, ilkin dünyagörüşlərini, miflərini araşdırdığı halda bizdə bəziləri mifologiyamızın olmadığını elan etməyə özlərində cəsarət tapırlar.

## QAYNAQLAR

1.Acalov A. Ön söz. «Azərbaycan mifoloji mətnləri» kitabına. Tərtib edəni, ön söz və şərhlərin müəllifi. – B., Elm, 1988.
2.Rzasoy S. Oğuz mifinin paradiqmaları. B., «Səda», 2004.
3.Füzuli. Əsərləri. V cilddə. V cild. - B., Elm, 1985.
4.Фрэзер Дж. Золотая ветвь. Исследование магии и религии. Пер. с англ. М.К.Рыклина. – М.: Политиздат, 1980.
5.Aşıqlar. - B., Azərnəşr, 1960, 197 s. (təkrar nəşr).

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# TUVA VƏ ŞOR QƏHRƏMANLIQ DASTANLARINDA MIFOLOJI MOTIVLƏR

***RÖVŞƏN ƏLIZADƏ***

Tuva və Şor qəhrəmanliq dastanlarındakı zəngin mifoloji motivlər, türk dünya modelinin etnik-mədəni ənənə ölçüləri daxilində bərpasına, yaxud onun kosmoloji ve ya mifopoetik dövr olaraq dəyər qazanmasına təkan verən önəmli faktlardan sayıla bilər.

Öncə Tuva qəhrəmanlıq dastanlarına nəzər yetirsək məlum olar ki, Altay, Xakas, Şor türklərində olduğu kimi Tuva türklərində də dünya, Həyat Ağacı, ya da Kosmik Ağac vasitəsiylə birbirinə bağlanmış üç təbəqədən ibarətdir (Yuxarı-göy, orta-yer, aşağı-yer altı). Kosmoqoniya aktının ilkin motivi olaraq qeyd edilən ağacın mifik anlamı Tanrıya qovuşmağın yolu kimi yozulur. Bu halda ağac Tanrının maddi dünyadakı müqəddəs rəmzinə çevrilir, digər məqamlarda isə insanların, təbiət və cəmiyyətin bir-biriylə bağlılığını təmin edir.

Tuva türklənin mifik inamlarına görə, yuxarı dünyada Xan-Xurbusdu və xalqı; orta dünyada insanlar (xanlar və xalqları); aşağıda, yəni yeraltı dünyasında isə Erlik (Erlik-Lovun- Xan) və xalqı yaşamaqdadır (1, 8-60). Buradan aydın olur ki, Tuva türklərinin mifik təsəvvürlərindəki dünya modeli üfüqi dünya modelidir və bu da şaquli dünya modelinə adekvat olan ən əski təqdimatdır. Şaquli dünya modeli yer, yerüstü, və yeraltı dünyalara bölünməklə öz zaman-məkan ölçülərinə görə də üfüqi dünya modelindən fərqli bir paralellikdə yer alır.

Güney Sibir Türklərinin qəhrəmanlıq dastanlarında Erlik, orta dünyadakı insanlara xətər yetirdiyi üçün qəhrəmanlar vəhşilərlə dolu olan yeraltı dünyaya gedib Erliki məhv etməyə çalışırlar. Qəhrəmanların yer altına enərək Erlik və onun xalqıyla mübarizə aparması motivi "Er Töştük", "Aq Taycı" kimi digər türk etnoslarına aid olan qəhrəmanlıq dastanlarında da əksini tapır (2, 30). Qəhrəmanlıq dastanlarında Xan-Xurbusdu və Erlik-Lovun-Xandan başqa Albıs, Şulbus kimi bədxahlığı təmsil edən varlıqlardan da bəhs edilir. Xüsusilə də "Alday-Buuçu" və "Boqdu-Kiriş, Bora-Şeley" dastanlarında Erlik-Lovun-Xan, Albıs və Şulbus xeyirsiz varlıklar kimi göründüyü halda Xan-Xurbusdu, üç göyün üstündəki üç kağan- Ay-Xan, Xün-Xan və Uluq-Ege-Xan xeyirxah qüvvələr olaraq təmsil olunurlar (3, 109). Qeyd edək ki, Tuva türklərində (Tuvada və Monqolustanın Sengəl bölgəsində yaşayanlar), həm dastan, həm də nağıl janrını ifadə etmək məqsədiylə "tool" terminini işlədirlər. Qəhrəmanlıq dastanlarına "maadırlıq tool" yaxud "maadırlıq epos" deyərkən dastan üçün ayrıca "tooju" terminini də istifadə edirlər (3,25).

"Alday-Buuçu" dastanında göy, yer və yeraltından əmələ gəlmiş üç təbəqə çox aydın cizgilərlə görünür. Göyün üçüncü qatında Xan-Xurbusdu yaşayır. Alday-Buuçu, usta bir ovçu və minici olan Xan-Buuday adındakı tək oğlunu evləndirməyi düşünür və açıb baxdığı müqəddəs kitab vasitəsiylə oğlunu Xan-Xurbusdunun ən kiçik qızı ilə evləndirməyə qərar verir. Alday-Buuçunun atı Çeeren-Demiçi, yuxarı dünyaya, göyün üçüncü qatına çıxaraq qızı qaçırır və qız, təşkil olunmuş toy mərasimi ilə Xan-Buudayla evlənir. Ancaq qız, gecə vaxtı üç dəfə yoxa çıxır və şaman olmaq istəyi məlum olduqdan sonra gəldiyi yerə, yəni yuxarı dünyaya geri göndərilir (3, 109). Dastanın bu parçasındakı Xan-Xurbusdu obrazı statusu, parametrləri baxımından "Göy oğlu" mifinə yaxınlaşır. Və müyyən cizgiləriylə Bay Ülgenlə birləşir, çünki Ülgen də "əbədi göy"ün oğludur. Xan-Xurbusdu birinci xaqan kimi Göy Tanrının təmsilçisi və orta dünyanın qoruyucusu kimi çıxış edir. Xan-Xurbusdunun qızı da bu parçada göy qızı olaraq görünür ki, bu mifik element də Ülgenin qızları olan "Tanrı qızları"(4,138) ilə eyni semantik cərgədə dayana bilir. Eyni zamanda Xan-Xurbusdunun qızı ilkin qadın şamanla bağlı olan mifdən qaynaqlanan arxetipdir. Mifin gerçəkliklə iç-içə olması anlamında da qızın, yaxud qadının qam-şaman olaraq rolu təsiredici və dastandakı olayların yönünü dəyişdirməsi baxımından ciddi hadisədir. Bizcə, Prof. Ö.Çobanoğlunun ifadəsi də iddiamızı daha aydın şəkildə isbatlamış olar: "Buna bağlı olaraq da, ilk qadın şamanların miflərin və mifologiyanın ortaya çıxmasındakı yeri və rolu daha dürüst qavranıla bilir. Şamanlığı qadın inhisarından çıxaran və kişi müstəqilliyini təsis edən, mis, dəmir və digər metallurgiya texnologiyasına əsaslanan inkişafların sakrallaşdırdığı "dəmirçilik" bu çevrilmənin izlərini dastanlarda saxlamışdır" (5, 115).

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Alday-Buuçu" dastanında ümumaltay mifologiyasının cizgilərini özündə əks etdirən əsas obrazlardan biri də Erlik-Lovun-Xandır. Monqol şaman mətnlərindən hətta "Erlik Tenqri"(6,131) olaraq bilinən bu obraz dastanda fövqəladə özəlliklər daşıyan gücə sahibdir. Erlik Xanın Buudayın arvadını qaçırması, bir dəfə bağırmasıyla Xan-Buudayı öldürməsi (3, 99), Albıs, Şulbus kimiköməkçilərinin olması, qızıl sarayda yaşaması və digər diqqəti çəkən təsvirlərdə görünməsi onun yeraltı səltənət sahibi kimi statusunu büruzə vermiş olur. Xakaslarda adına İrlik deyilən bu mifoloji obraz Altay-Sayan türklərinin şamanist inanclarında ilk dəmirçidir. Q.Potaninin elmi fikirlərində qeyd edilir ki, altaylılar Erliki əldə ilan tutmuş kimi təsəvvür edirdilər (7,157). Bəzi tədqiqatçıların onu türk mənşəli varlıq hesab edə bilməməsinə dair fikirlər isə ciddi faktlara deyil, subyektiv, qeyri-elmi mülahizələrə istinadən irəli sürülmüşdür. Erlik xanın türk mənşəli mifoloji obraz olmasını saqay mifləri və altay şaman duaları da təsdiqləyə bilir. Saqay miflərindən bəlli olur ki, "Erlik" sözü yer altındakı bütün xtonik güclərə verilən ümumi adı ifadə edir və başçıları Erlik xan adı ilə tanınır (8,117). Altay şaman dualarında Erlik xanın "Kayraxan" adı ilə şifrələnməsi də (9,20) bu obrazın türk mənşəli mifoloji varlıq olaraq bilinməsində əsas faktlardan sayılmalıdır. Altay inanclarında Ülgendən fərqli olaraq Erlik şər başlanğıcı təmsil etməsiylə, eyni zamanda ilk şaman sferasında yer alır. Bu inancların bəzisində Erliki Ülgenin yaratması, bəzilərində isə onların qardaş olmasıyla bağlı izlərə də rast gəlinir. Erlikin özü və idarəsi altında olanların sözügedən dastandakı təsviri isə şamanizm elementləriylə bağlıdır ki, bu da onu funksiyasına görə qarışıq və ziddiyətli şəklə salır. Bu mürəkkəbliyin səbəblərindən biri kimi, Erlik obrazının müxtəlif mətnlərdə fərqli paradiqmalarda görünməsini, yaxud onun məruz qaldığı transformasiyaları göstərmək mümkündür.

Tuva qəhrəmanlıq dastanlarında ən qabarıq mifoloji cizgilərdən biri də ölüb-dirilmə motividir. Dastanlardakı düşmənlər, qısqanc bacı və qardaş arvadları tərəfindən öldürülən kişi və qadın qəhrəmanlar, cadu-sehr, şəfalı otlar, ölümə səbəb olan nəsnələrin ortadan qaldırılması kimi vasitələrlə yenidən dirilərək mübarizələrinə qaldıqları yerdən davam edirlər (3, 188). "Alday-Buuçu" dastanında Xan-Buuday geri döndüyü zaman ər-arvada söz verdiyi kimi öldürdüyü oğullarını şəfalı otlarla sağaldıb təkrar həyata qaytarır. Dastanda Erlik-Lovun-Xan tərəfindən bağrı çatladılıb öldürülən Xan-Buuday, öncə Erlik-Lovun-Xan tərəfindən yarı canlı vəziyyətə gətirilir, sonra arvadının üstündən iki dəfə atılmasıyla dirilir (3,188). Digər tuva türk dastanı olan "Boqdu-Kiriş, Bora-Şeeley" dastanında isə qardaşı Bora-Şeeley Amırga-Qara-Moos tərəfindən öldürülən Boqdu-Kiriş, qardaşını ardıç ilə təmizləyib baldırının ətini kəsərək qanını sürtür, dərman otunu ağzına tutub yedirdərək diriltdir (3,189). Ölüb-dirilmə motivinin fərqli bir şəklini qırğızların "Manas" dastanından da izləyə bilirik: "Manas zəhərli balı yedikdən az sonra yuxusu gəlir. Kiliminin üstündə qıvrılaraq yatmağa başlayır, amma bir daha bu yuxudan oyana bilməz. Manas ölmüşdür. Onun ölümünün ardından anası, atası, bacıları yaşamlarına qarğış yağdırırlar. Maddi vəziyyətləri pisləşir. Məcbur olub əkinçiliyə başlayırlar. Belə bir vaxtda gəlin kimi gəlmiş amma hələ gəlinlik edə bilməmiş Kanıkey, Manasın ailəsinə kömək etməyə başlayır. Manasın məzarı başından atı, quşu və tazısı heç ayrılmır və dayanmadan göz yaşı tökürlər. Onların bu əzabına dözə bilməyən Allah axırda mələklərinə Manası diriltmələri üçün əmr verir. Həmin gecə Kanıkey bir yuxu görür. Ertəsi gün yuxusunu danışdığında bunu Manasın dirilməsi şəklində yozaraq gedib onun məzarına baxırlar. Həqiqətən Manas dirilmişdir" (10,98). Qırğızlara aid edilən "Ər Töştük" dastanında da ölüb-dirilmə mifologemini görə bilirik: "İkisi savaşmağa başlayır, Çoin Qulaq, Ər Töştükü məğlub edib onun başını kəsir. Atı Çal-Quyruğu, arvadı Ağ Çenamı alır. Urum Xanın taxtına oturur. Ağ Çenamın, Çoin Qulaqdan bir oğlu olur. Çal-Quyruq sahibi Ər Töştükün müsibətinə dözməyərək onun olduğu yerə gedir, diz qapağından bir parça qoparıb udur, sonra qusaraq geri tüpürür, Ər Töştük dirilir, yatıb oyandığını sanır, atına minib evinə geri dönür. Baş vermişləri öyrənir, arvadından özündə könlü olub olmadığını soruşur" (11,45). Xakas türk dastanında isə, Altın Arıq öldürüldükdən sonra onun və atının sümüklərini tapırlar, edilən dua və mərasimlərdən sonra, Altın Arıq və atının əsllərinə görə vücud ölçüləri çox kiçik olaraq dirilmələri baş verir (12,37. Bu dastan mətnlərində yaradılışın özünəxas nizamı və həyatın əbədiliyi düşüncəsinin izləri görünməkdədir.Tuva türkl

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ölüm həyatın ziddi olan akt kimi deyil, onun davamı olaraq qəbul edilir. Əski türk xalqlarının mif, əfsanə, nağıl və dastan mətnləri ölüb-dirilmə mifologemi əsasında təşəkkül tapmış və tanrıçılıq sisteminin də ilkin məzmununu ehtiva etmişdir.

Şor dastançılıq ənənəsində digər Güney Sibir türk xalqlarının ənənəsində olduğu kimi, dastanların əvvəlində "başlanğıc"a, yəni yaradılış anına varılmaqla dastandakı hadisələrin ən qədim çağlarda baş verdiyinə diqqət yönəldilir. Ümumiyyətlə, uzun giriş formullarında, yerlə göyün birbirindən ayrıldığı, obyektlərin ilk dəfə yaradıldığı bir dönəmdən bəhs edilir, sonra isə dastanın mövzusunu təşkil edən şəxs və hadisələrin izahına keçilir (13,65). Şor dastanlarını ifadə etmək üçün əsas olaraq "kay" termini işlədilir. Əlavə olaraq "nartpaq", "nıbaq", "narpaq" və "şörcek" terminlərinin də dastan qarşılığında istifadəsi müşahidə edilir (13,23). "Kay", dastan söylərkən çıxarılan səsə və dastan söyləmə üsuluna, yəni icra üsuluna verilən addır. "Kay" sinədən və ya qırtlaqdan çıxarılan boğuq və amiranə səsdir. Sinədən çıxarılan səsə sinə kayı, qırtlaqdan çıxarılana qırtlaq kayı deyilir. "Kay" termini, Şorlardan başqa Altay, Xakas kimi türk boylarında da vardır. Bu türk boylarının kayları təməl baxımından eyni olsa da, üsulu və çıxış nöqtəsinə görə qrupdan qrupa bəzi fərqlərlə diqqəti çəkir. Hətta tayfaları əmələ gətirən qrupların kayları öz içində müxtəlif fərqlərlə görünür. Məsələn, Altay türklərini əmələ gətirən Altay-Kiji, Tuba və Telengitlərin kayları sinədən çıxarılarkən, Kumandin, Şalkandu və Bayatların kayları qırtlaqdan (damaqdan) çıxarılır. Bu vəziyyət Xakasları əmələ gətirən tayfalara da aiddir. Şorlarda daha çox qırtlaq/damaq kayı ilə qarşılaşırıq (13,24). Dastanda yer alan nümunələrdə "Yer yaradıldığı zaman, Qızıl dağ buluddan keçib böyüyərkən, Ağ dəniz sahilini aşıb daşarkən, Qızıl ququ quşu oxuduqdan sonra, heyvan quş yaradıldıqdan sonra, kürək ilə yer bölünərkən, qamış ilə su bölünərkən" (13,65) kimi ifadələr bizi doğrudan da yerin və göyün yaradıldığı ana, yəni, "başlanğıc"a aparır. Şor qəhrəmanlıq dastanlarında Tanrı, (Ülgen, Quday, Üç Yaradıcı, Doqquz Yaradıcı, Şeytan (Erlik) və yeraltı ruhları önəmli bir sahəni əhatə edir. Bəzi zaman kəsimlərində dastan qəhrəmanlarını göyün qatlarından yerə endirən; alplara, bahadırlara minəcəkləri atları göndərən, daşıyacaqları adları verən Tanrı, bəzi hallarda da evlənəcək qızları üçün göydə yarışlar təşkil edir, alpların amansızcasına savaşmalarına səbəb olur. Şor qəhrəmanlıq dastanlarında yaradıcılar, bəzi hallarda müqəddəs qayın ağaclarının təpələrində, bəzi hallarda isə göyün yeddinci qatında yaşayırlar. Dastanlarda Ülgen ilə Erlik, göyün ən yüksək hissəsi ilə yerin ən altından, yəni, ən uzaq məsafələrdən bəhs edilərkən də önümüzə çıxırlar. Belə vəziyyətlərdə, Ülgen ilə Erlikin hər hansı bir funksiyasının olmadığı; alpların, bahadırların səslərinin, hayqırtılarının göyün ən yüksək nöqtəsi ilə yerin ən altına çatdığının ifadəsi zamanı olduqları məkanlar təsvir edilir (13,68).

Şor dastanı "Altın Sırık" dastanında Altın Çıltısın oğlu Altın Şappaya arvad olacaq qadın, doqquz qat göyün üstündə oturan Doqquz Tanrının (Toğuz Çayan) ən kiçik uşağıdır. Doqquz Tanrı, qız üçün yarış təşkil etmək məqsədiylə razılaşmaqdadır. Yarışda, ata zamanından ox və at tuta bilməz doqquz tüklü oxu atacaqlar, bu oxları bu dünyada doğulmamış və böyüməmiş bir at tuta bilər. Bu oxları kim tutarsa qızı o alacaqdır. Doqquz Yaradıcının atdığı doqquz tüklü mavi oxu qardaş atlar tutub gətirirlər və Altın Şappa, Doqquz Yaradıcının ən kiçik qızları Altın Torkul ilə evlənir. Altın Sırık, Doqquz Yaradıcının atdığı doqquz tüklü mavi oxu gətirdikdən sonra Doqquz Yaradıcıya oxları atdıqları üçün hirslənir. Doqquz Yaradıcının ən kiçik qızıyla evlənən Altın Şappaya Doqquz Yaradıcı tərəfindən bahadır gücü verilir. Altın Şappaya bahadır gücü verən Doqquz Yaradıcı, Altın Şappa ilə Altın Sırıka yer altı dünyasına enmələrini və orada təşkil ediləcək yarışlara qatılmalarını deyir. Yeraltı dünyasında Yeddi Erlikin uşaqları Torulvasta Ton Molot (İtməz Ton Molot) ilə Çarılvasta Ças Molot (Yıxılmaz Çaş Molot) orta dünyada (yer üstündə) Altın Şappa ilə Altın Sırıkdan başqa özlərinə meydan oxuyacaq bahadır olmadığını deyərək Altın Şappa və Altın Sırıkla döyüşmək istəyir. Altın Sırık, Yeddi Erlikin oğullarından İtməz Ton Molotla Kün Kanın yerində, Altın Şappa isə Alaca Atlı Yıxılmaz Çaş Molot ilə Ay Kanın yerində savaşacaqdır (13,76).

"Altın Sırık" dastanındakı Doqquz Yaradıcı kosmik nizamın bütövlüyünü şərtləndirən, türk millətini yüksəltmələri üçün igidlərə "kut" verən Göy Tanrıd

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

islamaqədərki ulu əcdadın da əsas inancı Göy Tanrıya ünvanlanmışdır. Bu baxımdan, Göy Tanrı inancı ətrafında təşəkkül tapmış monoteist dini, yalnız Göy Tanrı dini kimi səciyyələndirmək mümkündür. Göy üzünün sonsuzluğu, dərinliyi Göy Tanrıda cəmlənmiş, onda ehtiva olunmuşdur. Qədim türklər Göy Tanrının rəsmini çəkməmiş, heykəlini düzəltməmişlər, Ulu Tanrının – Göy Tanrının ucalığını dərk edərək, ona səcdə etmişlər"(14,26). Türk inanc sistemində geniş yayılmış göyə tapınma motivləri, Şor qəhrəmanlıq dastanının bəhs edilən mətnində yenə də türk etnik-mədəni ənənəsinin qanunauyğunluqları kimi əksini tapır. Bu reallığa söykənərək iddia edirik ki, qədim türk təsəvvüründə göyün maddi anlamının, rənginin get-gedə sakrallaşması onun dini mahiyyət qazanmasına səbəb olmuş və nəhayət "Göy-Tanrı"nı tək türk Tanrısı olaraq tapınma yerinə çevirmişdir. Mif mətnlərində göylə yerin bir olması və insanın (xaqanın) bu bütövlükdə düşünülməsi sonucu, bu üçlü vəhdət idraklarda ayrılmazlıq təşkil etmişdir. Təsadüfi deyil ki, Göytürklər xaqanlarını "Tenqridə bolmuş", yəni "göydə olmuş" kimi təqdim edirdilər.

"Altın Sırık" dastanındakı göyə ox atma ritualı isə qam-şaman mərasimlərindəki epizodlardan qaynaqlanır. "Araşdırıcılar folklor, etnoqrafik materiallar əsasında bu qənaətə gəlirlər ki, ilkin çağlarda şamanlar qamlıq etmə mərasimini davulla deyil, məhz oxla keçirərmişlər" (4,287). Qədim türklərin Tanrının başlıca silahı zənn etdikləri ildırımın çaxmasını xeyrə yozmaları və şadlıqlarını göyə ox atmaqla bildirmələri aktı bu baxımdan kult mənşəli ayinlərdən sayılır ki, bu da qam-şamanların ruhlardan yardım istəmələri kimi izah edilə bilər. İ.D.Xlopina şorların dini mərasim və görüşləriylə bağlı yazırdı ki, bütün şaman ruhları yalnız qam-şamanın özünün anladığı dildə danışır (15,79). Prof. Füzuli Bayatın şaman haqqındakı fikirləri də bu sferanın aydınlaşması üçün maraq doğurur: "Şaman olma mərasimində dəmirçinin mərasimdən keçən şamana qılınc verməsi bir daha sübut edir ki, əski çağlarda şaman həm tayfanın, həm də öz tayfasından olan döyüşçülərin başçısı imiş. Qamlıq vaxtı şamanın dəmir zireh geyməsi döyüşçü şamandan qalan çoxsaylı atributlardan biridir"(16,62). Əlavə olaraq qeyd edək ki, şor mətnlərində adı keçən müqəddəs qayın ağacları yenə öz semantikası baxımından "Həyat Ağacı"nın törəmə vahidləri olaraq dünya modelinin mətndəki bərpaçıları statusunda çıxış edirlər. Bu ağacların üstündə yaşayan "Yaradıcıların" bir çoxunun şamanların transformasiyası olmadığına dair fikir irəli sürmək də yanlış olardı. Tanınmış amerikan alimi J.Campbell ağacla şamanın bağlılığına dair aşağıdakı dəqiq fikirləri yazmışdır: "Ağac işarəti Sibir şamanizminin xarakterik özəlliklərindəndir. İşarət güneyin böyük ənənəsindən alınmış ola bilər, fəqət fərqli şamanlıq sınaqlarının tərtibinə uyğunlaşdırılmışdır. Votanın ağacı Yggdrasil kimi o da dünyanın mehvəridir, zirvəyə çatır. Şaman bu ağacda bəslənir və onun ağacından düzəldilən davulu transformasiya anında şamanı yenə ora aparır. Eliadenin dediyi kimi şamanın gücü özünü istədiyi zaman transformasiya vəziyyətinə gətirə bilməsində yatar. O transformasiyanın qurbanı deyildir; uçan quşun havanı istifadə etməsi kimi ona hakimdir. Davulunun sehri onu ritmin qanadlarında daşıyır, ruhani yolçuluğun qanadlarında. Davul və oyun şamanın ruhunu yüksəldir və onu ruhlarına çatdırır – başqalarına görünməyən, fəqət ona güc verən və uçmağında ona yardım edən heyvan və quşlara doğru. Və özündən getmiş transformasiya vəziyyətində olan şaman möcüzəvi işlərini reallaşdırır. Transformasiya vəziyyətində quş kimi yuxarıdakı dünyalara uçur və ya kariqu maralı, buğa və ayı kimi yerin altındakı dünyaya enir"(17,278). Bu fikirlərdə adı keçən davulun özünəməxsusluğuna diqqət yetirdiyimiz zaman onun sakral mahiyyəti aşkar olur: "Davulun düzəldildiyi material da çox zaman rəmzi mənalar daşıyır. Əsas maddəsi, ümumilikdə müqəddəs sayılan bir ağacdan alınır; nümunə olaraq türklərdə davulun halqasının düzəldiləcəyi ağac, bütün hallarda qayın və sidr ağacındandır. Eyni şəkildə davulun iç tərəfdəki sapı da bu ağaclardan düzəldilir. Bu ağac müqəddəs olan Dünya ağacına işarə etdiyi üçün, bu işə görə istifadə ediləcək ağacın insan əli dəyməmiş, ya da, hər hansı bir heyvanın murdarlamadığı bir ağac olması arzu edilir"(18,78). Bu təqdimatdan isə məlum olur ki, şamanın əski çağlardakı sözügedən missiyası sonradan hami ruh obrazına variasiya olunmuşdur. Mifik mətnlər ilkin şamanın göylərdən gəldiyini ehtiva etdiyi kimi onun yenidən göylərə yüksəlməsi hadisəsini də bildirir. Şamanlar insanla təbiət arasında mediator funksiyasını yerin

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

məkana dönməyə məhkum olurlar və bu yerdəyişmənin izlərinə bəhs etdiyimiz mətnlərdə rast gəlməkdəyik.

"Kağan Pergen" dastanında, Kara Mös ilə evlənmiş qız qardaşı tərəfindən xəyanətə məruz qalan Kan Pergen, qırx göyün yüksəkliyindən enmiş Kan Alıpın yardımlarından faydalanır, onun yardımları sayəsində obasını azad edir, Kara Mösü məhv edir. Kan Pergenin dağa ova getdiyi bir gün, bacısı Argo Xanın otağına Kara Mös gəlir və ondan özüylə evlənməsini istəyir. Qızın etirazına baxmayaraq israr edən Kara Mös, qızla toy edib evlənir. Kara Mös, atının gübrəsiylə bir yer düzəldir, gündüzləri orada gizlənir, axşam olduğu zaman yuxarı çıxıb arvadıyla birlikdə olur. Yenə bir gün qızın otağına bir bahadır girir və Kan Pergenin harada olduğunu soruşur. Qız qardaşının ova getdiyini, fəqət, ardan doqquz il keçməsinə baxmayaraq geri dönmədiyini deyir. Adı Kan Alıp olan bahadır, Kan Pergenin ölmüş ola biləcəyini deyir və qızı şeytanla evləndiyi üçün qınayır. Qız bahadıra kim olduğunu soruşduğu zaman, bahadır: "Abam çok, içəm çogul-ok, men kırık tegirenin üstündən tüşkenmın Kan çergen attıg Kan Alıppın" (13,422) deyir. Qırx göyün yüksəkliyindən enən Kan Alıp, ova gedib doqquz il ərzində dönməyən və öldüyü sanılan Kan Pergeni axtarır və onu Cez Alıpla döyüşərkən tapır. Cez Alıp qarşısında yenilmək üzərə olan Kan Pergeni kənara çəkir və onunla təkbətək döyüşə girir. Cez Alıpa məğlub olur və döyüşə təkrar Kan Pergen başlayır. Kan Alıp, Cez Alıpı məğlub edərək öldürmək istəyən Kan Pergenə onu öldürməməsini, gözəl qızını almasını, əgər öldürürsə özü üçün yaxşı olmayacağını deyir. Dastanın sonunda Kan Alıp yenidən qırxıncı göyə doğru qalxır (13,84). Bu dastan mətnində Kan Pergenin bacısı öz davranışıyla qadın arxetipini üzə çıxaran obrazdır. O Kara Mösün israrlarına qarşı müqavimət göstərə bilməməsiylə təhtəlşüurdakı dəyişməzliyi büruzə verir. Qadın dünyasının, psixologiyasının dərin qatlarını araşdırmış amerikan alimi Clarissa P. Estesin müşahidələri bu baxımdan önəmlidir: "Ümumilikdə qadınlar təcavüzkarın hücumlarıyla bağlı məsələdə son dərəcə ikifikirlidirlər, çünki bunun "aşağı tüpürsəm saqqal, yuxarı tüpürsəm bığ" vəziyyəti olduğunu düşünürlər. Qaçmazsa, qaranlıq adam nəzarətçisi, özü isə onun köləsi halına gəlir. Yox əgər qaçarsa, sanki sahibiymiş kimi amansızcasına onu təqib edər. Qadınlar, onun, yenə boyun əydirmək üçün izləməkdən vaz keçməyəcəyindən qorxarlar və bu qorxu, yuxularına da sirayət edər. Və beləcə, qadınların yox edəndən gələn hədələr qarşısında özünəxas, yaradıcı, mənalı və vəhşi olan təbiətlərini öldürmələri, sıx görülən vəziyyətdir. Qadınların Mavi saqqalın zirzəmisində skelet və cəsəd olaraq yatmalarının səbəbi budur. Tələdən xəbərdar olduqlarında iş işdən keçmişdir. Bu çətin vəziyyətdən, bu işgəncədən çıxış yolu, ancaq şüurlanmaqla (maariflənməklə) mümkündür"(19,85). Amerikan aliminin bu fikirlərində mifik qadın obrazının transformasiyalara uğramış şəklini görürük. Bu baxımdan Anadolu türk folklorundakı Sarı qız obrazının variasiya olunmuş izlərinə də rast gəlinmişdir. Ö.Çobanoğlunun bu obraz haqqında gəldiyi qənaətlərin ən qısası belə variativliyin işarəsidir: "...Sarı qız; bizim evin bərəkəti ondan gəlir..."(20,139). Məlum olur ki, Sarı qızın bərəkət hamisi olaraq şifrələnməsi hadisəsi, onun məruz qaldığı transformasiyalara baxmayaraq, mətnlərdə öz əksini tapmışdır. Və bu kimi hadisələr qadın arxetipini araşdıran, onun çözümünə çalışan psixoanalitik alimlərə istinad nöqtəsi kimi ciddi əsaslar hesab olunur.

Tuva və Şor qəhrəmanlıq dastanlarındakı mifoloji motivlərin təhlil obyektinə çevrilməsindən sonra, bu qənaətə gəlinir ki, dastanlarda bu dünya ilə o biri – yeraltı dünya arasında olan bağlantılar, ruhlar aləminin real dünyayla təmas yaratması, o biri dünyaya aid güclərin dönərgə təbiətli olaraq şəkil dəyişdirmələri daha çox ön planda təsvirini tapır və bu hadisələr mifik elementlərlə müşayiət olunur. Arxaik mifoloji köklərə dayanan obrazlar (Erlik, Şulbus və s.), dastanlarda yeraltı dünya güclərinin özəlliklərini daşımaqla bərabər dünyalar arasındakı sərhədləri müəyyənləşdirən varlıqlar kimi də görünə bilirlər. Dastanlarda kosmos və xaosu rəmzləndirən surətlərin qarşıdurmalar halında (Buuday – Erlik və Altın Sırık – İtməz Ton Molot) verilməsi kosmoloji dünya modelinin ayrı-ayrı elementləri olaraq epik təhkiyə formullarında təqdim edilir. Bu epik müstəvinin təqdim etdiyi ümumtürk dünya modelinin sözügedən mətnlərdəki variantları isə mifik substansiyalar statusunda mövqelərini qoruya bilirlər.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**ƏDƏBİYYAT**

1. Puxov İ.V. Altayskiy Narodnıy Geroiçeskiy Epos, Maaday Kara, Altayskiy Geroiçeskiy Epos. Moskva, 1973. 8-60.
2. Sarıpbekov, Raykul, Muratalı Musakov. El Adabiyatı Seriyası II Cild. Er Töştük, II Cild. Bişkek: “Şam” Baspası, 1996.
3. Metin Ergun.Mehmet Aça. Tıva kahramanlık destanları.I Cild. Ankara: Akçağ, 2004.
4. Cəlal Bəydili. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003. 418 s.
5. Özkul Çobanoğlu. Türk Dünyası Epik Destan Geleneği. Ankara: Akçağ, 2007.
6. Mifı narodov mira: Ensiklopediya, 2 tomax. T.2 / Ql.red. S.A. Tokarev, Moskva: Sov.ensiklopediya, 1982, 720 s.
7. Potanin Q.N. Qromovnik po poveryam Yujnoy Sibiri i Severn. Monqolii // Jurn. Min. Nar. Prosv., ç.SSXIX, SPb., 1882, s.116-231.
8. Alekseev N.A. Tradisionnıe reliqioznıe verovaniya tyurkoyazıçnıx narodov Sibiri. Novosibirsk, 1992, 242 s.
9. İnan A. Eski türk dini tarihi. İstanbul: MEB, 1976, 256 s.
10. Yıldız N. Manas Destanı ve Kırgız kültürü ilə İlgili Tespit ve Tahliller. Ankara, TDK Yayınları, 1995.
11. Radloff V. W. (Akt. Nurten Akça) “Er Töştük Destanı” Hacettepe Üniversitesi Türk Halkbilimi Anabilim Dalı (Basılmamış lisans tezi). 1993.
12. Özkan F. Altın Arığ Destanı. Ankara: Ahmet Yesevi Üniversitesine Yardım Vakfı, 1997.
13. Metin Ergun. Şor Kahramanlık Destanları. Ankara: Akçağ, 2006.
14. Rövşən Əlizadə. Azərbaycan folklorunda təbiət kultları. Bakı: Nurlan,2008.
15. Xlopina İ.D. İz mifoloqii i tradisionnıx verovaniy şorsev (po polevım materialam 1927 q.) / Etnoqrafiya narodov Altaya i Zapadnoy Sibiri. Novosibirsk: Nauka, 1978, s.70-89.
16. Füzuli Bayat. Oğuz Epik Ənənəsi və Oğuz Kağan dastanı. Bakı,Sabah, 1993.
17. Joseph Campbell. İlkel Mitoloji (Çeviren: Kudret Emiroğlu). 3.Baskı. Ankara: İmge Kitabevi, 2006.
18. Yaşar Çoruhlu. Türk mitolojisinin anahatları. 2.Baskı. İstanbul: Kabalcı Yayınevi,2006.
19. Clarissa P. Estes. Kurtlarla koşan kadınlar (Çeviren: Hakan Atalay). 3.Baskı. İstanbul: Ayrıntı Yayınları,2007.
20. Özkul Çobanoğlu. Türk halk kültüründə memoratlar ve halk inançları. Ankara: Akçağ, 2003.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# «KİTABİ-DƏDƏ QORQUD» DASTANI VƏ TÜRK QADINI MƏNƏVİYYATI

***ROZA EYVAZOVA***

1988--ci ildə «Yazıçı» nəşriyyatı tərəfindən buraxılan «Kitabi-Dədə Qorqud» (tərtibçi-lər: F.Zeynalov, S.Əlizadə) dastanının əvvəlində oxuyuruq: «Kitabi-Dədə Qorqud» çiçəkləri solmaq bilməyən, əbədi təzə-tər qalan, zaman-zaman nəsilləri heyran qoyan bir sənət gülşənidir. Bu kitabı cəsarətlə Azərbaycan şifahi və yazılı ədəbiyyatının babası adlandırmaq olar. Qədim ədəbiyyatımızın təlqin və təqdir etdiyi müdrik, mənalı fikirlər, zərif bəşəri duyğular öz başlanğıcını böyük «Kitabi-Dədə Qorqud» nəhrindən götürür. «Kitabi-Dədə Qorqud» lakonik olduğu qədər də monumentaldır. Artıq sözdən, xaric səsdən uzaq, öz qurğuşun siqləti ilə torpağın dərinliyinə işləyən, öz dadı-duzu, şirinliyi ilə əcdadımızın zəngin idrak və təxəyyülünün məhsulu olan möhtəşəm bir abidədir. /1.5/

Müqəddimə və on iki boydan ibarət olan bu dastan Azərbaycan xalqının dilini, qəhrəmanlıq tarixini, adət-ənənəsini, mənəvi aləmini öyrənmək üçün çox dəyərli bir mənbədir.

Müqəddimədə qadınlar ozanın dili ilə belə səciyyələndirilirlər:

Qarılar dörd dürlidü: birisi soldıran soydır, birisi toldıran toydır, birisi evin tayağıdır, birisi necə söylərsən, bayağıdır." /1.33/

Ümumiyyətlə «Kitabi-Dədə Qorqud»da qadınlar hadisələrin ən fəal aparıcı qüvvələrindən biridir. Bu mövzunu vurğulayarkən hər şeydən öncə eposda qadınların ümumi mövqeyini, analıq şərəfini, ailə namusunu, saf mə-həbbət nümunələrini, igidliyini və s. xüsusiyyətlərini qabarıq şəkildə göstərmək lazımdır.

Bəzi boylarda qəhrəmanların sırf şəxsi macəraları əks olunmuşdur. Qəhrə-man öz sevgilisinin arxasınca gedir, lakin bu şəxsi macəraların son nəticəsi axırda ümumi oquz həyatının təbii axını ilə birləşdirilir. «Qanlı Qoca oğlı Qanturalı boyu» və «Duxa qoca oğlı Dəli Domrul boyu» demək olar ki, qəhrəmanlıqa əsaslanan məhəbbət dastanıdır. Ancaq öz ruhu və ideyası ilə onlar aşiqanə dastanlardan fərqlənir. Burada sevgililərin məhəbbəti real, həyati fikirlər üzərində yaranıb inkişaf edir. «İlahi vergi», «yuxuda görüşüb vurulmaq», «məhəbbət əsiri olmaq» kimi poetik vasitələr burada yoxdur. Qəhrəman sadəcə olaraq özünə ürəyi istədiyi qızı arayıb tapır, bəyənir, qız da onun qəhrəmanlıq şücaətini görüb qəlbdən sevir. Qanturalının sevgi macərası məhz real həyat yolu üzərindən keçir. Əsərdəki ən poetik səhnə bizim qənaəti-mizə görə Qanturalın Selcan xatunu alıb gətirərkən, onunla yolda vuruşduğu səhnədir /2.98/ Özünün xəbəri olmadan düşmənlə savaşda Selcanın köməyilə qalib gələn Qanturalı bunu qüruruna sığışdıra bilmir, qüruru sevgisinə üstün gələrək deyir:

*Sən orada turasan ögyəsən, «Qanturalı zəbun aldı,*
*At ardına addım.çıqdım»-deyəsən*
*Gözüm döndü, könlüm getdi.*
*Öldürəlim səni! - dedi /1.92/*

Selcan xatun cavabında:

*Bəg yikit, ögünərsə, ər ögünsün - aslandır!*
*Ögünməklik övrətlərə böhtandır.*
*Ögünməklə övrət ər olmaz...*
*Tez sevdin, tez uslandın, qavat oğlu, qavat!*
*Qadir Allah bilür, mən sana*
*Munisəm, yaram, qıyma mana*!-dedi /1.92/

Qanturalı isə «*Yoq, əlbəttə öldürsəm gərəkdir*»-deyir.

Fədakarlıq və döyüş igidliyini özündə cəmləşdirən, Selcan xatun deyir: *«Mərə, qavat oğlı, qavat! Mən aşağə qulpa yapışuram, sən yuqarı qulpa yapışursan. Mərə, qavat oğlı, oxınlamı qılıcınlamı? Gəl bərü, söyləşəlüm!"*-dedi. Atın dəldi. Bir yüksək yerə çıqdı. Sadaqından toqsan oxın yerə dökdi. Eki oxın dəmrənin çıqardı: birin gizlədi, birin əlinə aldı. Dəmrənlü oxla atmağa

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qıyamadı. Aydır: «*Yigit, at oxunı*!» Qanturalı aydır: *Qızların, yolı əvvəldir, əvvəl sən at!* Qız bir oxla Qanturalıya atdı... /1.93/

Sevgilisinin döyüş məharətinə heyran qalan Qanturalı söyləyir:

*Yalab-yalab yalabıyan incə tonlum!*
*Yer basmayıb yüriyən,*
*Qan üzərinə qan tammış kibi qızıl yanağlım!*
*Qoşa badam dar ağızlum!*
*Qələmçilər çaldığı qara qaşlım!*
*Qurması qırq tutam qara saçlım!*
*Aslan uruğı, sultan qızı, eldürməgə mən səni qıyarmıdım?!*
*Öz canımı qıyam, mən sana qıymıyam,*
*Mən səni sınardım- dedi.* /1.93/

İgidlik, mərdlik, məhəbbətinə sədaqət kimi xüsusiyyətlərini özündə cəmləşdirən Selcan xatunun dilindən:

*Qalqubanı yerimdən turar idim,*
*Yelisi qara Qazlıatuma binərdim,*
*Babamın ağ ban evindən çıqardım.*
*Arqu beli, Ala tağı avlar idim.*
*Ala-gen sığın - keyig qovar idim.*
*Tarıyanda bir oxla nəmlərdim?*
*Dəmrənsüz oxla, yigit, səni sınar idim!*
*Öldürməgə, yigidim, mən səni qıyarmıdım?!* /1.93/

Burada qarşılıqlı sevgi qəhrəmanlıqla çulqalaşır və ən ülvi bir məhəbbətə çevrilir.

«Duxa qoca oğlı Dəli Domrulun boyu»nda Dəli Domrul insanları ölümdən, fəlakətdən qurtarmaq üçün tanrıya etirazını bildirir, bəşəriyyət üçün ölümsüzlük arzulayır. Nəticədə özü ölüm təhlükəsi ilə üzləşir. Yalnız sədaqətli, sevimli ömür-gün yoldaşının sayəsində bu təhlükədən sovuşur.

Boyun bir yerində ata-anasının öz canını onun əvəzinə vermək istəmədiyini görən Dəli Domrul Əzrayıla müraciətlə deyir:

«*Həsrətim vardır, bulışayım*» Əzrayıl soruşur: «*Mərə dəli, həsrətin kim-dir?*» Cavabında: «*Yad qızı həlalım var, andan mənim iki orlancığım var, əmanətim var, ısmarlaram anlara, andan sonra mənim canım alasan*», - deyir. Halalının yanına gələrək deyir:

*Bilürmisən, nələr oldı?*
*Gög yüzindən al qanatlu*
*Əzrayıl uçub gəldi.*
*Aqca mənim göksümi basub qondı.*
*Tatlu mənim canımı alur oldı.*
*Babama «ver» dedim, can vermədi,*
*Anama vardım, can verмədi,*
*«Dünya şirin, can tatlu!*» -dedilər,
*İmdi*
*Yüksək-yüksək qara tağlarım*
*Sana yaylaq olsun!*
*Souq-souq sularım*
*Sana içət olsun!*
*Tavla-tavla şahbaz atlarım*
*Sana binət olsun!*
*Dənlügi altun ban evin*
*Sana kelgə olsun!*
*Qatar-qatar dəvələrim*
*Sana yüklət olsun!*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Ağayildə ağca qoyunım*
*Sana şülən olsun!*
*Gözün kimi tutarsa,*
*Könlün kimi sevərsə,*
*Sən ana varğıl!*
*İki oğlancığı öksüz qomağıl!* - dedi /1.82-83/

Heç bir mal-dövlət hərisi olmayan, ərinin yolunda onun əvəzinə Əzrayıla can verməyə hazır olan sədaqətli, ləyaqətli halalının dediklərindən:

*Nə dersən, nə söylərsən,*
*Göz açub gördügim!*
*Könül verib södügüm!*
*Qoç yigidim, şah yigidim,*
*Qarşu yatan qara taqları*
*Səndən sonra mən neylərəm?*
*Yaylar olsam, mənim gorum olsun!*
*Souq-souq sularun içər olsam,*
*Mənim qanım olsun!*
*Altun-ağcan xərcləyür olsam,*
*Mənim kəfənim olsun!*
*Tavla-tavla şahbaz atun, binər olsam,*
*Mənim tabutum olsun!*
*Səndən sonra bir yigidi sevib*
*Varsam, bilə yatsam.*
*Ala yılan olub, məni soqsun!*
*Sənin ol müxənnət anan-baban*
*Bir canda nə var ki, sana qıymamışlar?*
*Ərş tanığ olsun, kürsi tanığ olsun,*
*Yer tanığ olsun, gög tanığ olsun,*
*Qadir tənri tanığ olsun,*
*Mənim canım sənin canına qurban olsun*!/1.83/

Sevimli halalının sədaqətindən, ləyaqətindən, dəyanətindən ruhlanan Dəli Domrul tanrıdan aman diləyir, bir daha ona qarşı çıxmayacağına və onun yolunda yaxşı işlər görəcəyini vəd edir, yalvarır:

*Alursan, ikimizün, canın bilə alğıl!*
*Qorsan, ikimüzün canın bilə qoğıl!*
*Kərəmi çox qadir tənri*! /1.83/

Ailə sədaqətini və xoşbəxtliyini uca tutanlara qiymət verən tanrı Dəli Domrula və ömürgün yoldaşına yüz qırx il ömür bəxş edir.

Qadın məsləhəti, ailədə qadının mövqeyi, yeri «Dirsə xan oğlı Buğac xan boyu»nda özünü qabarıq şəkildə büruzə verir.

Uzun müddöət övlad həsrətində olan Dirsə xan öz hisslərini incə, zərif ifa-dələrlə xatununa belə çatdırır:

*Bərü gəlgil, başum bəxti, evüm təxti!*
*Evdən çıqub yüriyəndə səlvi boylum!*
*Topuğında sarmaşanda qara saçlum!*
*Qurulu yaya bənzər çatma qaşlum!*
*Qoşa badam sırmayan tar ağızlum!*
*Güz almasına bənzər al yanağlım*! /1.35/

Lakin övladının olmamasına dözə bilməyən Dirsə xan qəzəbləndikdə deyir:

*Xan qızı, səbəbi nədir, degil mana!*
*Qatı qəzəb edərəm şimdi sana* /1.35/

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bunun müqabilində xatunun ona təmkinlə verdiyi məsləhət nə qədər səmimidir!
*Hay Dirsə xan, bana qəzəb etmə!*
*İncinib acı sözlər seyləmə!*
*Yerindən uru turğıl!*
*Ala çadırın, yer yüzünə dikdirgil!*
*Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç öldürgil!*
*İç Oruzun, Taş Oğuzun bəglərin üstünə yığnaq etgil!*
*Ac görsən, toyurğıl! Yalıncığ görsən, tonatğıl!*
*Borcluyı borcundan qutarğıl!*
*Dəpə kibi ət yığ, göl kibi qımız sağdır!*
*Ulı toy elə, hacət dilə!*
*Ola kim, bir ağzı dualının alqışilə*
*Tənri bizə bir yetman əyal verə* - dedi /1.35/

Nəzir-niyazdan sonra dünyaya gələn oğlan yeniyetməlik çağında Bayandur xanın ağ meydanında savaşıb bir buğa öldürdüyündən Dədə Qorqud ona Buğac adını vermişdir. Bir gün oğlu ilə ova çıxan Dirsə xan özünün qırx namərd, paxıl nökəri tərəfindən oğluna qarşı qızışdırıldığından oxla oğlunu vurur və atıb gedir. Oğlunun ilk dəfə atası ilə ova çıxmasından sevinən Dirsə xanın xatunu qonaqlıq vermək üçün qırx incə qızla onları qarşılamara gedir. Oğlunu görməyən ana təşvişə düşməsinə baxmayaraq mehribanlıqla, nəvazişlə, qadın ədəb-ərkanı ilə Dirsə xana müraciət edir. Bu mürciətdə oğul məhəbbəti vəhdət halında götürülür:
*Bərü gəlgil, başım bəxti, evim təxti!*
*Xan babamın, göygisi!*
*Qadın anamın, sevgisi!*
*Atam - anam verdigi,*
*Göz açuban gördügim,*
*Könül verib sevdigim, a Dirsə xan!*
*İki vardın, bir gəlürsən, yavrum qanı?*
*Qara gərdunda bulduğum oğul qanı?* /1.38/

Oğlunu nəyin bahasına olursa-olsun azad etməyə hazır olan ana, hətta savaşdan, döyüşdən belə çəkinmir və ərinə müraciətlə deyir:
*Xan babamın, qatına bən varayım,*
*Ağır xəzinə, bol ləşkər alayın.*
*Azğun dinlü kafərə bən varayım,*
*Yaralanub Qazlıq atımdan enməyincə,*
*Yönümlə alca qanım silməyincə,*
*Qol-bud olub yer üstinə düşməyincə,*
*Yalnuz oğul yollarından dönmiyəyim.*
*Yalnuz oğul xəbərin, a Dirsə xan degil mana!*
*Qara başım qurban olsun bu gün sana* /1.38/

Ərindən cavab ala bilməyən qadın yaralı oğlunu çox çətinliklə tapır və sağaldır. Dirsə xanın onların xainliyindən xəbər tutacağından qorxuya düşən qırx namərd onu tutur və yad yerə aparırlar.

Ailə tərbiyəsi, ailədə kişinin yeri, mövqeyi, ana tərəfindən oğula aşılanan ata hörməti, məhəbbəti əsl qadın sədaqətini göstərən xüsusiyyətlərdəndir. Bunu qadının öz sözləri ilə nəzərə çatdıraq:
*Görərmisən, ay oğul, nələr oldı?!*
*Sarp qayalar oynanmadı, yer oyruldı.*
*Eldə yağı yoğkən sənin, babanın üstünə yağı gəldi.*
*Ol qırq namərd-babanın yoldaşları babanı tutdılar.*
*Xanım oğul! Qalqubanı yerindən urı turğıl!*
*Qırq yigidin, boyına alğıl!*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Babanı ol qırq namərddən qurtarğıl!*
*Yüri, oğıl!*
*Baban, sana qıydısa, sən babana qıymağıl!* /1.40/

Dastanda «Salur Qazanın *evi* yarmalandığı boy»da qadın namusu, qadın şərəfi ən yüksək mərhələdədir. Anasının namusunun ləkələnməməsi naminə oğlu Uruz ölümə hazırdır. Buna görə anasına təsəlli verən oğul deyir:

*Qadın ana! Qarşum alub nə bögrərsən?*
*Nə bozlarsan, nə ağlarsan?*
*Bağrımla yürəgim nə tağlarsan?*
*Keçmiş mənim günimi də andırarsan?*
*Hey, ana! Ərəbi atlar olan yerdə*
*Bir qulunı olmazmı olur?*
*Qızıl dəvələr olan yerdə?*
*Bir köşəgi olmazmı olur?*
*Ağca qoyunlar olan yerdə?*
*Bir quzıcığı olmazmı olur?*
*Sən sağ ol, qadın ana! Babam sağ olsun!*
*Bir mənim gibi oğul bulunmazmı olur!*/1.47/

Təqdim etdiyimiz bu boyda ana müqəddəsdir, toxunulmazdır. Evini yağmalayan Şökli Məlikə Salur Qazanın dediklərindən aydın olur ki, o, anasının yolunda hər şeydən keçməyə hazırdır. Dastandan verdiyimiz parça bunu bir daha sübut edir:

*Mərə Şökli Məlik!*
*Dənlügi altun ban evlərimi götürüb durursan,*
*sana kölgə olsun!*
*Ağır xəzinəm, bol ağcam götürüb durursan,*
*sana xərclıq olsun!*
*Qırq incə belli qızla Burla xatunı götürüb durursan,*
*sana yesir olsun!*
*Qırq yigidlən oğlum Uruzı götürüb durursan,*
*qulun olsun!*
*Tavla-tavla şahbaz atlarım götürüb durursan,*
*sana binət olsun!*
*Qatar-qatar dəvələrim götürüb durursan,*
*sana yüklət olsun!*
*Qarıcıq anam götürüb durursan, mərə kafər,*
*anamı vergil mana*
*Savaşmadın, uruşmadın qayıdayım - gerü dönəyim,*
*gedəyim, bəllü bilgil* / 1.48/

Ailədə ananın müqəddəsliyini, özündən sonrakı nəslə nümunəvi olmasını Dədə Qorqud yığcam şəkildə aydınlaşdırır:

*«Qız anadan görməyincə ögit almaz»* /1.31/

Yeri gəlmişkən qeyd etməg lazımdır ki, Azərbaycan xalqının folklorunun, şifahi yaradıcılığının müxtəlif janrlarında bacı-qardaş münasibətləri, bacının qardaş qüruru, qardaş vüqarı ilə fəxr etməsi, həmişə onu özünə arxa, dayaq sayması öz əksini tapmışdır.

«Kitabi-Dədə Qorqud» dastanında qadın mənəviyyatını ucaldan bu xüsusiyyətlər özünü parlaq surətdə göstərir.

«Qambürənin oğlı Bamsı Beyrək boyu»nda qardaşı Beyrəyin yoxa çıxmasından sonra bacının keçirdiyi iztirablar, müsibətlər qardaşa olan sonsuz məhəbbətin təcəssümüdür.

*Çalma, ozan, ayıtma, ozan!*
*Qaraluca mən qızın, nəsinə gərək, ozan?!*
*Qarşu yatan /qara / tağı sorar olsan,*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Ağam Beyrəgin yaylasıydı,*
*Ağam Beyrəg gedəli yayladım yoq.*
*Souq-souq suları sorar olsan,*
*Ağam Beyrəgin içədiydi.*
*Ağam Beyrək gedəli içərim yoq.*
*Tavla-tavla şahbaz atlarını sorar olsan,*
*Ağam Beyrəgin binədiydi.*
*Aqam Beyrək gedəli binərim yoq.*
*Qatar-qatar dəvələri sorar olsan,*
*Ağam Beyrəgin yüklədiydi.*
*Ağam Beyrək gedəli yüklədim yoq.*
*Ağ ayılda ağca qoyunı sorar olsan,*
*Ağam Beyrəgin şüləniydi.*
*Ağam Beyrək gedəli şülənim yoq.*
*Qaralu-göglü otağı sorar olsan,*
*Ağam Beyrəgindir.*
*Ağam Beyrək gedəli köçərim yoq*. /1.61/

Beləliklə, «Kitabi-Dədə Qorqud» eposundakı Azərbaycan qadınının mənəvi keyfiyyətlərini özündə əks etdirən əhvalatlar, hadisələr islamiyyətdən öncəki V-VI yüzilliklər və ondan da əvvəlki dövrlərlə, əsrlərlə səsləşir.

**ƏDƏBİYYAT**

1. «Kitabi-Dədə Qorqud" /tərtibçilər: Fərhad Zeynalov, Samət Əlizadə/.-Bakı, Yazıçı, 1988.
2. Şamil Cəmşidov. Kitabi-Dədə Qorqud.-Bakı, Elm, 1977.

**Feminine morality in "Kitabi-Dede Gorgud" epos**

Women are the most active and leading force of the evens in epos of "Kitabi-Dede Gorgud". During discussion the subject the you can see in the epos is general position, materinty and family dignty, pure love, bravery and other women characteristics which analyzed vividly in samples.

**Женский дух в эпосе «Китаби-Деде Горгуд»**

Женщина является самой активной и ведущей силой событий в эпосе «Китаби-Деде Горгуд». Обсуждая эту тему можно заметить, что в эпосе больше всего в ярких и жизненных примерах описана позиция женщины в целом, материнское достоинство, честь семьи, пример чистой любви, храбрость и другие особенности.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# ФОРМЫ ОТРАЖЕНИЯ РЕАЛЬНОЙ ДЕЙСТВИТЕЛЬНОСТИ И СЮЖЕТНО-ЖАНРОВАЯ СПЕЦИФИКА ДАГЕСТАНСКИХ ДАСТАНОВ

***САМИЛЯ ХУРДАМИЕВА***

Вопросы форм отражения реальной действительности в фольклоре не разработаны в достаточной степени однозначно, потому что они не могут быть адекватными повсеместно. Каждый народ выработал своеобразные и самобытные формы художественного отображения окружающего мира. Художественные формы дастана тесно связаны с историей поэтапного возникновения и развития разных видов дастана. Этот вопрос рассмотрен нами отчасти в свете решения проблемы классификации дастанов.

Пытаясь вывести суммарные суждения по проблемам, связанным с определением различных форм отражения действительности в фольклоре, мы не претендуем на освещение всех вопросов, что и невозможно. Разумеется, нельзя охватить весь арсенал фольклора, поэтому мы обращаемся только к материалам эпоса.

В азербайджанском народном эпосе можно отметить проявления разных форм отражения действительности, которыми характеризуются классицизм, романтизм, натурализм и др. Но все же в своей основе эпос был романтическим с реалистическими элементами.

В конце XIX в. появляются дастаны с чисто романтическим направлением, которые В. М. Жирмунский и X. Т. Зарифов называют романическими (3; 43). По специфическим особенностям романические дастаны в корне отличаются от старинных героических дастанов, созданных на реалистической почве. Основу романических дастанов составляют фантастика и сказочные мотивы.

Эволюция мировоззрения трудового народа и его выразителей — создателей эпоса — ясно проявляется в дастанах в особенностях художественного изображения, что и определяет их творческий метод. Так, героическим дастанам присущ гиперболический показ героического подвига идеального героя. Справедливо считается, что героический эпос складывался на основе реальных жизненных событий в очень древние времена, поэтому в его формировании велика была роль мифологии, народных преданий. Нельзя не согласиться с мнением В. М. Жирмунского и X. Т. Зарифова о том, что присущие сказкам мотивы появились в сюжетах героических дастанов позднее, когда основная фабула их уже сформировалась (4; 60-120). Это подтверждается тем, что в героических дастанах сказочная фантастика служит лишь вспомогательным целям — для более полного раскрытия героического характера главного персонажа дастана.

Иная поэтика и, следовательно, художественные формы романических дастанов, в которых главная тема – любовь. Фантастика, волшебство, чувствительные излияния души в романических дастанах зачастую становятся основным стержнем сюжетно-композиционного построения. В изображении героев и их подвигов во имя любви важное место имеет не столько гиперболизация, сколько красочный вымысел, романтические элементы (экзотический антураж, возвышенность чувств, некоторые двоемирие и индивидуализм). В романических дастанах бытовой фон, жизнь показаны реальнее и многостороннее, чем в героических дастанах. Точное сочетание реалистического и романтического, присущее именно романическим дастанам, заметно отличает их от героического эпоса.

Реалистическое отражение действительности в социально-бытовых дастанах неоспоримо, что логически выражено и в самом их определении.

Дагестанский дастан неоднороден по своему составу. Разновидности его отличают не только по содержанию, но и по системе художественно-выразительных средств, образов, сюжету и композиции. В количественном отношении п

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

дастаны, которые можно разделить на две группы: 1) дагестанские версии известных на Востоке дастанов и произведений классиков восточной литературы; 2) собственно дагестанские дастаны.

Из глубины веков до наших дней протягиваются нити связей национального развития дагестанских азербайджанцев с духовной жизнью других народов. Дагестанские тюркоязычные народы не только участвовали в создании общетюрских духовных ценностей, литературных памятников, но и обогащались фольклором и наследием великих классиков Востока. Восточный романический дастан, сложившийся на стыке фольклорного и литературного творчества, синкретический по форме бытования, возник в Персии в Средневековье (6). Затем он пересёк пограничные, этнические, языковые барьеры, утвердился в фольклоре и литературе народов Востока, Кавказа, Средней Азии и был осознан в них как самобытная национально-художественная форма. При этом каждый народ заимствовал восточные сюжеты в соответствии со своими художественными и нравственными критериями, пропускал через национальное мировоззрение, насыщал местным колоритом. Естественно, что у дагестанских азербайджанцев в условиях живой сказительской традиции дастаны также получили своеобразное преломление. Дагестанские дастаны на восточные сюжеты зачастую представляют собой переработки и переложения применительно к местным нравам, с использованием местных реалий. Почти все ашуги в прошлом так или иначе обращались к классической восточной литературе, разрабатывая восточную тематику как в «перепевах», так и в своих оригинальных произведениях. (5; 324-325, 363, 129).

Качество и достоинство воспроизводимого произведения зависели от таланта и творческой позиции автора переложения. Следуя традиции «ответа» можно было создать и совершенно самостоятельное, оригинальное произведение. Тут уместно вспомнить, что гениальный памятник грузинской литературы «Витязь в тигровой шкуре», например, также представляет собой переработку персидского оригинала, о чем сообщил сам Шота Руставели.

Такие дагестанские ашуги, как Фатали из Великента, Кунакбек из Бильгади, Халиль из Джалгана, Дадаш из Гимейди, обладая незаурядным поэтическим и сказительским талантом, создали на восточные темы оригинальные произведения, которые стали достоянием народа. Их же усилиями созданы и собственно дагестанские дастаны, не имеющие аналогов в эпосе других народов и ныне почти неизвестные читательской и научной общественности как с точки зрения знакомства с текстами, так и изученности. Сюжеты таких дастанов основываются на реальных событиях, происходивших в XVII-XIX веках в местах проживания азербайджанского населения Дагестана. В некоторых указывается точно местность, где действие происходило («Овчу Пирим», «Кёр-оглу в Бильгади»). Если же связь произведения с реальным, когда-то имевшим место фактом утрачена, сказитель ограничивался ссылкой на давность происходившего. К сожалению, в паспортных данных рукописей этих произведений в большинстве случаев не сообщаются ни имя, ни другие данные сказителя, который первым переложил в дастан сказ-предание, бытовавшее в народе. Дагестанские дастаны можно назвать народными, потому что, оставаясь в ряду фольклорных произведений и не прерывая дастанной традиции, несут на себе печать личности своего создателя и затем, будучи усвоены другими сказителями-ашугами, закрепляются в устной народной традиции. Народ помнит талантливых ашугов-сказителей, творцов дастанов, но конкретной авторской соотнесенности произведений с определенными ашугами нет (за исключением Кунакбека из Бильгади, авторство которого закреплено за дастаном о Кёр-оглу).

Таким образом, факт создания дастанов конкретными авторами подтверждает известное положение о том, что «произведения фольклора создаются не без участия отдельных личностей, не помимо творческих усилий отдельнь

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

последним, по творческой инициативе наиболее одаренных личностей» (2; 172). Необходимо отметить, что здесь речь идет о позднее развившейся стадии коллективности, поэтому приводимая концепция не противоречит другой, по которой «...генетически фольклор должен быть сближаем не с литературой, а с языком, который также никем не выдуман и не имеет ни автора, ни авторов» (7; 22). По мнению Б.Н. Путилова, эти две концепции, отражающие многообразие точек зрения в вопросе понимания коллективной природы фольклора, внешне противоречива, на самом деле рассматривают разные стадии единого процесса развития фольклора (8; 178).

В русле этих концепций дастаны порой рассматриваются то как оригинальные творения выдающихся ашугов и сказителей, то как достояние фольклора. Мы склонны считать, что они все-таки фольклорные произведения. Основные причины, сформировавшие это мнение, в следующем: ашуги и сказители, вышедшие из народа, и в основной своей массе неграмотные (особенно в прошлом веке) не являются представителями профессиональной литературы, они создают свои творения устно, в фольклорном стиле.

Дастаны как духовное наследие народа являлись в прошлом одной из главных форм художественного познания действительности. «В течение веков поэтическое творчество народа служило средством самовыражения, оно заменяло народу почти все виды искусства» (1; 223).

Связь поколений ашугов в условиях устной традиции — залог жизни эпоса. Угасание этой связи, упадок живой сказительской школы ведет к отмиранию устного сказа, к переходу бытования эпоса в ином качестве, к письменной фиксации, а это — к утрате специфических свойств (своеобразия речитации, мимики, жестов), к потере аудитории, которая служила важным фоном, катализатором событий далекой старины. Слушающая аудитория и развитие сюжета устного сказа были неразрывным целым.

Доброжелательный, но взыскательный суд слушателей не позволял сказителю резко нарушать границы традиции. Одобряя и поощряя виртуозные и удачные стилистические находки ашуга, он тем самым воздействовал на формирование и совершенствование ряда эпизодов эпоса. В процессе сказа эпос одновременно и воспроизводился и заново рождался. Каждое талантливое исполнение эпоса было своего рода его частичным творением. В таком взаимосвязанном живом процессе эпос создавался, воспринимался и жил. В процессе бытования не все сюжетные линии, мотивировки и поэтические формулы доходят до последующих поколений сказителей. Закономерно отмирают какие-то устаревшие, архаические элементы, линии, мотивы; другие прекращают свое бытование в зависимости от индивидуальных вкусов сказителей, их забывчивости или неопытности, в результате прерывается какое-то звено.

У каждого сказителя могут быть свои особенности в манере сказа, в последовательности построения сюжета, способах исполнения традиционного текста и поэтики, но остается незыблемым главное – движение основного сюжета и используемая традиционная поэтика («общие места», либо формульный стиль эпоса).

Формульный стиль эпоса — один из важнейших принципов создания сюжета, способов изложения и наращивания сюжета. Отшлифованная временем и поколением сказителей словесная формула эпоса — это тот художественный костяк, который позволяет эпосу сохранить определенную стабильность его бытования.

**Список использованной литературы**

1. Базарбаев М. Эстетическое богатство нашей литературы. - Алма-Ата, 1976.
2. Гусев В.Н. Эстетика фольклора. - Л., 1967. - С. 172.
3. Жирмунский В.М., Зарифов Х.Т. Узбекский народный героический эпос. - М.. 1947.
4. Жирмунский В.М., Зарифов Х.Т. - Там же. - С. 60-120.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

5. Конрад Н. И. Запад и Восток. - М., 1972; Бертельс Е.Э. Избранные труды: Навои Джами. - М., 1965; Аджиев А.М. Кумыкская версия о Кер-оглу и некоторые закономерности трансформации заимствованного сюжета // Вопросы советской тюркологии. - Ашхабад, 1988.
6. О влиянии персидского дастана см.: Жирмунский В.М. и Зарифов Х.Т. Узбекский народный героический эпос. - М., 1947; Гвахария А.А. Грузинские версии персидских народных дастанов.- М., 1960; Рабинович И.С. Сорок веков индийской литературы М.,1969.
7. Пропп В.Я. Специфика фольклора //Фольклор и действительность. - М., 1976.
8. Путилов Б.Н. Методология сравнительно-исторического изучения фольклора. - Л.. 1979.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# TÜRK EPIK ƏNƏNƏSINDƏ KIŞI TIPAJLARI VƏ QADINA MÜNASIBƏT (“Kitabi-Dədə Qorqud” və dastanın müasir versiyası sayılan K.Abdullanın “Yarımçıq əlyazma” romanı əsasında)

***SARA ABDULLAZADƏ***

*Kişilər dünyanı, qadınlar isə həmin*
*dünyanı idarə edən kişiləri idarə edir.*
***İspan kəlamı** (4, səh. 8)*

Ta qədim zamanlardan indiyədək yazıya köçürülmüş və milli tarixin bir parçasına çevrilmiş ədəbi nümunələrdəki qadın obrazlarına diqqət yetirsək, qadınlara daim namus və ləyaqətin qoruyucuları kimi yanaşıldığının şahidi olarıq. Hətta qadınlara böyük imtiyaz qazandıran İslam dinində belə cənnətin anaların ayağı altında olduğu açıq-aşkar qeyd olunur. Bəlkə də elə bu səbəbdəndir ki, cəmiyyət cüzi bir səhvi qarşı cinsin nümayəndələrinə keçsə də, zərif cinsin nümayəndələrini, ən əsası isə qadınları –müqəddəs varlıq adlandırılan anaları belə bir imtiyazdan daim məhrum edib. Güman ki, cəmiyyətdəki etik dəyərlər də elə gələcəyin anaları sayılan qadınların qol qoya biləcəyi səhvlərin qarşısını almaq məqsədilə ortaya atılıb. Amma bu, həqiqətən də, belədir, yoxsa bunun başqa səbəbləri vardır? Əgər belədirsə, qadınlara bu cür münasibət nədən qaynaqlanır? Çox maraqlıdır ki, dinlərin müxtəlif olmasına baxmayaraq, qadınlara belə yanaşmaya həm şərq, həm də qərb ədəbiyyatında rast gəlmək mümkündür. Bəlkə qadınlara bu cür münasibət bütün dinlərin eyni mənbədən qaynaqlanmasından irəli gəlir?

Yuxarıda qeyd etdiyimiz məsələləri ədəbi kontekstdə araşdırmaq və bəzi cavabsız suallara aydınlıq gətirmək məqsədilə tədqiqatımızda əsas diqqəti bu dəfə qadın obrazlarına deyil, əksinə kişi obrazlarına yönəltmək qərarına gəldik. Niyə məhz kişi tipajları? Bu bir danılmaz faktdır ki, ədəbiyyat hər bir cəmiyyətin mədəniyyətini əks etdirən bir güzgüdür. Son zamanlara qədər isə biz bu güzgüdə yalnız qadın obrazlarını görməyə vərdiş etmişik. Məhz bu səbəbdən tədqiqatımızın bu dəfəki obyekti türk epik ənənəsində cəmiyyətin etik dəyərləri kontekstində kişi tipajlarıdır. Bu nöqteyi-nəzərdən biz türk xalqlarının dünyaca məşhur “Kitabi-Dədə Qorqud” eposu və dastanın müasir versiyası sayılan, eyni zamanda K.Abdullanın müasir Azərbaycan ədəbiyyatında xeyli mübahisələrə səbəb olmuş “Yarımçıq əlyazma” romanına müraciət etmişik.

Tariximizin ayrılmaz bir hissəsi – böyük türk xalqlarının eposu “Kitabi-Dədə Qorqud”a nəzər salsaq, burada həm qadın, həm də kişilərə şamil olunan və hər iki cinsin nümayəndələrinin tabe olduğu etik dəyərlərin mövcudluğuna şahid olarıq. Şərqin qədim sivilizasiyaların beşiyi sayıldığını nəzərə alsaq, burada əsas diqqəti qədim türklərin qadına digər xalqlardan fərqli, müsbət münasibəti cəlb etmiş olur. Buna sübut isə elə qədim türklərin “Kitabi-Dədə Qorqud” eposudur. Dastanda Banıçiçəkdən tutmuş Burlaxatuna kimi bütün qadın obrazlarına nəzər yetirsək, onları hər zaman ərlərinin, nişanlılarının yaxın sirdaşı, silahdaşı kimi görürük. Burada qadın evinin xanımı olmaqla yanaşı, lazım gəldikdə, vətəninin müdafiəçisi, düşmənlərin qənimidir. Lakin bu doğrudanmı belədir, yəni doğrudanmı qədim türklərdə qadın kişiyə bərabər tutulurdu? Çox maraqlıdır ki, əsl türk üçün üç dilək hər zaman müqəddəs sayılıb: birincisi, atı yəhərləmək, ikincisi, ət yemək, üçüncüsü isə, arvadını sevmək. (3, səh. 101) Əsrlər boyu qadınlar türklərin namusu sayılıb. Bunu İ.Şıxlının “Dəli Kür” əsərində Cahandar ağanın sözləri də təsdiq edir: “Kişinin namusu üç şeydir: at, arvad və papaq. Bunlara toxunmaq, onun namusunu ayaq altına atıb tapdalamaq demək idi. Onu diri gözlü qəbrə soxmaq, sinəsinə çal-çarpaz dağ çəkmək idi” (11, səh. 333). Bundan əlavə, türklərin qadına – anaya müqəddəs bir varlıq kimi sitayişi danılmaz bir faktdır. Bunu “Kitabi-Dədə Qorqud” eposundakı “Salur Qazanın evinin yağmalandığı boy” (8, səh. 145) və “Salur Qazanın dustaq olduğu və oğlu Uruzun onu xilas etdiyi boy”da (8, səh. 217) Xanlar xanı Bayındır xanın bəylərbəyisi və kürəkəni Salur Qazanın oğlu Uruzun dilindən çıxan və oğlunun anası Burla xatuna əl qaldırmasını yasaq edən “Ana haqqı – tanrı haqqıdır” kəlmələri sübut edir. “Salur Qazanın du

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

onu xilas etdiyi boy"da Uruz bəyin ona yalan danışmaqda suçlu saydığı anasına dediyi sözlərə nəzər yetirək:

"Ana həqqi, tanrı həqqi degilmişsə,
Qara polad uz qılıcum tartaydım,
Ğafillicə görklü başın kəsəydim,
Alca qanın yer yüzinə dökəydim". (8, səh. 119)

Hər iki boyda ana haqqının tanrı haqqına bərabər tutulması, etdiyi günahın böyüklüyündən asılı olmayaraq, qadına əl qaldırılmasına bir növ qadağa qoyur. Eyni zamanda, dastanın 1-ci ("Dirsə xan oğlu Buğac xan boyu"), 2-ci ("Salur Qazanın evinin yağmalandığı boy"), 3-cü ("Baybərənin oğlu Bamsı Beyrək boyu"), 4-cü ("Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy") və 6-ci ("Qanlı qoca oğlu Qanturalı boyu") boylarında müraciət forması şəklində işlənən "qadın ana" kəlamı ananın cəmiyyətdə el başbiləni, nəslin qoruyucusu mənasını daşımaqla yanaşı, "kaqan ata" qədər sonsuz ehtiram göstərilən ulu şəxsiyyət mərtəbəsinə yüksəldilir. (8, səh. 260) Qədim türklərdə ananın yüksək izzətə layiq olması "Salur Qazanın evinin yağmalandığı boy"da Salur Qazanın anasına göstərdiyi ehtiramda da əks olunur. Belə ki, kafirlər Salur Qazanın yurdunu talayıb ailəsini, təbəəsini əsir götürdükdə Qazan xan xanımı Burla xatundan da, oğlu Uruzdan da keçib kafirlərdən yalnız qoca anasını istəyir:

"Qırq incə bellü qızla Burla xatunı götürüb durursan, sana yesir olsun!
Qırq yigidlən oğlum Uruzı gətürüb durursan, qulun olsun!...
Qarıcıq anam gətürüb durursan, mərə kafər, anamı vergil mana
Savaşmadın, uruşmadın qayıdayım-gerü dönəyim, gedəyim, bəllü bilgil." (8, səh. 48)

Kafirlər buna etiraz etdikdə isə, Qazan xan onlara hücum etməkdən çəkinmir.

Çox maraqlıdır ki, dastanda qadına münasibət anaya münasibətlə bitmir. "Qanlı qoca oğlu Qanturalı boyu"na nəzər salsaq, burada atasının "Nə cür qız istəyirsən?" sualına türk oğlunun cavabı özünəməxsusluğu ilə seçilir: "Baba, mən yerimdən turmadın ol turmış ola! Mən qaraquc atıma binmədin ol binmiş ola! Mən qanlu kafər elinə varmadın ol varmış, mana baş gətürmüş ola!" (8, səh. 85) Eyni vəziyyət "Baybərənin oğlu Bamsı Beyrək boyu"nda da öz əksini tapır. Bamsı Beyrək evlənəcəyi qızın özəlliklərini atası Baybörə xana bu cür sadalayır: "Baba, mana bir qız alı ver kim, mən yerimdən turmadın ol turgəc gərək! Mən qaraquc atıma binmədin ol binmax gərək! Mən qırıma varmadın ol mana baş gətürmək gərək!" (8, səh. 55) Buradan belə məlum olur ki, qadının at capması, qılınc oynatması qədim türklər üçün qadının evdə oturub yemək bişirməsindən daha böyük önəm daşıyırdı. Onlar öz ərlərinin sirdaşı və silahdaşı olmalıydılar.

Bəs dastanın K.Abdulla tərəfindən işlənmiş yeni versiyası – "Yarımçıq əlyazma" romanında qadına münasibət öz əksini necə tapmışdır? Onu da qeyd edək ki, romanda biz təkcə Qorqud Dədənin yox, digər ad qazanmış kişilərin də qadına fərqli yanaşmasının şahidi oluruq. Götürək elə dastanın söz söyləyəni Qorqud Dədəni. Casus məsələsində Bayındır xanın qızı, Salur Qazanın eşi Burla Xatunun Beyrəyi yoldan çıxardığını düşünən Qorqud Dədənin fikirlərinə diqqət yetirək: "Öysəl olmuş dananın ağzından su nə zaman axar – əlbəttə, qavat oğlu qavat, həyatında qız görməyən qavat oğlunun gözəl-göyçək qız gördüyündə dəxi ağzından suyu öylə axar... "Öysəl olmuş dana" söylədim ya, gözümün önündə bir Beyrək yox, başqa neçə-neçə gənc Oğuz bəyləri dəxi gəldilər, durdular"(2, səh. 29). Romanın əsas süjet xətlərindən birini təşkil edən və xanlar xanı Bayındır xanın casus məsələsi ilə bağlı apardığı istintaq zamanı da Oğuzun düşünən beyni Qorqud Dədənin fikirləri belə olur: "Fatma qarı ilə Aruz, Xan sorğu-sualının ən zəif həlqəsidi. Yenə Xatundu, Fatmanın başını birtəhər aldatmaq olar..." (2, səh. 30)

Qeyd edək ki, Dədə Qorqud obrazı romanda bir qədər başqa yöndən işlənib. Dastanda ədalətli qərarları və məsləhətləri ilə Oğuz elini yönləndirən Qorqud Dədə əsərdə hər bir məsələnin əslini bilən, bununla belə, Oğuz elinin mənfəəti naminə bəzi fəndlərə əl atan bir kişi tipajı kimi qələmə verilib. Belə ki, o, xan qızı Burla Xatunla Beyrəyin ortaya atdığı casus məsələsini ört-basdır etmək məqsədilə Boğazca Fatmanı yönləndirməklə qalmır, həm də bu məsələdə əsl kişi kimi davranan Aruz Qocanı ortadan qaldırmac

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

məsləhətlər də verir. Belə dəyərli məsləhət xanlar xanı Bayındır xana da sərf edir, çunki hansı tərəfdən baxsa, Qalın Oğuzun artıq uzun zamandan bəri ikiyə bölünməsinin əsas təqsirkarı kürəkəni Qazan xandır. Ona qarşı tədbir görməkdənsə, həmin anda Qalın Oğuz üçün artıq təhlükə törədən və İç Oğuzla Dış Oğuzu bir-birinə düşmən edənlərdən qurtulmaq daha tədbirli sayılır. Qorqud Dədə üçün bu, elə də çətin deyil, çünki onun suçlu siyahısında adlar artıq hazırdır. Bunlardan biri Qazan xanın doğmaca dayısı, bir oğlu Qalın Oğuz naminə şəhid olmuş, lakin ara vuranların hesabına artıq İç Oğuza düşmən kəsilən Aruz Qoca, digəri isə İç Oğuzla Dış Oğuzu bir-birinə düşmən etmək naminə Qazanı istədiyi kimi yönləndirən Beyrəkdir.

Həm dastanda, həm də romanda Beyrəyin halalca nişanlısı Banıçiçək qarşısında əhdinə xilaf çıxması azmış kimi, Bayburd qalasında əsirlikdə ikən sevdalandığı kafir qıza da verdiyi sözə əməl etmir. Romanda Beyrəyin, əsirliyi Təpəgözlə döyüşdən üstün tutması dəfələrcə vurğulanır. Onun bu günahına münasibət isə birmənalıdır. Xanlar xanı Bayındır Xanın söylədiyi sözlər buna sübutdur: "Bu Beyrək var ya? Gül kimi evində halalı. Baybecanın qızın derəm. On altı il bunun yolunu gözləmədimi? Evində halalını qoyub nə düşmüsən Oğuzu pinar-pinar gəzirsən? Bu qavat oğlu qavat bir də gördün qızı başından elər, mən bilirəm." (2, səh. 279) Bu günahlarının üzərinə Beyrəyin Oğuzdakı davranışları da gəlincə, Bayındır Xan onu öz evi üçün təhlükə sayıb buna bir əncam çəkməyi qərara alır.

Gördüyümüz kimi, dastandan fərqli olaraq, əsərdə Aruz Qoca daha müsbət, Beyrək isə mənfi tipaj kimi əks olunub. Lakin sonuc etibarilə, hər ikisi istər özlərinin, istərsə də kənar şəxslərin qurduğu qurmaların qurbanına çevrilir. Suçlu isə hər zaman olduğu kimi, qadındır. Bütün qurmaların "başında" yenə də qadın durur. Xanlar xanı Bayındır Xanın sözlərini yada salaq: "Burla Xatun qurğu qururmuş. Xatunda ağılmı olar? Öysəl olmuş dananın ağzının suyu axan kimi Basat derkən bunun ağzının suyu da öylə axdı. İndi Basata görə Aruzdan intiqam almaq dilər. Nə Qazan bunu anlar, nə Beyrək. Xatunda ağıl olmaz söylədim ya?! Amma Xatunda ağıl yerinə bir türlü başqa şeylər olar – onu dəxi biz anlamarız. Hələ Qazan, Beyrək heç anlamaz..." (2, səh. 279) Bu sözləri isə Bayındır xan yox, müasir kişi cəmiyyəti deyir. "Xatunda ağıl olmaz" sözlərinə dastanda yox, məhz romanda rast gəlməyimizə səbəb də məhz bu cəmiyyətdir. Romanda qadınlarla bağlı rast gəlinən bir məqam da Beyrəyin Bayburd qalasındakı sevgilisi ilə etdiyi söhbətdə öz əksini tapır. Sevgilisinin "sizin oğlanlarla at çapan, qılınc tutan qızlarınız olur" (2, səh. 75) sözlərinə Beyrək "sənə çatanı olarmı onların?!" (2, səh. 76) cavabını verməklə qadınlara "əyləncə" nöqteyi-nəzərindən yanaşır. Bununla da, artıq dəyişən kişi cəmiyyəti öz yeni tələblərini bəyan etmiş olur.

Beləliklə, dastan boyu qadınların kişilərin gözündə tutduğu yüksək mövqe zaman keçdikcə, dastanın müasir interpretasiyası sayılan "Yarımçıq əlyazma" romanında cəmiyyətin inkişafı ilə əlaqədar yaranan proseslərdən asılı olaraq tədricən dəyişir. Təsadüfi deyildir ki, XX əsrin əvvəllərində İstanbulda "Türk gücü" cəmiyyətinin yığıncağında Quzuçu oğlu Təhsin bəy türk qadınlarının millətin inkişafında rolunu vurğulayaraq demişdi: "Nə qədər ki, xanımlar bizimlə bərabər idilər, qüvvət də, qüdrət də bizdə idi. Qadını atdan endirdik, yanımızdan ayırdıq, qüvvət də, qüdrət də bizdən ayrıldı. Erkək ictimai həyatda aciz qaldı. Kor, topal, çolaq oldu, yarım qaldı. Yarım erkəklərdən təşkil edilən millətlər yarım millətlərdir". (7, səh. 13)

Bəziləri bu dəyişikliyi İslam dini ilə bağlasalar da, unutmayaq ki, qədim türklərdən sonra qadının hüquqlarını məhz İslam dini tanıdı. L. E. Obbaldın sözləri ilə desək, "Qadınları əsarətdən xilas edib onlara məhrum edildikləri hüquqları geri qaytarmaq ancaq İslamiyyətlə gerçəkləşmişdir" (5, səh. 7). İslam dininin qadına bəxş etdiyi üstünlüklərin çox olmasına baxmayaraq, sonralar İslam dininin təbliğinə müxtəlif fikirlər, nəzəriyyələr öz təsirini göstərdi. Bu isə qadınların əxlaq və fiziki cəhətdən zəif məxluq olduqları, buna görə də, cənnətə buraxılmadıqları haqqında yanlış fikirlərə yol açmış oldu, qadın ilə kişi arasında süni fərqlər yarandı.

Son olaraq qeyd etmək istərdik ki, insan günahsız, saf bir məxluq kimi artıq şərtləşdirilmiş bir cəmiyyətin üzvü kimi dünyaya göz açır. Ailə cəmiyyətin kiçik bir parçası olduğundan, ilk öncə onun valideynləri, daha sonra isə bütövlükdə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qeydlərini aparmağa başlayır. Cəmiyyətin yuxarıda qeyd etdiyimiz etik normaları da, beləcə, insanların beyninə işləmiş olur. Məşhur hind filosofu, Oşo təxəllüsü ilə tanınmış Bxaqavan Şri Radjnişin sözləri ilə desək, "bunun qarşısını almaq üçün isə həmin cəmiyyəti kökündən dəyişmək lazımdır. Lakin cəmiyyəti dəyişməyin yeganə yolu onun ayrı-ayrı individuumlarını dəyişməkdir. Başqa çıxış yolu yoxdur." (9, səh. 62) Çünki Çin fəlsəfəsində deyildiyi kimi, kainatda hər bir şey İn və Yanın ahəngi ilə yaradılıb. Yan (kişi) İn (qadın) ilə ahəngdə olarsa, cəmiyyətin bütün problemləri öz həllini tapar. (10, səh. 189) Buna nail olmağın ən asan yolu isə, kişi cəmiyyətinin professor Ü. Dökmenin dəyərli fikirlərini dərk etməsinə böyük ehtiyac vardır: "Zəka və ya gücdə qadınlarla başa-baş olduğumuza görə inciməyək və qadınları qadınlıqları ilə vurmayaq." (6, səh. 154).

**İstifadə olunmuş ədəbiyyat:**

1. Abdulla K. Sirriçində dastan və yaxud gizli Dədə Qorqud – 2. Bakı, Yeni Nəşrlər Evi, "Elm" nəşriyyatı, 1999.
2. Abdulla K. Yarımçıq əlyazma. Bakı, "XXI" – YNE, 2004.
3. Аджи М. Европа, тюрки, Великая Степь. – М.: Мысль, 1998.
4. Akpınar A., Bakay G., Dedehayır H. Kadın ve mekan. Tutsaklık mı Sultanlık mı? İstanbul, Turkuvaz Kitap, 2010.
5. Dar çərçivədə qadın. – "Bizim dünyamızda qadın" jurnalı. Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2009.
6. Dökmen Ü. Nüanslar... – Bakı, "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2007.
7. Gəncəli Məmmədov S. Qadın, gözəllik və ülviyyət. (Ensiklopedik toplu). – Bakı, "Azərbaycan" nəşriyyatı, 2001.
8. Kitabi-Dədə Qorqud. B.: Yazıçı, 1988.
9. Ошо. О Женщинах: Соприкосновение с женской духовной силой. / Перев. с англ. – М.: ООО Издательство «София», 2009.
10. Правдина Н. Б. Я люблю себя! Триумф Новой женщины. Издание второе, исправленное и дополненное – СПб.: Издательский дом «Нева», 2005.
11. Şıxlı İ. Dəli Kür. – B.: Yazıçı, 1982.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# AŞIQ ŞİKARİ DASTANINDA İŞLƏDİLƏN XALQ DEYİMLƏRİ

***SEYFƏDDIN ALTAYLI***

Günəy Azərbaycan, Türk dünyasının folklor nümunələri, zerbi meseller, orijinal ifadeler, dil və deyimlər yönündən bəlkə də ən zəngin mühitlərindən biridir.

Azərbaycan torpaqlarının şərq və qərb dünyasının qovşağında olması münasibətilə burdakı mədəniyyət şərqdən və qərbdən götürdüyü hər bir ünsürü dəyərləndirib və öz mədəniyyətini daha üstün bir mövqeyə çatdırmışdır. Hun dövründən başlayan ozan gələnəyi, müxtəlif dövrlərdə çeşidli adlarla anılsa da yüzillər boyu Azərbaycan xalqı arasında həmişə hörmət görüb və bugün də görməkdədir. Əslində aşıqlara şifahi xalq ədəbiyyatının canlı daşıyıcıları desək bəlkə də onların mədəniyyətimiz üçün nə ifadə etdiklərini daha yaxşı dilə gətirmiş olarıq. Onlar şifahi ədəbiyyatımızın zəngin nümunələrini nəsildən nəslə ötürərək nəsillər arasında körpü rolunu oynayıblar və oynayırlar.

Azərbaycan torpaqlarının 1828-ci ildə Türkmənçay sazişi ilə ikiyə bölünməsindən sonra hər iki yaxada iki yad mədəniyyətin təzyiqi altında qalan Azərbaycan mədəniyyəti, bu xalqların asimilyasiya xarakterli təzyiqinin, öz güclü mədəniyyətinə təsir etməsinə imkan verməmişdir. Bunun ən canlı nümunəsi də aşıqlıq gələnəyidir.

Güney Azərbaycan aşıq mühitinin ən önəmli məktəbi Təbriz aşıq mühitidir və bu mühit Xəzər dənizi, Araz çayı və Urmiyə gölü arasında qalan sahədir (Kəbutəryan, I. Cild; 46). Təbriz məktəbi əslində Göyçə Aşıq Məktəbinin davamı kimidir.

Güney Azərbaycandakı aşıqlıq gələnəyinin ən böyük ustadları Dirili Aşıq Qurbani (1470-1535), Aşıq Abbas Tufarqanlı (17-ci əsr), Tikmədaşlı Xəstə Qasım (1684-1760) və Meşkinli Məhəmmədдir (18-ci əsr). Bunların davamçıları Aşıq Nemət, Aşıq Qərib, Gərgərli Aşıq Məhəmməd və Aşıq Taqi 18-ci yüzilliyin ustad ozanlarıdır. (19-cu əsrdə isə Aşıq Cəfər və Aşıq Miskin Əsəd, 19-cu əsrin sonu ilə 20-ci yüzilliyin başlarında yaşayan Aşıq Nəcəf Binisli, 1901-1989-cu illər arasında ömür sürən Aşıq Qəşəm Cəfəri (Kəbutəryan, I. Cild; 48-49) Güney Azərbaycanın Türk mədəniyyətinə bəxş etdiyi ölməz dəyərlərdir.

Bu ustad aşıqların davamçılarından biri də Təbrizli Aşıq Yadullah Eyvazpurdur. Deyimlərini çıxardığım Şikari dastanı Aşıq Yadullah Eyvazpur tərəfindən ifa edilmiş və 55 audio kasetə köçürülmüşdür. Bu dastan Çukurova Universitəti Sosyal Bilimlər Ənstitüsü Türk Dili və Ədəbiyyatları Ana Bilim Dalında oxuyan Güney Azərbaycanlı Nəbi Kəbutəryan tərəfindən 2008-ci ildə yüksək lisans (magistr) dissertasiyası kimi hazırlanmışdır. Mən bu dastanın sadəcə olaraq bir yönünü araşdırdım. Dastanın mifoloji çağlarla bağlı yönləri, nağılvarı söyləmləri və dil xüsusiyyətləri araşdırılmalıdır. Güney Azərbaycandakı mədəni dəyərlərimizin araşdırılıb araya çıxarılmasıyla xüsusilə folklorumuzun daha da zənginləşəcəyi fikrindəyəm.

Aşıq Şikari Dastanında tapdığım xalq deyimləri aşağıda təqdim edilmişdir. Bu deyimlərdən bəziləri Farscaya məxsus bir sözün Türkcə bir sözlə birləşdirilməsindən yaradılmışdır. Bunların içində mifoloji çağlarla bağlı bir iki deyim də vardır.

**Aman əlindən kəsilmək**: Özünü itirmək.

**Asta qaçana göy imam qənim olsun**: Ani yaranan qorxulu bir hadisə səbəbilə sürətlə qaçışa işarə edir.

**Atları qulaxlaşdırmaq**: Atları cıdıra qaldırmaq.

**Bang vurmaq**: Səsləmek, çağırmaq.

**Başını dolandırmaq**: 1-Başını tovlamaq. 2-Birtəhər yaşamaq, çətinliklə güzəran etmək.

**Bavər eləmək**: İnanmaq.

**Bədrəqə eləmək**: Yola salmaq.

**Bir dəstərxanda çörək yemək**: Əlaqə qurmaq, ünsiyyət yaratmaq.

**Bir günün sarısıca ömrü qalmaq**: Ömür günəşi batmağa yaxın olmaq, ölümü yaxınlaşmaq.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Bizimki qaldı qurd ilə qiyamətə**: Aramızdakı haqq hesabı çəkmək məsələsində heç nə edə bilmərik, hər şeyi əldə itirdik.

**Cəng odu şöləvər olmaq**: Döyüş atəşi alovlanmaq, döyüş qızışmaq.

**Cəşn tutmaq**: Qeyd etmək.

**Dabanların çəkmək**: 1-Fit vermək. 2-Getmək üçün silahlanmaq, yaraqlanmaq.

**Dalı əyləndirmək**: Geri çekilməyə məcbur etmək.

**Dari vari demək**: Ağzına gələni demək.

**Daş donuna düşmək**: 1-Daşa dönmək. 2-Daş kəsilmək, yerindən tərpənə bilməmək. 3-Matı-qutu qurumaq.

**Daşı ətəyindən tökmək**: 1-İnadından əl çəkmək. 2-Mənfi davranışından və fikrindən imtina etmək.

**Dava eləmək**: 1-Dalaşmaq. 2-Döyüşmək.

**Dedin sözüvü, saxla sazıvı**: 1-Ürəyindəkini dedinsə səsini kəs, artıq dinmə. 2-Sözünü dedinsə artıq əskik danışma.

**Dil eləmək**: Yalvarmaq, yalvarıb dil tökmək.

**Dil xoşluğu eləmək**: Bir qızla və ya oğlanla gözəl anlar keçirmək.

**Dilində cari eləmək**: Yad etmək, adını çəkmək.

**Döneklik eləmək**: Səf deyişdirmək, dönük çıxmaq.

**Dövrana gətirmək**: Döndərmək, fırlatmaq.

**Döyüş ağzı açmaq**: Cəbhə açmaq, yeni döyüş xətti yaratmaq.

**Dünyaya pərçəm vurmaq**: Dünya miqyasında tanıtmaq.

**Ehsas eləmək**: Hiss etmək, anlamaq, başa düşmək.

**Əcəb yerdə dükan açmaq**: 1-İşi pis gətirmək. 2-Uyğun olmayan yerə düşmək.

**Əl məndən (mənim) ətək səndən (sənin)**: 1-Bütün ümidim sənsən. 2-Mən ettim sən etmə.

**Əl suya yetirmək**: Çölə çıxmaq, tualetə getmək.

**Əl tapmaq**: 1-Çatmaq, yetişmək. 2-Vasitəçi tapmaq, adam görmək.

**Əl vermək**: 1-Təsir etmək. 2-Çətin vəziyyətdə qoymaq. 3-Münasib olmaq.

**Əldə başda dolandırmaq**: 1-Aldatmaq. 2-Cilovnu, ovsarını əlinə almaq, özünə tabe etmək, özünə ram etmək.

**Ələ gətirmək**: Əldə etmək.

**Ərsəni təng eləmək**: Çətin vəziyyətdə qoymaq, meydanı ona dar eləmək.

**Əzadarlıq eləmək**: Yas tutmaq, yas saxlamaq.

**Faş eləmək**: İfşa etmək, meydana çıxarmaq.

**Fürsəti fövt eləmək**: Fürsəti bada vermək, fürsəti əldən vermək.

**Fəramuş etmək**: Unutmaq, yadından çıxmaq.

**Göz əymək**: 1-Yan baxmaq, çəpəki baxmaq. 2-Üz çevirmək.

**Gözünün quyruğuyla baxmaq**: Yan gözlə baxmaq.

**Gül eləmək**: 1-Təsir etmək. 2-Yarıtmaq, işi layığınca görmək.

**Güzəşt eləmək**: Bağışlamaq, əff etmək.

**Hala gətirmək**: Özünə gelməsini təmin etmək, oyatmaq, özünə gətirmək.

**Himi bir yerə qoymaq**: Fikir birliğinə varmaq, eyni fikrə gəlmək.

**Hökm sadir olmaq**: Hökm vermək.

**Huşa gəlmək**: Özünə gelmək.

**Həb əvəzində atasan ağzın(v)a qırx gündən sonra dadı gələr damağın(v)a**: Çox gözəl qız, qadın, yaraşıqlı gənc.

**İbür eləmək**: Keçib getmək.

**İdamə vermək**: Davam etmək.

**İhzar etmək**: Dəvət etmək, səsləmək.

**İki əli olmaq bir başı (təpəsi)**: Nə edəcəyini bilməmək, çaşıb qalmaq.

**İmanı qırğı imanına dönmək**: Çox sevinmək.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**İpini qırmaq**: 1-Çətin vəziyyətə salmaq, pis vəziyyətdə qoymaq. 2-Canını boğazına yığmaq.

**İst vermək**: Dayandırmaq.

**Kami dil almaq**: Könlünün istədiyini almaq.

**Kar kəsmək**: Təsir etmək.

**Keşik vermək**: Keşik çəkmək.

**Kirnuş (korneş, kürnüş) eləmək**: Baş əymək, baş əndərmək.

**Kəm ehtiramlıq eləmək**: Hörmətsizlik eləmək.

**Qabağında gül eləmək**: 1-Əngəl olmaq, mane olmaq. 2-Qarşısında hünər göstərmək.

**Qara qorxu vermək**: Hədələmək, hədə-qorxu gəlmək.

**Qırınvış salmaq**: Hay-haray salmaq, səs-küy salmaq.

**Qiyməti qail olmaq**: Dəyər vermək.

**Qulağını yatırtmaq**: Diqqətlə qulaq asmaq.

**Maliş vermək**: Sığallamaq, ovmaq.

**Meyməni meyçəriyə, meyçərini meyməniyə qatmaq**: Hər şeyi bir-birinə qatmaq, işi bərbad eləmək.

**Məntər oxumaq**: Bir sözü, duanı dönə dönə oxumaq.

**Mırt vurmaq**: 1-Söhbət etmək, çənə döymək. 2-Zarafatlaşmaq.

**Muqəyyəd olmaq**: Utanmaq.

**Mültəfit olmaq**: Anlamaq, idrak etmək, başa düşmek.

**Nişan vermək**: Göstərmək, işarə etmək.

**Nəqşə çəkmək**: 1-Tələyə salmaq. 2-Tələ qurmaq, kələk hazırlamaq.

**Nəsb eləmək**: Yaratmaq, qurmaq.

**Od odunda, su suyunda qalmaq**: Hər şey (kəs) öz yerində olduğu yerdə qalmaq, nizam intizam pozulmamaq.

**Ökütmə çəkmək**: İçini çəkmək.

**Özünə ayrı mərziyəxan gör**: Bu işi özgəsinə gördür, mənə təklif etmə.

**Pişvaz eləmək**; **Pişvazına çıxmaq**: Qarşılamaq, qabağına çıxmaq.

**Pərakəndə eləmək**: Darmadağın etmək, dağıtmaq.

**Pəsdah yemək**: Peydah olmaq, ortaya çıxmaq, meydana çıxmaq.

**Pəziralıq eləmək**: Hörmət izzətlə qonaq etmək.

**Rəhnümalıq eləmək**: Yol göstərmək.

**Rəvaney-i rah olmaq:** Yola düşmək.

**Rəxnə salmaq**: Gizli şəkildə daxil olmaq.

**Sazax mazax eləmək**: Ağlayıb sıtqamaq.

**Səhtə eləmək**: 1-İnfark keçirmək. 2-Səmər verməmək, nəticəsiz qalmaq.

**Sözə tul vermək**: Sözü uzatmaq, uzunçuluq eləmək.

**Suya dönmək**: Heç ummadığı şeylə üzləşərək çaş-baş qalmaq, heyrət etmək.

**Süvar olmaq**: Ata minmək.

**Şirzə vurmaq**: Cummaq.

**Taxtın tabutun olsun**: Öləsən, üstündə oturduğun şahlıq taxdın tabutun olsun anlamında bir qarqış.

**Tov yemək**: Zədələnmək, əzilmək.

**Təbabətlik eləmək**: Müalicə eləmək.

**Tədbir tökmək**: 1-Çarə tapmaq. 2-Bir işin görülməsi barədə qərarar yetişmək. 3-Bir işin görülməsi üçün yol tapmaq.

**Təğyir tapmaq**: Dəyişmək.

**Təsmim tutmaq:** Qərar vermək, qərara yetişmək.

**Təşkil vermək**: Qurmaq, yaratmaq.

**Ürəyində buxl eləmək**: Ürəyinə atmaq, kin tutmaq.

**Ürəyində toy tutmaq**: Ürəyində sevinmək.

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Üz dolandırmaq**: Üzünü dönmək.
**Vəhşətlik eləmək**: Qorxub hürkmək.
**Yerə göyə çəngəl salmaq**: İtən biri və ya bir şey üçün hər yanı axtarmaq.
**Yığva yığmaq**: Mərasim təşkil etmək.
**Yolun damarın(ı) çəkmək (yığmaq)**: Sürətlə yol getmək.
**Yurd yuvasına su bağlamaq**: Ocağını söndürmək, yurdunu alt üst etmək.
**Yük çatmaq:** Yük yükləmək.
**Yəhərin qanla dolsun**: “Atının üstündə öldürsünlər” anlamında bir qarqış.
**Yəqin bilmək**: İnanmaq, əmin olmaq.

**ƏDƏBIYYAT:**

**Nebi Kebuteryan**, Tebriz Âşıklık Geleneği ve Âşık Edebiyatı C. I-C. II, Çukurova Üniversitesi Sosyal Bilimler Enstitüsü Türk Dili ve Edebiyatı Anabilim Dalı Yüksek Lisans Tezi, Adana 2008

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# TÜRK DESTAN ŞAİRİ NİYAZ YILDIRIM GENÇOSMANOĞLU'NUN MALAZGİRT DESTANI VE TARİHİ AÇIDAN DEĞERLENDİRİLMESİ

***SEBAHATTİN ŞİMŞİR***

a. Hayatı:

Niyazi Yıldırım Gençosmanoğlu, kesin olmamakla birlikte 25.8. 1929 tarihinde Ağrı'da dünyaya gelmiştir. İlkokula Ağrı'da 1935-1936 eğitim-öğretim yılında başlamış ve 1940-1941 eğitim öğretim yılında mezun olmuştur. Daha bu yıllarda güzel söz söylemeye ve şiir yazmaya başladığı bilinmektedir. Babası Mehmet Sabit Beyin, Samsun Akpınar Köy Enstitüsünde memur olarak çalışması dolayısı ile, Niyazi Yıldırım'da buraya kaydedilmiştir. Niyazi Yıldırım ikinci sınıfta iken babası, Malatya, Akçadağ Köy Enstitüsüne tayin olunca ağabeyi ile birlikte onların kaydını da buraya aldırmıştır. Niyazi Yıldırım, 1945-1946 eğitim-öğretim yılında buradan mezun olmuştur. (Yılmaz, 2000, 20-22)

Mezuniyet sonrası öğretmenlik mesleğinde ilk görev yeri Elazığ, Bizmişen köyü öğretmenliği olmuştur. Bu köyde, Romanya'dan göç eden Türkler ikamet ettiğinden, burada tanıştığı göçmen kızı Naciye Hanım ile evlenmiştir. Bu evlilikten iki oğlu ve bir kızı olmasına rağmen Naciye hanımla anlaşamadığından, Elazığ'ın Palu kazasına bağlı Kirve köyünde öğretmenliği sırasında tanıştığı ve Kürt kökenli olup, kardeşlerinin ifadesi ile Türkçe dahi bilmeyen Kıymet hanım ile ikinci evliliğini yapmıştır. Bu evlilik üzerine ilk eşi evi terk ederek baba evine dönmüş olup, daha sonra da mahkeme kararı ile nafaka ödemeye başlamış, boşanmaları ise ancak 1990 yılında gerçekleşmiş, bundan sonra Kıymet hanım ile resmi nikah yapabilmiştir.. İkinci evliliğinden Ayhanım, Aygün, Aybek, Murat ve Gökbörü ismini verdiği beş evladı olmuştur. (Yılmaz, 2000, 22)

Askerlik görevine 1.7.1959 tarihinde Ankara Muharebe okulunda Yedek Subay öğrencisi olarak başlamış, 6 ay sonra da Balıkesir-Edremit ilçesinde kıta görevine gelmiş olup, 31.12.1960 tarihinde terhis olmuştur. Terhis sonrası Elazığ'ın Hüseynik (Ulukent) Köyünde göreve başlamıştır. Burada 1965 yılına kadar öğretmen ve idareci olarak görev yapmıştır. 3.6.1965 tarihinde Aveulu köyüne tayin edilmiş, 1.3.1966 tarihinde ise 8. dönem İlköğretim müfettişlik kursu"na katılmak üzere Ankara'ya gitmiştir. Kursu başarı ile bitirerek, Samsun'a İlköğretim müfettişi olarak atanmıştır. Kısa bir süre sonra da, 24.10.1966 tarihinde Milli Eğitim Bakanlığı Yayımlar ve Basılı Eğitim Malzemeleri Genel Müdürlüğü şube müdür yardımcılığına getirilmiştir. 22.9.1970 tarihinde şube müdürü, 1.3.1975 tarihinde de İstanbul Devlet kitapları Müdürlüğü görevine getirilmiştir. Bu dönem Türkiye'nin iç bünyesinden kaynaklanan ve değişen iktidarlarla bazı insanların görev ve kurum değiştirme mecburiyeti Niyazi Yıldırım Gençosmanoğlu'nun da başına gelmiş ve 7.2.1977 tarihinde tayini İstanbul Türk Musikisi Devlet Konservatuarı Genel sekreterliğine çıkmıştır. Bu görevde iken, 3.1.1978 tarihinde de kendi isteği ile emekli olmuştur. (Yılmaz, 2000, 25)

Milli meselelerden ve Türklük davasından da uzak durmayan Gençosmanoğlu, daha Elazığ il merkezinde bile şubesi olmayan Türk Milliyetçiler Derneği'nin bir şubesini öğretmenlik yaptığı Bizmişen'de açmıştır. Bu dernekteki faaliyetleri ve Ankara'da Genel Merkez toplantılarına katıldığında tanıştığı Sait Bilgiç, Osman Yüksel Serdengeçti, Fethi Tevetoğlu, Necdet Sançar ve İsmet Tümtürk gibi milliyetçiliğin önde gelen isimleri ile yakınlşama sonucu 1969 Erzincan ve 1972 seçimlerinde de Malatya'dan olmak üzere MHP milletvekili adayı olmuştur.

1990'larda Sovyetler Birliği'nin dağılmasının gerçekleştiği günlerde, Türk Dünyası Araştırmaları Vakfı'nın önderliğinde bir grup aydın ile birlikte, 28 Ağustos 1990 tarihinde başlayan bir Türk Dünyası seyahatine de katılmıştır. Mart 1991'den itibaren ise rahatsızlığı başlamıştır. Önce baş ağrısı olarak başlayan şikayet, detaylı olarak incelenip, beyin tomografisi çekilince, beynin konuşma ve hafıza merkezinin üzerinde büyük bir tümörün olduğu ortaya çıkmıştır. Aynı zamanda konuşma zorlukları da başlamıştır. Ne

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

ameliyat edilmiştir. Ancak, hakkında yazılan şu satırlarda bir vakıadır ve görgü tanıklarından birinin ifadesi ile: "Acilen kaldırıldığı hastanede, o kızgın Ağustos güneşinin olanca sıcaklığı ile dolduğu üç kişilik oda da 38-39 derece ateşle ve koma halinde yatıyordu.. yatmıyor adeta ecelle boğuşuyordu. Hemşire hanımlara bu durumdaki bir hasta için, böyle bir odanın uygun olup olmadığını sorduğumda, onlar da imkanların ancak bu kadar olduğunu söylüyor ve yapılabilecek bir şeyin olmadığını belirtiyorlardı. Doğrusunu söylemek gerekirse, normal bir insan bile böyle bir odada, o boğucu sıcakta, kısa sürede hasta olabilirdi. Ailesi de perişan ve çaresiz idi. Hiç kimseye bir şey diyemiyor, hiç kimseden bir şey istemiyorlardı. Hocamız adeta kaderine terkedilmiş gibi idi. Ve zaten doktorlar da tıbbın yapabileceği bir şey kalmadı diyordu. Hoca hiç layık olmadığı bir ilgisizlik ve vefasızlıkla karşı karşıya kalmış ve adeta yapayalnız bırakılmıştı". (Karabay, 1992, 11)

Ağustos 1992 başlarında aniden tekrar başlayan rahatsızlık sonucu tekrar hastaneye kaldırılan Gençosmanoğlu, bu kez fazla dayanamaz ve 21 Ağustos 1992, Cuma günü sabaha karşı Hakk'a yürümüştür. Cenazesi ertesi gün, Karacaahmet mezarlığına defnedilmiştir.

b. Malazgirt Destanı:

Şüphesiz Niyazi Yıldırım Gençosmanoğlu'nun hayatındaki en önemli kırılma noktalarından en birincisi Malazgirt Marşı'dır. Bu şiir, Türklerin Anadolu'ya girmelerini sağlayan ve 26 Ağustos 1071 tarihinde Malazgirt Ovasında Selçuklu kuvvetlerinin Bizans kuvvetleri ile yaptığı ve Sultan Alp Arslan'ın askerlerinin kazandığı büyük zaferin 900. yıl dönümünde, Selçuklu Tarih ve Medeniyeti Enstitüsü tarafından açılan şiir yarışmasında bu eser birincilik ödülü almıştır. Şiir daha sonra Malazgirt Marşı olarak kabul edildiği gibi, Bahri Yüzlüer tarafından da bestelenmiştir. (Gençosmanoğlu, t.y., 277) Bu şiirin sözleri şöyledir:

Aylardan, Ağustos, günlerden Cuma,
Gün doğmadan evvel İklim-i Rum'a
Bozkurtlar ordusu geçti hücuma…

Yeni bir şevk ile gürledi gökler…
Ya Allah… Bismillah… Allahuekber!...

Önde Yalın kılıç Türkmen Başbuğu,
Ardında Oğuz'un ellibin tuğu…
Andırır Altay'dan kopan bir çığı,

Budur Peygamber'in övdüğü Türkler…
Ya Allah… Bismillah… Allahuekber!...

Türk, ulu Tanrı'nın soylu gözdesi,
Malazgirt, Bizans'ın Türk'e secdesi,
Bu ses, insanlığa Hakkı'ın müjdesi…

Bu seste birleşir bütün yürekler…
Ya Allah… Bismillah… Allahuekber!...

Nağramızdır bugün gök gürültüsü,
Kanımızdır bugün yerin örtüsü…
Gazi atlarımın nal parıltısı

Kılıçlarımızdır çakan şimşekler…
Ya Allah… Bismillah… Allahuekber!...

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yiğitler kan döker, bayrak solmaya,
Anadolu başlar, vatan olmaya…
Kızılelma'ya hey… Kızılelma'ya!..

En güzel marşını vurmada mehter,
Ya Allah… Bismillah… Allahuekber!...

c. Destanın Tarihi açıdan değerlendirilmesi:

Şüphesiz, Anadolu'nun bir Türk vatanı haline gelmesi önemlidir. Zira Ata yurdumuz Türkistan'dan batıya doğru muhtelif sebeplerden başlayan göç dalgası, bazen planlı bazen de plansız bir şekilde yüzyıllarca sürmüştür. Bu göç dalgalarının içinde belki planlı bir hareket olarak önce Hun Türklerinin 375'lerde Karadeniz'in kuzeyinden Avrupa ortalarına kadar olan ve Başbuğ Attila'nın öldürülmesinden sonra ancak etkisiz hale getirilebilen ve Avrupa'yı yaklaşık 70 yıl sarsan olaydan sonra, en dikkat çekici göç dalgası Selçuk Oğuzlarının 1000'li yıllarda başlayan hareketidir. Burada muhtemelen, Türk milletinin büyük bir çoğunluğunun İslam Dini'ni kabul etmeleri yanında, daha Tuğrul Bey döneminde gelinen Bağdat'ta Halife'nin ve mevcut devletin siyasi ve askeri varlığının pek de güçlü olmamasından da istifade edilerek, İslam Dininin cihat anlayışını harekete geçirmek üzere bir fetih politikası oluşturan Selçuklular, Anadolu'daki Bizans topraklarının ele geçirilmesini planlamışlardır.

Muhtemelen bu planların en önemli uygulayıcısı Sultan Alp Arslan olmuştur. Onun komutasında, 26 Ağustos 1071 tarihinde Bizans orduları karşısında daha az bir kuvvete sahip olan Selçukluların kazandığı bu muazzam zafer, Türklere Anadolu'nun kapılarını ardına kadar açmıştır. Dolayısı ile yine devletlerin ve milletlerin tarihlerinde 100'lü sayıların önemine binaen 1971 yılı bu zaferin 900. yılı olması hasebi ile, Türkiye'de büyük bir şekilde kutlanması takdire şayandır.

d. Sonuç:

Niyazi Yıldırım Gençosmanoğlu, kendisini Türklüğe adamış bir şair olarak, yetiştiği Malazgirt'in 900. yıl dönümüne katıldığı şiir ile kazandığı derece sadece o günün değil bugünün ve yarının da Malazgirt Destanının ölümsüzleşmesine vesile olmuştur. Ciltler dolusu kitapla anlatılamayacak bilgiyi bir şiir ile ölümsüzleştirmiştir. Bundan dolayı, destanların halk arasında daha çok yaygınlaştığı ve anlatıla anlatıla ölümsüzleştirildiği de düşünülürse, bugün sadece Türkiye'de değil Türk Dünyası'nın birçok yerinde kutlanan Malazgirt zaferi başta olmak üzere Türk zaferlerinde okunan bir marş olması da önemlidir. Çünkü, Türkler zaferleri kazanan kahramanlarını unutmadığı gibi, o kahramanları halka hatırlatan şairleri de unutmayacaklardır.

**KAYNAKÇA:**

Gençosmanoğlu, Niyazi Yıldırım, *Destanlar Burcu*, İstanbul, yty.

Karabay, Muhsin, "Bir Yıldırım Düştü Tanrı Dağına", *Türk Edebiyatı*, No: 211, Ekim 1992, s.21.

Yılmaz, Arif, *Niyazi Yıldırım Gençosmanoğlu Hayatı ve Şiir Sanatı*, Ankara, 2000.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# XX ƏSR DASTAN YARADICILIĞINDA KLASSİK ƏNƏNƏLƏR
## (Aşıq Şəmşirin yaradıcılığı əsasında)

***SƏBİNƏ İSAYEVA***

Dastan Azərbaycan şifahi xalq ədəbiyyatının, aşıq sənətinin ayrılmaz hissəsini təşkil edir. Belə ki, dastanlar Azərbaycan aşıqlarının repertuarında həmişə üstün mövqeyə malik olmuşdur. Lakin məlumdur ki, XX əsrdə sosializm ideologiyasının təsiri ilə klassik ənənələr zəifləmişdir. Bu, özünü dastançılıq sahəsində də göstərmişdir. Belə ki, yaradıcı aşıqlar daha çox dövrün tələbindən doğan «məcburi mövzulara» müraciət edirdilər. Bu dövrdə sovet quruluşunu, sosialist ideologiyasını, kolxoz quruculuğunu əks etdirən dastanlar yaradılır və aşıqların da repertuarında əsas yer tuturdu. Bununla belə sovet dövründə yaranan dastanlarda klassik ənənələr tamamilə itməmiş, bu və ya digər formada inkişaf etdirilmişdir. Klassik ənənələri davam etdirən belə sənətkarlardan biri XX əsrin yaradıcı və ifaçı sənətkarlarından olan Aşıq Şəmşirdir. Şəmşirin zəngin yaradıcılığının az bir hissəsini onun dastanları təşkil edir. Bunlar «Şəmşir və Sənubər» dastanı və «Şair Həsən Xəyallı ilə Ağdabanlı Aşıx Şəmşirin görüşü» dastan-rəvayətidir. Folklorşünas M.Həkimovun qeyd etdiyinə görə, bunlardan əlavə Şəmşirin «Cəlal və Minayə» və «Misir və Sənəm» dastanları da olmuşdur (5, 46). Lakin həmin dastanlar haqqında əlimizdə dəqiq məlumat yoxdur.

Aşıq «Şəmşir və Sənubər» dastanını 1960-cı ildə yaratmışdır. Dastan daha çox avtobioqrafik mahiyyət daşıyır. Burada aşığın doğumundan başlamış həyatı, sevgisi, bu sevgi yolunda çəkdiyi məşəqqətləri, iztirabları, xoşbəxtlik arzuları öz bədii təzahürünü tapmışdır. Şəmşir əsərdə dastançılıq ənənələrinin bütün elementlərindən ustalıqla istifadə etmişdir. Qeyd olunmalıdır ki, dastan Aşıq Şəmşirin özü tərəfindən yaradılmışdır. Məlumdur ki, Azərbaycan dastançılığında hər hansı bir sənətkarın adı ilə bağlanan dastanın onun özü tərəfindən yaradılması üsulu da mövcuddur. M.H.Təhmasib bu xüsusda yazmışdır: «Aşıq, yaxud aşıq tərzində yazıb-yaradan şair özü haqqında dastan qoşur. Burada əhvalatın, macəranın, süjetin doğrudan da baş vermiş real hadisəlik yaxud «uydurma»lıq, məşuqənin – butanın real sevgilimi, yaxud xəyali surətmi olub-olmamasının fərqi yoxdur. Əsas məsələ budur ki, belə dastanların qəhrəmanı onu yaradan «müəllif»in özüdür. Yəni bu tipli dastanlarda dastançı – «müəllif» öz adını aşıq-qəhrəmanın adında yaşatmaq yolu ilə gedir, bu üsuldan istifadə edir» (7, 88). Bu cəhətdən «Şəmşir və Sənubər» dastanı da deyilən üsulla yaradılmışdır.

«Şəmşir və Sənubər» dastanı klassik məhəbbət dastanlarında olduğu kimi ustadnamə ilə başlanır. «Ustadnamələrin ustad sözü, böyük sözü, ustad nəsihəti, öyüdü olduğunu nəzərə alsaq, bunların dastanın ifasında başlıca funksiyası birbaşa dinləyiciyə yönəldilmişdir. Başqa sözlə, aşıq dinləyiciyə nəsihət verir» (2, 16). Adətən, dastanlarda ustadnamələr klassik aşıqların şeirlərindən verilir. Lakin onlardan fərqli olaraq burada hər üç ustadnamə Şəmşirin öz şeirlərindən ibarətdir. Dastanın süjet xətti ənənəvi klassik məhəbbət dastanlarında olduğu kimidir. Bildiyimiz kimi, dastan şeirlə nəsrin növbələşməsi prinsipinə əsaslanır. Eynilə burada da klassik məhəbbət dastanlarında olduğu kimi şeirlə nəsrin növbələşməsi prinsipi əsas götürülmüşdür. «Şəmşir və Sənubər» dastanının ana xəttini məhəbbət motivi təşkil edir. Həmin motiv prof. M.H.Təhmasibin modelləşdirdiyi süjet formuluna uyğundur. Alim bu barədə yazmışdır: «Məhəbbət dastanlarımızın, demək olar ki, hamısının, «Kitabi-Dədə Qorqud» və «Koroğlu» kimi qəhrəmanlıq dastanlarımızın da bir sıra boy və qollarının əsas məzmunu, yəni süjeti qəhrəmanın öz butasına çatmaq uğrunda apardığı mübarizənin təsvirindən ibarətdir» (7, 65).

Klassik məhəbbət dastanlarında olduğu kimi, burada da dastan qəhrəmanın anadan olması ilə başlayır. Məhəbbət dastanlarında olduğu kimi burada da Şəmşirlə Sənubər mollaxanada oxuduğu vaxt sevişirlər. Lakin kasıbçılıq Sənubərin təhsil almağına mane olur. Onların sevgisinə mane olan valideynləri zorla Sənubəri Hidayətə vermək istəyirlər. Bu motiv bizə «Leyli və Məcnun» dastanında Leylinin məktəbdən çıxarılması, ev dustağı edilməsi, zorla İbn Salama verilməsini xatırladır. Məcburi şəkildə Hidayətə verilən Sənubər kənddən qaçmağa məcbur olur. Yol boyu Çoban Heykəl, ovçu Məhəmməd, həkim Sani ona köməkli

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

klassik dastanlarda rast gəldiyimiz qəhrəmana çətin anlarda yardım edən müsbət obrazları xatırladır. Sənubərin eşqi ilə dostu Bəybuludla çöllərə düşən Şəmşirin də başına çox işlər gəlir, çox sınaqlardan, məşəqqətlərdən keçməli olur, müxtəlif insanlarla qarşılaşır.

Dastanda klassik ənənənin səciyyəvi xüsusiyyətlərinin öz təzahürünü tapmasını aydın şəkildə müşahidə etmək mümkündür. Burada diqqətçəkən məqamlardan biri də Şəmşirin yarını durnalardan xəbər almasıdır. Bildiyimiz kimi, durna obrazı həm yazılı ədəbiyyatda, həm də aşıq poeziyasında, xüsusilə dastanlarda çox müraciət olunan obrazlardan biridir. Belə ki, «Əsli-Kərəm», «Ağ Aşıq və Süsənbər», «Aşıx Musaynan Mələknisə xanım» dastanlarında da qəhrəman sevgilisini durnalardan soraqlayır. «Şəmşir və Sənubər» dastanında da Şəmşirin neçə il həsrətində olduğu yarını durnalardan xəbər alması ənənədən gəlir:

Bir mələk misallım itibdir çoxdan,
Siz də gedin baxa-baxa durnalar.
Bizə də bu yazı yazılıb haqdan,
Qarşınıza xoş gün çıxa, durnalar (1, 298).

Dastanda hadisələrin inkişafı prosesində Şəmşir obrazının bir sıra xarakterik xüsusiyyətləri təcəssüm olunur. Belə ki, Şəmşir qazamata salınır, ona qarşı təzyiqlər başlanır. Lakin qəhrəman ümidini itirmir. Mənfi tiplər olan qazıya və onun Mürsəl Əfəndi, Sarı Şəmil kimi havadarlarına qarşı sazın, sözün gücü ilə mübarizə aparır:

«Beş söz deyər dördü hədyan, biri şər,
Elin arasına salar kin-kədər.
Yalan nöqsan söylədiniz nə qədər,
Aləmi çalxadı ruhani qazi» (1, 324).

Burada Aşıq Şəmşirin öz obrazını bütün ömrü boyu əsaslandığı, həmişə uca tutduğu mənəvi-əxlaqi dəyərlərin daşıyıcısı kimi yaratdığının şahidi oluruq. Sənətkar Şəmşir obrazını yaradarkən məhəbbət dastanlarının aşiq qəhrəmanlarının obrazına əsaslansa da, dastandakı qəhrəman sözün tam mənasında klassik məhəbbət dastanlarındakı aşiq qəhrəmanların təkrarı deyildir. Əksinə, Şəmşir burada klassik ənənələrlə öz yaradıcılıq keyfiyyətlərini birləşdirməklə orijinal məzmuna malik dastan obrazı yaratmağa nail olmuşdur.

Dastanın diqqətçəkən cəhətlərindən biri də burada vətən, yurd sevgisinin parlaq bədii təcəssümüdür. Şəmşir el-el, oba-oba, diyarbadiyar gəzdikcə vətənini, elini bir an da olsun unutmur, şeirlərində də bunu tez-tez xatırladır:

Əslim Miskinlidi, elim Ağdiyar,
Mənim üçün mehribandı vətənim.
Bu diyarda səndən qeyri kimim var,
Nə şirindi mənə candan vətənim (1, 304).

Dastanın digər baş qəhrəmanı – Şəmşiri saf və ülvi bir məhəbbətlə sevən Sənubərin qəlbindəki hisslər dastanın şeirlərində yüksək bədii sənətkarlıqla öz ifadəsini tapmışdır:

Gecələr ah çəkib, gündüz ağlıyan,
Var Leyli, Əslinin parəsi məndə.
Sinəm yaralıdı, tapılmır loğman,
Eşqin, məhəbbətin yarası məndə (1, 306).

Məhəbbəti yolunda hər cövrü-cəfaya dözən Sənubər özünü Leylinin, Əslinin xələfi saymaqla onların sevgisini davam etdirdiyini, onlar kimi sevgiyə sədaqətli olduğunu izhar edir. Lakin Sənubər öz «sələflərindən» fərqli olaraq, sevgisi uğrunda daha mübarizdir:

Çoxdu bu dünyada var sevən insan,
Bağça sevən insan, bar sevən insan.
Sənubər tək doğru yar sevən insan,
Cəfadan ovsanıb dinər, inanma» (1, 312).

Buradan da görünür ki, neçə illər Şəmşirdən ayrı gəzib-dolanan Sənubər bir an da olsun onu unutmur, əhdinə sadiq qalır. Sənubər öz xarakterik cizgilərilə əsl el qızının ümumiləşmiş obrazıdır. Sənətkar bu obrazla xalqımıza məxsus olan sevgiyə səda

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

təcəssüm etdirmiş və sevginin bizim həyatımızın mənası olduğunu, varlıq aləminin sevgisiz bir heç olması həqiqətini vurğulamışdır.

Dastanda diqqəti cəlb edən digər xarakterik surətlər də vardır. Bunlar ikinci dərəcəli obrazlar olsa da səciyyəvi cəhətləri ilə yadda qalırlar. Belələrindən biri Şəmşirin dostu Bəybuluddur. «Əsli-Kərəm» dastanında rast gəldiyimiz Sofi Lələ surətinin burada, bir növ, Bəybuludun simasında təcəssüm olunduğunu görürük. Sofi Lələ Kərəmlə bərabər el-el, oba-oba gəzdiyi kimi, burada eyni funksiyasını Şəmşirlə bərabər Bəybulud yerinə yetirir və Sənubəri axtarıb tapan, Şəmşirə çatdıran da məhz Bəybulud olur.

Dastanda diqqəti cəlb edən müsbət obrazlardan biri də qarabağlı Ələkbərdir. O da hər iki gəncin qovuşmasına köməklik edir. Şəmşir bu obrazın simasında klassik qəhrəmanlıq dastanları üçün xarakterik olan köməkçi obrazların bir sıra cizgilərini təcəssüm etdirmişdir. Ona görə də Ələkbər epizodik surət olsa da haqq-ədalət tərəfdarı kimi daha çox yadda qalır. O, qazıya, onun tərəfdarlarına qarşı çıxır, gənclərə köməklik edir.

Maraqlıdır ki, dastanda Şəmşirin aşıqlıq etməsi, toylara getməsi, məclis aparması barədə danışılmır. Onun aşıqlığı haqqında məlumata yalnız dastanın aşıq məclisində deyişməsi səhnəsində rast gəlirik. Deyişmə dastanın süjet gərginliyini, epik kolliziyanın poetizmini daha da artırmışdır. Aşıq Şəmşirin Aşıq Soltan, Mürsəl Əfəndi ilə deyişmələrində bağlamalardan, qıfılbəndlərdən bacarıqla istifadə etməsi və onları məğlub etməsi dastanın xüsusilə yaddaqalan hissələrini təşkil edir. «Şəmşir tək-tənha gəlib Səngən qalasına aşıq məclisinə çıxdı. Aşıqları görəndə çox sevindi. Onların böyüyü Aşıq Soltan dedi:

– Sənin əgər aşıqlıqdan xəbərin varsa, bir neçə sözüm var, ona cavab ver. Şəmşir razı oldu.

Aşıq Soltan:

Səndən xəbər alım, ay gəzən aşıq,
Söylə görüm üç yüz altmış beş nədi?
On iki qardaşdı, qırx səkkiz otaq,
Dolu nədi, yarım nədi, boş nədi?

Aldı Şəmşir:

Verim cavabını, ay aşıq Soltan,
Bir ildə gün üç yüz altmış beş olur.
Məhsulat bol olur yay, payız, hər an.
Qışda yarım, yayda dolu, boş olur» (1, 316).

Dastanda bağlamadan istifadə olunması onu həm də klassik ənənə ilə bağlamışdır. Bu cəhətdən Aşıq Şəmşirin yaratdığı dastanın poetik strukturunun hər bir elementində klassik ənənələrlə müasirlik üzvi şəkildə bir-birinə qovuşmuşdur.

Dastan nikbin sonluqla – haqqın nahaq, xeyirin şər üzərində qələbəsi, Şəmşirlə Sənubərin qovuşması ilə başa çatır. «Şəmşir və Sənubər» dastanı məzmunu etibarilə avtobioqrafik mahiyyət daşısa da, əsas qayəsini məhəbbət, həmçinin qəriblik, vətən həsrəti və bundan doğan kədər hissləri təşkil edir. Zamanın ictimai-sosial münasibətləri, ziddiyyətləri də Şəmşirlə Sənubərin məhəbbəti fonunda öz əksini tapmışdır. Sevgililərin qovuşmasına maneçilik törədilməsi, Sənubərə zor tətbiq edilərək Hidayətə verilməsi mövcud dövrün, zamanın azad sevgini qəbul etməməsini göstərir. Şəmşirlə Sənubərin sevgisində ictimai bərabərsizliyin əzabları əks olunmuşdur. Klassik məhəbbət dastanlarına xas olan ənənəvi motiv – sevgililərin bütün maneələri dəf edərək şər qüvvələrə qalib gəlməsi və nəticə etibarilə qovuşması ideyası bu dastanın da leytmotivini təşkil etməklə onu klassik dastançılığın ən gözəl ənənələri ilə bağlamışdır.

Aşıq Şəmşir haqqında ikinci dastan «Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıx Şəmşirin görüşü» adlanır. Bu dastan Şəmşir tərəfindən yox, çox güman ki, sonrakı aşıqlar tərəfindən yaradılmışdır. Dastan ilk dəfə folklorşünas H.İsmayılovun toplayıb tərtib etdiyi «Göyçə dastanları və aşıq rəvayətləri» kitabında işıq üzü görmüşdür. Tərtibçi dastanı Daşkənd kənd sakini Aşıq Hacı Bayramovdan topladığını qeyd etmişdir. H.İsmayılov yazır ki, Göyçə dastanları müasir şəraitdə də inkişafda davam etdiyinə görə daha çox tarixi istiqamətə meyllənir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

lıynan Ağdabanlı Aşıq Şəmşirin görüşü», «Aşıq Ələsgərnən Mir Məcid ağanın görüşü» tamamilə real hadisə zəminində yaradılmış dastanlardır (5, 139).

Tədqiqatçı Göyçə dastanlarını aşağıdakı şəkildə təsnif etmişdir:

«1. Kanonik məhəbbət dastanları (Göyçə variantları);

2. Göyçə aşıq dastanları;

3. Göyçə dastan-rəvayətləri;

a) Aşıqlarla bağlı dastan-rəvayətlər;

b) Başqa görkəmli şəxsiyyətlər haqqında dastan-rəvayətlər.

Bunlardan üçüncüsünü a) «rəvayətlər»; b) «əhvalatlar»; c) «səfərlər» adı altında mətn tiplərinə bölmək olar» (5, 139). Bu bölgünü tətbiq etdikdə «Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıx Şəmşirin görüşü»nü dastanların 3-cü tipinə və onun «səfərlər» bölməsinə aid etmək olar. Müəllifin fikirlərinə istinadən demək olar ki, təhlil edəcəyimiz bu dastanı sırf dastan yox, dastan-rəvayət adlandırmaq daha düzgündür. Burada klassik dastan ənənəsində olan ustadnamə yoxdur və dastan belə başlanır: «Qulluğunuza hardan ərz eliyək Göyçə mahalının Daşkənd kəndində Şair Xəyallıdan. Şair Həsən Xəyallı öz dövrünün savaddı adamı kimi hər tərəfə səs-sorax salmışdı. …Bu səs-sorax Kəlbəcər mahalının Ağdaban kəndində Şair Qurbanın oğlu Aşıx Şəmşirə də çatmışdı» (3, 648). Girişdən də göründüyü kimi, dastan-rəvayət ustadnamə ilə yox, adi təhkiyə üsulu ilə nəql olunur. Dastanın süjeti çox sadədir. Burada iki ustad sənətkarın – Aşıq Şəmşirin və Şair Həsən Xəyallının görüşmələri, deyişmələri, bir-birinə olan münasibəti və Göyçə-Kəlbəcər vəhdətinin birliyi haqqında maraqlı məqamlarla rastlaşırıq. Göstərilir ki, dövrünün məşhur sənətkarı Həsən Xəyallının şöhrəti hər tərəfə yayılıbmış. Bu soraq Kəlbəcərdə Şəmşirə də çatmışdı və aşıq şairlə görüşmək qərarına gəlir. Dastanda bunun hətta dəqiq tarixi də qeyd olunmuşdur. «1953-cü ilin payız ayıydı. Aşıx Şəmşir Kəlbəcərdən aşıf Göyçə mahalının Daşkənd kəndində Şair Həsən Xəyallının qonağı oldu» (3, 648). Konkret tarixin göstərilməsi dastanın real hadisələr əsasında yarandığını söyləməyə əsas verir. Şair Xəyallı aşığı çox böyük hörmətlə qarşılayır, onu bayatı ilə salamlayır. Bayatı ilə başlayan deyişmə daha sonra qoşma, divani ilə əvəz olunur və onlar sənət ənənəsinə uyğun olaraq deyişirlər. Hadisələrin sonrakı mərhələsində Aşıq Şəmşir Həsən Xəyallıyla bərabər Sarıyaqub kəndində Miskin Abdalın ocağını da ziyarət edirlər. Hər iki sənətkar bir-birinə qabaq olaraq «Dürüst» rədifli divani söyləyirlər. Daha sonra eyni rədifdə bir-birinə təcnis deyərək deyişirlər. «Götürüf görək Aşıx Şəmşir nə dedi: Biz də deyək, eşidənnər sağ olsun.

Əsri min əllahi aləmində var,
Bir adı lam əlif, ayə sin dürüst.
Yeri, göyü xəlq eliyən sənətkar,
Nə gözəl yaradıb ayə sin dürüst.

Görək Şair aldı nə dedi:

Bismillahdı ismi pakın kalamı,
Cəm olub ayələr sini-sin dürüst.
Hikmət bir nöqtədi elmin Nizami
Şini-şin göstərir, sini-sin dürüst» (3, 655).

Hər iki sənətkarın ərəb-fars tərkiblərindən istifadə etməsi, islamı, şəriəti, Quranı mükəmməl bilməsi onların biliklərini göstərir. Dastan-rəvayətdəki deyişmələrdən hər iki sənətkarın bir-birinə olan böyük ehtiramı, məhəbbəti, hər ikisinin qüdrətli söz sərrafı olduğu aşkarlanır. Sənətə və sənətkara hər zaman yüksək qiymət verən Göyçə mahalı Aşıq Şəmşiri də böyük hörmətlə qarşılayır:

Nə varsa taledə, baxtda görünür,
Qismətlər vədədə, vaxtda görünür.
Şair tacidarı taxtda görünür,
Oyanıb qəbirdən Ələsgər gəlib (3, 656).

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Qoşmadan aydın görünür ki, Göyçə mahalı və göyçəlilər aşığı hərarətlə, böyük məhəbbətlə qarşılamışdır. Həsən Xəyallı bu görüşü Allahın ən böyük payı hesab etmiş, onu Göyçənin öz doğma övladı kimi tərənnüm etmişdir. O, Şəmşiri Ələsgərin ən layiqli xələfi hesab etmiş, aşığın timsalında Ələsgərin sanki yenidən dirildiyini, zühur etdiyini poetikləşdirmişdir.

Dastan-rəvayətdə əsrin ortalarında baş verən müəyyən tarixi hadisələrə də işarələr vardır. 1937-ci illərin qanlı repressiya, sürgün illərində azərbaycanlılar öz doğma yurd-yuvalarından sürgün olunurdular. Bu hadisə dastan-rəvayətdə epizodik şəkildə olsa da xatırlanmışdır. «Mənim əzizdərim, Dədə Şəmşir sübh tezdən qalxıb özünü Göyçə mahalının təmiz havasına verirdi. Gördü kəndin yarısının işığı yanmır, bajasınnan tüstü çıxmır. Aşıx Şəmşir Həsən Xəyallıdan soruşdu ki, sizin qonşularınızın niyə işığı yanmır? Həsən Xəyallı buyurdu ki, onnar Stalinin, Mircəfər Bağırovun göstərişinnən Azərbaycana köçüflər. Aşıx Şəmşirin xəyalınnan nələr keçmədi. Dərinnən köks ötürüf sazı sinəsinə sıxdı. Aldı görək nə dedi:

Eşidəndə od töküldü başıma,
Aman Allah, «Göyçəm köçür» dedilər.
Ağlamağım yaraşmayır yaşıma,
Aman Allah, «Göyçəm köçür» dedilər (3, 657).

Aşıq Şəmşirlə Şair Həsən Xəyallının bir neçə gün davam edən görüşü dildən-dilə, ağızdan-ağıza keçərək dastanlaşmış, rəvayət donuna bürünmüşdür. Dastandakı deyişmələr, aşıqla şairin bir-birinə qabaq olaraq söylədikləri bayatılar, qoşmalar, təcnislər hər iki sənətkarın poetik istedadını, şairlik qüdrətini və sənətkarlıq məharətini nümayiş etdirir.

Dastan-rəvayət kiçik həcmli olsa da, öz süjetinə, quruluşuna, dilinə, məzmununa görə orijinaldır. «Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıx Şəmşirin görüşü» dastan-rəvayəti dilinə görə də diqqəti cəlb edir. Əsərdə xalq danışıq dili ifadələrindən istifadə olunmuşdur. Dastan dilinin sadəliyi, təbiiliyi, orijinallığı ilə diqqəti cəlb edir. Maraqlıdır ki, burada dastan mətni söyləyicinin – informatorun dilindən olduğu kimi verilmiş, onun dil və üslubuna toxunulmamış, özünəməxsusluğu qorunub saxlanılmışdır. «…Müxtəlif səbəblər üzündən toplama nümunələrində uzun müddət söyləyicinin dil və üslubunun, danışıq tərzinin özünəməxsusluğunu, təbiiliyini qoruyub saxlamaq bir növ yaddan çıxarılmış, bir çox folklor nümunələri kimi aşıqların dilində də yazıya alınmış örnəklər, o cümlədən dastanlar bir növ bədiiləşdirilmişdir. Dastanı hansı regionun aşığının söylədiyi bu nümunələrdə demək olar ki, hiss olunmur» (3, 60). «Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıx Şəmşirin görüşü» dastan-rəvayətində isə bütün bu qaydalara riayət olunmuşdur, yəni həm nəsr, həm nəzm hissəsində Göyçə ləhcəsi – dialekti qorunub saxlanmışdır. Dastan-rəvayətdə aşıqların dilindən söylənən ənənəvi formullara, qəlib ifadələrə də rast gəlinir. Məsələn; «Bəli, mənim əzizdərim adəti üzrə məclis yenə əzəlki gün kimi gejənin bir əyyamına çəkdi. Amma nə ustad Aşıx Şəmşirdən doyulasıydı, nə də qaynar təbli Şair Həsən Xəyallıdan» (3, 657).

Sözügedən dastan, həmçinin, Əlqəmə Əmrahoğlunun toplama və tərtibində «Şair Həsən Xəyallı ilə Aşıq Şəmşirin görüşü» adı ilə nəşr olunmuşdur (6). H.İsmayılov dastanı konkret olaraq hansı aşıqdan topladığını qeyd edirsə, ondan fərqli olaraq, digər toplayıcı dastanın şəxsən onun iştirak etdiyi məclisdə yarandığını söyləyir. Hər iki variantı tutuşdurduqda müəyyən fərqlərin olduğu ortaya çıxır. Birincidən fərqli olaraq, Ə.Əmrahoğlu dastanın nə vaxt, harada, hansı məclisdə söyləndiyini göstərmir, hansı aşıqdan və yaxud söyləyicidən eşitdiyi haqqında heç bir məlumat vermir, yəni burada söyləyicinin kim olduğu məlum deyil. Bu halda ortaya belə bir sual çıxır: o dastanı kimdən və harada toplayıb? Birinci dastan-rəvayətdən fərqli olaraq ikinci çox böyük müqəddimə ilə başlayır. Amma bu müqəddimə dastanın poetik strukturuna o qədər də uyuşmur. Bundan başqa, Həsən Xəyallı çox təriflədiyi halda, Aşıq Şəmşir haqqında heç bir məlumat verilmir. Görünür, bu «toplayıb-tərtib edən»in improvizasiyasıdır. Dastan-rəvayətin dilinə gəldikdə deməliyik ki, birincidə xalq danışıq dilinin təbiiliyi, sadəliyi, danışıq dilinin sintaksisi qorunub saxlanıldığı halda, ikincidə buna qətiyyən riayət olunmur və dastan mətni ədəbi dil normasında verilmişdir ki, bu da onu tamamilə folklor dilinin koloritindən məhrum etmişdir.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Hər iki dastan – «Şəmşir və Sənubər» və «Şair Həsən Xəyallıynan Ağdabanlı Aşıx Şəmşirin görüşü» kifayət qədər maraqlı süjet xəttinə, məzmuna malik olmaqla Aşıq Şəmşirin dastan yaradıcılığı sahəsində də istedadlı bir sənətkar olduğunu göstərir. Həmçinin bu dastanlar Şəmşirin XX əsrdə dastançılıq sahəsində klassik ənənələri uğurla davam etdiridiyinin bariz nümunəsidir.

**ƏDƏBIYYAT**

1. Azərbaycan dastanları. 5 cilddə. V cild (tərtib edəni: Axundov Ə.). Bakı, 1972
2. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı. 2000
3. Göyçə dastanları və aşıq rəvayətləri (toplayıb tərtib edəni: İsmayılov H.). Bakı, 2001
4. Həkimov M. Haqq aşığı Dədə Şəmşir. Bakı: 2004, 160 s.
5. İsmayılov H. Göyçə dastanlarının janr spesifikası və təsnifi prinsiplərinə dair. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XIII kitab, Bakı, 2002, səh. 135-140
6. Şair Həsən Xəyallı ilə Aşıq Şəmşirin görüşü (toplayıb tərtib edən: Əmrahoğlu Ə.). Bakı, 2005
7. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı, 1972

**Summary**

The eposes take important place in Ashug Shamshir's activity. As the master had some eposes only two of them exist and they are analyzed in details in this article. In the article the main characters of epos creation by Shamshir are investigated.

**Резюме**

В статье говорится о том, что в творчестве Ашуга Шамшира особое место занимают также и дастаны. Несмотря на то, что его перу принадлежали несколько дастанов, но из них остались только два дастана, которые привлечены в данной статье всестороннему анализу. Здесь также исследуются главные особенности дастанного творчества Ашуга Шемшира.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# AZƏRBAYCAN DASTANLARININ DİL-ÜSLUB XÜSUSİYYƏTLƏRİ

***SƏDAQƏT HƏSƏNOVA***

Dastanlarımız xalqımızın söz sahibi olmaqdan başqa, saz sahibi də olduğunu, sazla sözün vəhdətindən yaranan yüksək bədii-estetik zövqünü, düşündüklərini şövqlə, nəzakətlə ifadə etmək bacarığını göstərən folklor örnəklərimizdəndir. "Ozan oğuznaməçi"liyinin davamçısı olan "aşıq dastançılığı" ədəbi dilimizin özülünün – ümumxalq dilinin yüksək ruhunu yaşadaraq, nəsildən-nəslə, əsrdən-əsrə ötürərək türk epik-lirik estafetini ləyaqətlə daşımışdır.

Dastanlarımızın əsas dəyəri onların özünəxas sənət keyfiyyətində, bu keyfiyyətin əsas göstəricilərindən olan canlı dilindədir. Qədim türk folklorunun nadir incilərindən olan Azərbaycan dastanlarının dili xalqımızın nitq mədəniyyətinin onun təfəkkür mədəniyyəti qədər zəngin olduğunu təcəssüm etdirir.

Azərbaycan ədəbi dilini folklor dilindən ayrı düşünmək mümkün deyil. Folklor dili ədəbi dilin milli baxımdan ən təmiz və keyfiyyətli qoludur. Belə ki, yazılı ədəbi dilimizdə yad dillərdə yazılan örnəklər olduğu halda, folklor nümunələrimiz söz inciləri xəzinəsində - xalqımızın doğma ana dilində düzülüb-qoşulmuşdur. Dastanlarımızdakı poetik ahəng, söz axarı, xalq frazeologiyası, həyat tərzi və adət-ənənlərimizlə bağlı ifadələr, şairanə nəsr və s. onların üslub mənzərəsini canlandıran faktlardandır. Ümumi sayı yüzü keçən, variantları üç yüzə çatan dastanlarımızda "başına döndüyüm", "dərdin alım", "qurban olduğum" kimi uzaq yüzillərdən bəri mehriban bir xalqın isti ürəyindən gələn nitq etiketləri, qarğış, alqış və dualar, hikmət saçan ifadələr, xüsusi ritm yaradan təkrarlar və s. onların leksik-qrammatik zənginliyini təsdiq etməkdən başqa, dil-üslub özəlliyini də müəyyənləşdirir.

Dastanlarımızın dil-üslub mənzərəsində türk dillərinə xas məcazlıq diqqəti çəkən faktlardandır. Bu baxımdan, "yekəlik bilmək", "mənlik davalamaq", "könül quşu", "nəzakət vaxtı", "can bazarından salamat qurtarmaq", "səndən xəbər alım", "fələk kəməndinə saldı" və s. kimi söz və idadələr səciyyəvidir. Bu leksik-qrammatik dil faktlarının ifadəsində böyük və qədim bir xalqın nəzarəti var. Xalqın dilində işlənən sözlər təkcə leksik vahidlər deyil, onlar həm də semantikası i9lə güclü dil vahidləridir. "Dilin leksik sistemi sadəcə olaraq leksik-semantik birliklərin qarşılıqlı münasibətdə olduğu nitq hissələri sistemidir" (2, 7).

Sözsüz ki, xalq bir yerə yığışıb söz yaratmır. Söz bir nəfərin ağzından çıxır, dildən-dilə düşür, yayılır, çoxluq tərəfindən qəbul edilir, bu prosesdə ilkin müəllif unudulur və beləliklə, o, xalqın malı olur, ayrı-ayrı fərdləri birləşdirən amilə çevrilir. Xalq yazıçısı M.İbrahimov dili məhz bu cəhətinə görə "xalqın mənəvi birləşməsində, həyat və mübarizəsini təşkil etməsində qüdrətli vasitə və silah" adlandırmışdır(4,53).

"Ədəbiyyatın əbədi qanunu" – şeirdə də, nəsrdə də sözün boğazda ilişib qalmaması, fikrimizcə, daha çox dastanlarımızda qorunur. Maraqlıdır ki, yazılı ədəbi dil üçün qüsur hesab olunan bir sıra faktlar folklor dilində təbii qəbul edilir. Məsələn, uzlaşma əlaqəsinin pozulması fakti ədəbi dilin qrammatik normasının pozulması əlaməti hesab edilən məsələdir. Lakin dastan dilində o, normativ fakt kimi görünür. Bu baxımdan, "Əsli və Kərəm" dastanından alınmış aşağıdakı örnək səciyyəvidir:

Durnam, gedər olsaz bizim ellərə,
Qürbətdə bir xəstə gördüm, deyərsiz (1, II c., 28).

Burada "durna" təklik bildirən xitabdır və qrammatik qaydalara görə, "deyərsiz" xəbəri "deyərsən" şəklində işlənməliydi. Lakin dastanların, ümumiyyətlə, folklorun dili elə düzümlü, isti və axıcıdır ki, onun qrammatikasında nöqsan axtarmaq haqqında düşünmək belə olmur. Bu, onunla bağlıdır ki, dastan dilində ifadə tərzi, fikir dərinliyi qrammatikadan daha yüksəkdə dayanan anlayışlardır. Dastanlarımızdakı dialoq mədəniyyəti, nəzm hissələrindəki ifadələr bunu təsdiq edən faktlardandır.

Dastanlarda diqqəti daha çox çəkən budur ki, onlar qoşma, gəraylı, atalar sözü, məsəl, alqış, qarğış deyimləri və s. ibarət janrlar toplusu olduğundan dili

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

janrın öz üslubu var və hər bir üslub özünəxas leksikaya malik olduğundan, bu, dastanlarda seçkin cəhətlərin yaranmasına səbəb olur. Dastanlarımızda dil-üslub özəllikləri, bunların kəmiyyət çoxluğu və keyfiyyət yüksəkliyi bununla bağlıdır.

Azərbaycan dastanlarının dilində "niyə" və ya "necə" əvəzinə "nə" sual əvəzliyinin işlənməsi faktı da qabarıqdır:

Yatmışdım, üstümə gəldi ərənlər,
Sədil, *nə* yatmısan oyan dedilər (1,Ic., 43).

Səhər olcaq *nə* bülbüllər oxuşdu,
Hökm olundu, Süleymanlar yerişdi,
Qurbani der: gülün vaxtı sovuşdu,
Daha iyləmərik biz bənövşəni (1,Ic.,85).

Dastanlarımızın dilində "bəs" sual ədatında son samitin düşməsi əlaməti də vardır:

Qardaşım yox, deyə sözüm,
Anam yoxdu çəkə nazım,
Bu üstü sədəfli sazım
*Bə* kimlər çalacaq oldu (1, Ic.,133).

Dastanlarımızın dilində *könül quşu, nəzakət vaxtı, əcəl meydanı, can bazarı, səndən xəbər alım, fələk kəməndinə saldı* və s. kimi ifadələr tez-tez işlənir:

Ellər köçdü yaylağına, dayandı,
Sizin dağdan qar almağa gəlmişəm.
*Könül quşu* dövr eləyir bu bağda,
Zənbur mənəm, bar almağa gəlmişəm (1, Ic., 73).

*Nəzakət vaxtında*, xublar çağınd
Baxdım yar yanağı sayalanıbdı (**1,** Ic.,78).

Əzəl başdan sənlə sevda eylədim,
Çox da verdim sənə nəsihət, könül!
*Əcəl meydanından, can bazarından*
Qurtarmaq lazımdır salamat, könül! (1, Ic., 126).

Könül qalxdı, vətən sarı yeridi (1, Ic.,146).

*Səndən xəbər alım*, ay bala aşıq,
O nədi ki, göydən haça gəlibdi? (1, Ic.,116).

Küfrdən qəlbində bərkitmə barı,
Top dəyər, dağıdar burcu, hasarı;
Çox sənintək çöldə gəzən şahmarı
*Fələk kəməndinə saldı* dünyada (1, Ic., 197).

Dastanlarımızın dilində rənglərin də müəyyən qədər yeri vardır. Bu anlamda, daha çox *qara* və *qırmızı* sözləri işlənir:

Səni görüm, *Qara* Vəzir,
Haq işini bitirməsin.
Göydən min bir bəla gəlsə,
Birin səndən ötürməsin (1, Ic., 119).

Əyninə geyib *qırmızı*,
O gündən yandırır bizi (1, Ic., 119)

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dilimizdə hər bir rəngin həm müsbət, həm də mənfi anlamları vardır. “Qara” güc və əzm rəmzidir, həm də diqqəti toplayır. Lakin “Qurbani” dastanında “qara” həmin anlamları ifadə etmir. “Qırmızı” xoşbəxtlik, şadlıq rəmzidir, iştah açır. Təsadüfi deyildir ki, “məşhur qida firmalarının loqoları qırmızıdır” (5). El ağzında “Fatma nənənin hanası” adlanan rənglərin elmdə (fizikada) və sənətdə (rəssamlıq, memarlıq) dərk və duyumu haqqında maraqlı fikirlər vardır. Fizika elminə görə, spektrdəki rənglərdən ilkin gələnləri dalğa uzunluğuna görə fərqlənir və əsəb oyadan rənglərdir. Yəni qırmızı, narıncı və sarı əsəbə mənfi təsir göstərir. Sonrakı rənglər isə (yaşıl, mavi, göy, bənövşəyi) insanın qəlb aləminə müsbət təsir edən rənglərdir. Ədəbiyyatda rənglərin çoxlu anlam çalarları mövcuddur. Xalq şairi Rəsul Rzanın “Rənglər” silsiləsində bunun şahidi oluruq. Xalqımız ağız ədəbiyyatında da rənglərə özəl mənalar vermişdir.

Hər bir xalqın özünəxas nitq mədəniyyəti vardır. Bu mədəniyyət örnəklərində nitq yarlıqlarının önəmli rolu vardır. Belə ki, nitq yarlıqları nitq mədəniyyətinin əsas göstəricilərindən biridir. Azərbaycan nitq mədəniyyətində xalqımızın nitq vahidləri içərisində seçilən, onun milli təfəkkür və etnoqrafiyasını təcəssüm etdirən nitq yarlıqları əsas yer tutur. Dastanlarımızın dilində daha çox müraciət yarlıqları ilə qarşılaşırıq. Bu baxımdan, “ay ağalar” müraciəti bol-bol işlənməsi ilə seçilir:

Ay ağalar, gəlin sizə söyləyim,
Gör necə yad oldu ellər mənimlə (1,Ic., 141).

Ay ağalar, gəlin sizə söyləyim,
Əsilzadə qəm-diyarə düşübdü (1, Ic., 250).

“Başına döndüyüm” ifadəsi də dastanlarımızın dilində gözəl bir nitq yarlığı olaraq şirinliyi ilə seçilir:

Başına döndüyüm ay Pərizadə,
Can içində cana verməram səni.
Neynirəm bostanı, neynirəm bağı,
Yüz bağü bostana verməram səni (1, Ic.,52)

Dastanlarımızın dilində alqış və qarğışların da müəyyən yeri və rolu vardır:

Yaxşı adam bu dünyada ölməsin,
Yaman adam uzun ömür sürməsin,
Kişinin övladsız varı olmasın,
Hər sabah malını sanar, qocalır (1, Ic., 169).

Mən gedirəm, Allah səni saxlasın,
Ağlaya-ağlaya qal indən belə! (1, Ic., 138).

Qurbani də çıxdı taxta,
Qan qusasan laxta-laxta!
Əzirayıl gələn vaxtda
Üstündə Quran olmasın (1, Ic., 119).

Dastanlarımızın dilində “ikiqat mənsubiyyət” adlanan qrammatik hadisə ilə də qarşılaşırıq:

Yığın otağın xalısın,
Neynirəm dünya *malısın,*
Ağ qolundan *qolbağısın*
Açıb, oyanmaz, oyanmaz (1, Ic., 150).

Bundan başqa, mücərrəd anlayışın konkret şəxs kimi işlənməsi əlaməti də özünü göstərir:

Mən səni *ədalət* bildim,
Yar, qapına dada gəldim – (1, Ic., 152)

Dastanlarımızın dilində məkan bildirən isimlə eyni anlamı daşıyan şəkilçinin yanaşı işlənməsi faktı da vardır ki, bu, yazılı ədəbi dil üçün normal deyil:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qızlar, gəlin sizə halım söylüyüm,
O keçən günlərim yadıma düşdü.
Tahirin yanında *məktəbxanada,*
Yarla oxuduğum yadıma düşdü (1, Ic., 148).

"Məktəb" sözü anlamına görə məkan bildirir və məkan anlayışı verən şəkilşi ilə işlənmişdir. "Xana" bizim dilimizdə, əsasən şəkilçi kimi daha fəaldır və o, yalnız bir xalq mahnısında əsas nitq hissəsi kimi özünü göstərir:

Evləri var xana-xana

Həmin örnəkdə də o, tək işlənmir, təkrar işlənərək mürəkkəb söz kimi diqqəti çəkir. Qalan halların hamısında "xana" şəkilçidir və məkan bildirən səzlərə qoşulmur, qoşulduğu sözlərdə məkan anlamı yaradır. Bu baxımdan, onun "məktəb" sözünə qoşularaq işlənməsi qrammatik cəhətdən düzgün deyil. Lakin dastanlarımızın dilində oqədər təbii və yerinə düşərək işlənir ki, normal təsir bağışlayır. Dastanlarımızın dilində yazılı ədəbi dil normaları ilə üst-üstə düşməyən faktların çoxu alınmalarla, yəni ərəb-fars sözləri ilə bağlıdır. "Ədəbi dilimizdə ərəb-fars sözlərinin uzunömürlü olması ədəbi dil üslublarının səciyyəsi ilə əlaqədardır" (3,11).

Dastanlarımızın dili hikmətli ifadələrlə doludur. Xalqımız insan və cəmiyyət haqqında dərin düşüncələrini hikmətli sözlərlə ifadə etmişdir. Bu baxımdan, dastanlarımızın əvvəlində verilən ustadnamələr müdrik fikirlər qaynağıdır.

Beləliklə, dastanlarımız ulu xalqımızın düşüncə və nitq mədəniyyətini təcəssüm etdirən, sös demək bacarığını, sözün qüdrətini açmaq, onun sehrini, sirrini göstərmək qabiliyyətini təzahür etdirən dəyərli folklor janrıdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan dastanları I, II c. Bakı, Lider Nəşriyyat, 2005.
2. Cəfərov Q. Azərbaycan dilinin leksik-semantik sistemi. Bakı, Elm, 1984.
3. Əlizadə S.Q. XVI əsr Azərbaycan ədəbi dili. Bakı, ADU, 1966.
4. İbrahimov M. Ana dili - hikmət xəzinəsi. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1991.
5. "Zaman" qəzeti, 8-9 noyabr, 2005.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# AZƏRBAYCAN XALQ DASTANLARI NİZAMİ GƏNCƏVİ VƏ ÜZEYİR HACIBƏYLİ YARADICILIĞINDA

***SƏDNİK PAŞA PİRSULTANLI***

Tədqiqatçılar qeyd edirlər ki, dastan yazılmamış tarixdir. Mənə görə tarixə yoldaşlıq edən dastan folklorun iri həcmli epik-lirik növünə daxil olan və xalqın dildə, ağızda söylənən, ürəklərdə yaşayan ən canlı tarixidir. Dastanların hər birisi ölməz bir abidədir. Dastanların tarixi əhəmiyyətini izah etmək üçün dahi şairimiz Nizami Gəncəvinin və böyük bəstəkarımız Üzeyir Hacıbəylinin yaradıcılığına müraciət etmək buna əyani sübut ola bilər.

Nizaminin "Xosrov və Şirin" poemasında söylədiyi fikirlər dastanın hansı qüdrətə malik olduğunu təsəvvür etməyə və gözəl nəticələr əldə etməyə bir örnək ola bilər. Nizami "Xosrov və Şirin"-i qələmə alarkən Bərdə qocalarından maraqlı bir dastan eşitdiyini və bundan sonra "Xosrov və Şirin" poemasını qələmə aldığını söyləyir:

Bundan əvvəl Nizami "Sirlər Xəzinəsi"(məxzənül-əsrar) əsərini yazmışdır. Lakin "Sirlər Xəzinəsi" poema deyildir. "Sirlər Xəzinəsi" epik planda işlənmiş hekayətlərdən və şairin qeyd etdiyi kimi 20 məqalətdən ibarətdir. Bu nöqteyi nəzərdən yanaşdıqda Nizaminin "Xosrov və Şirin" poeması xalq dastanı əsasında yaranmış bir poemadır. Nizami "Xosrov və Şirin" poemasını yazarkən öz əsərində bütün dastan ənənələrini qoruyub saxlamışdır. Bizə görə, bu dastanın adı "Xosrov və Şirindir".

Xosrov adı Firdovsinin qələmə aldığı "Xosrov və Şirin" hekayəti poemaya əlavə edilmişdir. Nizami poemasında xalq dastanımızda püxtələşmiş Məhinbanu, Fərhad və Şirin obrazları öz varlıqlarını dastan həyatlarını qoruyub saxlaya bilmişlər. Məlumdur ki, Məhinbanunun əsatiri adı Şamramatadır. Hətta Şamramatanın əri ölür. Şamramata Zəngibaba adı ilə onu quşların qanadında uca bir dağın zirvəsində dəfn edir. Əfsanəyə görə Şamramatanın üzündəki gözəlliklər bir zaman Şirinin üzünə köçürülür. Hətta, Nizami Bərdədə eşitdiyi dastandakı aşıq vücudnaməsini də poemasına gətirmişdir. "Xosrov və Şirin" dastanında qəhrəmanın 10 yaşından 100 yaşına qədər keçirdiyi fizioloji, psixoloji hallar etab-etab poemada təsvir olunur. Nizaminin "Xosrov və Şirin" poemasını, hazır dastan sujetindən, onun motivlərindən yaradıcılıqla istifadə edildiyi üçün bu poemanı öz tipinə görə "dastan-poema" adlandırırıq. Hətta "Xosrov və Şirin" poemasında Nizami bir çox muğam havaları ilə yanaşı "Novruzi" saz havasından da bəhs edir ki, həmin hava indiki "Yanıq Kərəmi" havasının ilkin nümunəsidir.

Nizami ikinci dəfə olaraq "Leyli və Məcnun" poemasını yazarkən xalq dastanına müraciət etmişdir. Nizami bu poemanı yazarkən ərəb mənbələrindəki məlumatlar, Azərbaycan xalq əfsanələrindəki "Qanlı göl" və "Pərvanə" əfsanələri kifayət etməmişdir. Nizami aşıqlar tərəfindən yaradılmış əski "Leyli və Məcnun" dastanından istifadə etmişdir. Şirvanşah Axsitan Nizamiyə "Leyli və Məcnun" poemasını yazmağı təsadüfən sifariş verməmişdir. Görünür, Yunis Əmrənin XIII əsrdəki müasiri Şirvanlı Molla Qasımdan əvvəl bu yerlərdə "Leyli və Məcnun" dastanını söyləyən, yayan, məşhurlaşdıran ozanlar, aşıqlar var imiş. Belə olmasa nə Şirvanlı Molla Qasım kimi dastan yaradıcısı yetişə bilməzdi, ("Molla Qasım və gürcü qızı" adlı dastanı mövcuddur) nə də "Leyli və Məcnun" kimi məşhur bir dastanın səsi-sədası Şirvanşah Axsitana çata bilməzdi. Həmin "Leyli və Məcnun" dastanının bir variantı xalqda bu gün də yaşamaqdadır və həmin dastan Nizaminin "El variantları" kitabına daxil edilmişdir.[1]

Qədim "Leyli və Məcnun" dastanında Məcnunu qoruyan və hamilik edən başı taclı bir ilandır.

Nizami əsərlərindəki nu yaradıcılıq ənənəsi özündən sonra da daha yeni, daha maraqlı şəkildə davam etmişdir.

---

[1] Nizami əsərlərinin el variantları, toplayanları H.Əlizadə, M.H.Təhmasib. Azərnəş

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Böyük bəstəkarımız Üzeyir Hacıbəyli yazılı mənbələrlə yanaşı, xalq dastanlarından da yaradıcı şəkildə istifadə etmişdir. "Leyli və Məcnun" dastanı, "Əsli və Kərəm", "Koroğlu" dastanları Üzeyir Hacıbəyliyə poetik və melodik qaynaq kimi onun imkanlarını qat-qat artırmışdı. Üzeyir Hacıbəyovun özü qeyd edir ki, "Koroğlu" operasını yaradarkən mən başdan-başa "Koroğlu" dastanından istifadə etmişəm, bunun şeirlərindən və musiqisindən əzəmi dərəcədə faydalanmışam.

Deməli, Nizami xalq dastanlarımızdan faydalandığı kimi, Üzeyir Hacıbəyli də dastanlarımızın poetik və melodik imkanlarından faydalanaraq dastan-operalar yaratmışdır.

İki böyük sənətkarın - Nizami kimi dahi şairin, Üzeyir Hacıbəyli kimi böyük sənətkarn Azərbaycan xalq dastanlarından istifadə etmələri milli ənənələrimizi öz əsərlərində yaşatmaları dastanlarımızdakı hazır obrazı, öz əsərlərinə gətirmələri Azərbaycan dastanlarının qüdrətini, tarixi rolunu bir daha nümayiş etdirir. Tarixə yoldaşlıq edən dastanlarımızın əzəmətini göz önünə gətirir.

V.Q. Belinski yazır:

"Tarix həmişə hər xalqda olmuşdur. Tarixsiz xalq yoxdur və bu tarix bir xalqın yaradıcılığında əfsanə şəklində, başqasında nağıl, üçüncüsündə poema, (dastan-Sədnik Paşa Pirsultanlı) dördüncüsündə isə xronika şəklində olmuşdur".[2]

Qaqauz folklorşünası N.V.Kidayş Pokrovskayanın yazdığı kimi "dastan geniş mənada epik janr əsəridir, o böyük həcmi, mürəkkəb quruluşu, içərisinə üzvi surətdə daxil olan janrların (epik nağıl, rəvayət, nəğmə, atalar sözləri, zərbül-məsəl, hərbə-zorba ustadnamə və. s.) müxtəlifliyinə görə başqa folklor növlərindən fərqlənir.[3]

Kidayşin dastan haqqında dedikləri bir daha sübut edir ki, az qala dastan xalq yaradıcılığı örnəklərini özündə cəmləşdirən və yaşadan epik-lirik əsərdir... Dastan məclislərdə söyləndiyi üçün xalqın dərsliyi şeir və musiqi rolunu oynayır. Bizim "Ozan aşıq sənətinin nəzəri məsələləri" adlı iri həcmli monoqrafiyamızda 100-dən artıq saz havası yazıya alınmışdır.[4] Orada "sazın yüz möcüzəsi"[5] adlı məqalədə qeyd olunur ki, hər bir dastanda ifa zamanı 5-10 saz havasından istifadə olunur. Lakin "Əsli və Kərəm" dastanı ilə 12, "Koroğlu" dastanı ilə 14 saz havası bağlıdır. Bu o deməkdir ki, məhəbbət və qəhrəmanlıq mövzusu dastan yaradıcılığında aparıcı rol oynamışdır. Böyük bəstəkarımız Üzeyir Hacıbəyli bunları dərindən duymuş, bu ilham dənizinə baş vurmuş və oradan qiymətli incilər çıxartmışdır. Biz təkcə iki böyük sənətkarın yaradıcılığına müraciət etdik. Dastan yaradıcılığının yazılı ədəbiyyatımıza və musiqimizə nə böyük təkanlar verdiyinin şahidi olmalıyıq. Əlbəttə bundan sonra biz dastanlarımızı bəstəkar yaradıcılığında, yazılı poeziyamızda, nəsrimizdə axtarmağımız yeni nəzəri əsərlərin meydana çıxmasına səbəb olacaqdır. Əlbəttə bu bir məruzədə dastan yaradıcılığının böyüklüyünü, qüdrətini və əzəmətini əhatə etmək olmaz.

## ƏDƏBİYYAT

1. Nizami Gəncəvi. "Xosrov və Şirin", Bakı, 1962.
2. Yusif Ziya Şirvani "Leyli və Məcnun" əsərlərinin meydana gəlməsi məsələsinə dair, "Nizami", üçüncü kitab, Bakı, 1941. səh 119-120

---

[2] В.Г.Белинский. Сочинения в трех томах. II Том. Москва, 1943, 226-227
[3] Н.В.Кидайш-Покровская. О дастане «Рустамхан», Москва, «Наука», 1972
[4] S.P.Pirsultanlı. "Ozan-aşıq sənətinin nəzəri məsələləri", Bakı, 2002
[5] "Azərbaycan müəllimi" qəzeti, 12 avqust, 1977

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

3. Üzeyir bəy Hacıbəyov "Azərbaycan xalq musiqisinin əsasları", AEA Nəşriyyatı, Bakı, 1950.
4. Sədnik Paşayev. "Azərbaycan xalq yaradıcılığının inkişafı", Bakı, 1981.
5. Nizaminin el variantları, Bakı, 1941
6. S.P.Pirsultanlı. "Ozan-aşıq sənətinin nəzəri məsələləri", Bakı, 2002
7. S.P.Pirsultanlı. "Nizami və xalq əfsanələri"
8. Nizami və folklor, Bilik, 1976
9. S.P.Pirsultanlı. "Azərbaycan eposunun əfsanə qaynaqları"
10. S.P.Pirsultanlı. "Ozan-aşıq yaradıcılığına dair araşdırmalar", I cild, Gəncə, "Pirsultan", 2002
11. S.P.Pirsultanlı. "Ozan-aşıq yaradıcılığına dair araşdırmalar", II cild, Gəncə, "Pirsultan", 2002
12. Azərbaycan xalq əfsanələri, Yazıçı, Bakı, 1985
13. Azərbaycan xalq dastanlarının tədrisinə dair, Bakı, 1989
14. "Azərbaycan folkloru və aşıq yaradıcılığı" Azərbaycan Dövlət Universiteti Nəşriyyatı, Bakı, 1989
15. "Novruz və Qəndab" və digər məhəbbət dastanlarının müqayisəli tədqiqi", Bakı, Azərnəşr, 2009
16. В.Г.Белинский. Сочинения в трех томах. II Том. Москва, 1943
17. Н.В.Кидайш-Покровская. О дастане «Рустамхан», Москва, «Наука», 1972

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# TÜRK EPIK ƏNƏNƏSINDƏ XAOS ANLAYIŞI VƏ ONUN SEMANTIKASI
## (Yaradılış dastanı əsasında)

***SƏFA QARAYEV***

"Xaos" bir termin olaraq iki mənanı ifadə edir:

1. Qarmaqarışıqlıq, nizamsızlıq 2. Kosmoqoniyanın tərkibi kimi onun əsasını təşkil edən əsas vahidlərdən biri .

Abrams bu barədə belə yazır: "Xaos indiki halda nizamsızlığı ifadə edir, amma antik miflərdə bu anlayış xüsusi mənalı vahid idi ki, indiki halda bu anlayışın mənası dəyişmişdir" (1).

Amma bu yazıda əsas məqsəd mifoloji xaosu araşdırmaq, onun məna qruplarına nəzər salmaqdır.

Ümumilikdə götürdükdə, mifoloji dünya modeli əsas iki hissədən - xaos və komosdan ibarətdir. Bu anlayışlar (kosmos və xaos) mifoloji şüurun parçalanmasından sonra öz yaşamını tarixi şüura transfer etdi ki, burada artıq o estetik dəyərləndirmə kontekstində yaşamağa başladı. Belə ki, xaos-kosmos qoşası tarixi şüurda estetik kateqoriyalara uyğun olaraq yaxşı-pis, mərd-namərd, haqlı-haqsız və s. qarşıdurmalar silsiləsində öz yaşamını davam ertdirdi. Amma mifoloji şüur üçün bu anlayışa münasibət heç də yaxşı və pis kimi estetik çərçivəni özündə ifadə etmirdi. O zaman xaos anlayışı daha çox kasmoqoniyanın digər bir qütbünü təmsil etməklə bütövləşmənin, tamlanmağın bir vasitəsi idi.

Xaos anlayışını necə başa düşür və bu ad altında hansı anlayışlar tədqiqata cəlb olunur?

Burada xaos anlayışının ənənəvi ədbiyyatda dəfələrlə vurğulanan əlamətlərindən danışmaq istəməzdik. Belə ki, bu ədəbiyyatlarda xaos boşluq, qaranlıq, su və s. ilə simvolizə olunması vurğulanmışdır. Biz hər şeydən öncə xaos adı altında cəmləyə biləcəyimiz anlayışlara tezislər şəklində nəzər salaq:

1. Kosmik nizamın başlanğıcı kimi.
2. Ritual bütövləşmədə xaos bir faza kimi.
3. Kosmik nizamla qarşıdurma kimi.

Kosmik nizamın başlanğıcı kimi xaosa nəzər saldıqda aydın olur ki, bütün kosmik nizam xaosdan törəmişdir. Kosmik nizamın xaosdan törəməsi haqqında olan mifoloji mətnlərdə metoforik olaraq bir çox informasiyalar reallaşır. B.Y.Burdin bu tip çevrilmənin (kosmosdan xaosa) ardıcıllıq modelini özünəməxsus şəkildə izah edir: "İlkin olan hərəkətdir, hərəkət olmadan zaman və məkan meydana gələ bilməz... bunlarsız yalnız Xaos yaxud ilkin boşluq mövcud olur" (2).

Bu məsələni daha dərindən anlamaq üçün mifoloji mətnlərə, eləcə də qədim türk yaradılış dastanlarına müracitə edək. Çoxsaylı yakut-türk yaradılış dastanlarından birində bu məsələ belə əks olunur:

"Böyük Ağ yaradan Ürüngı Ayığ Toyun lap əvvəldən böyük dənizin üzərində yüksəklərdə dayanıb-durarakən suyun üzərində üzən bir köpük gördü. Tanrı durdu, bu köpükdən soruşdu: "Sən kimsən? Köpük Tanrıya baxıb dedi: "Mən bir şeytanam, suyun lap dibindəki yerdə yaşayıram. Tanrı şeytana üz tutub: " Bilmirəm bu söz doğrudurmu? Suyun altında yer varmı?" Elədirsə o yerdən mənə bir parça torpaq gətir! Şeytan dənizə daldı. Xeyli vaxt keçdikdən sonra şeytan göründü. Əlində bir az torpaq var idi. Tanrı qara torpağı ondan aldı, əlindən tutub baxdı, torpağı təqdis etdi və suya atdı. Sonra şeytan düşündü ki, bu Tanrını necə suda batırım, boğulsun! Lakin elə bu vaxt torpaq böyüyüb, ətrafa yayılmağa başladı. O, sərtləşdi, bərkidi. Dənizin böyük bir hissəsi həmin torpaqla doldu" (3, 443).

Bizə görə, burada bir çox uyğunsuzluqlar vardır ki, məsələnin kökünü də elə burada axtarmaq lazımdır.

Burada böyük Ağ yaradan Ürüngı Ayığ Toyun suyun üzərində üzən köpük görür. Köpükdən kim olduğunu soruşanda o, şeytan olduğunu deyir. Yəni burada köpüyün cavabı – özünü şeytan kimi təqdim etməsində bir uyğunsuzluq vardır. Daha

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

dibində yaşadığını bildirir. Bundan sonra böyük Ağ yaradan Ürünğı Ayığ Toyun ona yerin altından torpaq gətirməsini əmr edir. Daha sonra isə o, torpağı onun əlindən alaraq suyun üzərinə səpir. O, bərkiyir, böyüyür. Dənizin üzərində beləcə torpaq yaranır.

Bu mifoloji mətndə bizə görə, katastrofik hadisədən bəhs olunur. Daha sadə şəkildə desək, katastrofik hadisədən doğan köpük, sonra dəniz üzərinə çıxan torpaq simvolik şəkildə mifoloji mətnin əsasını təşkil edir. Bir daha B.Y.Burdinin yaradılış konsepsiyasına baxaq: enerji, məkan və zaman. Kosmoqoniyanın yaradılışının təməl mahiyyətini ifadə edən bu ardıcıllığı yuxarıda verdiyimiz mətndə də görmək olar.

Katastrofik hadisədən enerji yaranır ki, bu enerjidən öz növbəsində məkan (yuxarıdakı mətndə dəniz üzərində torpaq) formalaşır. Bu da təbii olaraq zamanın mövcudluğunu zəruri edir. Beləliklə, bu izahdan aydın olur ki, burada katastrofik hadisə simvolizə olunur. Amma unutmaq olmaz ki, bu simvolizə arxetip şüurdan, insanlığın qazandığı təcrübədən doğur. Yəni yaradılmaq, meydana gəlmək, törəmək üçün bir təkanın olmasının vacibliyi arxetip şüurun diktəsindən doğur.

Yaradılışın sudan, torpağın yaranması ilə başladığını irəli sürən mətnlərlə yanaşı, yaradılışın bir gün torpaqdan suya çevrilməsi ilə sona çatacağını iəli sürən mətnlərin də olması diqqəti cəlb edir. Məsələn, Azərbaycan mifoloji mətnləri içərisində Nuhla bağlı olan informasiyalarda bu məsələ xüsusi ilə vurğulanır: "Dünyanın üzünü su alanda Allahdan səda gəlir ki, ey Nuh bu gəmini sənə verdim, özünü xilas elə" (6, 44), yaxud digər bir mətndə deyilir: "Nuh xəbər tutur ki, dünyanın üzünü su alacaq. Əl-ayağa düşür, gəmi hazırlayır" (6, 45). Bundan əlavə xalq arasında geniş yayılmış inama görə, dünyanın üzünü su alacaq və bu zaman İsrafilin suru çalıncaq.

Burada yaradılışın, ümumilikdə, mövcüdatın bir gün dünyanın üzünü su alaması ilə məhv olcağı ideyası açıq şəkildə əks olunmuşdur. Bizə belə gəlir ki, dünyanın sonunda İsrafilin surunun çalınması yenə də dünyanın katastrofik şəkildə məhvini işarələyir. Yəni İsrafilin suru dünyanın məhv olacağı zaman baş verəcək tufan, zəlzələ və s. kimi katastrofik hadisələrin səs kodunda işarəsidir. Biz əvvəlki tədqiqatlarımızda müəyyən etmişik ki, xaosun əsas əlamət və işarələrindən biri də yüksək səsdir.

Yaradılış özü su-torpaq-su kimi halqalanaraq daima yaradılır, daha sonra yenə məhv olur. Əslində, bu düşüncə psixi aktla əlaqədardır. İnsan şüurunda təbiətin yaratdığı ritmlər bu cür yaranma və məhv olma modeli əsasında isanlığın qazandığı ümumi təcrübə kimi arxetip şüurda daşlaşmış və bütün fəaliyyət zamanı bu formul öz gücünü göstərmişdir.

Kosmik nizamın xaosla əvəz olunacağı zamanın əlamət təsvirlərindən aydın olur ki, kosmosun xaosa keçəcəyi zaman insanın bütün nizamlı faktları antinizamla əvəz olunacaq. Hətta bu arxetip düşüncə layının qəlibi əsasında onun sosial, əxlaqi-mənəvi, bioloji və s. sahələrin gətirə biləcəyi konkret halların da arxetip şüurda yatan təsivri mövcuddur. Buna nümunə olaraq yaddaşda canlı şəkildə yaşayan bəzi inancları misal göstərmək olar. İnsanlar ona da inanırlar ki, bu halın baş verməsi üçün zəmin hazırlanmaqdadır. Həmin gün kosmik nizama aid olan dəyərlərin, düşüncələrin hamısının aradan qalxacağına inam da bu qəbildəndir. Ümumilikdə götürdükdə, bütün bu düşüncənin təməli üzərində gələcəyə nisbətən keçmişin idealizə olunması düşüncəsi yüksəlmişdir. Gələcəkdə hər şey keçmişə nisbətdə fərqli olacağına olan inamı qarşılaşdıracağımız iki kiçik mətn hissəsindən də görmək mümkündür. "Köhnə vaxtlar insan çox yekə olub. Abazər adlı bir kişi varmış – ayağının birini bu taya, birini o taya qoyub. Araz boyda çayı adlayıb keçərmiş" (4, 7). Keçmişdə yaşayan nəhəng, güclü adamlar haqqında belə fəxarətlə bəhs edildiyi halda, başqa bir mətndə gələcək insanlar barədə belə təəssüflə söhbət açılır: "İnsan get-gedə cılızlaşır. Vaxt gələcək, insan o qədər balacalaşacaq ki, tüfəngin yovşan kolundan asıb deyəcək: bu nə uca ağacdı?" (4,13). Əslində, keçmişə qəhrəmanlıq, nəhənglik, gələcəyə cılızlıq və qorxaqlıqlığın şamil edilməsi özü kainatın yarandıqdan sonra kosmosdan xaosa doğru istiqamətlənməsi təsəvvüründən doğur.

Ritual bütövləşmədə xaosun bir fazanı təşkil etməsi mədəniyyətdə geniş şəkildə yer almışdır. Xaosu (xaosu işarələyən obraz və məkan timsalında) ram etməyən qəhrəman, obraz natamam və özünü təsdiqləməmiş olur. Bu məsələni izah etmək üçün

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qısa şəkildə nəzər salaq. Nağılda təsvir edilir ki, böyük və ortancıl oğul almaları oğurlayan divi tapmadığı halda, məhz onu kiçik oğul Məlik Məmməd bacarır. İki qardaş yeraltı dünyaya istidən düşə bilmədiyi halda, Məlik Məmməd bu addımı atır. Divi öldürdükdən sonra isə qardaşarı tərəfindən yeraltı dünyada-xaosda tərk edilir. Hamıya bəlli olan süjetdən də aydın olduğu kimi, o qaranlq dünyada bir çox şər qüvvələrlə vuruşaraq qalib gəldikdən sonra qırx gün Zümrüd quşu belində yol gələrək işıqlı dünyaya çatır.

Bu süjeti belə başa düşmək olar ki, o xaosa düşməklə öz hakimiyyətini təsdiqləyir. Onun yeraltı dünyada əjdahaya, işıqlı dünyada xəyanətkar qardaşlara qalib gəlməsi onun xaosu və kosmosu ram etməsini simvolizə edir. Bu fakt Oğuz Kağanın da sakral hakimiyyətini təsdiqləməsi zamanı baş verir.

Bu cür düşüncə bütöv mədəniyyət üçün xasdır. Sufizmdə də sufi kamilləşmək, haqqa qovuşmaq üçün psixoloji cəhətdən bu mərhələləri keçərək tamlaşır, bütövləşir və haqqa qovuşur.

Beləliklə, xaosun bu cür dərkini qısaca belə xülasə etmək olar: Xaos burada ali mövcüdatın əsas aparatından biri olmaqla mifologiyada tanrıların, epik düşüncədə qəhrəmanların, ruhi-mənəvi kamillik yolçuluğunda (məs, sufilər, şamanlar ) subyektlərin qazanmaları (və ya keçmələri) vacib olan iki aparatdan biridir. (digəri kosmos).

Xaosun bu cür dərkinin də gələcək tədqiatlarımızda araşdırmaya cəlb etməyi düşünürük.

Kosmik nizamla qarşıdurma kimi xaos-kosmos binar oppozisiyası bütün epik mətnlərin əsasını təşkil edir. Bir qism mətinlərdə bu birbaşa mifoloji yaddaşa əsaslanaraq ortaya çıxırsa, digər mətnərdə bu, xaos kosmos qarşıdurması qəlibinə əsaslanır.

Biz bu qarşıdurmanın araşdırılması zamanı iki səviyyəni biri-birindən fərqləndiririk:

1. Xaosun folklor mətnlərindən bərpası (xaos-kosmos modeli).

Bu mövqedən xaosun öyrənilməsinə aid Azərbaycan folklorşunaslığında bir çox tədqiqatlar vardır ki, onların tədqiqat zamanı nəzərə alınması da çox vacibdir.

2. Xaosun canlı-funksional sistemdən bərpası.

Müxtəlif affekt hallarında insanın gözünə görünən şər dünya, qaranlıq dünya varlıqları ilə bizim dünya "sakinləri" arasında yaşanan, ayrı-ayrı insanların yaşantılarına aid edilən faktlardan (qarabasma mətnləri) xaos-kosmos qarşıdurmasını araşdırmaq. Belə ki, müxtəlif tədqiqatlardan aydın olur ki, affekt, halisünasiya və şizofreniya hallarında arxaik yaddaşın (mifik yaddaşın) bərpası halı baş verir ki, bu zaman ortaya çıxan materialın da əsasını xaos və kosmos qüvvələri arasındakı oppozisiya təşkil edir (5).

Düşünürük ki, bu qısa nəzərdən keçirmə ilə mövzunun nə qədər mürəkkəb və çoxtərəfli oması barədə qısa təsəvvür yarada bildik.

## ƏDƏBIYYAT

1. Ralph H. Abrahams "Choas in the myth and science. www.ralph-abraham.org/articles-/MS%2346.Myth/ms46.pdf
2. www.sciteclibrary.ru/texsts/rus/stat/st2941.pdf
3. Bahəddin Ögəl Türk mifologiyası. I cild, Bakı, "MBM", 2006, 626 s.
4. Bu yurd bayquşa qalmaz. Folklor nümunələri B. "Yazıçı" ədəbi nəşrlər evi, 1995, 240 s.
5. М.П.Чередникова "Индивидуалъные галлюцинации как факт этнопсихологии http://www.ruthenia.ru/foklore/cherednikova1.htm
6. Əsatirlər, əfsanə və rəvayətlər. Bakı, "Şərq-Qərb", 2005, 304 s.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DASTAN DİLİNİN BƏZİ LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

***SƏNUBƏR ABDULLAYEVA***

Dialekt və ədəbi dil arasında keçid vəziyyətində duran müxtəlif tipli dialektfövqü formalar daxilində folklor dili xüsusi yer tutur. Folklor dilinin ədəbi dil və dialektlə müqayisəsi göstərir ki, folklor dili milli dilin yarımsistemlərindən biri kimi özünəməxsus xüsusiyyətlərə malikdir. Ümumiyyətlə, Azərbaycan dastanlarının dili üçün dialektfövqü əlamət kimi aşağıdakıları göstərmək olar: polidialeklik; çoxvariantlılıq; dastan mətnini yaradan orijinal, xüsusi nitq klişelərinin mövcudluğu; arxaik leksika və arxaik qrammatik formaların mümkünlüyü; daimi epitetlərin özünəməxsus funksiyası.

Dastanlar eldən-elə, obadan-obaya keçdiyi üçün onun dilində müxtəlif ərazilərə məxsus dialekt ünsürlərinə təsadüf etmək olur. Ona görə də dastan dilində dialekt ünsürlərinin iştirakı normativ hesab olunur. Adətən, dastan dilində geniş yayılmış dialekt xüsusiyyətləri özünü göstərir. Dar, məhdud ərazi arealından kənarda mənası başa düşülməyən, ancaq müəyyən hüdud daxilində fəaliyyət göstərən formalar dastan dilində işlənmir. Dastanların miqrasiyası folklor dilinin formalaşması səbəblərindən biridir. Azərbaycan dastan dilinin təmərküzləşməsi pillə-pillə getmiş, ağırlıq mərkəzi məhəllədən-məhəlləyə, bir ərazidən digərinə keçmiş, folklor dilinin dialekt bazası da buna uyğun olaraq daim dəyişmişdir. Dastan dilinin formalaşması zamanı müxtəlif dialekt materiallarından ən əsası, ən lazımlısı seçilmiş və onların mətn daxilində birləşməsi baş vermişdir. Folklorun ümumi əlamətlərindən hesab edilən şifahilik dastan dilinin çoxvariantlılığına, ənənəvilik isə dastan dilində arxaik qrammatik formaların qalmasına zəmin yaratmışdır.

Tədqiq edilən folklor örnəyinin dilində köməkçi nitq hissələri üçün də əsas xüsusiyyətlər çoxvariantlılıq, polidialektlik və arxaik qrammatik formaların olmasıdır. Dastanların dilində ədəbi dildə işlənən köməkçi nitq hissələri ilə yanaşı, müxtəlif dialekt qrupları üçün səciyyəvi olan nümunələrə təsadüf edilir. Bunlar ədəbi dildən fonetik variantlılığı və folklor dilinə məxsus məna çalarlıqlarının olması ilə fərqlənir.

Dastan dilində müşahidə edilən köməkçi nitq hissələrini iki qrupa bölmək olar:

1. Dastan dili üçün norma səciyyəsi daşıyan, yüksək işlənmə tezliyinə malik olan köməkçi nitq hissələri.
2. Müasir dil baxımından arxaik hesab olunan, ancaq dastanların nəzm hissəsinin dilində özünü göstərən köməkçi nitq hissələri.

Dastanların dili danışıq dilinə yaxın olduğu üçün onlarda ədatlardan çox istifadə olunmuşdur. Danışıq nitqində daha çox özünü göstərən ədatlar ya bir sözə, ya söz birləşməsinə, ya da bütöv cümləyə aid olub müxtəlif mənalar ifadə etməklə dastanların dilini daha canlı, daha ifadəli etmişdir.

Dastan dili üçün norma səviyyəsində olan *ki, axı, lap, elə, belə, ha, bax, qoy, gör, hə, bəli, xeyr, barı* və s. ədatlar yüksək işlənmə tezliyinə malikdir. Bu ədatların bəzisində dastan dilinə məxsus məna çalarlıqları müşahidə olunur.

Dastan dili üçün maraqlı xüsusiyyətlərdən biri *–cığ, -cik, -cuğ, -cük, -cığaz, -ciyəz* ədatlarının işlənməsidir. Bu ədatlar bütün əsas nitq hissələrinə, eləcə də bəzi köməkçi nitq hissələrinə qoşulur, əzizləmə, kiçiltmə, mərhəmət və başqa məna çalarlarını ifadə edir:

Yandı *ciyərciyim* döndü büryana,
Axdı çeşmim yaşı, döndü ümmana.
Gətirdilər məni ulu divana,
Bağladılar ayağımı, əlimi («Əsli və Kərəm», s.97)

Murada yetirsin səni yaradan,
Səgrəqiblər görüm çıxsın aradan,
*Sevdiciyim* köçlə keçdi buradan,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Baxmadı Əsli xan nə sağ, nə sola («Əsli və Kərəm», s.116)

Mustafa bil, ilqarında bütündü,
Yeri, oğul, mənzilinə yet indi,
Axtarıb Pərini tapmaq çətindi,
Duam budu: *sevdiciyin* alasan. («Qurbani», s.213)

-*Ca, -cə* ədatı da bütün nitq hissələri ilə işlənə bilir, əzizləmə, kiçiltmə mənalarını ifadə edir:

Bu dünyada *üççə* şeydən qorxum var:
Bir ayrılıq, bir yoxsulluq, bir ölüm («Əsli və Kərəm», s.76)

Pəri xan, qulaq as, *bircəsini* də deyim, sora gedim («Qurbani», s.154).

Qədim ədat formalarının biri kimi bunlar ədəbi dilimiz üçün arxaik olsa da, keçid şivələri üçün səciyyəvidir (6, s.309).

Dastan boyu işlənmiş, böyük intensivliyə malik olan *görə, özgə, sarı, - can, - cən, kimi, tərəf, bəri, başqa* və s. qoşmalar istər məna, istərsə də forma cəhətdən müasir dildən seçilmir. Canlı danışıq dilində, dialekt və şivələrimizdə kök salmış *tək // təki // təkin, üçün // - çın, - cın,- çün, -çün, // için, dək // - tan, -tən, ötrü // otəri, savayı // suvayı* və s. qoşmalar çoxvariantlı olub folklor dili üçün normativ hesab edilir.

Qoşmalar da tarixən müəyyən inkişaf prosesi keçirmişdir. Bunlardan *ilə* qoşması çox variantlığı ilə diqqəti cəlb edir. Bu qoşmanın – *ilən // - inən, // lan, -lən //-nan, nən* variantları dastanların nəzm hissəsində qorunub saxlanmışdır. Bu variantların hər birindən dilimizin bütün dövrlərində intensiv şəkildə istifadə edilmişdir [2; 3].

*Tək* qoşması da qədim qoşmalardan olub, adlıq və bəzən də yiyəlik halda işlənən adlara qoşularaq bənzətmə mənasını ifadə edir. Müasir Azərbaycan ədəbi dilində *tək* qoşması yalnız bir variantda işləndiyi halda dastanlarda bu qoşmaya *tək//təki* və *təkin* şəklində təsadüf olunur.

Zöhrəyəm canlar alaram,
Bulanıq sel *tək* çağlaram («Tahir və Zöhrə», s.51);

Salamatkən üzün məndən aralı,
Sağ cəsədin etməginən yaralı,
*Sən tək* ovçu tuta bilməz maralı,
Yan çevirib Kişmir deyə gedirəm
(«Məhəmməd və Güləndam», s.260).

*Tək* qoşmasının *təki* və *təkin* variantları tarixən dilimizdə işlənmiş, indi də dialektlərimizin əksəriyyətində qalmaqdadır (1; 6, s.307). *Təki* variantı isə canlı danışıq dilində də geniş yayılmışdır.

Adlıq və yiyəlik halı ilə işlənən qoşmalardan biri də *üçün//-cın, -cin, -cun, -cün* qoşmasıdır. Müasir ədəbi dildən fərqli olaraq dastanlarda *üçün* qoşmasının şəkilçiləşmiş variantı daha çox yayılmışdır. Bu da təsadüfi deyil. Orta əsr yazılı abidələrində, Nəsimi, Kişvəri, Həqiri, Qövsi Təbrizi və başqalarının dilində *üçün* qoşması şəkilçiləşmiş variantda işlənmişdir [2, 312].

Əcəb ayrı düşdüm nazlı yarımdan,
Yolunda keçdiyim, canü-sərimdən,
Yazıldı bizimçin Mövla Kərimdən
Aşiq gərək min bəlaya tuş olsun («Əsli və Kərəm», s.20).

Röşən Qıratın belinə sıçradı, axırıncı sınağçun Çənlibelin sıldırım daşlığına saldı («Koroğlu», 1941, s.9).

«Qurbani» dastanında müasir dildən fərqli olaraq *üçün* qoşmasının *için* variantına təsadüf etmişik. Orta əsr yazılı abidələrində *üçün* qoşmasının işləndiyi məlumdur. Güman etmək olar ki, *için* forması *üçün* qoşmasından da qədimdir. Bu hal *üçün* qoşmasının -ın instrumental hal şəkilçisi ilə düzəldiyinə bir daha əsas verir.

Qurbani der: bura gəldim yar *için*,
Kəs ciyərim, doğra bağrım, yar *için*,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yar odu ki, yardan sonra yar *için*,
Yaxa yırta, zülf dağıda, yara yüz! («Qurbani», s.247).

Azərbaycan dastanlarında *üçün* qoşmasının sinonimi kimi istər yazılı abidələrimizdə, istər dialektlərimizdə, istərsə də canlı danışıq dilində geniş yayılmış *ucundan//ucbatınnan* sözü işlənir:

Kərəm çəkər yar *ucunnan* zilləti,
Bivəfa dost heç eyləməz mürvəti,
Üzün görən neylər dünya ləzzəti,
Yolçunu yolundan eylər bu gələn! («Əsli və Kərəm», s. 40).

Dastanlarda müxtəlif fonetik variantlarda işlənən *ötrü//ötəri* qoşması özündən əvvəl gələn sözün çıxışlıq halda olmasını tələb edir. Müasir ədəbi dildən fərqli olaraq dastan dilində *ötrü* qoşması *ötəri* variantı daha çox işləkdir:

Bağçalar titrəşir bardan *ötəri*,
Almadan, heyvadan, nardan *ötəri,*
Abbas, ağlayırdın yardan *ötəri,*
Dur Şahi-Mərdanın ayağından öp! («Abbas və Gülgəz», s.305);

*Ötrü* qoşmasının *ötəri* variantı canlı danışıq dilində və Azərbaycan dialekt və şivələrinin əksəriyyətində işlənir (6, s.306).

Azərbaycan xalq dastanlarının dilində *ötrü* qoşmasının *ötrün* variantına da təsadüf edilir:

Gəlmisiz, ağır oturun,
Paşaya xəbər yetirin,
Ölürəm Tahirdən *ötrün*,
Cəbr elədi atam mənə! («Tahir və Zöhrə», s. 66).

*Ötrün* qoşmasının sonundakı *n* samiti ola bilər ki, qafiyə xatirinə artırılsın; digər tərəfdən dil tarixinə həsr edilmiş ədəbiyyatda *ötrün* variantı qeydə alınmasa da, Şəki dialektində bu qoşmanın işləndiyi göstərilir [4, s.158].

Dastanlarda müasir dilimizdə işlənməyən, lakin orta əsr Azərbaycan yazılı abidələrində, həmçinin dialekt və şivələrimizdə qalan qoşmalara da təsadüf edilir. Belə qoşmalardan biri *ilə* qoşmasıdır.

*İlə* qoşmasının *ilən//inən* variantları Nəsiminin, Füzulinin, Xətainin, S.Təbrizinin, daha sonralar M.P.Vaqifin, Q.Zakirin dilində çox işlənir [2, 322]. *İlən* qoşması xalq dastanlarının nəzm hissəsində bu günə kimi mühafizə olunmuşdur. Məlumdur ki, dastanların nəzm hissəsi arxaik formaları saxlamaq xüsusiyyətinə malik olduğu üçün çox qiymətlidir.

Mərd odu ki, işin tuta *mərdilən*,
Ər istəsən, keç namərddən, ər dilən,
Rəmz anlayan, söz düşünən, dərd bilən,
Aləmlərdə şöhrətlənir, bəllənir («Qurbani» s.221);

Mən tutaram ətəyindən *dadınan*,
Pərvanəyəm, qovrulmuşam *odunan,*
Məni rüsvay etmə bədnam *adınan,*
Çıxma yoldan, qardaş, aman günüdü! («Alıxan və Pəri», s.13).

*İlən* qoşmasının *-lən* variantı yazılı abidələrimizdə, xüsusilə Nəsimi, Füzulinin əsərlərində, Şühədanamənin dilində müşahidə edilmişdir. Dastanların nəzm hissəsində *-lən* variantına az da olsa, tüsadüf edilir:

Koroğlu heç əyməz boyun,
Tutacam *Telliylən* toyun,
Kəsəcəm tuncu, qoç, qoyun,
Dəmirçioğlu sağalacaq («Koroğlu», 1949, s.125);
Aşıq *biriylən* gərək,
Sədəf *dürüylən* gərək,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünyada gözəl çoxdu,
İlqar *biriylən* gərək («Yaxşı və aşıq», 1980, s.135)

Canlı danışıq dilində bu qoşma çox zaman *-nan, -nən* şəklində işlədildiyindən dastanların dilində bu variant çox yayılmışdır:

*Dilnən* dərdimi desəm, dilim yanar, bir saz gətirin, saznan deyim (Azərbaycan xalq dastanları, 1980, s.36); Eyvaz *işareynən* dedi («Koroğlu», 1941, s.102).

Göründüyü kimi, Azərbaycan dastanlarında işlənən *ilə* qoşması çox variantlılığı ilə başqa qoşmalardan seçilir.

«Sayat və Əmrah» dastanından bir misala fikir verək:

Söhbəti saz *ilən* belə,
Ördəyi qaz *ilən* belə,
Qırx incə qız *ilən* belə,
Gəl, Sayat bağdadı, bağda (s.67)

Bu misalda *ilən* qoşmasından sonra *belə* sözü işlənir ki, bu *birlikdə* mənasını ifadə edən *bilə* qoşmasıdır. Orta əsr yazılı abidələrində geniş işlənən bu qoşma mühayiət, birgəlik bildirir, mənasına görə *ilə* qoşmasından fərqlənmir. Yazılı abidələrdə bu qoşmaların paralel işləndiyi müşahidə edilir (3, s.23). *Belə* qoşması müasir dildə həmin məna ilə *bununla belə, sizinlə belə* və s. bu kimi ifadələrdə qalmaqdadır. Bu qoşma dastan dili üçün səciyyəvi deyil, bu qoşmaya aid başqa bir misala da təsadüf etmişik:

Tüşməl eşidib ki, biz təzə xan tikmişik, gəlib xanımızı *bizinən belə* qonaq aparsın («Xan Çoban», s.448).

*Və, həmçinin, hətta, habelə, lakin* və s. bağlayıcılar canlı danışıq dilində işlənmədiyi üçün folklor dilində də müşahidə edilmir. *Amma, da, də, ya, elə ki, həm, gah* və s. bağlayıcılar adlarını çəkdiyimiz folklor örnəklərinin dili üçün normativ hesab oluna bilər. Çoxvariantlı bağlayıcı kimi *əgər // əyəm // əgərçi // gər, yəni // yanı, həm // həmi, gah // gahi, deyə // deyin* bağlayıcılarını göstərmək olar. *Onunçün, onunçun ki, ta ki* bağlayıcıları dialektlərimizin əksəriyyətində yayıldığı üçün dastan dilində də müşahidə olunur.

Məlumdur ki, bağlayıcılar cümlənin həmcins üzvləri, söz birləşmələri və mürəkkəb cümlənin tərəfləri arasında leksik, qrammatik və məntiqi əlaqə yaratmağa xidmət edir. Birləşdirici bağlayıcılardan *həm//həmi, həm də//həmi də* bağlayıcısı dastanlarda çox işlənən bağlayıcılardandır. Bu da təsadüfi deyil, çünki bu bağlayıcısı canlı danışıq dilində və dialektlərimizdə geniş yayılmışdır. *Həm, həmi* forması qərb qrupu dialektlərində və keçid şivələrində hələ də işlənməkdədir (6, s.300).

Kərəm saxlar onun həmişə yasın,
Yanına almışdı ata-anasın,
*Həm* içib, *həmi* də doldurdu tasın,
Atların suyuma saldı da getdi («Əsli və Kərəm», s.60).

Yuxarıda göstərdiyimiz misalda işlənən *da* bağlayıcısı da maraq doğurur. Dialekt və şivələrimizin qərb qrupuna məxsus olan bu xüsusiyyətə dastanların nəzm hissəsində təsadüf etmək olur.

Yarın saldı səni olmazın qəmə,
Dayanmazmı yaxşı igid bu dəmə,
Günəş kimi qondu mənim sinəmə,
Əsli məndən gülü aldı *da* getdi («Əsli və Kərəm», s.60);

Hər gecə, hər gündüz Hələb şəhrində,
Qüdrət şərabını içdim *də* gəldim,
Yar mənə göndərdi bir gözəl namə,
Oxudum qarasın, seçdim *də* gəldim («Aşıq Qərib», s. 200);

Bizə belə gəlir ki, bu misallarda *da//də* bağlayıcısı «və» bağlayıcısı əvəzinə işlənmişdir. Danışıq dilində da//də bağlayıcısının «və» bağlayıcısı əvəzinə işlə

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

olur. Bu bağlayıcı həmcins sözlər arasında işlənir və sadalama məzmunu kəsb edir:

Ağa dərviş, allaha *da* qurban olum, qonağına *da*! (Azərbaycan dastanları, III c., s.77); Bir gün İbrahim gördü, şəhərdə bir sandıq satırlar, amma satan deyir, alan *da* peşmandır, satan *da* (Azərbaycan dastanları, s.118).

Həmcins üzvlər və tabesiz mürəkkəb cümlələr arasında əlaqə yaradan bağlayıcılardan biri də *gah//gah* bağlayıcısıdır.

Bu qoca dünyanın yoxdu vəfası,
*Gah* boşalıb, *gah da* dolan görmüşəm.
Qızıl gül açılıb heç xəndan olmaz,
Xəzan deyib, birdən solan görmüşəm («Kərim və Süsən», s.199);

Haldan-hala düşən viran könlümün,
Hər yanında iki cahan əyləşmiş,
*Gah* şah, *gəda, gahi* dana, *gah* nadan,
*Gah* hər məhləsində zindan əyləşmiş. («Əsli və Kərəm», s.105)

*Gahi* forması orta əsr Azərbaycan dilində işlənmiş, xüsusilə, Xətainin, Nəsiminin və başqalarının əsərlərində öz əksini tapmışdır.

*Əgər* bağlayıcısı müasir ədəbi dildə olduğu kimi, dastanların dilində də şərt budaq cümləsinin tərəflərini bir-birinə bağlayır. Məlumdur ki, bu bağlayıcı fars dilindən alınmışdır. Əgər bağlayıcısı ilə yanaşı *əgərçi* və *gər* formaları da fars dilində işlənir. *Əgərçi* bağlayıcısı güzəşt mənası ilə Nəsiminin, Füzulinin dilində də geniş yayılmışdır. *Əgər* bağlayıcısının bu variantına dastanların nəzm hissəsində təsadüf edilmişdir:

Qara qaşın oxdu, kirpiyin almaz,
Haramdan oxlasan, yaram sağalmaz,
Gedər bu gözəllik, sana da qalmaz,
*Əgərçi* sərxoşsan, ayıl, a Yaxşı! («Yaxşı və Aşıq», s.140).

*Əgər* mal istəsən, dövlət, varım var,
Namusum var, qeyrətim var, arım var,
*Gər* qalarsan, gözüm üstə yerin var,
Bir qızım var, ona həmdəm olasan («Qurbani», s.133).

Müasir Azərbaycan ədəbi dilində işlənməyən, Azərbaycan dastanlarında geniş yayılmış bağlayıcılardan biri də *–deyə//-deyin* tabelilik bağlayıcısıdır. Bu bağlayıcı Azərbaycan dilinin izahlı lüğətində səbəb-məqsəd bildirən qoşma kimi qeyd olunur. Bütün qoşmalar adlarla və ya substantivləşmiş nitq hissələri ilə müəyyən hallarda işlənir, *deyə* sözü isə təsriflənən fellə işlənir və qoşmalardan fərqli olaraq budaq cümləni baş cümləyə bağlayır [4, 68]. *Deyin* sözü dastanlarda da səbəb-məqsəd mənalı bağlayıcı kimi özünü göstərir. Müasir ədəbi dildə *deyin* bağlayıcısı *deyə* şəklində işlənir. *Deyin* bağlayıcısı da səbəb və məqsəd budaq cümləli tabeli mürəkkəb cümlənin tərəflərini biri-birinə bağlayır:

Çox yorulmuşdu *deyin* xan bağçaya girib, əyləşdi çarhovuzun başında («Tahir və Zöhrə», s.39).

Məni ağlar qoyduz cavan vaxtımda,
Qaralar yazdınız mənim baxtımda,
Atam tar-mar olsun taci-taxtında,
Ana, Kərəm yandı *deyin* ağlaram («Əsli və Kərəm», s.118).

*Deyin* bağlayıcısı müasir Azərbaycan ədəbi dilimiz üçün arxaik hesab olunsa da, Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində, həmçinin Nuxa dialektində işlənməkdədir (1, s.5).

Nümunələrdən göründüyü kimi, bağlayıcılar və bağlayıcı birləşmələri öz əsas funksiyalarından əlavə, emosionallıq yaradan üslubi vasitə kimi çıxış edir, dastanlarda fikrin bədii şəkildə ifadə olunmasına xidmət edir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Söylənilən fikirlə bağlı müəyyən emosional münasibətləri ifadə etmək, gerçəkliyin həqiqi və ya şübhəli olduğunu daha qabarıq göstərmək, müəyyən fikrə diqqəti daha da toplamaq, sadalama məqsədi ilə modal sözlərdən geniş istifadə edilir. Dastanların dili dialoji nitq ilə əlaqədar olduğundan modal sözlərlə zəngindir. Azərbaycan dastanlarının dilində dialoji nitqdə iştirak edənlərin qarşılıqlı münasibətlərindən doğan razılıq, şübhə, ehtimal, zəruriyyət və s. kimi münasibətləri bildirmək üçün ədəbi dildə olduğu kimi *doğrudan, doğrudan da, doğrusu, güman ki, deyəsən, bəlkə, yəqin* və s. modal sözləri işlədilir. Tədqiq etdiyimiz folklor örnəyinin dilində müxtəlif şivələrin fonetik xüsusiyyətlərini özündə əks etdirən *əlbəttə // əlbət // həlbətdə // həlbətdə ki, bəlkə // bəlkəm* və s. modal sözləri müşahidə edilir. *Qərəz // əlqərəz, sən demə // demə, belə-belə, xülasə, müxtəsər, müxtəsər kəlam, nə başını ağrıdım* modal sözləri dastan dilinə məxsus söz və ifadələr kimi özünü göstərir.

Dastanlarda *əlbəttə* modal sözü bəzən *əlbət, həlbətdə* şəklində işlədilir:

Qoydu bir xəlvət yerə, dedi, *həlbət* kəlbətin taparam, sonra açaram («Qul Mahmud», s.319);

Gizli sevda çəkib, eşqə düşənlər,
Bir gün olar, *əlbət,* əyanə çıxar.
Çəkəlim möhnəti səbr ilə, könül,
Görək bunun sonu nə yanə çıxar («Əsli və Kərəm», s.108);

Əl atma mənim nəbzimə,
Yoxdu məndə can, ay həkim.
*Həlbətdə ki,* sən bilirsən,
Dərdimi pünhan, ay həkim («Məsum», s.287);

*H* samitinin sözlərin əvvəlində işlənməsi türk dilləri üçün səciyyəvi xüsusiyyətdir. Odur ki, heç şübhə yoxdur ki, orta əsr Azərbaycan dilində *əlbəttə* sözü elə məhz *həlbət* şəklində işlənmiş, indi də bəzi dialektlərdə qalmaqdadır.

Folklor mətnlərində diqqəti cəlb edən, xüsusilə, müasir ədəbi dil üçün normadan kənara çıxma kimi qiymətləndirilən bəzi modal sözlər cümlələrə müxtəlif məna çalarları verməklə dastan dilini daha dolğun, daha canlı edir.

Arxaik formaların işlənməsi daha çox dastanların nəzm hissəsində özünü biruzə verir. Arxaik formalar müxtəlif dialektlərdə özünü göstərir. Müxtəlif dialekt formalarının dastanların nəzm hissəsində işlənməsi qədim Azərbaycan epik dilinin zəruri xüsusiyyətidir. Hər hansı dastanın dilinə yeni elementlərin daxil edilməsi və onların seçilməsi təkcə onların miqrasiyası ilə izah edilmir. Həm də bu proses artıq yaranmış, formalaşmış milli poetik ənənələrin tələbi ilə baş verir. Dialektdaxili əlamətlər məhdud ərazidən kənara çıxmaqla onun bir sıra xüsusiyyətləri cilalanır, təkmilləşir, bəzən isə artıq formalaşmış poetik ənənələrin tələbi və metrikanın təsiri ilə olduğu kimi qalır. Real dialektdə mövcud olan bu formalar poetik dildə başqa formalarla birlikdə fəaliyyət göstərir, yaşayır. Müxtəlif dialekt formalarının poetik məna daşıması dastan dilinin emosional gərginliyini artıran amillərdən biridir.

**ƏDƏBİYYAT:**

1. Şirəliyev M.Ş. Azərbaycan dialektologiyasının əsasları. Bakı: Azərtədrisnəşr, 1962.
2. Mirzəzadə H. Azərbaycan dilinin tarixi morfologiyası. Bakı, 1962.
3. Şükürov Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: APİ nəşriyyatı, 1981.
4. Əhmədov İ. Feli bağlama və digər nitq hissələri / Azərbaycan dilinin qrammatik quruluşu məsələləri. Bakı, 1982.
5. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1968.
6. Vəliyev A. Azərbaycan dilinin keçid şivələri. Bakı, 2005.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**Summary**

The main characteristics for the auxiliary parts of speech in the language of the investigated folklore resources are multivariation, polydialectic and archaic forms. In dastans, besides the auxiliary parts of speech which are used in literary language one can meet the examples being characteristics for the different dialectal groups.

The auxiliary parts of speech observed in dastans can be divided into two groups:

1. The auxiliary parts of speech used frequently and being normal for the language of dastans;
2. The auxiliary parts of speech observed in the prose part of dastans and considered archaic from the point of view of the modern language.

**Некоторые Лингвистические Особенности Дастанов**

Основными особенностями служебных частей речи в языке исследуемых фольклорных источников являются много вариантность, полидиалектность и наличие архаичных грамматических форм. В языке дастанов наряду с употребительными в литературном языке служебными частями речи встречаются и такие, которые характерны для различных диалектных групп. Они отличаются фонетической вариантностью и наличием смысловых оттенков, присущих языку фольклора.

Служебные части речи, используемые в языке дастанов, можно подразделить на две группы:

1. Служебные части речи, обычные для языка дастанов и имеющие высокую частоту употребления.

Служебные части речи, считающиеся архаичными с точки зрения современного языка и встречающиеся в стихотворной части дастанов.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# "KITABI-DƏDƏ QORQUD" DASTANLARININ DILINDƏ SADƏ CÜMLƏ MƏSƏLƏSİNƏ DAİR

***SEVINDIK VƏLIYEV***

Türk dillərində, o cümlədən Azərbaycan dilində sadə cümlənin tarixi çox qədimdir. Qədim türk abidələrinin öyrənilməsi zamanı sadə cümlənin struktur-semantik tiplləri geniş müşahidə olunur ki, bunlarında bir çoxu müasir türk dillərindəki cümlələrdən az fərqlənir.

Professor Əlisa Şükürlünün fikri bu cəhətdən səciyyəvidir: "Maraqlıdır ki, göytürk yazılı abidələrinin sintaktik quruluşu ilə bəzi orta əsr türk yazılı abidələrinin, xüsusilə "Kitabi-Dədə Qorqud" dastanlarının sintaktik quruluşu arasında müəyyən oxşarlıqlar ortaya çıxarmaq mümkündür. Bu isə orta əsrlərdə ortaya çıxan bəzi türk yazılı ədəbi dillərinin birbaşa göytürk ədəbi dilinin əsasında əmələ gəldiyini göstərir" (5, 194).

Professor Ə. Dəmirçizadə göstərir ki, "Kitabi-Dədə Qorqud" dastanlarının sintaksisində müasir Azərbaycan dilindən fərqli elə bir xüsusiyyətə təsadüf olunmur (3, 133).

Bu faktlar da göstərir ki, türk dillərinin, o cümlədən Azərbaycan dilinin sintaktik quruluşu əsrlər boyu öz sabitliyini saxlamış, ciddi dəyişikliklərə məruz qalmamışdır. Fikrimizi subuta yetirmək məqsədi ilə Gültəkinin şərəfinə yazılmış əski türk yazılı abidələrində və "Kitabi-Dədə Qorqud" dastanlarında sadə cümlənin struktur-semantik tiplərinə diqqət yetirək:

Cüttərkibli sadə cümlə: *Kültigin Basğu boü at binip təgdı* (KT) (Gültigin boz başqu atını minib hücuma keçdi).

Dərsə xan oğlana bəglik verdi, təxt verdi (KDQ).

Təktərkibli sadə cümlə: *Türk bodun, ökön* (KT) Ey türk xalqı peşman ol.

Yumru-yumru ağladı, yanıq cigərcigim tağladı (KDQ).

Nəqli cümlə: Bilgə kağan ermiş, alp kağan ermiş, vuyurukı yəmə bilgə ermiş, alp ermiş erinç (KT). O bilici xan olmuş, iyid xan olmuş, buyruqçusu da bilici olmuş, iyid olmuş.

Dərsə xan oğlana bəglik verdi (KDQ).

Sual cümləsi: **Yaraklığ kantan kəlıp yana eltdi, sünüglüg kantan kəlipən sürə eltdi? (KT)**. Silahlı (adamlar) haradan gəlib (səni) məğlub etdilər, süngülü (adam).

Bayandır xan bənim nə əksüglügüm gördi? (KDQ).

Sadə cümlə pratürk dövründə də hakim mövqe tutmuş, həmin dövrdə də aparıcı rol oynamışdır. Bunu müşahidə etmiş N. Z. Hacıyeva yazır ki, pratürk dövrünün əsas əlamətlərindən biri dilin sintaktik sistemində sadə cümlənin hakim mövqeyə malik olmasından ibarətdir.

Professor Ə. Dəmirçizadə "Dədə Qorqud" dastanlarının sintaktik quruluşu ilə müasir Azərbaycan dilinin, xüsusən də, ümumi danışıq dilinin sintaktik quruluşu arasında oxşarlığın, yaxınlığın daha çox olduğunu göstərərək yazır ki, dastanda mürəkkəb cümlələrlə müqayisədə sadə cümlələr daha çox işlənmişdir. Bunun səbəbi, dastanlarda belə əlamətdar xüsusiyyətin olması isə, bir tərəfdən, ümumiyyətlə, dildə mürəkkəbləşmənin dilin inkişafı nəticəsində son zamanlar çoxalması ilə, digər tərəfdən isə, bu əsərin janr və üslubu ilə də əlaqədardır (3, 119-120).

Qeyd etmək lazımdır ki, professorlar Y. Seyidovun, R. Məhərrəmovanın, M. Cahangirovun, N. Cəfərovun "Dədə Qorqud"un dilində sadə cümlə konstruksiyalarına həsr edilmiş araşdirmaları dilimizin tarixi inkişafının xarakterik xüsusiyyətlərini dəqiq müəyyənləşdirmək baxımından əhəmiyyətlidir.

Məlumdur ki, türk dillərinin sintaksisində iki təkamül meyli vardır. "Dədə Qorqud"un sintaksisi, xüsusən də cümlə sintaksisi sanki analitiklikdən sintetikliyə doğru təkamül prosesi keçirmiş, əvvəllər mürəkkəb şəkildə yaranmış konstruksiyalar paradiqmatik sıxılmaya məruz qalmış, sadə şəklə düşmüşdür. Ona görə də, N. Cəfərovun doğru olaraq göstərdiyi kimi "Kitabi-Dədə Qorqud"da sadə cümlə sərhəddini müəyyənləşdirmək üçün tam uğurlu meyar tapmaq çətindir. Bu özünü daha çox tabesizlik əlaqəsi ilə bağlanmış konstruksiyalarda hiss etdirir. Hətta

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

belə düşünmək olar ki, “Kitabi-Dədə Qorqud” sözlərdən, söz birləşmələri və cümlələrdən deyil, daha mürəkkəb model sintaktik bütövlərdən təşkil olunmuşdur” (2, 324).

Dasatan üzərində aparılmış tədqiqat göstərir ki, burada cümlənin cüttərkibli növü daha çox işləkdir. Cüttərkibli sadə cümlənin mübtədalı və mübtədasız növündən dastanın dilində geniş dairədə istifadə olunmuşdur.

a) Mübtədalı cüttərkibli cümlə: Qazan görklü çəmənə çadır otaq dikdirdi * (121),
Bəglər Qazanla oğlının üzərinə at saldılar. Basat anasının əlini öpdi. (121).

b) Mübtədasız cüttərkibli cümlə: *Görüşdilər*, bozlaşdılar, Ava getdi və s. (100).

Mübtədası xəbərdəki şəxs sonluğuna görə müəyyənləşən cüttərkibli sadə cümlələr dastanın dilində geniş yayılmışdır: Gökdən ildırım ağban evim üzərinə şaqır *gördüm*. Düm qara pusarıq ordımın üzərinə tökülü *gürdüm*. Quduz qurtlar evimi dəlir *gördüm*. Qara dəvə ənsəmdən qarvar *gördüm*. Qarqu kibi qara saçım uzanır *gördüm*. Biləcümdən on barmağımı qanda *gördüm* (44).

Xəbərin təkrarı ilə əmələ gəlmiş bu sadə cümlələrdə “bən-mən” şəxs əvəzliyi ilə ifadə olunmuş mübtəda buraxılmışdır.

Daha çox üslubi məqamlarda cüttərkibli sadə cümlənin mübtədası da təkrar edilir: Qazan bəgin dünlügü altun ban evlərini biz yıqmışuz. Tölə-tölə şahbaz atlarını *biz* binmişüz. Qatar-qatar qızıl dəvəsini *biz* yetmişüz. Qaracıq anasını *biz* götürmişiz. Ağır Xəzinə, bol aqçasını *biz* yaqmalamışuz. Qaza bənzər qız-gəlini *biz* yesir etmişüz (43).

---

*Nümunələr “Kitabi-Dədə Qorqud”, Bakı, Yazıçı, 1988-kitabından götürülmüşdür.

Dastanın mətnlərindəki cüttərrkibli sadə cümlənin birincisinin subyekt-mübtədası iştirak edir. Sonra sıralanan sadə cümlələrdə “ol-o” şəxs əvəzliyi ilə ifadə olunması mümkün olan mübtəda buraxılır: Məsələn: Dirsə xan dişi əhlinin sözilə ulu toy elədi. Atdan-ayğırdan, dəvədən buğra, qoyundan qoç qırdırdı. İç Oğuz, Taş Oğuz bəglərin üstünə yığnaq etdi. Borcluyı borcından qurtardı. Dəpə kibi ət yığdı. Göl kibi qımız sağdırdı (35).

Dastanın dilində xəbəri nominativ quruluşda olan sadə cümlələr də özünü göstərir. Belə cümlələrin bəzilərinin xəbəri “dır” xəbər şəkilçisi ilə, bəziləri isə şəkilçisiz (sıfır variantda) müşahidə olunur. Məsələn: Saç *qayğudur*. Qan *qaradır*. Qar ilə yağmur *ləşkərindir* (44). *“Gög ıraq, yer qatı”* - sonuncu xəbəri nominativ quruluşlu sadə cümləni dildə qədim quruluş hesab edirlər. Çünki belə modellərə yazılı abidələrin dilində də təsadüf olunur. Professor N. Cəfərov bu tip modellər (O, saz ağası-söz ağası. Qız yükü-duz yükü. Dağ yeri-duman yeri-atalar sözlərini nümunə göstərir-S.V) ilkin nominativlik kimi tədqim edilməsini düzgün saymır və yazır ki, bu, dilin əvvəlki dövrü üçün səciyyəvi olan normativ strukturların sonrakı üslubi-nitq təzahürüdür. “Əvvəlki dövr” dedikdə, dil təfəkkürünün o inkişaf səviyyəsi nəzərdə tutulur ki, bu zaman cümlənin feli xəbəri ilə ismi xəbəri arasında dinamiklik və statiklik baxımından semantik diferensiasiya yox idi.

Biz də bu cümlə konstruksiyalarını üslub təzahürü hesab edirik. Çünki cümlə modellərində hər hansı bir elementin (sözün və ya şəkilçinin) ellipsisi üslubi hal doğurur.

Maraqlıdır, dastanın dilində “dır” xəbər şəkilçisi “var” sözündə işləndiyi halda, “yoq” sözündə “sıfır variant”da özünü göstərir.

1. Qazanın qapulu Dərvəndə on bin qoyunı *vardır* (43).
2. Qazanın bu işlərdən xəbəri yoq (43).

Müasir Azərbaycan dilində sadə cümlədə sabitləşmiş *“-ıb+fel”* strukturu “Dədə Qorqud”un dilində *“-dı+fel”* strukturunda çıxış edir. Biz belə bir modeli adi danışıq dilinin təsiri hesab edirik. Müqayisə et: “Kitabi-Dədə Qorqud” da: Ağ meydanın ortasında *baxdı turdı* (baxıb durdu), Buğa dəxi oğlana *sürdü gəldi* (sürüb gəldi) (36).

Müşahidə olunan cümlə modellərindən biri də müasir dilimizdə birinci komponentlə işlənən feli xəbərin, ikinci komponentdə üslubi cəhətdən buraxılmasıdır. “Dədə Qorqud”un dilində belə sadələşmiş model yoxdur, yəni hər iki komponentdə eyni xəbər təkrar edilir, bu cümləyə sanki ağırlıq gətirir. Məsələn: Nə oğlan *yenər*, nə buğa *yenə*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dastanın dilində sadə cümlənin məqsəd və intonasiyaya görə nəqli, sual, əmr və nida cümlələri də işlənmişdir.

1. Nəqli cümlə: Qazana qeyrət gəldi. Çobanı bir ağaca sara-sara möhkəm bağladı. Atlandı (46).

2. Sual cümlə: Bayandır xan bənim *nə* əksüglügüm gördi? Qilucumdanmı gördi, süfrəmdənmi gördü? (34). Xan qızı, yerimdən turayınmı? (35). Biz sənin oğlanı *necə* götürəlim? (37). Mərə çoban, bu ağac *nə* ağacdır? (46). Fani dünya kimə qaldı? (126) və s.

3. Əmr cümlə: "Qalqubanı, yigitlərüm, üzdən uru turun! (34). Hay Dirsə xan, bana qəzəb etmə!, İncinib acı sözlər söyləmə! (35). Mənim avımı bozma, ləşkərimi tağıtma! və s." (44).

Dastanın dilində müşahidə olunan həmcins üzvlü sadə cümlələrin bəzilərində müasir Azərbaycan dilindən fərqli olaraq həmcins üzvlər bir-birindən intonasiya ilə yox, "və" bağlayıcısının bir neçə dəfə təkrarı ilə ayrılır. Məsələn, müqayisə et: Qılıç və sügü *və* çomaq *və* sairə cəng alotin geydirüb tonatdılar (120).

Dastanın dilində sadə cümlənin *müxtəsər* və *geniş* növlərinə rast gəlmək olar.

Müxrəsər cümlə sistemində bir sıra struktur modifikasiyalar mövcuddur:

1. X (xəbər-predikat): Endilər (46), Yedilər (46), And inçdilər (125).
2. M. (subyekt) – X (predikat): Borılar çalındı. Tavullar dögildi. Alaylar bağlandı (121), Qoşunlar düzüldi (126)

Geniş cümlə sistemində olan struktur modifikasiyalar:

1. M. (subyekt) – T (obyekt) – X (predikat): Bəglər Beyrəgə qıyamadı (124), Qazan at dəkdi (121).
2. T. (obyekt) – X (predikat): Çadır tikdirdi (120)
3. M. (subyekt) – Z (zaman) – T (obyekt): Aruz qoca meydana at dəpdi (126)
4. T. (obyekt) – T. (obyekt) – X (predikat): Qazana geyim gətürdilər (120)
5. Təyin – M (subyekt) – X (predikat): Körpü-körpü tavıllar çalındı (120)
6. Təyin – M (subyekt) – T (obyekt) – X (predikat): Boz atlu Beyrək at dəpdi (98)
7. M. (subyekt) – Zaman – Z (yer) – X (predikat): Oğuz bir gün yaylaya keçdi (98)

Sadə cümlənin maraqlı quruluş modellərindən biri yarımçıq cümlədir. Dastanların dilində yarımçıq cümlənin iki tipi-dialoji nitqdə və kontekstual şəraitdə işlənən tiplərinə rast gəlmək olur. Basatla Təpəgözün dialoqunada dialoji nitqin replika şəklində verilmiş (sual-cavab modelinə) yarımçıq cümləyə təsadüf olunur. Məsələn: Dəpəgöz aydır: "Oğlan yüzügi olub taqındınmı?" Basat aydır: "Taqındım" (101). "Oğlan, şol günbədi gördünmü? – "Gördüm" (101), Aydır: "Günbədə girdinmi?" Basat aydır: "Girdim" (101), "Şol mağarayı gördünmü?" – "Gördüm" (102), "Bu hünər atınmıdır, ərinmidir?" – "Ərindir" (104) və s. Cavab yarımçıq cümlələr, əsasən, sual cümləsinin özündə olan eyni sözün təkrarından ibarət olub *təsdiqedici* xüsusiyyətə malikdir.

Yarımçıq cümlənin kontekstual şəraitdə işlənən bir tipi qoşulma yarımçıq cümlədir. Bu tip sadə cümlə parselyasiya hadisəsi nəticəsində formalaşır. Porselyasiya zamanı əvvəlki-bazis qoşulan hissə cümlədən ayrılıb yeni bir cümlə təşkil edir. "Dədə Qorqud"un dilində bu tip sadə cümlənin yalnız bir nümunəsinə rast gəlmək olar: Anda eki qılıç var:biri qınlı,biri qunsuz (102).

"Kitabi-Dədə Qorqud"un dilində təktərkibli sadə cümlələr də işlənmişdir. Adlıq cümlə istisna olmaqla bu abidənin dilində qeyri-müəyyən şəxsli cümlə, müəyyən şəxsli cümlə, şəxssiz cümlə bu və ya digər miqdarda işlənmişdir.

Təktərkibli cümlələr baş üzvlərdən biri iştirak etməyən və konkret şəkildə meydanda olmayan sintaktik konstruksiyalardan ibarətdir. Təktərkibli cümlələr baş üzvlərdən biri-ya xəbər, ya da mübtəda əsasında formalaşır. "Dədə Qorqud"un dilində əsasən xəbər əsasında formalaşan tərktərkibli cümlələr işlənmişdir.

a) Qeyri-müəyyən şəxsli cümlə. Təktərkibli cümlənin bu novündə mübtəda təsəvvür olunsa da, konkret şəkildə ortada deyildir. Bu cümlə tipinin əsas xüsusiyyəti budur ki, içraçı, subyekt hüququnda olan mübtəda bir növ kölgədədir, onu konkret üzə çıxarmaq mümkün deyil. "Dədə Qorqud"un dilində qeyri-müəyyən şəxsli cümlə o biri tərktərkibli cümlə növləri ilə müqayisədə xeyli miqdardadı. Professor Y. Seyidovun dəqiq he

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

cümlələrin sayı "Dədə Qorqud"un dilində 70-ə qədərdir. Həmin nümünələrdən bəzisinə diqqət yetirək: Tölə-tölə şahbaz atlarını bindilər. Qatar-qatar qızıl dəvələrini yetdilər. Ağır xəzinəsini, bol ağçasını yağmaladılar (42), Beygə kağıd göndərdilər (124), Ağ-boz atının quyruğını kəsdilər (125), Qazanın Qonur atın çekdilər(125)və s.

Qeyd etmək lazımdır ki, dastanların dilində təktərkibli cümlənin bu növü mübtədasız müəyyən şəxsli cümlələrdən diferensiallaşmışdır. Bu iki cumlə tipinin yalnız mətin daxilində fərqləndirmək lazım gəlir. Ancaq bu cümlə tiplərini mübtədasız müəyyən şəxsli tipi ilkindir, başlanğıçdır, qeyri-müəyyən şəxsli cümlə isə sonradan yaranmadır. İkinçi tip dilimizin inkişafının sonrakı dövrlərinə aiddir.

b) Ümumi şəxsli cümlə. Bu tip cümlələrdə işin icrası bütün şəxslərə aiddir. Xəbərin hansı şəxsdə ifadə edilməsinə baxmayaraq, mübtəda həm birinci, həm ikinci və həm də üçüncü şəxslər təsavvür olunur. Ümumi şəxsli təktərkibli cümlələrin xəbəri, bir qayda olaraq, felin indiki və qeyri-qəti gələcək zamanında, ikinci şəxsin təkində, habelə, üçüncü şəxsin tək və cəmində ifadə olunur. "Kitabi-Dədə Qorqud"un dilində bir neçə ümumi şəxsli cümlə növünə təsadüf olunur:

...ata dururkən oğul əliнi öpərlər? (45); Sizin dinə nə derlər? (130); Yağı deyu nəyə derlər, baba? (71); Qara eşək başına uyən ursan, qatır olmaz. Qaravaşa don geyirsən , qadın olmaz və s (112).

*Şəxssiz cümlə.* Bu cür cümlələrdə subyekt-mübtəda qramatik cəhətdən təzahür etmir. Eyni zamanda, onun qramatik əlaməti xəbərdə də öz inikasını tapır. "Kitabi-Dədə Qorqud"un dilinə 30-dan cox şəxsiz cümlə növü işlənmişdir. Həmin cümlələrdən bəzi nümunələr: Kafərlərin gözünə qorxu düşdi (43); Qazana qeyrət gəldi (46); Yürəyi ilə canına odlar düşdü (35); Başından əqli getdi (42); Ər malına qıymayınca adı cıxmaz (65) və s.

Beləliklə, "Dədə Qorqud" dastanlarının dilinin faktları əsasında sadə cümlə modellerinin təhlili göstərir ki, илк təşəkkül dövründə ədəbi dilimiz həm sabitliyi, həm də funksional imkanlarının geniş və zənginliyi ilə təzahür edir. Orta yüzilliklərdə yazıya alınmış bu dastan epik dilin bir sıra arxaik xüsusiyyətlərini, o cümlədən, ən tipik sadə cümlə sintaksisi konstruksiyalarını mühafizə edib qorumuşdur.

**ƏDƏBIYYAT**

1. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, ADU, 1990
2. Cəfərov N. Cümlənin struktur-semantik təkamülü. Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, ADU, 1990
3. Dəmirçizadə Ə. "Kitabi-Dədə Qorqud" dastanlarının dili. Bakı, 1959
4. "Kitabi-Dədə Qorqud". Bakı. "Yazıçı", 1988
5. Şükürlü Əlisa. Qədim türk yazılı abidələrinin dili. Bakı. "Maarif", 1993

**Summary**

On the simple sentence syntax in the "Kitabi-Dada Gorgud" epics. In the article have been chosen simple sentences in the "Kitabi-Dada Gorgud" epics, they have been grouped and analysed according to aim and intonation, and use of the parts of a sentence.

**Резюме**

В языкох эпоса «Китаби-Дада Горгуд» относителыно синтаксиса простых предложений. В статье избраны использованные в языках эпоса «Китаби-Дада Горгуд» простые предложения, они группированы и анализировони по значению и интонации, по наличии членов предложения.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# OĞUZ MİFOLOGİYASINDA FRATRİAL ƏCDAD PARADİQMASI

***SEYFƏDDIN RZASOY***

Oğuz mifologiyasının paradiqmalar sisteminin öyrənilməsi zamanı ***üç cəhət (prinsip)*** nəzərə alınmalıdır:

1. «Oğuz (kağan)» modelinin kosmik böyüməsi «ölüb-dirilmə» mexanizmi ilə baş verir;
2. «Ölüb-dirilmə» ritual mexanizmidir: mifoloji böyümənin öyrənilməsi bütün hallarda ritual modelinin aşkarlanması (bərpası) üzərində qurulmalıdır;
3. Vahid «Oğuz» model-semantemi sonrakı pillələrdə dual-binar modelləşmə prinsipi ilə böyüyür.

Kosmik böyümənin (funksional hərəkəti) tarixi strukturu aşağıdakı sxemi nəzərdə tutur:

**OĞUZ**
**Yay oğullar ---------------------------------- Ox oğullar**
**Yuxarı oğullar ----------------------------- Aşağı oğullar**
**Sağ oğullar ---------------------------------- Sol oğullar**
**Boz Oq -------------------------------------- Ucoq**
**Daş Oğuz ------------------------------------ İç Oğuz**
**Aruz ---------------------------------------- Bayındır xan**
**Aruz ---------------------------------------- Qazan xan**

Bu paradiqmanı Ağqoyunlular-Qaraqoyunlular və s. oğuz etnokosmik hərəkət səviyyələri üzrə davam etdirmək olar. Belə ki, prof. M.Seyidov Ağqoyunlu və Qaraqoyunlu etnonimləri ilə bağlı ardıcıl şəkildə apardığı araşdırmalarda çoxsaylı faktların, o cümlədən bozoqların altun toyuq, ağ qoyunla, ucoqların isə gümüş toyuq, qara qoyunla bağlı olması ritual faktlarının təhlili nəticəsində qoyunun hər iki tayfanın totemi olduğunu üzə çıxarmışdır (1, s. 14-23; 2, s. 17-21; 3, s. 59-66). «Oğuz kağan» ritual-mifoloji dünya modelinin zoosəviyyələrindən birinin qoyun olduğunu yada salsaq, Ağqoyunlu-Qaraqoyunlu səviyyəsi «Oğuz» etnokosmosunun qoyun zoomodeli əsasında funksional paradiqmasıdır. İndiki halda bizim üçün aktual olan Vahid Oğuzun Aruz-Qazan dual səviyyəsidir. Oğuz mifinin fratrial əcdad paradiqması bu səviyyədə daha aydın bərpa olunur.

Yuxarıdakı paradiqmatik sxemdə birinci pillədəki vahidin («1») növbəti pillədə ikiləşməsi («2») rasional məntiqlə anormal bərabərlik yaradır: 1 = 2. Ancaq mifoloji düşüncənin qeyri-xətti, qeyri-səlis, sinergetik məntiqlə işlədiyini nəzərə alsaq, bu qeyri-səlis bərabərlikdir. Burada «1» növbəti pillələrdə üfüqi şəkildə hansı kəymiyyət ölçüsü ilə böyüməsindən asılı olmayaraq, bütün hallarda vahidliyini («1») qoruyur. Dual pillələrin hamısında sağ-sol qütblərdən yalnız biri mərkəz funksiyasını yerinə yetirir. Məsələn, KDQ-dəki Bayındır xan və Qazan xan etnokosmik bölgüyə (törəyə) görə «ucoqlar», başqa sözlə, sol oğullarıdır. KDQ mətninin özündə «Oğuz» semanteminin vahidliyi məhz Oğuz xan-Bayındır xan-Qazan xan etnosiyasi zəncirində, başqa sözlə, sol oğullar üzrə böyümə paradiqşmasında təqdim olunur. A.İslamzadə «Oğuz xan» paradiqmasını daha çox elementlər çərçivəsində aşkarlayaraq yazır ki, «oğuznamələrəin KDQ-də izlənməsi baxımından Oğuz xanın tarixi statusu və epik düşüncədə oturuşmuş sistem olmasının səbəbləri ortaya çıxır. Daha sonrakı mərhələni və yaxud dərəcəni Qazan xan tutmuş olacaq. Oğuz xandan Qazan xana qədər gələn inanclar sistemi, mif, epik təzahürlər və tarixi gerçəklik vahid bir invariant düzümünü təşkil edir» (4, s. 104). Tədqiqatçı son araşdırmalarında «Oğuz xan – Ata Qorqud – Qazan xan» silsiləsini transformasiya yox, transmissiya hesab etmişdir (5, s. 51).

Ümumiyyətlə, Oğuz kağan obrazının dual paradiqmaları Salur Qazan və Alp Aruz obrazlarının mifoloji mənşəyi haqqında bir çox tədqiqatçılar dəyərli fikirlər söyləmişlər. Məs., prof. B.Abdulla Salur Qazan obrazını tarix və mif paradiqmalarında öyrənən tədqiqatında bu obrazın mifoloji görüşlərlə bağlı olduğunu birmənalı şəkildə təsdiq etmişdir (6, s. 23, 63 və s.). M.Kazımoğlu Qazan xanın mifoloji dünya modeli ilə bağlılığını orijinal kontekstdə – «mif norması ilə davranan obrazın bəzən mif normasına qarşı çıxması» mi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

s. 8-9). KDQ-nin on birinci boyunda Salur Qazanın kafirlərin öz ölülərini dəfn etdiyi quyuda olması motivini şərh edən alim göstərir ki, «quyunun yeraltı dünya sayılması ilə bağlı mifoloji inam... ironik yöndə təqdim olunur. İroniya ümumən o dünya inamına qarşı yox, konkret olaraq kafirin o dünya təsəvvürünə qarşı yönəlir» (7, s. 9).

KDQ-nin ikinci boyunda Salur Qazanın yurd, su, qurd və köpəklə xəbərləşməsi onun qam (şaman) – mediator funksiyasını ortaya qoyur. Bu elementlər uyğun olaraq oğuz ritual-mifoloji dünya modelinin müxtəlif qatlarını bildirir:

Yurd (***toposfera***)
Su (***hidrosfera***)
Qurd (***zoosferası***)
Köpək (***zoosfera***).

Bunlara canlı varlıqlar kimi müraciət olunması həmin elementlərin mifoloji obrazlar olduğunu ortaya qoyduğu kimi, Qazanın da öz mənsub olduğu antroposferadan fərqli sferalara mediasiya etmək (adlamaq) qabiliyyətini göstərir. Fəqli sferalara mediasiya etmək üçün o, bir qam-şaman kimi həmin sferaların təsvir kodlarını – dillərini bilməlidir. Qazanın qurdla xəbərləşməsi qurdun dilini bilməsi deməkdir. Düzdür, Salur Qazanın müraciət etdikləri onunla «danışmır». Lakin Qazanın həmin elementlərlə danışdığını prof. Ə.B.Ərcilasun bərpa etmişdir: «Cameət-təvarix»ə görə, Tuman (Duman – S.R.) xan heyvanların dilini bilir və qurdlar tərəfindən qaçırılan qoyunları köpəyi Qara Baraqın yardımı ilə qurtarır. Salur Qazan da yurd ilə, su ilə, qurd ilə və Qaraca Çobanın köpəyi ilə xəbərləşir; yəni onlarla danışır və qara köpəyin yardımı ilə Qaraca Çobanın yanına gedir. Üstəlik Qara Baraq qara köpək deməkdir» (8, s. 7).

Prof. M.Cəfərli Qazanın mediator-şaman funksiyasını xəbərləşmənin ritual konteksti ilə təsdiqləyərək yazır ki, ÊÄÃ-íèí èêèí‡è áîjóíäà Ãàçàíûí sójà, yóðäà, k‰ï j , ù ì÷èíèí qóðäà ìƒðà‡è òè áƒòƒí äèíè, ì í âè, ïîåòèê òðàíñôîðìàñèjàëàðû èë áèðëèêä ñêè êóëò-ðèòóàë ìîäåëèíä í ãûðà‹à ÷ûõìûð. Ìƒíàñèá òë ð ÷ ð÷èâ ñè ‰ç ñåìèî…åíåòèê ñòðóêòóðóíäà äàâðàíûø ôîðìóëó îëàðàã áó ìîäåëè âåðèð (9, s. 107).

Salur Qazanın totem əcdadla bağlılığı KDQ-də açıq şəkildədir: «Qazan bəg burada bir dəxi soylamış, aydır: Ağ qayanın qaplanının erkəgində bir köküm var... // Aq sazın aslanında bir köküm var... // Əzvay qurd ənügi erkəgində bir köküm var... // Ağ sunqur quşı erkəgində bir köküm var... (10, s. 118-119)

KDQ-də digər məqamlarda Ağ sunqur quşu Tulu quşu ilə paralelləşir. Bu, totem münasibətlər modelidir. Burada Qazan dünya modelinin üç səviyyəsinə bağlıdır. Onun həmin səviyyələrlə totem «valideyn-övlad» münasibətləri «kök (əcdad) – yavru (övlad)» modelində gerçəkləşir:

1. Bel atası Ulaş (Ulaş oğlu Salur Qazan) – ***antropoloji sfera.***
2. Heyvan əcdadı Qaplan//Aslan//Qurd – ***zoosfera.***
3. Quş əcdadı Tulu quşu//Ağ sunqur – ***astral-zoosfera.***

Yaxud yenə də KDQ-də Basatın üç səviyyədə valideyni var:

1. Bel atası Alp Aruz – ***antroposfera.***
2. Qağan Aslan – ***zoosfera.***
3. Qaba Ağac – ***bitki (təbiət) sferası.***

Yeri gəlmişkən, prof. M.Seyidov Tulu quşunu ulu dağa inancın zoomorfik ifadəsi kimi səciyyələndirmişdir (11, s. 111). Prof. B.Abdulla Tulu quşunu mifoloji quş kimi dəyərləndirib, Simurqla müqayisə etmişdir (12, s. 61). Prof. İ.Vəliyev Simurqu mifoloji quş hesab edib, onu konkret olaraq hər hansı gerçək quşla əlaqələndirməyin mümkün olmadığını söyləməklə yanaşı, həmin quşun oxşar mifoloji səciyyəsinə görə Humayla eyniləşməsinə diqqət çəkmişdir (13, s. 43). A.Hacıyev «Tulu quşu» semantemi ilə bağlı, demək olar ki, bütün izahları nəzərdən keçirərək, onu birbaşa Qazan xanın tayfasının onqonu hesab etmişdir (14, s. 68). Prof. P.Xəlilov Tulu quşunu, o cümlədən aslan və qaplanı Qazanın ulu babalardan qalma nəsil kökü kimi yox, «totem-kökü üzərində boy atmış sələf mənasında» izah etmişdir (15, s. 137).

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

KDQ-nin ikinci boyu Qazanı belə təqdim edir: Ulaş oğlu, Tulu quşun yavrusu, bizə miskin ümüdi, Amit soyunun aslanı, Qaraçuğun qaplanı, qonur atın iyəsi, xan Uruzun ağası, Bayındır xanın köygüsü, Qalın Oğuzun dövləti, qalmış yigit arxası Salur Qazan.

Bu adda Qazanın oğuz kosmoloji dünya modelində tutduğu fərdi-bioloji, siyasi, sosial, psixoloji, etnik, inzibati, hərbi, demoqrafik, sakral-mifoloji və s. səviyyələr işarələr modelinə çevrilmişdir. Həmin adı təhlil etməklə oğuzların dünya modelinin hansı səviyyələri əhatə etdiyini aşkarlamaq mümkündür:

***1. Ulaş oğlu*** – antropoloji-bioloji mənsubiyyət səviyyəsi.

***2. Tulu quşun yavrusu*** – zooastral totem mənsubiyyəti səviyyəsi.

***3. Bizə miskin ümidi*** – etnopsixoloji mənsubiyyət səviyyəsi.

***4. Amit soyunun aslanı*** – zooklan mənsubiyyəti səviyyəsi; «aslan» burada metafora kimi çıxış etsə də, mifoloji çağda Amit klanını və onun üzvlərini birləşdirən zooişarə, totem klassifikatordur.

***5. Qaraçuğun qaplanı*** – Qazanın zoototem mənsubiyyəti (mənşəyi) ilə bağlı səviyyə; «qaplan» metaforasının arxetipində Qaraçuq çölü ilə bağlı qaplan obrazı (totemi) durur.

***6. Qonur atın yiyəsi*** – indiki halında metafora olub hərbi mənsubiyyət səviyyəsini işarə edir; bu ad arxetipi baxımından «iyə» inanclarını əks etdirməklə, Qazan obrazının mifoloji mənşəyi baxımından heyvan iyəsi ipostasını da aşkarlamağa imkan verir.

***7. Xan Uruzun atası*** – sosial və ailə münasibətlərini əks etdirən mənsubiyyət səviyyəsi. ***8. Bayındır xanın kürəkəni*** – sosial və siyasi münasibətləri ifadə edən mənsubiyyət səviyyəsi.

***9. Qalın Oğuzun dövləti*** – siyasi, hərbi, inzibati, sosial hakimiyyət (idarəçilik) mənsubiyyəti səviyyəsi.

***10. Qalmış yigit arxası*** – hərbi mənsubiyyət səviyyəsi [bəziləri bu ifadəni yanlış olaraq yuxarıdakı ifadə ilə bir sintaktik tərkib («Qalın Oğuzun dövləti qalmış yigit arxası») hesab edirlər. Lakin KDQ mətni bunu təsdiq etmir. Bax: 10, s. 63].

***11. Salur (Qazan)*** – oğuzdaxili tayfa mənsubiyyəti səviyyəsi.

***12. Qazan*** – inisiasiya ritualı baxımından mənsubiyyət səviyyəsi.

O, beləliklə, «Qazan» adını oğuzun ritual dünya modelindən keçmədən, başqa sözlə, ritual modelinin konkret yarusunda yer tutmadan, oğuz kosmoetnik modelində öz yerini ad səviyyəsində təsdiq etmədən ala bilməzdi. «Qazan» vahidinin mənsub olduğu bütün səviyyələr onun adında işarələnmişdir. Oğuz kosmosunun Qazanın əlaqələndiyi (aid, mənsub olduğu) elə bir səviyyəsi qalmır ki, onun adında semiotik baxımdan əks olunmasın (söz-işarəyə çevrilməsin). Bu, «Qazan» adını Oğuz «ad-modeli» kimi oğuz dünya modelinin nominativ modeli saymağa və öz növbəsində Qazanı Oğuzun paradiqması kimi bir daha təsdiq etməyə imkan verir.

Salur Qazan və Alp Aruz obrazlarının fratrial mifoloji əcdad paradiqmaları KDQ-nin sonuncu boyunda daha aydın bərpa olunur. Sonuncu boyun mövzusunu kosmosdaxili konflikt və onun həlli təşkil edir. KDQ-də mövcud ikili idarəçilik sisteminə diqqəti cəlb edən A.İslamzadə bu idarəçilik sisteminin törə ilə ziddiyyət təşkil etməsini göstərmişdir (16, s. 23). Tədqiqatçıya görə, eposda siyasi idarəçilik uğrunda mubarizə struktur-semantik situasiyanın təzahürü olaraq üzə çıxır (17, s. 26).

Qazan və Aruzun fratrial-totem əcdad paradiqmaları da «struktur-semantik sitasiyanın təzahürü olaraq» totem kultu kontekstində aşkarlana bilir. Áóíó ÊÄÃ ñ âèjj ñèíä êîñìîëîæè ñòðóêòóðóíà ò äãèãàò÷ûëàð ò ð ôèíä í àç äèãã ò âåðèëìèø î‹óç êîñìîíèìë ðè ä àjäûí íƒìàjèø åòäèðèð. Áåë êè, î‹óç è…èäë ðèíèí àäëàðûíäà îíëàðûí êîñìîëîæè ìàùèjj òè èôàä îëóíóð (àäûí êîñìîãîíèê êîíòåêñòä ñåìèî…åíåçèí èøàð ñè îëìàñû). Ñîíóí‡ó áîjóí ä‰ðä ñòðóêòóð îáðàçûíäàí (Ãàçàí, Àðóç, Ãîðãóä, Áåjð ê) èêèñè – Ãîðãóä â Áåjð ê áèðáàøà ãóðä êóëòó èë áà‹ëûäûð. Ãàëàí èêè îáðàçà äèãã ò åä ê. Ìàðàãëûäûð êè, áó ã ùð ìàíëàðûí äà òîòåì ñåìèî…åíåçè îíëàðûí àäëàðûíäà äàøûíûð (èøàð ë íèð). Ãàçàí åïîñäà: «Àçâàj ãóðä íèjè åðê …èíä áèð

Ãàçàíûí ùåjâàí ‡äàä áàõûìûíàë ãóðäëà áà‹ëàíàû‹ûíû …‰ñò ðèð. Áaşqa sözlə, Ãàçàí çîîñ âèjj ä ù ì ä ãóðäàóð. Ãàçàíûí eposda ãóðäëà õ á ðë øì ñè õƒñóñè ðèòóàë ìîäåëè ÷ ð÷èâ ñèíä äèð â áó da Ãàçàíûí çîîñ âèjj ñèíè ò ñäëã åäèð. Áåë áèð çîîñ âèjj Àðóç ƒ÷ƒí àòàûð. Îíó åïîñäà «at ağızlı» åïèòåòè ìƒøàjè ò åäèð. «Àò à‹ûçëû» – àò ñèô òëè äåì êäèð. Áó èñ Àðóçóí àò òîòåìè èë áà‹ëû èêè ñ âèjj ñèíè îðòàjà ãîjìóø îëóð:

1. Áåjð jèí ãóðä êîñîì…åíåòèêàñû ïîó åïèê îáðàçûíäà íèãàá åëåìåíòè èë ì ùç ñèô òèíä (ñèô ò òàõûëàí ãóðä íèãàá-ìàñêàñûnda) èøàð ë ídiyi kimi, Àðóçóí äà «àò à‹ûçëû» åïèòåòè îîóí ì ùç ñèô òè èë áà‹ëûäûð. Åjíè åëåìåíòèí ò êðàðëàíìàñû …‰ç ãàáà‹ûíäààûð və bu, Ê.Ëåâè-Ñòðîñóí ì øùóð òåçèñèíä îëäó‹ó êèìè, õƒñóñè ôóíêñèjà äàøûmaqla ìèôèí ñòðóêòóðóíó àøêàðà ÷ûõàðûð. Oğuzdakı dörd niqab-maskalı igiddən biri olan Qırqınuqun 40 qın-maskasını da yada salsaq, dåì ê, çîîåëåìåíòèí ñàêðàë êîíòåêñòä î‹óçëàðûí ñèô òè ñ âèjj ñèíä ò êðàðëàíìàñû ìèôèí ñòðóêòóð ùààèñ ñèäèð. Ìèôèí ðèòóàë êîíòåêñòè Àðóçóí «àò à‹ûçëû» (àò ñèô òëè) åïèòåòèíä àò òîòåì ìàñêàñûíû və bu maskanın gerçəkləşdiyi qam-şaman funksiyasını aşkarlamağa imkan verir.

2. Òîòåì êîñìî…åíåòèêàäûð, ñòðóêòóð ò‰ð ì ñè, ç í‡èðè jàðàäûð. Ì ñ.: Ãàì Á‰ð î‹ëó Áåjð ê (Ãàì Ãóðä î‹ëó Ãóðä). Áóðààà ãóðä ñòðóêòóð åëåìåíòè ù ì àòàíûí (Ãàì Á‰ð ), ù ì ä î‹óëóí (Áåjð ê) àäëàðûíäà êîñìî…åíåòèê ò‰ð ì âåðèð. Àðóç äà åjíè òèïëè êîñìî…åíåòèê ç í‡èðèí ù ëã ñèäèð. Îíóí î‹ëó Áàñàò äà «àò óðàð», «àò áàñóààí ãàí ñƒìƒð ð». Ì.Ñåjèäîâ áó àäû «Áàñàò» – «àòà ãàëèá … ë í, àòû jåí í» êèìè èçàù åòìèøäèð (18, s. 87). Åòèìîëî…èjàíûí í ä ð ‡ ä äî‹óó îëàñûíäàí àñûëû îëàjàðàã, «at» êîñìî…åíåòèê åëåìåíòè Àðóçóí àä-åïèòåòèíä , Áàñàòûí èñ ù ì àäûíäà, ù ì ä åïèê ôóíêñèîíàëëû‹ûíäà ò êðàðëàíàí ñòðóêòóð åëåìåíòè, êîñìî…åíåòèê ò‰ð ì íèí êîððåjàòèâ ñàñû êèìè ÷ûõûø åäèð. Àò áó ùàëäà …åíåòèê ïàðàäèãìàíûí èíâàðèàíòûíäà äàjàíàãëà òîòåìäèð. Aruz buna uyğun bir qam-şaman kimi at kultu sisteminin daşıyıcısıdır.

Êîíôëèêòèí ò ð ôë ðèíè ò øêèë åä í åëåìåíòë ðè î‹óç äƒíjà äƒç íèí ójãóí äƒçƒêä òîòåì òàïûíûø ñèñòåìèíèí ì íòèãè ì íç ð ñè àèûíîûø îëóð:

**Ó‡ Îã ---------------------------- Áîç Îã**
**È÷ Î‹óç --------------------------- Äàø Î‹óç**
**ÃÓÐÄ Ãàçàí ------------------ ÀÒ Àðóç**
**ÃÓÐÄ Áåjð ê ----------------- ÀÒ Àðóç**

Äåì ê, Ãàçàí âÿ Áåjð ê ñèjàñè-ñîñèàë ãàðøûäóðìàíûí åjíè ãƒòáƒíä äóðóðëàð. Îíëàðû ò ê‡ ó‡îãëàðäàí îëìà jîõ, ù ì ä åjíè áèð êóëò ñèñòåìèíèí (ãóðä òîòåìèíèí) íƒìàj íä ë ðè îëìà äà áèðë øäèðèð. Îíëàð ãóðä òîòåìèíè ò ìñèë åòì êë àò òîòåìèíèí äàøûjû‡ûñûíà (Àðóçà) ãàðøû äóðóðëàð. Áó ùàëäà êîíôëèêòèí òîòåì êîíòåêñòè àøêàðëàíûø îëóð. Êîíôëèêòèí ñàêðàë ñ âèjj ñèíä Qurd-At áèíàð îïïîçèñèjàñû äóðóð. Oppozisiya qurd və at kultlarının daşıyıcısı olan qam-şamanlar arasında münasibətdə gerçəkləşir. Bu Qazan və Aruzu qam-şaman funksiyasında aşkarlamağa, daha doğrusu, hər ikisinin «Qam-Xan» statusunu bərpa etməyə imkan verir.

Rekonstruksiyanın nəticələrinə görə, ó‡îãëàðûí ñèjàñè ùàêèìèjj òè áîçîãëàðûí ñàêðàë (ìèñòèê) ùàêèìèjj òè èë òàðàçëàøäûðûëûð. Sèjàñè ùàêèìèjj ò ó‡îãëàðûí, äèíè-ìèñòèê ùàêèìèjj ò (êóëò ñèñòåìèíèí èààð ñè) áîçîãëàðûí ëèíä îëóð. Áó, … ð…èí ò äãèãàò ò ë á åä í â ãèñì í ä åùòèìàë îëóíàí ïëàíäûð, àí‡àä ù ãè …

ñàëàã êè, ùàêèìèjj òè ò ìñèë åä í Ó‡ Îã Ãàçàí, ñàêðàë ñôåðàíû ò ìñèë åä í Ä ä Ãîðãóä â Ó‡ Îã Áåjð ê ùàìûñû åjíè áèð ñàêðàë êóëòà (ãóðä òîòåìèí ) àèääèð. Áó ùàëäà áîçîãëàðûí èíäèêè äóðóìàä áàø÷ûëàðû Àðóç ñ âèjj ñèíä àèä îëäóãëàðû àò òîòåìè (êóëòó) òàáå â çèjj òä äèð. Áó, ñàêðàë kult konfliktini îðòàjà ãîjóð. Àðóçóí ñƒæåòƒñòƒíä ì ùç Áåjð j j‰í ë í ò ‡àâƒçƒ áó ùàëäà äàùà áèð àñïåêòä í ì íòèã ... ëèð. Áåjð ê î‹óç òèð áàø÷ûñû îëìàñà äà, î, ñàêðàë êóëò ñ âèjj ñèíä Àðóçëà ãàðøûäóðìà ãîøàëû‹û ò øêèë åä áèëèð. Áåjð jèí ãóðä íèãàá-ìàñêàñûíû â Àðóçóí àò íèãàá-ìàñêàñû êèìè á ðìàjà ... ë í «àò à‹ûçëû» åìèòåòèíè jàäà ñàëàã. Áàøãà jàíäàí yada salaq ki, ñêè í í ä ñèjàñè ùàêèìèjj òë ìèñòèê ùàêèìèjj ò ñèíêðåòèêäèð: Qam-Ğan èíñòèòóòó. Áàjûíäûð õàí ù ì Ãàëûí Î‹óçóí, ù ì ä Äàø Î‹óç òèð ñèìèí áàø÷ûñû êèìè, Qam-Ğan í í ñèí àèääèð: Ãàì‹àí î‹ëó Áàjûíäûð õàí. Àðóçóí àò íèãàá-ìàñêàñû îíóí ñàêðàë ñòàòóñóíó – qàì-şàìàí ñòàòóñóíó á ðïà åòì j èìêàí âåðèð. Àðóçóí àò ìàñêàñûíäà èøàð ë îëóø Qam ñòàòóñó èë îíóí Äàø Î‹óçóí áàø÷ûñû êèìè, Xan ñòàòóñóíó áèðë øäèðèëè **(Qam+Xan = Qam-Ğan)** îíóí Áàjûíäûðëà åjíè ìƒãàjèñ ñàñûíäà («qamğan» êîððåëjàñèjà ëàì òè) ãàðøûëàøìà ãîøàñû ò øêèë åòäèjè àjäûí îëóð. Îíó äà ãåjä åä ê êè, «Qam-Ğan» ñåìàíòåìè «Çar-Jreç» ñåìàíòåìèíèí î‹óç-òƒðê åêèâàëåíòè îëìàãëà áó òèòóë sahiblərinin ù ì ä ñàêðàë ùàêèìèjj ò äàøûjû‡ûëàðû (**"ñâjàøåííûj ÷àð"**) îëäó‹óíó ...‰ñò ðèð. Äåjèë íë ðè áèð ìƒñò âèj ... òèðñ ê, êîíôëèêòèí ñòðóêòóðóíó áåë áèð ìîäåë-ì íç ð ñè àëûîûø îëà‡àãäûð:

**QAZAN ------------------------ ARUZ**
Qurd Qazan -------------------- At Aruz
Ãàì-şàìàí Qazan ----------- Ãàì-şàìàí Àðóç

**ÁÀJÛÍÄÛÐ -------------------- ÀÐÓÇ**
Õàí Áàjûíäûð ------------------ Õàí Àðóç
Ãàì‹àí î‹ëó Áàjûíäûð ------ Ãàì‹àí Àðóç

**ÁÅJÐ Ê ---------------------- ÀÐÓÇ**
Ãóðä Áåjð ê ------------------ Àò Àðóç
Ãàì-şàìàí Áåjð ê --------- Ãàì-şàìàí Àðóç

Qazanın qam-şaman statusu Aruza nisbətən çətin bərpa olunur. Lakin o, fratrial əcdad paradiqmasında qam statusu ilə bağlı olmalıdır. Çünki Qazan oğuz-türk mifoloji yaddaşının dərin qatları ilə bağlıdır. Arxaik etnokosmik ənənədə siyasi və mistik hakimiyyətlərin qoşalaşıb (qam+xan), eyni mərkəzdə birləşməsi (Qam-Ğan) şərtdir. Digər tərəfdən, prof. H.İsmayılov aşkarlamışdır ki, qədim oğuz ənənəsində əcdad Ata və qam Ata eyni subyekti təşkil edir (19, s. 46-47).

Ümumiyyətlə, Qazan obrazı türk etnokosmik yaddaşında diaxron və sinxron səviyyələrdə geniş paradiqmalar yaratmışdır. Məsələn, o, qazax qəhrəmanlıq eposu «Koblandı batır»da qızılbaşların 40 minlik ordusuna başçılıq edir (20, s. 298). Obrazın diaxron dərinliklərinə gəlincə, burada indiki halda bizim üçün ən qiymətli qaynaq KDQ-nin nəğmələri – soylamalarıdır. B.N.Putilov süjetşünaslıqda epik mətnin elə nəğmələrinə diqqəti cəlb edir ki, onların hər biri müstəqil bütövü təşkil edir və bir epizodun sərhədləri çərçivəsində qapanıb qalır (21, s. 15-16).

KDQ-nin on birinci boyunda Salur Qazan əsirlikdə olarkən özü haqqında 6 nəğmə – soylama söyləyir. «6» burada ritual davranışın ritm vahididir. 3-cü nəğmədəki «6» semantemi bunu təsdiq edir:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Altun aşıq oynar Sancıdanın bəgləri.
***Altı qatla*** Oğuz vardı, alımadı.
Ol qələyi ***altı baş ərlə*** mən Qazan vardım (10, s. 118).

«6-lıq»lara diqqət edək. Onlar bütün hallarda hərbi ritualla bağlıdır:

***6 soylama*** – əsirlikdə olan Qazanın kafirlərlə sözlə döyüşünün (onlara magik sözlə ritual hücumunun) ritmik struktur vahidi;

***6 qat//dəfə*** – Oğuzun (Oğuz xan//Oğuz eli) qalaya hücum ritminin hərbi struktur vahidi;

***6 baş ər*** – Qazanın hücum edən dəstəsinin daxili strukturunun ölçü-tamlıq vahidi.

Maraqlıdır ki, 2-ci nəğmədə Qazanın mifoloji semantikası aydın və bizə artıq tanış olan semantemlər səviyyəsində bərpa olunur:

Qılağuzsuz yol başaran Qazan ər idim.
Yedi başlı əjdərhaya yetüb vardım.
Heybətindən sol gözüm yaşardı.
Hey gözüm, namərd gözüm, müxənnət gözüm.
Bir yılandan nə var ki, qorxdun! – deyü ögünmədim.
(10, 117-118).

Nəğmədə Qazının əjdaha ilə döyüşü mifoloji süjeti təsvir olunmuşdur. Nəğmədə qorunub qalmış bu süjet eposun Qazanla bağlı təhkiyə süjetlərində yoxdur (transformasiya olunmuşdur). Burada Qazan obrazının indiyədək bərpa olunmuş mifoloji semantikası bir daha təsdiq olunur:

1. ***«Qılağuzsuz yol başaran Qazan ər»*** ifadəsi Qazanın birbaşa qam-şaman funksiyasını təsdiq edir. Təbii ki, xaosda yerləşən əjdahanın üzərinə getmək istəyən hər hansı ər igidə bələdçi//şaman (nağıllarda yol göstərən müdrik qoca) lazımdır. Lakin Qazanın buna ehtiyacı yoxdur. Çünki o, özü bu sakral-ezoterik bilgilərə sahib qam-şamandır.

2. ***«Yeddi başlı əjdərha»*** xaos sakini ilandır. Prof. M.Seyidov xalçalarda əjdaha motivinin mifoloji köklərini araşdıraraq əjdaha mifinin əski türk-oğuz mədəniyyətinin, demək olar ki, bütün qatları ilə bağlı olduğunu göstərmişdir (22, s. 20-23). V.V.İvanov mifoloji «əjdaha» semantemi haqqında yazır ki, o, qanadlı (uçan) ilan, müxtəlif heyan elementlərinin birləşməsi şəklində təsəvvür olunan mifoloji varlıqdır... Əjdaha ilan obrazının sonrakı inkişafı sayıla bilər. Əjdaha ilə bağlı əsas əlamət və mifoloji motivlər əsas cizgiləri etibarilə mifoloji ilanı səciyyələndirən əlamət və motivlərlə üst-üstə düşür. Əjdaha da ilan kimi, məhsuldarlıqla və sahibi (əyəsi – S.R.) kimi çıxış etdiyi su stixiyası ilə bağlıdır (23, s. 394). «İlan, demək olar ki, bütün mifologiyalarda bir tərəfdən məhsuldarlıq, qadının doğum-artım gücü, su, yağış, digər tərəfdən ev ocağı, (xüsusilə səmavi) od, həmçinin kişi dölləndirici başlanğıcı ilə bağlı təqdim olunan simvoludur» (24, s. 468).

Azərbaycan mifik düşüncə yaddaşında ilan//əjdaha paradiqması M.Abdullayevanın toplayaraq tədqiqata cəlb etdiyi inanc paradiqmasında hətta metaforik kodlaşması səviyyəsində qorunub qalmışdır:

«Yuxuda ilan görmək ziyarətdir»;

«Yuxuda ilan görmək əjdahadır» (25, s. 15).

Qazan da sözün həqiqi anlamında əjdaha//ilanla qarşılaşır və bu, mifoloji yaddaşla bağlıdır. Prof. F.Bayat yazır: «Salur Qazının əjdaha ilə vuruşması haqqındakı əfsanələr XIX yüzilin sonlarına qədər türkmənlərin arasında qalırdı. Bunu A.Tumanskinin verdiyi məlumat da təsdiq edir (26, s. 30). O, beləliklə, «Qılağuzsuz yol başaran Qazan ər» – qam-şaman kimi əjdaha//ilanın məkanına adlayır – mediasiya edir. Vuruşaraq onu məğlub edir. Bu, Qazan obrazının mifoloji strukturunda iki qatı aşkarlamağa imkan verir: qam və alp igid.

3. ***«Sol gözün yaşarması»*** semantemi Qazanın qam statusunu bir daha təsdiq etməklə onun xaosa hansı mexanizmlə adladığını aşkara çıxarır. «Gözün yaşarması» – onun görməməsi

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

anlamındadır. «Gözün görməməsi» – onun çıxarılması//korluq deməkdir. Bu – gözdəndoğulmadır. Demək, Qazan xaosa gözdən doğulma mexanizmi ilə adlayır.

Qazan obrazının mifoloji strukturunun qam və alp igid səviyyələri eyni ilə Aruz obrazının da strukturunu təşkil edir. Hər ikisi qam və döyüşçüdür. Obrazların hər ikisi fratrial əcdad paradiqmasında totem-modelidir. Qazan ãóðä, Aruz at totem-modeldir. Totem-model onların fratriual totem ‡äää ‡èç…èë ðèíè (ñòàòóñóíó) îðòàjà ãîjìóø îëóð. Áó ‡èç…èë ð onların O‹óç êà‹àí ñàêðàë èíâàðèàíòûíın fratrial (dual) paradiqmaları olması ilə bağlıdır. Alp-igid â ‡äää ‡èç…èë ðè Qazan və Aruzu Î‹óç êà‹àí invariantına, mediativ funksiyaları ãàì-øàìàí invariantına qoyur. Bu onu göstərir ki, kosmoqonik əcdad və totem əcdad funksiyaları eyni invariantda konsentrasiya olunmuşdur. Əslində, Qazan və Aruzun alp-igid statusu öz animistik strukturunda qam-şaman mənşəlidir. Şamanlar alp-igid kimi yerin altına mediasiya edib ø ð ðóùëàðëà âóðóøurlar.

Beləliklə, Salur Qazan və Alp Aruz Oğuz kağanın fratrial əcdad paradiqmalarıdır. Oğuz kağan Qalın Oğuzun əcdadı olduğu kimi, növbəti kosmoqonik Bozoq-Ucoq pilləsində vahid əcdad funksiyası dual prinsiplə təşkil olunur. Aruz – bozoqların, Qazan – ucoqların fratrial əcdadlarıdır. Onların bərpa ilə üzə çıxın totem-əcdad statusları Aruz-Qazan fratrial əcdad modelinin Oğuz kağan əcdad modelinin tam ekvivalenti olmasını göstərir. «Oğuz kağan» oğuz kosmosunun bütöv modeli olduğu kimi, Aruz-Qazan fratrial modelində də oğuz kosmosu zoosəviyyəni (heyvan, quş totem sferalarını da) çevrələməklə bir bütövdür.

## ƏDƏBİYYAT

1. Seyidov M. Opıt gtimoloqiçeskoqo analiza etnonimov i toponimov Aqqoönlu i Qaraqoönlu // Nauçnıe trudı Azerb. Qos. Universiteta im. S.M.Kirova (Ser. «Əzık i literatura»). 1977, № 6, 14-23.

2. Seyidov M. Opıt analiza gtnonimov i toponimov «Aqqoönlu» i «Qaraqoönlu» // Nauçnıe Trudı Ministerstva Vısşeqo i Sredneqo Obrazovaniə Az. SSR, 1977, 17 s.

3. Seyidov M. Ağqoyunlu və Qaraqoyunlu etnonimlərinin etimoloji araşdırılması // «Qobustan» toplusu, 1979, № 3, s. 59-66.

4. İslamzadə A. «Dədə Qorqud kitabı»nda oğuznamə / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXV kitab. Bakı: Səda, 2007, s. 96-105

5. İslamzadə A. Oğuz epik ənənəsində transmissiya: Oğuz kağan, Ata Qorqud, Qazan xan // «Ä ä Ãîðãóä» æóð., 2008, ¹ 4, ñ. 51-70

6. Abdulla B. Salur Qazan tarix, yoxsa mif... Bakı: Ozan, 2005, 223 s.

7. Kazımoğlu M. Qazan xan və Molla Nəsrəddin, yaxud mif və antimif // «Ä ä Ãîðãóä» æóð., 2006, ¹ 2, ñ. 3-11

8. Ərcilasun Ə.B. Salur Qazan kimdir? // «Dədə Qorqud» jur., 2003, № 2, s. 3-18

9. Cəfərli M. Dastan və mif. Bakı: Elm, 2001, 188 s.

10. Kitabi-Dədə Qorqud / Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. Bakı: Yazıçı, 1988, 265 s.

11. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı: Yazıçı, 1989, 496 s.

12. Abdulla B. «Kitabi-Dədə Qorqud»da quşlar / «Kitabi-Dədə Qorqud» (məqalələr toplusu). Bakı: Elm, 1999, s. 60-66

13. Vəliyev İ. Azərbaycan mifik təfəkküründə sehrli quşlar // «Dədə Qorqud» jurnalı, № 1, 2005, s.42 – 53.

14. Hacıyev A. «Dədə Qorqud kitabı»: oxunuşlar, açımlar. Bakı: Elm, 2007, 215 s.

15. Xəlilov P. «Kitabi-Dədə Qorqud» – İntibah abidəsi. Bakı: Gənclik, 1993, 176 s.

16. İslamzadə A. Qazan xan epik düşüncə və tarixi gerçəklikdə // «Ä ä Ãîðãóä» æóð., 2005, ¹ 2, ñ. 20-27

17. İslamzadə A. «Dədə Qorqud kitabı»nda siyasi idarəçilik uğrunda mübarizə və varis problemi // «Ä ä Ãîðãóä» æóð., 2002, ¹ 4, ñ. 26-33

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

18. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, 326 s.
19. İsmayılov H. Göyçə dastanları: Türk epik sistemində dastan informasiyasının fasiləsizliyi / «Göyçə dastanları və aşıq rəvayətləri». Toplayanı, tərtib edəni, ön sözün, qeyd və izahların müəllifi H.İsmayılov. Bakı: Səda, 2001, s. 3-82
20. Koblandı-batır. Kazaxskiy qeroiçeskiy gpos. /Sost., issled. i komm. N.V.Kidayş-Pokrovskaə i O.A. Nurmaqambetova. Moskva: Nauka, 1975, 446 s.
21. Putilov B.N. Qeroiçeskiy gpos i deystvitelğnostğ. Leninqrad: Nauka, 1988, 225 s.
22. Seyidov M. Xalçalarımızdakı əjdaha motivinin mifoloji kökləri // «Elm və həyat» jur., 1984, № 3, s. 20-23.
23. İvanov V.V. Drakon / Mifı narodov mira. V 2-x tomax. Tom 1. Moskva: Sovetskaə gnüiklopediə, 1980, s. 394-395
24. İvanov V.V. Zmey / Mifı narodov mira. V 2-x tomax. Tom 1. Moskva: Sovetskaə gnüiklopediə, 1980, s. 468-471
25. Abdullayeva M.Y. Azərbaycan folklorunun regional xüsusiyyətləri (Şəki-Zaqatala folklor nümunələri əsasında): Fil. elm. nam. ...dis. avtoref. Bakı, 1999, 27 s.
26. Bayat F. Korkut Ata. Mitolojiden Gerçekliğe Dede Korkut. Ankara: Kara M, 2003, 89 s.

## Fratrial Ancestors Paradigm In The Oghuz Mythology

Research is dedicated to the problem of reconstruction of the fratrial ancestor model in the Oghuz mythology. Research shows that, in the epos "Kitabi-Dede-Gorgud" Salur Gazan and Alp Aruz, the head of the klan are fratrial ancestor paradigms of the Oghuz khakan in the Oghuz mythology. As Oghuz khakan in the ancestor of All Oghuz, unique ancestor function is arranged by dual principle in the next cosmoginical step of the Bozog-Ucog. Aruz is a fratrial ancestor of the bozogs, Gazan is a fratrial ancestor of ucogs. Their totem ancestor statuses, becoming clear by restoration show that, the model of Aruz Gazan fratrial ancestor is a complete equivalent of the model of Oguz khakan ancestor. As "Oghuz khakan" is a whole model of the oghuz cosmos, oghuz cosmos surrounding all the zoolevel (animal, bird totem spheres) is whole in the Aruz-Gazan fratrial model.

## Парадигма Фратриального Предка В Огузской Мифологии

Статья посвящена вопросам реконструкции модели фратриального предка в огузской мифологии. В ходе исследований выясняется, что Салур Казан и Алп Аруз, как главы своих клан, одновременно являются фратриальными парадигмами первопредка Огуз каган. Огуз каган первопредок Калын Огуза (Всего Огуза). В следующих стадиях мифотворчества функция первопредка разделяется между кланами Боз ок и Уч ок, т.е. монально- космогонический образ трансформируется в дуальный. Впоследствии Аруз выполняет роль предка бозогов, а Казан – учогов. Их социальный статус тотема-предка отождествляется с моделью превопредка Огуз кагана. Как огузский космос в целом отражается в модели мира «Огуз каган», так и в фратриальной модели «Аруз-Казан» воплошаются все реалии огузского космоса, включая зоо-, тотемические и другие элементы космоса.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

# AŞIQ HÜSEYN BOZALQANLININ DASTAN YARADICILIĞI

***SƏYYARƏ QASIMOVA***

XIX-XX yüzilliklərdə Azərbaycan aşıq poeziyasının görkəmli nümayəndələrindən biri Aşıq Hüseyn Bozalqanlıdır. O, Qərb aşıq mühitinə söykənən Tovuz aşıq mühitinin davamçısıdır. Ustad sənətkarın çox zəngin və əhatəli irsi vardır.

Aşıq Hüseyn Bozalqanlının yaradıcılığı öz bəşəriliyi və xəlqiliyi ilə diqqəti cəlb edir. Bəşəri məhəbbətin, təmiz və ülvi sevgi duyğularının, vətənpərvərlik, qəhrəmanlıq, mərdlik, dostluq kimi yüksək insani keyfiyyətlərin tərənnümü, acgözlük, xəyanət, xəbislik, pislik və s. bu kimi rəzil sifətlərin tənqidi aşığın yaradıcılığında xüsusi əhəmiyyət kəsb edir. Onun yaradıcılığının ən mühüm və geniş bir sahəsini dastan yaradıcılığı təşkil edir.

Aşıq Hüseyn Bozalqanlı Azərbaycanın bir çox əyalətlərini, eləcə də, qonşu ölkələri: Ermənistan, Qərbi Azərbaycan, Gürcüstan və Dağıstanı gəzmiş, müxtəlif məclislər keçirmiş və bir çox sənətkarlarla qarşılaşmışdır. Bütün bunlar isə aşığın dastan yaradıcılığı üçün müəyyən bir zəmin yaradırdı. Onun yaradıcılığından məlum olur ki, ustad həyatda qarşılaşdığı hadisələrdən və deyişdiyi adamlardan aldığı böyük təəssüratlar nəticəsində yaddaqalan bir neçə dastan yaratmışdır.

Dastan yaradıcılığı ilə əlaqədar Azəbaycan folklorşünaslarının maraqlı elmi-nəzəri fikirləri vardır. M.H.Təhmasib, H.Araslı, F.Qasımzadə, P.Əfəndiyev, M.Həkimov və başqaları dastanın yaranmasında fərdin subyektiv roluna xüsusi qiymət vermişlər. Dastan yaradıcılığında fərd ilkin yaradıcı, kollektiv isə həm yaradıcı, həm də təbliğatçıdır. Professor M.H.Təhmasib dastançılığın özünəməxsus səciyyəsindən söz açarkən yazır: "Dastanların ustad aşıqların şeirləri əsasında ad – sanı məlum olmayan, başqaları , əksər hallarda isə şagirdlər tərəfindən yaradılmış olduqlarını ümumiləşdirmək, bunu əsas üsul kimi qəbul etmək, bizcə ustadları dastançılıq qüdrətindən məhrum elan etmək, dastançılıq qabiliyyətini ustadlardan alıb, ustad olmayan şagirdlərə "bağışlamaq" kimi bir şeydir.

..."Bizcə" "Qurbani" elə Qurbaninin, "Abbas və Gülgəz" elə Abbasın özü tərəfindən yaradılmışdır". (4, 19-20).

Şair – publisist Şəmşəd Rza ustad sənətkarın dastan hekayətlərini toplayaraq 1978 – ci ildə kitab şəklində çap etdirmişdir. Həmin kitabda çap olunan dastanlar "Aşıq Ələsgərlə görüş" ,"Qara Tanrıverdi", "Aşıq Hüseynin Tiflis səfəri" , "Qazaxlı Mirzə Səmədlə olan hekayət" "Aşıq Hüseynin Gəncə səfəri" və "Hacı Tağı dastanı"dır. Hekayətlərsə "Xəyyat Mirzə ilə bağlı hekayət", "Göyçəli Aşıq Mehdi ilə görüş"dür. Bunlardan başqa "Dağıstana gedən yollar" və "Qara Asdan" dastan - rəvayətləri də vardır. Sonuncu iki dastan – rəvayət Ş.Pzanın arxivindən tapılmışdır. Adlarını çəkdiyimiz bu dastan və hekayətlərin xalq arasında bir neçə variantları vardır. Ancaq bütün variantlarda Aşıq Hüseyn Bozalqanlının güclü və qüdrətli bir sənətkar olduğunu, həyatı dərindən bildiyini, xalq həyatını hərtərəfli və bütün cizgiləri ilə təsvir etdiyini görürük. Çünki o, daima həyatla bağlı olmuşdur. Gördüyünü, bildiyini sazla-sözlə ifadə etmişdir. Necə deyərlər, ustad sənətkar sanki "Aşıq gördüyünü çağırar" atalar sözünə istinad edərək öz ictimai dərdini sazla demiş, şəxsi dərdini ictimai dərddən uzaq tutmuşdur. Məhz buna görə də bu el sənətkarını xalq arasında daha da şöhrətləndirən onun yaratdığı və yuxarıda adı çəkilən dastan, hekayət və rəvayətləri olmuşdur.

Ustad sənətkarın yaradıcılığı haqqında konkret əyani təsəvvür əldə etmək üçün onun bu sahədə olan əsərlərinin bəzilərini nəzərdən keçirək. Bu dastan hekayət və rəvayətlərin ideya məzmunu heç də ədəbi tarixi əhəmiyyəti ilə məhdudlaşmır. Onlarda təsvir edilən qəhrəmanlıq, müdriklik, xəlqilik, yüksək əxlaqi keyfiyyətlər, irəli sürülən ictimai mətləblər bu gün də aktualdır.

XIX yüzilliyin sonu, XX yüzilliyin əvvəllərində Zaqafqaziyada baş verən və geniş vüsət alan kəndli üsyanları, eləcə də qaçaqçılıq hərəkatı dastan yaradıcılığında əlvan boyalarla əksini tapmışdır. Aşıqlar elin mərd, mübariz oğullarını el-obada təbliğ etməklə onları xalqa daha da

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yaxından tanıtmışdır. Bu cəhətdən Aşıq Hüseyn Bozalqanlının "Qara Tanrıverdi ", "Hacı Tağı" və "Nəriman " dastanları çox diqqətəlayiqdir.

Ustad sənətkarın yaratdığı dastanlardan ən önəmlisi "Qara Tanrıverdi"dir . Bu dastanda Aşıq Hüseyn Bozalqanlı həmyerlisi İsmayılın oğlu Tanrıverdinin nəyin üstündə qaçaq düşməsini və onun bir el qəhrəmanı səviyyəsinə yüksəlməsini təsvir edir. Aşıq bu dastanda qəhrəmanlıq dastanlarına xas olan qəhrəmanlıq, döyüş bacarığı, xalqa arxalanmaq və onun mənafeyini müdafiə etmək kimi dəyərləri önə çəkir. Dastanda epik və lirik lövhələr bir – birini əvəz edir və hər ikisi vəhdətdə götürülür.

Ümumiyyətlə, XIX yüzilliyin sonu, XX yüzilliyin əvvəllərində ölkədə baş verən ictimai - siyasi hadisələr dastanda öz əksini tapmışdır. Dastan mülkədar və bəylərə qarşı kəndlilərin mübarizəsini əks etdirir. Bu mübarizənin başında isə kəndli balası Tanrıverdi durur. Heç təsadüfi deyil ki, onu "Koroğlu nəvəsi " (R.Rüstəmzadə) adlandırmışlar .

Aşıq Hüseyn Bozalqanlının qəhrəmanlıq mövzusunda yaratdığı dastanlardan biri də "Hacı Tağı " dastanıdır. Bu dastan ustad sənətkarın yaradıcılığında mühüm yer tutur. Dastanda Aşıq Hüseyn Bozalqanlı dövrün mürəkkəb ictimai – siyasi şəraitini əks etdirməklə yanaşı , Qazax qəzasında Ağstafa ərazisinin Göyçəli kəndində yaşayan, əliaçıqlığı, səxavəti, mərdliyi, qonaqpərvərliyi ilə el – obadan çox – çox uzaqlara şöhrəti yayılan Hacı Tağını bir daha xalqa tanıdır. Hacı Tağının yoxsulların arxası, köməyi, pənahı olması, dosta mehribanlığı, düşmənə yağı olması, igidlikdə, şücaətdə, Makedoniyalı İsgəndərə bərabər bir igid olması təsvir edilir, hünərli bir el qəhrəmanının mənəvi - əxlaqi portreti, onun insani keyfiyyəti təqdim olunur.

Yaxşılığı və səxavəti ilə bu el qəhrəmanının şöhrəti Süleyman Peyğəmbər kimi hər yana yayılıb. İsgəndər kimi neçə - neçə əyalətlərə: Dağıstan, Şəki, Şirvan, Qarabağ, Təbriz, Solmaz, Marağa, Həştərxan və s. yerlərə səsi - sorağı yayılıb, xalq içərisindən çıxmış neçə - neçə igidlər: Məşədi Hilal, Məhərrəm və başqaları onun başına yığılıb. Düşmənə qarşı amansız olan bu igidlər xalq arasında çox böyük nufüz sahibləridir.

Hacı Tağı Mehmandar (coğrafi yer adı) on rus qazağı (Kazak) və onlara başçılıq edən bir uryadniki təkbaşına tərksilah edir, silahlarını və atlarını əllərindən alır. Onun bu qəhrəmanlığı və cəsarəti dildən – dilə düşür.

Günün günorta vaxtında
Mehmanda meydan elədi.
Xod verdi on açılana
Aləmi rövşən elədi.
Görənlər təəccüb qaldı
Cənginə heyran elədi.
On qazax, bir rodnik
Dad çəkib aman elədi
Atını, silahını
Tutub alması söylənir.

Dastanda Azərbaycan xalqına xas olan qəhrəmanlıq və qonaqpərvərlik kimi nəcib hisslər və azadlıq ideyaları təsvir olunur.

Aşıq Hüseyn Bazalqanlının yaradıcılığında "Nəriman" dastanı da mühüm yer tutur. Ustad sənətkar bu dastanı Azərbaycan xalqının görkəmli şəxsiyyətlərindən biri olan Nəriman Nərimanova həsr etmişdir. O, çox böyük vətənpərvərlik hissi ilə müəllim, həkim, yazıçı və dövlət xadimi N.Nərimanovun həyatını, siyasi görüşlərini, həkimlik fəaliyyətini təsvir etmişdir. Dastanda ədalətsizliyə, zülm və haqsızlığa qarşı dərin nifrət hissi vardır.

XX əsrin əvvəllərində Azərbaycanda rus çarizminə, yadelli işğalçılara, istibdada, istismara, müstəmləkəçiliyə qarşı mübarizə geniş vüsət almışdı. Aşıq Hüseyn Bozalqanlı çarizmin Zaqafqaziyada apardığı siyasətin mahiyyətini, yerli sadə xalqa, zəhmət adamlarına qarşı amansızlığını rus padşahının dili ilə belə təsvir edir:

İstəkli, dostlarım, şanlı knyazlar ,
Fikriniz bir olsun, aralanmasın,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər yerdə rəiyyəti sıxın, əzilsin,
Günləri xoş keçib havalanmasın.

Xalqın birliyindən, insanların bir – birinə arxalanmasından qorxan hakimi-mütləq çar “ parçala – hökm sür ” və ya “ayır - buyur” siyasəti yürüdüb keşişlərə ciddi tapşırıq verməklə mükafat vəd edir ki, kəndlilərin bir yerə yığışıb mübarizə aparmaq üçün tədbirlər keçirməsinə imkan verməsinlər. Bəylərə isə vəd edir ki, bütün torpaqları onların arasında bölüşdürəcək: Siz yeyin, için, kef çəkin, ancaq yoxsul balalarını məktəbə getməyə qoymayın, çünki onlar oxuyub elmlənər və öz haqqını tələb edər, hüquqları uğrunda mübarizəyə qalxar.

Aşıq Hüseyn Bozalqanlı öz dövründə çar üsul-idarəsinin haqsızlıqlar üzərində qurulan siyasətini pisləməklə yanaşı, gələcəyə nikbin baxır və dastanda bütün zülm və haqsızlıqlara bir gün, nəhayət, son qoyulacağına qəti inamını ifadə edir.

Azadlıq uğrunda mübarizə aparanların daima təqiblərə məruz qalması, həbs olunması, sürgün edilməsi, ailəsinin çəkdiyi ağır iztirablar və onlara verilən işgəncələr də ustad aşığın diqqətindən kənarda qalmamışdır.

Ümumiyyətlə, Aşıq Hüseyn Bozalqanlı bu dastanda öz qəhrəmanını vətənpərvər, xalqını sevən, möhkəm iradəli, mərd və cəsur, heç nədən çəkinməyən, heç kimdən qorxmayan, çətinliklər qarşısında özünü itirməyən bir tarixi şəxsiyyət kimi təqdim edir. Görkəmli ictimai xadim və ədib olan doktor Nəriman Nərimanov öz real xarakterik keyfiyyətləri ilə yanaşı, bir növ nağıllaşan qəhrəman kimi verilir.

Aşıq Hüseyn Bozalqanlı “Aşıq Ələsgərlə görüş” , “Aşıq Hüseynin Tiflis səfəri ” , “Aşıq Əsədullah ilə görüş ” , “Qazaxlı Mirzə Səmədlə olan hekayət ”, “Aşıq Hüseynin Gəncə səfəri ” dastan – rəvayətlərində və “Xəyyat Mirzə ilə bağlı hekayət”, “Göyçəli Aşıq Mehdi ilə görüş” hekayətləri, eləcə də “Aşıq Hüseynin Balakən səfəri ” dastan – rəvayətlərində müxtəlif sənət adamları ilə deyişmələrini və bu deyişmələrin uğurlu nəticələrini təsvir etmişdir.

Haqqında danışılan və həmçinin burada yalnız adı çəkilən dastan, hekayət və rəvayətlərin hamısından məlum olur ki, Aşıq Hüseyn Bozalqanlı hazırcavab, sinədəftər, sadə və təvazökar, dosta sadiq, rəhmdil, qonaqpərvər, bədahətən şeir deyən və qabaqlaşdığı, deyişdiyi adamların hamısına sözlə üstün gələn bir şəxsiyyətdir. Bu dastan - rəvayətlər XIX - XX yüzilliklərdə Aşıq yaradıcılığında mühüm yer tutmuşdur. Ustad sənətkarın öz sağlığında bu ədəbi – bədii nümunələrdən bir çox el sənətkarları bəhrələnmiş, həmin sənət nümunələrini toy, nişan məclislərində söyləmişlər. Hal – hazırda da ustad aşıqlar öz repertuarlarını bu dastan – rəvayətlərlə zənginləşdirirlər. Ona görə də heç şübhə yoxdur ki, dildən – dilə, eldən – elə yayılan bu dastan rəvayətlərin bir çoxları hələ də kimlərinsə qəlbində yaşayır və zaman-zaman gələcək nəsillərə ötürülür.

**ƏDƏBİYYAT**

1. Şəmşəd Rza. Aşıq Hüseyn Bozalqanlı. Dastan-hekayətlər. Bakı, Yazıçı, 1987, 173 s.
2. Şəmşəd Rza. Ustad aşıqlar. Aşıq Hüseyn Bozalqanlı. Bakı, Gənclik, 1973, 105 s.
3. Koroğlu nəvələri / toplayanı R.Rüstəmzadə. Bakı, Gənclik, 1967, 88 s.
4. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı, Elm, 1972, 399 s.
5. Mahmud İsmayıl. Azərbaycan tarixi. Bakı, 1997, 320 s.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DASTAN YARADICILIĞINDA İFAÇININ ROLU

***ŞAKIR ALBALIYEV***

Dastan şifahi xalq ədəbiyyatının formaca ən böyük janrı olduğundan, onu obrazlı şəkildə «xalq romanı» da adlandırırlar və təbii ki, bu gün bizim başa düşüb qəbul etdiyimiz müasir dastan («roman») janrı öz səviyyəsinə birdən-birə gəlib çatmamış, özünəməxsus inkişaf və təşəkkül yolu keçmişdir. Belə ki, ənənəvi olaraq qəhrəmanlıq və məhəbbət dastanları adı altında qruplaşdırılan dastanlarımızla qədim dastan nümunələrini yan-yana qoyub, həcm və forma etibarilə onları müqayisə etsək, böyük fərqi hiss edərik. Özünün «Rus qəhrəmanlıq eposu» adlı əsərində V.Y.Propp məhz bu məsələlərə rəğmən yazırdı: «Epik ənənə sadə təhkiyəçilikdən peşəkar ifaçılığa qədər inkişaf yolu keçmiş, milli dastan yaradıcılığının erkən zəminini yaratmışdır." (s.64).

Biz «Alp Ər Tonqa», «Oğuz xaqan», «Şu», «Ərgənəkon», «Köç» kimi qədim türk dastanlarını «Koroğlu», «Qaçaq Nəbi», «Əsli və Kərəm», «Novruz və Qəndab» və başqa bu kimi nisbətən son dövrlərin xalq yaradıcılığının məhsulu olan dastanları ilə həcm və təhkiyə strukturu baxımından bir qəlibə sala bilmərik. Əlbəttə ki, bunun əsaslı və köklü səbəbləri vardır. Bu prosesi «təhkiyənin mərhələli yollar keçməsi» kimi izah edən görkəmli folklorşünas akademik Azad Nəbiyev qədim türk dastanları ilə bağlı maraqlı açıqlama verir:

«Qədim türk dastanı» şərti bədii formuladır. Bunun əvvəl qatı – qədim türk mifologiyasıdır ki, onun meydana gəlmə və yekunlaşma sərhədlərinin müəyyənləşməsi özü də şərtidir. Təsadüfi deyildir ki, müxtəlif türk qövmləri arasında davam edən, bəzən intibaha, bəzən də tənəzzülə gedib söykənən mifologiyalarda müəyyən mif formulalarını tədqiqatçılar «qədim türk dastanı» vahidi kimi qəbul edir və onları dastan mətni kimi də araşdırmalara cəlb edirlər. Bu, təbiidir, çünki birincisi, dastan yaradıcılığı ərəfəsində yaranan mif mətnləri, rəvayətləri və ya süjetlərində yeni doğulacaq «qədim türk dastanı»nın cizgiləri, əlamətləri artıq əks olunmaqda idi. İkincisi, hər iki formula epik təsəvvürün modeli idi, üçüncüsü isə yuxarıda qeyd edildiyi kimi, müxtəlif türk qovmləri arasında uzun müddət ərzində davam edən mif yaradıcılığının müxtəsər bir zaman hüdudunda bütün türk tayfaları içərisində funksiyalarını itirməsi nəzərə çarpan mümkün hadisə deyildi. Müxtəlif ictimai-siyasi, coğrafi faktlar, demoqrafik və miqrasiya prosesləri ayrı-ayrı türk tayfaları içərisində mif yaradıcılığının tərəqqi və tənəzzülünün zaman hüdudlarını müəyyənləşdirmişdir. Ona görə də bu kəsimin bütün tarixi inkişaf dövrləri şərtiliklərə əsaslanır» (s. 483-484).

Artıq Azərbaycan dastan yaradıcılığı prosesi o qədər geniş və sürətli inkişaf yolu keçmişdir ki, bu gün demək olar ki, bu dastançılıq ənənəsində müəyyən sabit prinsiplər də formalaşmışdır. Bu sabit qəlib özünü məhəbbət dastanlarının nümunəsində daha əyani nümayiş etdirir. Bu mənada ki, necə ki, ədəbiyyatşünaslıqda lirik növün janrlarının özünəməxsus qəlib prinsipləri var və bu janrları həmin yuvalara əsasən təyin edə bilirik, eləcə də lirik növdə olduğu kimi, epik növə daxil edilən məhəbbət dastanlarının da quruluş xüsusiyyətlərində bu cür sabit ənənələr formalaşmışdır. Məhəbbət dastanlarının üç ustadnamə ilə başlaması və duvaqqapma ilə sona yetməsi dediyimizə ən bariz nümunədir. «Sadə təhkiyəçilikdən peşəkar ifaçılığa qədər yol gələn» bu məhəbbət dastanlarımızın mahir ifaçıları isə azan-aşıq sənətinin azman nümayəndələri olmuşlar. Məlumdur ki, ozan, aşıq, baxşı və başqa adlar ilə tanınan bu sənətkarlar öz yaradıcılıqları etibarilə nə qədər fərdiliyə söykənsələr də, elə o qədər də, ondan da artıq dərəcədə xalq ruhunun daşıyıcıları olmaqla ümumxalq yaradıcılığının baniləridirlər, təmsilçiləridirlər. Çünki aşığı el saxlar deyiblər, çünki aşıq elə məxsusdur, xalqı təmsil edəndir. Onlara ilahi tərəfindən buta verilməsi amilində də, onların xalq məclislərində qıza, gəlinə məhrəm br sima kimi iştirak etmək hüquqlarına malik olmalarında da, müqəddəs hesab olunan saz alətindən istifadə etmələrində də və s. bu kimi cəhətlərində də – bir sözlə, məhz aşığın-ozanın özünün də müqəddəs sayılması məsələsində də bu incə xüsusiyyətlər dayanır. Yəni aşıq elin adamıdır, xalq ruhunun ifadəçisidir. Bu səbəbdən də dastan yaradan, yaxud dastan söyləyən aşığın dastana fərdi müdaxilələr etməsi də təbiidir, bu

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

əlavələr isə təkcə fərdin psixoloji keyfiyyətlərini əks etdirmir, eyni zamanda ümumi mənəvi dəyərlərin inikası kimi də mühüm əhəmiyyət kəsb edir.

Fikrimizi Molla Cumanın «Baxış bəy və Leyla xanım» dastanı üzərində davam etdirək. Dastanın iki variantı var, variantın birində Baxışın aşiq olduğu Leyla xanımın atası molla Humay Türkmən vilayətindəndir. Professor Paşa Əfəndiyevin verdiyi məlumata görə, "Molla Cümənin biliciləri «Baxış bəy və Lelya xanım» dastanında aşığın tərcümeyi-halı ilə əlaqəli əhvalatların olduğunu söyləyirlər. Xüsusilə mədrəsə illəri, Baxışın öz müəlliminin qızına aşiq olması və s. Deyildiyinə görə, burada aşıq özünün mədrəsədə dərs aldığı müəlliminin qızına aşiq olduğunu və s. epizodları dastana salmışdır» (səh. 613).

Göründüyü kimi, haqq aşığı olan Molla Cumanın söylədiyi dastandakı əhvalatlar nə qədər ümumxalq yaradıcılığı xarakterinə malikdirsə, elə o qədər də söyləyici aşığın həyatının bədii tərcümanı kimi anlaşılır. Burada bir incə məqam da aşkara çıxır: dastandakı Baxış adı fonetik transformasiya ilə türkmənlərdə aşığa verilən baxşı adına uyğun gəlir, dastanın ifaçısı da mənşəyi etibarilə aşıqdır – başqa sözlə, aşıq Molla Cumanın görükməyən (yəni ümumiləşmiş) obrazıdır. Lakin Molla Cuma öz sevdiyi qızın adını hallandırmayıb, onu şeirlərində «İsmi-pünhan» çağırdığı kimi, dastanda da bu cür hərəkət edərək öz məşuqəsinin adını aşiq-məşuqluqda məhəbbətin ümumiləşmiş rəmzi adı ilə – «Leyli – Məcnun»dakı Leyli surətinin uyğun ad şəkli ilə Leyla adlandırmışdır. Beləcə, öz lirikasında gizlin adla tərənnüm, vəsf etdiyi sevgilisini (ismi pünhanı) epos yaddaşında da gizli kodla ifadə etməyə nail olmuşdur.

Dastanda başlanğıcda söylənən ustadnamələrin arasında söylənən keçid cümlələrində də bir daxili qafiyələnmə prinsipi özünü göstərir: «Ustadlar ustadnaməni bir deməz, iki deyər, biz də deyək iki olsun, düşmənin gözü tökülsün» ifadəsindəki «iki olsun» və «gözü tökülsün» tərkibləri cümlə daxilində nəsr dilində qafiyələr kimi özünü göstərir. Eləcə də ikinci ustadnamədən sonra deyilən «Ustadlar ustadnaməni iki yox, üç deyər, biz də deyək üç olsun, düşmənin ömrü puç olsun» cümləsində də «üç olsun» və «ömrü puç olsun» ifadələri bir-birlərinə həmqafiyələr kimi səslənməklə dastanın poetik səslənməsini təmin edirlər, bu texniki şərtlər də təkcə bu dastan nümunəsində yox, ümumilikdə məhəbbət dastanlarında vahidləşmiş strukturlardır. Bu cür texniki cəhətlər ümumiliyə – folklor yaradıcılığına xas cəhətlərdir. Dastanın epik hissəsi belə başlayır:

«Mənim əzizlərim, sizə hardan xəbər verim, Yəmən şəhərindən. Yəmən şəhərində Əmir şah adlı bir padşah vardı. Əmir şah yanında Humay adlı bir molla saxlayırdı. Özü də Humayı Əmir şahın özü oxutmuşdu, özü də evləndirmişdi. Bəli, bir gün gəlir Əmir şahın bir oğlu, Molla Humayın da bir qızı olur. Aləm yığılır, onların hər ikisinə gözaydınlığı verir. Oğlanın adını Baxış, qızın adını isə Leyla qoyurlar»...

Bu epik təhkiyə üsulu da ənənəvi başlanğıcı əks etdirməklə həm də ümumxalq danışıq tərzini səciyyələndirir ki, bu da folklor mətni üçün xarakterik haldır. Lakin burada bir fərdi cizgi gizlənib: aşıq sevdiyi qıza hörmət əlaməti kimi Leylanın atasının adını Humay kimi təqdim edir. Halbuki xalq mifologiyasında Humay xeyirxahlıq timsalıdır, dövlət quşunu, səadəti təmsil edir. Burada isə əksinə olaraq Humay adını daşıyan Molla Humayın «Leylanı Baxışdan ayırdığının»-aşiqlə məşuqu bir-birindən ayrı salmaq niyyətinə düşdüyünün şahidi oluruq. Ümumxalq məntiqinə görə ya Humay xeyirxahlığı təmsil etməli, ya da Humay obrazı başqa adla təqdim olunmalı idi. Dastanda Leyla ilə Baxışın deyişməsində «Mən sənin eşqindən gəlmişəm dilə, Dərdini dastana yaz, Leyla xanım» beytindən də Molla Cumanın «Leylanın – Molla Cumanın adını gizlin saxladığı ismi-pünhanın» dərdini – sevgi macərasını dastana salmaq istəyi mətndaxili ünsiyyət vasitəsilə ifadəsini tapıb ki, burdan da yenə fərdi yaradıcılığın xalq təfəkkürü ilə qovuşmasını təsdiqləyirik.

Dastandakı hadisələrin gedişatını ümumi dastançılıq əhvalı ilə izləyirik. Qiymətdə ağır, çəkidə yüngül var-dövlətini yığıb-yığışdırıb alatorandan qızını da Yəməndən götürüb Tehrana tərəfə qaçan Molla Humayın arxasına düşən Baxışa atası Əmir şah:

Sənin getməyinə olmaram razı,
Qoyma gözüyaşlı sən ağlar bizi.
Gəl alım mən sənə ən gözəl qızı.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Getmə, oğul, getmə, aman günüdü, - deyərək yalvar-yaxar edirsə də, xeyri olmur, dastançılıq ənənəsinə uyğun olaraq yolda bir çox qəzavü-qədərə rast gəlirsə də, axır ki gəlib Tehranda bir ipəyi qarıya qonaq olur.

Aşiqin yolda təkcə həramilərə yox, həm də aşiq-məşuqluğun rəmzi əksetdiricisi olan təbiət hadisələrinə rast gəlməsi və bundan aşiqlər üçün ibrətamiz nəticələr çıxarılması kimi hallar da xalq yaradıcılığının məxsusi keyfiyyətlərindəndir. «Baxış bəy və Leyla xanım» dastanında da bu cür təbiət lövhələri yaradılıb: «Baxış... xeyli yol getdikdən sonra azacıq durub dincəlmək istəyir. Bir də görür ki, bir qırğı bir quşu caynağına vurub havaya qalxdı. Baxışın ürəyi yandı. Aldı görək qırğıya nə dedi:

Havalanıb göylə gəzər,
Görər dağı, düzü qırğı.
Bülbüllərin bağrın əzər,
Olar hakim özü qırğı.

Fağır quşlar gəlib təngə,
Şiqan edib alar həngə.
Bülbülü keçirib cəngə
Necə alıb gözün qırğı.

Baxış deyər dünya haldır,
İşin-gücün qalmaqaldır.
Bülbülləri alhaaldır,
Bilməz həngi, nazı qırğı. (səh. 568)

Bu lirik təsvirdə ictimai motivlər ifadə olunub. Bir qırğının quşu - bülbülü caynağına vurub ovlaması kimi təbiət səhnəsinə Baxışın – aşiqin acıması ictimai kədər kimi mənalandırılır: Qırğının bülbüllərin bağrını əzməsi ( 1-ci bənddə), yaxud Bülbülü cənginə keçirib gözünü (gözünün odunu) alması – fağır quşların təngə gəlməsi – (2-ci bənddə), habelə həngi, nazı qanıb-anlamayan qırğının bülbülü ovlaması (3-cü bənddə) – bütün bunlar hamısı zalımın məzluma elədiyi zülmkarlıqlar kimi anlaşılır, metaforik bir şəkildə təbiət hadisələri canlandırılır və insanlar üzərinə köçürülür. Başqa sözlə, mətnin dilindən çıxış etsək, qırğı güclü, qoluzorlu, nadan adamı, fağır bülbül isə aciz, fağır aşiqi işarə etməklə Baxış bəyin dastanda düşdüyü ağır halı bildirir. Bir sözlə, aşiqlər dünyanın aciz, ürəyi təmiz və qəlbi zərif bəndələri, sevgi hissindən xəbərsiz olanlar isə hır-zır qanmayan kobud, nadan adamlarıdırlar.

Bir daha göründüyü kimi, dastanı yaradan, söyləyən aşıq Molla Cuma xalq eposunda öz obrazını da gizli pərdəli şəkildə verməyə müvəffəq olur və bu heç də xalq yaradıcılığı nümunəsinə heç bir xələl gətirmir. Xalq sənətinin daşıyıcısı və yaşadanı olan aşıq-aşiq obrazı da ümumxalq malının – folklor örnəyinin ayrılmaz tərkib hissəsi kimi dastan yaddaşında ölməzlik tapıb əbədiləşir, xalq aşığının ruhu xalq dastanının canına-mayasına hopub, ayrılmaz vəhdət təşkil edir.

Tehranda sevgilisi Leylanı ipəyi qarının vasitəsilə tapan Baxış bəy ata süvar olub geri qayıdarkən, Molla Humay arxalarınca həramibaşını göndərir, lakin məhəbbət dastanlarının ənənəvi yekun finalında olduğu kimi, burda da aşiqlər çətinliklərdən qurtulub bir-birinə qovuşurlar. 40 gün 40 gecə toy çalınır, bəylə gəlinlərin şəninə deyilən dastanla (əslində duvaqqapma ilə ) dastan sona çatır.

Dastanda oğul üçün ağlamaqdan gözləri tutulan Əmir şaha oğlu Baxışın gəldiyini mehtər muştuluq xəbəri verən kimi, oğlunun pişvazına çıxır, uzaqdan oğlunu görcək gözlərinə nur gəlir. Bu motiv «Kitabi-Dədə Qorqud»da Beyrəyin atası Baybörə ilə görüşü səhnəsini xatırladır, oradakı «oğul atanın yetiridir, iki gözünün biridir» məsəlinə işıq salır.

Göründüyü kimi, dastançı aşıq bütün hallarda xalq ruhunun daşıyıcısıdır, istər ora öz obrazını daxil etsin, istər öz arzusunu əlavə eləsin; yazılı ədəbiyyatda şai

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

oxucular özlərini görüb, tapdıqları kimi, folklor örnəklərinin, o cümlədən dastanların da ruhunda, məğzində xalq öz ruhunu yaşadır.

**ƏDƏBIYYAT:**

1. Azad Nəbiyev , «Azərbaycan xalq ədəbiyyatı», I hissə, Bakı, «Turan» nəşrlər evi, 2002, 680 səh.
2. Molla Cümə, «Əsərləri», Bakı, «Şərq-Qərb», 2006, 648 səh.
3. Пропп В.Я , «Русский героический эпос», М.1958

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# "DƏDƏ QORQUD"un BORÇALI İZLƏRİ

***ŞURƏDDIN MƏMMƏDLİ***

"Dünya sivilizasiyasının incilərinə məxsus olan" [11, s. 13], qədim yazılı ədəbi abidələrimizin, oğuznamələrin şahı sayılan "Dədəm Qorqud Kitabı"nın Borçalıya bəlirli dərəcələrdə bağlılığı olqusu (faktı) önəmlidir.

"Dədə Qorqud"un Borçalı izləri əsas üç yöndə sərgilənər:

1) tarixi olayların səsləşməsi,
2) tarixi-coğrafi onomastik uyğunluq,
3) ləhcə-ağız identliyi.

Birinci məqam, yəni eposdakı hadisələrlə Borçalı ərazisində baş vermiş tarixi olayların identliyi araşdırılmamış, dəqiqləşdirilməmişdir, ancaq maraqlı məsələdir.

Bu baxımdan Türkiyəli tanınmış tarixçi-ədəbiyyatşünas alimi, o sıradan Borçalılıların keçmişinə aid "Karapapaklar (Borçalı–Kazak Uruğunun Kür–Araz Boylarındakı 1800 Yılına Bir Bakış") adlı kitabın yazarı Məhməd Fahrəddin Kırzıoğlunun araşdırmaları, mülahizələri öz elmi əsaslılığı və özgünlüyüylə xüsusi ilgi çəkər. O, "Dədə Qorqud" dastanlarının özünün məhz miladdan öncə 149-cu ildən miladın 429-cu ilinə qədər Balaərşahlar dövlətini qurmuş, Borçalının qədim keçmişində iz qoymuş əski Oğuzlara aid olduğunu sübut edən mühüm dəlillər gətirmişdir. Belə ki, müəllif Dədə Qorqud Oğuznamələrindəki Salur Qazan sülaləsinin atası Ulaşı tarixdəki Xəzər-Barsıllarla vuruşan, döyüşdə öldürülən Balaərşahla identləşdirmişdir.

Xatırladaq ki, adı çəkilən Ərşah sülaləsinin Xəzər gündoğarındakı Parı boyundan gəlib Xorasan tərəflərdə hakimlik etmiş, Bərç, Parallı qövmlərini də içinə alan qədim Sak Oğuzlarından törədiyi Məhəməd Fahrəddin Kırzıoğlunun, Mirəli Seyidovun, Vəli Həmidoğlunun... araşdırmalarında təsdiqlənər [10, s. 9–10].

M. F. Kırzıoğlu öz cəsarətli fikirlərində daha irəli gedərək, "Dədə Qorqud" kitabında Ulaş oğlu Salur Qazanın evi yağmalanmağı boyundakı hadisələrin miladın başlarında Taron–Borçalı bölgəsində getmiş iki savaşın, yəni dədə Balaərşahla nəvə Üçüncü Təridat çağında quzeylilərdən Xəzər, Barsıl (Qazax, Borçalı) adlı iki boy vəya uruğun birgə axınlarından son ikisinin əks olunduğunu, Ərşahlar tarixindən Xəzər-Barslı (Borçalı) və Hunlarla savaşların Qıpcaq Məlik, Buğaçuq Məlik, Qara Toqan Məlik adlarıyla anıldığını bildirmişdir [7, s. 2–3]. Türkiyəli başqa bir alim Orhan Yeniaras da "Salur Qazan" boyunda Ərşahlarla Qarapapaqların miladdan sonra 200-cü ildə savaşının əksini tapdığını qeyd etmişdir [15, s. 17].

Gerçəkdən, tarix göstərir ki, miladdan öncə 127-ci ildə və ondan sonra indiki Borçalı çökəyinə uyğun gələn, Berduci / Bördüzü çölü, Qarqar ovası kimi anılan ərazilərdə Xazər–Barsılların Balaərşahlar üzərinə yürüşləri olmuşdu. Süryani (Assur) müəllifi Bardaysanın, Gürcü salnaməçisi Leonti Mrovelinin, Alban tarixçisi Musa Qalakətlinin bu xüsusda soraqları var [10, s. 10–11]. Barsılların Ərşahlı şahı Təridatın ləşgəriylə savaşını tarixçilər 215-ci (yaxud 216) ilə aid edirlər [7, s. 2]. Barsılların bu yerlərə axınları o tarixi aşamalarda olmuşdu. Ona görə M. F. Kırzıoğlu Borçalı – Qazax əkiz uruğunun yaşını həmin vaxtdan götürmüşdür [7, s. 3].

"Dədə Qorqud"un Salur Qazan boyunda, həqiqətən də, Qazan "Gürcüstan ağzında oturar", doqquz tümən (bölgə) Gürcüstandan xərac alar, o, yağı üstünə gedəndə bu yerlərdən keçər, haqq didarın görən sudan, mübarək üzlü qurddan soraq tutar [8]. Görkəmli alimimiz Pənah Xəlilovun yazdığı kimi, "Oğuz elləri hüdudlarında şimal-qərb qonşularımızın ölkəsi Gürcüstan dayanır" [6, s. 28].

Borçalı ellərindən yazıya alınmış mifoloji mətnlər, nağıllar, alqışlar (dualar), zərb-məsəllər arasında Dədə Qorqud motivləriylə səsləşən örnəklər çoxdur.

"Dədə Qorqud"un Borçalıya bağlılığının daha bir diqqət çəkici ünsürü də antroponimlərin (insan adlarının), etnonimlərin (etnik adların), toponimlərin (yer adlarının) uyğunluğudur. Bu yöndə də ciddi faktlar gətirmək olar.

Qeyd edək ki, ağ alınlı Oğuz bəylərbəyi Bayındır Xanı [8, c. 2, s. 50–51] miladdan öncə Borçalı civarlarına Türk elləri köçürmüş Bulğarlar sərvəri Vahəndı

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

identləşdirmək mümkündür; “Dədə Qorqud”dakı qəhrəman Aruz oğlu Qıyan Səlcuqun qardaşı aslankürəkli Basat və Bayburd qalasının hakimi Parasar adlarıyla [8, c. 2, s. 49, 428] Barsıl etnonimi arasında yaxınlıq var. 18-ci yüzilə aid qaynaqlarda Borçalı sakinlərinin adları arasında Oğuz, Uruz, Qorqud, Qazan, Bayandur, Qarabudaq, Qaragünə, Dondar, Becan, Bamsı... adlarına rast gəlməyimiz [13; 1, s. 78] önəmli haldır.

Oğuznamələrdə, o sıradan “Dədə Qorqud”da Oğuzun öncül qismlərinin Daşoğuz – Bozox, İçoğuz – Üçox verilməyi diqqəti çəkər [8, c. 2, s. 71, 145]. Bozoxlar adı Borçalılıların boykökü Barsılların Bozərlər / Börərlər adını [10, s. 7], həmçinin Bozoxların doqquz oxdan ibarət olmağı Barsılların qohum tirəsi Doqquz Oğur, On Oğurları [10, s. 12] yada salır. Borçalı ərazisində Üçox (Gürcücə: Samşvilde) şəhəri var olmuşdu [10, s. 14]. Və elmi-tarixi qaynaqlarda Dədə Qorqud Oğuznamələrindəki Şəmsöldin Borçalıdakı Şəmşöldə (Şəmşədli) qəsriylə ilgiləndirilmişdi, Qoqalet Qoca Şəmsöldin xanədanının, Göyərlərin atası qəbul edilmişdi [7, s. 5].

Oğuznamələrin, “Dədə Qorqud”un Borçalı izləri qədim toponimlərdə də sərgilənər. Bu baxımdan bir neçə toponimi qeyd etməyi məqsədəuyğun sayırıq.

Dədə Qorqud yurdu xəritəsində Borçalı ərazisi İç Oğuzdadır [7, s. 6].

Oğuznamələrdəki Ağzıbörü (Börü Ağzı) toponimiylə bağlamda qeyd edək ki, hələ erkən orta yüzillərin tarixi məxəzlərində, o sıradan Gürcü xronikaçıları Cavanşirin, Sumbat Davitisdzenin salnamələrində, Ərəbcə “Aləmin Hüdudu” kitabında, başqa mənbələrdə Borçalı məkanında Bördüzü (Berduci) çayının, Bördiki dağının, Corabör mahalının adlarına rast gəlirik [10, s. 14]. Və Borçalı (Barsıl) etnoniminin əsasında məhz börü (börcə) rəmzinin durduğunu bir daha xatırlatmaqda fayda vardır düşünürük.

Oğuznamələrdəki “zülmət ölkəsi”, Musa Qalakətlidəki “gecəyarısı ölkəsi” və Borçalı ərazisiylə identləşdirilən Qoqarendəki (Göyərən) Qaranlıq Dağ (Qara Dağ), Başkeçidin o üzündəki Qaranlıq Dərə arasında uyğunluq da diqqəti çəkər.

“Dədə Qorqud”dakı Dəmirqapı Dərbəndin, Qapılar Dərbəndin, Qapılı Qara Dərbəndin, Qanlı Qara Dərbəndin [8, c. 2, s. 85–86, 168–169] eyni məkan olmadığı, onların mətndəki coğrafiyasının müəyyənləşdirilməsi yönündə gərəkli mülahizələr irəli sürülmüşdür. Qazan Xanın min qoyun saxladığı Qapılı Dərbəndi Türkiyəli Qorqudşünas Orhan Şahin Gökyay Daryal (Darboğaz) qapısı hesab etmişdir [6, s. 24]. Pənah Xəlilov ikinci boydakı Dərbəndlə ilgili qeyd edir: “Qazan Xan Gürcüstan ağzında (sərhədində) otursarmış. Demək, Qazan ovda olanda gecə ikən onun ordusunun üstünə gələn Şöklü Məlik yalnız Gürcüstan tərəfdən hücuma keçə bilərdi... Şöklü Məlik bir gecəyə yağma yerinə çatdığı kimi, Qazan xan da təcili geri dönəndə ov yerindən səhər tezdən çıxıb öylə (günorta) vaxtı ordusuna çatmışdı. Dastanın bu boyunda Qazan Bəy Kür – Araz qovşağındakı qışlaq ordusuna deyil, Göyçə dağlarında yerləşən Altuntaxt adlı yaylaq yurduna qayıdır” [6, s. 23]. Demək ki, görkəmli alim də bu Dərbəndi “Gürcüstan ağzına” yaxın qəbul edir.

Və üstəlik, iki tarixi-coğrafi faktı xatırlatmaq istəyirik. Birincisi, orta yüzillər qaynaqlarında Borçalıdakı Xram (Anaxatır) çayının yuxarı yarğanının adı Darbənd verilmişdir [14, s. 34, 60; 10, s. 51]. İkincisi, Faxralı yaxınlığında Dərvənddərə toponimi əzəl qaynaqlarda da, bu gün də var olmaqdadır [4, s. 96].

Onu da xatırladaq ki, Bəkil Oğuzdan köç eləyib, təzə yurd yeri seçməkdən ötrü “doqquz tümən Gürcüstan ağzına varıb qonur”, Bozdağı aşıban iki çay arasında vətən tutur [8]. Qazaxla Borçalı arasındakı dağa Bozdağ deyilir və Borçalı çökəyi Ehram, Dəvədöy (Borçalı) nəhrləri arasındadır, burada Çayqovuşan toponimi də var...

Daha bir ilginc fakt: Orta yüzillərə aid qaynaqlarda Soğanlıq kəndinin günbatar səmtində böyük bir ərazinin adı Qorqud anılmışdır. Belə ki, Səfəvi hakimi Şah Səfinin Borçalıya yürüşünü təsvir edən salnaməçi Vaxuşti yazmışdı: “O, Soğanlıqdan günbatar səmtdə Qorqud adlanan yerdə təpə üstündə şah evi tikdirdi...” [14, s. 34]. Həmin salnaməçinin coğrafi əsərində belə bilgiyə rastlayırıq: “Kürün sahilində Korkut (Qorqud) adlı bar-bərəkətli vadi var və indi ona Soğanlıq deyilər, bu vadidəki Kürdən Yağlıcaya qədər uzanan sahə burada şah dəvələri dayandığı səbəbindən indi Karvan adlanar” [14, s. 52]. Yen

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Baqrationinin 1721 ilinə aid siyahısında Qorqud adlı oba, yenə o çağlara aid Gürcü dilindəki "Dəsturüləməl"də (təlimatnamədə) Soğanlıq–Qorqud, 1794–1799 illəri arasında Gürcü şahzadəsi İoannın (Yuhanın) yazıya aldığı əhalisayımında da Qorqudoba toponimi xatırlanmışdı [10, s. 46–51]. Qorqud obası Tiflislə Borçalı arasında çox mənzərəli, arxa tərəfi dağlı, ön tərəfi düzəngahlı yerdir, buradan baxanda bütün Borçalı ovuc içi kimi görünər...

Borçalı mahalının Saral kəndi yörələrində Sürüdaş dağlarının güney yamaclarının da adı Qorqudlu keçər...

Dolayısıyla, müdriklik, ululuq rəmzimiz Qorqud Dədəmizin adı doğma məkanımızın bir obasının adında əbədiləşmişdir; sonralar qəlbi, möhtəşəm dağlarımıza, qalalarımıza, qayalarımıza Koroğlu adı verildiyi kimi...

Dədə Qorqud ünvanlı Ağbaba, Ağcaqala, Ağılğan, Ağqaya, Ağsaqa, Aladağ, Altuntaxt (Altunqala), Azgəyliyən, Babakər, Bayat, Baydar, Baytallı, Bəytəkər, Bozdağ, Cabbağca, Cızıxlar, Çaxmaxlı, Çayqovuşan, Darbənd, Darvazqala, Dəllər, Dəliklidaş, Dumanaşan, Əyrək, Gümüş, İmir, Keçəlqora, Keşəli, Kəpənəkçi, Kolayır, Kosalı, Qabal, Qaçağan, Qamışlı, Qaracıq, Qaradərə, Qaraqala, Qaranlıqdağ, Qaratikən, Qazan, Qazançı, Qazılıq, Qocalı, Qombor, Qorqudoba, Quşçu, Lök, Ormeşən, Oruzman, Ovdərə, Port-port, Sadaxlı, Sallaxana, Sarıyal, Sarpdərə, Sarvan, Saulğar, Sənəkuçan, Sığnaq, Sürməli, Şeytanlı, Şindi, Şirək, Talavarı, Tapan, Təkəli, Tumanin, Turan, Tüllər, Ulaşlı, Üçox, Yağlıca, Yavıqlı, Yırğanca... yer adları [3, s. 13–14; 9, s. 146–226; 8, c. 2; 2, s. 15–34; 1, s. 74–79] eyni və oxşar biçimlərdə Borçalı mahalında da görülməkdədir. Borçalıdakı Ulaşlı kəndinin adı da Dədə Qorqud soraqlıdır. Oğuzların ov yeri Tumanin (Dumanis), yaylağı Ağlağan, Qazan Xanın yurd yeri Altuntaxt adları Borçalıda da var.

Türkiyə Qorqudşünası Məhərrəm Ərgin haqlı olaraq yazmışdır: "Bu gün Azeri sahasında Dede Korkut diline en yakın ağız Dede Korkut kitabındaki coğrafi sahanın ortasına yayılmış bulunan Terekeme–Karapapak ağzıdır" [5, #22–23, 2000, s. 7]. Başkeçidin Qarabulaq kəndindən olan Qorqudşünas Əzizxan Tanrıverdi "Dədə Qorqud" mətnində öz ifadəsini tapmış tarixi qrammatika identliyini daha çox Qərb ləhcəsində, öncəliklə də, Qazax–Borçalı şivəsində əsaslandıra bilmişdir [12, s. 4]. Bu, tarixi söz xəzinəsi baxımından daha qabarıqdır; belə ki, "Dədə Qorqud"dakı bir çox kəlmələr variativ ayrılıqlarıyla (axça, çözmək, qıyma-qıyma, yemşək, ilkindi, yəyax, qılıc...) Borçalı şivəsində saxlanar.

Ümumiyyətlə, "Dədə Qorqud"un məkan lokalizasiyası ilə bağlı ən sensasiyalı sürprizləri, bəzi araşdırıcıların fikrincə, yaxın gələcəkdə məhz Borçalı səmtdən gözləmək olar [1, s. 74]. "Dədə Qorqud"un Borçalı izlərinin belə önəmli cizgiləri həm milli ədəbi irsimizin bütünlüyünə dəlalət edər, həm də bu möhtəşəm yazılı abidəmizin coğrafiyası, tarixiliyi problemlərinə aydınlıq gətirilməsinə dəstək verər.

**QAYNAQLAR:**

1. Azərbaycan Araşdırmaları Jurnalı. Bakı, Xəzər Universitəsi, 2001, # 3–4.
2. Çobanlı M. M., Hüseynova-Taleh A. A. Borçalıda Dədə Qorqud İzləri. Bakı, Təhsil, 2000, 40 s.
3. Çobanov S. M. Mənim Əzəl, Gözəl Saraçlım. Sumqayıt 2001, 111 s.
4. Faxralı (Hüseynov) R. M. Oğuz Eli Faxralı (tarixi, bədii, etnoqrafik toplu). Bakı, Əbilov, Zeynalov və Oğulları, 2002, 432 s.
5. "Gürcüstan": Gürcüstan azərbaycanlılarının ictimai-siyasi, elmi-kütləvi, ədəbi-bədii qəzeti. Tbilisi, 2000, #22–23, s. 7.
6. Xəlilov P. İ. Kitabi-Dədə Qorqud – İntibah abidəsidir. Bakı, Gənclik, 1993, 176 s.
7. Kırzıoğlu M. F. Karapapaklar. Borçalı–Kazak Uruğunun Kür–Aras Boylarındaki 1800 Yılına Bir Bakış. Erzurum, Atatürk Üniversitesi, 1972, 36 s.
8. Kitabi-Dədə Qorqud Ensiklopediyası. Bakı, 2000, cild 1, 624 s; cild 2, 568 s.
9. Məmmədli H. M. Dədəm Qorqud Keçən Yerdi Bu Yerlər. Bakı, 1999, 330 s.
10. Məmmədli Ş. B. Alın Yazımız. Gürcüstan azərbaycanlılarının tarixi, mədəni irsi. Tbilisi, Dayaq–Samşoblo, 1997, 104 s.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

11. Rəhimova E. A. Ölməz Sənət İncisi. Bakı, Təbib, 2000, 238 s.
12. Tanrıverdi (Tanrıverdiyev) Ə. Kitabi-Dədə Qorqud və Qərb Ləhcəsi. Bakı, Təhsil, 2002, 172 s.
13. Tiflis Əyalətinin Müfəssəl Dəftəri (Borçalı və Qazax, 1728-ci il). (Giriş, tərcümə və qeydlərin müəllifi Ş. Mustafayev). Bakı, Pedaqogika, 2001, 256 s.
14. Вахушти. Географія Грузіи. Тифлисъ, 1904, 241 с.
15. Yeniaras O. Karapapak ve Terekemelerin Siyasi ve Kültür Tarihine Giriş. İstanbul, 1994, 200 s.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DASTANIMIZIN ADI HAQQINDA

***TOFIQ HACIYEV***

Əlimizdə 12 boyu olan və əslində daha çox boylarının fəsilləri, qolları olmuş olması qəbul edilən abidənin adı nədir – onu bilmirik.

«Kitabi-Dədəm Qorqud əla lisani-taifeyi oğuzan» adı ilə Drezden kitabxanasında qeydə alınmışdır. Yə'ni bu, onu kitabxanadakı kitablar siyahısına sal verdiyi şifrədir, koddur, nişandır ki, lazım gələndə onu tapmaq istəyən adam həmin işarə ilə gedib onun üstünə çıxsın. Heç olmasa, zahirən ona diqqət edək ki, bu qədər təmiz türkcə əsərin bu qədər qəliz, əcnəbi dildə – yarı farsca, yarı ərəbcə adı ola bilməz. Adsızlığın nəticəsidir ki, əsərin yarısı Vatikan kitabxanasında bu nişanla fond siyahısına salınmışdır: «Hekayəti-oğuznameyi-Qazan bəy və qeyri».

Bu abidənin mütləq adının mə'lum olmadığı bütün şərqşünaslara, xüsusilə qorqudşünaslara mə'lumdur. Buna görə də çox sərbəst şəkildə onu müxtəlif isimlərlə adlandırırlar. Dədə Qorqud dastanları, Dədə Qorqud dastanı, Kitabi-Dədə Qorqud, Kitabi-Dədə Qorqud dastanları, Dədə Qorqud boyları, Dədə Qorqud kitabı dastanları və s.

Görkəmli, çox mö'təbər qorqudşünasların özləri də vahid ad üstündə durmurlar. Əsərin bir adı olar, hər yerdə də onu göstərərlər, o adla çağırarlar. Məsələn, ustad qorqudşünas M.Ərgin əsəri nə müxtəlifliklərlə təqdim edir: 1958-ci il nəşrində «Dədəm Qorqud kitabı», 1991 və 1994-cü il nəşrlərində «Dədə Qorqud kitabı» adlarını işələdir; bundan əlavə: Dədə Qorqud çoğrafiyası, Dədə Qorqud hekayələri, Dədə Qorqud kitabının dastanı hekayələri, nüsxədə Oğuz hekayələri və s. şəkillərdə ifadələrdən istifadə edir. Orxan Şaiq «Dədəm Qorqud kitabı», Ə.Dəmirçizadə «Kitabi-Dədə Qorqud dastanları» kimi verirlər. Ümumiyyətlə, Azərbaycanda «Kitabi-Dədə Qorqud» forması ən'ənəvidir. Bir dəfə Ş.Cəmşidov bütöv qeydiyyat ünvanı ilə nəşr etdirib. Hətta Azərbaycanda ilk tənqidi mətnin müəllifi S.Əlizadə bu adlardan hansı birini olsa, işlətməyi məqbul sayır: «Dədə Qorqud boyları», «Dədə Qorqud oğuznamələri», «Dədə Qorqud dövrünün oğuznamələri».

Samət müəllimin təklif etdiyi birinci varianta uyğun bir ad işlətmək təsəvvür edirəm, bu, abidənin məzmununa uyğundur. Ancaq bu ad şifahi abidə təəssüratı doğurur.

Fakt odur ki, bu qəhrəmanlıq məcmuəsədir və onun da qəhrəmanı təbii ki, Dədə Qorqud deyil. Qəhrəmanlar, qorqudşünaslıqda, şərqşünaslıqda işlənən terminologiyadan çıxış etsək, boylarda və ya hekayətlərdədir. Hər boyun və ya hekayətin öz qəhrəmanı var ki, bu da sərlövhədə əks olunur. Demişik ki, bu boylar və hekayətlər sayca yüzü keçir. Eyni qəhrəman adlarının çəkilməsi, bütün boylarda Qalın Oğuz Elinin qorunması, möhkəmləndirilməsi kimi ümumi cəhətlərlə yanaşı, şübhəsiz, bütün bu boyları əlaqələndirən ən möhkəm bağ Dədə Qorquddur. Bu quruluşda əsər Şərq üçün doğma poetik faktdır. «Mahabharata», «Min bir gecə nağılları» və s. xatırlamaq kifayətdir. İndi dünyada dəbə düşən serial süjet təzahürü Şərqdə, o cümlədən türkün bədii yaradıcılığında, dastan quruculuğunda tarixin, dünya sivilizasiyasının çox dərinliyinə gedir.

Bütün dünya e'tiraf edir ki, türkün yazılı şəkildə gələn ilk abidəsi, yə'ni daha ilkin yazıya alınmış şəkildə müasir mədəniyyətə çatan eposu «Dədə Qorqud kitabı»dır. Yə'ni burada söhbət yazıya alınmış nüsxədən gedir. Burada əsas olan şey kitablıqdır. Bu anlayış bizdə tarixən üç şəkildə ifadə olunub: ərəbcə *kitab* və *divan* sözlərindən, farsca *namə* sözündən. Bizdə ən çox *namə* işlədilib: *Oğuznamə*, *Səlcuqnamə, Tutinamə, Sələbnamə* və s. Bu istiqamətdə «Dədə Qorqud kitabı» «Qorqudnamə» kimi də yazıya alına bilərdi və həmin bugünkü məzmununda qavranardı. Ancaq *kitab* və *divan* ərəb sözləri ərəbcənin elm dili kimi şərqdəki mə'lum avtoritetinə görə daha mö'təbər olmuşdur. Və «-namə»lərdən daha əvvəl işlənib. Sonralar xilafətin tədricən zəifləməsi «-namə»ni dəbə mindirmişdir. Bu, özü də özlüyündə bir faktdır, deyək ki, bizim Dədə Qorqudumuz daha səlahiyyətli elm dövründə *kitab* olmuşdur.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İki şeyi demək istəyirəm. 1. Bu əsərin adı şərtidir və hamı Drezdendə qeydə alınmış geniş təsvirdən ilk sözləri əsas götürür: «Kitabi-Dədə Qorqud»… (əslində bu sözlərdən sonra üç nöqtə qoymaq elmi baxımdan daha çox dəqiqlik olardı). Burada ad üçün əsas Dədə Qorquddur və «kitab» sözü tərcümə olunur – rucsa «kniqa…», ingiliscə «the book…» və təbii ki, türkcədə də türkcənin qrammatik quruluşu çərçivəsində kitab sözü işlənməlidir. Təəccüblü budur ki, türkiyəli qorqudşünaslar məhz tələb olunan şəkildə «Dədə Qorqud kitabı» yazdıqları halda, bizimkilər «Kitabi-Dədə Qorqud» yazıblar. Niyə? Bilmirəm. Ya gərək Ş.Cəmşidov kimi tam qeydiyyat adı ilə verəsən, ya gərək «Kitabi-Dədə Qorqud…» şəklində yazasan, ya da gərək türk qrammatikasını ilə «Dədə Qorqud kitab»ı işlədəsən.

2. «Kitabi-Dədə Qorqud» dastanları və ya «Dədə Qorqud kitabı dastanları» deyilməz, bu, qəti yanlışdır: kitab kitabdır, dastan da dastandır. Yə'ni əslində bu əsər dastandır, yaxud dastanlardır. Ancaq əlimizə gəlib çatan kitabdır. Dedik ki, Oğuznamə qəlibi ilə buna Qorqudnamə demək olar. Bu halda əgər *Oğuznamə dastanı, Qorqudnamə dastanı* deyilərsə, «Dədə Qorqud kitabı» dastanı da deyək. Abidəmizə dırnaqsız şəkildə Dədə Qorqud dastanı // dastanları (Ancaq bu iki addan «Dədə qorqud dastanları» daha məntiqlidir, çünki boylardan hər biri bir dastan hüququndadır), Dədə Qorqud boyları demək olar. Əlimizdə olan yazılı abidəyə ixtisarla dırnaqda «Dədə Qorqud» deyilməz, ancaq təkcə dırnaqda «Kitab» demək tam elmi ifadə tərzidir. «Kitab»ımız da demək olar və dırnağı başlayıb ismin bütün hallarında işlətmək olar. Çünki bizim abidəmiz kitabdır, cildlənmiş yazılı səhifələrdir.

Bütün bu deyiliş və yazılış müxtəliflikləri ilə yanaşı, abidənin bir vahid adı təsbit olunmalı, rəsmi məqamlarda – kitab halında nəşrin üstündə, ədəbiyyatşünaslıq tədqiqatlarında, elmi mənbələrdə əsər bir adla tanınmalıdır. Abidənin üstündə onun adında türkcə qrammatika görünməli və oxunmalıdır.

Özü ən təmiz türkcəmizdə olan, lüğəti, qrammatikası, bütöv təhkiyəsi saf türkcə olan abidəmizin adı niyə türkcə olmasın? Anarın tə'yinatı ilə desək, «Ana kitabımızın adı niyə anna dilimizdə olmasın? Dilimizin tarixi qədər qədim olan, ən qədim türk şe'r forması ilə düzülüb-qoşulmuş dastanımızın adı nədən başqa dildə söylənsin? Ən doğma kitabımızı niyə özgə dilin qrammatikası ilə ifadə edək? Biz ulu Ata Qorqudumuzu, ondan da qədim Dədə Qorqudumuzu, bir az da səmimi desək, Atamız Qorqudu, Dədəmiz Qorqudu nədən yabançı qrammatikaya salaq, niyə türkün Oğuzun qəhrəmanlığına özgə adı verək? «Koroğlu» kimi elə sadəcə «Dədə Qorqud» deyə bilərik, ancaq kitab halında gəldiyi, yazılı olduğu üçün «kitab» sözü olmalıdır. Məhz «kitab» olduğuna görə biz yazılı ədəbiyyatımızın «ədəbi» dilimizin tarixini XIII əsrdən VII əsrə, tarixin altı əsr dərinliyinə keçirmişik.

Dastanımızı, Ana kitabımızı belə tanımalı və belə yazmalıyıq: «Dədə Qorqud kitabı». AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun altı cildlik Ədəbiyyat tarixinin birinci cildində dastanımızın adı məhz belə əks olunmuşdur: «Dədə Qorqud kitabı».

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## AŞIQ QƏRIB DASTANININ TƏDQIQ TARIXINƏ BIR NƏZƏR
## ("AYB" materialları əsasında)

***ÜLKƏR ƏLIYEVA***

"Azərbaycan Yurd Bilgisi" səhifələrində geniş tədqiq olunan məhəbbət dastan-larından biri də "Aşıq Qərib"dir. Bu dastan təkcə Azərbaycanda deyil, Qafqazın və Orta Asiyanın bir çox başqa xalqları içərisində də geniş yayıl-mış-dır. Dastanın Orta Asiyada türkmən, özbək, uyğur, qaraqalpaq, Qafqazda isə Azərbaycan, gürcü və s. milli variantları vardır. "Aşıq Qərib" dastanı Krımda karaimlər və Şimali Qafqazda kabardinlər tərəfindən də yazıya alınmışdır. Cənubi Azərbaycanda və Türkiyədə də geniş şəkildə yayıldığı məlumdur.

Azərbaycanda "Aşıq Qərib"in ancaq beş variantı yazıya alınmışdır. Bunlardan birincisi hələ keçən əsrdə Kelviya gimnaziyasının müəllimi M.Mah-mudbəyov tərəfindən Şamaxının Tircan kəndində Aşıq Orucdan yazılıb SMOMPK-in 13-cü cildində çap edilmişdir. Bu variantın qısa məzmunu "Şamaxı qəzasından yazılmış sevimli aşıq nəğməsinin sərbəst təbdili" sərlövhəsi ilə "Kavkaz" qəzetinin 1911-ci il 7-ci nömrəsində də çap olunmuşdur

Qeyd etməliyik ki, XIX əsrdə "Aşıq Qərib" Şərqdə ən populyar dastanlardan olmuşdur. Hətta böyük rus şairi Lermontov da həmin dövrdə Qafqazda sürgündə olarkən bu dastan üzərində qələmini sınamışdır. Tədqiqatçı S.Yaqu-bova bu dastanın "Türkiyə biblioqrafiyası"nda 11 yerdə adı çəkildiyini və üç xüsusi nəşrini qeyd etmişdir. Bunlardan "Aşıq Qərib hekayəti" adlanan birinci variant 1851-ci ildə, "Hekayəti-Aşıq-Qarib" isə 1880-ci ildə İstanbulda çapdan çıxmışdır. "Hakiki Aşik Garip" adı ilə Adanada nəşr olunan üçüncü variant latın əlifbası ilə buraxılmışdır.

Usanmaq bilməyən tədqiqatçı Ə.Cəfəroğlu bu nəşrləri olduqca kiçik populyar və məsuliyyətsiz yazılar adlandıraraq "Aşıq Qərib"in Türkiyədə çox zəif araşdırılmasından gileylənirdi. Elə bu səbəbdən professor dastan üzərində apardığı kiçik tədqiqat işi ilə bərabər yuxarıda qeyd etdiyimiz M.Mahmudbəyov variantını kiçik ixtisarlarla dərgidə çap etdirmişdir.

Ə.Cəfəroğlu bu nəşrdə əvvəlcə öz münasibətini bildirmişdir. "Lehce hususiyyet-lerine, burada küçük bir itina bile gösterilmediyi gibi, Aşıq Qaribin kendisi hakkında da aşıklar ağzında dolaşan menkebevi hikayeler nazari dikkata alınmamışdır". "Aşıq Qərib" dastanına yaxından bələd olduğunu bildirən Ə. Cəfəroğlu daha sonra yazır:

"Mamafih, aşıka ait şerlər arasında da bazı nakıs malumatlar verilməsinə çalışmışsa da, fakat, mevzula yakından aşna olmuyanlar Mahmudbekofun neler söylemek istediyini çox zorlukla anlıya bilerler. Biz, burada, mezkur Azeri metnini lehcesi ile yenidən neşrederken, kabil olduğu kadar mövzunun izahına ehemiyyet verdik ve küçük bir transkripsionla metni aynen aldık. İbride elde edilecek yeni rivayetlerin tamamlanmasında bu metnin pek büyük hizmeti olacağına, şuphesiz yokdur. Ayrıca Azeri lehcesi tetkiki ve luğatcesi için de burada ipiyce mevat vardır".

Ə.Cəfəroğlu Azərbaycan ədəbiyyatı ilə əlaqədar olan hər nə varsa və onun nümunələrinə heç vaxt biganə qalmamış. Rast gəldiyi naqislikləri elmi əsaslarla aradan qaldırmışdır. M.Mahmudbəyovun "Aşıq Qərib"in müəyyən qüsurlarını qeyd etsə də, mətnin gələcək tədqiqatçılar üçün dəyərli örnək olacağına inanır. Mətni redaktə etməyib səhifənin sonunda əski ibarələrin, kəlmələrin izahını verib.

Qeyd etməliyik ki, dastanın yaranması ilə bağlı bir neçə fərqli araşdırmalar mövcuddur ki, bunlardan prof. Ə.Cəfəroğlu və prof. M.H.Təhmasib fikirləri üzərində dayanmağa bizcə lüzum vardır. Prof. Ə.Cəfəroğlu "Aşıq Qərib"i "Koroğlu" ilə eyniləşdirərək yazırdı: "Zengin bir halk destanları edebiyyatına malik Azerbaycan Aşıklarının-Aşıxlarının, hala bugüne kadar yaşattıkları "Koroğlu" destanından sonra, en mühimi "Aşık Qarib" teşkil etmekdedir. Menşeni Azerbaycan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

motifleri itibarile üç, hemcivar ve kardeş Azerbaycan, Gürcüstan ve Türkiye halk edebiyyatında yer bulmuş ve üç muhtelif kavim halk rivaetleri ile zengin, tetkike deger mevzu mahiyyetini almışdır. Eger yanılmıyorsam "… her iki destanın kahramanları, Azerbaycanı terkle sevgililerine Gürcüstanın paytaxtı Tifliste kavuşuyorlar, ve aile hayatını kurabilmek için maddi qidalarının Rum elinde yani Türkiyede buluyorlar. Hele, Tebriz, Tiflis ve Erzurum yahut Halep gibi şehirlerin methi, buralarının, üç kavminin tarihinde oynadıkları rolü göstermesi itibari ile çok şayanı dikkatdir. Bu yüzden, ancak üç, muhtelif ülkeler rivayetleri mukayesesi, Azerbaycandan doğma, bu Milli Türk halk edebiyyatı nevinin tamamlanmasını temin edebilecekdir"

Lakin M.Təhmasib "Aşıq Qərib"i "Koroğlu" ilə deyil, "Kitabi-Dədə Qorqud"la daha dəqiq desək, dastanın "Bamsı Beyrək" boyu ilə eyniləşdirir. Bunun üçün müəllif fikrini əsaslandırmaq üçün bir neçə dəyərli müqayisə aparmışdır. Məsələn, dastan dəqiq mənada "ər arvadının toyunda" səpkisində deyil, "Bamsı Beyrək"də olduğu kimi, orijinal səpkidə, yəni sevgilinin öz sevgilisinin, aşiqin öz məşuqəsinin toyuna gəlib çatması şəklində işlənmişdir. Daha dəqiq deyilsə, boyda oxlu öz oxlusunun, dastanda da buta öz butasının toyuna gəlib çatır.

Bu əsas məsələdən başqa boy və dastanın süjet təfərrüatında da əsaslı yaxınlıqlar vardır ki, başlıcaları aşağıdakılardır:

a) istər boyda, istərsə də dastanda oğlanla qız birinci dəfə qızın yaşadığı evin yanında, özü də əksərən qızın kənizinin vastəsi ilə görüşürlər;

b) Bamsı bahadırlıq müsabiqəsində qalib çıxdığından sonra öz üzüyünü Banıçiçəyin barmağına taxır, Qərib də Şahsənəmdən ayrılıb səfərə getdiyi zaman öz üzüyünü ona verib deyir:

Dön bəri, dön bəri, bir üzün görüm.
Ala gözlərinin qurbanı olum.
Bircə nişanəm var, qoy sənə verim,
Getdim, yar, əyləndim, bəlkə gəlmədim.

v) "Bamsı Beyrək"də Yalançıoğlu Bamsının, "Aşıq Qərib"də isə Güloğlan - Kaloğlan Qəribin köynəyini qana batırıb, yalan xəbər gətirir;

q) buna baxmayaraq, nə Sənəm Qəribin, nə də Banıçiçək Bamsının ata-anası ilə əlaqəni kəsmir. Bamsı gəldikdən sonra Banuçiçək hətta at minib qaynatasına, qaynanasına muştuluğa da gedir;

ğ) Bamsının atasının da, anasının da gözləri ağlamaqdan kor olur. Əldəki əsas varianta görə, Soltana Məmmədovadan yazılmış variantda Qəribin atası da sağdır, onun da gözləri kor olmuşdur;

d) hər iki dastanda qəhrəmanları tapıb vəziyyəti xəbər vermək üçün bazirganların köməyindən istifadə olunur;

e) Bamsının arğışlarla, Qəribin isə bazirganla deyişməsi də bir-birinə son dərəcə bənzəyir;

ə) Bamsı qardaşından "Yey" bildiyi atı ilə vətənə gəlir, Qəribi isə Xızır öz tərkində gətirir.

j) Bamsı vətənə çatdıqda ilk dəfə "Yolunun üstündə daş yığan" çobanlara rast gəlir. Nə üçün belə etdiklərini soruşduqda cavab alır ki, Bamsı itkin düşüb, onun nişanlısı indi Yalançıoğluna ərə gedir, daşı yığırlar ki, gəlin gəlib keçəndə onun daşa basıb öldürsünlər, başqalarına ibrət olsun. "Aşıq Qərib"in də gürcü variantında Qərib Tiflisə girəndə hələ heç kəsi görməmişdən körpü düzəldənlərə rast gəlir, Qəribin sualına cavab olaraq onlarda körpünü Xurşud bəyin əmri ilə düzəltdiklərini deyirlər. Bəlkə elə bu da ilk variantda gəlini suya salmaq məqsədi daşıyırmış, sonradan bu şəkildə "təshih" edilmişdir. Lakin belə olmasa da, hər halda, hər iki dastanda da bu hazırlıq toy ilə bağlıdır.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

z) Bamsı paltarını Dəli Ozanla dəyişdirdikdən sonra evlərinə gəlir. İlk əvvəl bulaq başında ağlayan bacısını görür. “Aşıq Qərib”də də eyni ilə belədir. Özü də dastanların heç birində bacılar qardaşı tanıya bilmirlər;

i) hər iki qəhrəman öz sevgilisinin toy məclisinə gəlir, hər iki dastanda da Ozan kimi, aşıq kimi qarşılanırlar;

ı) Bamsı saz çalıb, qadınları oynadır. Bu, “Aşıq Qərib”də yoxdur, səbəbi də məlumdur. Lakin görünür, daha qabaqkı variantlarda bu da var imiş. İndi ondan ancaq qoşmalarda əlamətlər qalmışdır. Misal üçün, Qərib deyir:

Sərim qurban qamətinə, boyuna,
Bir saz tutdum, xublar girdi oyuna,
Aşıq Qərib, Şahsənəmin toyuna,
Nə əcəb vaxtına düşdüm də gəldim.

j) “Bamsı Beyrək”də axırı ki, Banuçiçək oynamağa məcbur olur. Bamsı öz üzüyünün onun barmağında olub - olmadığını, yəni vəfalımı, vəfasızmı olduğunu yoxlamaq üçün xüsusi bir şeirlə ona sataşır. Banuçiçək də ona cavab verir. Bu səhnə “Aşıq Qərib”də də vardır və eyni ilə belədir. Aydındır ki, vəziyyətə görə bu deyişmələr bir-birinə bənzəməlidirlər. Lakin, bənzərlik o dərəcədədir ki, hətta hər iki dastanda “evin dalındakı təpələrdən” danışılır ;

k) məsələ aydınlaşdıqdan sonra Bamsı Yalaçıoğlunu, Qərib də Güloğlan-Kaloğlanı bağışlayır;

g) hər iki dastanda kor olmuş valideynin gözləri açılır. Dədə Qorqud bunu Bamsının barmağının qanı ilə eləyir ki, bu qədim, hətta ibtidai inamlar, etiqadlarla bağlıdır. “Aşıq Qərib”in “müəllif”i isə qatı müsəlman olduğuna görə bu qədim etiqada “cahillik dövrünün aldanışları” kimi baxmış, onu aşığın hamisi olan Xizrin atının ayağı altından götürülmüş torpaqla əvəz etmişdir;

l) bir-birinə çox bənzəyən, daha dəqiq deyilsə, bir-birinin qədim və yeni mərhələsi olan ünsürlərdən biri də budur ki, Beyrəyin yayını özündən başqa heç kəs gərib, oxunu heç kəs ata bilmir. Qəribin də sazı özündən başqa heç kəsin əlində çalınmayır;

m) bütün məsələlər qurtardıqdan sonra Bamsı öz bacılarını, Qərib də öz yeganə bacısını ərə verir, toylar da bir gündə olur;

n) hər iki dastanda hətta göy rəng matəm-yas rəngi hesab edilir ki, bu da qədim adətlərlə əlaqədardır:

Al duvağım qara olsun,
Çək əlin məşşatə, bəzəmə məni!
İndən belə ölüm mənə yey olsun,
Çək əlin məşşatə, bəzəmə məni!

Belə bənzərliklərin sayını kifayət qədər artırmaq olar. Lakin, bizcə, elə bu nümunələrdən də aydın şəkildə görünür ki, “Aşıq Qərib-Şahsənəm” özündən daha qədim olan “Bamsı-Beyrək boyu”ndan bilavasitə istifadə yolu ilə yaranmış yeni tipli məhəbbət dastanıdır.

Dastanın müəllifi və yaranma tarixini araşdıran H.Araslı 1956-cı ildə çap etdirdiyi “XVII-XVIII əsr Azərbaycan ədəbiyyatı tarixi” kitabında “Aşıq Qərib”ə həsr etdiyi məqaləsində yazmışdır: “Aşıq Qərib” dastanı Təbrizli Qərib təxəllüslü şairin (aşığın) qoşmaları əsasında düzəlsə də, bu şerlər ağızlarda dolaşdığından çox dəyişdirilib dastanın ümumi ahənginə uyğun bir şəkil almışdır. Burada Qəribdən çox başqa naməlum aşıqların əsərlərindən, qoşmalarından da istifadə edilmişdir”

Aşıq Qəribin hələ də Təbrizli və ya Tiflisli olduğu mübahisə mövzusu olaraq qalır. Onu əlavə edək ki, “Aşıq Qərib”in ən geniş və şeirlərlə zəngin variantını rəhmətlik Borçalı Aşıq Kamandar Əfəndiyev ifa edirdi. Aşığın ifası lentə alınsa da çap olunmayıb. Bu variant çap olunsaydı, tətqiqatçılar üçün müəyyən məsələlərə aydınlıq gətirərdi.

Həmin fikrə “Aşıq Qərib”in tətqiqatçılarından S.Yaqubova

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Göründüyü kimi, məşhur “Aşıq Qərib” dastanının araşdırıcıları arasında prof. Ə.Cəfəroğlu baş redaktoru olduğu “Azərbaycan Yurd Bilgisi”nin xidmətləri az olmamışdır.

Lakin qeyd etməliyik ki, «Aşıq Qərib» dastanının tədqiqatçılarından heç biri dastanın Gəncə variantınının adını çəkməmişdir. Məlum olduğu kimi professor Ə.Cəfəroğlu əslən Gəncəli idi və o mühacirət edərkən Gəncədən topladığı bir çox folklor nümunələrini özü ilə aparmışdı. «Aşıq Qərib» dastanının bir dastan kimi az yayılmasından gileylənən professorun və variantdan xəbərsiz olması bizdə təəcüb doğurmaya bilmir. Halbuki bu variant Azərbaycanda «Aşıq Qərib» dastanının 1912-ci ildə nəşr edilən ilk nümunəsidir.

Sözügedən dastan uzun yüzilliklər boyunca Azərbaycanın elm, mədəniyyət və ədəbiyyat mərkəzlərindən olan Gəncədə Əbilov və Haqverdiyevin mətbəəsində nəşr edilmişdir. Kitabın üz qabığındakı qeyddən dastanın Ə.H.Ə tərəfindən nəşrə hazırlandığını öyrənirik.Dastanın yalnız kimin dilindən, ifasından yazıya alınması haqqında burada hər hansı bir bilginin olmaması təəssüf doğurur.

Folklorumuzun, dastan yaradıcılığımızın əvəzsiz örnəyinin Gəncə nəşri şifahi xalq ədəbiyyatımızın təbliği, onun unudulmaqdan qorunması baxımından böyük önəm daşımaqdadır. Digər tərəfdən də hər hansı bir ideoloji, siyasi təsirlərdən uzaq və «təmiz» olan bu nəşrin bir önəmi də ondan ibarətdir ki, o bizə onu uzun zaman kəsimindən sonra bu dastanın fərqli iqtisadi, siyasi və mədəni şəraitlərdə həyata keçirilən nəşrləri ilə müqayisədə burada mətn, poetik struktur və obrazlar sistemi səviyyəsində nə kimi dəyişikliklərin baş verdiyini izləmək imkanı verir. Dastanın Gəncə nəşri ilə tanışlıq onun naşirlərin hər hansı bir müdaxiləsinə uğramadığını göstərməkdədir.

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# OZAN YARADICILIĞINDA «DƏDƏ QORQUD» SÜJETININ FORMALAŞMASINA DAIR

***ÜLKƏR NƏBIYEVA***

«Dədə Qorqud» süjetinin ozan yaradıcılığında tarixi formalaşması müəyyən özünəməxsusluqlarla əlamətdar olmuşdur.

Qədim türk dastanları özünün inkişaf mərhələsində türk eposunun yaranması üçün zəruri, ilkin zəminin əsasını qoymuşdur. Birincisi, qədim türk dastançılığı epik üslubun peşəkar təhkiyəçiliyini yaratdı. Bu isə mifoloji düşüncə ənənələrindən uzaqlaşmağa əsaslı təkan oldu və qədim türk dastançılığı öz yerini yeni eposçuluq ənənəsinə verdi.

İkincisi, bu ənənə müəyyən zaman kəsimində yeni ifaçı sənətkar tipi olan ozanı meydana çıxardı, onu oğuz cəmiyyətinin peşəkar ifaçısı zirvəsinə yüksəldib formalaşdırdı.

Üçüncüsü, qədim türk dastanları oğuz eposunun forma, mövzu və məzmun çevrəsini müəyyənləşdirdi və sonrakı mərhələdə həmin struktur sxemi ozan yaradıcılığının başlıca repertuar silsiləsini yaratdı. Ozan yaradıcılığı bu mərhələdə təkcə peşəkar ozan ifaçılığının formalaşması ilə şərtlənmədi, o, eyni zamanda ifa mədəniyyətini yeni mərhələyə çatdırıb, oğuz eposunu formalaşdırdı, onu epik düşüncənin zirvəsinə ucaltdı.

Xalqın yaddaşında yaşayan oğuz eposu məhdud çərçivədə qalmadı. Ozanlar, türk dastançılığının ən mükəmməl süjetlərini rekonstruksiya etdi, onları yenidən işləyərək repertuara daxil etdi, bununla da epos yaradıcılığının ilkin formalaşma mərhələsi başladı. Ova çıxmaq, ovda qəzaya rast gəlmək, ölüb-dirilmək, şərtlə qız almaq, köç zamanı itki vermək, itkin düşən uşağın vəhşi heyvanlar tərəfindən böyüdülməsi və s. kimi arxaik süjetlərin dastanlaşma prosesi repertuara gəldi.

M.H.Təhmasibin göstərdiyi kimi, bu dövrdə Şərq və Qərb süjetlərindən qarşılıqlı bəhrələnmə, dünya süjetlərinin türk eposuna transiləsi də özünü göstərirdi (5, s.217). Eposun yaranmasının birinci dövründə obrazlaşan Təkgöz-Təpəgöz- Kəlləgözün mənşəyində nə qədər Qafqaz koloriti var idisə, Polifem, Siklop və qərb Təkközlərində qarşılıqlı təsirin izləri bir o qədər güclü idi (4, s.49).

Cəmiyyətin həyatında baş verən mühüm ictimai-siyasi faktorlar, qarşılıqlı təmaslar, Şərq və Qərb mədəniyyətlərinin çarpazlaşmaları bu mərhələdə oğuz eposunu zənginləşdirdi.

Amma ozan repertuarı bütövlükdə bu təsir altına düşmədi, əksinə, həmin qaynaqlardan bəhrələnməklə daha qüdrətli ifa mədəniyyətinə yiyələndi.

Boyların birinci dövr yaradıcılıq mərhələsində oğuz məişəti, qədim dövr oğuz həyatının, adət-ənənələri yaddaşda daha geniş əksini tapdı. Bəzən burada daha arxaik təsəvvürlərin, - ərənin döyüş meydanında yuxuya getməsi, oxlanmış qəhrəmanın yarasına dağ çiçəyi ilə ana südündən düzəldilmiş məlhəm qoymaqla insanın həyata qaytarılması və s. kimi motivlər önə çıxdı.

Eposun ikinci dövr yaradıcılıq nümunələrində isə islamdan əvvəlki təsəvvürlər əksini tapdı. Suya, ağaca, oda tapınma, qurda, quşa xitab və s. tanrıçılıq görüşləri qorunub saxlandı.Həm də bu dəyərlər süjet daxilində yox, ondan kənar məqamlarda göründü. Məsələn, su ilə qəhrəmanın üz-üzə gəlməsində, qurdla rastlaşmasında və s. özünü göstərdi (2, s.49-51). Bəzən bu nümunələrin üzərindən sükutla keçilsə də, yaxud onları islami etiqad və rituallarla bağlamağa cəhdlər göstərilsə də, Dədə Qorqud hekayətlərində tanrıçılığın əlamətləri diqqətdən yayınmır (4, s.71). Hətta bəzi hallarda Tenqri təkallahlığının islam təkallahlığı ilə çarpazlaşdırılması fonunda ifrata vararaq onları eyniləşdirmə və yaxınlaşdırma meylləri nəzərə çarpır.

Oğuz hekayətlərinin ozan repertuarına gəlməsi islamdan xeyli əvvəlki dövrlə bağlı olduğundan qədim dünyanın rəngarəng dünyagörüşləri oğuz eposundan kənarda qalmamışdır. Əski dünyanın istər simvolik, istər totemist, istərsə də animist baxışları epik yaddaşda olduğu şəkildə qədim türk eposunda, eləcə də onun xələfi olan oğuz eposunda özünü qoruyub saxlamışdır. Lakin bu bir həqiqətdir ki, yeddi yüz ilə qədər müddətdə ozan repertuarında yaşayan Dədə Qorqud özü də yeniləşmələrdən, təkrar işlənmələrdən v

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

qalmamışdır. Oğuz bəyləri, onların həyatı, dünyagörüşü, adət-ənənələri, yaşadığı coğrafi mühit dəyişdikcə eposda kı hadislər də dəyişib yeniləşmişdir. Bu proses ərəb istilasından sonrakı mərhələdə daha güclü şəkildə davam etmişdir. İslam dəyərləri oğuzlar içərisində yayıldıqca, ərəb istilacıları peşəkar ozan ifaçılığını milli çıxarmağa çalışdıqca ozanların oğuz hekayətlərini islamlaşdırmaq meylləri də güclənmişdir. Dədə Qorqud boylarının islam dəyərlərini qəbul etməsi, süjetdə islam dəyərlərinin əksi heç də kortəbii proses olmamışdır. Bu, oğuz elinin öz daxilindən gəlmiş, islamı qəbul edən oğuzların istəyi ilə milli repertuarda özünü əks etdirə bilmişdir (4, s. 68-74).

İlk öncə, bizcə Dədə Qorqud boylarının islami dəyərlərlə qaynayıb qarışması süjetin ozan repertuarında formalaşıb başa çatmasından sonra, yəni XI əsrdən başlamışdır. Bu dövrdə artıq Dədə Qorqudun adı ilə bağlı silsilə oğuznamələr mükəmməl repertuar həyatı yaşamaqda idi. Onların sayı isə qeyri-müəyyən idi.

Bu dövrdə artıq Dədə Qorqud hekayətlərində islami dəyərlər qəbul etmənin ərəfəsində, istilaçı ərəblərin təzyiqi ilə repertuar dəyişmələrin başlanğıc çağı idi.Bu həm də yeni improvizatorçu sənətkarların yeni ifa repertuarı yaratdığı ərəfə idi.Bizcə bu proses iki mərhələdə həyata keçirilir.

Birinci mərhələ ozan repertuarında Dədə Qorqud üslubunu yaşadan ozanların yaradıcılığı ilə şərtlənirdi. İkinci mərhələ isə süjetin yazıya köçürülməsi işinə başlayan və mətni yazıya alan katiblərin fəaliyyəti ilə bağlıdır (3, s. 64-81).

Birinci qrupa daxil olanlar ilkin süjet sxemini (bütün erkən dünyagörüşlər, tanrıçılıq və totemist baxışlar və s.) böyük mühafizəkarlıqla qoruyub saxlayanlar idi. İkinci qrup ozanlar isə ifa mətninə islami dəyərləri, Allah və peyğəmbərlə bağlı deyimləri və tərifləri əlavə edənlər idi. Kitabi-Dədə Qorqud» mətni göstərir ki, eposda islami dəyərlərin əksinin bu mərhələsi heç də ağrısız keçməmişdir. Həmin prosesdə üç mühüm amil fəaliyyətdə olmuşdur. Birincisi, ərəb istilasından sonra Dədə Qorqud epik düşüncəsinin yayıldığı ərazidə xilafət zorakılığı idi. Bu mərhələdə ozan ifaçılığı institutu bir tərəfdən həm də yuxarıda deyildiyi kimi, özü daxili yeniləşmə sorağında idi (2, s. 65). Digər tərəfdən zorakılıqlara müəyyən dövr ərzində davam gətirmək və ənənəni qorumaq üçün ozanların öz ifa repertuarında korrektə etmək təşəbbüsləri ilə ələqədar idi.

Ozanlar cəmiyyətdə xilafət boyunduruğunun zorakılıqlarını gördükcə epik repertuarda ərəblərin baş ideoloji xəttinə rəğbət göstərmək, islam düşüncəsini eposda bərqərar etmək yolunu seçdilər.

Bu prosesdə mühafizəkarlarla yenilikçilər arasındakı qarşıdurma sonuncuların qələbəsi ilə yekunlaşdı. Mühafizəkarlar öz mövqelərindən geri çəkilməli oldular. Yenilikçi ozanlar isə islama rəğbətlə bağlı görüşlərini epik repertuara gətirdilər.

Epik repertuardakı rekonstruksiyaya təsir göstərən üçüncü amil isə oğuzların ümumilikdə islami dəyərlərə artan sürətlə yaxınlaşması, öz əski dünyagörüş və baxışlarındakı təkallahlılıq – tanrıçılıq görüşlərini yeni islami dəyərlərlə çarpazlaşdırmaq istəklərinin reallaşması üçün münbit ictimai-siyasi şəraitin yaranması ilə əlaqədar idi. Türk epik düşüncəsində tanrıçılıq qabaqcıl günyagörüş idi, tək Tenqriyə sitayiş türkləri islamın Allahın təkliyi sitayişinə yaxınlaşdırdı, onları bu etiqadın ilk tərəfdarlarından birinə çevirdi.

Mətn üzərində aparılan müşahidələr göstərir ki, süjetin mətnaltı məzmu-nuna, ümumi ruhuna və qayəsinə islami dəyərlərin Allah və Məhəmməd peyğəmbər əleyhissəlam etiqadının daxil edilməsi qismən sonrakı dövrlərə məxsus yaradıcılığın nəticəsi olmuşdur.

Bu proses eposun yazıya alınma dövründə müxtəlif katiblər tərəfindən həyata keçirilmişdir. Amma katiblərin düzəlişləri o qədər geniş olmayıb ayrı-ayrı söz, ifadə və müxtəsər mətn əlavələrindən ibarət olmuşdur .

Bu gün eposun yazıya köçürülmə dövrü ətrafında fikir ayrılıqları mövcuddur.

Drezden əlyazmasının daha əvvəlki əsrlərdə yazıya alınma ehtimalları çoxdur. Onların müəyyən qismi ilk mətnin XI əsrdə yazıya alındığını göstərirlər. Belə mülahizələrdən yalnız biri üzərində dayanmağı vacib hesab edirik. Bu Ş.Cəmşidovun müşahic

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

yazır: «…Abidənin sonunda «bitdi» mənasına gələn «təmmət» sözündən sonra, adətən sonluqda əlyazmanın yazıldığı tarix göstərilən yerdə, vərəqin aşağısına doğru uzanan sivri buçaq içində, bir-birinin altında sıralanan üç hərf – rəqəm yazılmışdır. Bunu cəsarətlə rəqəm oxumaq olar. Çünki əlyazmaların sonunda bu cür alt-alta rəqəmlə tarix qoyulması üsulu vaxtilə mövcud olmuşdur… Ərəb əlifbasında «ayn» hərfinə oxşayan bu rəqəmi aydın şəkildə 4 rəqəminin üç dəfə qısala-qısala yazılan şəkli kimi 444, yaxud 466 kimi oxumaq tamamilə mümkündhür. Biz 1985-ci ildə çap olunmuş doktorluq dissertasiyası avtoreferatında sonuncu variantı götürmüşdük. Lakin dərindən diqqət etdikdə birinci variant daha real görünür. 4 rəqəmi sivri bucaq üzrə aşağıya doğru kiçilə-kiçilə təkrarlanmışdır. Yuxarı hissə hamısında eynidir. İkinci birincidən, üçüncü ikincidən ancaq hündürlüyünə görə fərqlənir. Odur ki, abidənin ilk yazıya alınma tarixini birinci variantla hicri 444, miladın 1452-53-cü il tarixi olaraq qəbul edirik. Bu, abidənin XI əsrdə yazılması fikrini dəqiq surətdə təsdiqləyir…». Əlbəttə bu mülahizə təsdiqlənərsə qorqudşünaslıq tarixində mühüm bir açıqlama hesab edilə bilərdi. Lakin məsələ ilə bağlı mövcud olan digər ehtimallar onu hələ ki, təkzib etməkdədir. Belə ki, T.Hacıyevin, X.H.Koroğlunun və başqalarının fikirlərində fərqli mövqelər özünü göstərir.

Əlyazma nüsxələri içərisində Drezden mətni şübhəsiz ki, bizə gəlib çatmayan nüsxələrin birindən üzü köçürülmüşdür. Həmin tarix XIII əsrdən əvvəl ola bilməzdi. Drezden mətni oğuzlar içərisində islamlaşma prosesindən sonra eposun repertuardan düşməsi mərhələsində yazıya alına bilərdi. Bununla eposun peşəkar ifadakı şifahi həyatı sona çatmış, Kitabi-Dədə Qorqudun yazılı dövrü başlamışdır.

Eposun yazıya alınma tarixi ilə bağlı başqa bir faktı da xatırlatmaq vacibdir. Qorqudşünas X.H.Koroğlu yazır ki, abidənin, bizə gəlib çatan son əlyazma nüsxəsi «Kitabi-Dədəm Qorqud-alə- lisani- tayfeyi oğuzan»dır. Bu əlyazmanın 887-ci ildə (1482) Abdullah İbn Fərəc tərəfindən üzü köçürülməsi barədə X.H.Koroğlunun ehtimallarının bir daha dürüstləşdirilməsinə ehtiyac duyulur.

Qorqudşünaslıqda bu əlyazmanın Drezden kral kitabxanasına düşmə səbəbi və şəraiti də hələ müəmmalı şəkildə qalmaqdadır. Bununla bağlı X.H.Koroğlunun bir ehtimalını da nəzərə çatdırmaq istərdik. X.H.Koroğlu 1986-cı ildən «Yazıçı» nəşriyyatında ikinci müəlliflə nəşrə hazırladığı «Azərbaycan qəhrəmanlıq eposu» (rus dilində) monoqrafiyası üzərində işlərkən Azərbaycan nəşriyyatlarının birindən hər iki müəllif V.V.Bartoldun 1952-ci ildə Azərbaycanda rus dilində nəşr edilmiş mətnini yeni tərtib, redaktə və ön sözlə çapa hazılamaq təklifi almışdılar. X.H.Koroğlu bu nəşrə 25 səhifəlik geniş şərh yazmış və mətni əsaslı şəkildə redaktə etmişdi. İzahın birinci qeydində göstərir ki, «Əlyazmanın Drezden kral kitabxanasına düşməsinin maraqlı tarixi vardır. V.M. Jirmunskinin verdiyi məlumata görə üzərində şah xəzinəsinin möhürü olan əlyazma qızıl üzlüklü dörd «Azərbaycan nağılları» əlyazma cildləri ilə birlikdə əntiqfürüş Əhməd İbn Yəhya tərəfindən Azərbaycana səyahətə gələn Adam Oliariyə hədiyyə edilmişdir. Qızıl üzlüklü kitablara görə əlli qızıl pulu isə Həsən İbn Mahmud adlı tacir ödəmişdir.

Şah kitabxanasında qızıl üzlü nağıl cildlərinin olmasının və onların Azərbaycana gələn hörmətli adamlara hədiyyə edilməsi barədə akademik Ziya Bünyadov da məlumat vermişdir.

X.H.Koroğlu izahının ilk səhifələrində bu barədə yeni bir məqalənin çap ediləcəyini də qeyd etmişdir. Lakin təəssüf ki, eposun V.V.Bartold nəşrinin bu çapı sonradan yarımçıq qalmış, çapa hazırlanan əlyazma bu gün Bakı Dövlət Universitetinin Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının arxivində saxlansa da X.H.Koroğlunun əlyazmanın Drezden kitabxanasına düşməsi ilə bağlı məqalənin yazılıb-yazılmadığı, nəşr edilib-edilmədiyi hələ də naməlum qalmışdır. X.H.Koroğlunun M.F. Axundov adına kitabxanasına hədiyyə edilmiş arxivi hələ təsnif edilmədiyindən belə bir məqalənin əlyazmanın arxiv sənədləri içərisində olub –olmaması hələ müəyyən edilə bilməmişdir.

## ƏDƏBIYYAT

1. Cəmşidov Ş. «Kitabi-Dədəm Qorqud».Bakı, 1999
2. Kitabi-Dədə Qorqud. (Tərtib edəni S.Əlizadə, F.Zeynalov), Bakı,

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

3. Koroğlu X.Q., Nəbiyev A.M. Azerbaydjanskiy qeroiçeskiy gpos.Baku, 1986
4. Nəbiyev A. «Dədə Qorqud» həqiqətlərinin izi ilə, «Dədə Qorqud»-1300, BDU nəşri, Bakı, 1999
5. M.H.Təhmasib.Azərbaycan xalq dastanları (orta əsrlər), Bakı, 1972

**О формировании сюжета «Деде Коркуд» в озанском творчестве**

Формирование сюжета «Деде Коркуд» в озанском творчестве знаменателен специфическими особенностями. Древнетюркские дастаны определили форму, содержание и тему огузского эпоса и в дальнейшей стадии та же структурная схема образовала цикл главного репертуара озанского творчества.

**About formation of a plot "Dede Gorkud" in ozan creativity**

Formation of a plot "Dede Gorkud" in creativity it is significant specific features. The ancient Turkic epics have defined the form, the maintenance and a theme oghuz the epos and in the further stage the same block diagramme has formed a cycle of the main repertoire ozan creativity.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DOMRUL ADININ KÖKENİ VE DELİ DOMRUL BOYUNDA BAZI MOTİFLERİN KAYNAĞI ÜZERİNE

***VÜGAR SULTANZADE***

## *Domrul* adı

*Kitab-i Dede Korkut* destanlarının en ilgi çekici boylarından biri *Duḫa Koca oğlu Deli Domrul* boyudur. Kısaca *Deli Domrul* olarak adlandırılan bu boyda Hanlar Hanı Bayındır Han'dan ve Salur Kazan'dan söz edilmez. Bu yönüyle, "Kan Turalı" boyu hariç, *Kitab-i Dede Korkut*'taki bütün diğer boylardan ayrılmakta ve daha eski mitolojik köklere sahip olabileceğeini göstermektedir.

Boyun baş kahramanı Deli Domrul'dur. *Domrul* veya *Dumrul* olarak okunan kelimenin kökeniyle ilgili birkaç görüş ileri sürülmüştür. Bahaeddin Ögel (1995) tarafından ortaya atılan ve başka araştırmacıların (A. B. Ercilasun 1998: 15; S. Tezcan 2001: 234; vs.) da desteklediği bir görüşe göre, *Domrul/Dumrul* kelimesi *Toğrul/Tuğrul* ismiyle bağlıdır. Buna gerekçe olarak, Yazıcıoğlu *Selçukname*'sinde geçen ve vasıfları Deli Domrul'u andıran *Tokuş Koca oğlu Toğrul Sultan* ismi gösterilir.

Mireli Seyidov'un (1968: 204) ortaya attığı ikinci görüşe göre, *Domrul* kelimesi köken olarak Türkiye Türkçesindeki *tomruk* kelimesiyle bağlıdır. M. Seyidov, kelimenin 'sinirli', 'kabadayı' anlamlarına sahip olduğunu iddia etmiş ve bu sıfatları Deli Domrul'un karakterine ve faaliyetine uygun bulmuştur. Bazı araştırmacılar da (E. K. Amanoğlu 1999: 59, Ş. Nağıyeva 2003: 23) kelimenin gerçek anlamını merak etmeden bu görüşü kabul etmişler. Hâlbuki Türkiye Türkçesinde *tomruk* kelimesinin iddia edilen anlamı yoktur. Bu dilde söz konusu kelime, 'kesilmiş ağacın silindir biçimindeki gövdesi'; 'işlenmek veya biçilmek için hazırlanmış taş kütlesi' ve 'tomurcuk' anlamlarına sahiptir (TS 2005: 1989).

Prof. Dr. T. Hacıyev (1984), A. Acalov (1983) ve C. Beydili (2005: 179-180) gibi araştırmacılar *Domrul* kelimesinin kökenini Sümer tanrısı Dumuzi ile ilişkilendirmektedirler. Sümer mitinde Dumuzi altı aylık süreler boyunca kız kardeşi Geştinanna ile dönüşümlü olarak yer yüzüne gelir. Dumuzi'nin gelişi bir mitolojik semboldür ve tabiatın uyanışını, baharı, yazı simgeleştirmektedir. "Deli Domrul" boyunun mitolojik kökeni de buna bağlanmaktadır (bkz.: Acalov 1983). Yine buna bağlı olarak, *Domrul* kelimesinin kökeni – ve *Dumuzi* sözcüğünün de keza – genel olarak 'hayat kaynağı, nesil veren' anlamına sahip *DO(m)* unsuruna indirgenmekte ve bu bağlamda *Domrul* kelimesinin *Toğrul* (*<Toğ+urul = Doğ+urul*) ve *tomruk* (*<tom+uruk*), *tomurcuk* kelimeleriyle etimolojik bağı açıklanmaktadır (Hacıyev 1984: 130). Görüldüğü üzere, bu etimoloji aslında kelimenin kökeniyle ilgili öteki görüşleri de kapsamakta ve bu arada *Domrul* ile *tomruk* kelimeleri arasındaki ilişkiyi daha mantıklı şekilde izah etmektedir. Ayrıca, Prof. T. Hacıyev'in etimolojisi *Domrul* kelimesinin mitolojik kaynağına da ışık tutmaktadır.

Gerçekten de, *Kitab-i Dede Korkut'*taki "Deli Domrul" hikayesi ile bir Sümer destanı olan *İnanna ve Dumuzi* arasında aşaağıdaki inkar edilemez benzer motifler vardır:

1. *Ölüm meleği (ölüm iblisleri) ile mücadele*. *Kitab-i Dede Korkut'*ta Deli Domrul Azrail ile savaşır. Sümer mitinde ise Dumuzi *galla* adlandırılan ölüm iblislerinden kurtulmaya çalışır.

2. *Cana karşılık can arama*. *Dede Korkut'*ta Allahü Teala başka bir can bulması karşılığında Deli Domrul'un canını bağışlar, o da bu amaçla kendi yakınlarından can ister. Sümer mitinde de Dumuzi ve İnanna benzer şartla karşılaşırlar. Mitin önemli bir kısmı, kendi canını kurtarmak için İnanna'nın aktif şekilde başka can aramasının tasvirine ayrılmıştır. Bazı parçaları eksik olduğundan dolayı mitin tam metni elimizde yoktur, fakat Dumuzi'nin de başka can arayışı içinde olduğunu tahmin etmek mümkündür, şöyle ki kızkardeşi Geştinanna onun için kendi canını vermeye razı olur.

3. *Kahramanın uğruna bir bayan yakınının canını feda etmeye hazır olması*. Dumuzi'nin yerine kızkardeşi, Deli Domrul'un yerine ise eşi kendi canını vermek ister.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

4. *Canın bağışlanması ve belli bir süre için ölümden kurtulma*. *Dede Korkut'*ta Allahü Teala Deli Domrul'un ve eşinin canını bağışlar ve onlara yüz kırk yıl ömür verir. Sümer mitinde Dumuzi ve kızkardeşi her sene altı aylığına dönüşümlü olarak yer altı dünyadan kurtulurlar.

Bariz şekilde olan bu motif benzerliklerine araştırmacılar tarafından değinilmiştir (Acalov 1983; Ayaydın 2002; Əliyev 2006). Fakat bunların yanı sıra, Domrul – Dumuzi ilişkisine işaret eden ve bugüne kadar pek farkedilmeyen başka motif ve husular da vardır. Bildirinin amacı bu türden olan motiflere dikkat çekmektir.

***Duḫa* adı**

*Deli Domrul* hikayesinin içinde Domrul'un anne ve babasının ismi belirtilmez, ancak başlıkta "*Duḫa Koca oğlu Deli Domrul"* ifadesi geçer. Bu hikayenin Türk halk edebiyatında bir benzeri olmadığı gibi, *Duḫa* ismi de Türk ad sistemine yabancıdır. Bu yüzden, *Duḫa* adının etimolojisi ve anlamıyla ilgili çok farklı görüşlerin olması doğaldır. Biz bu ismi aşağıda Dumuzi le ilişkilendirerek meseleye farklı bir bakış açısından yaklaşıyoruz.

Dumuzi'nin Sümerlerde *Ama-Uşumgal* diye ikinci bir adı da vardı. Bu adın harfiyen çevirisi şöyledir: "anası ejderha" (Brentjes 1976: 138-139). Dolayısıyla, Dumuzi o zamanlar "Ejderha oğlu" olarak biliniyordu.

*Uşumgal* kelimesi harfiyen 'büyük yılan' demektir: *uşum* 'yılan' ve *gal* 'büyük'. Söz konusu kelimenin ifade ettiği yaratığı belirtmek için çağdaş Türkçede *ejderha* kelimesi kullanılmaktadır. Bu kelime Türkçeye Fars dilinden geçmiştir. Farsçada *Ejdaha* olarak kullanılan bu isim, aslında *Avesta* başta olmak üzere eski İran kaynaklarında geçen *Aji Dahaka*'dan gelmektedir. *Uşumgal* gibi, *Aji Dahaka* adı da iki kısımdan ibarettir ve onun da ilk kısmı, yani *Aji,* 'yılan' demektir. *Dahaka*'nın ise 'büyük, kocaman' anlamına gelip gelmediği belli değildir, onun anlamı tam olarak bilinmemektedir. Bu ikinci kısım çeşitli kaynaklarda *Dahaka, Dahak, Zöhhak, Daha* olarak geçmiş ve birçok durumda tek başına 'ejderha' anlamında kullanılmıştır. Bizce, *Duḫa* ismi söz konusu ikinci kısmın biraz değiştirilmiş şeklidir. Deli Domrul'un Duḫa Koca oğlu olması, Dumuzi'nin "Ejderha oğlu" olarak adlandırılmasının mitolojik-sembolik bir yansımasıdır.

***Kara şiven* motifi**

Bu motife *Deli Domrul* boyunun başlangıç kısmında rastlıyoruz: *"Meger bir gün köprisinüñ yamacında bir bölük konmış idi. Ol obada bir yaḫşı ḫūb yigit sayru düşmiş idi. Allāh emriyile ol yigit öldi. Kimi "oğul" deyü, kimi "kartaş" deyü ağladı. Ol yigit üzerine möhkem kara şiven oldı* (KDK, 79b: 8-12).

Böyle bir motifin *Deli Domrul* boyunda yer alması, Domrul-Dumuzi ilişkisi ışığında bakıldığında tesadüf sayılmamalıdır. Eski Çağda tanrılara yönelik şiven/matem düzenleme töreni Dumuzi ile ilgili idi ve Dumuzi dini matemlerin sembolüydü. Ölümlü tanrılar içinde en meşhuru Dumuzi idi (bkz.: Kramer 1991: 160). Mezopotamya'nın birçok yerinde her sene Dumuzi'nin (Tammuz'un) ölümüne özel törenler düzenlenerek ağlanırdı (Oppenheim 1990: 155). Mezopotamya dışında da düzenlenen bu törenler o kadar yaygın ve önemli idi ki, Tevrat'ta bile yer almış ve bu dinin ilkeleri gereği eleştiriye tabi tutulmuştu (bkz.: Kramer 1991: 160).

Burada bir paralel hakkında daha bahsetmek yerinde olur. Dumuzi'nin ölümü ile ilgili Sümer döneminden kalmış ağlama metinlerinde o, çiçeklenen kırların tanrısı ve aynı zamanda çoban tanrısı olarak karşımıza çıkmaktadır. (bkz.: Afanasyeva 1991: 410). Domrul'un yaşam mekânı Dumuzi'nin bu fonksiyonu ile örtüşüyor. Deli Domrul obadan kenarda, arkadaşlarıyla beraber kırlarda yaşiamaktadır.

***Cilt değiştirme* motifi**

Biraz farklı şekilde olsa da, hem *Deli Domrul* boyunda hem *İnanna ve Dumuzi* anlatısında cilt değiştirme motifiyle karşılaşıyoruz. *Kitab-i Dede Korkut'*ta cildini değiştiren Azrail'dir. O, Deli Domrul'un baskınından kurtulmak için güvercine dönüşerek uçup gider.

Sümer mitinde ise Dumuzi yer altı dünyanın *galla* adlı ölüm iblislerinin elinden kurtulmaya çalışıyor. O, İnanna'nın kardeşi olan ve dolayısıyla, kendisinin de akrabası sayılan

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Utu adlı güneş tanrısının yardımıyla birkaç defa cildini değiştirerek bir hayvana dönüşüyor, gerçi yine de iblislere yakalanıyor.

Dumuzi'nin hangi hayvana dönüştüğü meselesi net değildir. Destan üzerinde en ciddi ve kapsamlı araştırmayı yapan S. N. Kramer iki farklı çeviri, yani iki farklı hayvan ismi sunmuştur. Onun bir kitabında Dumuzi'nin el ve ayaklarını kertenkelenin el ve ayağına (Kramer 1991: 168), bir başka kitabında ise ceylanın el ve ayağına (Kramer 1971: 159) dönüştürmesi için Utu'ya yalvardığı yazılmaktadır. Bizce, birinci çeviri doğrudur ve burada söz konusu olan, kertenkele veya kertenkeleler sınıfından bir hayvandır. Şöyle ki, Dumuzi'nin cilt değiştirmede amacı, *galla*'lardan saklanıp kurtulmaktır. Saklanma isini ise kertenkele veya, mesela, bir bukelemun ceylandan çok daha iyi becerir ve Dumuzi'nin kertenkele sınıfından birinin cildine girmiş olması metin bağlamında daha mantıklıdır. Ayrıca, bu, Dumuzi'nin *Ama-Uşumgal* adına da uymaktadır. Sümercede *Uşumgal* kelimesi 'ejderha' anlamının yanı sıra, somut olarak bir kertenkele türünü de belirtmekte idi (bkz.: Brentjes 1976: 138-139).

**Ek motifler**

Yukarıda gösterildiği üzere, Yazıcıoğlu *Selçukname*'sinde vasıfları Deli Domrul'u andıran bir kahramanın ismi geçer: "Tanrı yaradan, ulu sultan budağı, altın köprü yapan, Azrayille savaş kılan, salkum salkum don giyen, sakar atın oynadan, Tokuş Koca oğlu Toğrul Sultan…". Bu vasıflardan bazıları *Deli Domrul* boyunda yoktur. Ancak bunlardan ikisi Dumuzi ile ilişkilendirilebilir.

Söz konusu özelliklerden biri, kahramanın "salkum salkum don" giymesidir. Salkum salkum don, yani elbise, giyilmesi Dede Korkut'un erkek kahramanları için karakteristik değildir. Öte yandan, bu tür elbiselerin Sümerlerde yaygın olduğu, o dönemden kalmış resimlerden belli oluyor. Özellikle Dumuzi, McCall'dan (1990: 71) aldığımız aşağıdaki resimde olduğu gibi, çoğu zaman salkım şeklinde elbise içinde tasvir edilmiştir:

İkinci özellik, *Toğrul* adının *Sultan* kelimesiyle beraber kullanılmasıdır. Bunu da Dumuzi ile bağlantılı olarak anlamak mümkündür. Ayrıca, söz konusu parçada Toğrul, "ulu sultan budağı" kelimeleriyle tarif edilmektedir. *Sultan* kelimesinin bu parçada iki defa geçmesi onun gelişigüzel kullanılmadığını gösterir. Fakat *Kitab-i Dede Korkut*'ta Deli Domrul'dan bir sultan olarak söz edilmez.

Dumuzi de Sümer mitolojisinde bir tanrıdır, sultan değildir. Ancak şunu belirtmek gerekir ki, Dumuzi'yi yaygın olarak niteleyen sabit sıfatlarınn (*epithet*) başında *Ama-Uşumgal*'dan sonra *mulu* kelimesi gelmektedir. Sümerologlar tarafından İngilizceye 'Lord' olarak çevrilen bu kelime 'hükümdar, sultan' anlamına gelmektedir. Bunu göz önünde bulundurdukta, *Toğrul Sultan* ile *Dumuzi mulu* arasında bir benzerlik, bir paralellik görülmektedir.

**Sonuç**

*Kitab-i Dede Korkut*'taki *Deli Domrul* boyu ile Sümerlerin *İnanna ve Dumuzi* destanı arasında *cana karşılık can arama* gibi benzer motifler olduğu birçok araştırmacı tarafından gösterilmiş ve bu bağlamda *Domrul* kelimesinin kökeni, ses yakınlığı da hesaba katılarak, *Dumuzi* ismi ile ilişkilendirilmiştir. *Deli Domrul* boyu ile Dumuzi hakkındaki hikâyeler arasındaki benzerliklere *kara şiven, cilt değiştirme* ve bazı başka motifleri de eklemek mümkündür. Ayrı ayrılıkta göz atıldığında, asırların süzgecinden geçip değişmiş bu motiflerde benzerlik fark edilmeyebilir. Bunu görmek için onları bir bütün olarak ele almak ve daha önceleri ortaya konmuş bariz paralel motifler ışığında bakmak gerekir.

**KAYNAKÇA**

Acalov, A. (1983). Dəli Domrul Boyunun Kökləri və Mifoloji Simvolikası. *Azərbaycan Filologiyası Məsələləri*. Bakı: Elm, s. 222-237.

Afanasyeva, V. K. (1991). Dumuzi. *Mifologiya Narodov Mira. I.* Moskva: Sovetskaya Enciklopediya, s. 409-410.

Amanoğlu, Ebülfez Kulu (1999). Kişi Adlarında Eski İnançların İzleri (Dede Korkut). *Atatürk Üniversitesi Türkiyat Araştırmaları Enstitüsü Dergisi.* Sayı 11. Anka

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ayaydın, Günil Özlem (2002). Masalla Ölüme Meydan Okuyan İnsan: Alkestis, Dumrul, İnanna ve Savitri Anlatılarının Karşılaştırmalı İncelemesi. *Milli Folklor*. Sayı 55. Ankara, s. 15-24.
Beydili, Celal (2005). *Türk Mitolojisi: Ansiklopedik Sözlük*. Ankara: Yurt Kitap-Yayın.
Brentjes, B. (1976). *Ot Şanidara do Akkada (=Von Schanidar bis Akkad).* Moskva: Nauka.
Ercilasun, Ahmet Bican (1998). Deli Dumrul ile Kazakların Korkut Atası Arasında Bir Mukayese. *Milli Folklor*. Sayı 37. Ankara, s. 13-16.
Əliyev, R. M. (2006). *Türk Mifoloji Düşüncəsi və Onun Epik Transformasiyaları (Azərbaycan mifoloji mətnləri əsasında).* Dokt. Dis.
Hacıyev, T. (1984). Azərbaycanın Qədim Onomastikasına Dair (Gümanlar, Fərziyyələr). *Azərbaycan Filologiyası Məsələləri. II buraxılış.* Bakı: Elm, s. 125-136.
Kramer, S. N. (1971). *The Sumerians: Their History, Culture, and Character.* Chicago: The University of Chicago Press.
Kramer, S. N. (1991). *İstoriya Naçinaetsya v Şumere (=History Begins at Sumer)*. Moskva: Nauka.
McCall, Henrietta (1990). *Mesopotamian Myths*. Austin: University of Texas Press.
Nağıyeva, Şəhla (2003). *Xüsusi Adlar Milli Koloritin Daşıyıcısı Kimi (Kitabi-Dədə Qorqud dastanının ingilis dilinə tərcümə variantları əsasında*). Bakı: Çinar-Çap.
Oppenheim, A.L. (1990). *Drevnyaya Mesopotamiya: Portret Pogibşey Civilizacii (=Ancient Mesopotamia: Portrait of a Dead Civilization).* Moskva: Nauka.
Ögel, Bahaeddin (1995). *Türk Mitolojisi*. II Cilt. Ankara: TTK.
Seyidov, M. (1968). Dədə Qorqud Boylarının Mənşəinə Dair. *Azərbaycan.* Sayı 6. Bakı.
Tezcan, Semih (2001). *Dede Korkut Oğuznameleri Üzerine Notlar*. İstanbul: Yapı Kredi Yayınları.
TS (2005). *Türkçe Sözlük*. Ankara: TDK.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MƏHƏBBƏT DASTANLARI MƏMMƏDHÜSEYN TƏHMASİBİN ARAŞDIRMALARINDA

***XƏYALƏ ƏLİYEVA***

Azərbaycan dastanlarının sayca ən çoxu, sanbalca ən zəngin və rəngarəngini məhəbbət dastanlarını sayan M.H.Təhmasib onların qəhrəmanlıq dastanlarından fərqli aşağıdakı xüsusiyyətlərini göstərir:

«1. Adlarından da göründüyü kimi, bizim qəhrəmanlıq dastanları əsasən bahadırlıq, alplıq, qəhrəmanlıqdan, məhəbbət dastanlarımız isə sevgidən, məhəbbətdən danışır, bunları təsvir və tərənnüm edir.

2. Qəhrəmanlıq dastanları daha çox ümumxalq mənafeyi uğrunda aparılan mübarizələrdən bəhs edir, ayrı-ayrı şəxsiyyətlərin, dəstələrin, qrupların, kütlələrin, basqınçı, işğalçı, istilaçı qüvvələrə, yaxud daxili zülmə, istismara qarşı fədakar mübarizələrini təsvir və tərənnüm edirlər. Məhəbbət dastanları isə belə iqtisadi, siyasi məsələlərdən daha çox azad sevgi məsələsi qoyur, iki gəncin, iki butanın bir-birinə çatmasına mane olan qara qüvvələrə qarşı mübarizədən danışırlar…

3. Elə buna görə də bu mübarizələrin özü də bir-birindən fərqlənir. Burada nəinki məna, məzmun, məqsəd, hətta vasitələr, silahlar belə başqa-başqadır… Məhəbbət dastanlarındakı mübarizə vasitəsi, yəni silah sazdan, sözdən, səsdən, çalmaq, oxumaq, bədahətən şeir deyə bilmək məharətindən ibarətdir» (6, 177).

Bu göstərilənlərlə yanaşı, müəllif bir bölüm dastanların qəhrəmanlıq dastanları ilə məhəbbət dastanları arasında dayandığını, bu dastanlarımızın qəhrəmanlarının sevməyi bacardığı kimi qılınc, qalxanla vuruşmağı, basıb-kəsməyi də bacardıqlarını göstərir. Bir növ qəhrəmanlıq dastanlarından məhəbbət dastanlarına keçid mərhələsini təşkil edən «Şah İsmayıl-Gülzar», «Novruz-Qəndab», «Lətif şah», «Şahzadə Əbülfəz», «Seyidi-Pəri», «Şahzadə-Bəhram», «Dilsuz-Xəzangül», «Məhəmməd-Güləndam», «Seyfəlmülk» və s. dastanların xalq içərisində geniş yayıldığını göstərir. Müəllif bu növ dastanların ən məşhuru olan «Şah İsmayıl-Gülzar» dastanı üzərində bir qədər ətraflı dayanır.

«Şah İsmayıl-Gülzar» çox sevilən və yayılan dastanlardan biridir. M.H.Təhmasib bu dastanın müxtəlif vaxtlarda toplanmış on variantı olduğunu, bunlardan altı variantının müxtəlif illərdə nəşr olunduğunu, dördünün isə əlyazması şəklində olduğunu, bunlardan başqa bu dastanın Anadolu, İstanbul və İran variantlarının da nəşr olunduğunu nəzərə çatdırır.

Dastançılarımızın mövzu, süjet, motiv və s. seçməkdə zəngin xalq nağıllarından istifadəsini, bu yaradıcılıq prosesini izləyən müəllif göstərir ki, Azərbaycan dastanlarında xalq nağıllarından çox geniş istifadə edilmişdir. Belə istifadənin ən qədim şəkli ondan ibarətdir ki, dastançı zəngin nağıl xəzinəsindən özünə lazım olan nə varsa seçib götürür, onları öz mövzusuna uyğunlaşdırır, onlara yeni məna verərək bir dastan və ya qol yaradır.

Bu yaradıcılıq prosesinin ən əsas şəkilləri üzərində dayanan M.H.Təhmasib nağıldan istifadənin daha çox təsadüf edilən bir növünü də qeyd edir ki, bu da dastançının hər hansı məşhur bir nağılı dastan şəklində işləməsindən ibarətdir. O, «Şah İsmayıl-Gülzar», «Dilsuz-Xəzangül», «Dünya gözəli», «Gül-Sənubər», «Şəms-Qəmər», «Ovçu Pirim», «Kəlbi», «Təhmiraz», «Adgözəl» və başqa dastanları bu sıraya aid edir.

Məhəbbət dastanlarımızın istifadə etdikləri mənbələrdən birinin də qədim epos, xüsusilə Dədə Qorqud boylarının olduğu fikrini irəli sürən tədqiqatçı qədim adətlərin, mərasimlərin, görüşlərin müxtəlif əsərlərdə bənzər şəkildə öz inikasını tapmasına təsir və ya istifadə hesab etmir. Müəllif təsir, yaxud istifadə dedikdə, o süjet, motiv, ünsürü nəzərdə tutur ki, daha qədim əsərdə nə şəkildə, variantda, səpkidə işlənmişsə, sonrakı əsərdə də tam, yaxud təqribən elə işlənmiş olsun. Məsələyə bu baxımdan yanaşan M.H.Təhmasib dastançılarımızın «Kitabi-Dədə Qorqud»dan ən azı aşağıdakı şəkillərdə istifadə etdiklərini göstərir: 1) Dədə Qorqud dastanlarındakı məşhur surətlərdən, səc

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

xili aləm və zahiri əlamətlərdən, mübarizə vasitələrindən və s. istifadə yolu; 2) Dədə Qorqud dastanlarındakı motiv və süjetlərdən istifadə yolu; 3) Dədə Qorqud boylarının tam şəkildə məhəbbət dastanı kimi yenidən işlənməsi yolu və s.

M.H.Təhmasib Dədə Qorqud surətlərindən ən yaxşı istifadə edilmiş dastanlarımızdan birini «Novruz» dastanını sayır. Bu dastanın nəşr edilmiş və edilməmiş 12 nüsxəsi olduğunu qeyd edir.

M.H.Təhmasibin fikrincə, «Novruz» dastanında Kəlləgözlə görüş epizodunun çox pozulmasına baxmayaraq, Dədə Qorqud Təpəgözünə bənzəyən əlamətlər də vardır:

1) Məlum olduğu kimi, Dədə Qorqud Təpəgözü bulaqla əlaqədardır. «Novruz»dakı Təpəgöz də belədir. O hətta Novruza deyir ki, mənim torpağıma yeddi min qoşunlu adam ayaq basa bilməz. Nə ürək eləmisən mənim qoruğumda, mənim bulağımın başında yatmısan?»

2) Dədə Qorqud Təpəgözünün oğuz eli ilə, Bayandır, Qazan xanla düşmən olduğu məlumdur. «Novruz» dastanındakı Kəlləgöz isə o mahalın xanına düşmən kəsilir.

Bütün bu deyilənlə əsasən, M.H.Təhmasib belə qənaətə gəlir ki, «Novruz» dastanında Dədə Qorqud «Basat-Təpəgöz»ünün bir surətindən yəni Təpəgöz-Kəlləgöz surətindən istifadə olunmuşdur (6, 215).

«Aşıq-Qərib» dastanını da müəllif Dədə Qorqudun «Bamsı Beyrək boy»undan istifadə yolu ilə yaranmış dastanlarımızdan biri kimi təhlil edir.

H.Araslı bu dastanın XVI əsrdə yaşamış Qərib təxəllüslü bir şair – aşığın şeirləri əsasında yarandığı fikrini irəli sürür: «Aşıq Qərib» dastanı Təbrizli Qərib təxəllüslü şairin (aşığın) qoşmaları əsasında düzəlsə də, bu şeirlər ağızlarda dolaşdığından çox dəyişdirilib dastanın ümumi ahənginə uyğun bir şəkil almışdır. Burada Qəribdən çox başqa naməlum aşıqların əsərlərindən, qoşmalarından da istifadə edilmişdir» (4, 69).

Bunu dastanlarımızın əsas xüsusiyyətlərindən sayan M.H.Təhmasib dastanın Qərib təxəllüslü şairin ancaq şeirləri əsasında sonradan başqaları tərəfindən düzəldilmiş olduğunun inandırıcı olmadığı fikrindədir. Onun mülahizəsinə görə, bu dastan XVI əsrin Qəribindən hələ çox qabaqlar başqası tərəfindən də işlənibmiş. Dastanda Təbriz haqqında iki tərifnamənin bir-birinə tamamilə zidd olmasını, dastan şeirlərinin üslub başqalıqlarının, nəhayət, personaj adlarının həddindən artıq fərqli olmasını bu mülahizəyə haqq qazandırmaq üçün əsas kimi qəbul edir.

M.H.Təhmasib dastanlarımızın istifadə etdikləri mənbələrdən birinin də yazılı ədəbiyyat olduğunu irəli sürür, «Fərhad və Şirin», «Leyli və Məcnun», «Şahzadə Bəhram» dastanlarının bu yolla yarandığını, belə dastanların isə ümumi dastan fondunun çox kiçik bir hissəsini təşkil etdiyini göstərir.

Müəllifin fikrincə, burada əsas fond dastançıların orijinal əsərlərindən ibarətdir. Bu əsərlərdə azad sevgiyə mane olan qara qüvvələr əleyhinə mübarizə mühüm yer tutur. Bunların amalı, məqsədi bir-birilərinə oxşasalar da, rütbələrinə, mənsubiyyətlərinə görə müxtəlifdirlər. Bunların içərisində ən mühüm yeri Şah Abbas tutur (6, 245).

Məlum olduğu kimi, ümumiyyətlə, Azərbaycan folklorunda Şah Abbas çox mühüm yer verilir. Şah Abbas bu nümunələrin bir çoxunda gah mənfi, gah da bunun əksinə olaraq müsbət bir şah kimi göstərilir. Şah Abbas bəzən nağıllarımızda «Şah Abbas cənnətməkan, tərəziyə vurdu təkan, iki qoz, biz girdəgan» deyə gülüş hədəfinə də çevrilir.

Şah Abbasa münasibətin dastanlarımızda da ziddiyyətli olduğunu göstərən M.H.Təhmasib bunun təsadüfi olmadığını, Şah Abbasın dastanlarda Səfəvi tarixinin ən qara səhifələrindən biri olan insan vergisi, gözəl qızların yığılıb İsfahana aparılması tədbiri ilə bağlı təsvir olunmasını dastançının «uydurması» deyil, tarixi həqiqətlərə söykəndiyini doğru hesab edir. Müəllifin fikrincə, bu vəhşi nalayiq «tədbir» çox böyük həyəcanlara səbəb olmuş, ona görə də Şah Abbasa həsr edilmiş dastanlar bu məsələ ilə əlaqələndirilmiş, hər dastançının öz nöqteyi-nəzərindən qiymətləndirilmişdir. M.H.Təhmasib bu münasibət müxtəlifliyi üçün xarakter nümunə olan «Məhəmməd və Güləndam», «Xançoban», «Abbas və Gülgəz» dastanları üzərində dayanıb öz mülahizələrini bildirir.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M.H.Təhmasib Şah Abbasa ən geniş yer verilmiş dastanlardan biri olan «Abbas və Gülgəz» dastanı üzərində bir qədər ətraflı dayanır.

«Abbas və Gülgəz» dastanı Aşıq Abbas Tufarqanlı ilə bağlıdır. Bu dastanın Aşıq Abbasın əsəri, yaxud onun qoşmaları əsasında sonradan qoşulmuş olduğunu mübahisəli sayan M.H.Təhmasib bu məsələyə aydınlıq gətirməyə çalışır.

Məlum olduğu kimi, H.Əlizadə «Aşıqlar» kitabına Aşıq Abbasın da qoşmalarını daxil etmişdir.

Prof. M.Seyidov Aşıq Abbasın dastan yaradıcılığı məsələsinə «Şifahi xalq ədəbiyyatı təsirilə yaranan şeir» oçerkində toxunur. Onun fikrincə, «Abbas Tufarqanlı XVI əsrin sonu XVII əsrin əvvəllərində yaşamış sənətkarlardandır. Daha sonra aşıqlar Abbas Tufarqanlının fikirlərindən istifadə edərək «Abbas və Gülgəz» adlı aşiqanə dastan yaratmışlar (7, 486).

Məhəbbət dastanlarının hər birinin dərindən araşdırılması, ümumən dastan yaradıcılığının sistemli şəkildə öyrənilməsinə kömək etmiş olur. Məhz bu cəhəti nəzərə alan M.H.Təhmasib haqqında söz açdığı hər bir məhəbbət dastanını da bu nöqteyi-nəzərdən təhlil edir. Tədqiqatçının «Abbas-Gülgəz» dastanı barədəki araşdırmaları da bu prinsiplə aparılır. O, «Abbas-Gülgəz» dastanının əldə olan yeddi variantını göstərir, bunların hər birinin orijinal cəhətləri və fərqli xüsusiyyətlərini aşkara çıxarır.

Dastanlarımızın tədqiqində daha çox müqayisəli-tarixi üsula müraciət edən M.H.Təhmasib dastanlarımızın bir çoxunu digər xalqların folklor örnəkləri ilə müqayisəli şəkildə təhlil etməyə üstünlük verir.

Öz məzmununa görə orijinal məhəbbət dastanlarından olan «Əsli-Kərəm» dastanının tədqiqində də müəllif bu üsuldan istifadə edir.

M.H.Təhmasibin fikrincə, Orta Asiyada, xüsusilə qazaxlar, başqırdlar, qaraqalpaqlar və s. qardaş xalqlar arasında çox geniş yayılmış «Közi Körpəş və Bayan Sulu» dastanı ilə bizim bu dastan arasında çox yaxından səsləşən, hətta bənzəyən cəhətlər vardır.

M.H.Təhmasib «Əsli-Kərəm» dastanının geniş yayılmasını onun çox qüv-vətli olması ilə əlaqələndirir. Öz mövzusuna görə «Ordubadlı Kərəmin nağılı», «Cəlali Məmməd» dastanlarını da bu sıraya daxil edir.

M.H.Təhmasib məhəbbət dastanlarımızın bir bölümünün məcazi məhəbbətə həsr edildiyini, burada məcazi sevgidən, simvolik məhəbbətdən bəhs edildiyini göstərir və onları da astral və rəmzi olmaqla iki yerə bölür.

M.H.Təhmasib «Tahir və Zöhrə» dastanını astral dastanların ən yaxşı nümunəsi kimi qiymətləndirir. Bu dastanın özbək, türkmən, tatar, uyğur, Şərqi Türküstan, türk və b. variantlarının da olduğunu göstərir. Azərbaycanda isə bu dastanın müxtəlif vaxtlarda müxtəlif söyləyicilərdən toplanmış iyirmiyə yaxın variantı olduğunu qeyd edir.

Məcazi məhəbbətin təsvir və tərənnümünə həsr olunmuş dastanlarımızın bir növünün də rəmzi dastanlar olduğunu göstərən M.H.Təhmasib «Qurbani» dastanını bunların ən mükəmməli hesab edir.

«Qurbani» dastanının əldə edilmiş variantlarının üç müstəqil versiya təşkil etdiyini göstərən M.H.Təhmasib bunları şərti olaraq Gəncə versiyası, Diri versiyası, Zəncan versiyası adlandırır, bu versiyaların isə müxtəlif münasibətlərlə deyilmiş qoşmaları və orijinal əsasında sonradan yaradıldığını irəli sürür. M.H.Təhmasibin fikrincə, Qurbani təriqətçidir:

«Hələlik, burasını qeyd edək ki, o da öz məşuqəsinə hüsn-mütləq kimi yanaşmış, ona olan məhəbbətinə rəmzi məna vermiş, «əhli-həqq»in öz «Nigar»ına olan məhəbbətinə izhara çalışmış şairlərdəndir.

… Bu gözəlin saçları «sərasər ayeyi-quran»dır, katiblərin şərhidir. O, «mərifət anlayan, mənasın bilən», «rəmz anlayan», «söz düşünən, dərd bilən»dir. Ən maraqlısı da budur ki, bu Pərinin iki adı vardır:

Gizlini Nigardı, aşkarı Pəri,
Qurbani qoyubdu yolunda səri.

Yaxud:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənim sevdiyimin bir teli Nigar,
Canım yolundadı, gözüm intizar və i.a.» (6, 365).

M.H.Təhmasibin fikrincə, rəmzi-məcazi səciyyə daşıyan «Qurbani» dastanın Gəncə versiyasına məxsus olan variantlar öz mükəmməlliyi, dolğunluğu ilə digər versiya və variantlardan seçilir.

Gəncə versiyasının variantlarında buta alan Qurbani dastanın sonunda öz istəklisi Pəri xanıma qovuşur. Bundan fərqli olaraq Diri versiyasında haqq vergisi almış Qurbanini ilan vurub öldürür. Pəri də onun meyiti üstündə ağı deyib ölür.

Dastanın üçüncü versiyasının yaxşı toplanmadığını göstərən M.H.Təhmasib onu da qeyd edir ki, bu dastanı yaradanlar şablon yolla getmək deyil, «Tahir-Zöhrə» süjetinin tam əksindən ibarət bir başlanğıc yaratmaq istəmişlər (6, 337).

M.H.Təhmasib bir çox klassik aşıq dastanlarının sənətkarın özü tərəfindən yaradıldığını ehtimal edərək belə qənaətə gəlir ki, «Qurbani» dastanını da Dirili Qurbani yaratmışdır. Ancaq o burada bir cəhəti də qeyd edir ki, «Qurbani» dastanının versiyalarının heç birisi bugünkü şəkildə, sözün tam dəqiq mənasında Qurbaninin öz əsəri deyil. Bu versiyalar onun müxtəlif münasibətlərlə deyilmiş qoşmaları və orijinal əsəri əsasında sonradan yaradılmışdır.

Diri versiyasının variantları üzərində dayanan M.H.Təhmasib dastandakı yer və adam adlarının hamısının rəmzi, simvolik mənası olduğu qənaətinə gəlir. Onun fikrincə, Qurbaninin özü tərəfindən yaradılmış dastan daha çox məcazi, rəmzi bir əsər imiş. Bu əsər yazıya alınmamış, aşıqlar isə bu əsəri qavraya bilməmiş, öz ifalarında sadələşdirmiş, reallaşdırmış, yeni əlavələr, ünsürlər, epizodlarla «əsaslandırmağa» çalışmış və gətirib bir-birindən fərqli versiyalar şəklinə salmışlar (6, 370-371).

«Qurbani» ilə bağlı tədqiqatlara, əldə olan məlumatlara əsaslanaraq müəllif belə qənaətə gəlir ki, Qurbani həm də bir dastançı aşıq kimi çoxəsərli dastançılardan olmuş, onun yaratdığı əsərlər sonrakı ifalarda bir-birinə qarışmışdır.

M.H.Təhmasib dastanların üçüncü növünü ailə-əxlaq dastanları adlandırır. Müəllifin fikrincə, bu sıraya daxil edilən dastanlarda konkret əxlaq məsələləri qoyulur və dövrün səviyyəsinə, zəmanənin tələbatına, əsrin siyasi-ictimai məzmununa, fəlsəfi görüşlərinə müvafiq bir surətdə həll edilir.

Məlum olduğu kimi, ailə-əxlaq mövzusu xalq dastanlarımızda uzun bir ənənəyə malikdir. «Kitabi-Dədə Qorqud» dastanlarının birinci boyunda önə çəkilən bu mövzu özünə yer eləmiş, bəzi dastanlarımızda isə aparıcı mövzu olmuşdur. «Alıxan-Pəri»nin nə məhəbbət, nə də qəhrəmanlıq dastanı yox, ailə-əxlaq dastanı olduğu qənaətinə gələn müəllif bu süjetin çox qədim və ümumi olduğunu, Şərqdə, eləcə də Qərbdə də geniş yayıldığını Andreyev cədvəlində isə 883-cü nömrə altında «Böhtana düşmüş qız» adı ilə qeyd olunduğunu göstərir. Müəllifin fikrincə, bu süjet türk xalqları arasında geniş yayılmışdır.

Bu dastanı səciyyəvi ailə-əxlaq dastanı kimi gözdən keçirən M.H.Təhmasibin fikrincə, «Alıxan-Pəri» dastanının da ilk müəllifi, onun qəhrəmanının özüdür, yəni bu əsərin ilk yaradıcısının adı Alı və ya Alıxan imiş, dastandan da göründüyü kimi, o, zəmanənin hakim əxlaq normaları ilə razılaşmayan bir adam olmuşdur. M.H.Təhmasib belə qənaətə gəlir ki, dastanın yaradıcısı öz fikirlərini bildirmək üçün məşhur nağıl süjetini yeni səpkidə işləmişdir. «Alıxan-Pəri» dastanının müəllifi demək istəmişdir ki, Pəri kimi qızlar, özlərini ümumiyyətlə, qadınlardan, hər cəhətdən üstün bilən Hacı Səyyad, Qara vəzir, Məhəmməd, Tapdıq kimi kişilərdən çox yüksəkdə dururlar. M.H.Təhmasib dastanın yaradıcısının mütərəqqi fikirli bir adam olduğunu, köməksiz bir qadını şər və böhtandan qurtarmağın əsərin başlıca ideyası olduğunu önə çəkir.

M.H.Təhmasib «Kitabi-Dədə Qorqud»un «Dirsə xan oğlu Buğac boyu» ilə «Alıxan-Pəri» dastanının öz mövzusuna, motivinə, süjetinə görə bir-birinə çox bənzədiyini, dastanların hər ikisində böhtana düşmüş qəhrəmanların ölümdən qurtarıb təmizə çıxmaları, xainlərin cəzalandırılması, ataların isə günahlarını bilib peşman olmalarının böyük əxlaqi təsirə malik olduğunu göstərir.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Ailə-əxlaq dastanlarının az-çox məhəbbət motivlərinə malik növünün ən yaxşı nümunəsi «Alıxan-Pəridirsə», qəhrəmanlıq motivlərinə malik ən yaxşı nümunəsi «Dirsə xan oğlu Buğac boyu»dur, -deyən M.H.Təhmasib dastanların hər ikisində hadisənin ən yüksək zirvəyə qalxması, yəni atanın öz övladlarını öldürmək qərarına gəlmələrini də əxlaq normaları məsələsi ilə bağlayır.

Göründüyü kimi, M.H.Təhmasibin folklorşünaslıq fəaliyyətində Azərbaycan xalq dastanlarının tədqiqi mühüm yer tutmuşdur. O, dastanların hər bir növünün daxili bölgüsünü aparmış, bu yolla onların hər birini folklorşünaslığın nailiyyətləri səviyyəsində dərindən təhlil etmiş, özündən sonrakı tədqiqatlar üçün geniş imkanlar açmışdır.

**ƏDƏBİYYAT**

1. Azərbaycan dastanları. 5 cilddə, I c. / Tərtib edənlər: Ə.Axundov, M.H.Təhmasib. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1965.
2. Azərbaycan dastanları. 5 cilddə, II c. / Tərtib edənlər: Ə.Axundov, M.H.Təhmasib. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1966.
3. Azərbaycan dastanları. 5 cilddə. III c. // Toplayanı və tərtib dəni: Ə.Axundov. Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1967.
4. Araslı H. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi. Bakı: ADU, 1956.
5. Araslı H. Aşıq yaradıcılığı. Bakı: Azərnəşr, 1960.
6. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 399 s.
7. Seyidov M. Şifahi xalq ədəbiyyatı təsirilə yaranan şer. / Azərbaycan ədəbiyyatı tarixi, 3 cilddə, I c., Bakı: Azərb. SSR EA nəşriyyatı, 1960, s. 485-500.

**Любовные дастаны в исследованиях М.Г.Тахмасиба**

Среди исследований проф. М.Г.Тахмасиба одно из основных направлений занимают дастаны, посвященные азербайджанским народным дастанам.

В данной статье исследуются вопросы, связанные с классификацией семейно-бытовых и романтических дастанов.

**Love eposes in Mammadhuseyn Tahmasib's investigations**

Among the scientific investigated works by professor M.H.Tahmasib the Azerbaijan folk eposes are in the main place. In this article the investigations about love and family-morality eposes are carried out.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QƏDİM TÜRK DÖVRÜNDƏN ORTA TÜRK DÖVRÜNƏ KEÇİD: TÜRK EPOS ƏNƏNƏSİ VƏ DİL

***YADIGAR ƏLIYEV***

Qədim türk dövründə Ötükəndəki etnik-mədəni mühit etnokulturoloci mərkəzləri bir-birinə daha çox yaxınlaşdırmağa xidmət edirdisə, lokallaşmış, bir-birindən ayrılmış mədəni mühitlərdə bunun əksi müşahidə olunurdu. Bu, təfəkkür proseslərindən tutmuş sosial həyatla əlaqəli hadisələrə qədər etnik-mədəni mühitlə bağlı nə varsa, hamısında özünü göstərir. Anjaq müxtəlif etnik-mədəni mühitlərdə lokallaşmalar [1, s. 194-195] nə qədər güjlü olsa da, etnokulturoloci mərkəzlər qədim türk birliyi zamanı qazanılmış ənənələrdən uzaqlaşa bilmir. Bu, birinji növbədə özünü dildə göstərir. Belə ki, erkən orta əsrlərdə keçid dövrünün əvvəllərində yaradılmış bədii nümunələr dil xüsusiyyətlərinə, bədii-tekstoloci, ideoloci və digər təyinatlarına görə qədim türk dövru ilə, qədim dövrün epik dastan ənənələri ilə daha çox səsləşir. Məsələn: "Oğuz xaqan" dastanını orta əsrlərin oğuz etnokulturoloci mühiti yetirmiş olsa da, bəzi motivlərə görə əvvəlki etnik mühiti – Ötükənlə bağlı bəzi sosial-mədəni, linqvistik müəyyənlikləri və əski epos –dastan ənənələrini xatırladır. Bunların bəzisi etnokulturoloci mühitin xüsusiyyətləri ilə bağlıdır. Yəni məsələn, Göytürk dövləti konfederativ təsisat olduğundan oraya daxil olan etnosların hər biri türk bodun hesab edilirdi. Odur ki, onlara xaqan institutu tərəfindən subyekt yox, vahid etnos münasibəti müşahidə olunur (Orxon-Yenisey abidələrində). "Oğuz xaqan" dastanına görə, Oğuz xaqanın rəhbərlik etdiyi təsisatda da başqa-başqa etnosubyektlərin iştirakına işarələr var (qıpçaq, qanqlı // kəngər, uyğur). Anjaq maraqlıdır ki, dövlətin etnik tərkibi bu və ya digər etnosubyektlə konkretləşmir. Yaxud Oğuz xaqanla bağlı mənbələrdə (F.Rəşidəddinin "Oğuznamə"si və s.; A.Ajalov yazır ki, qədim dövrdə vahid dövlət daxilində kompakt yaşayan Yaxın və Orta Şərqin türk xalqlarına məxsus qədim mədəniyyətin əsas məqamlarından birini təşkil edən etnogenetik xarakterli mətnlərin əsas fiquru Oğuz kağan idi [5, s. 226]). Orxon-Yenisey yazılarında xaqan haqqında informasiyalarda olduğu kimi, onun böyük hərbi qüdrətindən, Talasdan Mavəraünnəhrə, Buxaraya, Xarəzmə qədər genriş ərazini ələ keçirməyindən, qeyri ölkələrə yürüşündən bəhs olunur. Eləjə də Kültiqin şərəfinə abidədə dövlətin türk dil subyektlərini – türk bodununu kağan təşkil etdiyi kimi, "Oğuznamə"lərə görə bəzi etnonimlərin (uyğur, kanqlı, öljay, moval // moğol) yaranması, əslində həmin etnosların formalaşması Oğuz xaqanın adı ilə bağlanır. Kültiqin şərəfinə abidənin mətninə görə Göytürk dövlətinin yaranması dünyanın əvvəli ilə eyniləşdirilir. Göytürk dövlətinin yaradıjıları Bumın xaqanla İstemi xaqan isə dünyada ilk insan oğlunun üzərində hökmdar hesab olunur. F.Rəşidəddinin "Oğuznamə"sinə görə də (XIII-XIY əsrlər) Nuh peyğəmbər Yerin insanlar tərəfindən məskunlaşmış hissəsini oğlanları arasında böləndə Şərq ölkələrini Türküstanla birlikdə oğlu Yafəsə – Oljay xana verir [7, s. 29]. Bumın xaqanla İstemi xaqan qədim türk yazılı abidələrinə görə Bilqe kağanın babaları olduğu kimi, Oğuz xaqanın da həmin Öljay xanın nətijəsi, Kara xanın oğlu, Dib Yavqu xanın nəvəsi olduğu göstərilir [7, s. 25-26 ]. Prof. O.Ş.Gökyay qeyd edir ki, Oğuz xanın səfərlərinə aid Oğuz dastanındakı rəvayətlər Yazıçıoğlu Əli "Oğuznaməsində" Alp Aruzun atası kimi göstərilən Tona Təkinin (Əfrasiyab; M.Qaşğaridə: Alp Ər Tona-Y.Ə.) İdil çayı tərəfdən Dəmirqapı üzərindən Asiyaya keçib, oradan da geri, İran-Xorasan yolu ilə Buxara yaxınlığına, Çu çayı hövzəsinə qayıtmasına bənzəyir [4, s. 249-250]. Türk epos ənənəsinin söykəndiyi digər xüsusiyyətlər dil faktları və onların informativ tutumlarını əhatə edir:

1."<u>Oğuz xaqan" dastanı</u>:

Uşol kim mənin ağızumqa baxar turur bolsa, dartıq dartıb dost tutarmən, -deyib dedi. Uşbu kim, ağızumqa baxmaz turur bolsa, jamad çaxıb, çərik çəkib düşman tutarmən (13-jü xətt [2]; Kim mənim sözümə baxarsa, hədiyyə verib dost tutaram, -dedi. Kim mənim sözümə baxmazsa, üzərinə qoşun çəkib, onu düşmən tutaram);

1. <u>Kültiqin şərəfinə abidə</u>:

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Anta ayığ kisi ança boşğurur ermis: ırak erser, yablak ağı birür, yağuk erser, edqü ağı birür, -tip ança boşğurur ermis (KltJ. 7 [6]; Orada pis adam eləjə öyrədirmiş, uzaq isə pis hədiyyə verir, yaxın isə yaxşı hədiyyə verir, -deyib eləjə öyrədirmiş).

2. “Oğuz xaqan” dastanı:

Genə andın son Oğuz xaqan dörd sarıqa jarlıq jumşadı, bildirgülük bitidi, elçilərgə berib yibərdi. Uşbu bildirgülərdə bitilmiş irdi kim, “mən uyğurnun xaqanı bolamən kim, yernin dörd bölününün xaqanı bolsam gərək turur” (12-ji xətt [2];Yenə bundan sonra Oğuz xaqan dörd bir tərəfə xəbər göndərdi, bildiriş yazdı, elçilərə verib göndərdi. Bu bildirişlərdə yazılmışdı ki, mən indi uyğurun xaqanıyam, anjaq yerin dörd bir tərəfinin xaqanı olmalıyam);

2. Kültiqin şərəfinə abidə:

Sü sülepen tört bulundakı bodunığ kop almıs, kop baz kılmıs (Kltb. 2 [6]; Qoşun çəkib dörd tərəfdəki xalqı bütünlüklə almış, bütünlüklə sülh yaratmış).

3.“Oğuz xaqan” dastanı:

Oğuz xaqan Urum xaqannun xaqanluğın aldı, el-günin aldı (19-ju xətt [2]; Oğuz xaqan Urum xaqanın xaqanlığını, elini-gününü aldı);

3. Kültiqin şərəfinə abidə:

İlliqiq ilsiretdimiz, kağanlığığ kağansıratdımız (Kltb. 18 [6]; Dövləti olanı dövlətsiz, xaqanı olanı xaqansız qoyduq).

4. “Oğuz xaqan” dastanı:

Gög tanrı (42-ji və 7-ji sətirlər [2]; mavi səma);

4. Kültiqin şərəfinə abidə:

Kök tenri (KltŞ. 1 [6]; mavi səma).

Digər tərəfdən, Orxon-Yenisey abidələri ilə “Kitabi-Dədə Qorqud”un dilində oxşar üslubi-poetik formullar diqqəti jəlb edir [3, s. 172-173]:

1. Kültiqin şərəfinə abidə:

1. Birye şad apıt beqler, yırya tarkat buyruk beqleri, otuz… tokuz oğuz beqleri bodunı bu sabımın edqüti esid (KltJ. 1 [6]; Sağdakı şad və apa bəyləri, soldakı tarkat, buyruq bəyləri, otuz… doqquz oğuz bəyləri, xalqı, bu sözümü yaxşı eşidin).

1. “Kitabi-Dədə Qorqud”:

Sağda oturan sağ bəylər, solda oturan sol bəylər, eşikdəki inaqlar, dibdə oturan xas bəylər, qutlu olsun dövlətiniz.

2. Kültiqin şərəfinə abidə:

Körür közüm körmez teq, bilir biliqim bilmez teq boltı (KltŞm. 10 [6]; Görər gözüm görməz, bilər biliyim bilməz oldu);

2. “Kitabi-Dədə Qorqud”:

Mənim görür gözlərim görməz oldu, tutar mənim əllərim tutmaz oldu.

3. Kültiqin şərəfinə abidə:

Öqim katun (KltŞ. 25 [6]; Anam xatun);

3. “Kitabi-Dədə Qorqud”:

Qadınım ana.

4. Kültiqin şərəfinə abidə:

Silik kız oğlın kün boltı (KltŞ. 24 [6]; Təmiz qız övladların kəniz oldu);

4. “Kitabi-Dədə Qorqud”:

Qaza bənzər qızım, gəlinim bunlu oldu.

Bununla yanaşı, bəzi fərqlər müşahidə olunur. Orxon-Yenisey abidələrinin dilində Tenri antropomorfozlaşdırılmış aktiv dini-mifik personacdır. Və tanrı-insan münasibətləri kontekstində ali qüvvə nə nədər aktivdirsə, insan o qədər passivdir. “Oğuz xaqan”da isə tanrı aktiv mifik personacdan passiv dini simvola çevrilir. Əvəzində insan aktiv tərəf olur. Genə günlərdə bir gün Oğuz xaqan bir yerdə tanrını jalbarqada irdi (6-jı sətir [2]; Yenə günlərin bir günü Oğuz xaqan bir yerdə tanrıya yalvarmaqda idi). Gög tanrıqa mən ötədim (42-ji sətir [2]; Göy tanrıya // səmaya mən dua etdim).

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

**ƏDƏBIYYAT**

1. Əliyev Y.V. Qədim türk dövründən orta türk dövrünə keçid: dil subyektləri, dil prosesləri / AMEA Nəsimi adına Dilçilik İnstitutu. Tədqiqlər, II, Bakı: Elm, 2004, s. 194-192.
2. Oğuz xaqan dastanı / Türk dillərinin morfologiyasına dair araşdırmalar, Bakı: Bakı Universiteti nəşriyyatı, 1990, s. 78-88
3. Vəliyev K. Orxon abidələri və «Kitabi-Dədə Qorqud» / Azərbayjan filologiyası məsələləri (III buraxılış). Bakı: Elm, 1991, s. 167-175
4. Gökyay O.Ş. Hayatı ve eserleri. Ankara: Kültür bakanlığı yayınları, 1989, 328 s.
5. Adjalov A. Transformaüii odnoqo drevnevostoçnoqo gpiçeskoqo obraza v sravnitelğno-tipoloqiçeskom osvehenii / Azərbayjan filologiyası məsələləri (II buraxılış), Bakı: Elm, 1984, s. 223-228
6. Malov S.E. Pamətniki drevnetörkskoy pisğmennosti. Tekstı i issledovaniə. Moskva-Leninqrad: izd. AN SSSR, 1951, 452 s.
7. Raşidad-Din F. Oquz-name. Baku: Glm, 1987, 97 s.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# XIII-XIV ƏSRLƏR ANA DILLI EPIK ŞEIRIMIZDƏ DASTAN MOTIVLƏRI

***YAQUB BABAYEV***

Məlum olduğu kimi, XIII-XIV yüzilliklər ana dilli Azərbaycan ədəbiyyatının təşəkkül və ilkin inkişaf dövrüdür. Əlimizdə milli dildə daha əvvəlki dövrlərə aid bədii nümunələrin olmaması bizi bu fikri söyləməyə vadar edir. Həmin dövr ana dilli epik poeziyamız bu gün bizə bəlli bir neçə poema ilə təmsil olunur: Müəllifi bəlli olmayan «Dastani-Əhməd Hərami»; Yusif Məddahın «Vərqa və Gülşah»ı, Qul Əlinin «Qisseyi-Yusif»i; Mustafa Zəririn «Yusif və Züleyxa»sı; Suli Fəqihin «Yusif və Züleyxa»sı.

Biz bu beş poemanın sırasına son zamanlar üzə çıxarılmış İsa adlı şairin «Mehri və Vəfa» məsnəvisini də əlavə edə bilərik. Ədəbiyyatşünas alimlər K.Şərifli və A.Şərifli tərəfindən elmi ictimaiyyətə çatdırılmış həmin poemanın (5) XIII-XIV əsrlərin ədəbi abidəsi olmasını sübut edən dəlillər kifayət qədər əsaslıdır. Elə buna görə də biz bu əsərdən də bəhs etdiyimiz ədəbi-tarixi mərhələnin bədii təfəkkür məhsulu kimi söhbət aça bilərik.

Beləliklə, mövzu obyekti kimi götürdüyümüz dövrə aid hal-hazırda milli dildə altı poema vardır. Əlbəttə, həmin tarixi kəsimdən bizi 600 illik sürəkli bir tarixi dövrün ayırdığını nəzərə alsaq, altı rəqəmi heç də pis göstərici deyil.

İndi keçək başqa mətləbə. Adını çəkdiyimiz poemalardan üçü «Yusif və Züleyxa» mövzusunda qələmə alınmışdır. İstər bu üç əsərlə, istərsə də o birisi epik poeziya örnəkləri ilə tanışlıq belə deməyə əsas verir ki, XIII-XIV əsrlərdə ərsəyə gələn epik şeirimiz xalq yaradıcılığı, o cümlədən dastançılıq ənənələri ilə sıx bağlı olmuşdur. Biz adı çəkilən əsərlərin hər birində bu və ya digər dərəcədə dastan motivlərinin təzahürünü görürük. Sadəcə olaraq bəzi nümunələrdə bu təzahür daha qabarıq və əhatəli, bəzisində isə qismən azdır. Hər bir əsərdə dastan motivlərinin fərdi qaydada, obrazlı ifadə ilə desək, məxsusi dozada təzahürünü nəzərə alsaq, bu poemaları dediyimiz yönümdə fərdi olaraq elmi təhlilə cəlb etmək daha münasib görünür.

1928-ci ildə türk alimi Tələt Onay tərəfindən tapılmış «Dastani-Əhməd Hərami»nin müəllifi bəlli deyil. XIII yüzilliyə aid olduğu qüvvətli ehtimalla güman edilən bu abidədə dastan ənənələri xeyli güclüdür. Əvvələn, onu deyək ki, bu süjetin özü əslində folklor materialıdır. Başqa sözlə, süjet eynilə xalq nağıllarını xatırladır. Çox güman ki, müəllif o zaman mövcud olan eyni xalq nağılının süjeti əsasında bu mövzunu qələmə almışdır. Həm də bu elə nağıl imiş ki, onda folklorun digər epik janrı olan dastan elementləri də yox deyilmiş. Bundan əlavə müəllifin özü də süjeti oxucuya (və ya dinləyiciyə) nağıl, qissə kimi deyil, məhz dastan şəklində təqdim etməyə meyllidir. Belə bir təşəbbüs poema – məsnəvinin adında bariz surətdə özünü göstərir. Yəni ünvan – ad «Qisseyi-Əhməd Hərami», yaxud «Əhməd Həraminin nağılı» kimi yox, məhz «Dastani-Əhməd Hərami» şəklində müəyyənləşdirilir. Poetik təhkiyə başlayanda da elə ilk beytdəcə müəllif nağıl və ya qissə deyil, dastan söyləməyin əsasını qoyduğunu bəyan edir:

*Bu dastanı bu gün bünyad edəlim,*
*Həqin qüdrətlərin biz yad edəlim. (3, 14)*

Haqqında danışdığımız əsəri dastanlarla bağlayan başqa notlar da mövcuddur. Məsələn, poema yazılı ədəbi ənənəyə uyğun olaraq fəsillərə yox, məclislərə bölünmüşdür. Sanki sənətkarın auditoriyası oxucu deyil, dinləyici kütləsidir. Bəllidir ki, məclis dastanların söylənildiyi ictimai məkandır. Şair bilərəkdən fəsilləri məclislərlə əvəz edir. Müəyyən mənada sərlövhədə və təhkiyənin ilk məqamında nəzərdə tutduğu, verdiyi vədi izləyir. Onun diktəsinə müvafiq hərəkət edir.

Poemada folklor müstəvisində özünü göstərən bəzi sakral rəqəmlərlə rastlaşırıq. Məsələn: 3, 7, 9 və 40 rəqəmləri: Əhməd Həraminin quldurçuluq, yol kəsmək və qarətlə məşğul olan 9 yoldaşı vardır. Onun Bağdad sultanının qəlbini ələ almaq və ona xoş gəlmək üçün gətirdiyi bütün hədiyyələrinin sayı 7-dir: 7 oğlan, 7 qız, 7 qılınc, 7 at. Onun gətirdiyi gövhərlərin sayı isə 3-dür. Şiraz hökmdarı Güləfrux Güləndamın məsləhəti ilə Əhməd Həraminin təhlükəsindən qurtarmaqdan ötrü 40 pilləkanlı saray tikdirir və s.

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Poemadakı obrazların bənzərlərinə biz dastanlarda rast gəlmişik. Əhməd Hərami və onun yoldaşları bəzi dastanlarda təsadüf edilən yolkəsən, quldur obrazlarını xatırladır. Güləndamı ölümdən xilas edib Şiraza aparan tacir, karvanbaşı Xoca Rüstəm surəti də dastanlarda qarşılaşdığımız xilaskar və ya xeyirxah bəzirgan obrazlarının tipik paralelidir.

Əsərdə ideya-süjet münasibətlərinin bədii həlli, əlaqə və bağlılıq prinsipləri də folklor, o cümlədən dastan motivinə söykənir. Deyilən prinsipi belə izah etmək mümkündür: nağıl və dastanlarda ideya-süjet münasibətləri, adətən, bu cür ənənəvi prinsip əsasında qurulur: «ideyadan süjetə». Yəni ideya əvvəldən hazır olur. Süjetin gedişatı ideyaya tabe tutulur. Yəni süjet ideyanın tələbləri əsasında qurulur. Burada həyati gerçəklik, realist metodun tələbləri bir o qədər də nəzərə alınmır. Hadisələr həyatın diktəsinə yox, müəllifin istəyinə əsasən qurulur. Eyni məziyyəti biz «Dastani-Əhməd Hərami»də də görürük. Poemada təlqin olunan ideya mahiyyət etibarı ilə belə bir düsturla ifadə edilə bilər: «xeyirin şər üzərində qələbəsi». Bu, bəşər ədəbiyyatı, xüsusilə folklor materialları üçün həmişəyaşar ideyadır. Məsnəvi müəllifi də sanki ideyanı bir şablon olaraq əvvəldən seçib hazırlamışdır. İndi ona uyğun süjet qurmaq lazımdır. Mövzu seçimindən tutmuş süjetin son epizoduna, ideyanın reallaşma məqamına qədər deyilən prinsip və onun gerçəkləşməsinə cəhd aydın surətdə sezilir. Əlbəttə, ideya-süjet münasibətlərindəki bu motivləşmə dastançılıq ənənəsində də mövcuddur. Belə ki, məhəbbət dastanlarında daha çox süjet aşiq və məşuqun qovuşmasına, vüsala, nikbin finala hesablanır. Qəhrəmanlıq dastanlarında da çox vaxt qəhrəman sonda qalib gəlir. Final təntənəli ideyanın ifadəsinə xidmət göstərir.

İsanın «Mehri və Vəfa» poemasında da mənzərə təxminən «Dastani-Əhməd Hərami»də olduğu kimidir. Fərq burada dastan ünsür və elementlərinin kəmiyyətcə daha artıq, mahiyyətcə daha gur olmasındadır. Əgər ikinci əsər təkqəhrəmanlıdırsa, müəllif tərəfindən ancaq Əhməd Həraminin «dastanı» - əhvalatı kimi təqdim edilirsə, birinci əsərin istər fabulası, istərsə də obrazlar aləmi iki qəhrəmanlı bədii sistem üzərində qurulmuşdur. Bu sistem eynilə məhəbbət dastanlarında olduğu tərzdədir: cüt qəhrəman – aşiq və məşuq, onların bir-birinə «buta» verilməsi, ayrılığı və qovuşmaq ümidilə apardıqları mübarizə, başlarına gələn çətinlik və macəralar, nəhayət, vüsal.

«Mehri və Vəfa» süjet və hadisələrin aurası baxımından xalq nağıllarından fərqlənmir. «Əhməd Hərami»də olduğu kimi burada da süjetin nağıllardan əxz edildiyi dərhal sezilir. Ancaq əhvalatı məsnəviləşdirən şair onu auditoriyaya nağıl yox, dastan kimi təqdim niyyəti güdür:

*Eşid imdi eşq yüzündən bir xəbər,*
*Edə bən bir dastan ki, mötəbər. (5, 40)*

Əsərin məsnəvləşmiş mətnində belə bir bədii üsul və üslub, poetik dəsti-xətt və əməliyyat aydın surətdə özünü təzahür etdirir ki, sənətkar mövzunu qələmə alarkan, daha doğrusu, xalq nağılını yazılı ədəbiyyat abidəsinə – poemaya çevirmək istəyərkən onu «dastan» süzgəcindən keçirir. Onun aurasına və ruhuna dastan motivləri əlavə etməyə səy göstərir.

Poemanı ilk dəfə tapıb üzə çıxaran və nəşr etdirən filoloq alimlər K.Şərifli və A.Şərifli əsərə yazdıqları geniş müqəddimədə onun dastanlarla bağlılığını xüsusi olaraq vurğulamışlar. Onların belə bir qənaəti inandırıcı və əsaslıdır ki: «Məsnəvinin ruhu, dili, məzmunu və təhkiyə tərzi ozan ədəbiyyatımızdan qidalanmış bir bədii ədəbiyyat nümunəsidir. Xalq dastanlarında olduğu kimi bu məsnəvinin mövzusu və orada cərəyan edən hadisələr iki haqq aşiqi – Mehri ilə Vəfa arasında olan məhəbbət macəralarını əhatə edir.» (5, 12)

Forma – struktur baxımından da müəllif poemaya dastan poetikasının mümkün notlarını əlavə etməyə çalışır. Əsərin təhkiyə, dil-üslub xüsusiyyətlərinin dastançılıq ənənəsinə uyğunlaşdırılması (yazılı ədəbiyyat materialının imkan verdiyi ölçüdə) bu təşəbbüsün nəticəsidir. Yaxud dastanlarda qəhrəmanların istək, hiss və duyğularını əvəz edən heca vəznli lirik şeirləri «Mehri və Vəfa»da (əruz vəznində yazılmış əsərdə) əruz vəzninin tələbinə uyğun olaraq qəzəllər əvəz edir. Əsərdə mətn daxilində qəhrəmanların dilindən qəzəllər verilir.

Məhəbbət dastanlarında rast gəldiyimiz ənənəvi motivlərdən biri «buta vermə» epizodudur. Bir sıra məhəbbət dastanlarında bu epizod hadisələrin

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

rolunu oynayır və süjetin gedişatı üçün xüsusi əhəmiyyət kəsb edir. Həmin motivə biz haqqında danışdığımız poemada da təsadüf edirik. Belə ki, Əmman sultanının qızı Mehrini təhlükədən xilas edən Xızır Mehrini ona «buta» verir. Həmin əhvalatı Mehri Vəfaya danışarkan deyir:

*Sən gələcəksən, dedi Xızır bana,*
*Tanrı əmrilə bəni verdi sana. (5, 46)*

Dastanlarımızda «ölməli olan başqa birisinin əvəzinə ömür vermə və onu ölümdən xilas etmə» epizodu da bir fədakarlıq əməli kimi özünə yer tapmışdır. Dədə Qorqud dastanlarında «Duxa Qoca oğlu Dəli Domrul» boyunda Dəli Domrulun zövcəsi öz ərinin əvəzində ölməyə və ömrünü ona bağışlamağa razı olur və bu fədakarlığı ilə ərini ölümdən qurtarır. «Mehri və Vəfa»da da həmin epizodun oxşarı mövcuddur. Əsərdə təsvir olunur ki, Məğrib sultanının göndərdiyi qadın – Cadu Vəfanı boğazlayıb öldürür. Gəlib Vəfanın meyidini tapan qardaşı Xızırdan onun dirildilməsini xahiş edir. Xızır bunun mümkünlüyünü, lakin bunun əvəzində kiminsə öz ömrünün müəyyən hissəsini ona (Vəfaya) bağışlamalı olduğunu deyir. Qardaşı ömrünün yarısını Vəfaya bağışlamağa razı olur və beləliklə, Xızırın duası və yardımı ilə Allah onu dirildir.

Mifik Xızır obrazı da dastanlarımızda müsbət səciyyəli xarakter – əməl mücəssəməsi kimi yer almaqdadır. «Aşıq Qərib və Şahsənəm» dastanında çətin vəziyyətə düşən qəhrəmana – Qəribə Xızır mədədçi olur. Onu atının tərkinə mindirib bir anda çox uzaq məsafədən sevgilisinin toyu olacaq məkana çatdırır. Bir xeyirxah kimi Qəribin – aşiqin müşkülünü həll etməkdə, sevgilisinə qovuşmaqda ona himayəçi olur. «Dədə Qorqud»un 1-ci boyu «Dirsə xan oğlu Buğac» boyunda isə Xızır xilaskarlıq missiyası yerinə yetirir. O, ağır yaralanmış Buğacın yarasının məlhəminin nə olduğunu söyləməklə onu ölümdən qurtarır. Yaralı Buğac onun başı üstündə ağlayan anasına deyir: «Ana, ağlamağıl, mana bu yaradan ölüm yoxdur, qorxmağıl! Boz atlı Xızır mana gəldi. Üç kərrə yaramı sığadı. «Bu yaradan sana ölüm yoqdur. Tağ çiçəgi, anan südi sana məlhəmdir», - dedi». (6, 39)

«Mehri və Vəfa»da Xızır iki dəfə xilaskarlıq vəzifəsi icra edir və hər iki qəhrəmanın – həm aşiqin, həm də məşuqun mədədçisi vəzifəsini yerinə yetirir. Birinci dəfə o, dənizdə qərq olan gəmidəki Mehrini və onun qulluqçusunu təhlükədən qurtarır. İkinci dəfə isə Cadunun boğazlayıb öldürdüyü Vəfanı diriltmək üçün Allaha dua edir. Onun vasitəçiliyi və dualarının səbəbilə Tanrı aşiqi dirildir. Deməli, dini-mifik və əsatiri düşüncədən yaranan Xızır obrazı həm folklorda, həm də yazılı ədəbiyyatda eyni missiya və məfkurənin daşıyıcısı kimi diqqəti cəlb edir.

Məlum olduğu kimi qədim türklərdə qurd totem səviyyəli bir obraz olaraq mifik – əsatiri düşüncədə bədii-fəlsəfi mahiyyət kəsb edir. O, türk qövmünün xilaskarı statusunda əski türk dastanlarına da yol tapmışdır. Keçilməz-çıxılmaz bir məkana düşən türk qövmü yalnız qurdun köməyi ilə nicat tapır, onun sayəsində qurtuluşa nail olurlar. Əski türk dastanlarındakı bu motiv «Mehri və Vəfa»da da mikromiqyasda öz bədii əksini tapmışdır. Burada qurd bir qövmün yox, qəhrəmanın mədədçisi, yolgöstərəni rolunda çıxış edir. O həm Vəfaya, həm də onun qardaşına yol göstərir. Onlar haraya gedəcəklərini məhz meşədə gördükləri qurdun vasitəsi ilə müəyyənləşdirir və son nəticədə qələbəyə nail olurlar.

XIV əsr şairi Yusif Məddahın «Vərqa və Gülşah» poemasının mövzu və süjeti ərəb əfsanəsidir. Yəni yazılı ədəbiyyata yol tapan və islam şərqində ənənəvi səyyari süjetlər sırasında qərarlaşan bu əsərin genetik kodu birbaşa folklora bağlıdır. Süjetin özündə dastan elementləri ilə ciddi oxşarlıq, hətta eynilik təşkil edən bir sıra epizod və detallar mövcuddur. Bundan əlavə Azərbaycan şairi mövzunu işləyərkən ona oxucu üçün maraqlı, cəzbedici olsun deyə dastan ruhu təlqin etməyə çalışmışdır. Bu əlamət birinci növbədə məsnəvinin təhkiyə sistemində, hadisələrin poetik danışıq, söyləmə tərzində özünü büruzə verir. Bundan əlavə «Mehri və Vəfa»da olduğu qaydada bədii mətn (məsnəvi formasında nağıl edilən əhvalatlar) qəzəllərlə bəzədilir. Biz forma – strukturla bağlı bir məziyyəti Mustafa Zəririn, həmçinin Suli Fəqihin «Yusif və Züleyxa» poemalarında da görürük. Görünür, əruz vəznli epik mətnlərin içərisində qəzəllər vermək XIII-XIV əsrlər ana dilli poeziyamızda bir ənənə imiş. Belə bir forma – struktur biçimi poemaları dastanlara yaxınlaşdırır. Dastanlardakı nəsr hissəni poemalardak

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

reallaşır) hissəsi, heca vəznli lirik şeirləri isə qəzəllər əvəz edir. Həm də hər iki mətndə lirik nümunələr vəzn və janrca fərqli olsa da, eyni məqsədin ifadəsi ilə bağlı olur.

«Vərqa və Gülşah»da müxtəlif dastanlarda rast gələnən bir sıra maraqlı motiv və epizodlar vardır. Məsələn: 1.Övladı olmayan şəxsin uzun çətinlikdən, nəzir-niyazdan sonra övladı olur. Poemada bunlar Hümam və Hilal şahdır. Böyük çətinliklərdən sonra onların hər ikisinin övladı dünyaya gəlir. Hümamın oğlu, Hilalın isə qızı doğulur; 2.Köbəkkəsdi etmə. Bu uşaqlar doğulduqda valideynləri onları «köbəkkəsdi» edir. Böyüyəndə bir-birilə evləndirəcəklərini vəd edirlər; 3.Adaxlı olan iki gəncin müəyyən səbəb nəticəsində evlənə bilməməsi və məcburi şəkildə ayrı düşmələri, bir-birinə qovuşmaq uğrunda mübarizələri; 4.Aşiq və məşuqu ayıran şər qüvvələrin mövcudluğu; 4.Ölən şəxsin dirilməsi və bunun əvəzində kiminsə can verməli olması.

Sonuncu epizod dastanlar üçün tipik olmasa da, hər halda təsadüf edilən epizoddur. «Vərqa və Gülşah»da bu, aşağıdakı şəkildə öz əksini tapmışdır: Möhsün şahın alicənablığı qarşısında Gülşah ilə evlənməkdən imtina edən Vərqa özünü öldürür. Bu ayrılığa dözməyən Gülşah da intihar edir. Ancaq bir müddət sonra Məhəmməd peyğəmbər gəlib oraya çıxır. Camaat xahiş edir ki, bu nakam sevgililəri diriltsin. Peyğəmbər razılaşır. Amma kimsə bunun əvəzində can verməlidir. Möhsün şah, Ömər, Osman və Əli can verməyə razılaşırlar. Bu, Allaha xoş gəlir və o, sevgililəri dirildir.

Göründüyü kimi, «ölən şəxsin dirilməsi» (və ya «ölməli olan şəxsin bağışlanması») motivi müxtəlif süjetlərdə mahiyyətcə bir o qədər də fərqlənmir.

«Vərqa və Gülşah»ın mövzusu, həmçinin aşiq və məşuqdan ibarət baş qəhrəman cütlüyü də məhəbbət dastanlarının parametrlərinə xeyli uyğundur. Vərqanın aşiqanə qəhrəmanlığı ilə qılınc qəhrəmanlığının qovuşması, onun fiziki cəngavərliyi və bahadırlığı isə qəhrəmanlıq dastanlarının ənənəvi motivi ilə səsləşir. Ümumiyyətlə, bu süjetin ideya-məzmun xüsusiyyəti və obrazlar aləmi dastanlaşma prosesi üçün kifayət qədər əlverişlidir. Görünür, bu ədəbi hadisə ona görə baş verməmişdir ki, süjet milli deyil, gəlmədir. Ərəb ictimai gerçəkliyi ilə bağlıdır. Elə buna görə də ozan-aşıqlar onu sırf milli dastan şəklinə salmağa meylli olmamışlar. Süjetin yadlığı onu xalq yaradıcılığının milli meydanına gətirməyə maneəçilik törətmişdir.

XIII-XIV yüzilliklərdə Azərbaycan türkcəsində üç poema meydana gəldiyi bəllidir. Şairlərdən biri – Qul Əli əsərini «Qisseyi-Yusif», digər ikisi – M.Zərir və S.Fəqih isə «Yusif və Züleyxa» adı ilə qələmə almışlar. Bu süjet həm «Tövrat»da, həm də «Quran»da geniş yer verilmişdir. «Tövrat»ın I kitabı olan «Təkvin»də dediyimiz əhvalat geniş şəkildə danışılır. «Quran»ın 111 ayədən ibarət «Yusif» surəsi (XII surə) də bütövlükdə əhvalatın təcəssümünə həsr edilib. Əhvalat islam coğrafiyasında yazılı ədəbiyyatda çox işlənən ənənəvi mövzular silsiləsinə daxildir. Ancaq islam regionunda qələm sahibləri mövzunu işləyərkən «Tövrat»dan daha çox «Quran»dan faydalanmışlar.

Yusif qissəsi folklorda müəyyən əks-səda doğurur, bu mövzuda ərsəyə gələn bədii əsərlərin mətnində, epizod və forma-məzmun sistemində müəyyən məqamlarda folklorlaşma tendensiyası hiss edilir. Lakin bu motiv cüzidir, həmin əsərlərin ruhuna hopmur, dərinə işləmir. Görünür, qissənin dini-əxlaqi ideya və mahiyyəti, onun «Quran»la bağlılığı bu meylin rəvac tapmamasında əsas səbəb rolunu oynamışdır. Hətta əhvalatın cüt qəhrəmanlı (aşiq və məşuq – Yusif və Züleyxa) xarakteri də bu işdə elə bir əhəmiyyət kəsb etməmişdir. Buradakı eşq macərası ibrətamiz dini prizmanın arxasında qaldığından, ona qüdsi hadisələrin linzasından baxıldığından dastanlaşma üçün münasib hesab edilməmişdir. Beləliklə, haqqında söhbət açılan mövzuda yazılan əsərlərdə dastan motivlərinin varlığından danışmaqdan ötrü tutarlı faktlar mövcud deyil.

XIII-XIV yüzilliklərdə fars dilində yazılmış epik poeziya örnəklərimizin bəzilərində də dastanlarla müəyyən bağlılıq müşahidə olunur. Həmin abidələr içərisində Əssar Təbrizinin «Mehr və Müştəri» poeması xüsusilə diqqəti cəlb edir. Poemanın mövzusu 1926-cı ildə Təbrizdə nəşr olunmuş «Mehr və Mah» adlı xalq dastanı ilə ciddi yaxınlıq, oxşarlıq təşkil edir. Ə.Təbrizi irsinin tədqiqatçısı Q.Cahani haqlı olaraq yazır: «Azərbaycan xalq dastanlarında dostluq və sədaqət motivlərindən bəhs edilmişdir. Ancaq bu dastanlar içərisində

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mövzusu «Mehr və Müştəri» poemasının mövzusuna daha yaxın olduğundan şairin əsərin mövzusunu bu dastandan aldığı ehtimalı qüvvətlidir» (13, 32).

Əlbəttə, fars dilli epik şeirimizdə dastan motivlərini izləmək bizim mövcud elmi araşdırma obyektimizə daxil deyil. Biz belə bir məqsəd izləmirik. Sadəcə olaraq onu xatırlatmaq istəyirik ki, XIII-XIV əsrlərə aid epik poeziyamız (istər fars, istərsə də ana dilində olsun) folklorla, o cümlədən dastanlarla bağlı olmuş, həmin ədəbi bazadan bir çox şeylər əxz etmişdir. Ümumiyyətlə, xalq yaradıcılığı yazılı ədəbiyyat üçün həmişə münbit və əlverişli zəmin rolunu oynamışdır.

**ƏDƏBIYYAT**


1. Azərbaycan dastanları. 5 cilddə. I-V cildlər. Bakı, Azərb. SSR EA nəşri, 1965-1970.
2. Azərbaycan nağılları. 5 cilddə, I-Vcildlər. Bakı, Azərb. SSR EA nəşri, 1960-1964.
3. Dastani-Əhməd Hərami (tərtib edən: Səfərli Ə.). Bakı, Gənclik, 1978.
4. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Maarif, 1992.
5. İsa. Mehri və Vəfa (tərtib edənlər: Şərifli K., Şərifli A.). Bakı, «İrşad» mərkəzi, 2001.
6. Kitabi-Dədə Qorqud (tərtib edənlər: Zeynalov F., Əlizadə S.). Bakı, Yazıçı, 19.
7. Koroğlu (tərtib edəni: Təhmasib M.H.). Bakı, Azərnəşr, 1975.
8. Qul Əli. Qisseyi-Yusif (tərtib edən: Əlibəyzadə E.). Bakı, Azərnəşr, 1995.
9. Mustafa Zərir. Yusif və Züleyxa (tərtib edənlər: Qəhrəmanov C., Xəlilov Ş.). Bakı, Elm, 1991.
10. Suli Fəqih. Yusif və Züleyxa (tərtib edəni: Hacıyeva Z.) Bakı, Maarif, 1991.
11. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı, Elm, 1972.
12. Yusif Məddah. Vərqa və Gülşah (tərtib edənlər: Qəhrəmanov C., Hacıyeva Z. ). Bakı, Elm, 1988.
13. Cahani Q. Əssar Təbrizinin «Mehr və Müştəri» poeması. Bakı, Azərb. SSR EA nəşri, 1968.



**Эпосные (легендарные) мотивы в эпических стихах на родном языке в XIII-XIV веках**

Первые примеры литературы, написанные на азербайджанском языке, относятся XIII-XIV векам. В этот период, помимо лирических стихов, также написаны несколько поэм. Их шесть. Эти самые поэмы являются первыми эпическими памятниками поэзии на азербайджанском языке. Народная литература, а также эпосы определенно подействовали на эти поэмы. В этой статье мы постарались наблюдать влияние эпосов на эпические произведения, написанные в XIII-XIV веках.

**Epos motives in epic poetry on native language in XIII-XIV centuries**

The first examples of Azeri literature are related to XIII-XIV centuries. At this period besides liric poetry are written several poems. They are six. These poems are the first epic monuments of the Azeri poetry. Folk literature and eposes definitely effected to these poems. At this article we tried to observe an influence of eposes to epic works written in XIII-XIV centuries.


Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# DESTANÎ KATMANLAŞMA SÜRECİNDE TÜRK KÜLTÜRLÜ HALKLARDA KADIN TEMASI İLE LGİLİ İNANÇLAR (TÜRK HALK İNANÇLARINDA KADIN)

***YAŞAR KALAFAT***

## GİRİŞ.

Halk inançlarında kişioğlu ile ilgili bilgilere bakılınca, onlarda kadın kişi ile ilgili olanların er kişi ile ilgili olanlardan farklılık arz edebilen hallerin de olduğu görülebilmektedir. Bu inançlarda bazen kadının önemi artabilirken çok kere erkeğin daha itibarlı bir konumda olduğu görülebilmektedir. Esasen bu durumu anlatırken "itibar" dan daha farklı bir belirleyici söz konusudur. Dişilik ve erkeklikten, dişiliğin erkeklikten farklı bir içeriği vardır ve bu içerik inanç muhtevalıdır. Bu teşhisi, insanoğlunun dişisine yüklenen anlam ile erkeğine yüklenen anlamın farklı olduğunu halk inançlarından hareketle koyabilmek mümkündür. Bu gözlemlere dair bilgileri tarihlendirirken ve bilgileri Türk kültür coğrafyasına yayıp tekrar toplamaya kalkınca, bulguları anaerkillik ve onun alt başlılığı olan kavramlarla anlatabilmek de pek kolay olmamaktadır. Adeta değerlerde kesif bir anafor yaşanmış, bir karmaşa oluşmuştur. Bu fotoğrafı çok net çekip tap etmek kolay değil, ancak başka çalışmalarla daha verimli bir çekim ve tap için bulgular ve düşündürdükleri paylaşılabilir. Bizim bu irdeleme yazımızla yapmaya çalışacağımız da bu olacak.

Biz günümüz Türk kültüründe kadının hak ettiği yerini alabilmesi için onun geçirdiği sosyo-kültürel evrimin bilinmesinde halk inançları çalışmaları verilerinin de katkısı olabileceğine inanıyoruz. Bu veriler inanç antropolojisi kapsamında ele alındıklarında onların sorun çözücü çalışmalara ışık tutucu da olabileceklerini düşünüyoruz.

## METİN.

Halk inançları kültüründe buluğ çağına gelebilmiş olmak bazı masumiyetlerin yitirilmesi şeklinde algılanır. Adeta yaş dönümü ile safiyet dönemi gerilerde kalmıştır. Bu yaşlarda ölen çocuklara melek gözü ile bakılır bunlara sorgu sualin olmadığı ifade edilir. Bu tutum ve anlayış cinsiyet gözetilmeksizin bütün çocuklar için geçerlidir.[308] Ancak bu eşit bakma her zaman böyle değildir. Mesela yağmur duası için "**yağmur gelini**" yapılır da "**yağmur damadı**" yapılmaz. Gerek Kuzey Afganistan'ın Türk bölgesinde ve gerekse Türkiye'de Bolu bölgesinde yağmur gelini çocuk yaştaki kızlardan ve bilhassa yetim olanlardan seçilir. Yağmur Duası'na halk hayvanları dâhil toplu çıkar ve yağış için birlikte yakarırken, Allah'ın merhametini çeşitli uygulamalarla cepletmeğe çalışırlar. Böylece insanlardan buluğ çağına girmemiş olanlar ve onlardan da yetim olanlar seçilirken seçim kız çocuklarından olmaktadır.[309]

Kız çocuklarının bu farklılığı "**büyü bozma**" ve "**tılsım çözme**" uygulamalarında da gündeme gelmektedir. Büyü bozulmasında yöntemlerden birisi de "**tasa bakmak**" dır. İçerisinde su bulunan tasa bakarak görünmeyen ve bilinmeyenler konusunda keşif yapacak kimsenin yardımından yararlandığı kimse buluğ yaşına girmemiş kız çocuğudur.[310] Halk inançlarında bilinmeyenin mesela kayıp eşyanın yerini keşfinde veya muammaların çözümlenmelerinde Hak âşıkları kalp gözü açık kimselerde hikmet aranır. Buradan hareketle kız çocuğunun manevi mertebe edinmişlik bakımından diğer cinsten olandan üstün olduğu kabulünü görüyoruz.

---

[308]Yaşar Kalafat "Anadolu ve Yakın Çevresi Türk Halk İnançlarında Ölüm Veya Halk İnançlarımıza Göre Yatır Ziyareti" **Geçmişten Günümüze Mezarlıklar Kültürü ve İnsan Hayatına Etkileri Sempozyumu,** (18–20 Aralık 1998 AKSM – İstanbul) İstanbul 1999 s. 239–271

[309]Yaşar Kalafat "Türk Kültür Coğrafyasında Yağmur Duası" **Yağmur Duası Kitabı**, Hazırlayan M. Sabri Koz, Kitabevi, İstanbul 2007, sf. 195–225

[310] Yaşar Kalafat "Hatay ve Çevresi Örnekleri İle Kültürlü halklarda **'Fal'** İnancı", Hatay Ta
Nisan 2008, Hatay Folklor Araştırma Derneği

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Belə əfsanələrin mayasını inanclar təşkil edir. Inanclara əməl edənlər və əməl etməyənlər əfsanələrdə daşa, ağaca və s. çevrilə bilir. Məsələn, çoban inanca əməl etmədiyinə görə daşa çevrilir (tabu), yaxud gəlin əməl edir, bu inanc onu ağaca yaxud quşa döndərir. Əfsanə və rəvayətlərin bir xüsusiyyəti də odur ki, müxtəlif zaman çevrəsində yaranan bu nümunələr zamanın sonrakı təsirlərinə məruz qalaraq, formasını, üslubunu, hətta dil xüsusiyyətlərini, bədii ifadə vasitələrini artırır, ya azaldır, təkmilləşir, əvvəlki variantından seçilmək imkanına malik olur (3, s.70). Əfsanələrdə romantika, xəyal, emosiya, təxəyyül xalqın fantaziyasında birləşir. Əfsanənin tarixə münasibətindən danışan Y.V.Çəmənzəminli qeyd edir: «Ağıl və əfsanələr kimi zaman və məkan tanımayan xalq ədəbi nümunələrinə ehtiyatla yanaşmalıyıq. Bunlarda müəyyən tarixi etiqadların izi görünə bilər» (2, s.72).

Hər bir əfsanə və rəvayətin əsasını hansısa mifoloji görüş, konkret desək, mifik düşüncə təşkil edir. Mifik düşüncə isə mətn formasında miflərdə əks olunur. Eyni bir mifik düşüncənin müəyyən fərqlərlə həm mifdə, həm əfsanədə, həm də rəvayətdə əks

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu, mifdə əks olunmuş dünyagörüşün əfsanə və rəvayətə transformasiyası deməkdir. Deməli, özlüyündə mif ilkindir, əfsanə və rəvayət isə mətn tipi kimi onun törəməsidir. Mifin mətn işarəsi əsatirdir. Miflə əfsanə və rəvayət arasında olan yaxınlıq əsatirdən qaynaqlanır. Əsatir mif deyil, mifdə əks olunmuş mifoloji dünyagörüş sisteminin saxlandığı vizual qəlibdir. S.Paşayev yazır ki, əsatir sadəcə olaraq, günəş, ay, ulduz, tanrılar panteonu, ümumiyyətlə təbiətdə baş verən müxtəlif əhvalat və hadisələr haqqında hekayətlər toplusu deyil. Əsatir əslində təbiət, yaxud həyat hadisələrinə adamların baxışını, xəyali bir şəkildə əks etdirən şifahi hekayətlərdir (3, s.11). Bu şifahi hekayətlər müxtəlif məzmunlarda – kosmoqonik, etnoqonik, təqvim, esxatoloji şəkillərdə funksiyalaşaraq hazır qəliblərə sığışdırılır. Əsatir mifoloji düşüncə mətn işarəsi kimi qeyri-bərabər paylanır. Bu, yaddaşdan asılı olan məsələdir. Yaddaş saxlancı bütöv olanda hər hansı dünyagörüş modeli qəlibə tam yerləşir. Mif dünyagörüşündən danışanda əsatirə ekvivalent kimi mif sözü – termini mətnin adını da təyin edir.

Miflər insanın gündəlik həyat fəaliyyəti ilə bağlıdır. Hərəkət həyat fəaliyyətinin dinamikası olub insanların məşğuliyyətinin əsasını təşkil etmişdir. Ovçuluq və s. məşğuliyyət sahələri ilə məşğul olarkən ov ilə insan arasındakı düşüncədəki bağlılıq mənəvi birliyin atributu kimi arxaik təsəvvürlərin genişlənməsinə səbəb olur. Deməli, hərəkət mif düşüncəsinin əsasını təşkil edir. Təbiət haqqında mifikcəsinə düşünən insan öz hərəkətlərinin toplusunu ilkin yaradıcılıqda əks etdirir. Bu yaradıcılıq mürəkkəb proses olub həm də arxaik epikanın mürəkkəbliyinə səbəb ola bilir. Bu arxaik epikanın ilk nümunəsi isə epos düşüncəsində üzə çıxır. Epos düşüncəsi ibtidai insanın mifik dünyagörüşünü, fəaliyyət sferasını, qəhrəmanlıq hadisələrini, təbiət və cəmiyyət əlaqələrini və s. özündə birləşdirir. Epos düşüncəsində inkişaf mürəkkəbdən sadəyə doğrudur. Əvvəlcə ilk insan kosmosu bütün mürəkkəbliyi ilə dərk edir, sonra onu obrazlaşdırır və düşüncəsində birləşdirir. Daha sonra bu düşüncəyə təbiətlə bağlılıq da əlavə olunur. Bütün bunlar bir mürəkkəblik isində birləşdikdən sonra hər bir səbəb və nəticənin ayrılıqda dərk olunması prosesi gedir. Beləliklə, epos düşüncəsindəki mürəkkəblik ayrı-ayrı təbiət hadisələri şəklində şüurda qavranılır. Konkret mif düzümü epos düşüncəsinin parçalanmasından sonrakı proses olaraq ortaya çıxır. Bu isə insanın yaradıcılıq imkanlarının genişlənməsi deməkdir. Bu mənada mif, rəvayət və əfsanələr arasındakı bağlılığı genetik xarakterdə olduğunu qeyd edirlər (1, s.10). Lakin bunlarda təkcə genetik əlaqə yox, həm də tipoloji əlaqə də vardır. Eyni süjet xəttinin həm mif mətnində, həm rəvayət mətnində, həm də əfsanə mətnində təkrarlanması süjet tipologiyasının yaranmasına səbəb olur. Məhz bunun nəticəsidir ki, tədqiqatçılar (I.Abbaslı, S.Paşayev, N.Qurbanov və b.) eyni süjetli əhvalatlardan kosmoqonik rəvayətlər və kosmoqonik əfsanələr və s. şərti adlar altında danışırlar. Miflərdəki dərk olunmuş «mifik həqiqət» rəvayət və əfsanələrdə fantaziya şəklində izah olunur. Mifdəki fantaziya ünsürləri bədii prosesdə rəvayət və əfsanə mətnlərinə daxil olur, beləliklə, əfsanə və rəvayətlərdə gerçək hadisələrin fantastlaşdırılmış forması ilə qarşılaşırıq. Bu mənada S.Paşayevin M.Rəfilidən verdiyi sitat əfsanənin gerçəkliklə nə dərəcədə bağlı olmasını göstərir: «Ibtidai insanlar tarixi hadisələri bir hekayə şəklində bir-birinə nəql edərlər. Bu hadisələr getdikcə əfsanəyə çevrilərək, nəsildən-nəsilə, ölkədən ölkəyə keçir və yayılır» (3, s.14). Burada əfsanə müstəqil janr kimi mif və rəvayətdən yaranır. Məlum olduğu kimi, rəvayətdə də tarixi hadisələri əks etdirmək meyli vardır. Arxaik epikada epos düşüncəsindən ayrılan insanın düşüncəsinin məhsulu rəvayət şəklində yayılır. Lakin rəvayətin janr kimi formalaşması əfsanədən sonrakı prosesdir və bu proses davamedicidir. Bu barədə V.Y.Propp yazır ki, belə halda əfsanə «rəvayət» və yaxud «hekayət» terminlərinə yaxındır (8, s.376 – 379).

Mifdə olduğu kimi, əfsanələr də qapalı mühitdə yaranır. V.Y.Propp bu qapalı mühiti kəndli həyatı ilə əlaqələndirir və yazır ki, əfsanə kəndli dünyagörüşünü öyrənmək üçün son dərəcə qiymətlidir (8, s.376 – 379). O, xristian dinini təbliğ edən əfsanələri dini əfsanələr hesab edir. Lakin belə dini əfsanələrdən fərqli olaraq Azərbaycan dini əfsanələri, təkcə dini görüşləri deyil, dinin müqəddəsləşdirdiyi adamları qəhrəmana çevirir. Belə şəxslər şərə qarşı çıxır, ədaləti bərpa edir və s. (1, s.15,). Bəzən dini əfsanələrdə xeyir və şər motivlərindən, dünyanın yaranmasında Allahın rolundan, şeytanın hərəkətlərindən də bəh

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

mövzusuna görə kosmoqonik məzmunlu əfsanələrə yaxınlaşır. Əslində bunlar mövzusuna və ideyasına görə ən qədim əfsanələrdir. Dini əfsanələrdə xalqın sosial həyatı tərənnüm olunur və ümumi məişət problemləri həll edilir. Bu əfsanələrə tipoloji yöndən də yanaşmaq mümkündür. Dini və dünyəvi həyatı dərk etməyin psixoloji üsulları əfsanələrdə xüsusi yer tutur. Ictimai məzmunlu əfsanələr özünün utopik xarakteri ilə də seçilir. Əfsanələrdə utopiya yaxşı həyata əlçatmazlıq kimi ibtidai təfəkkürdə anlaşılaraq folklorda da əks olunur. Burada əfsanədə utopiya həm də konkret məzmunda olaraq arzudan doğur. R.H.Spenser ayrı-ayrı xalqların utopik səciyyəli əfsanələrini onları birləşdirən ayrı-ayrı cəhətlərə görə, həm də konkret xüsusiyyət və formalara görə milli sayır və bu əfsanələri xalqın özünün xarakterik inkişafı ilə müəyyənləşdirməyi vacib sayır (6, s.18; 93, s.14) .Məsələn, o, Ingilis folklorundakı dastanların xalqın milli inkişafına uyğun olaraq inkişaf etdiyini və bu dastanların kökündə əfsanələrin dayandığını söyləyir. Bu fikir Azərbaycan əfsanələrinə də aid ola bilər.

**ƏDƏBIYYAT**

1. Azərbaycan şifahi xalq ədəbiyyatı antologiyası. Bakı: Çaşıoğlu, 2004, 472 s
2. Çəmənzəminli Y.V. Əsərləri. III cild. Bakı: Elm, 1977, 327 s.
3. Paşayev S. Azərbaycan əfsanə və rəvayətlərinin ədəbi abidələrimizlə müqayisəli təhlili. Bakı: Nurlan, 2007, 308 s.
4. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı: Elm, 1972, 397 s.
5. Fərhadov F. «Koroğlu» dastanının Zaqafqaziya versiyasına dair / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. III kitab. Bakı, 1968, 194 s.
6. Robinson Herbert Spenser. Myths and legends of all nations. London, New York: Bentam Books, 1961, 307 p.
7. Белинский В.Г. Сочинение в трех томах. II том. М.: 1943, с.226 – 227.
8. Пропп В.Е. Русское народное поэтическое творчество. М., 1955, с.376 – 379
9. Мелетинский Е.М. Поэтика мифа. М.: Восточная литература, 2000, 407 с.

**Abstract**

In the article it is dealt with heroism epos living in the mythological consciousness for years becoming stable and it developed till the epos falling to the myth, legend, tale, and epos renew then. It is shown that closeness between myth and legend welds from the epos. It is noted that the arising myth and legend without epos is impossible. Influence of the mythological thought is shown in arising of the heroism eposes, this mythological consciousness appears variously in the folk-lore of the different people.

**Key words:** epos, myth, legend, mythological consciousness, tale

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## “KITABI-DƏDƏ QORQUD” DASTANINDA ADLIQ HALLI FELI BIRLƏŞMƏLƏRIN INKIŞAFI TARIXINDƏN

***ZÖHRƏ NƏBIYEVA***

Türkoloji dilçilik ənənəsinə görə, “feli birləşmələr” adı ilə onların qeyri- predikativ formaları nəzərdə tutulur və onlar predikativ feli birləşmələrdən, yəni cümlə tipli birləşmələrdən fərqləndirilir. Azərbaycan dilində feli birləşmələr fonunda onların növlərindən biri olan adlıq hallı feli birləşmələr tarixən müəyyən inkişaf yolu keçmişdir. Bütünlüklə feli birləşmələr kimi, adlıq hallı feli birləşmələrin də inkişafı azərbaycan dilinin qramatik quruluşunun inkişafının müəyyən cəhətlərini görməyə kömək edir.

Adlıq hallı feli birləşmələrin formalaşması və inkişafı onların əmələ gəlməsində əsas söz formaları kimi iştirak edən məsdər, feli sifət və feli bağlamalarla əlaqədardır. Bu formalar bu və ya digər səviyyədə Azərbaycan dilinin bizə məlum olan yazılı mənbələrinin hamısında işlənmişdir. Biz bu məqalədə “Kitabi- Dədə Qorqud” dastanının dilində işlənmiş adlıq hallı feli birləşmələrdən bəhs edirik.

Əvvəldən deyək ki, “Kitabi- Dədə Qorqud” dastanlarının dilində adlıq hallı feli birləşmələr çox işlənilir.

“Kitab”ın əvvəlindən götürülmüş hissələrə nəzər salmaqla bunu görmək olar.

Allah- allah diməyincə işlər onmaz.
Qadir tanrı verməyincə, ər bayımaz.
Əzəldən yazılmasa, qul başına qəza gəlməz.
Əcəl vədə irməyincə kimsə ölməz...
Ər, malına qıyamayınca, adı çıqmaz.
Qız anadan görməyincə, ögid olmaz.
Oğul atadan görməyincə, süfrə çəkməz. (səh. 31)
At yeməyən acı otlar (bitincə) bitməsə, yek.
Adam içməyən acı sular sızınca sızmasa, yek.
Ata adını yürütmiyən xoyrat oğul
Ata belindən enincə enməsə, yek,
Ata rəhmətinə düşüncə, toğmasa, yek.
Ata adın yüridəndə dövlətlü oğul yek.
Yaman söz bu dünyada olınca, olmasa, yek. (səh. 32)

Bu misallar “Kitabi-Dədə Qorqud”un üç səhifəlik giriş hissəsindəki şerlərdən götürülmüşdür. Əsərin birinci boyunun başlağıcındakı bir şer parçasına da diqqəti cəlb etmək istəyirik:

Salqum-salqum tan yelləri əsdigində,
Saqallı boz ac turğay sayradıqda,
Saqalı uzun tat əri banladıqda,
Bədəvi atlar issini görüb oğradıqda,
Ağlı, qaralı seçən çağda,
Köksi gözəl qaya taclara gün degəndə,
Bək yigidlər çılasınlar bir- birinə qoyulan çağda. (səh.34)

Göründüyü kimi, yeddi misralıq şerin, bir misrası istisna olmaqla, misraların hamısında adlıq hallı feli birləşmələr işlənmişdir. Biz bu cəhəti xüsusi olaraq vurğulayırıq ki, azərbaycan dilində oln başqa mənbələrdə adlıq hallı feli birləşmələrdən istifadə bu qədər geniş deyil. “Kitabi-Dədə Qorqud”un dilində adlıq hallı feli birləşmələrin adi ifadə vasitələrindən olmalarına və çox işlənməsinə baxmayaraq, indiyə kimi buna lazımi diqqət yetirliməmişdir.

“Kitabi-Dədə Qorqud” dastanı haqqında geniş tədqiqat işləri aparılmışdır. Xüsusən dastanın 1300 illik yubleyinin keçirilməsi ilə əlaqədar olaraq, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin qərarından sonra dastanın tədqiqi daha da intensiv hal almış, bir sıra elmi və papulyar əsərlər yazılıb çap olunmuşdur. Bunların sırasında dastanın dili haqqında yazılan əsərlər də var.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vaxtı ilə prof. Ə.M.Dəmirçizadə "Kitabi-Dədə Qorqud" dastanlarının dili" adlı monoqrafiya çap etdirmişdir. Azərbaycan MEA-nın Nizami adına Ədəbiyyat İnstitutu ilə Nəsimi adına Dilçilik İnstitutu "Kitabi-Dədə Qorqud"adlı məqalələr toplusu, Bakı Dövlət Universiteti "Dədə Qorqud- 1300" adlı məqalələr məcmuəsi çap etmişlər. Bu toplulardakı məqalələrin xeyli hissəsi dastanın dilinə aiddir. [337]

" Mən qara qoc atıma binmədin, ol binmək gərək. Mən qırıma varmçadan, o mana baş götürmək gərək".

Göründüyü kimi, bir misaldan başqa ( Bu halları gördükdə ) verilmiş misalların hamısı adlıq hallı birləşmələrdən ibarətdir: Çoban dikəc, bunlar edcək, oğlan yıxıldıqda, evim dikildikdə, ata əli durarkən, Beyrək gedəli, mən binmədin, mən varmadan.

Prof. Ə.Dəmircizadə bunları söz birləşmələri kimi, tabeli mürəkkəb cümlələrin budaq cümləri kimi təqdim edir. Yeri gəlmişkən, bunun səbəbi və alimin bu sahədəki mövqeyi haqqında bir neçə söz deməyi lazım bilir

Məsələ ondadır ki, 1950-ci illərə qədər Azərbaycan dilçiliyində ( eləcə də ümumən türkolokiyada ) məsdər, feli sifət və feli bağlama tərkibləri cümlə daxilində budaq cümlələr kimi təqdim edilirdi. 1950- ci illərdə tabeli mürəkkəb cümlələrin və feli tərkiblərin geniş elmi tədqiqi ilıə ələqədar bu məsələ də araşdırılmağa başlandı, müxtəlif fikirlər meydana gəldi, tərkiblərin budaq cümlə olub-olmaması məsələsində üç mövqe meydana çıxdı və dilçilər məsələyə münasibətdə üç yerə ayrıldılar. a) Dilçilərin bir qismi ənənə tərəfdarı olmaqla, bbütün hallarda feli tərkiblərin budaq cümlə hesab edilməsini əsas hesab etdilər. b) Dilçilərin ikinci qisminin fikri belə oldu ki, formasından və növündən asılı olmayaraq, tərkiblərbudaq cümlə kimi çıxış etmir. v) Dilçilərin üçüncü qismi orta mövqe tutdular. Onlar feli tərkiblərə differensial yanaşmağı lazım bildilər və belə hesab etdilər ki, bu məsələdə tərkibləri iki qrupa ayırmaq lazımdır: 1) adlıq halda ayrıca sözü olan tərkiblər, 2) adlıq halda sözü olmayan tərkiblər. Bu qrup dilçilərin fikrinə görə, adlıq halı o0lan tərkiblər ( yeni adlıq hallı feli birləşmələri ) budaq cümlə hesab edilməli, adləq halı olmayan tərkiblər isə budaq cümlə kimi çıxış edə bilmirlər. ( Bu bölgü haqqında ətraflı məlumat üçün bax: 4, səh.4).

Prof. Ə.Dəmirçizadənin "azərbaycan ədəbi dilinin tarixi" (birinci hissə) dərsliyində belə bir hissə var: "Kitabi-Dədə Qorqud" dastanlarının dili və üslubu haqqında" (6, səh. 104-140). Bu material müəllifin "Kitabi-Dədə Qorqud" dastanlarının dili" kitabının müəyyən hissələrinin təkrarıdır. Ancaq həmin kitabdan fərqli olaraq, burada "Söz birləşmələri" adlı qrafa verilmiş və 14 sətirlik həmin paraqrafda hər söz birləşmə növü haqqında bir cümlə verildiyi kimi, feli birləşmələrin adı çəkilir və misallar verilir: "fel birləşmələri: gedər oldu, Baqa çaldı, öldüri görgil, saya var... qova-qova, gedə-gedə, dönə-dönə, getdi ola, tutdu ola" (6, səh.120).

Verilmiş misalların bir qismi predkativ xüsusiyyət daşıyır (gedər oldu, öldüri görgi), əksəriyyəti isə söz birləşməsi deyil. Bu halda həmin hissədə adlıq hallı feli birləşmə haqqında məlumat görmək olmazdı.

"Kitabi-Dədə Qorqud" toplusundakı məqalələrdən iyirmi üçü dastanın dilinə aiddir. Bu məqalələr içində yalnız biri bizim əsərin mövzusu ilə bağlıdır. Aytən Aydın qızının "Kitabi-Dədə Qorqud"da feli bağlama tərkibinin işlənmə xüsusiyyətləri" məqaləsində (2, səh.249-254) feli bağlama tərkiblərinin formaları feli bağlama şəkilçiləri üzrə sadalanır və misallar verilir, tərkiblərin struktur xüsusiyyətləri araşdırılmır və təbii olaraq, adlıq hallı felibirləşmələr məsələsində də toxunulmur.

"Dədə Qorqud- 1300" məcmuəsində olan on dilçilik məqaləsindən biri bilavasitə feli birləşmələrlə əlaqədardır. J. M. Seyidov tərəfindən yazılmış həmin məqalə belə adlanır: "Kitabi-Dədə Qorqud" dastanlarının dilində feli tərkib və budaq cümlə paralelizmi" (3, səh.159-168). Adından göründüyü kimi, məqalə tərkiblərin bilavasitə təhlilinə həsr edilməmişdir, burada tərkiblərlə budaq cümlələrin qrammatik sinonimliyi məsələsi əsasında tutuşdurma aparılır, ona görə də təbiidir ki, birinci kompontlərinin ifadəsinə görə tərkiblərin quruluşu müəllifi maraqlandırmamışdır.

[337] ?Beyd: misallar bu nəşrdən götürülmüşdür: "Kitabi-Dədə Qorqud", "Bakı", "Ya

Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Adlıq haldakı söz və ya adlıq haldakı birləşmə- feli bağlama, feli sifət və ya məsdər.

Birinci, əsas tərəfi feli bağlama ilə ifadə olunan adlıq hallı feli birləşmələr. Feli bağlama formalarına görə bu birləşmələrin formları fərqlənir.

Əsas tərəfi ınca... şəkilçili feli bağlamalarla ifadə olunanlar: Axır zaman olub qiyamət qopınca bu didigi Osman nəslidir (səh.31). Əcəl və vədə irməyincə kimsə ölməz (səh. 31). Oğul atadan görməyincə süfrə çəkməz (səh. 31). Yalan söz bu dünyada olınca, olmasa, yek (səh. 31).

Əsas tərəfi dıqda... şəkilçili feli bağlamalarla ifadə olunanlar: Saqallu boz ac turqay sayradıqca, Saqalı uzun tatar əri banladıqda, Bədəvi atlar issini görüb oğradıqda... (səh. 34). Oğlan anda yığıldıqda Boz atlu Xızır oğlana hazır oldu (səh. 39).

Əsas tərəfi onda... şəkilçi feli bağlamalarla ifadə olunanlar: Qarla yağmur yağanda çaqmaqlu çoban! (səh. 43).Oğlum Uruz ox atanda puta qalmış, Oğuz bəgləri at çapanda meydan qalmış (səh. 44). Köksi gözəl qaya tağlar gün dəgəndə (səh. 34). Yağ töküləndə bal nemətlü. (səh. 34). Əsas tərəfi olı... şəkilçili feli bağlamalarla ifadə olunanlar: Ağam Beyrək gedəli yayladım yoq. Ağam Beyrək gedəli içərim yoq. (səh. 61). Ağam beyrək gedəli bizə ozan gəldügi yoq. (səh. 62). Mən bu yerdən gedəli dəlü olmaşsan, dəlim! (səh. 69). Sən gedəli ağılmağım kökdə yerə endi. (səh. 75). Əsas tərəfi madan... (mədin...) şəkilçili feli bağlamalrla ifadə olunanlar: Baba, mən yerimdən türmadın öl turmuş ola! Mən qaraqaç atıma binmədin öl binmiş ola! Mən qanlu kafər elinə varmadan öl varmış, mana baş gətürmüş ola! (səh.85).

Əsas tərəfi kən...şəkilçi feli bağlamarla ifadə olunanlar: Tatar oğlı əlimüzə girmişkən cəza ilə öldürəlim. (səh.74). Dəli Domrul qırq yigid ilən yeyib- içib oturarkən nagahandan Əzrayıl çıqa gəldi. (səh. 79). Gözüm görərkən, oğul, gəl səni evərəyim! (səh. 85). Günlərdə bir gün Yegnək oturub bəglər ilə söhbət edərkən Qaragünə oğlı Budağilə üz düşmədi. (səh. 94).

Əsas tərəfi kəc... şəkilçi feli bağlamalarla ifadə olunanlar: Anlar eylə digəc Atağuzlu Uruz qoca iki iki dizinin üstünə çəkdi. (səh. 42). Qazan bəg böylə digəc çoban aydır.

( səh.45.) Oğlan böylə dikəc bıldır-bıldır gözünün yaşı rəvan oldu

( səh.47.). Çoban böylə digəc Qazana qəhər gəldi. ( səh.45).

Əsas tərəfi cək... şəkilçim feli bağlamalarla ifadə olunur: Yegnək bu xəbəri eşitcək yürəki oynadı, qara bağrı sarsındı. ( səh.94). Bunlar böylə edicək Baybörə bəkin acığı tutdu. ( səh.54.). Əsas tərəfi dığında... şəkilçili feli bağlamalarla ifadə olunurlar: Salqum-Salqum tan yelləri əsdikdə... ( səh.34). Ölüm vəqti gəldükündə ari imandan ayırmasun! ( səhş122).

“ Kitabi-Dədə Qorqud”un dilində əsas tərəfi başqa formalı feli birləşmələr də var, lakin onların adlıq halda olan ayrıca sözləri yoxdur, yəni onlar adlıq hallı feli birləşmələr deyil. Məsələn: Dədə Qorqud gəlubən şadlıq çaldı ( səh.103). Bu cümlədə Dədəm Qorqud ifadəsi adlıq halda olub cümlənin mübtədası rolunda çıxış eedir və bilavasitə cümlənin xəbəri ilə bağlədər: Dədəm qorqud çaldı. Bu ifadə eyni zamanda, gəlübən feli bağlaması ilə əlaqədardır: Dədəm Qorqud gəlübən. Ancaq həmin ifadənin xəbərlə bağlılığı əsasdır, ona görə də gəlübən feli bağlaması tək qalır. Başqa bir misal: ol ökdikin yuğa tənri dost oluban mədəd irsun, xanım, hey! ( səh.33). burada adlıq halda olan tənri sözü həm oluban feli bağlaması ilə, həm də cümlənin mədəd versin xəbəri ilə bağlıdır. Xəbərlə bağlılıq əsas solduğuna görə, onun feli bağlama ilə əlaqəsi ortaya kecir və belə bir birləşmə qalır: dost oluban. Yeri gəlmişkən qeyd edək ki, dost oluban birləşməsinin dlıq hallı feli birləşməyə oxşatmaq olur. Belə birləşmələr yenə var, məsələn : Çağırıban dad verəndə yol çavuşlu (səh.63). Asmanlu kökdə qara bulut oluban kafərin üzərinə gürlayalım ( səh.76). kafərin qamış kibi od oluban yatırayım ( səh.76).

Dissertasiyanın müvafiq hissəsində bu tipli birləşmələrə münasibəti bildirildiyindən burada onlar haqqında ətraflı danışmağı lazım bilmirik.

Əsas tərəfi feli sifətlərlə ifadə olunan adlıq hallı feli birləşmələr də “Kitabi-Dədə Qorqud” dastanlarının dilində müəyyən yer tutur. Bunlar aşağıdakilardan ibarətdir.

Əsas tərəfi an, ən şəkilçili feli sifətlərlə ifadə olunurlar: Qonağı gəlməyən qara evlər yıxılsa, yek! Adam içməyən acı sular sızınsa, sızmasa, yek! ( səhş32). Qışda- yazda qarı-buzı ərimıyən Qazılıq tağına gəldi çatdı. ( səh.38). Heç yandıran çırağın yana tursun ( səh.41).

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əsas tərəfi feli sifətlərlə ifadə olunan adlıq hallı feli birləşmələr daha çox an, ən şəkilkçili feli sifətlərlə formalaşır. Bunlara aid daha bir neçə misal: Oğlı olanı ağ otağa, qızı olanı qızıl otağa, oğlı-qızı olmayanı allah-təala qarğayıbdırş ( səh39). Kimini doğdi, kiminin başın yartdı, qızlar oturan otağa gəldi. ( səh.64).

Heç ana! Ərəbi atlar olan yerdə
Bir qulunı olmazmı olur?
Qızıl dəvələr olan yerdə
Bir köşəki olmazmı olur?
Ağca qoyunlar olan yerdə
Bir quzıcığa olmazmı olur?

Əsas tərəfi feli sifətlərlə ifadə olunan adlıq hallı feli birləşmələrin formalaşmasında az da olsa, başqa feli sifət formaları da iştirak edir.

Dığı ... şəkilçili feli sifətlərlə: Şahbaz atlar içdiki su! Ağ qoyunlar gəlib çevrəsində yatdığı su! ( səh.44). Boybörənin oğlı oldığın bilmədilər. (səh.53). Ləşkər ver, babam tutsaq olduğu qələyə göndər. (səh.94). Ayaqlıqlar bura gəldigi yoq. (səh.55). Qazı ərənlər başına nə gəldigin söylədi. (səh.67). Mış... şəkilçili feli sifətlərlə: Ay əməli azmış, feli dönmüş qadir ağ alnına qada yazmış! (səh.56). Gördilər kim, uçarda quzğun qalmış tazı tolaşmış yurtda qalmış (səh.57). Maz... şəkilçi feli sifətlə: Zira ağlamaqdan gözləri görməz olmamış idi. (səh.66).

Açaq... şəkilçili feli sifətlərlə: Sən varacaq yerün tolamac-tolamac yolları olur. (səh.86).

Əsas tərəfi məsdərlə ifadə olunan adlıq hallı feli birləşmələr "Kitabi- Dədə Qorqud" dastanlarının dilində xüsusi yer tutur. Qeyd etmişdik ki, belələri müasir Azərbaycan dili üçün xarakterik deyil, "Dədə Qorqud"un dili üçün isə xarakterikdir. Müasir Azərbaycan dilində çox təsadüfi hallarda belə birləşmələrə təsadüf etmək olur. "Kitabi- Dədə Qorqud"un dili isə bunlar normaldır və çox işlənir. Məsələn, Oğul üçün ata ölmək eyb olur (səh.73). Qırx yigid bir bəg oğlilə bir qızdan otri ölmək . Ər ərdən adın nolur (87)

"Kitabi-Dədə Qorqud" dastanlarının dilində muasir Azərbaycan dilində ismi birləşmələrinin

Növləri olan ikinci və üçüncü növ təyini söz birləşmələri kimi formalaşan birləşmələrin feli birləşmə kimi formalaşma meyli var. Birləşmələrin belə formalaşmasında birləşmənin hər iki tərəfinən rolu özünü göstərir. Məsələn, " Basat Təpəgözü öldürdük boyu bəyan edir, xanım, hey!" boyunda söhbətin Basatın gəlişindən gedir və deyilir: Təpəgöz oldığı adlıq halı feli birləşmədir. Muasir Azərbaycan dilində belə birləşmələr Təpəgözün olduğu formasında qurulur. Bu variantda birləşmənin birinci tərəfinin yiyəlik halda olması ikinci tərəfdəki feli sifətdəki felliyi zəiflədir, onun sifətliyini gücləndirir, subetantivləşmə gedir, beləliklə, adlıq halda olan sözün fellə birləşməsi yerinə yiyəlik haldakı ismin mənsubiyyət şəkilçili feli sifətlə birləşməsi alınır: Təpəgöz oldığı – Təpəgözün olduğu. Aşağıdakı misalşllara da belə yanaşmaq olar.

Oxla ol qılıc asılan zənciri urdu ( səh.102 ).

Allah verən ümüdin üzülməsi ( səh. 109).

Ağam tutulan qələyə varmayınca, ağamın ölüsün-dirisin bilməyincə, öldisə, qanın almayınca, Qalın Oğuz elinə gəlməkim yox! ( səh. 112).

Ol, qardaşı tutılan qoruya gəldi ( səh. 113).

Mən babam tutsaq, olduğu qələyə gedirəm ( səh. 119).

Atam-anam vediki ( səh 38).

Kəsilsun oğlan əmən süd tamarın yaman qızlar ( səh.38).

Bu birləşmələri müasirləşdirsən, belə olar:

Qılınc asılan_______________ qılıncın asıldığı;
Allah verən _________________ Allahın verdiyi;
Ağam tutulan___________________ Ağamın tutulduğu;
Qardaşı tutulan_______________ Qardaşımın tutulduğu;
Babam tutsaq oldığı _________ Babamın dutsaq olduğu;
Atam-anam verdiki __________ atamın-anamın verdiki;
Oğlan əmən _________________ oğlanın əmdiyi.

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## KONFRANSIN İŞTIRAKÇILARI

**Abdulkadir İnaltekin** – *Türk-Azerbaycan Edebiyatı ve Halk Bilimi, „Muğam“ medeniyyet merkezi, Almaniya*
**Ahmet İçli -** *Yrd. Doç. Dr., Ardahan Üniversitesi, Türkiyə*
**Ahmet Kolbaşi –** *Doç. Dr, Balıkesir Üniversitesi, Türkiyə*
**Alaattin Aköz –** *Doç. Dr., Selçuk Üniversitesi, Türkiyə*
**Almaz Ülvi (Binnətova) –** *filologiya elmləri doktoru, AMEA Nizami adına Ədəbiyyat İnstitutu, Azərbaycan*
**Almaz Hüseynova** – *filologiya üzrə fəlsəfə doktoru, dosent, Bakı Qızlar Universiteti, Azərbaycan*
**Anatoliy Momrik –** *Ukrayna Milli Elmlər Akademiyası M.Rılski adına Sənətşünaslıq, folklor və etnologiya İnstitutu, Ukrayna*
**Asif Haciyev –** *filologiya yzrə fəlsəfə doktoru, dosent, AMEA Folklor İnstitutu, Azərbaycan*
**Avtandil Ağbaba** – *filologiya üzrə fəlsəfə doktoru, dosent, Sumqayıt Dövlət Universiteti, Azərbaycan*
**Bakıtqul Ꝗuljanova** – *filologiya yzrə fəlsəfə doktoru, dosent, Əl-Fərabi adına Qazax Milli Universiteti*, *Qazaxıstan*
**Bayram Durbilmez –** *Doç.Dr., Erciyes Üniversitesi, Türkiyə*
**Boris Tetuev** – *filologiya elmləri doktoru, professor, Kabardin-Balkar Dövlət Universiteti, Rusiya*
**Çetin Yildiz -** *Arş. Gör., Adıyaman Üniversitesi, Türkiyə*
**Çulpan Zaripova Çetin -** *Yard. Doç. Dr., Muğla Üniversitesi, Türkiyə*
**Əbdüləli Mücazi (Aslan) -** *Güney Mədəniyyət Ocağı, İran*
**Elçin Qaliboğlu (Imaməliyev) –** *AMEA Folklor İnstitutu, Azərbaycan*
**Eldar Hacıyev** – *filologiya elmləri doktoru, professor, Dağıstan Dövlət Pedaqoji Universiteti, Rusiya*
**Elnarə Qaragözova –** *Bakı Slavyan Universiteti, Azərbaycan*
**Elnur Əliyev –** *Tbilisi Dövlət Universitetinin Qafqazşünaslıq İnstitutu, Gürcüstan*
**Elxan Yurdoğlu (Məmmədov) –** *AMEA Folklor İnstitutu, Azərbaycan*
**Ənvər Uzun –** *Dr., Milli Eğitim Bakanlığı, Türkiyə*
**Əpoş Vəliyev** – *AMEA Folklor İnstitutu, Azərbaycan*
**Əli Bərazandə Türk -** *Güney Azərbaycan el-bilimi fondu, İran*
**Əli Kərimbəyli –** *AMEA Folklor İnstitutu, Azərbaycan*
**Əli Məmmədbağiroğlu** – *filologiya üzrə fəlsəfə doktoru, AMEA Füzuli adına Əlyazmalar İnstitutu, Azərbaycan*
**Azim Sahatimehr –** *Prof.Dr***.,** *Bonab Islamic Azad University, İran*
**Elmira Məmmədova** – *filologiya üzrə fəlsəfə doktoru, AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Azərbaycan*
**Əkbər Dövlətşahi –** *Güney Azərbaycan el-bilimi fondu, İran*
**Fatih Kanter –** *Yrd. Doç. Dr., Ardahan Üniversitesi, Türkiyə*
**Fərəh Cəlil –** *filologiya üzrə fəlsəfə doktoru, dosent, Bakı Slavyan Universiteti, Azərbaycan*
**Fəxrəddin Baxşəliyev –** *AMEA Folklor İnstitutu, Azərbaycan*
**Füzuli Bayat –** *filologiya elmləri doktoru, AMEA Folklor İnstitutu, Azərbaycan*
**Hikmət Quliyev –** *AMEA Folklor İnstitutu, Azərbaycan*
**İbadət Rüstəmov –** *Bakı Slavyan Universiteti, Azərbaycan*
**İlhami Cəfərsoylu –** *filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan*
**Ilgar Kasumov (Gasimov) –** *Krımtatar dili və ədəbiyyatı elmi-tədqiqat İnstitutu, Ukraina*
**İmperiət Xalipaeva** – *filologiya elmləri doktoru, professor*, *Dağıstan Dövlət Pedaqoji Universiteti, Rusiya*
**Islam Sadıq -** *filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Jalə Ismayılova –** *AMEA Nizami adına Ədəbiyyat İnstitutu, Azərbaycan*
**Jalə Qarayeva –** *İstanbul Aydın Universiteti, Türkiyə*
**Kakajan Janybekow** *– Türkmənistan Elmlər Akademiyası, Əlyazmalar İnstitutu, Türkmənistan*
**Kemal Üçüncü -** *Doc. Dr., Karadeniz Teknik Üniversitesi, Türkiyə*
**Kenan Zıya Taş –** *Prof.,Dr., Balıkesir Üniversitesi, Türkiyə*
**Kürşat Öncül -** *Yrd.Doç.Dr., Kafkas Üniversitesi* **,** *Türkiyə*
**Lale Avşar Iskenderzade** *– öğretim görevlisi*, *Selçuk Üniversitesi*, *Türkiyə*
**Ləman Bayramova** *– AMEA Nizami adına Ədəbiyyat İnstitutu, Azərbaycan*
**Ləman Süleymanova –** *filologiya üzrə fəlsəfə doktoru, AMEA Folklor İnstitutu, Azərbaycan*
**Maarifə Hacıyeva –** *filologiya elmləri doktoru, professor, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan*
**Məryəm Səbri –** *AMEA Folklor İnstitutu, Azərbaycan*
**Məshəti İsmayıl** *– AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Folklorşünaslıq Şöbəsi, Azərbaycan*
**Möhsün Nağısoylu –** *filologiya elmləri doktoru, AMEA Füzuli adına Əlyazmalar İnstitutu, Azərbaycan*
**Məhəmməd Əlipur Muqəddəm –** *araşdırma görəvlisi, İran*
**Mehmet Okur –** *Doç.,Dr., Karadeniz Teknik Üniversitesi, Türkiyə*
**Mustafa Sever –** *Doç. Dr., Qazi Universitesi, Türkiyə*
**Mehmet Turmuş** *– Bakı Qafqaz Universiteti, Azərbaycan*
**Mübariz Süleymanlı** *– fəlsəfə doktoru, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan*
**Nail Qurbanov -** *AMEA Folklor İnstitutu, Azərbaycan*
**Necati Demir –** *Prof.,Dr., Gazi Üniversitesi,Türkiyə*
**Nizami Tağisoy –** *filologiya elmləri doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan*
**Özden Aykaç –** *Doğu Akdeniz Üniversitesi, KKTC*
**Qalib Sayılov –** *AMEA Folklor İnstitutu, Azərbaycan*
**Qara Namazov –** *filologiya elmləri doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan*
**Qumru Şəhriyar –** *AMEA Folklor İnstitutu, Azərbaycan*
**Ramazan Korkmaz –** *Prof.,Dr., Ərdəhan Universiteti, Türkiyə*
**Ramazan Qafarli –** *filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan*
**Rövşən Əlizadə –** *filologiya üzrə fəlsəfə doktoru, Ərdəhan Universiteti, Türkiyə*
**Roza Eyvazova –** *filologiya elmləri doktoru, professor, AMEA Nəsimi adına Dilçilik İnstitutu, Azərbaycan*
**Samilə Xurdamieva –** *filologiya üzrə fəlsəfə doktoru, dosent, Dərbənd Dövlət Universiteti, Rusiya*
**Sara Abdullazadə –** *Bakı Slavyan Universiteti, Azərbaycan*
**Sebahattin Şimşir –** *Doç. Dr., Balıkesir Üniversitesi, Türkiyə*
**Səbinə Isayeva –** *filologiya üzrə fəlsəfə doktoru, AMEA Folklor İnstitutu***,** *Azərbaycan*
**Sədaqət Həsənova –** *filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Müəllimlər İnstitutu, Azərbaycan*
**Sədnik Paşa Pirsultanlı -** *filologiya elmləri doktoru, professor, Gəncə Dövlət Universiteti, Azərbaycan*
**Səfa Qarayev –** *AMEA Folklor İnstitutu, Azərbaycan*
**Sənubər Abdullayeva –** *filologiya elmləri doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan*
**Sevindik Vəliyev -** *filologiya elmləri doktoru, professor,Naxçıvan Dövlət Universiteti, Azərbaycan*
**Səyyarə Qasımova –** *AMEA Nizami adına Ədəbiyyat İnstitutu, Azərbaycan*
**Şakir Albalıyev -** *filologiya üzrə fəlsəfə doktoru, AMEA Folklor İnstitutu, Azərbaycan*
**Seyfəddin Altaylı** *– TRT, Türkiyənin səsi, Azərbaycan bölməsi, Türkiyə*
**Şurəddin Məmmədli -** *filologiya elmləri doktoru, professor, Ərdəhan Universiteti, Türkiyə*
**Tofiq Hacıyev –** *akademik, AMEA Folklor İnstitutu, Azərbaycan*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

**Ülkər Əliyeva -** *filologiya üzrə fəlsəfə doktoru***,** *AMEA Folklor İnstitutu***,** *Azərbaycan*
**Ülkər Nəbiyeva -** *filologiya üzrə fəlsəfə doktoru, Bakı Dövlət Universiteti, Azərbaycan*
**Vügar Sultanzade** - *Öğretim Üyesi, Doğu Akdeniz Üniversitesi, KKTC*
**Xəyalə Əliyeva** – *AMEA Folklor İnstitutu, Azərbaycan*
**Yadigar Əliyev -** *filologiya üzrə fəlsəfə doktoru, dosent, Gəncə Dövlət Universiteti, Azərbaycan*
**Yaqub Babayev -** *filologiya elmləri doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan*
**Yaşar Kalafat –** *Dr., Halkbilim araştırmalar merkezi, Türkiyə*
**Yaşar Qasımbəyli** - *filologiya üzrə fəlsəfə doktoru, AMEA Folklor İnstitutu, Azərbaycan*
**Ziyafət Hüseynova** – *Bakı Qafqaz Universiteti, Azərbaycan*
**Zöhrə Nəbiyeva -** *filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan*

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# MÜNDƏRİCAT


- **«ORTAQ TÜRK KEÇMİŞİNDƏN ORTAQ TÜRK CƏLƏCƏYİNƏ» VI BEYNƏLXALQ FOLKLOR KONFRANSINDA AMEA-nın PREZİDENTİ AKADEMİK MAHMUD KƏRİMOVUN AÇILIŞ NİTQİ.........4**
- **AMEA FOLKLOR İNSTİTUTUNUNDİREKTORU, F.E.D., PROFESSOR HÜSEYN İSMAYILOVUN «ORTAQ TÜRK KEÇMİŞİNDƏN ORTAQ TÜRK GƏLƏCƏYİNƏ» VI ULUSLARARASI FOLKLOR KONFRANSININ İŞTİRAKÇILARINA MÜRACİƏTİ......6**
- ***ABDULKADİR İNALTEKİN.*** Sosyolojik açından Türk halk edebiyatında ağit destanlar….8
- ***AHMET IÇLI***. Fenomenolojik açıdan "Kazan begün oğlu Uruz begün tutsak olduğu boy"un içerik düzlemi üzerine bir inceleme.........19
- ***AHMET KOLBAŞI.*** "Çanakkale şehitlerine " isimli destanda yer alan tarih ve medeniyet olguları üzerine bir değerlendirme.........29
- ***Akifə Xəlilova (Nemətova)***. "Azərbaycan və ətraf ölkələrin folkloru" litoqrafik materiallarındakı epik mətnlər.........34
- ***ALAATTIN AKÖZ.*** Tarihi bilginin inşasında menkibe ya da efsaneler…......……37
- **ALMAZ ÜLVİ (BINNƏTOVA)**. Folklor dünyasının ciğatay (özbək) fəslində dastan janrı və Azərbaycan folklorşünaslığında tədqiqi.........47
- ***ALMAZ HÜSEYNOVA.*** İren melikoffun Türk dastanları ilə bağlı araşdırmaları.........54
- ***АНАТОЛИЙ МОМРИК.*** Воссоединение украинской думы и тюркского дестана в xxı веке: кинематография олеся санина.........61
- ***ASIF HACIYEV.*** "Dədə Qorqud kitabi"nın girişində işlənmiş bəzi arxaizmlərin açımı.........66
- ***AVTANDIL AĞBABA***. Ağbaba-Çıldırda dastan yaradıcılığına dair (aşıq şenliyin "Lətif şah" dastanı əsasında)……..71
- ***БАКЫТГУЛ ҚҰЛЖАНОВА.*** Сопылықтың оғдұрмыш бейнесінде көрініс табуы (жүсіп баласағун. «кутадғу билиг» XI ғасыр).........76
- ***BAYRAM DURBİLMEZ***. Hakas türklerinin kadın yiğitlik destanı Huban ariğ'da mitolojik bir anı dokuz.........80
- ***БОРИС ТЕТУЕВ.*** Трансформация жанра дастана в творчестве Кязима Мечиева («Бузжигит»).86
- ***ÇETIN YILDIZ.*** Türk destanlarındaki motiflerin milli kimliği belirlemedeki rolü, Battal Gazi destanı örneği.........94
- ***ÇULPAN ZARİPOVA ÇETİN.*** Tatar destanlarında inançlar……...100
- ***ƏBDÜLƏLI MÜCAZI (ASLAN).*** Şəbestərli Hüseyn pəhləvanın Heydər Abad səfəri "....109
- ***ELÇIN QALIBOĞLU (İMAMƏLIYEV).*** «Koroğlu» dastanı ilə bağlı xalq əfsanələrində mifoloji qat.........116
- ***ЭЛЬДАР ГАДЖИЕВ***. Сюжетно-композиционные особенности дастана как средства выражения авторского мировоззрения.........122
- ***ELNARƏ QARAGÖZOVA.*** Azərbaycan dastanlarında möcüzəli alma obrazı və alma verən dərviş obrazı haqqında mülahizələr.........127
- ***ЭЛЬНУР АЛИЕВ.*** Азербайджанские дастаны в грузинской культурной среде XVIII-X в.в.........131
- ***ELXAN YURDOĞLU (MƏMMƏDOV).*** Azərbaycan dastanlarında bayatılar.........133
- ***ƏNVƏR UZUN***. Trabzon'da "Şah İsmail destanı".........138
- ***ƏPOŞ VƏLIYEV.*** Müasir Azərbaycan poeziyasında dastan poetik sistemi.........142
- ***ALI BERAZENDE TÜRK..*** Iran Türk Folklor Araştırma Tarihi Ve Öncülerine Kisa Bir Bakiş....146
- ***ƏLİ KƏRİMBƏYLİ.*** "Altın-arığ" bahadırlıq eposunun söyləyici- xayçıları.........150
- ***ƏLI MƏMMƏDBAĞIROĞLU.*** "Koroğlu" dastanına aid əlyazma nüsxələri.........156
- ***AZIM SAHATIMEHR .TOHID SAHATIMEHR. KARIM MOSSAZADEH.*** Protection and conservation of folklore and cultural heritage for regional cooperation……...161
- ***ELMİRA MƏMMƏDOVA.*** Dastan ənənəsi kontekstində klassik vücudnamələr (Güney Azərbaycandan toplanmış yeni örnəklər).........


Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- ***ƏKBƏR DÖVLƏTŞAHİ.*** Koroğlu himasəsi........................................................173
- ***FATİH KANTER.*** . Modern anlati-destan ilişikisinin arketipsel sembolizm Açısından incelenmesi........................................................184
- ***FƏRƏH CƏLIL.*** Türk və skandinav eposlarında dünyanın üçlü Modelini ehtiva edən kosmoqonik ünsürlər........................................................189
- ***FƏXRƏDDİN BAXŞƏLİYEV.*** "Koroğlu" dastanının bəzi mətnlərində
- Təsəvvüf elementləri........................................................192
- ***FÜZULİ BAYAT.*** Əski türk abidələrinin yaranmasında dastan Təfəkkürü və dastan üslubu....198
- ***HÜSEYN İSMAYILOV.*** "Koroğlu dastanı: mif, tarix və epos........................................203
- ***HİKMƏT QULİYEV.*** Arxetip anlayış və epik ənənədə müdrik qoca arxetipi..............217
- ***İBADƏT RÜSTƏMOV.*** «Kitabi-Dədə Qorqud»da qaravəlli.................................219
- ***İLHAMİ CƏFƏRSOYLU.*** Türk dastanlarının alp igidləri xett və Urartu panteonunda tanrı oğulları kimi........................................................221
- ***ILGAR KASUMOV (GASIMOV).*** «Koroğlu»niñ yañi qirimtatar versiyasiniñ ñeşri problemleri........................................................226
- ***ИМПЕРИЯТ ХАЛИПАЕВА.*** Фольклорно-литературные памятники тюркского эпоса. Образы женщин........................................................231
- ***İSLAM SADIQ.*** Şumer və türk yaradiliş dastanlari....................................................235
- ***JALƏ İSMAYILOVA.*** Ruminiya türklərinin dastanlarinda igid və at motivləri...........244
- ***JALƏ QARAYEVA.*** "Kitabi-Dədə Qorqud" dastanında yer alan obrazlarin semantikasi......247
- ***KAKAJAN JANYBEKOW.*** Andalybyň "ýusup-züleýhä" dessanynyň dil aýratynlygy..... 250
- ***KEMAL ÜÇÜNCÜ.*** Oğuz kağan destaninda epik tefekkür bağlaminda zaman ve mekân anlayişi........................................................253
- ***KENAN ZIYA TAŞ.*** Âşık paşazâde tarihinde destani unsurlar: osman gazi dönemi.... 263
- ***KÜRŞAT ÖNCÜL.*** Türk dünyası destanlarındaki olumsuz kahramanın temel nitelikleri......268
- ***LALE AVŞAR İSKENDERZADE.*** Dede korkut destani'nin çağdaş azerbaycan sanatinda yeri........................................................272
- ***ЛЯМАН БАЙРАМОВА.*** Проблема изучения дастанов в научной Деятельности шихали Курбанова........................................................276
- ***LƏMAN SÜLEYMANOVA.*** Dəli domrul motivləri xalq yaradıcılığında (Şəkidən qeydə aldiimiz folklor materiallari əsasinda)........................................................278
- ***MAARİFƏ HACIYEVA.*** Türk dastanlarinda işlənən bəzi termin və ortaq kəlmələrin açiqlanmasi........................................................283
- ***MƏRYƏM SƏBRİ.*** "Kitabi-dədə qorqud" dastani "varliq" jurnalinda........................ 288
- ***MƏHSƏTI İSMAYIL.*** Dastanlarda və gəmiqaya təsvirlərində maral obrazinin ifadəsi..... 293
- ***MÖHSÜN NAĞISOYLU.*** Xalq hekayəti "düzd və qazi" haqqinda.............................297
- ***MƏHƏMMƏD ƏLİPUR MUQƏDDƏM.*** Aşiq qurbani ilə Pəri xanim (Təbriz türü)..302
- ***MEHMET OKUR.*** Halkevlerinin kültür faaliyetlerinde epik gelenekten yaralanilmasi meselesi...327
- ***MUSTAFA SEVER.*** Köroğlu destaninin Azerbaycan kolundaki kahraman ve karşi kahraman tipleri üzerinde değerlendirme........................................................335
- ***MEHMET TURMUŞ.*** Türk epik ənənəsində dini dastanlarin yeri: "Battal Qazi" dastanı.... 339
- ***MÜBARIZ SÜLEYMANLI.*** Sənət sahələrinin dastan ifaçiliğindaki Sinkretizminə kulturoloji bir baxiş........................................................344
- ***NAIL QURBANOV.*** Arxaik türk dastanlarinin mifoloji-kosmoqonik mahiyyətinə dair... ....351
- ***NECATI DEMİR.*** Ortak Türk geçmişinden ortak Türk geleceğine…………………...355
- ***NİZAMİ TAĞISOY.*** Türk xalq dastanlari qaraçay-malkar «nart» Dastanlarina bir nəzər........................................................366
- ***ÖZDEN AYKAÇ.*** Güngör dilmen'in deli dumrul ve haldun taner'in keşanli ali destani adli oyunlarında destan motifleri........................................................370
- ***QALİB SAYILOV.*** Şirvan dastanlarının janr səciyyəsi; aşiq Rəvayətləri və aşiq əhvalatları….374
- ***QARA NAMAZOV.*** Qədim dastanlarin izləri........................

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

- ***QUMRU ŞƏHRİYAR.*** Qardaş türk dastanlarinin «Dədə Qorqud» Toplusunda çap təcrübəsindən..........384
- ***RAMAZAN QAFARLI.*** Azərbaycan-Türk mifoloji dünya modelinin Rekonstruksiya qaynaqları..........390
- ***RÖVŞƏN ƏLIZADƏ.*** Tuva və şor qəhrəmanliq dastanlarinda mifoloji motivlər..........396
- ***ROZA EYVAZOVA.*** «Kitabi-Dədə Qorqud» dastani və türk qadini mənəviyyati.......402
- ***САМИЛЯ ХУРДАМИЕВА.*** Формы отражения реальной действительности и сюжетно-жанровая специфика дагестанских дастанов..........408
- ***SARA ABDULLAZADƏ.*** Türk epik ənənəsində kişi tipajlari və qadina münasibət
- (“Kitabi-Dədə Qorqud” və dastanın müasir versiyası sayılan K.Abdullanın “Yarımçıq əlyazma” romanı əsasında)..........412
- ***SEYFƏDDIN ALTAYLI.*** Aşıq şikarı dastaninda işlədilən xalq deyimləri ..........416
- ***SEBAHATTİN ŞİMŞİR.*** Türk destan şairi niyaz yıldırım gençosmanoğlu’nun malazgirt destanı ve tarihi açıdan değerlendirilmesi..........420
- ***SƏBİNƏ İSAYEVA.*** XX əsr dastan yaradıcılığında klassik ənənələr (aşıq şəmşirin yaradıcılığı əsasında)..........423
- ***SƏDAQƏT HƏSƏNOVA*****.** Azərbaycan dastanlarinin dil-üslub xüsusiyyətləri..........429
- ***SƏDNİK PAŞA PİRSULTANLI.*** Azərbaycan xalq dastanlari nizami gəncəvi və Üzeyir Hacıbəyli yaradiciliğinda..........433
- ***SƏFA QARAYEV.*** Türk epik ənənəsində xaos anlayişi və onun semantikasi (yaradılış dastanı əsasında)..........436
- ***SƏNUBƏR ABDULLAYEVA.*** Dastan dilinin bəzi linqvistik xüsusiyyətləri..........439
- ***SEVINDIK VƏLIYEV.*** “Kitabi-Dədə Qorqud” dastanlarinin dilində sadə cümlə məsələsinə dair..........446
- ***SEYFƏDDIN RZASOY.*** Oğuz mifologiyasında fratrial əcdad paradiqması..........450
- ***SƏYYARƏ QASIMOVA.*** Aşıq Hüseyn Bozalqanlının dastan yaradıcılığı..........458
- ***ŞAKIR ALBALIYEV.*** Dastan yaradıcılığında ifaçının rolu..........461
- ***ŞURƏDDIN MƏMMƏDLİ.*** “Dədə Qorqud”un Borçalı izləri..........465
- ***TOFIQ HACIYEV.*** Dastanımızın adı haqqında..........469
- ***ÜLKƏR ƏLIYEVA.*** Aşıq Qərib dastanının tədqiq tarixinə bir nəzər (“AYB” materialları əsasında)..........471
- ***ÜLKƏR NƏBIYEVA.*** Ozan yaradıcılığında «Dədə Qorqud» süjetinin formalaşmasına dair. 475
- ***VÜGAR SULTANZADE.*** Domrul adının kökeni ve Deli Domrul boyunda bazı Motiflerin kaynağı üzerine..........479
- ***XƏYALƏ ƏLİYEVA.*** Məhəbbət dastanları Məmmədhüseyn Təhmasibin araşdırmalarında..........483
- ***YADIGAR ƏLIYEV.*** Qədim Türk dövründən orta Türk dövrünə keçid: Türk epos ənənəsi və dil..........488
- ***YAQUB BABAYEV.*** XII-XIV əsrlər ana dilli epik şeirimizdə Dastan motivləri..........491
- ***YAŞAR KALAFAT.*** Destanî katmanlaşma sürecinde Türk kültürlü Halklarda kadin teması ile lgili inançlar (türk halk inançlarinda kadin)..........496
- ***YAŞAR QASIMBƏYLI.*** Epos mədəniyyəti: eposun genezisi və poetikası..........504
- ***ZIYAFƏT HÜSEYNOVA.*** Epos düşüncəsində mif, əfsanə və rəvayət yaradıcılığı......507
- ***ZÖHRƏ NƏBIYEVA.*** “Kitabi-Dədə Qorqud” dastanında adlıq hallı feli birləşmələrin inkişafı tarixindən..........511
- Konfransın İştirakçıları..........516


Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional